XƏLİL İSMAYILOV

# AZƏRBAYCAN RESPUBLİKASINDA KİTABXANA İŞİNİN METODİK TƏMİNAT SİSTEMİNİN İNKİŞAF TARİXİ

BAKI -2000

# G İ R İ Ş

Müstəqil və suveren Azərbaycan dövlətinin yaranması xalqımızın həyatında böyük tarixi hadisədir.

Müstəqillik şəraitində respublikamızın sosial-iqtisadi inkişafı, Azərbaycan xalqının elmi-texniki və mə'nəvi potensialının güclənməsi, milli mədəniyyətimizin hərtərəfli tərəqqisi üçün geniş imkanlar açılmışdır.

90-cı illərin ikinci yarısından ölkədə demokratiyanı genişləndirmək, hüquqi, dünyəvi dövlət yaratmaq, elm, iqtisadiyyat və mədəniyyətimizi daha da inkişaf etdirmək üçün dövlət səviyyəsində səmərəli tədbirlər həyata keçirilməyə başlanılmışdır. Belə tədbirlər içərisində cəmiyyətin sosial-iqtisadi və ümummədəni səviyyəsinin yüksəldilməsinə yönəlmiş informasiya tə'minatı xüsusi əhəmiyyət kəsb edir. Bu isə elm, mədəniyyət, təhsil, mətbuat orqanları ilə yanaşı, kitabxanaların da qarşısında çox mühüm vəzifələr qoyur.

1995-ci ildə qəbul olunmuş Azərbaycan Respublikası Konstitusiyası cəmiyyətə xidmət edən bütün sosial institutların öz fəaliyyətini demokratik prinsiplər əsasında yeniləşdirməsi üçün hüquqi baza yaratmışdır. Bu ali dövlət sənədində cəmiyyət üzvlərinin mədəni tə'sisatlardan və mədəni sərvətlərdən istifadə etmək, eləcə də informasiya əldə etmək hüquq və vəzifələrinə xüsusi diqqət yetirilir. Cəmiyyətin mühüm mədəni tə'sisatı, mədəni sərvəti və informasiya bazası olan kitabxanalar müasir dövrdə olduqca mürəkkəb sosial funksiyaları yerinə yetirməklə əhalinin mütaliə mədəniyyətinin formalaşmasına səmərəli tə'sir göstərirlər.

Bəşər sivilizasiyasının ən böyük nailiyyətlərindən olan kitab mədəni irsin, xalqın mə'nəvi sərvətinin qiymətli bir hissəsi, yazı və dilin, ədəbiyyat və incəsənətin, elm və texnikanın, cəmiyyətin intellektual potensialının inkişafının qüdrətli vasitəsi kimi nəsildən-nəslə məhz kitabxanalar vasitəsilə çatdırılır.

Kitabxanalar əsrlər boyu kitab sərvətini toplayıb mühafizə edərək, onlardan cəmiyyətin istifadəsini tə'min etmək üçün zəngin və rəngarəng iş üsulları yaratmışdır.

Azərbaycanda kitabxanaçılıq peşəsi müasir səviyyəyə çatana qədər mürəkkəb bir yol keçərək XX əsrdə cəmiyyətin müasir informasiya tələbatına əsasən cavab verən bir sosial kommunikasiya sistemi kimi formalaşa bilmişdir.

Hazırda kitabxanalar xalqın və dövlətin elmi, mədəni-mə'nəvi inkişafının çox mühüm atributu kimi yeni inkişaf mərhələsinə qədəm qoyur. Müasir dövrdə kitabxana işi cəmiyyətin informasiyalaşdırılmasının ən mühüm vasitələrindən biri kimi getdikcə mürəkkəbləşən, müasir texnika və texnologiyaya əsaslanan fəaliyyət növünə çevrilməkdədir. Azərbaycan dövlətinin prezidenti Heydər Əliyevin qeyd etdiyi kimi, «Kitabxana xalq, millət üçün, cəmiyyət üçün, müqəddəs bir yer, mə'nəviyyat, bilik, zəka mənbəyidir».[1]

Müasir dövrdə heç bir cəmiyyətdə elm, texnika və mədəniyyətin inkişafı kitabxana-informasiya sərvətlərindən səmərəli istifadə edilmədən mümkün ola bilməz. İndi kitabxanaçılıq fəaliyyəti cəmiyyətdə getdikcə genişlənən və dərinləşən informasiya prosesləri ilə əlaqədar daha mürəkkəb şəkil almış, daha çətin vəzifələri yerinə yetirməyə başlamışdır.

Professor Abuzər Xələfovun qeyd etdiyi kimi, «Müasir kitabxana bəşər elmi sərvətlərini toplayıb, qoruyub, onları insanların istifadəsinə verməklə elmin, mədəniyyətin, iqtisadiyyatın, texniki biliklərin, elmi nəşrlərin öyrənilməsi və tətbiqi üçün şərait yaradır. Beləliklə, elmi-texniki tərəqqiyə, elmi nəzəriyyələrin, nəşrlərin istehsalata tətbiqi prosesinə kömək göstərir, elmlə istehsalat arasında, tədqiqlə tətbiq ara-

---

[1]Azərbaycan Respublikası prezidenti Heydər Əliyevin M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasındakı çıxışı. //Azərbaycan. -1995.-6 iyun

sında vasitə kimi çıxış edir».[2]

Bundan başqa, kitabxanalar cəmiyyətdə elm, mədəniyyət, ədəbiyyat, incəsənət və təhsil kimi mə'nəvi sərvətlərə dair çap əsərlərinin, digər informasiya daşıyıcılarının, biliyin yayılmasında fəal iştirak etməklə tərbiyə prosesinə, ümumbəşəri əxlaqi dəyərlərə yiyələnmə prosesinə, cəmiyyətin bütövlükdə inkişafında ən mühüm amil olan intellektual səviyyəli insan yetişdirilməsi prosesinə xidmət edir və bu prosesə səmərəli tə'sir göstərir.

«Kitabxana işi haqqında Azərbaycan Respublikasının Qanunu»nda göstərilir ki, «Kitabxana – elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə müəssisəsi kimi çap əsərlərini və digər informasiya daşıyıcılarını toplayıb mühafizə edən, onların sistemli ictimai istifadəsini təşkil edən, cəmiyyətin intellektual və mə'nəvi potensialının inkişafına xidmət göstərən sosial institutdur»[3]. Dünya kitabxanaçılıq təcrübəsi çoxdan sübut etmişdir ki, hər bir ölkədə kitabxana işinin təşəkkül tapması həlledici dərəcədə bu mürəkkəb prosesin metodik tə'minatından asılıdır.

Hazırda kitabxana-informasiya proseslərinin son dərəcə mürəkkəbləşdiyi, yeni texnologiya ilə zənginləşdiyi bir zamanda kitabxana işinin metodik tə'minatının öhdəsinə çox mühüm vəzifələr düşür. Ona görə də «Müasir dövrdə kitabxana işinin metodik tə'minatı necə olmalıdır?» - sualı yenidən kitabxana ictimaiyyətini düşündürməyə başlamışdır. İndi bu problem kitabxana işinin ən aktual problemlərindən birinə çevrilmişdir. Başqa sözlə desək, bu gün kitabxanaların metodik tə'minatının həmişə daşıdığı mə'na dəyişmiş, xeyli zənginləşmiş və genişlənmişdir. Bu, şübhəsiz ki, ilk növbədə kitabxana işinin inkişafı, cəmiyyətdəki informasiya proseslərinə inteqrasiyası ilə əlaqədardır.

Hazırda kitabxanaların metodik tə'minat probleminin müxtəlif izahlara, şərhlərə və münasibətlərə mə'ruz qalması kitabxanaçılıq fəaliyyətində baş verən kəmiyyət və keyfiyyət dəyişmələri ilə bağlıdır. 80-ci illərdən başlayaraq bə'zi kitabxanaşünaslar onun köhnəldiyini e'lan edir, bə'ziləri ona qarşı yeni cərəyanlar irəli sürür, bə'ziləri isə metodik tə'minatı kitabxana işində hədsiz və hüdudsuz bir yaradıcılıq metodu hesab edirlər. Nəzəri ədəbiyyatda kitabxanaların metodik tə'minatı ilə əlaqədar əsas anlayışların ifadəsinə dair terminoloji qarışıqlıq da özünü göstərməkdədir. Belə ki, müxtəlif yazılarda metodik tə'minat «metodik rəhbərlik», «metodik iş», «metodik fəaliyyət», «metodik idarəetmə» və s. terminlərlə əvəz olunur. Şübhəsiz ki, kitabxanaların metodik tə'minatı anlayışının mahiyyətini dərindən dərk edə bilmək üçün müasir dövrdə dünya informasiya məkanında baş verən yeni prosesləri, bu proseslərlə əlaqədar kitabxanaların fəaliyyətində meydana gələn konseptual dəyişiklikləri dərindən öyrənmək lazım gəlir.

Müasir dövrdə kitabxanaların metodik tə'minatı dedikdə, metodik mərkəzlər tərəfindən kitabxanaların və kitabxanaçıların fəaliyyətinin dövrün tələblərinə uyğun dinamik inkişafına yönəlmiş nəzəri əsaslara və mütərəqqi təcrübəyə söykənən, özündə rəngarəng forma və üsulları birləşdirən təşkilati-metodik əməliyyatların hazırlanıb həyata keçirilməsi nəzərdə tutulur.

Kitabxanaların metodik tə'minatı sistemli fəaliyyət olub cəmiyyətdə kitabxana işinin analitik–sintetik təhlil metodlarına əsaslanan elmi, informasiya, pedaqoji və təşkilati funksiyaları yerinə yetirir.

Metodik tə'minat sisteminin elmi funksiyasının əsasını metodik mərkəzlərin ölkədə kitabxana işinin vəziyyətini və inkişaf yollarını müəyyənləşdirən analitik-sintetik təhlil metodu təşkil edir. Məhz bunun əsasında metodik mərkəzlər cəmiyyətdə kitabxanaların işinə yaradıcı şəkildə müdaxilə edərək bu işin optimallaşdırılmasına dair tövsiyələr irəli sürür, məqsədli proqramlar hazırlayıb həyata keçirir.

Mə'lumdur ki, cəmiyyətdə kitabxana-informasiya prosesləri ilə əlaqədar

---

[2] Xələfov A. Kitabxana işinin tarixi kursuna giriş.-B.,1995.-S.5.

[3] Kitabxana işi haqqında Azərbaycan Respublikasının Qanunu (maddə 1) //Azərbaycan.-1999.-17 mart.

mütəmadi olaraq problemlər yaranır. Bu problemlərin nəzəri baxımdan düzgün dərk edilməsi və həlli təcrübi eksperimentlərin təşkilini və müxtəlif nəzəri müddəaların kitabxana təcrübəsində səmərəliliyinin öyrənilməsini tələb edir. Belə kompleks tədbirlər metodik fəaliyyətin elmi tədqiqat işləri ilə əlaqəli şəkildə həyata keçirilməsinin mühüm vasitəsi kimi meydana çıxır.

Kitabxanaların metodik tə'minat sisteminin informasiya funksiyası dedikdə metodik fəaliyyətin və onun tətbiq obyekti olan kitabxana işinin vəziyyəti və inkişaf yolları ilə əlaqədar ölkədaxili və xarici metodik mə'lumat bazasının formalaşması və müvafiq informasiyanın metodik işdə səmərəli istifadə edilməsi nəzərdə tutulur.

Bu baxımdan müasir dövrdə kitabxanaların metodik tə'minat sistemində strateji məqsədlər, taktiki vəzifələr və cari problemlərlə əlaqədar informasiya funksiyalarının formalaşması zərurətdir.

Kitabxanaların metodik tə'minat sisteminin pedaqoji funksiyası kitabxanaçıların fasiləsiz təhsil sistemində metodik mərkəzlərin iştirakı ilə həyata keçirilir. Kitabxanaların metodik tə'minat sisteminin ən mühüm funksiyalarından biri olan pedaqoji funksiya özünü daha çox kitabxanaçılıq təhsilinin ixtisasartırma və kadrların yenidən hazırlanması mərhələsində göstərir. Hazırda kitabxana işçilərinə yeni texnoloji vərdişlərin aşılanması, ölkənin informasiya sərvətlərinin dünya informasiya məkanına daxil olması üçün kitabxanaçıların müasir problemlərin həllinə yönəlmiş nəzəri və tətbiqi biliklərə yiyələnməsi metodik tə'minat sisteminin pedaqoji funksiyasının başlıca cəhətlərindəndir.

Metodik tə'minat sisteminin təşkilatı funksiyası kitabxanaların fəaliyyətinin müasir menecment prinsiplərinə uyğun şəkildə sistemli idarə olunmasını tə'min etməkdən ibarətdir.

Müasir dövrdə kitabxanaların metodik tə'minat sisteminin ən mühüm problemi ölkədə əhaliyə kitabxana xidməti və kitabxana işinin təşkili və idarə olunmasının inzibati amirlik metodlarından azad olub demokratik prinsiplər əsasında yeniləşməsidir.

Metodik tə'minatın məzmununa, həyata keçirdiyi iş üsullarına, normativ sənədlərin, metodik vəsaitlərin, əhaliyə kitabxana xidmətinin vəziyyətinə dair analitik yazıların hazırlanması, kitabxana işçilərinin tə'limatlandırılması və peşə səviyyəsinin yüksəldilməsi məqsədilə seminar, praktikum, treyninq, digər tə'lim xarakterli tədbirlərin təşkili, kitabxana işinin aktual problemləri üzrə elmi konfrans, simpozium, müşavirə və digər tədbirlərin keçirilməsi, qabaqcıl təcrübənin aşkar edilməsi, öyrənilməsi və tətbiq edilməsi, kitabxana işinə dair informasiya sisteminin yaradılması, kitabxanaşünaslıq tədqiqatlarının nəticələrinin təcrübəyə tətbiq edilməsi və s. kimi çoxşaxəli fəaliyyət növləri daxildir.

«Kitabxana işi haqqında Azərbaycan Respublikasının Qanunu»nda metodik tə'minatın məzmunu və mühüm istiqamətləri kitabxanaşünaslığa, biblioqrafiyaya və informasiyaya dair metodik materialların nəşri, kitabxanaçılıq nəzəriyyəsi və təcrübəsində mütərəqqi iş üsullarının ümumiləşdirilib tətbiq edilməsi, kadrların ixtisasının artırılmasının tə'min edilməsi kimi müəyyənləşdirilir.[4]

Əsrin əvvəllərində meydana gəlmiş Azərbaycanda kitabxana işinin metodik tə'minat sistemi 80 illik bir dövr ərzində öz mütərəqqi əhəmiyyətini nümayiş etdirmiş, zaman-zaman dərinləşmiş, genişlənmiş və XX əsrin sonunda artıq kitabxana işinin inkişafında əsas amillərdən birinə çevrilmişdir.

Kitabxanaların metodiki tə'minatı öz inkişafının bütün mərhələlərində cəmiyyətdə kitabxana-informasiya infrastrukturunun, kitab və kitabxana işinin, əhaliyə kitabxana xidməti prosesinin ayrılmaz, üzvi bir sahəsi kimi bu prosesə güclü tə'sir göstərmiş, onun optimallaşdırılmasının nəzəri-metodiki və təşkilati əsaslarını yaratmışdır.

---

[4] Azərbaycan.-1999.-14 mart.

Şübhəsiz ki, kitabxana işinin bütün sahələri kimi metodik tə'minat sistemi də öz inkişaf tarixində mərhələdən-mərhələyə kitabxana prosesinə müdaxilə etmək, bu prosesdə «katalizator» rolunu oynamaq yollarını, taktikasını, forma və metodlarını dəyişmiş, yeniləşmiş və bundan sonra da yeniləşməlidir. İnkişafın nəticəsi olan bu dəyişmənin və yeniləşmənin qanunauyğunluqları, qeyd etdiyimiz kimi, dünya kitabxana-informasiya məkanında baş verən mürəkkəb proseslərlə izah edilir. Bu baxımdan müasir dövrdə əsas vəzifə metodik tə'minat sistemində baş verən yeniləşməni düzgün istiqamətləndirməkdən ibarətdir.

Azərbaycanda kitabxana işinin metodik tə'minat sisteminin inkişaf konsepsiyasını yaratmaq üçün onun inkişaf mərhələləri, bu mərhələlərdə qazandığı tarixi təcrübənin öyrənilib ümumiləşdirilməsi xüsusi əhəmiyyət kəsb edir.

Təəssüflə qeyd etməliyik ki, bu vaxta qədər Azərbaycan kitabxanaşünaslığında kitabxanaların metodik tə'minat sisteminin kitabxana işinin tarixi baxımından kompleks şəkildə öyrənilməsinə təşəbbüs göstərilməmişdir.

Kitabxanaların metodik tə'minatı ilə əlaqədar zəngin tarixi irsimiz arxivlərdə saxlanılan passiv fonda çevrilməməlidir. Çünki orada kitabxana tariximizin ayrı-ayrı dövrlərindəki inkişaf xüsusiyyətlərinə dair qiymətli nəzəri, metodik və təcrübi fikirlər, maraqlı mülahizələr vardır. Bu zəngin irsin öyrənilib ümumiləşdirilməsi, metodik tə'minat prosesinin bütün komponentlərinin sistem halında dərindən təhlil və tədqiq edilməsi hazırda son dərəcə zəruridir.

Kitabxanaların metodik tə'minatının əsas dəyəri, başlıca aparıcı qüvvəsi – metodist, onun peşə bilikləri, təcrübəsi, məharəti, təşkilatçılıq qabiliyyəti, siyasi mədəniyyəti, kitabxana proseslərini dərindən dərk etməsidir.

Hazırda respublikada kitabxanaların metodik tə'minatı ilə 600 nəfərdən artıq metodist və bir o qədər də kitabxana işinin müxtəlif sahələrində çalışan digər təcrübəli mütəxəssislər məşğul olurlar.

Son zamanlar bu prosesə kitabxana assosiasiyaları, kitabxanaşünas alimlər, Azərbaycanda fəaliyyət göstərən bə'zi xeyriyyəçilik fondları və cəmiyyətləri, hətta xarici ölkələrin mütəxəssisləri də vaxtaşırı cəlb olunur. Bütün bunlar bir daha ölkəmizdə kitabxanaların metodik tə'minatının zəngin və rəngarəng tarixi irsini, onun 80 illik təcrübəsini və bu prosesdə keçdiyi mürəkkəb yolu öyrənməyi, gələcək inkişafının nəzəri bazasının yaradılmasını tələb edir.

Geniş kitabxana ictimaiyyətinə, kitab, mütaliə, təhsil, informasiya problemləri ilə əlaqəsi olan mütəxəssislərə təqdim etdiyimiz monoqrafiya da məhz bu məqsədə yönəlmişdir.

Kitab müəllifin müvafiq problemlə əlaqədar son 10 ildə apardığı elmi axtarışları nəticəsində hazırlanmış bir əsərdir. Monoqrafiya bu sahədə Azərbaycanda ilk tədqiqat olduğundan, şübhəsiz, nöqsanlardan xali deyildir.

Kitab haqqında öz rə'ylərini, mülahizələrini və tənqidi fikirlərini söyləyəcək mütəxəssislərə müəllif əvvəlcədən dərin minnətdarlığını bildirir.

# I F Ə S İ L

# KİTABXANALARIN METODİK TƏ'MİNAT SİSTEMİNİN TƏŞƏKKÜLÜ (1918-1945-ci illər)

## *1.1.Demokratik respublika dövründə kitabxanaların metodik tə'minat sisteminin ilkin komponentlərinin meydana gəlməsi (1918-1920-ci illər)*

Böyük ictimai-siyasi hadisələrlə zəngin olan XX yüzillik bəşər tarixinə ilk növbədə məzlum xalqların milli oyanış və milli dirçəliş əsri kimi daxil olacaqdır. Belə ki, məhz XX əsrdə dünyanın siyasi xəritəsində onlarla müstəqil dövlət meydana gəlmiş, Azərbaycan da bu ümumdünya prosesindən kənarda qalmamışdır. Əsrin əvvəllərində formalaşmağa başlayan Azərbaycan milli hərəkatı xalqın müxtəlif təbəqələrini və siyasi qüvvələrini birləşdirən kütləvi ümummilli hərəkata çevrilmişdi ki, bu da 1918-ci il mayın 28-də Azərbaycanın istiqlaliyyətinin e'lan olunması və Azərbaycan Demokratik Respublikasının (Azərbaycan Xalq Cümhuriyyətinin) yaranması ilə nəticələndi.

Azərbaycan Milli Şurasının 28 may 1918-ci ildə e'lan etdiyi qətnamədə qeyd olunurdu ki, «Bu gündən e'tibarən Azərbaycan xalqları suveren hüquqlara malikdirlər... Azərbaycan Demokratik Respublikası bütün millətlər, xüsusilə qonşu xalqlar və dövlətlərlə mehriban qonşuluq münasibətləri yaratmağa çalışır. Azərbaycan Demokratik Respublikası öz ərazisi daxilində yaşayan millətlərə azad inkişaf üçün geniş imkanlar verir»[5].

Mə'lum olduğu kimi, ADR-in fəaliyyəti «Türk ədəmi mərkəziyyət Müsavat Partiyasının məramnaməsinə əsaslanırdı. Müsavat Partiyası öz məramnaməsində Azərbaycanın istiqlaliyyəti və ərazi bütövlüyü ilə yanaşı, məmləkətdə yaşayan xalqların ictimai, iqtisadi və mədəni sahələrdəki geriliyini aradan qaldırmaq məsələsini ön plana çəkirdi.

Müsavat Partiyası «Türkləşmək, müasirləşmək» şüarını irəli sürərkən heç də qeyri-türk və qeyri-islam dövlətləri və xalqları ilə qarşıdurma yolunu seçməmişdi. Əksinə, «federativ əsaslarla ümumi bir ailənin bərabərhüquqlu üzvü olmaq üçün türk və islam birliyinin potensial imkanlarından səmərəli istifadə nəticəsində müasirləşməyi, Avropanın qabaqcıl xalqlarının elmi-mədəni səviyyəsinə yetişməyi nəzərdə tuturdu»[6].

Öz dövrünün ən mütərəqqi partiyası olan «Müsavat» hələ 21 oktyabr 1917-ci ildə keçirdiyi I qurultayında qəbul edilmiş məramnaməsində göstərirdi ki, ümumbəşəri sivilizasiya ayrı-ayrı millətlərin mədəni səviyyəsindən asılıdır. Buna görə də partiya öz qarşısında mədəni dövlət qurmaq vəzifəsini qoyur. Proqramın «Xalq maarifi» bölməsində aşağıdakı müddəalar irəli sürülürdü:

1.Təhsil işində dinindən, milliyyətindən və cinsindən asılı olmayaraq bütün vətəndaşlar bərabərdir.

2.Təhsil işində tam azadlıq verilir.

3.Müxtəlif tip məktəblər arasında tamamlayıcı əlaqə olmalıdır.

4.Universitetlər və başqa ali məktəblər muxtar statusa malik olmalı, öz daxili işlərini özləri həll etməlidirlər.

5.Ali məktəblərin əhali arasında mədəni iş aparmaq təşəbbüsünə heç bir maneə olmamalıdır.

---

[5] Nəsibzadə N. Azərbaycan Demokratik Respublikası: Məqalələr və sənədlər.-B.:Elm, 1990.-S.243-244.

[6] Azərbaycan Demokratik Respublikası: Tarixi, ictimai-siyasi və mədəni həyatı.- B.,1992.-S.99.

6.Yerli özünüidarəetmə orqanları təhsilin təşkilində tam sərbəstdirlər.

7.Hazırlıq və ali hazırlıq təhsili pulsuz və hamı üçün məcburidir.

8.Yerli özünüidarəetmə orqanları yerlərdə yaşlılar üçün kurslar açmağa borcludurlar.

9.Xüsusi texniki və kənd təsərrüfatı məktəblərinin lazımi sayda açılması tə'min olunmalıdır.

10.Məktəblərdə tədris ərazidə çoxluq təşkil edən millətin dilində olmalıdır.

11.Orta məktəblərdə tədris türk (Azərbaycan) və rus dillərində olmalıdır.

12.Ali məktəblərdə tədris türk dilində olmalıdır.

13.Kişi seminariyaları ilə yanaşı, qadın seminariyalarının da açılmasını tə'min etmək lazımdır.

14.Tədris sinifdə çoxluq təşkil edən millətin dilində olmalıdır.

15.Azlıq təşkil edən millətlərin uşaqları hazırlıq məktəblərində öz ana dillərində təhsil almalıdır[7]

Azərbaycan Respublikasının ali qanunvericilik orqanı olan parlament və eləcə də Nazirlər Şurası özlərinin qısa fəaliyyəti dövründə xalqın maariflənməsi sahəsində bir sıra qiymətli təşəbbüslər və əsaslı tədbirlər həyata keçirməyə nail ola bildilər.

Azərbaycan parlamentinin 28 dekabr 1918-ci il tarixli iclasında ADR Nazirlər Şurasının sədri Fətəli Xan Xoyski hökumət bəyanatı ilə çıxışında maarif və mədəniyyət sahəsindəki dövlət siyasətindən bəhs edərkən demişdi ki: «Bu, cəmiyyətin elə sahəsidir ki, dövlətin bazisi və ictimai həyatı bunsuz qurula bilməz»[8].

Böyük çətinliklərlə qarşılaşan gənc Azərbaycan hökuməti xalq maarifinə, mədəniyyətə, incəsənətə ayrılan vəsaiti getdikcə artırmağa çalışırdı. Həmin məqsədlə 1919-cu il üçün büdcə ayrılarkən Azərbaycan Respublikası Xalq Maarif Nazirliyinə adi xərclər üçün 45 milyon manat, fövqəl'adə xərclər üçün isə 30 milyon manat vəsait ayırmışdı.[9]

Beləliklə, ADR-in 1919-cu ildə təhsil sahəsinə ayırdığı vəsait hərbi nazirlik və dəniz donanmasına ayrılan vəsaitdən sonra ikinci yeri tuturdu. Onu da qeyd edək ki, kitabxana işinin maliyyələşdirilməsi məhz təhsil üçün ayrılmış xərclərə daxil idi.

Bu dövrdə ADR-in maarif naziri Həmid bəy Şahtaxtlının şəxsi təşəbbüsü ilə Azərbaycana Türkiyədən 50 nəfərə qədər müəllim də'vət olunmuşdu.[10] Maarif sahəsində qəbul edilmiş tə'xirəsalınmaz tədbirlər öz bəhrəsini tədricən verirdi. Təkcə 1919-cu ildə 23 yeni ibtidai və orta məktəb açılmışdı. Bu vaxt respublikada məktəblərin ümumi sayı 700-ə yaxın idi. İbtidai və orta məktəblərdə 48 min 78 nəfər şagird təhsil alırdı ki, bunların da 22261 nəfəri azərbaycanlı idi.[11] 1918-ci ilin sonunda ADR hökuməti öz hesabına 100 nəfər abituriyenti ali təhsil almaq üçün Avropanın müxtəlif ölkələrinə yola salmışdı.[12]

1919-cu ildə Azərbaycanda 89 adda qəzet və jurnal çıxırdı. Onlardan 39-u Azərbaycan, 44-ü rus, 6-sı isə başqa dillərdə nəşr edilirdi.[13]

ADR-in fəaliyyəti dövründə mədəni-maarif sahəsində həyata keçirilən ən mühüm taleyüklü tədbirlərdən biri 1919-cu il noyabr ayının 15-də Bakı Dövlət Darülfünunun açılması idi. Həmin il orada 1094 tələbə təhsil alırdı.[14] Bakı Dövlət Darülfünunun açılışını «Azərbaycan» qəzeti belə qiymətləndirirdi: «...Bakı Darülfünu tə'sis edildi. Yeni millət, yeni elm, yeni fəlsəfə demək isə hər Darülfunun da yeni bir mə'bəd olması icad edər... Azərbaycan Darülfünu əlbəttə, bir türk Darülfü-

---

[7] Azərb.SSR EA Xəbərləri (tarix, fəlsəfə və hüquq seriyası).-B.: Elm, 1990.-№2.-S.29.
[8] Yenə orada.- S.21.
[9] Azərbaycan Demokratik Respublikası.-B.,1992.-S.181.
[10] Azərbaycan Demokratik Respublikası.-B.,1992.-S.107.
[11] Hesablama müəllif tərəfindən aparılmışdır.
[12] Azərbaycan Respublikası MDA, f.894, siy.10. iş 58, v.3
[13] Azərbaycan Respublikası MDA, f.51, iş 7, v.82.
[14] Bakı Dövlət Darülfünunun tə'sisi (sənədlər toplusu).-B.,1989.-S.12.

nunudur, çünki türk milləti, türk parlamanı, türk hökuməti tərəfindən, türk gəncliyi üçün olmalıdır».

Məmməd Əmin Rəsulzadə isə bu haqda belə yazırdı: «Azərbaycan gəncliyini elm və texnika əsri ilə silahlandırmaq üçün Bakı Universiteti açılmışdır.»[15]

Azərbaycan gəncliyini elm və texnika ilə silahlandırmaq məqsədilə ADR-in həyata keçirdiyi tədbirlər içərisində kitab nəşrinin genişləndirilməsi də geniş yer tuturdu. Respublikada mütərəqqi məzmunlu kitabların və xüsusən dərsliklərin nəşrini genişləndirmək məqsədilə 1918-ci ildə Maarif Nazirliyi nəzdində xüsusi komitə yaradıldı. Komitə tərəfindən təkcə həmin il 7 adda dərslik çap olunmuşdu.[16] Nazirlik tərəfindən 1918-20-ci illərdə Türkiyədən 20 min nüsxədən artıq dərslik, dərs vəsaiti və digər kitablar gətirilmişdi. Bununla yanaşı, Rusiyadan, Avropa ölkələrindən, habelə Tiflisdən xeyli kitab alınmışdı.[17]

Hökumət Bakıda və digər yerlərdə fəaliyyət göstərən məktəblərə hər cür yardım göstərir, onların texniki avadanlıqlarla və ləvazimatlarla tə'min edilməsi üçün vəsait ayırırdı. Tədqiqat nəticəsində 1918-1920-ci illərdə 70-dən artıq əsərin çap olunması faktı aşkar edilmişdir. Bunlardan Rəcəb Əfəndizadənin «Türk dili» (1918), M.Mahmudbəyovun «Müsəvvər türk əlifbası: ilk qiraət» (1918), Hadizadə Axund Əbdürrəhim və Mirmöhsüm Zadəgani Ağa Mirəbdüləlinin «Şəriət kitabı» (1918), Ağaəli Qasımzadənin «Hesab məsələləri məcmuəsi» (1919), Ağababa İsrafilzadənin «Təzə elmi hesab» (1919), Abdulla bəy Əfəndizadənin «Son türk əlifbası» (1919), Cəmo bəy Cəbrayılzadənin «Tarixi təbibi» (1919), Abdulla Şaiq Talıbzadənin «Milli qiraət» (1919) və s. kimi dərsliklərini göstərmək olar. Hadi Məhəmməd Əbdülsəlimzadənin «İnsanların tarixi faciələri» (1918), Seyid Ağa Axundzadənin «Mart hadisəsi-1918» (1919), «Xorasanın topa tutulması və ikinci Nikolayın cəzalanması (Hürriyyət dövrü)» (1919), Nəriman Nərimanovun «Biz Qafqaza nə şüarla gedirik» (1919) və s. kimi kitabları isə dövrün mühüm hadisələrinə həsr olunmuş elmi-tarixi əsərlər kimi diqqəti daha çox cəlb edir.

Azərbaycan Demokratik Respublikası dövründə xalqımızın mədəniyyətini, mə'nəvi irsini işıqlandıran və təbliğ edən bir sıra əsərlər də çap olunmuşdur. Bu baxımdan 1918-1920-ci illərdə nəşr edilmiş ədəbi-bədii kitablardan Üzeyir Hacıbəyovun «Arşın mal alan», «O olmasın, bu olsun» operettalarının librettoları, Süleyman Sani Axundovun hekayələri, Sultanməcid Qənizadənin nağılları, Rəşid bəy Əfəndizadənin «Pul dəlisi» hekayəsi, M.Zeynalzadənin «Həvəs» hekayəsi, Zülfüqar bəy Hacıbəyovun «Aşıq Qərib» operasının tam nəşri, Ağahəsən Mirzəzadənin «Milli nəğmələr», Əhməd Cavadın «Dalğa» şe'rlər məcmuələri və onlarla başqa əsərlər bu qəbildəndir.[18]

Azərbaycan Demokratik Respublikası və Müsavat Partiyası xalq arasında müstəqillik, azadlıq və demokratiya ideyalarını yaymaq məqsədilə bir sıra yeni mətbuat orqanlarının da yaradılmasını zəruri hesab edirdilər. 1918-ci ildə yenidən həyata qayıdan «Açıq söz» qəzeti, sonralar onu əvəz edən «İstiqlal» qəzeti müntəzəm olaraq ADR-in müqəddəs azadlıq ideyalarını təbliğ edən mətbuat orqanları idi.

Həmin dövrdə Azərbaycanın mədəni və ictimai-siyasi həyatında fəal rol oynayan dövri nəşrlərdən biri də «Azərbaycan» (1918-1920) qəzeti olmuşdur. Qeyd edək ki, «Azərbaycan» qəzeti 1919-cu il aprelin son günlərinə qədər Üzeyir Hacıbəyovun rəhbərliyi ilə nəşr edilmişdir. (Yeri gəlmişkən, 1918-ci ilin mart ayında erməni quldurlarının Qarabağda və Azərbaycanın başqa yerlərində törətdikləri vəhşiliklərdən bəhs edən Ü.Hacıbəyov bu qəzetin səhifələrində yazırdı: «Bu günkü vəzifəmiz o qara günləri yaddan çıxarmamaq və buna görə də həmişə, hər an hazır olma-

---

[15] Rəsulzadə M.Ə. Əsrimizin Səyavuşu.-B., 1992.-S.34.
[16] Azərbaycan Respublikası MDA, f. 57, s.1, iş 732, v.5.
[17] Atakişiyev A. BDU-nun tarixi.-B.,1991, hissə 1. -S.91.
[18] Azərbaycan kitabı: Biblioqrafiya. /3 cilddə. C.1.(1780-1920)-B., 1963.- S.169-172.

qdır. Belə hazırlıq ki, bu hadisələr bir də təkrar edilsə, müdafiəsinə qadir olaq»[19]. (Çox təəssüf ki, böyük Üzeyir bəyin bu müdrik kəlamı çox tez unuduldu).

Beləliklə, Azərbaycan xalqının müqəddəratını düşünən və yeni xoşbəxt həyat qurmağa başlayan Azərbaycan Demokratik Respublikası mədəni inkişaf olmadan əsl müstəqillik və azadlığı qeyri-mümkün hesab edirdi. Odur ki, respublikamızda geniş maarifçilik və mədəni quruculuq prosesi ümumdövlət işinə çevrilmişdi.

Azərbaycan Demokratik Respublikasının ilk günlərdən başlayaraq həyata keçirdiyi mədəni-maarif tədbirləri kitabxana işinin inkişafı üçün də əsaslı zəmin yaratmışdı. Kitabxana işi bu dövrdə həyata keçirilən bütün sosial-mədəni və maarifçilik işlərinin mühüm tərkib hissəsinə çevrilmişdi. 1918-1920-ci illərdə ADR-in kitabxana quruculuğu sahəsində həyata keçirdiyi tədbirlərin ana xətti əvvəllərdən fəaliyyətdə olan və yeni təşkil edilən təhsil ocaqlarında kitabxanaların yaradılmasından ibarət idi.

Maarif Nazirliyi ilk növbədə respublikada fəaliyyət göstərən bütün təhsil ocaqlarında: xalq məktəblərində, seminariyalarda, politexnik məktəblərdə, gimnaziyalarda, realnı məktəblərində, kommersiya məktəblərində və eləcə də yeni yaranmış universitetdə kitabxanaların təşkilinə xüsusi diqqət yetirirdi.

Bu məqsədlə təhsil ocaqları kitabxanalarının kitab təchizatı dövlət səviyyəsində tə'min edilirdi. Bu iş əsasən 4 istiqamətdə həyata keçirilirdi.

1.Təhsil ocaqları kitabxanalarının respublikada nəşr edilən bütün çap əsərləri ilə pulsuz və məcburi tə'minatı.

Bu məqsədlə 1919-cu ildə Azərbaycan hökumətinin təqdimatına əsasən respublika parlamenti xüsusi qanun qəbul etmişdi.[20] Qanun bütün məktəb kitabxanalarının Azərbaycanda nəşr edilən kitab, jurnal, məcmuə və qəzetlərin məcburi nüsxələri ilə təchiz edilməsini nəzərdə tuturdu.

2.Xarici ölkələrdən alınan çap əsərlərinin ilk növbədə kitabxanalara verilməsi.

Kitabxanaların xarici ölkələrin nəşrləri ilə komplektləşdirilməsini asanlaşdırmaq məqsədilə xarici çap məhsulları gömrük vergisindən azad edilmişdi. Təkcə 1919-cu ildə Azərbaycan kitabxanalarına, xüsusən məktəb kitabxanalarına 10 min nüsxədən artıq ədəbiyyat daxil olmuşdu ki, onlar da əsasən Türkiyədən, Rusiyadan və Tiflisdən alınmışdı.[21]

3.Öz fəaliyyətini dayandırmış məktəblərin, kitab mağazalarının anbarlarında saxlanılan ədəbiyyatın kitabxanalara paylanması.

4.Ayrı-ayrı şəxslərin, müəssisələrin və xeyriyyə cəmiyyətlərinin kitabxanaların kitabla təchiz olunmasına cəlb edilməsi.

Bu məqsədlə yerli qəzetlərdə tez-tez müraciətlər dərc edilirdi. Kitab anbarlarında, mağazalarda, məscidlərdə, müxtəlif elmi cəmiyyətlərdə və başqa müəssisələrdə mühafizə edilən ədəbiyyat kitabxanalar arasında bölüşdürülürdü. Bu işlə Xalq Maarif Nazirliyi, xüsusi xeyriyyə cəmiyyətləri, ayrı-ayrı maarifpərvər şəxslər və müəllimlər məşğul olurdular.

Azərbaycan Demokratik Respublikası hökumətinin kitabxana işi sahəsində həyata keçirdiyi tədbirlər içərisində Bakı Dövlət Universiteti elmi kitabxanasının təşkili və formalaşması ilə əlaqədar fəaliyyəti mühüm əhəmiyyət kəsb edir. Universitet yaradılan ərəfədə elmi kitabxananın təşkili ən tə'xirəsalınmaz vəzifə kimi qarşıda dururdu. Bu vacib məsələni mütəşəkkil qaydada həyata keçirmək üçün Xalq Maarif Nazirliyi universitetin görkəmli alimlərindən ibarət xüsusi komissiya yaratmışdı. Komissiya öz fəaliyyətinə universitetin açılışından əvvəl başlamışdı və elmi kitabxananın formalaşmasını bir neçə istiqamətdə aparırdı. Ali təhsil ocağı nəzdində tibb fakültəsinin olmasını nəzərə alaraq komissiya Mixaylov (indiki Musa Nağıyev adına) və Balaxanı xəstəxanaları nəzdindəki tibb kitabxanalarının universitetə veril-

---

[19] Azərbaycan.- 1919.- №147.

[20] Nəsibzadə N. Xalq Maarif Nazirliyinin 1919-cu ildə fəaliyyəti haqqında qısa mə'lumat // Azərb SSR EA Xəbərləri (tarix, fəlsəfə, hüquq seriyası).-B.,1990.-№2.-S.95.

[21] Azərbaycan Respublikası MDA, f. 57, s.2, iş.734, v.3.

məsini şəhər hakimiyyət orqanlarından xahiş etmişdi. 1919-cu ilin noyabr ayında hər iki kitabxana əvvəlki sahiblərinin istifadə hüquqları saxlanılmaqla universitetə verildi və elmi kitabxananın fondunun əsası məhz bu kitabxanaların fondu hesabına yaradıldı.[22]

Mə'lum olduğu kimi, Bakı Dövlət Universitetinin nəzdində yaradılan ikinci fakültə tarix-filologiya fakültəsi idi. Tibb fakültəsinə nisbətən bu fakültənin kitabla tə'minatı daha mürəkkəb vəzifə kimi qarşıda dururdu. Lakin tarix və filologiya elmlərinə dair ədəbiyyat digər kitabxanalarda çox az olduğundan bu kitablar kitabxanalardan alınıb universitetə verilə bilməzdi. Çünki bu zaman geniş oxucu kütləəri, xüsusilə ziyalılar həmin ədəbiyyatdan məhrum olardılar.

Buna görə də universitetin kitabxana komissiyası əhaliyə və ilk növbədə maarifpərvər ziyalılara müraciət qəbul etməyi qərara aldı. Azərbaycan qəzetində dərc olunmuş bu müraciətdə deyilirdi: «Həm tarix-filologiya fakültəsi, həm də tibb fakültəsi üçün ayrı-ayrı şəxslərdən müəyyən miqdarda kitab tapıla bilər. Buna görə də kitabxana üzrə yardımçı komissiya kitab satmaq istəyənlərə yerli qəzetlər vasitəsilə təklif edir ki, təbabətə və tarix-filologiya elmlərinə dair bütün dillərdə olan kitabların siyahısını təqdim etsinlər. Bundan əlavə, komissiya əmindir ki, universitetin xidmət etdiyi böyük mədəni məqsəd naminə digər mədəniyyət mərkəzlərində olduğu kimi Bakıda da universitetə elmi kitablar bağışlanacağını gözləmək olar».[23]

Bu müraciətə oxşar e'lan 15 noyabr 1919-cu ildə Bakı menşeviklərinin orqanı olan «İskra» qəzetində də dərc olunmuşdu.

E'landa göstərilirdi ki, kitab bazarında dərsliklər olmadığına görə professorlar şurası tələbələr üçün qiraətxanalar düzəltmək niyyətindədirlər. Qiraətxana səhər saat 10-dan axşam saat 10-dək açıq olacaqdır. Tələbələri dərs vəsaiti ilə tə'min etmək və kitab azlığını yüngülləşdirmək üçün onlara üsullar axtarıb tapmaq imkanı verilir.[24]

Bundan əlavə, respublika hökumətinin göstərişinə əsasən universitet kitabxanasında xüsusi türk şö'bəsi yaradılmışdır. Həmin şö'bənin müvafiq ədəbiyyatla komplektləşdirilməsi məqsədilə İstanbul şəhərindən 212 adda kitab gətirilmişdir.[25]

Təkcə 1919-cu ildə Bakı Dövlət Universiteti kitabxanasının fondunun yaradılması məqsədilə respublika hökuməti 120 min manat vəsait ayırmışdı.[26]

Aparılan hesablamalara görə, 1920-ci ilin əvvəllərində universitet kitabxanasının fondunda 6 mindən artıq kitab, 130 adda qəzet və jurnal vardı. Fondda olan ədəbiyyat Azərbaycan, türk, fars, ərəb, ingilis, fransız, alman, rus və tatar dillərində idi. Kitabxananın ilk oxucuları arasında Məmməd Əmin Rəsulzadə, Y.Çəmənzəminli, Ə.Haqverdiyev, T.Şahbazi, M.Ə.Mirqasımov və digər görkəmli şəxsiyyətlər olmuşlar.

1919-cu ilin sonu - 1920-ci ilin əvvəllərində Bakı Dövlət Universitetinin elmi kitabxanası artıq respublikanın təhsil ocaqları kitabxanaları üçün tədricən metodik mərkəz rolunu oynamağa başladı. Bu baxımdan 1920-ci il yanvarın 16-da universitet kitabxanasında Xalq Maarif Nazirliyi kitabxanaları işçilərinin seminar-müşavirələrinin təşkili haqqındakı mə'lumat olduqca maraqlıdır.[27]

Seminar-müşavirədə 94 kitabxana işçisi iştirak etmiş, Ə.Seyidzadənin «Kitabxanalarda kitablar necə yazılmalı və təsnif edilməlidir», M.H.Rzaquluzadənin «Onluq klassifikasiya», Heydərlinin «Kitabxana işini necə aparmalı» və S.Ağalarovun «Kitabxana fondunun komplektləşdirilməsi»[28] və s. mövzularda mə'ruzələri dinlənilmiş

---

[22] Azərbaycan Respublikası MDA, f.51, siy.1,iş.732, v.3.
[23] Azərbaycan Respublikası MDA, f.57, s.1. iş 732, v.3.
[24] Yenə orada.
[25] İskra.-1919.-15 noyabr.
[26] Xələfov A.A. ADU-nun kitabxanasının yaranması və inkişafı tarixindən // Elmi əsərlər: filologiya fakültəsi. -B., 1958. -S.181-194.
[27] Azərbaycan Respublikası MDA, f.57, s.1. iş 734, v.9.
[28] Yenə orada.

və müzakirə edilmişdi. Bu seminar-müşavirənin təşkili və orada dinlənilən mə'ruzələrin mövzuları bir daha sübut edir ki, 1919-1920-ci illərdə Bakı Dövlət Universitetinin elmi kitabxanası fəaliyyət müddətinin azlığına baxmayaraq artıq respublikamızda həm aparıcı kitabxana, həm də elmi-metodik mərkəz funksiyasını yerinə yetirməyə başlayır.

Bu dövrdə Azərbaycan Demokratik Respublikası hökuməti kitabxana şəbəkələrinin genişləndirilməsi, habelə Bakı şəhərində Dövlət Ümumi Kitabxanasının yaradılması ilə bağlı olaraq Xalq Maarif Nazirliyi qarşısında məsələ qaldırmışdı. Bu kitabxana dünya çap məhsullarını və xüsusən çoxəsrlik Azərbaycan nəşrlərini toplayıb mühafizə edən, respublika əhalisinin bütün təbəqələrinə xidmət edən, dünya kitabxanaları ilə kitab mübadiləsi aparan, eləcə də Azərbaycanda kitabxanaçılıq işini təşkil və idarə edən elmi-metodik mərkəz kimi nəzərdə tutulurdu. Bu haqda Azərbaycan Nazirlər Şurasının göstərişi ilə respublikada Xalq Maarif Nazirliyi tərəfindən 1919-cu ilin yanvar ayında Bakı Bələdiyyə İdarəsinə bina ayrılması üçün xüsusi təqdimat da verilmişdi.[29]

Dövlət Ümumi Kitabxanasının təşkili sahəsində xarici ölkələrin iş təcrübəsini öyrənmək və müvafiq sənədləri hazırlamaq üçün xüsusi komissiya yaradılması nəzərdə tutulmuşdu. Lakin sonralar respublikada ictimai-siyasi mühitin kəskin surətdə gərginləşməsi ilə əlaqədar bu kitabxananın yaradılması bir müddət tə'xirə salındı. Bununla belə ölkədə, o cümlədən, Bakıda geniş maarifçilik fəaliyyəti ilə məşğul olan kütləvi kitabxanaların açılması sahəsində ADR hökumətinin fəaliyyəti getdikcə genişlənirdi.

Mə'lumdur ki, kitabxanaların səmərəli fəaliyyəti kitab tə'minatı ilə sıx bağlıdır. Kitabxanaların yeni ədəbiyyatla müntəzəm və operativ tə'min olunmasına Azərbaycan Demokratik Respublikası xüsusi diqqət yetirmiş və bu məqsədlə 1918-ci ilin avqust ayında kitabxana kollektorunun yaradılması haqqında qərar qəbul etmişdir.[30]

Kitabxana kollektorunun Azərbaycan, rus, xarici ədəbiyyat, komplektləşdirmə şö'bələri vardı. Kollektor kitab mağazalarından və Xalq Maarif Nazirliyindən başqa müxtəlif təşkilatlardan və ayrı-ayrı şəxslərdən də kitabları satın alıb kitabxanalar arasında bölüşdürürdü. Bu işlə kollektorun nəzdində yaradılmış xüsusi komissiya məşğul olurdu.

1918-ci ilin dekabr ayında Azərbaycan İstehlak Cəmiyyətləri İttifaqının mədəni-maarif şö'bəsi Bakı şəhərində sırf azərbaycanlı əhalisinə xidmət edən milli kütləvi kitabxana açmaq təşəbbüsünü irəli sürdü. Həmin kitabxana qismən Dövlət Ümumi Kitabxanasını əvəz etməli idi. Bu nəcib təşəbbüsü Xalq Maarif Nazirliyi bəyənmişdi və o, kitabxana fondunun yaradılmasına yaxından köməklik göstərirdi.

Kitabxananı xalqa tanıtmaq, əhali arasında məşhurlaşdırmaq məqsədilə ona görkəmli satirik şair Mirzə Ələkbər Sabirin adı verildi. 1920-ci ilin əvvəllərində kitabxana üçün yeni bina ayrıldıqdan sonra Xalq Maarif Nazirliyi İstanbuldan tədris müəssisələri kitabxanalarından ötrü alınmış xeyli ictimai-siyasi, tarixi, ədəbi əsərlərdən və dərsliklərdən 1600 nüsxəsinin bu kitabxanaya verilməsini nəzərdə tutmuşdu.[31]

1920-ci ildə kitabxananın fondunda 10 min nüsxədən artıq kitab toplanmışdı və onlardan 1500 nəfər azərbaycanlı oxucu istifadə edirdi.[32] ADR-in fəaliyyəti dövründə yaranmış bu kitabxana Bakı şəhərindəki kütləvi kitabxanalara təşkilati-metodik yardım göstərən ilk mərkəz sayıla bilər. Çünki burada müntəzəm olaraq kitabxana işçiləri üçün seminarlar, müşavirələr, mühazirələr təşkil edilirdi.

M.Ə.Sabir adına kitabxana çox az vaxtda Azərbaycan ziyalılarının, ədiblərinin, ümumiyyətlə, maarifpərvər şəxslərin ən sevimli sosial-mədəni müəssisəsinə çevrildi. Kitabxananın nəzdində fəaliyyət göstərən kitabxana şurasının və ədəbiyyat dər-

[29] Azərbaycan Respublikası MDA, f.57, s.2, iş 734, v.7.
[30] Yenə orada.
[31] Azərbaycan Respublikası MDA, f.57, s.2, iş 734, v.11.
[32] Tağıyev H. Azərbaycanda kitabxanaçılıq işi.-B.:Azərnəşr,1969.-S.96.

nəyinin işində Hüseyn Cavid, Əbdürrəhim bəy Haqverdiyev, Əhməd Cavad, Məmməd Arif, Salman Mümtaz, Əli Əjdər Seyidzadə, Abdulla Şaiq və digər görkəmli ziyalılar fəallıq göstərirdilər.

O dövrün tanınmış kitabxanaçılarından Əliyusif Əliyev, Hüseyn Tağıyev, Mirzəhəsən Rzaquluzadə, S.Ağalarov və sonralar ədəbiyyatşünas kimi məşhurlaşan Əli Əjdər Seyidzadə bu kitabxana üçün bir sıra faydalı işlər görür, qiraət zalında müxtəlif kurslar, seminarlar, sərgilər, kitab icmalları təşkil edirdilər.

Azərbaycan Demokratik Respublikasının fəaliyyət göstərdiyi 23 ay müddətində kitabxanaçılıq sahəsində baş verən ən mühüm hadisələrdən biri də ictimai fikirdə kitabxana işi, əhaliyə kitabxana xidməti məsələlərinin aktual bir problem kimi formalaşmasıdır. Məhz bu illərdə kitabxana işi və kitabxana xidməti mövzuları ilk dəfə dövlət səviyyəsində xalqın mədəni inkişafının mühüm amili kimi səslənmiş, kitabxanaçılıq işinin nüfuzu artmağa başlamışdır. Təsadüfi deyil ki, bu dövrdə respublikada yeni yaradılan hər bir kiçik kitabxana haqqında mə'lumat belə nüfuzlu qəzetlərin səhifələrində əks etdirilmiş, kitabxana işi bilavasitə xalqın mədəni dirçəlişi, milli azadlıq və müstəqillik ideyaları ilə vəhdətdə götürülmüşdür. Təkcə 1919-cu ildə respublikada nəşr olunan qəzetlərdə ayrı-ayrı kitabxanaların fəaliyyətinə dair 90-dan artıq müxtəlif yazı dərc edilmişdir.[33]

Bu yazılarda müxtəlif kitabxanaların fəaliyyəti təbliğ edilir, kitabxanalara əhalinin marağını gücləndirmək üçün onların fondu, iş saatı, keçirdikləri tədbirlər geniş əks olunurdu. Məsələn, 1919-cu ilin dekabr ayında «Novıy mir» qəzetində dərc edilmiş yazıda göstərilirdi ki, «Kamennı» küçəsi ilə «Spasski» küçəsinin tinindəki 110 nömrəli evdə türk kitabxana-qiraətxanası açılmışdır. Burada türk, rus və başqa dillərdə kitablar və jurnallar vardır. Kitabxana səhər saat 3-dək açıqdır. Kitabxanadan hazırda 100 nəfərə qədər oxucu istifadə edir. Kitabxanada söhbətlər də təşkil edilir.[34]

Beləliklə, Azərbaycan Demokratik Respublikası dövründə kitabxanaçılıq işi sahəsində müəyyən tədbirlər həyata keçirilmiş, əhaliyə kitabxana xidməti müəyyən qədər yaxşılaşdırılmışdır. Qeyd etmək lazımdır ki, idarəçilik təcrübəsinin olmamasına və milli dövlət quruluşunun azömürlüyünə baxmayaraq ADR dövründən bizə bu hökumətin maarif, mədəniyyət, o cümlədən, kitabxana işi sahəsində təşəbbüslərini əks etdirən çoxsaylı sənədlər qalmışdır. Müxtəlif yerlərə səpələnmiş bu sənədləri toplamaq, talan olmuş arxiv materiallarını bərpa etmək, təhrifləri, yanlışlıqları, lüzumsuz ideoloji cəhdləri aradan qaldırmaq yolu ilə 1918-1920-ci illərdə Azərbaycanda kitabxana işinin real mənzərəsinin yaradılması müasir kitabxanaşünaslıq elminin qarşısında duran ən ümdə vəzifələrdəndir.

## *1.2.Kitabxanaçılıq işi üzrə metodik mərkəzlərin yaranması və inkişafı (1920-1940-cı illər)*

ADR-in fəaliyyəti dövründə bolşeviklər Azərbaycanın istiqlaliyyətinə qarşı yönəldilmiş düşmənçilik mövqeyini getdikcə gücləndirirdilər. İki dəfə - 1918-ci ilin dekabrında və 1919-cu ilin mayında onlar Bakıda siyasi tə'tillər təşkil etməyə cəhd göstərmişdilər. Bu tə'tillər siyasi xarakter daşıyıb, Azərbaycanın dövlət müstəqilliyinə qarşı yönəldilmişdi. Lakin azərbaycanlı fəhlələrin baykotu nəticəsində onlar tam iflasa uğradılar. Yalnız bu uğursuzluqdan sonra bolşeviklər Azərbaycanda yeritdikləri siyasətdə çox tələsik dəyişikliklər etməyə məcbur oldular.

RK(b)P-nin yerli təşkilatı kimi azərbaycanlılar arasında nüfuz qazanmağın qeyri-mümkünlüyünü başa düşən Bakı bolşevikləri gözdən pərdə asmaq məqsədilə «müstəqil» Azərbaycan Kommunist (bolşeviklər) Partiyasının yaradılması ideyasını

---

[33] Tağıyev H. Azərbaycanda kitabxanaçılıq işi.-B.:Azərnəşr, 1969.-S.96.
[34] Новый мир.- 1919.- 23 декабр.- №113.

irəli sürdülər. «Bu gün artıq heç kimə gizli deyildir ki, AK(b)P Sovet Rusiyasının Azərbaycana qarşıdakı müdaxiləsini pərdələmək üçün yaradılmışdı»[35].

1920-ci ilin əvvəllərində Rusiyanın Azərbaycana qarşı hərbi müdaxiləyə hazırlıq kampaniyası yekun mərhələsinə qədəm qoymuşdu. Rusiya sovet hökumətinin Azərbaycana əsl münasibətini V.İ.Leninin 1920-ci il martın 17-də İ.T.Smilqaya və Q.K.Orconikidzeyə göndərdiyi teleqram əks etdirir: «Bakını tutmaq olduqca və olduqca zəruridir. Bütün qüvvələri buna yönəldin»[36].

1920-ci il aprelin 27-də 11-ci Qızıl Ordu Azərbaycan ərazisinə soxulub, Bakıya doğru irəliləməyə başladı. Həmin gün Azərbaycan parlamentinə, AK (b)PMK və RK(b)P-nin Qafqaz ölkə komitəsinin Bakı bürosu adından hakimiyyəti təhvil vermək haqqında ultimatum təqdim olundu. Qan tökülməsinə yol verməmək üçün Azərbaycan parlamenti axşam saat 11-də hakimiyyətin Azərbaycan kommunistlərinə verilməsi barədə qərar çıxardı. Beləliklə, 1920-ci il aprelin 28-də ADR-in qanuni hökuməti Rusiyanın hərbi təcavüzü nəticəsində devrildi və Azərbaycanda 70 il hökmranlıq edən bolşevik rejimi hakimiyyətə gəldi.

Əlbəttə, Azərbaycan Kommunist Partiyası və Sovet hökuməti yaxşı başa düşürdü ki, bolşevik hakimiyyətini möhkəmləndirmək üçün ilk növbədə hərtərəfli siyasi təbliğat-təşviqat sistemi və proletar diktaturası ideologiyasına xidmət edən geniş informasiya mühiti yaradılmalıdır.

V.İ.Lenin açıq e'tiraf edirdi ki, bütün təhsil ocaqları, mədəni-maarif müəssisələri təbliğat-təşviqat işində partiya və dövlətin qərar və göstərişlərinin, sosializm və kommunizm ideyalarının həyata keçirilməsində əsas rol oynamalıdır. O, yazırdı: «Biz indi mütəşəkkil kitabxanalar şəbəkəsi yaratmalıyıq... Bu kiçik işdə inqilabımızın əsas vəzifəsi əks olunur»[37].

Məhz bu səbəbdən 1920-ci illərin əvvəllərindən Azərbaycan Kommunist Partiyası və Sovet hökuməti si-yasi-maarif işinə, yeni təhsil ocaqlarının açılmasına, savadsızlığın ləğv olunmasına, kitab nəşrinin, mədəni-maarif müəssisələrinin və eləcə də kitabxana şəbəkəsinin genişləndirilməsinə xüsusi diqqət yetirməyə başladı. Şübhəsiz ki, həyata keçirilən maarifçilik və mədəni quruculuq tədbirləri geniş zəhmətkeş kütlələri arasında proletar diktaturası ideologiyasının təbliği vəzifələrinə tabe edilirdi.

Lakin obyektivlik naminə qeyd etməliyik ki, bütün bunlar həm də xalqın təhsil və mədəni səviyyəsinin inkişafına, savadsızlığın ləğv edilməsinə müsbət tə'sir göstərirdi. Bu fikri həmin dövrdə Azərbaycanda kitabxana işinin inkişafına dair faktlar da təsdiq edir. 1920-ci illərdə respublikada kitabxana işinin təşkili ilə Xalq Maarif Komissarlığı yanında təşkil edilmiş məktəbdənkənar işlər şö'bəsi məşğul olurdu. Eyni zamanda bütün şəhər, qəza və rayon maarif şöbələrində də bu cür şö'bələr təşkil edilmişdi və az sonra bu şö'bələrin nəzdində kitabxana yarımşö'bələri yaradılmışdı.[38]

Belə dövlət strukturlarının təşkili respublikada kitabxana şəbəkəsinin yaranması üçün əsaslı zəmin olmuşdu. Belə ki, 1925-ci ildə Azərbaycanda artıq 91 kütləvi kitabxana-qiraətxana fəaliyyət göstərirdi. Bu kitabxanaların fondunda 584.147 kitab var idi. Onlar 77.578 oxucuya xidmət edirdi.[39]

Kütləvi kitabxanaların 25-i respublikanın qəzalarında yerləşirdi. 1925-ci ildə respublikanın qəza və rayon kitabxanalarında 85.000 kitab var idi və onlardan 25.000-dən artıq oxucu istifadə edirdi. Kitabların yarıdan çoxu Azərbaycan dilində, oxucuların isə 3/4 hissəsi azərbaycanlılar idi[40]. Həmin illərdə respublikanın kəndlərində qi-

---

[35] Azərbaycan Demokratik Respublikası.-B.,1992.-S.32.
[36] Lenin V.İ. Əsərlərinin tam külliyyatı. C.29. S.342.
[37] Yenə orada.
[38] Xələfov A.A. Sovet Azərbaycanında kitabxana işinin tarixindən.-B.,1960.-S.26.
[39] Yenə orada, S.115.
[40] Yenə orada, S.75.

raət komalarının da geniş şəbəkəsi yaradılmışdı.[41]

1920-ci illərdə Azərbaycanda kütləvi kitabxanalarla yanaşı, elmi, texniki, səhiyyə, kənd təsərrüfatı, məktəb və həmkarlar ittifaqları kitabxanalarının şəbəkələri də sür'ətlə inkişaf edirdi. Belə ki, artıq 1919-cu ildə yaradılmış Bakı Dövlət Universitetinin Elmi kitabxanası, 1920-ci ildə təşkil edilmiş Politexnik İnstitutunun kitabxanası, 1921-ci ildən oxuculara xidmət göstərən «Azərneft» mərkəzi elmi-texniki kitabxanası, 1923-cü ildən fəaliyyətə başlamış Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin kitabxanası, 1924-cü ildə həyata vəsiqə almış Azərbaycan Həmkarlar İttifaqı Mərkəzi Kitabxanası, 1925-ci ildə əsası qoyulmuş Azərbaycan Dövlət Kitab Palatası və başqa kitabxana-biblioqrafiya müəssisələri vardı.

Azərbaycanda kitabxanaçılıq işi sahəsində həyata keçirilən ən mühüm tədbirlərdən biri 1923-cü il iyunun 5-də Azərbaycan Dövlət Ümumi Kitabxanasının açılışı idi.[42]

Respublikamızda ildən-ilə artan kitabxana şəbəkəsi xalqın mütaliə mədəniyyətinin formalaşmasına çox səmərəli tə'sir göstərirdi. 20-ci illərdə oxunan kitabların demək olar ki, 90-95%-i kitabxana kitabı idi. Savadsızlığın ləğv edilməsində, əhalinin elmi dünyagörüşünün formalaşmasında, politexnik təhsildə, xalq təsərrüfatının bütün sahələri üçün kadr yetişdirilməsində təhsil ocaqları ilə yanaşı, kitabxanalar da mühüm tə'lim-tərbiyə müəssisələri kimi fəaliyyət göstərirdilər.

Azərbaycanda kitabxana şəbəkələri inkişaf etdikcə, onların fəaliyyəti mürəkkəbləşdikcə, təbliğatçılıq, siyasi maarifçilik və s. kimi iş üsulları zənginləşdikcə kitabxana işi sahəsində metodik rəhbərlik sisteminin formalaşması zərurəti də artırdı. Bu zərurət kitabxana işində proletar diktaturası ideologiyasına uyğun olaraq mərkəzləşdirilmiş partiya və dövlət prinsiplərinin həyata keçirilməsi, mənsubiyyətindən asılı olmayaraq bütün kitabxanaların fəaliyyətinin dövrün siyasi, ideoloji, mədəni və təsərrüfat vəzifələrinə tabe etdirilməsi siyasətindən irəli gəlirdi.

20-ci illərdə meydana çıxmış kitabxana işinə metodik rəhbərlik anlayışı mahiyyət e'tibarı ilə sovet rejimi şəraitində təşəkkül tapan və prinsipial cəhətdən dövlətin kitabxana siyasətində mühüm yer tutan yeni məsələlərdən biri idi.

Metodik rəhbərlik sistemi Azərbaycan Kommunist Partiyası və Sovet hökumətinin «mədəni inqilab» vəzifələrinə uyğun olaraq kitabxana işinin sür'ətlə inkişafının, respublika ərazisində kitabxanaların planlı qaydada yerləşdirilməsinin və onların əhaliyə yaxınlaşdırılmasının, kütlələr içərisində elmi-texniki biliklərin, ictimai-siyasi və bədii ədəbiyyatın təbliğinin elmi-metodik tə'minatçısı funksiyalarını həyata keçirməli idi. Bu sistem eyni zamanda respublikada kitabxana işinin təkmilləşdirilməsində, kitab təbliğinin və mütaliəyə rəhbərliyin səviyyəsinin yüksəldilməsində, kitabxana kadrlarının müvafiq vəzifələrə uyğun şəkildə hazırlanmasında partiya və dövlət orqanlarına əməli kömək göstərən bir yardımçı orqan kimi nəzərdə tutulurdu.

Məhz bu səbəblərə görə 20-ci illərdə Azərbaycanda kitabxanalara metodik rəhbərlik işi Xalq Maarif Komissarlığının məktəbdənkənar işlər şö'bəsi tərəfindən həyata keçirilməyə başladı. Şö'bənin ilk təşkilati-metodik tədbirləri kadr hazırlığına yönəldilmişdi. Azərbaycanda peşəkar kitabxanaçı kadrların olmaması, şübhəsiz, əhaliyə kitabxana xidmətinin səmərəli təşkilini, eləcə də kitabxana şəbəkəsinin genişləndirilməsini xeyli çətinləşdirirdi. Qarşıda kitabxana işinin texnologiyasını bilən ixtisaslı və peşəkar kitabxanaçıların hazırlanması kimi çox mühüm vəzifə dururdu. Bu məqsədlə Xalq Maarif Komissarlığı məktəbdənkənar işlər şö'bəsinin kitabxana yarımşö'bəsi respublikada ilk dəfə 6 həftəlik kitabxanaçılıq kursu təşkil etdi. Kursun ilk mə'zunları 90 nəfər oldu və onların hamısı şəhər, qəza, rayon, eləcə də Azərbaycan

---

[41] Yenə orada, S.83.

[42] Xələfov A.A. Sovet Azərbaycanında kitabxana işinin tarixindən.-B.,1960.-S.88.

ordusunun kitabxanalarına göndərildi.[43] Kursun işində Bakı kitabxanalarının təcrübəli işçiləri, kitabxanaçı-metodistlər fəal iştirak edirdilər. Onların arasında Mirzə Həsən Rzaquluzadə, Hüseyn Tağıyev, Əli Əjdər Seyidzadə və başqaları da var idi. Kursun dinləyiciləri Bakının iri və qabaqcıl kitabxanalarında təcrübə keçirdilər. Belə kurslar 1921-1922-ci illərdə də müntəzəm surətdə təşkil edilirdi.

Əlbəttə, Xalq Maarif Komissarlığının təşkil etdiyi kursları sırf metodik tədbirlər kimi qiymətləndirmək olmaz. Bu kurslar ilk peşəkar kitabxanaçılar dəstəsinin yaradılmasına yönəldilmiş ilkin dövlət tədbirləri idi. Lakin ilk kitabxanaçılıq vərdişlərinə yiyələnən kadrların hazırlanması işini eyni zamanda, metodik rəhbərlik sisteminin yaranması kimi də qeyd etmək olar.

20-ci illərdə Azərbaycanda kitabxana işinə rəhbərlik vahid mərkəzdə birləşdirilməmişdi. Müxtəlif mədəni-maarif müəssisələrinə ayrı-ayrı komissarlıqlar, idarələr və müəssisələr rəhbərlik edirdilər. Bu işi vahid mərkəzdə birləşdirmək məqsədi ilə 1921-ci ildə Azərbaycanda Baş Siyasi Maarif İdarəsi yaradıldı.[44] O, təşkilat baxımından Xalq Maarif Komissarlığına tabe idi. Həmin ilin aprel-sentyabr aylarında Baş Siyasi-Maarif İdarəsinin nəzdində müstəqil kitabxanaçılıq şö'bəsi, sonralar isə vahid kitabxana və klub şö'bəsi təşkil edildi. Bu şö'bə az müddət ərzində Bakı Xalq Maarif Şö'bəsi Siyasi Maarif İdarəsinin kitabxanaçılıq şö'bəsi ilə əlaqəli şəkildə fəaliyyət göstərməyə başladı.

Qeyd etmək lazımdır ki, Siyasi Maarif İdarəsinin yaradılması və onun struktur quruluşunda kitabxana bölməsinin açılması kitabxana işinə Azərbaycanda metodik rəhbərlik sisteminin yaranıb formalaşmasında yeni mərhələ oldu. Bu idarə oxuculara kitabxana xidmətinin səviyyəsinin yüksəldilməsinə, bu işin əlaqələndirilməsinə xüsusi əhəmiyyət verirdi. Həmin məqsədlə kitabxanalara metodik rəhbərlik işinin təşkili sahəsində həyata keçirilən tədbirlər diqqətəlayiqdir. Bu tədbirlər ilk növbədə kitabxana işinə dair metodik məktubların, tə'limatların, əsasnamələrin tərtibinə yönəldilmişdi. Tərtib edilmiş materiallar şəhər, qəza, rayon kitabxanalarına və eləcə də qiraət komalarına göndərilirdi. Baş Siyasi Maarif İdarəsininin nəşr etdirdiyi metodik vəsaitlər daha çox maraq doğurur. Belə ki, kitabxanalara metodik rəhbərliyin ən mühüm formalarından biri olan metodik vəsaitlərin Azərbaycanda ilk nümunələrinin meydana gəlməsi məhz bu idarənin fəaliyyəti ilə bağlıdır.

Bu vəsaitlər içərisində birinci növbədə Ə.Ə.Seyidzadənin «Kiçik türk kitabxanaları necə olmalıdır» (1921),[45] «Kitabxana nədir və ümumən necə kitabxanalar olur» (1922)[46], «Kitabın gücü və əhəmiyyəti nədədir» (1922)[47], «El kitabxanalarında kitablar necə yazılmalı və təsnif edilməlidir» (1922)[48] kitablarını ilk metodik nümunələr hesab etmək olar.

Ə.Ə.Seyidzadənin «Kitabın gücü və əhəmiyyəti nədədir» metodik vəsaitində kitabın meydana gəlməsinin qısa tarixçəsi, şəxsiyyətin formalaşmasında, həmçinin cəmiyyətin inkişafında kitabın və mütaliənin rolu göstərilir.

«Kitabxana nədir və ümumən necə kitabxanalar olur» adlı vəsaitdə Ə.Ə.Seyidzadə yazılı abidələr toplusu kimi kitabxanaların uzaq keçmişindən bəhs edir, qədim Misirin, antik Yunanıstanın və Romanın kitabxanaları haqqında mə'lumat verir. Sonra isə indiki kitabxanaların növlərini açıqlayır, onların cəmiyyətdəki maarifçilik fəaliyyətini şərh edir.

«El kitabxanalarında kitablar necə yazılmalı və təsnif edilməlidir» adlı metodik göstərişdə Ə.Ə.Seyidzadə o dövrün kataloq sistemlərindən, çap əsərlərinin təsvir

---

[43] Narodnoe prosvehenie.- 1920.- №2.- S.75.
[44] Xələfov A.A., Sovet Azərbaycanında kitabxana işinin tarixindən.-B.,1960.-S.53.
[45] Ə.Ə.Seyidzadə. Kiçik türk kitabxanaları necə olmalıdır.- B.: Siyasi maarif müdiriyyəti nəşriyyatı, 1921.-24 s.
[46] Ə.Ə.Seyidzadə. Kitabxana nədir və ümumən necə kitabxanalar olur.-B.,1922.-46 s.
[47] Ə.Ə.Seyidzadə. Kitabın gücü və əhəmiyyəti nədədir.-B.,1922.- 26 s.
[48] Ə.Ə.Seyidzadə. El kitabxanalarında kitablar necə yazılmalı və təsnif edilməlidir.- B.,1922.-48 s.

qaydalarından, dünya kitabxanalarında tətbiq edilən təsnifat sistemlərindən, o cümlədən, onluq təsnifat cədvəllərindən söz açaraq, kitabların təsnifləşdirmə metodikasını geniş şəkildə təsvir edir.

20-ci illərdə Siyasi Maarif İdarəsi nəşriyyatı tərəfindən kitabxana işinin təşkilinə dair bir sıra başqa qiymətli metodik göstərişlər, tövsiyələr, uçot formaları, müxtəlif əsasnamələr və tə'limatlar da nəşr edilmişdir. Bu vəsaitlərdən bə'ziləri rus dilindən tərcümə edilmişdir. Məsələn, A.Vojqalskinin «Qiarətxana komasında nasıl çalışmalı» (1924)[49], A.Belovun «Mövzu kataloqu nə deməkdir və onu kənd kitabxanalarında nasıl təşkil etməli» (1926)[50] adlı vəsaitləri və digər nümunələr kitabxanaçıların peşə biliklərinin inkişafına, eləcə də əhaliyə kitabxana xidmətinin təkmilləşdirilməsinə səmərəli tə'sir göstərə bilirdi.

O dövrdə respublikanın kitabxanalarında kataloq sisteminin yaradılmasında və kitabxana fondunun təşkilində mühüm yer tutan vəsaitlərdən biri də M.H.Rzaquluzadənin Azərbaycan dilində nəşr etdirdiyi «İkirəqəmli cədvəl («Ketter üsulu üzrə)»[51] adlı kitabçası idi. Bu vəsait də Baş Siyasi Maarif İdarəsinin sifarişi əsasında hazırlanmış və çap olunmuşdur. Bundan əvvəl - 1926-cı ildə isə həmin idarə Azərbaycanda ilk dəfə «Onluq kitabxana sistemi» ni Azərbaycan dilində nəşr etdirmişdir.[52]

Mə'lum olduğu kimi, 20-ci illərdən başlayaraq Azərbaycanın kənd zəhmətkeşlərinə kitabxana xidməti əsasən qiraət komaları vasitəsilə həyata keçirilirdi. Qiraət komalarının işindən bəhs edən tarix elmləri doktoru, professor Abuzər Xələfov yazır: «Respublikamızın kəndlərində qiraət komalarının geniş şəbəkəsi yaranmış və sabitləşmişdi. 1925-ci ildə Azərbaycanda 227 qiraət koması var idi. Qiraət komalarından istifadə etmək kəndlilərin məişətinə daxil olmağa başlamışdı. Qiraət komalarına Azərbaycan dilində nəşr edilən bütün qəzet və jurnallar göndərilirdi. 1925-ci ildə Baş Siyasi Maarif İdarəsi hər qiraət komasına 350 nüsxə kitab göndərmişdi»[53].

Qiraət komalarının sür'ətlə artması burada işləyən kadrların ixtisas biliklərinin, ümumi dünyagörüşlərinin, təşkilatçılıq vərdişlərinin inkişafını və təkmilləşdirilməsini tələb edirdi. Məhz bu səbəbdən 20-ci illərdə Siyasi Maarif İdarəsinin hazırladığı və nəşr etdirdiyi metodik vəsait sistemində qiraət komalarında işin təşkilinə, bu sahədə qazanılmış qabaqcıl təcrübənin yayılmasına xüsusi diqqət yetirilirdi. Bu vəsaitlər içərisində sırf Azərbaycan təcrübəsi əsasında hazırlanmış və eləcə də rus dilindən tərcümə edilmiş kitabçalar var idi. Məsələn, 1924-cü ildə 300 nüsxədə çap edilmiş «Oktyabr klub və qiraət komalarında»[54] adlı metodik vəsait respublikamızın qabaqcıl klub və kitabxanalarının iş təcrübəsini əks etdirirdi. Bu dövrdə çap olunan metodik vəsaitlər əsasən qiraət komalarının fəaliyyətinin ayrı-ayrı sahələrinə dair tövsiyələrdən və tə'limatlardan ibarət idi. Belə vəsaitlərdən «Qiraətxana komasında müsahibələri nasıl aparmalı»[55], «Qiraətxana komasında nasıl çalışmalı», «Qiraət komasında qəzetə işləri»[56], «Qiraət komalarının fəaliyyəti barəsində (tə'limat)»[57], «Qiraət komasının mə'lumat işləri»[58] və s. göstərmək olar. Bu kitab və kitabçalar bir qayda olaraq 100-300 nüsxə tirajla çap edilib respublikanın bütün kitabxanalarına və qiraət komalarına, eləcə də digər mədəni-maarif müəssisələrinə göndərilirdi.

Qiraət komalarında çalışan işçilər üçün vaxtaşırı kursların və seminarların təşkili

---

[49] Vojqalski A. Qiraətxana komasında nasıl çalışmalı.-B.,1924.-79s.
[50] Belov A.M., Mövzu kataloqu nə deməkdir və onu kənd kitabxanalarında nasıl təşkil etməli.-B.:Ali Siyasi Maarif İdarəsi nəşriyyatı, 1926.-36 s.
[51] Rzaquluzadə M.H. İkirəqəmli cədvəl (Ketter üsulu üzrə).-B.,1927.-33 s.
[52] Onluq kitabxana sistemi.-B.:Ali Siyasi Maarif İdarəsi nəşriyyatı, 1926.-58 s.
[53] Xələfov A.A. Sovet Azərbaycanında kitabxana işinin tarixindən.-B.,1960.-S.88.
[54] Oktyabr klub və qiraət komalarında.-B.:Ali Siyasi Maarif İdarəsi nəşriyyatı,1924.-96 s.
[55] Qiraət komasında müsahibələri nasıl aparmalı. B.,1926.-78 s.
[56] Slukovski M. Qiraət komasında qəzetə işləri.-B.,1926.-71 s.
[57] Tə'limat (Qiraət komalarının fəaliyyəti barəsində).-B.,1925.-16s.
[58] Filipov S. Qiraət komasının mə'lumat işləri.-B.,1927.-32 s.

də Baş Siyasi Maarif İdarəsinin fəaliyyətində mühüm yer tuturdu. Hər il təşkil edilən belə kurslarda bir qayda olaraq 90-100 nəfər olurdu.

Baş Siyasi Maarif İdarəsi kollegiyasının qərarı ilə 1927-ci ilin aprelində Bakı və Gəncə şəhərlərində qiraət koması işçilərinin bir aylıq kursu təşkil olunmuşdu.[59] 1928-ci ildə isə Bakıda respublika kənd rayonlarının qiraət komaları müdirlərinin ikihəftəlik kursu təşkil edilmişdi.[60] Həmin kursda o dövrdə kənddə mədəni quruculuqla əlaqədar qiraət komalarının məqsəd və vəzifələri haqqında mühazirələr oxunmuş, kitabxana işçiləri arasında təcrübə mübadiləsi aparılmışdır.

20-ci illərdə kitabxanaçı kadrların hazırlanması və təkmilləşdirilməsi sahəsində həyata keçirilən diqqətəlayiq hadisələrdən biri də qəzalarda ixtisasartırma kurslarının təşkil edilməsi idi. Baş Siyasi-Maarif İdarəsi 1926-1928-ci illərdə bir sıra qəzalarda, o cümlədən, Gəncədə, Şəkidə, Şamaxıda, Qubada kitabxana və qiraət komaları işçiləri üçün təkmilləşdirmə kursları təşkil edirdi.[61]

1926-cı ilin aprelində bu idarə həmkarlar ittifaqının mədəniyyət şö'bəsi ilə birlikdə həmkarlar təşkilatları kitabxanaları işçilərinin 2 aylıq kursunu həyata keçirmişdi. Kursa 44 nəfər kitabxanaçı cəlb olunmuşdu.[62]

Beləliklə, 20-ci illərin birinci yarısında Xalq Maarif Komissarlığı və xüsusilə Baş Siyasi Maarif İdarəsi Azərbaycanda kitabxanalara metodik rəhbərlik sahəsində aparıcı müəssisələr kimi iştirak edir və mühüm rol oynayırdılar. Onlar metodik işi kitabxanaçılıq sahəsində idarəetmə və dövlət nəzarəti funksiyaları ilə əlaqəli şəkildə qurur və onu əsasən kitabxana işində partiya və dövlət siyasətinin həyata keçirilməsinə tabe edirdilər.

20-ci illərin ikinci yarısından Azərbaycanda kütləvi kitabxanalar şəbəkəsi ilə yanaşı, sür'ətlə inkişaf etməyə başlayan digər kitabxana şəbəkələri, xüsusən həmkarlar ittifaqı kitabxanaları şəbəkəsi metodik rəhbərlik sahəsində dövrün tələblərinə uyğun keyfiyyət dəyişikliyi tələb edirdi.

Respublikamızda kitabxanaçılıq fikrinin formalaşmağa başladığı bir şəraitdə kitabxanalara metodik rəhbərlik sistemi yalnız Xalq Maarif Komissarlığı, o cümlədən Baş, Siyasi Maarif İdarəsi çərçivəsində inkişaf edib təkmilləşə bilməzdi. Yeni şəraitdə kitabxanalara metodik rəhbərlik işi sistemli xarakter daşımalı, daxili iyerarxiyalı struktura malik olmalı və elmi əsaslarla idarə edilən bir sosial fəaliyyət sahəsinə çevrilməli idi. Bu isə öz növbəsində metodik rəhbərlik sisteminin yerli özəklərinin meydana gəlməsini, daha doğrusu, hər bir region və şəbəkə daxilində metodik mərkəzlərin yaranmasını və metodik fəaliyyətin idarələrarası əlaqələndirilməsi mexanizminin formalaşmasını tələb edirdi.

20-ci illərin ikinci yarısında Azərbaycanın bir sıra qəzalarında, eləcə də Bakı və onun rayonlarında metodik birliklər meydana gəlməyə başlayır. Bu metodik birliklər özlərində müvafiq ərazidə yerləşən bütün kitabxana şəbəkələrini əhatə etməklə bir növ şəbəkələrarası metodik mərkəz funksiyalarını yerinə yetirməyə çalışırdılar.

Bu dövrdə Bakı şəhər kitabxanalarının metodik birliyi daha geniş fəaliyyət göstərirdi. Bu birlikdə respublikanın təcrübəli kitabxana işçilərindən V partiya qurultayı adına kitabxananın müdiri Nənəxanım Kərimova, Lenin adına mərkəzi şəhər kitabxanasının müdiri Rəfiqə Rəhimbəyova, Sabir adına Bakı şəhər kütləvi kitabxanasının müdiri Səfərəli Rəhimzadə, Bakı şəhər İcraiyyə Komitəsi Siyasi Maarif İdarəsi metodkabinəsinin metodisti Hüseyn Tağıyev, Fioletov adına kitabxananın müdiri Berta Şulman və başqaları səmərəli fəaliyyət göstərirdilər. Bakı kitabxanaçıları metodik birliyi yalnız 1926-cı ildə 75 iclas keçirmiş və bu iclaslarda kitabxana işinin bir sıra aktual məsələlərini müzakirə etmişdir. Məsələn: «Kitabxanalarda yeni əlifbanın təbliği», «Bakı şəhər kitabxanalarında dərnəklərin fəaliyyəti», «Bakı rayonlarının kitab-

---

[59] Azərbaycan Respublikası MDA, f.1.s.2, iş 200, v.45.
[60] Yenə orada.
[61] Azərbaycan Respublikası MDA, f.1439, s.2, iş 200, v.45.
[62] Bakı şəhər XDS İK-nin arxivi, f.41, s.1, iş 835, v.50.

xanalarına oxucuların cəlb edilməsinin vəziyyəti», «Uşaqlara kitabxana xidməti», «Sənaye müəssisələrində səyyar kitabxanaların təşkili»[63] və s.

Bakı şəhər kitabxanaları metodik birliyinin fəaliyyətini operativ və məqsədyönlü təşkil etmək üçün 1926-cı ildə onun nəzdində beş bölmə təşkil edildi:

1. Metodik bölmə;
2. Kitabları öyrənən bölmə;
3. Azərbaycan bölməsi;
4. Uşaqlarla iş bölməsi;
5. Səyyar kitabxana xidməti bölməsi.

Birliyin fəaliyyətinə Rəyasət Hey'əti rəhbərlik edirdi. Rəyasət Hey'əti bölmələrin iş planlarını təsdiq edir, şəhər əhalisinə kitabxana xidmətinin perspektiv planlarını işləyir, metodik işin müxtəlif məsələlərini müzakirə edirdi. Birliyin 1927-ci ildə müzakirə etdiyi məsələlər içərisində Beynəlxalq qadınlar günü, 26 Bakı komissarının xatirəsi, Oktyabr inqilabının 10-cu ildönümü, türkoloji qurultayın Bakıda keçirilməsi və s.[64] xüsusi yer tutur. Burada ədəbiyyatın təbliği, səyyar kitabxanaların təşkili, ədəbi-bədii gecələrin keçirilməsi və s. kimi məsələlərin metodik tə'minatına da xüsusi diqqət yetirilirdi. Belə ki, təkcə 1928-ci ildə metodik birlik Bakı şəhəri və onun rayonlarında yerləşən kitabxanalarda 108 mühazirə, 53 ədəbi-bədii gecə, 479 sərgi, 689 albom və plakat, 379 tövsiyə siyahısı, 840 dərnək iclası və s. kimi tədbirlər keçirmişdi[65].

20-ci illərdə Bakı kitabxanalarının nəzdində bir sıra maraqlı dərnəklər fəaliyyət göstərirdi. Məsələn: kitabxana dostları, ədəbiyyat, dram, bədii, müxbir, kitabı öyrənən, cildçi, təbiəti sevənlər, radio həvəskarları, uşaq dostları, incəsənəti sevənlər və s. Bu dərnəkləri məhz Bakı şəhər kitabxanaları metodik birliyinin Rəyasət Hey'əti idarə edir, dərnək rəhbərlərini də özü seçirdi. Bundan başqa metodik birlik şəhərin kütləvi kitabxanalarında tez-tez oxucu yığıncaqları, bu və ya digər kitabxananın fəaliyyətinə həsr edilmiş konfranslar da təşkil edirdi ki, belə yığıncaq və konfranslarda kitabxanalar öz işi haqqında hesabat verir, fəal oxucular isə onların fəaliyyətini təhlil edərək, qiymətləndirirdilər.

1926-cı ildə Bakı şəhər kitabxanaları metodik birliyinin Rəyasət Hey'əti uşaq kitabxanalarının və uşaq şö'bələri olan digər kitabxanaların yay aylarında öz işlərini şəhərin park, bağ və digər xiyabanlarında təşkil etməsi haqqında təşəbbüs qaldırdı və may ayının 20-də Bakı şəhər kütləvi kitabxanalarının yay mövsümündə fəaliyyəti mövzusunda iki günlük seminar keçirdi.[66] Seminarda Bakının park, bağ və digər xiyabanlarında və kütləvi gəzinti yerlərində xüsusi səyyar uşaq kitabxanalarının təşkili, dərsə və məktəbə laqeydlik göstərən uşaqların kitabxanalara cəlb edilməsi, uşaqlara kitabxana xidmətinin forma və üsulları barədə ətraflı söhbət aparıldı. Eyni zamanda bu işin səmərəli təşkili üçün əməli tədbirlər proqramı tərtib olunaraq kitabxanalara tövsiyə edildi. Qeyd etmək lazımdır ki, bu, Bakı şəhər kütləvi kitabxanalarının fəaliyyətində tamamilə yeni təcrübə idi. Kitabxanalar ilk növbədə ixtisaslaşdırılmış uşaq kitabxanaları şəhərin müxtəlif park və bağlarında təşkil etdiyi səhərciklərə, görüşlərə, sual-cavab saatlarına, ədəbi viktorinalara, nağıl saatlarına, ucadan oxulara əvvəllər kitabxanalardan heç istifadə eləməyən xeyli uşaq oxucusu cəlb edə bilmişdi. Onların bir çoxu mütaliə ilə məşğul olmaqla yanaşı, kitabxana işçilərinə də kömək edirdilər. «Bakinskiy raboçiy» qəzeti bu münasibətlə yazırdı: «Qiraətxanalar çoxlu sahibsiz, xırda alverlə məşğul olan, çəkmə təmizləyən uşaqları və başqalarını, eləcə də ömründə heç kitab görməmiş uşaqları belə oxucular sırasına cəlb edə bilmişlər. Bu müddət ərzində həmin qiraətxanalar mütaliəyə 8540 nəfər uşaq cəlb etmişlər»[67].

---

[63] Bakı şəhər İcra Hakimiyyətinin arxivi, iş 41, s.1, iş 830, v.53.
[64] Bakı şəhər İcra Hakimiyyətinin arxivi, f.41. s.1, iş 830, v.54.
[65] Bakı şəhər İcra Hakimiyyətinin arxivi, f.41, s.1, iş 830, v.53.
[66] Bakı şəhər İcra Hakimiyyətinin arxivi, f.41, s.1, iş 830, v.54.
[67] Бакинский рабочий.- 1926.- 8 октйабр.

1926-cı ilin oktyabrında metodik birliyin Rəyasət Hey'ətinin iclasında Bakı şəhər uşaq kitabxanalarının yay aylarındakı fəaliyyətinin yekunları geniş müzakirə edildi.[68] Müzakirədə Rəyasət Hey'əti üzvlərindən R.Rəhimbəyova, S.Rəhimzadə, H.Tağıyev, İ.Volkoviç, A.Malnina çıxış edərək, kitabxanaların bu sahədə gördüyü işləri təhlil edib çox yüksək qiymətləndirdilər. İclasda eyni zamanda bu işin ən'ənəyə çevrilməsi və uşaq kitabxanalarına metodik rəhbərliyin daha da təkmilləşdirilməsi məsələsi geniş müzakirə edildi.

Bu xeyirxah və maraqlı tədbir Bakı kitabxanaları tərəfindən 1926-cı ildən başlayaraq 1980-ci illərin sonuna qədər davam etdirilmişdir.

50 ildən artıq davam etmiş bu mütərəqqi ən'ənə, təəsüf ki, son illər şəhərimizin park və xiyabanlarının, digər kütləvi gəzinti meydanlarının yarıtmaz vəziyyətə düşməsi ilə əlaqədar dayandırılmışdır. Şübhəsiz, kütləvi tədbirlərin keçirilməsi sahəsində kitabxanaların fəaliyyətinin xeyli zəiflədiyi indiki dövrdə tarixi təcrübəyə isnad edərək 20-ci illərdən kitabxana işində geniş vüs'ət tapmış park və xiyabanlarımızda səyyar qiraətxanaların təşkili ən'ənələrinin bərpa edilməsi və metodik baxımdan müasir şəraitə uyğunlaşdırılması respublikamızda əhaliyə kitabxana xidmətinin demokratikləşdirilməsi yolunda uğurlu addım ola bilər.

Artıq 20-ci illərin ikinci yarısında Azərbaycan Mərkəzi Dövlət Kitabxanası respublikamızda kitabxanaçılıq sahəsində aparıcı müəssisə kimi formalaşmaq mərhələsinə daxil olmuşdu. 1928-ci il yanvarın 1-nə olan mə'lumata görə kitabxananın fondunda 300 min nüsxə kitab, kitabça, jurnal, qəzet və digər materiallar toplanmışdı. Burada 38 dildə çap məhsulu mühafizə olunurdu. Kitabxana həmin il 3183 oxucuya xidmət etmişdi. 1927-ci ildə kitabxanada 29 nəfər əməkdaş fəaliyyət göstərirdi.[69]

Azərbaycan Mərkəzi Dövlət Kitabxanasının metodik fəaliyyəti 1927-ci ildən metodik məktubların tərtibi ilə başlandı. Həmin il kitabxana «Yeni əlifbanı kitabxanalarda nasıl təbliğ edilməli», «Kitabxana kataloqlarını nasıl təşkil etməli» mövzularında ilk metodik məktublar tərtib edib Bakı qəza və rayon kitabxanalarına göndərdi.[70] Metodik məktublarla yanaşı, kitabxana eyni zamanda ilk biblioqrafik göstəricilərin və tövsiyə siyahılarının tərtibi ilə də məşğul olurdu.

1927-1930-cu illərdə Mərkəzi Dövlət Kitabxanası «Şərq incəsənəti», «Şərqdə qadın hərəkatı», «1927-ci ildə Şərq haqqında SSRİ-də çap edilmiş ədəbiyyat» və s. kimi biblioqrafik göstəricilər çap etdirdi.[71] İstər metodik vəsaitlər, istərsə də biblioqrafik siyahılar və göstəricilər respublikadakı digər kitabxanaların fəaliyyətinin təkmilləşdirilməsinə yönəldilmiş ilk təşkilati-metodik tədbirlər idi. Bununla yanaşı, Mərkəzi Dövlət Kitabxanasında müntəzəm olaraq təşkil edilən yeni kitabların icmalları, daimi kitab sərgiləri və kitab müzakirələri kitabxana işçilərinin ixtisas və peşə biliklərinin dərinləşməsinə və təkmilləşməsinə tə'sir göstərirdi.

Beləliklə, Mərkəzi Dövlət Kitabxanası tədricən respublika kitabxana işçiləri üçün tə'lim-tərbiyə ocağına və metodik mərkəzə çevrilirdi. Bütün bunlar respublika kitabxanalarına metodik rəhbərlik sisteminin formalaşmasında yeni dövrün başlanması sayıla bilər. Lakin bu kitabxananın 20-ci illərdəki metodik fəaliyyəti hələ aparıcı mövqe tutmurdu. Bunun üçün kitabxananın kifayət qədər elmi potensialı, ixtisaslı kadrları yox idi. Kitabxananın struktur quruluşunda xüsusi şö'bənin və ya metodik kabinənin olmaması da bu işin geniş vüs'ət almasına imkan vermirdi.

Qeyd etdiyimiz kimi, 20-ci illərdə Azərbaycanda kütləvi kitabxanalarla yanaşı, müxtəlif komissarlıqlara, idarə və müəssisələrə, sənaye sahələrinə məxsus kitabxana şəbəkələrinin durmadan inkişafı şəbəkədaxili metodik mərkəzlərin yaranması zərurətini meydana çıxarmışdı. Bu baxımdan ilbəil inkişaf edən həmkarlar ittifaqı kitab-

---

[68] BŞİHA, f.41. s.1, iş 830, v.53.

[69] Süleymanzadə Q. Mə'nəvi sərvətimizin böyük xəzinəsi //M.F.Axundov adına ADK-nın əsərləri, hissə I.-B.,1980.-S.22-23.

[70] M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının arxivi, f.1, iş.14,s.60.

[71] Yenə orada.

xanaları şəbəkəsinin, elmi-texniki, tibb, kənd təsərrüfatı, təhsil sahələrinə məxsus kitabxana şəbəkələrinin metodik mərkəzlərinin yaranması başlıca vəzifələrdən biri idi.

1926-cı ilin əvvəlinə olan mə'lumata görə, Respublika Həmkarlar İttifaqı sistemində 261.574 nüsxə kitab fonduna malik 44 müstəqil kitabxana, yüzlərlə səyyar və kitab verilişi məntəqələri var idi ki, bunlar da 32.510 oxucuya xidmət göstərirdi.[72] Həmkarlar ittifaqı sistemindəki kitabxanaların fəaliyyətinə metodik rəhbərlik işini nizama salmaq məqsədilə AHİŞ-in yanında xüsusi kitabxana bürosu təşkil olunmuşdu. Bu büro müntəzəm olaraq kitabxana müdirlərinin müşavirəsini keçirir və metodik mə'ruzələri dinləyib, qabaqcıl iş təcrübəsini təbliğ edirdi. Bununla yanaşı, 1924-cü ildə dağ-mə'dən fəhlələri həmkarlar ittifaqı mərkəzi kitabxanası yaradıldı.[73]

20-ci illərin ikinci yarısında Respublika Həmkarlar İttifaqı kitabxanalarına metodik rəhbərlik AHİŞ-in mədəni-maarif şö'bəsi, kitabxana bürosu və Həmkarlar İttifaqı Mərkəzi Kitabxanası tərəfindən həyata keçirilirdi. Bu təşkilatların əlaqəli fəaliyyəti nəticəsində ayda bir dəfə kitabxana işçilərinin metodik seminar-müşavirəsi təşkil edilirdi. Bundan başqa, kitabxana bürosunun əməli fəaliyyəti nəticəsində digər şəhərlərdən, xüsusən Moskvadan müntəzəm surətdə yeni metodik ədəbiyyat alınır, onların sərgiləri təşkil edilirdi. Eyni zamanda AHİŞ sistemində işləyən təcrübəli kitabxanaçılar yerlərdə kitabxanalara baxışlar və yoxlamalar keçirir, onların fəaliyyəti ilə tanış olur, qabaqcıl iş üsullarını öyrənib təhlil edir və əməli köməklik göstərirlər. Bu işdə tanınmış kitabxana əməkdaşlarından Əliyusif Əliyev, Aron Lerman, Bilqeyis Qasımova daha fəal idilər.

Qeyd etmək lazımdır ki, 20-ci illərdə Azərbaycanda kitabxanalara metodik rəhbərlik sistemi sovet, ilk növbədə rus kitabxanaşünaslıq nəzəriyyəsi və təcrübəsinin tə'siri altında inkişaf edirdi. Bu tə'sir metodik rəhbərliyin əsas istiqamətlərində, məzmununda, forma və metodlarında özünü göstərirdi. Kitabxanalara metodik rəhbərlik sistemi sahəsində qabaqcıl rus sovet kitabxanaşünaslığı nəzəriyyə və təcrübəsinin öyrənilib Azərbaycan şəraitinə uyğun tətbiq edilməsi Respublika Həmkarlar İttifaqı kitabxana şəbəkəsində daha geniş və operativ həyata keçirilirdi. Belə ki, AHİŞ-in Rəyasət Hey'əti 1926-cı ilin iyun ayında respublika kitabxana işçilərinin bir qrupunu Moskva və Leninqrad şəhərlərinə həmkarlar ittifaqı kitabxanalarının iş təcrübəsini öyrənmək məqsədilə e'zamiyyətə göndərmişdi. Həmin ilin payızında isə Bakı şəhəri kitabxana işçilərinin bu e'zamiyyətin nəticələrinə həsr olunmuş metodik müşavirəsi keçirildi.[74] Müşavirədə Leninqrad şəhər həmkarlar ittifaqı kitabxanalarının iş təcrübəsinə üstünlük verildi, onların xüsusən oxucularla aparılan kütləvi tədbirləri, oxucu dərnəklərinin, istehsalat təhsili, kitabxana texnologiyası, kadrların ixtisasının artırılması sahəsindəki mütərəqqi iş üsulları geniş müzakirə edildi. Eyni zamanda Moskva və Leninqrad şəhərləri həmkarlar ittifaqı kitabxanalarının iş təcrübəsinin Bakı şəhər kitabxanalarında tətbiq edilməsinə dair qərar qəbul olundu.

20-ci illərin sonu - 30-cu illərin əvvəllərində həmkarlar ittifaqı kitabxanalarının metodik rəhbərlik işində mütərəqqi meyl özünü daha qabarıq şəkildə gəstərirdi.

Birincisi, kitabxanaların oxucularla yaradıcılıq əlaqələrinin möhkəmlənməsi və oxucuların maksimum dərəcədə kitabxanaların fəaliyyətinə cəlb edilməsi.

İkincisi, kitabxanaların fəaliyyətinin nəşriyyat işi ilə əlaqələndirilməsi, kitabxana işinin respublikada kitab nəşrinə müsbət tə'siri.

Birinci istiqamətdə həmkarlar ittifaqı kitabxanaları demək olar ki, respublikanın digər kitabxana şəbəkələrinə nisbətən daha fəal və səmərəli fəaliyyət göstərmişlər. Məsələn, 1926-1927-ci illər ərzində hər il həmkarlar ittifaqı kitabxanaları oxucularının ümumbakı ittifaqlararası konfransları keçirilsə də, həmin dövrdə heç bir

---

[72] Quliyev T. Azərbaycanda kitabxanaçılıq işi (Respublika Həmkarlar İttifaqı kitabxanalarının materialları əsasında).-B.,1986.-S.15.

[73] Yenə orada.

[74] Труд.- 1926.- №12.- С.21-23.

kitabxana şəbəkələrində bu cür konfranslar təşkil edilmirdi. Bu konfranslarda kitabxana işçiləri və fəal oxucular geniş fikir mübadiləsi apararaq fəhlə və qulluqçulara kitabxana xidmətinin yaxşılaşdırılması yollarını müəyyənləşdirir, ortaya çıxan çətinliklərin aradan qaldırılmasına dair birgə fəaliyyət proqramları hazırlayırdılar.[75] Bu baxımdan sonralar respublikada geniş tətbiq edilən bir çox mütərəqqi iş üsulları ilk dəfə məhz həmkarlar ittifaqları kitabxanalarının metodik mərkəzləri tərəfindən irəli sürülmüş və yayılmışdır.

Buna misal olaraq 20-ci illərin sonunda kitabxanalarda «Açıq kitab rəfi» təşəbbüsünü göstərmək olar. Bu təşəbbüs Azərbaycanda ilk dəfə həmkarlar ittifaqı kitabxanaları üçün baş metodik mərkəz olan AHİŞ mədəniyyət şö'bəsinin kitabxana bürosu tərəfindən 1929-cu il sentyabrın 21-də keçirilmiş xüsusi müşavirədə əsaslandırılaraq irəli sürülmüş və dəmiryolçuların həmkarlar ittifaqı kitabxanasında tətbiq edilməyə başlanılmışdır.[76]

Sonralar digər kitabxana şəbəkələrinin fəaliyyətində geniş tətbiq edilən bir çox mütərəqqi iş üsulları, o cümlədən, kitabxana yürüşləri, zərbəçi fəhlə oxucuların konfransları, nəşriyyat planlarının müzakirələri, kitablar haqqında oxucu mülahizələri, «Kitab dostları», «Kitabı öyrənənlər» dərnəkləri və s. ilk dəfə məhz həmkarlar ittifaqı kitabxanaları metodik mərkəzinin təşəbbüsü nəticəsində meydana çıxmışdır.

Qeyd etdiyimiz kimi, həmkarlar ittifaqı kitabxanalarının metodik rəhbərlik sistemində oxucularla yaxından əlaqə yaratmaq və onları bilavasitə kitabxana işinə cəlb etmək ən mühüm istiqamətlərdən biri idi. Bu baxımdan 1930-cu il fevralın 27-də Azərbaycan Həmkarlar İttifaqı kitabxana işçilərinin zərbəçi fəhlə oxucularla birlikdə növbəti ümumbakı konfransının təşkili olduqca səciyyəvidir.[77]

Kitabxanaçılıq sahəsinin mühüm hadisə və faktlarını, əhaliyə kitabxana xidmətinin aparıcı cəhətlərini, inkişaf meyllərini əks etdirmək baxımından konfransda müzakirə olunan məsələlər həmkarlar ittifaqı kitabxanalarına metodik rəhbərlik sisteminin real həyata yaxın olduğunu bir daha sübut edir. Belə ki, konfransda kitabxana yürüşlərini genişləndirmək, oxuculara xidmət edən səyyar məntəqələri daha əlverişli hala salmaq, Baş Siyasi Maarif İdarəsi ilə birlikdə uşaq kitabxanalarının vəziyyətini yoxlamaq və onların işini yaxşılaşdırmaq, kitab fondlarını köhnəlmiş və istifadə üçün yararsız nəşrlərdən təmizləmək, onları yeni aktual ədəbiyyatla operativ şəkildə komplektləşdirmək, kitabxanalara yeni ədəbiyyat almaq üçün ayrılan vəsaitin başqa məqsədlərə sərf edilməsinin qarşısını almaq, azixtisaslı fəhlələrin mütaliəsinin ön plana çəkilməsi məqsədilə fəhlə yataqxanalarında, evlər idarələrində, qəsəbələrdə kitab verilişi məntəqələri yaratmaq, nahar fasilələrində fəhlələr arasında kütləvi işlərin aparılması məqsədilə fəal oxuculardan ibarət bədii qiraətçilər, müsahibəçilər və mühazirəçilər dəstələri yaratmaq, fəhlə və evdar qadınları kitabxanalara cəlb etmək, kitabxana fondlarının mühafizəsini təşkil etmək, kitabxanaçı kadrların peşə vərdişlərini təkmilləşdirmək və s. kimi məsələlər geniş müzakirə olundu və müvafiq qərar qəbul edildi.

Həmkarlar ittifaqı kitabxanalarına metodik rəhbərlik sisteminin təşkilində ikinci aparıcı meyl, qeyd etdiyimiz kimi, kitabxana işinin kitab nəşri ilə sıx surətdə əlaqələndirilməsi idi.

Bu istiqamət, şübhəsiz ki, respublikada kitab nəşrinin optimal şəkildə formalaşmasına, oxucuların mütaliə mədəniyyətinin inkişafına və eləcə də kitabxana fondlarının daha məqsədyönlü komplektləşdirilməsinə şərait yaradırdı. Bu məqsədlə həmkarlar ittifaqı kitabxanalarının nəzdində fəaliyyət göstərən «Kitabı öyrənənlər» dərnəklərinin üzvləri respublikada nəşr edilən əsərləri izləyir, öyrənir, müzakirə edir və onlar haqqında kollektiv oxucu rə'yləri hazırlayıb «Trud» qəzetinin, «Trud» və

---

[75] ARMDA, f.114, s.1, iş 614, v.8.
[76] ARMDA, f.114. s.1, iş 614, b.14, v.6.
[77] Yenə orada.

«Həmkarlar İttifaqı» jurnallarının tənqid və biblioqrafiya bölmələrində çap etdirirdilər. Belə yazılar bir tərəfdən oxucuların mütaliəsini fəallaşdırır, digər tərəfdən isə nəşriyyatlara və müəlliflərə müvafiq əsərlər haqqında oxucu mülahizələrinin çatdırılmasında mühüm vasitə sayılırdı. Belə ki, «Həmkarlar İttifaqı» jurnalının 1928-ci il 23-24-cü nömrələrində verilən oxucu mülahizələri bütövlüklə M.Kazımının həmin il Bakıda nəşr edilmiş «Qorxulu Tehran» əsərinə həsr lunmuşdur.[78]

Qaraşəhər oxucuları adından R.Cəbrayılın, inşaatçılar Məmmədovun, Hüseynzadənin, Əfəndiyevin mülahizələrində əsərin məzmunu açılır, tənqidi mülahizələr söylənilir, nəşriyyatlara tövsiyələr verilirdi. Məsələn, mülahizələrin birində inşaatçı Əfəndiyev yazırdı: «Bu vaxta kimi türkcə şərq həyatından alınmış kitablar yox kimi idi. Türk oxucuları bütün iclaslarda, konfranslarda böylə kitabların olmamasından şikayət edirdilər. Son zamanlar böylələrindən bir neçəsi çıxmışdır. Bu kitablardan bə'zi kütübxanalar 10-20-yə qədər almışdır. Fəqət yenə də kütübxanada kitabları tapmaq mümkün olmur. Bu kitablar haqqında onlarla oxucu mülahizələri idarəmizə göndərilmişdir. «Qorxulu Tehran» və «Xaos» kitabı haqqında yazanlar ümumiyyətcə kitabın mabədini gözləyirlər. Azərnəşrin nəzərini buna cəlb edirik».[79]

Azərbaycan Həmkarlar İttifaqı Şurasının kitabxana bürosu 1928-1930-cu illərdə 32 geniş iclas keçirmiş və həmin iclaslarda kitabxana şö'bəsinin fəaliyyətinin ən ümdə məsələlərini müzakirə edib müvafiq tədbirlərin həyata keçirilməsini nəzərdə tutmuşdu. Müzakirə edilən məsələlər içərisində «Kitabxana fondlarının məzmunca köhnəlmiş və məfkurəcə zərərli kitablardan təmizlənməsi haqqında», «Kitabxana işçilərinin iş norması haqqında», «Azərbaycan dilində kitab kataloqlarının nəşri haqqında», «Azərbaycan dilində qiyabi kitabxana şuralarının təşkili», «Azərnəşrin 1930-cu il üçün nəşriyyat planının müzakirəsi», «Kitabxana yürüşünün gedişi və ilk nəticələri», «Kitabxanalarda açıq rəf üsulunun tətbiqinin gedişi» və s.[80] mövzular daha çox maraq doğururdu.

Kitabxana bürosunun metodik fəaliyyətində qiyabi kitabxana kurslarının təşkili mahiyyətcə kitabxana işçilərinin ixtisasının artırılması işində yeni forma idi. Qiyabi kitabxana kurslarına hər il 40-50 nəfər kitabxanaçı cəlb edilirdi. Onlar il ərzində 4 dəfə toplaşırdılar. Toplanışlar arasındakı vaxtda kursun dinləyiciləri əvvəlcədən verilmiş tapşırıqları yerinə yetirir, ilin axırında isə attestasiya edilirdilər.[81] Attestasiyadan keçən kursun dinləyicilərinə xüsusi vəsiqə verilirdi. 1928-1930-cu illər ərzində 200-ə yaxın kitabxana işçisi kursa cəlb olunmuşdu.[82]

Həmkarlar ittifaqı kitabxanalarının komplektləşdirilməsini təkmilləşdirmək məqsədilə AHİŞ-in kitabxana bürosu 1929-cu ildə «Mülahizəli kataloq»un nəşrinə başladı.[83] Kataloqun tirajı 2000 nüsxədən çox idi və ondan respublikanın digər kitabxanalarında da geniş istifadə olunurdu. «Mülahizəli kataloq»un birinci nömrəsində aşağıdakı bölmələr üzrə materiallar dərc edilmişdi:

1. Oxucuya;
2. Hər bir oxucu bizim kataloqlar haqqında nəyi bilməlidir?
3. Günün aktual məsələlərinə dair;
4. Yeni kitablar;
5. Keçmiş illərdə çıxmış bədii ədəbiyyatın icmalı.

Bunlardan başqa, kataloqda 28 kitabın mülahizəli siyahısı verilmişdir. «Mülahizəli kataloq» kitabxana işçilərinə və geniş oxucu kütlələrinə respublikada və ittifaqda

---

[78] Oxucuların kitablar haqqında tənqid və mülahizələri// Həmkarlar İttifaqı.-1928.- №23-24 (95-96).-S.27-28.
[79] Oxucuların kitablar haqqında tənqid və mülahizələri // Həmkarlar İttifaqı.-1928.- №23-24 (95-96).-S.27-28.
[80] AR MDA., f.1114, s.1, iş 612, v.4; iş 614, v.2-3.
[81] AR MDA., f.1114, iş 612, v.3-7.
[82] Yenə orada.
[83] Mülahizəli kataloq.-B.:AHİŞ, 1929.-№1.-80 s.

nəşr edilmiş yeni əsərlər haqqında qiymətli informasiya çatdırırdı.

Beləliklə, 20-ci illərdə Azərbaycanda kitabxanalara metodik rəhbərlik sisteminin formalaşmasında Respublika Həmkarlar İttifaqı kitabxanalarının metodik mərkəzi funksiyasını daşıyan AHİŞ mədəni-maarif şö'bəsinin kitabxana bürosu mühüm rol oynamış, əhaliyə, xüsusilə fəhlə oxuculara kitabxana xidmətinin yaxşılaşdırılması prosesinə olduqca səmərəli tə'sir göstərmiş, bir çox nailiyyətlər qazanmışdır.

20-ci illərin sonu - 30-cu illərin əvvəllərində Azərbaycanda elmi kitabxanalar şəbəkəsi sür'ətlə inkişaf etməyə başladı.

Hələ 1923-cü ildə yaranmış Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti 1925-ci ilin yanvarında xüsusi kitabxananın təşkil edilməsi haqqında qərar qəbul etmişdi.[84] 1926-cı ildə bu kitabxanada oxu zalı və elmi- metodik kabinə yaradılmışdı. 1928-ci ildə elmi-metodik kabinənin nəzdində K.Ələkbərli, Ə.Haqverdiyev, S.Mümtaz, A.Baqri və başqaları kimi görkəmli alimlərdən ibarət kitabxana komissiyası təşkil olunmuşdu.

1929-cu ildə Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin bazasında Respublika Mərkəzi İcraiyyə Komitəsi nəzdində Dövlət Elmi Tədqiqat İnstitutu, 1933-cü ildə isə SSRİ EA Zaqafqaziya filialının Azərbaycan bölməsi təşkil olundu.[85] Elmi Tədqiqat İnstitutunun kitabxanasına Mərkəzi Elmi Kitabxana statusu verildi və bu, onun fəaliyyətinə müsbət tə'sir göstərdi. 1933-cü ildən başlayaraq Mərkəzi Elmi Kitabxana həm sovet respublikaları ilə, həm də xarici ölkələrlə kitab mübadiləsinə başladı. Qısa vaxt ərzində kitabxana ABŞ, Portuqaliya, Finlandiya, İngiltərə, Türkiyə, İran, Danimarka, İsveç, Fransa və başqa ölkələrin 110 elmi kitabxanası ilə mübadilə əlaqəsi yaratmışdı.[86]

Azərbaycanda elmi kitabxanalara metodik rəhbərlik sisteminin formalaşması 20-ci illərin 2-ci yarısına təsadüf edir. Elmi kitabxanaların fəaliyyətini istiqamətləndirmək məqsədi ilə 1927-ci ildən Azərbaycan Dövlət Ümumi Kitabxanası ilk təşkilati-metodik işlər həyata keçirməyə və metodik tövsiyələrin tərtibinə başladı. Belə ki, 1928-1931-ci illər ərzində «Elmi kitabxanalarda mə'lumat biblioqrafiya aparatının təşkili», «Elmi kitabxanalarda ölkəşünaslıq işləri», «Elmi kitabxanalarda kitabxanalararası abonementin təşkili» və s. mövzularda əsaslı metodik tövsiyələr işlənib müvafiq kitabxanalara göndərilmişdi. Qeyd edək ki, elmi kitabxanalara metodik rəhbərlik işini səmərəli təşkil etmək üçün 1930-cu ildə Dövlət Ümumi Kitabxanasının ştatında xüsusi tə'limatçı vəzifəsi də nəzərdə tutulmuşdu.[87]

1932-ci ilin may ayında təşkil edilən Bakı şəhər elmi kitabxana işçilərinin müşavirəsi Azərbaycan Dövlət Ümumi Kitabxanasının elmi kitabxanalara metodik rəhbərlik işində həyata keçirdiyi ilk mühüm kütləvi tədbir sayıla bilər.[88]

Yığıncaqda həmin dövrdə elmi kitabxanaların qarşısında duran mühüm məsələlərə dair fikir mübadiləsi aparıldı və kitabxanaların qarşısında duran konkret vəzifələr müəyyənləşdirildi. Müşavirə, kitabxana işçilərinə elmi kitabxanaların fəaliyyətinin məqsədyönlü istiqamətləndirilməsini, ölkənin digər kitabxanaları ilə kitabxanalararası abonementin genişləndirilməsini, elmi kitabxanaların maddi-texniki bazasının möhkəmləndirilməsinə elmi ictimaiyyətin cəlb edilməsini, elmi-texniki ədəbiyyatın təbliğinin yaxşılaşdırılmasını, elmi biblioqrafiya işlərinin hərtərəfli təkmilləşdirilməsini tövsiyə etdi. Burada elmi kitabxanaların ölkəşünaslıq biblioqrafiyası sahəsindəki fəaliyyətinin gücləndirilməsi xüsusi müzakirə obyekti oldu. Bu məsələ ətrafında görkəmli tədqiqatçı alimlərdən Məmməd Əmin Əfəndizadə, professor A.Baqri, gənc tədqiqatçılardan Feyzulla Qasımzadə, Məlik Məhəmmədzadə və başqaları çıxış edərək ölkəşünaslıq işlərinin inkişafında kitabxanaların rolundan danış-

---

[84] Azərbaycan Respublikası EA arxivi, f.1, s.1, iş 1, v.91.
[85] Məmmədəliyev Y. Azərbaycan elminin inkişafı.- B.,1960.-S.13.
[86] Книги из Англии, Португалии, Польши// Бакинский рабочий.-1932.-17 апреля.
[87] M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının arxivi, iş 78, bağ. 12, v. 2-3.
[88] Yenə orada. bağ. 13, v. 4-6.

dılar.[89] Ümumiyyətlə, S.Mümtaz, K.Ələkbərli, B.Çobanzadə, A.Tağızadə və başqa tanınmış alim və mütəxəssislərin də iştirak etdiyi bu müşavirə respublikanın elmi həyatında və xüsusən kitabxanaçılıq sahəsində təşkilati-metodik işlərin başlanğıcı kimi qiymətləndirilə bilər.

30-cu illərin ikinci yarısı Azərbaycanda kitabxanalara metodik rəhbərlik sisteminin formalaşmasında çox əlamətdar bir dövr oldu. Bu, ilk növbədə 1936-cı ilin sentyabr ayında Azərbaycan Dövlət Ümumi Kitabxanasının nəzdində kitabxanaşünaslıq kabinəsinin təşkili ilə əlaqədar idi.[90] Əvvəllər bu kabinə kitabxananın bir otağında yarləşirdi. Sonralar ona Bakı şəhər Xalq Maarif Şöbəsinin M.Qorki adına mərkəzi səyyar kitabxana fondu yanında geniş otaq ayrılmışdı. Qeyd etmək lazımdır ki, bu kabinə Azərbaycanda kitabxanaşünaslıq və biblioqrafiya sahəsində həm də dövlət səviyyəsində ilk elmi-metodik mərkəz statusuna malik idi.

Respublika əhəmiyyətli elmi-metodik mərkəz ilk növbədə tabeçiliyindən asılı olmayaraq bütün kitabxana şəbəkələri üçün tövsiyələr hazırlamaq, onların fəaliyyətini əlaqələndirmək və idarələrarası təcrübə mübadiləsi mexanizmi yaratmaq vəzifəsini qarşıya məqsəd qoymuşdu. Kitabxanaşünaslıq kabinəsi ilk gündən öz fəaliyyətini metodik məktubların, tövsiyə vəsaitlərinin, tə'limat xarakterli müxtəlif sənədlərin hazırlanması, nəşr olunması və kitabxanaların həmin materiallarla tə'min edilməsi istiqamətinə yönəltdi.

Tədqiqat zamanı müəyyənləşdirilmişdir ki, yalnız 1937-1938-ci illərdə kitabxanaşünaslıq kabinəsi tərəfindən 14 metodik məktub, 9 tə'limat və uçot-hesabat forması, 5 əsasnamə və ümumi həcmi 60 çap vərəqinə yaxın məxtəlif metodik vəsait tərtib edilmişdir.[91]

Kitabxanaşünaslıq kabinəsinin qarşısında kitabxanaların iş təcrübəsini öyrənib ümumiləşdirmək və qabaqcıl iş təcrübəsini yaymaq, kitabxanaşünaslıq və biblioqrafiyaya dair metodik məktublar tərtib edib onları respublikamızın kitabxanalarına göndərmək, ümumiyyətlə, respublikada kitabxana işinə rəhbərlik etmək vəzifəsi qoyulmuşdu.[92]

Metodik kabinənin fəaliyyətinin formalaşmasında 1936-cı ildə Moskvada keçirilmiş, kitabxanaşünaslıq və biblioqrafiyanın nəzəri məsələlərinə həsr edilmiş ümumittifaq müşavirəsinin böyük əhəmiyyəti olmuşdur. 1937-1938-ci illərdə Dövlət Ümumi Kitabxanası kitabxanaşünaslıq kabinəsinin həyata keçirdiyi tədbirlərin əksəriyyəti həmin müşavirənin qəbul etdiyi tövsiyələrə əsaslanırdı.

Müvafiq elmi-metodik ədəbiyyat fondu kabinənin fəaliyyətinin elmi əsaslarla düzgün təşkil edilməsi, metodistlərin və bütün kitabxana işçilərinin kitabxanaşünaslıq və biblioqrafiya biliklərinə yiyələnməsi üçün hərtərəfli şərait yaratdı.

Kitabxanaşünaslıq kabinəsi təkcə 1938-ci ildə Bakı şəhər kitabxana işçilərinin ixtisasını artırmaq məqsədilə 46 seminar, 6 mühazirə, 160-dan artıq söhbət və məsləhət təşkil etmişdi.[93] Keçirilən tədbirlərin əksəriyyəti həmin illərdə olduqca aktual sayılan yeni sovet kitabxana təsnifatının yaranması ilə əlaqədar məsələlərə həsr olunurdu.

Kabinə kitabxanaların müasir vəzifələrinə, tarixi günlərə və ədəbiyyat təbliğinə dair metodik məktublar tərtib edir və rayon kitabxanalarına göndərirdi. Məsələn, 1936-cı ildə metodkabinə kütləvi kitabxanalar üçün 9 çap vərəqi həcmində onluq təsnifat cədvəli hazırlamışdı. Bundan başqa, kabinə 1937-1938-ci illərdə 9 adda müxtəlif hesabat formaları, eləcə də «Kənd kitabxanalarının işi», «Kütləvi kitabxanalarda oxuculara xidmət», «Kütləvi kitabxanalarda onluq klassifikasiyanın tətbi-

---

[89] M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının arxivi, iş 78, bağ. 13, v.4-5.
[90] Azərbaycan Respublikası MDA., f.57, iş 1313, v.1-5.
[91] Hesablamalar müəllif tərəfindən Azərbaycan Respublikası MDA sənədləri əsasında aparılmışdır.
[92] Xələfov A.A. Azərbaycanda kitabxana işinin tarixi.-B. :Azərnəşr, 1974.- S.72.
[93] M.F.Axundov adına Azərbaycan Dövlət kitabxanasının arxivi, f.1, iş 5a, v. 197-198.

qi», «Kütləvi kitabxananın texnikası» və s. kimi metodik vəsaitlər nəşr etdirmişdi.[94]

Eyni zamanda metodkabinədə çalışan yüksək ixtisaslı əməkdaşlardan Mirzə Həsən Rzaquluzadə, Aron Lerman və başqaları 1938-ci ildə yaradılmış Bakı Kitabxanaçılıq Texnikumunun tələbələri və qısamüddətli ixtisasartırma kurslarının dinləyiciləri üçün kitabxanaşünaslıq və biblioqrafiyanın ayrı-ayrı sahələrinə dair 58 çap vərəqi həcmində materialı rus dilindən Azərbaycan dilinə tərcümə etmişdilər.

Metodkabinənin fəaliyyəti illərində respublikamızda kitabxanaçılıq sahəsində idarəçilik sisteminin formalaşması, kitabxana işinin elmi əsaslarla təşkili, kitabxanalara inzibati və metodik rəhbərlik işinin mexanizmi və formalarının təkmilləşdirilməsi və s. məsələlərə dair bir sıra tə'limati-metodik xarakterli mühüm sənədlər hazırlanmışdı. Bunlardan «XMK-nın kitabxanaçılıq idarəsi haqqında Əsasnamə», «Azərbaycan SSR rayon mərkəzi kitabxanaları haqqında müvəqqəti Əsasnamə», «Azərbaycan SSR kənd kitabxanaları haqqında müvəqqəti Əsasnamə», «Kütləvi kitabxanalardan istifadə qaydaları», eləcə də kütləvi kitabxana işçilərinin aylıq ixtisasartırma kurslarının proqramı, kitabxanalarda uçot və hesabat formaları və digər sənədlər Azərbaycan SSR Xalq Maarif Komissarlığının sifarişi ilə tərtib və nəşr edilmişdi.

1936-1938-ci illərdə sovet kitabxanaşünaslığı nəzəriyyəsində ən aktual məsələlərdən biri yeni təsnifat sisteminin yaradılması idi. Bu təsnifatın quruluşu və tərtibi prinsipləri ətrafında ittifaqın demək olar ki, bütün mərkəzi şəhərlərində geniş müşavirələr, seminarlar, nəzəri konfranslar və diskussiyalar təşkil edilirdi.

1937-ci ilin aprel ayında kitabxanaşünaslıq kabinəsi yeni kitabxana təsnifatının yaradılmasına həsr edilmiş Ümumbakı konfransı keçirdi. Konfransda 150-yə yaxın kitabxana işçisi iştirak edirdi. Konfransda çıxış edənlərdən M.H.Rzaquluzadə, H.Tağıyev, A.Lerman, Y.Zakalinskaya və başqaları yeni kitabxana-biblioqrafiya təsnifatı sisteminin yaradılmasının nəzəri, metodik və tə'limati məsələlərinə dair bir sıra təkliflər irəli sürdülər.[95]

Təəssüflə qeyd etmək lazımdır ki, kitabxanaşünaslıq kabinəsinin hazırladığı metodik materialların çox az hissəsi, yə'ni cəmi 10-15 faizi nəşr etdirilirdi. Bunlardan 1936-cı ildə Azərbaycan Dövlət Kitab Palatası ilə birlikdə hazırlanmış və nəşr edilmiş «Kitabların onluq təsnifatı» (tərtib edəni A.Lerman) vəsaitini, 1938-ci ildə M.H.Rzaquluzadənin tərtib etdiyi «Onluq klassifikasiya» (kütləvi kitabxanalar üçün) vəsaitini və digərlərini göstərmək olar.

Kabinənin metodik materialları makinada çoxaldılıb rayonlara göndərilir, Dövlət Ümumi Kitabxanasında keçirilən ixtisasartırma kurslarında və müşavirələrdə geniş istifadə edilirdi.

1939-cu ilin əvvəlində kitabxanaşünaslıq kabinəsi Dövlət Ümumi Kitabxanasından alınıb Azərbaycan Xalq Maarif Komissarlığının sərəncamına verildi.[96]

Qeyd etmək lazımdır ki, bir sıra nəşrlərdə, o cümlədən, professor A.Xələfovun «Azərbaycanda kitabxana işinin tarixi» monoqrafiyasında bu fakt birmə'nalı şəkildə mənfi hal kimi qiymətləndirilir. Əsərdə göstərilir ki, «kitabxanaşünaslıq kabinəsinin Xalq Maarif Komissarlığının sərəncamına verilməsi və orada kabinəyə yeni sahələr üzrə işlərin aparılmasının tapşırılması bu işə qismən də olsa mane oldu. Burada o, öz fəaliyyətini genişləndirə bilmədi və 1940-cı ildə isə öz fəaliyyətinin tamamilə dayandırdı»[97].

Bu fikirlə qismən razılaşmaqla yanaşı, qeyd etməliyik ki, kitabxanaşünaslıq kabinəsinin bilavasitə Xalq Maarif Komissarlığı kimi olduqca nüfuzlu bir dövlət təşkilatının sərəncamına verilməsi ilk dövrlərdə öz müsbət rolunu və tə'sirini göstərdi. Belə ki, kabinənin nüfuzu, statusu, hüquq və vəzifələri artdı, tə'sir və tətbiq dairəsi xeyli genişləndi, hazırlanmış tövsiyələrin, tə'limatların, digər metodik materialların

[94] M.F.Axundov adına Azərbaycan Dövlət kitabxanasının arxivi, f.1, iş 5a, v. 197-198.
[95] M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının arxivi, f.1, iş 5a, v. 198.
[96] Xələfov A.A. Azərbaycanda kitabxana işinin tarixi.-B.,1974.-S.77.
[97] Xələfov A.A. Azərbaycanda kitabxana işinin tarixi.-B.,1974.-S.74.

təbliği üçün geniş imkanlar qazanıldı.

Xalq Maarif Komissarlığının nəzdində fəaliyyət göstərən kitabxanaşünaslıq kabinəsinin ən mühüm tədbirlərindən biri 1939-cu il may ayının 10-da keçirilən kitabxana işçilərinin Ümumbakı müşavirəsi oldu. Müşavirədə 500-dən artıq kitabxana işçisi, o cümlədən, Azərbaycan K(b)P Bakı Komitəsinin, Xalq Maarif Komissarlığının, digər komissarlıqların, eləcə də Bakı şəhər rayon partiya və sovet təşkilatlarının məs'ul işçiləri iştirak edirdilər.[98]

Tədbirdə əsasən kitabxana işinə metodik rəhbərliyin təkmilləşdirilməsi, kitabxanaçıların nəzəri və siyasi hazırlığının artırılması məsələlərinə geniş yer verildi və bu sahədə əməli tədbirlər nəzərdə tutuldu.

1940-cı ildə kitabxanaşünaslıq kabinəsi Azərbaycan SSR Xalq Maarif Komissarlığının siyasi-mədəni işlər idarəsi nəzdində fəaliyyət göstərməyə başladı.

Qeyd etməliyik ki, istər ümumi kitabxananın nəzdində, istərsə də XMK-nın nəzdində fəaliyyət göstərdiyi müddətdə kabinə Azərbaycanda kitabxana işinə dair ilk elmi-metodik mərkəz kimi xeyli iş görmüş, kitabxanaşünaslığın elmi əsaslarının formalaşmasında, kitabxanaçılıq işi sahəsində hüquqi-normativ xarakterli sənədlərin hazırlanmasında, qabaqcıl kitabxanaların iş təcrübəsinin ümumiləşdirilməsində, kitabxana işçilərinin nəzəri və peşə biliklərinin artırılmasında əhəmiyyətli rol oynamışdır.

20-ci illərin sonu - 30-cu illərin əvvəllərində Azərbaycanda elmi-texniki kitabxana şəbəkəsi sür'ətlə genişlənirdi. Artıq 1934-cü ildə respublikamızda 57.026 nüsxə kitab fonduna malik olan 51 texniki kitabxana var idi. Bu kitabxanalardan 43-ü Bakıda, qalanları isə rayonlarda yerləşirdi. Texniki kitabxanalar ayrı-ayrı müəssisələrdə, mə'dənlərdə, fabriklərdə, zavodlarda 34 səyyar məntəqə yaratmışdı.[99]

Şübhəsiz ki, bu dövrdə respublikada inkişaf edən texniki kitabxanalar şəbəkəsinin əsasını neft sənayesi kitabxanaları təşkil edir. 1932-ci ilin fevral ayında «Azərneft» birliyinin nəzdində istehsalat-texniki təbliğat idarəsi yaradılır və bu idarənin tərkibinə texnika evi ilə yanaşı, Mərkəzi Texniki Kitabxana da daxil edilir.[100] Bu kitabxananın əsası 1923-cü ildə «Azərneft»in mərkəzi idarəsinin «Neftçilər» klubu yanında qoyulmuşdu. İlk dövrlərdə kitabxana ancaq klubun üzvlərinə xidmət edirdi və cəmi 300 nəfər oxucusu vardı. 1930-cu ildə «Neftçilər» klubunun fəaliyyəti dayandırıldıqdan sonra bu kitabxana yenidən «Azərneft»in sərəncamına verilir və bu illərdə o, Mərkəzi Texniki Kitabxana adlandırılır. Həmin il kitabxananın 12 işçisi var idi.

Qeyd etməliyik ki, 30-cu illərdə respublikamızda elmi-texniki kitabxanalar şəbəkəsinin sür'ətlə inkişafı və eləcə də «Azərneft» birliyi nəzdində o dövrün ən iri kitabxanasının - Mərkəzi Texniki kitabxanasının formalaşması bilavasitə elmi-texniki kitabxanalara rəhbərlik edən yeni metodik mərkəzin meydana gəlməsi üçün əlverişli şərait yaratmışdı.

Mərkəzi Texniki Kitabxana formal olaraq neft sənayesi işçilərinin mərkəzi kitabxanası adlandırılsa da, onun metodik fəaliyyəti ildən-ilə genişlənmişdi və digər sənaye sahələrinin kitabxanalarını da özündə birləşdirirdi. 1935-ci ildən kitabxanaya yeni ştatların, xüsusilə 2 metodist və 2 tə'limatçı ştatının verilməsi təşkilati-metodik işin canlanmasına səbəb oldu.[101]

1936-1940-cı illərdə Mərkəzi Texniki Kitabxana öz metodik fəaliyyətini birinci növbədə istehsalat kollektivlərində oxuculara xidmət edən kitabxanaların işinin yaxşılaşdırılmasına yönəltmişdi. Bu baxımdan kitabxanada hazırlanan və texniki kitabxanalara göndərilən tə'limati-metodik məktublar və materiallar əsasən sənaye müəssisələri kitabxanalarında yeni texnikanın və qabaqcıl texnologiyanın tətbiqinə dair tövsiyələrdən ibarət olurdu.

---

[98] Kommunist.- 1939.- 12 may.
[99] Xələfov A.A. Azərbaycanda kitabxana işinin tarixi.- B.,1974.-S.77.
[100] Yenə orada, S.78.
[101] Azərbaycan Respublikası MDA, f.1637, sv.337, S.254-255.

Həmin illərdə Mərkəzi Texniki Kitabxana tərəfindən yerlərə 14 metodik tövsiyə, 10 tə'limat, 4 uçot-hesabat forması, 86 «Qabaqcıl texnikaya dair ədəbiyyat» siyahısı göndərilmişdi.[102]

30-cu illərdə sənaye müəssisələri arasında sosializm yarışının təşkili çox geniş vüs'ət almışdı. Müəssisələrarası sosializm yarışlarında müvafiq kitabxanalar da fəal iştirak edirdi. Sənaye müəssisələri kitabxanaları arasında yarışın mütəşəkkil aparılması üçün Mərkəzi Texniki Kitabxana 1936-cı ildə 2 illik xüsusi proqram və yarışın şərtlərini hazırlamışdı ki, orada texniki kitabxanaların bütün iş sahələri və fəaliyyəti öz əksini tapmışdı.

Proqrama kitabxanalararası yarışın əsas şərtləri, oxuculara kitab verilişinin artırılması, yeni fəhlə oxucuların kitabxanalara cəlb edilməsi, neft mə'dənlərində səyyar fondların və kitab verilişi məntəqələrinin təşkili və s. məsələlər daxil edilmişdi. Yarışın mütəşəkkilliyi üçün Mərkəzi Texniki Kitabxana iclaslar keçirir, kitabxanaçıları Sovet İttifaqındakı texniki kitabxanaların fəaliyyəti haqqında yeni materiallarla tanış edir, icmallar, ədəbiyyat sərgiləri və s. hazırlayırdı.

30-cu illərin ikinci yarısında texniki kitabxanalara metodik rəhbərlik sistemi ilə həmkarlar ittifaqı kitabxanalarına metodik rəhbərlik sistemi arasında qarşılıqlı əlaqə yaranır və bu əlaqə Böyük Vətən müharibəsi başlanana qədər səmərəli həyata keçirilir. Texniki və həmkarlar ittifaqı kitabxanalarına metodik rəhbərlik sisteminin əlaqələndirilməsi əsasən aşağıdakı istiqamətlərdə həyata keçirilirdi:

Mərkəzi Texniki Kitabxana və AHİŞ-in nəzdindəki kitabxana işinə dair metodik büro ayrı-ayrı istehsalat kollektivlərinə kitabxana xidmətinin vahid planını hazırlayır, birgə kitabxana şuraları təşkil edir, oxucular qarşısında birgə hesabatlar verirdilər. Kitabxanalarda həmçinin bir sıra kütləvi tədbirlər qarşılıqlı əlaqələndirmə yolu ilə həyata keçirilirdi.

Kitabxana kitabını istehsalat sahələrinə, bilavasitə fəhlələrə, mühəndis-texniki işçilərə yaxınlaşdırmaq məqsədilə həmkarlar ittifaqı kitabxanaları texniki kitabxanalarla birlikdə sexlərdə, laboratoriyalarda, şö'bə və bürolarda kitab verilişi məntəqələrində işin təşkilinə dair tövsiyələrin tərtibinə və hazırlanmasına geniş yer verirdilər.

30-cu illərin sonunda respublikada təhsil ocaqları kitabxana şəbəkəsinin inkişafı, səhiyyə və tibb sahələrinə xidmət edən kitabxanaların artması bu sahələrdə metodik mərkəzlərin meydana gəlməsi və inkişafı üçün əlverişli şərait yaradırdı.

Belə ki, 1942-ci ildə Respublika Elmi Tibb Kitabxanasının təşkili Azərbaycanda tibb kitabxanaları şəbəkəsinə metodik rəhbərlik sisteminin formalaşmasının başlanğıcı oldu.

Həmin dövrdə fəaliyyət göstərən Azərbaycan Dövlət Universitetinin əsaslı kitabxanası və SSRİ EA Azərbaycan filialının mərkəzi kitabxanası da özlərinin metodik fəaliyyətlərini canlandırmağa təşəbbüs göstərirdilər. Belə ki, ADU-nun elmi kitabxanası ali məktəb kitabxanaları işçiləri üçün vaxtaşırı ixtisasartırma kursları, seminarlar, müşavirələr təşkil edirdi.

Lakin 30-cu illərdə Azərbaycanda ayrı-ayrı kitabxana şəbəkələri daxilində sahəvi metodik mərkəzlər sistemini formalaşdırmaq üçün lazımi təşkilati işlər aparılmırdı. Bu da öz növbəsində xalq təsərrüfatının müxtəlif sahələrində çalışan mütəxəssislərin kitabxana xidmətinə mənfi tə'sir göstərirdi.

30-cu illərin sonunda kitabxanalara metodik rəhbərlik işinin mühüm tərkib hissəsi olan metodik vəsaitlərin hazırlanması sahəsində bir sıra irəliləyişlər nəzərə çarpırdı. Yalnız 1938-40-cı illərdə Xalq Maarif Komissarlığının kitabxanaşünaslıq kabinəsi tərəfindən 42 min nüsxə tirajla «Onluq klassifikasiya»[103], «Formulyarların doldurulmasına dair instruksiya»[104], «Uşaq və məktəb kitabxanaları üçün onluq klassifi-

[102] Respublika Elmi-Texniki Kitabxanasının arxivi: 1935-40-cı il hesabatları.
[103] Rzaquluzadə M.H. Onluq klassifikasiya (kiçik kitabxanalar üçün).-B.,1938.-12 s.
[104] Formulyarların doldurulmasına dair instruksiya.-B.,1938.-13 s.

kasiyanın qısaldılmış cədvəli»[105], eləcə də bir çox yaddaşlar, mülahizəli kataloqlar, bülletenlər və s. vəsaitlər hazırlanmış və nəşr olunmuşdu.

1941-ci ildə başlanan müharibə bütün sahələrdə olduğu kimi əhaliyə kitabxana xidməti sahəsində də yeni vəzifələr müəyyənləşdirdi.

## *1.3. İkinci Dünya müharibəsi illərində kitabxanaların metodik tə'minatının vəziyyəti (1941-1945-ci illər)*

1941-ci ilin sentyabr ayında Azərbaycan Xalq Maarif Komissarlığının Siyasi Maarif İşləri İdarəsi respublikada kitabxanalara rəhbərlik işini öz üzərinə götürdü. Oktyabr-dekabr aylarında müharibə şəraitinin vəzifələri ilə əlaqədar Bakıda, digər iri şəhərlərdə, rayon mərkəzlərində kitabxana işçilərinin seminar-müşavirələri təşkil edildi. Ümumiyyətlə, Bakı, Gəncə (Kirovabad), Quba, Naxçıvan, Xankəndi (Stepanakert), Salyan, Şəki (Nuxa), Xaçmaz və digər şəhər və rayonlarda 14 seminar-müşavirə keçirilmişdi. Metodik müşavirələrdə görüləcək işlər haqqında konkret göstərişlər verilir, kitabxana işinin yeni şəraitlə əlaqədar vəzifələri müəyyənləşdirilir, müharibə dövründə kitabxanaların bağlanması halların qarşısının alınması məsələlərinə ciddi diqqət yetirilirdi.[106]

Müharibənin ilk dövründə kitabxanalara rəhbərlik edən metodik orqanla, xüsusən Xalq Maarif Komissarlığının Siyasi Maarif İşləri İdarəsi kitabxanaları ilk növbədə aşağıdakı vəzifələrin yerinə yetirilməsinə istiqamətləndirirdi:

1.Zəhmətkeşlərə vətənpərvərlik hisslərini aşılamaq, xalqımızın qəhrəman keçmişinə, ordunun hərbi müvəffəqiyyətlərinə, cəbhədə və arxada göstərilən qəhrəmanlıqlara dair ədəbiyyat təbliğ etmək;

2.Əhaliyə hərbi biliklərə yiyələnməkdə kömək etmək və hərbi müdafiə ədəbiyyatını geniş surətdə yaymaq;

3.Xalq təsərrüfatının, müdafiə sənayesinin inkişaf etdirilməsinə, əhaliyə yeni istehsalat ixtisaslarının öyrədilməsinə hərtərəfli kömək etmək.

Qeyd etmək lazımdır ki, Xalq Maarif Komissarlığının metodkabinəsi yalnız kitabxanalar qarşısında vəzifələri müəyyənləşdirmir, eyni zamanda onların həyata keçirilməsi üçün konkret tə'limati-metodik köməklik də göstərirdi. Bu məqsədlə metodkabinənin əməkdaşları tez-tez kitabxanalara gedir, kitabxana işçiləri və oxucularla görüşlər keçirirdilər.

Müharibənin ilk dövründə metodkabinə kitabxanalarda oxucular üçün mühazirələr təşkil etməyə başladı. Mühazirələrə ilk növbədə qabaqcıl müəllimlər, təbliğatçılar və digər mütəxəssislər cəlb edilirdilər. Onlar bir qayda olaraq xalqımızın qəhrəman keçmişi, Azərbaycan gənclərinin Böyük Vətən müharibəsində iştirakı, vətənpərvərlik, cəbhə qələbələri və başqa mövzularda mühazirələr oxuyurdular.

Metodkabinənin müharibə illərində həyata keçirdiyi təşkilati-metodik tədbirlərin ən böyük səmərəsi ondan ibarət oldu ki, respublikada kitabxanaların bağlanması prosesinin qarşısı alındı və artıq 1943-cü ilin ikinci yarısından kitabxana şəbəkələrinin bərpasına başlanıldı.

Sonralar kütləvi kitabxanaların fondlarının yeni ədəbiyyatla təkmilləşdirilməsində, Bakı qospitallarında kitabxanaların təbliğat-təşviqat və mədəni-kütləvi işlərinin təşkilində metodkabinənin təşkilatçılıq fəaliyyəti daha geniş olmuşdur.

Müharibə illərində metodik fəaliyyətin ən mühüm xüsusiyyətlərindən biri də bu işə bir çox qabaqcıl kitabxanaların və kitabxana işçilərinin cəlb olunmasından ibarət idi. Belə ki, 1943-1945-ci illərdə Bakı şəhərinin bütün iri kitabxanaları rayon və kənd kitabxanalarını hamiliyə götürmüşdülər və onlara mümkün qədər təşkilati-

---

[105] Uşaq və məktəb kitabxanaları üçün onluq klassifikasiyanın qısaldılmış cədvəli (L.N.Trapovski üzrə).-B.:XMK,1940.-15 s.

[106] Kommunist.-1941.- 24 sentəbrə.

metodik köməklik göstərirdilər. Məsələn, Bakı Mərkəzi şəhər Kitabxanası (keçmiş V.İ.Lenin adına kitabxana), M.Ə.Sabir adına kütləvi kitabxana, Lunaçarski adına kitabxana və s. şəhər kitabxanaları Gəncə (Kirovabad), İsmayıllı, Qazax, Şəmkir (Şamxor), Əli Bayramlı, Sabirabad, Quba, Salyan rayon kitabxanalarını hamiliyə götürmüşdülər. M.Əzizbəyov adına kitabxana Bakının ətraf rayonlarının kitabxanalarına metodik yardım göstərirdi.[107] Bu, ilk növbədə rayon kitabxanaları üçün müharibə ilə bağlı tövsiyə siyahılarının tərtibində, mühazirə mövzularının müəyyənləşdirilməsində, hərbi biliklərin təbliğində, hərbi ədəbiyyatın komplektləşdirilməsində, hərbi vətənpərvərlik mövzularına həsr edilmiş mədəni-kütləvi tədbirlərin təşkilinə dair metodik tövsiyələrin hazırlanıb yerlərə göndərilməsində özünü büruzə verirdi.[108]

Bu dövrdə respublikanın digər iri kitabxanaları, xüsusən M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanası və Qubkin adına Həmkarlar İttifaqı Mərkəzi Kitabxanası da öz metodik fəaliyyətlərini bilavasitə müharibə mövzularına uyğun istiqamətdə həyata keçirirdilər. Belə ki, yalnız 1943-cü ildə Dövlət Kitabxanası rayon kitabxanaları üçün Vətən müharibəsi mövzusunda 33 tövsiyə siyahısı tərtib etmişdi.[109] Kitabxana xüsusilə hərbi müdafiə, hərbi texnika, hərbi iş və s. mövzularda kitab təbliğini genişləndirmək məqsədilə həmin ildən başlayaraq kitabxana işçiləri üçün ayda bir dəfə yeni ədəbiyyata baxış keçirirdi. Bundan əlavə Bakı şəhər kitabxana işçiləri üçün həftədə bir dəfə keçirilən yeni ədəbiyyatın icmalı onların peşə və ümumi inkişafında mühüm rol oynayırdı.

Qubkin adına mərkəzi kitabxana isə həmkarlar ittifaqı kitabxanaları üçün ədəbiyyat siyahıları, mütaliə planları, metodik məktublar, metodik tə'limatlar hazırlayırdı. Müntəzəm olaraq kitabxana işçiləri şəbəkəyə daxil olan digər kitabxanalara e'zam edilir, müharibə mövzularına həsr olunmuş kataloq-kartoteka tərtibinə, fondu qaydaya salmağa, təsvir, təsnifləşdirmə və s. işlərə köməklik göstərirdilər. Bundan başqa, mərkəzi kitabxanada vaxtaşırı həmkarlar ittifaqı kitabxana işçilərinin müşavirə və seminarları təşkil edilirdi.[110]

1943-cü ildən başlayaraq Xalq Maarif Komissarlığının Siyasi Maarif İşləri İdarəsi rayon və kənd kitabxanalarına metodik rəhbərlik işini xeyli gücləndirməyə başladı. Belə ki, idarənin kitabxana bölməsi kənd rayonlarında kitabxana işinin vəziyyətini öyrənib ümumiləşdirmək məqsədilə təcrübəli kitabxanaçılardan ibarət xüsusi briqada təşkil edib yerlərə göndərirdi. Bu briqadaya görkəmli kitabxanaçılardan H.Tağıyev, S.Rəhimzadə, Ə.Əliyev, H.Rzaquliyev, B.Şulman və başqaları daxil idilər. Briqada kitabxana işinin vəziyyətini öyrənməklə yanaşı, yerlərdə zona müşavirələri keçirir, kitabxanaların müharibə şəraitində növbəti vəzifələrini müəyyənləşdirir, əməli tədbirlərin həyata keçirilməsində onlara kömək edirdilər.[111]

1944-cü ildə Bakıda məktəb və uşaq kitabxanaları işçilərinin müşavirəsi keçirildi. Müşavirə müharibə illərində vəzifələri hərtərəfli təhlil etməklə onun gələcək istiqamətlərini müəyyənləşdirdi və gənc oxuculara kitabxana xidmətini yaxşılaşdırmaq haqqında geniş proqram qəbul etdi[112]. Bu proqramın həyata keçirilməsi nəticəsində respublika və Bakı şəhər kitabxanalarında uşaq və gənc oxucuların kitabxanalara cəlb olunması, onlar üçün müharibə mövzusunda ədəbi-bədii gecələr, səhərciklər, ucadan oxular və bədii qiraətlərin təşkili işində xeyli canlanma var idi.

Beləliklə, Azərbaycanda kitabxanalara metodik rəhbərlik Böyük Vətən müharibəsi illərində keyfiyyətcə yeni forma və məzmun kəsb etmişdi. Metodik mərkəzlərin fəaliyyəti kitabxanaların işinin müharibə dövrünün tələblərinə uyğun şəkildə apa-

---

[107] Bakı Mərkəzi şəhər Kitabxanasının arxivi, f.1,s.1,iş 30, v.29.
[108] Yenə orada, v.29-30.
[109] M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının arxivi, f.1, iş 24, v.5.
[110] Quliyev T. Azərbaycanda kitabxana işi.-B.,1996.-S.44.
[111] Xələfov A. Azərbaycanda kitabxana işinin tarixi.-B.,1974.-S.116-117.
[112] Бакинский рабочий.- 1944.- 8 октября.

rılmasına istiqamət vermiş və ayrı-ayrı kitabxanalara əməli metodik köməklik göstərilməsi ardıcıl həyata keçirilmişdi.

Nəticə olaraq qeyd etmək lazımdır ki, 1918-1945-ci illər Azərbaycanda kitabxana işi sahəsində metodik fəaliyyətin meydana gəlməsi və inkişafı ilə səciyyəvidir. Respublikada kitabxanalara metodik rəhbərlik işinin təşkili sahəsində ilk və mühüm tədbir 1919-cu ildə Azərbaycan Demokratik Respublikası dövründə BDU-nun Elmi kitabxanasının təşkili olmuşdur. Sonralar Sovet hakimiyyəti illərində respublikada kitabxana şəbəkəsinin inkişafı sahəvi metodik mərkəzlərin yaranmasına gətirib çıxarmışdır.

1918-45-ci illərdə respublikada müxtəlif kitabxana şəbəkələri inkişaf etdikcə onlara metodik rəhbərlik fəaliyyəti də genişlənmiş və peşəkarlıq baxımından təkmilləşdirilmişdir. Bununla yanaşı, kitabxana işinin ümdə məsələlərinə həsr edilmiş ilk metodik vəsaitlərin meydana gəlməsi Azərbaycanda kitabxanaşünaslıq fikrinin formalaşması üçün zəmin yaratmışdır. Lakin qeyd etməliyik ki, bütün müvəffəqiyyətlərə baxmayaraq kitabxanaçılıq sahəsində sırf metodik iş həmin dövrdə sistemli fəaliyyət kimi təşəkkül tapmamışdır. Bununla belə həmin dövr kitabxanalara metodik rəhbərliyin yaranması və formalaşmağa başlaması kimi qiymətləndirilir.

# II FƏSİL

# KİTABXANALARIN METODİK TƏ'MİNAT SİSTEMİNİN FORMALAŞMASI VƏ İNKİŞAFI (1946-1975-ci illər)

## *2.1.Kitabxanaların metodik tə'minat sisteminin formalaşmasının əsas istiqamətləri (1946-1959-cu illər)*

1945-ci ilin may ayında Sovetlər ölkəsi müharibəni qələbə ilə başa çatdırdı. Bu qələbədə SSRİ-nin tərkibinə daxil olan Azərbaycan Respublikasının da misilsiz xidmətləri olmuşdur.

Azərbaycan xalqı alman faşistləri üzərində qələbə üçün heç nə əsirgəməmişdi. Təkcə bunu göstərmək kifayətdir ki, «Böyük çətinliklərə baxmayaraq neftçilər fədakarlıqla çalışır, cəbhəni və xalq təsərrüfatını yanacaqla tə'min edirdilər... Azərbaycan neftçiləri müharibə illərində ölkəyə 75 milyon tona qədər neft verdilər. Ən çətin şəraitdə onlar ordunu yanacaqla fasiləsiz tə'min edir, o zaman bütün sovet neftinin təqribən dörddə üç hissəsini verirdilər... Bakıda 130 növ müxtəlif silah, hərbi sursat hazırlanırdı.»[113]

Müharibənin bölgəyə vurduğu zərərləri aradan qaldırmaq, xalq təsərrüfatının bütün sahələrini bərpa etmək, xalqın maddi və mədəni rifah halını yaxşılaşdırmaq məqsədilə 1946-cı ilin martında SSRİ Ali Sovetinin sessiyası xalq təsərrüfatının bərpa və inkişafına dair beşillik plan haqqında qanun qəbul etdi.[114] 1946-cı ilin avqustunda Azərbaycan SSR Ali Soveti Ümumittifaq beşillik planına müvafiq olaraq 1946-1950-ci illərdə respublika xalq təsərrüfatının bərpa və inkişaf etdirilməsinə dair beşillik plan qəbul etdi. Beşillik planda iqtisadi məsələlərlə yanaşı, elm, maarif və mədəniyyətin bütün sahələrinin inkişafına, o cümlədən, kitabxana şəbəkələrinin artmasına və onların fəaliyyətinin təkmilləşdirilməsinə də diqqət yetirildi.

Azərbaycan SSR Nazirlər Soveti 1946-cı ilin avqustunda «Azərbaycan SSR-də «Mədəni-maarif müəssisələrinin pasportlaşdırılması haqqında»[115] qərar qəbul etdi. Qərarda göstərilirdi ki, 1946-cı il ərzində «bütün şəhər, rayon, kənd müstəqil kitabxanalarının, şəhər, rayon, kənd klub-kitabxanalarının, qiraət komalarının, həmkarlar ittifaqı və kolxoz kitabxanalarının, həmçinin digər idarə və müəssisə kitabxanalarının qeydə alınması təşkil edilsin.»[116]

Pasportlaşmanın əsas məqsədi respublikada müharibədən sonrakı dövrdə kitabxanaların vəziyyətinin real mənzərəsini aşkar etmək, onların fəaliyyətini təkmilləşdirmək, konkret statistik materiallar əsasında kitabxana işini yenidən qurmaq idi.

Pasportlaşma, başqa sözlə desək, kitabxanaların yenidən qeydə alınması nəticəsində mə'lum oldu ki, respublikada 1946-cı ilin sonunda 1.499 kitabxana vardır. Onların fondunda 2.828.499 nüsxə kitab saxlanılırdı. Bu kitabxanaların 765-i kütləvi kitabxana olmuşdur ki, onların da 563-ü Mədəni-Maarif Müəssisələri Komitəsinin tabeçiliyində idi.[117] Komitəyə tabe olan kitabxanalardan 116-sı şəhər və rayon mərkəzi kitabxanaları, 128-i kənd kitabxanası, 319-u isə klub-kitabxana və qiraət koması olmuşdur[118].

Bundan başqa, pasportlaşma nəticəsində müəyyənləşdirilmişdi ki, respublika-

---

[113] ASE: 10 clddə. C.2.-B.,1977.-S.286.
[114] 1946-1950-ci illərdə SSRİ xalq təsərrüfatının bərpa və inkişaf etdirilməsinə dair beşillik plan haqqında Qanun.-B.: Azərnəşr, 1946.-64 s.
[115] Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin arxivi, f.10, s.2, iş 1, v. 172.
[116] Yenə orada.
[117] Yenə orada, iş 4. v.116.
[118] Yenə orada, v.148.

mızda 200-dən çox elmi, texniki və xüsusi kitabxana vardır.[119] Pasportlaşma zamanı mövcud nöqsanlar da aşkar edilmiş, mə'lum olmuşdu ki, müharibə illərində kitabxana işi olduqca zəifləmiş, kitabxanaların sayı azalmış, maddi-texniki baza son dərəcə acınacaqlı vəziyyətə düşmüş, kitabxanaçı kadrların tərkibi pisləşmişdir. Xalq təsərrüfatının inkişaf etdirilməsinə dair dördüncü beşillik planda kitabxana işinin inkişafının əsas göstəriciləri müəyyənləşdirilmişdi. Bu plana müvafiq olaraq 1946-cı ildə mədəni-maarif müəssisələrinin bərpa və inkişafına dair beşillik tədbirlər planı hazırlanmışdı.[120] Burada digər mədəni-maarif müəssisələri ilə yanaşı, kitabxana işinin inkişafına da xüsusi diqqət yetirilmişdi. İlk növbədə şəhər və kənd yerlərində kitabxanaların sayının artırılması qarşıya vəzifə kimi qoyulurdu. Daha konkret desək, əgər 1945-ci ildə Azərbaycanda cəmi 262 müstəqil kütləvi kitabxana fəaliyyət göstərirdisə, 1950-ci ildə bu kitabxanaların sayını 600-ə çatdırmaq nəzərdə tutulurdu.[121] Həmçinin kitabxana işinin məzmunu, oxuculara xidmət işinin keyfiyyəti, xüsusən xalq təsərrüfatının inkişafına uyğun elm sahələri üzrə ədəbiyyatın təbliği, fondun formalaşması dövrün ideoloji, sosial-iqtisadi vəzifələrinə müvafiq yenidən qurulmalı və təkmilləşdirilməli idi.

Şübhəsiz, müharibədən sonrakı dövrdə respublikada kitabxana işinin inkişafının yeni mərhələyə daxil olması və ilk növbədə kitabxana şəbəkəsinin artımı bu sahəyə metodik rəhbərlik işinin yenidən qurulmasını tələb edir, kitabxanaşünaslıq və biblioqrafiyaşünaslıq fəaliyyətinin təşkilati-metodik baxımdan yeni keyfiyyət almasını ümdə vəzifə kimi qarşıya qoyurdu.

Respublikamızda müharibədən sonrakı dövrdə kitabxana işinə metodik rəhbərlik sisteminin formalaşması və təkmilləşdirilməsində 1946-cı ilin iyununda keçirilmiş təbliğat-təşviqat və mədəni-maarif işlərinə dair respublika müşavirəsinin[122] böyük əhəmiyyəti oldu. Müşavirədə «Mədəni-maarif müəssisələrinin vəziyyəti və növbəti vəzifələr haqqında» mə'ruzə edən Mədəni-Maarif Müəssisələri Komitəsinin sədri Süleyman Rəhimov və çıxış edən başqa natiqlər kitabxanaların inkişaf proqramını, onlara metodik rəhbərlik edilməsinin əhəmiyyətini və metodik işin təkmilləşdirilməsini xüsusi vurğuladılar. Qəbul olunmuş qərarda «kitabxanalara metodik rəhbərlik işini yaxşılaşdırmaq, bu məqsədlə metodik vəsaitlər nəşr etmək, bütövlükdə metodik işi qaydaya salmaq»[123] kimi vəzifələr irəli sürülmüşdü.

Respublikamızda kitabxana işinə metodik rəhbərlik sisteminin təşkilati baxımdan qaydaya salınmasında Nazirlər Sovetinin 1946-cı ilin noyabrında qəbul etdiyi «Azərbaycan SSR-də mədəni-maarif müəssisələrinin işini yaxşılaşdırmaq tədbirləri haqqında» qərarı əhəmiyyətli rol oynadı.[124] Qərarda respublikamızda mədəni-maarif müəssisələrinin, o cümlədən, kitabxana işinin ümumi tələblərə cavab verməməsi xüsusi qeyd edilir, konkret təkliflərin hazırlanması tələb olunurdu. Kitabxanalara metodik rəhbərlik sistemini formalaşdırmaq və təkmilləşdirmək məqsədilə Mədəni-Maarif Müəssisələri Komitəsinə tapşırılırdı ki, a) «elmi-metodik seminarlar və məsləhətlər keçirmək yolu ilə kitabxanalara müntəzəm olaraq kömək etsin; b) mövcud metodkabinəni kitabxanaşünaslıq və biblioqrafiyaşünaslığın elmi-metodik kabinəsinə çevirsin».[125]

Beləliklə, Nazirlər Sovetinin qərarına əsasən dövlət mədəni-maarif işləri metodkabinəsi elmi-metodik kabinəyə çevrildi. Bununla da onun səlahiyyətləri artdı, daha doğrusu, ona elmi status verildi, kitabxana işinə metodik rəhbərlik dövlət siyasəti səviyyəsinə qaldırıldı.

---

[119] Azərbaycan Respublikası Mədəniyyət Nazarliyinin arxivi, f.10 iş 4, v.172.
[120] Yenə orada, f.10, s.2, iş 1, v. 116.
[121] Yenə orada, iş 54, v.7.
[122] Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin arxivi, f.10, s.2, iş 10, v.66-71.
[123] Yenə orada.
[124] Yenə orada, f.10. bağ.2, iş 28, v.74
[125] Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin arxivi f.10. bağ.2, iş 28, v.74

Qeyd etmək lazımdır ki, 1946-1948-ci illərdə Azərbaycan SSR Nazirlər Soveti yanında Mədəni-Maarif Müəssisələri Komitəsinin elmi-metodik kabinəsi kitabxanalara metodik rəhbərlik işində dövlət əhəmiyyətli bir sıra vacib tədbirlər keçirməyə müvəffəq oldu. 1947-ci ildə təşkil edilmiş kitabxanalara ümumrespublika baxışı həmin tədbirlər içərisində mühüm yer tuturdu. Kitabxanalara baxışın əsas şərtləri belə idi:

a) kitabxanalara daha çox oxucu cəlb etmək;

b) kitab verilişini artırmaq;

v) kitab fondunun qorunmasını tə'min edib, onu nümunəvi qaydada saxlamaq;

q) kitabxanaları yeni çıxan ədəbiyyatla tə'min etmək;

ğ) kitabxana binasını vaxtında və yaxşı tə'mir edib, onu payız və qış ayları üçün yanacaqla tə'min etmək, oxucuların səmərəli istifadəsi üçün hər cür zəruri şərait yaratmaq;

d) partiya, sovet və elmi müəssisələrin, ali və orta məktəblərin yüksək ixtisaslı işçilərini məsləhət, mə'lumat-biblioqrafiya və kitabxananın təşviqat-kütləvi işlərində fəal iştiraka cəlb etmək;

e) kitabxananın bütün işçilərini öz ideya-nəzəri səviyyəsini və ixtisasını artırmağa, təsərrüfat-siyasi və mədəni vəzifələrin yerinə yetirilməsi işində əməli surətdə iştiraka cəlb etmək;

ə) kitabla və müvafiq kütləvi işlərlə oxuculara yaxşı xidmət etmək, habelə evdar qadınlar, xüsusilə hərbi qulluqçuların ailələri arasında təşviqat, kütləvi və mədəni-maarif işini gücləndirmək;

j) hamilik edilən rayon və kənd kitabxanalarına müntəzəm olaraq metodik köməklik göstərmək. Zavodlarda, fabriklərdə, müəssisələrdə səyyar məntəqələr təşkil edib, onları ədəbiyyatla tə'min etmək»[126].

Bu şərtlərin hamısını yerinə yetirən kitabxanalar Nazirlər Soveti yanında Mədəni-Maarif Müəssisələri Komitəsinin keçici Qırmızı bayrağı və pul mükafatı ilə təltif edilirdilər.

Qeyd etmək lazımdır ki, sonralar belə illik baxışlar ən'ənə halında 1952-ci ilə qədər davam etdi. Kitabxanalara baxış çox müsbət nəticələr verdi. Bunun sayəsində respublikada olan kitabxanaların fondu xeyli artmış, yeni oxucular, xüsusən kolxozçular, evdar qadınlar kitabxanalara cəlb olunmuş, bir çox kitabxanalar avadanlıqlarla tə'min edilmiş, oxucularla aparılan kütləvi işlərin sayı çoxalmışdı.

Bu dövrdə Mədəni-Maarif Müəssisələri Komitəsi kitabxana işçiləri üçün müntəzəm surətdə seminar və məsləhətlər, aktual mövzulara həsr olunmuş mə'ruzə və mühazirələr keçirirdi. 1947-ci ilin aprel ayından başlayaraq Bakı ziyalılar evində ayda iki dəfə keçirilən mühazirə, seminar və məsləhətlərdə qabaqcıl kitabxana işçilərindən H.Tağıyev, Ə.Əliyev, H.Rzaquluzadə, A.Lerman, S.Rəhimzadə, V.Levitskaya, Q.Rudneva, A.Quliyev və başqaları ilə yanaşı, görkəmli alimlər, yazıçılar, partiya və dövlət idarələrinin nümayəndələri də iştirak edirdilər. Onların arasında Ə.Mirəhmədov, A.Ş.Talıbzadə, M.Rzaquluzadə, M.Seyidzadə, M.Cəlal, M.Hüseyn, Z.Xəlil və başqaları var idi[127].

Müharibədən sonrakı ilk illərdə metodik rəhbərlik sahəsində nəzərə çarpan ən mühüm əlamətlərdən biri də kitabxana işinin hüquqi normativ bazasının yaradılması ilə əlaqədar görülən tədbirlər idi. Belə ki, 1947-ci ildə rayon, şəhər və kənd kitabxanalarının «Əsasnamə»ləri, M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının nizamnaməsi kitabxana ictimaiyyəti ilə geniş müzakirədən sonra elmi-metodik kabinə tərəfindən təsdiq edildi. Bundan başqa, elmi-metodik kabinənin 1947-1948-illər ərzində kitab fondunun uçotu, statistikası, kitabxanaların plan və hesabatlarının tərtibinə dair hazırladığı bir sıra normativ sənədlər kitabxanaların fəaliyyətinin təşkilati

[126] Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin arxivi, f.10, s.2, iş 104, v.14.

[127] Yenədə orada, iş 106, v 16-18.

cəhətdən tənzimlənməsinə müsbət tə'sir göstərmişdi. Bu məsələdən danışarkən professor A.A.Xələfov qeyd edir ki, elmi-metodik kabinə «uçot və hesabat formaları, o cümlədən, inventar və ümumi uçot kitabları və digər uçot və hesabat materialları çap etdirib bütün kitabxanalara göndərmiş, kitabxana müdirlərinin kitab fondunun qorunması, kitab əmlakı uçotunun aparılması məs'uliyyətini artırmışdı. Bu tədbirlər qısa müddətdə respublikada kitabxana işinin qaydaya salınması üçün olduqca əlverişli şərait yaratdı.»[128]

Metodik rəhbərlik işində kitabxana fondlarına artan diqqət dövrün tələblərindən irəli gəlirdi. Çünki müharibə illərində kitabxana fondlarının mühafizəsinə lazımi diqqət yetirilməmiş, onların çoxu baxımsız qalmış, uçot sənədlərinin olmaması, kitabxana müdirlərinin tez-tez dəyişdirilməsi, kitabxanaçı kadrlarının səriştəsizliyi, lazımi dövlət nəzarətinin olmaması üzündən kitabxana fondları yararsız vəziyyətə düşmüşdü. Odur ki, Mədəni-Maarif Müəssisələri Komitəsinin metodik fəaliyyətində kitabxana fondlarının vəziyyətinin yaxşılaşdırılmasına yönəlmiş tədbirlər olduqca aktual idi.

Müharibədən sonrakı dövrün ilk illərində Azərbaycan kitabxanalarına metodik rəhbərlik sisteminin formalaşmasında kitabxana işinin aktual problemlərinə həsr edilmiş müşavirələrin təşkilinə xüsusi əhəmiyyət verilirdi. Belə müşavirələr əhaliyə kitabxana xidmətinin yaxşılaşdırılmasına, kitabxanaçılıq sahəsində qarşılıqlı iş təcrübəsinin öyrənilməsinə, aktual vəzifələrin həll edilməsinə yönəlmiş tədbirlərin kollektiv müzakirəsinin ən səmərəli vasitələrindən birinə çevrilmişdi.

1948-ci ilin mart ayında Moskvada keçirilən və SSRİ-nin bütün kitabxana işçilərini təmsil edən konfransın yekunları ilə bağlı olaraq Bakıda «Azərbaycan SSR-də kitabxana işinin vəziyyəti və qarşıda duran vəzifələr haqqında» ümumrespublika müşavirəsi öz işinə başladı. Müşavirədə əsas mə'ruzəçi kimi çıxış edən Mədəni-Maarif Müəssisələri Komitəsi kitabxanaçılıq idarəsinin rəisi Hüseyn Tağıyev, qabaqcıl kitabxana işçiləri Ə.H.Qəhrəmanov, Ə.Y.Əliyev, S.Rəhimzadə, A.Lerman, İ.Volkoviç, R.Rəhimbəyova, T.Rudneva və başqaları respublikada kitabxana işi sahəsində yaranmış vəziyyəti təhlil edərək, əhaliyə kitabxana xidmətinin daha səmərəli inkişafına dair qiymətli tövsiyələr irəli sürdülər.[129]

Müşavirənin qəbul etdiyi qərar, demək olar ki, yaxın gələcək üçün inkişaf proqramı idi. Qərarda kitabxana şəbəkəsinin inkişaf etdirilməsi, səyyar kitabxanaların təşkili, kitabxana işinin əlaqələndirilməsi, kitabxanaşünaslıq və biblioqrafiya üzrə vəsaitlərin tərtibi, kitabxanalara metodik rəhbərliyin təkmilləşdirilməsi, qiyabi kitabxanaçılıq təhsilinin təşkili, kitabxana fondlarının məqsədyönlü komplektləşdirilməsi, kataloq sisteminin yaxşılaşdırılması, kitabxanaşünaslıq sahəsində elmi-pedaqoji kadrların hazırlanması, kitabxanaların maddi-texniki bazasının gücləndirilməsi, kitabxana işçilərinin ixtisasının artırılması və attestasiyasının keçirilməsi, müxtəlif dövlət idarə və təşkilatların kitabxanalarına diqqət və qayğının artırılması kimi məsələlər qabarıq şəkildə öz əksini tapmışdı.

1948-ci ildə respublikada kitabxanalara metodik rəhbərlik sisteminin formalaşmasında ciddi çətinliklər yaranmışdı. Bu çətinliklərin aradan qaldırılması məqsədilə M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasında metodik fəaliyyətlə məşğul olan kitabxanaşünaslıq və tövsiyə biblioqrafiyası şö'bəsi yenidən bərpa edildi və Mədəni-Maarif Müəssisələri Komitəsində aparılan metodik işlər bu kitabxananın səlahiyyətinə verildi.[130] Komitənin kitabxanaçılıq idarəsinin nəzdində isə elmi-metodik şura yaradıldı. Şübhəsiz ki, kitabxanalara metodik rəhbərlik işinin Dövlət Kitabxanasında mərkəzləşdirilməsi respublika kitabxanaçıları tərəfindən müsbət qiymətləndirildi. Çünki Mədəni-Maarif Müəssisələri Komitəsindən fərqli olaraq Dövlət

[128] Xələfov A.A. Azərbaycanda kitabxana işinin tarixi.-B.:Azərnəşr, 1974.-S.152.
[129] Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin arxivi, f.10, s.2, iş 41.
[130] M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının arxivi f.1, iş 39, v.283.

Kitabxanasının metodik sahədə elmi potensialı daha qüvvətli, respublikanın bütün kitabxanaları ilə sıx əlaqə saxlamaq, onların fəaliyyətini peşəkarlıq baxımından daha dəqiq və hərtərəfli təhlil etmək, onlara əməli köməklik göstərmək imkanı daha geniş idi.

M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının simasında kitabxanaşünaslıq və biblioqrafiya üzrə metodik mərkəzin meydana gəlməsi respublika miqyasında ərazi və ixtisaslaşdırılmış metodik mərkəzlərin fəaliyyətinin əlaqələndirilməsi, bu işin vahid proqram əsasında həyata keçirilməsi üçün şərait yaradırdı. Bundan başqa, Dövlət Kitabxanasının kitabxanaşünaslıq və biblioqrafiyanın bütün sahələrinə dair ixtisaslı kadrları, oxucularla iş sahəsində zəngin təcrübəsi və güclü biblioqrafik aparatı var idi. Metodik mərkəz olmaqla o, eyni zamanda muxtar respublika, vilayət, şəhər və rayon kitabxanalarında işin məqsədyönlü təşkilinə, xüsusilə kənd kitabxanalarının işinin istiqamətləndirilməsi sahəsində konkret tədbirlər həyata keçirmək imkanı qazandı. Nəhayət, bu kitabxana yarandığı vaxtdan başlayaraq ölkədə kitabxana işinin yüksəlişinə və təkmilləşməsinə fəal tə'sir göstərən mərkəzi elmi-metodik kitabxana-biblioqrafiya müəssisəsi kimi inkişaf etmişdi. Bütün bunlar onun respublikada kitabxana işinə dair metodik mərkəz funksiyalarının bərpası zəruriliyini sübut edən əsas amillər idi.

Şübhəsiz, sadaladığımız cəhətlər Azərbaycan SSR Nazirlər Soveti yanında Mədəni-Maarif Müəssisələri Komitəsi elmi-metodik şö'bəsinin 1946-1948-ci illərdəki fəaliyyətinin əhəmiyyətini azalda bilməz. Belə ki, həmin dövrdə şö'bə metodik vəsaitlərin tərtibi, metodik müşavirələrin və seminarların təşkili, kitabxana işinə dair normativ sənədlərin hazırlanması sahəsində səmərəli iş görmüşdür. Bu cəhətdən əməkdar müəllim H.Tağıyev, sonralar əməkdar kitabxanaçı adına layiq görülmüş Ə.Əliyev, H.Rzaquliyev, S.Rəhimzadə, A.Lerman və başqa görkəmli kitabxanaçıların əməyi yüksək qiymətləndirilməlidir. Təkcə onu göstərmək kifayətdir ki, 1947-1948-ci illərdə metodkabinə tərəfindən 22 adda metodik vəsait, tə'limat və biblioqrafik göstərici nəşr edilmişdir. Bunların içərisində «Məktəb kitabxanası» (metodik vəsait)[131], «Respublika kitabxanalarında kitabların mühafizəsi» (tə'limat)[132], M.Rzaquluzadənin «İkirəqəmli cədvəl»[133], H.Tağıyevin «Kitabxananın iş planını necə tərtib etməli»[134], «Kitabxana kataloqu» (1-3-cü buraxılış)[135] və s. göstərmək olar.

1948-ci ildə M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasına metodik mərkəz statusu verildikdən sonra kitabxananın fəaliyyətində xeyli canlanma baş verdi. Metodşö'bə tanınmış kitabxanaçı A.Şıxəliyevin rəhbərliyi ilə ilk növbədə rayon və kənd kitabxanalarının işinə daha çox diqqət yetirirdi. Təkcə 1949-cu ildə kitabxanaşünaslıq-biblioqrafiya kabinəsi 23 metodik məktub və 36 tövsiyə siyahısı tərtib edib rayon kitabxanalarına göndərmiş, yerlərdə əməli köməklik göstərmək və tövsiyələr vermək üçün 8 rayona e'zamiyyələr təşkil etmişdi[136]. 50-ci illərin əvvəllərindən e'tibarən metodkabinənin fəaliyyəti daha da genişlənir. Kabinə metodik və tövsiyə ədəbiyyat siyahıları tərtib etməklə kifayətlənmir, bilavasitə yerlərdə kitabxana işçiləri ilə müşavirə və seminarlar keçirməyə, mütərəqqi iş üsulları tətbiq etməyə, kitabxana işçilərini kitabxanaşünaslığın və biblioqrafiyanın nəzəri və təcrübi məsələləri ilə tə'limatlandırmağa üstünlük verirdi. Artıq o, bütün kitabxanaların işinin əlaqələndiricisi kimi fəaliyyət göstərirdi.

50-ci illərin əvvəllərində Dövlət Kitabxanasının metodik fəaliyyətində olduqca faydalı bir iş üsulu formalaşmağa başladı. Belə ki, metodkabinənin təşəbbüsü ilə bu

---

[131] Məktəb kitabxanası (məktəb kitabxanası üçün vəsait).-B.,1947.-54 s.
[132] Respublika kitabxanalarında kitabların mühafizəsi haqqında.-B.,1947.-16 s.
[133] Rzaquluzadə M.H. İkirəqəmli cədvəl.-B.,1942.-25 s.
[134] Tağıyev H. Kitabxananın iş planını necə tərtib etməli.-B., 1948.-22 s.
[135] Tağıyev H. Kitabxana kataloqu.-Bur.1-3.-B.,1947-1949.
[136] M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının arxivi, f.1, iş 36, v.16.

dövrdən başlayaraq hər il rayon və kənd kitabxanalarına əməli köməkliyə, müşavirə və seminarların təşkilinə metodistlərlə yanaşı digər şö'bələrin təcrübəli işçiləri də cəlb olundular. Şübhəsiz, bu, metodik fəaliyyətin məzmununa müsbət tə'sir göstərir, onun əhatə dairəsini genişləndirirdi. Məsələn, 1950-ci ildə metodkabinə kitabxananın digər əməkdaşlarının iştirakı ilə Saatlı, Salyan, Sabirabad, Kürdəmir, Bərdə, İsmayıllı və başqa rayonlarda, eləcə də Naxçıvan MR-da 31 seminar-müşavirə təşkil etmişdi.[137] 1951-ci ildə isə metodkabinənin rəhbərliyi ilə dövlət kitabxanasının 14 əməkdaşı 34 rayon kitabxanasında komplektləşdirmə prosesinin təkmilləşdirilməsində fəallıq göstərmişdi.[138] Qeyd edək ki, 1950-ci ildə Azərbaycan KP MK «Respublikada qadınlar arasında aparılan işin vəziyyəti və onu yaxşılaşdırmaq tədbirləri haqqında" qərar qəbul etmişdir.[139] Bu qərarla əlaqədar Mədəni-Maarif Müəssisələri Komitəsinin kitabxanaçılıq idarəsi M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının metodkabinəsinə həmin qərarın həyata keçirilməsində kitabxanaların fəaliyyətini müəyyənləşdirən xüsusi proqramın hazırlanması haqqında göstəriş vermişdi. Bu proqrama uyğun olaraq 1951-ci ildə Bakı şəhərinin yüksək ixtisaslı və təcrübəli qadın kitabxanaçılarından 16 nəfəri 20 rayona e'zam edilmişdi. Bu qadınların arasında M.Əzizbəyov adına kütləvi kitabxananın müdiri Törə Babayeva, Bakı Mərkəzi şəhər Kitabxanasının müdiri Tatyana Rudneva, həmin kitabxananın şö'bə müdiri Rəfiqə Rəhimbəyova, M.F.Axundov adına Dövlət Kitabxanasının direktor müavini Məryəm Səmədova, şö'bə müdiri Bilqeyis Qasımova, K.Marks adına kütləvi kitabxananın müdiri Zöhrə Seyidova və başqa təcrübəli kitabxana işçiləri var idi.[140] Onlar e'zam edildikləri bütün rayonlarda fəal qadınlarla görüşmüş, müşavirələr keçirmiş, onların kitabxanalara cəlb olunmasını və kitabxana şuralarında iştirakını tə'min etmiş, tarlalarda işləyən kolxozçu qadınlar üçün mühazirələr, mə'ruzələr, söhbətlər keçirmiş, kitabxana işçiləri ilə birlikdə gələcəkdə görüləcək işlərin konkret planını işləyib hazırlamışdılar.

Nəzərdən keçirdiyimiz dövrdə kitabxanalara metodik rəhbərlik işinin əsasən rayon və kənd kitabxanalarına istiqamətləndirilməsinin səbəbi bir də onunla izah edilirdi ki, hələ 1949-cu ildə Mədəni-Maarif Müəssisələri Komitəsi «Azərbaycanda kənd əhalisinə kitabxana xidmətinin təşkilinin perspektiv planı»nı tərtib etmişdi.[141] Bu proqram yaxın beş il ərzində kənd əhalisinə xidmət edən kitabxana şəbəkəsini və xüsusən sərhədboyu rayonlardakı kitabxanaların şəbəkələrini genişləndirməyi, onların səmərəli fəaliyyətini tə'min etməyi, maddi-texniki bazasını möhkəmləndirməyi nəzərdə tuturdu.[142] Eyni zamanda kənd əhalisinə kitabxana xidmətini yaxşıladırmaq məqsədilə metodik tədbirlərin əsas istiqamətlərinin rayonlara yönəldilməsi vacib sayılırdı. Perspektiv planda rayon və kənd kitabxanalarının kadr tərkibinin yaxşılaşdırılması və onların ixtisasının artırılması da diqqət mərkəzində dururdu. Perspektiv planın tərtibində Mədəni-Maarif Müəssisələri Komitəsinin məs'ul işçilərindən H.Tağıyev, H.Rzaquluzadə və Dövlət Kitabxanasının metodistləri yaxından iştirak edirdilər. 50-ci illərin əvvəllərində Dövlət Kitabxanası tərəfindən göndərilən metodik məktubların artması, e'zamiyyələrin çoxalması məhz bu proqramın həyata keçirilməsinə yönəldilmiş tədbirlər idi. Şübhəsiz ki, metodik məktubların və tövsiyələrin mövzuları dövrün ideoloji vəzifələrinə uyğun olaraq kitabxanalarda əsasən marksizm-leninizm klassiklərinin əsərlərinin, kommunist partiyasının siyasətinin təbliğinə, kitabxanalarda elmi ateistik biliklərin yayılmasına həsr edilirdi. Bununla yanaşı, kitabxanalarda kənd təsərrüfatı biliklərinin təbliği, səyyar kitabxanaların təşkili, kütləvi tədbirlərin keçirilməsi, tarla düşərgələrində kitabxana xidməti və s. məsə-

---

[137] M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının arxivi, f.1, iş 5 a. v.12
[138] Yenə orada, v.16
[139] Kommunist.-1950.-6 mart.
[140] Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin arxivi, f.10, sv.4, iş 54, v.70.
[141] Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin arxivi, f.10, s.4, iş 60, v.43-46.
[142] Yenə orada, v.44.

lələrə dair tövsiyələr də verilirdi. Rayonlara göndərilən metodik məktublarda kataloq sisteminin və mə'lumat-biblioqrafiya işlərinin təkmilləşdirilməsi məsələləri də öz əksini tapırdı. Təkcə 1952-ci ildə bu mövzularla əlaqədar 11 metodik məktub hazırlanıb yerlərə göndərilmiş, 14 dəfə ayrı-ayrı işçilər e'zam edilmiş, kitabxana işçiləri qarşısında 10 mə'ruzə oxunmuşdu.[143] Metodik vəsait və tə'limatların tərtibində metodkabinənin işçiləri ilə yanaşı, kitabxananın digər şö'bələrinin əməkdaşlarından A.Quliyev, T.Seyidova, M.Nəcəfova, İ.Şibayeva, Ş.Mirzəyeva, Ə.Xələfov, M.Meylman və başqaları da iştirak edirdilər.

50-ci illərin əvvəllərində M.F.Axundov adına Dövlət Kitabxanasında H.Tağıyev və Ə.Əliyev «Kolxoz kitabxanaçısına yaddaş» (1950), «Kütləvi kitabxanaların kataloqları üçün çap əsərlərinin vahid təsvir qaydaları (1953)», «Onluq təsnifat" (kütləvi kitabxanalar üçün) (1950) adlı qiymətli vəsaitlər hazırlamışdılar. Müharibədən sonrakı dövrdə Azərbaycanda kitabxana işinin inkişafı geniş vüs'ət almış, ayrı-ayrı kitabxanaların və şəbəkələrin sayı artmışdı.

«Müharibədən sonrakı beşilllik planın yerinə yetirilməsi nəticəsində respublikamızda kitabxana işi müharibədən əvvəlki səviyyəyə çatmış və say e'tibarilə xeyli artmışdı. Yalnız Mədəni-Maarif Müəssisələri Komitəsi sistemində olan kitabxanaların sayı 1946-cı ildə 764 idisə, 1951-ci ildə 2.492-yə çatmış, beş il müddətində 1728 yeni kitabxana açılmışdır... Bu artımın əsas hissəsi kənd kitabxanalarının payına düşürdü. Belə ki, kənd yerlərində 45 yeni kitabxana təşkil olunmuşdu.[144] Əgər 1946-cı ildə kitabxanaların fondunda 2,9 milyon nüsxə ədəbiyyat var idisə 1951-ci ildə bu kitab fondu 5,8 milyon nüsxəyə çatmışdı».[145]

Dövrün tələblərindən irəli gələn vəzifələr, kitabxana xidmətinin məzmununda baş verən mütərəqqi meyllər, oxucuların kitabxana-biblioqrafiya sorğularının mürəkkəbləşməsi və genişlənməsi, cəmiyyətin sosial-iqtisadi və siyasi həyatında baş verən hadisələr kitabxanalara metodik rəhbərlik işinin daha da təkmilləşdirilməsini tələb edirdi.

50-ci illərin əvvəllərində kitabxana işinə dair metodik fəaliyyət sahəsində xüsusi fəallıq nəzərə çarpırdı. Bu fəallıq təşkilati-metodik tədbirlərin həyata keçirilməsində, metodik vəsaitlərin tərtibində və bilavasitə yerlərdə əməli köməklik göstərilməsində daha çox nəzərə çarpırdı. Kitabxanaşünaslıq nəzəriyyəsində dövrün xüsusiyyətləri ilə əlaqədar demokratik fikirlərin hökm sürməsinə baxmayaraq, metodik sahədə kitabxanaçıları oxucularla fəal iş aparmağa, onların elmi, texniki və mədəni səviyyəsinin inkişafına səfərbər edən iş üsulları və formaları özünü daha çox büruzə verirdi.

Bu dövrdə metodik rəhbərlik sahəsində ən aktual problemlərdən biri kadrların ixtisasının artırılması idi. Çünki respublikada hələ ali ixtisas təhsili olan kitabxanaçılar yox dərəcəsində idi. Yalnız 1947-1948-ci tədris ilində Bakı Dövlət Universitetinin filologiya fakültəsinin nəzdində ali kitabxanaçılıq təhsilinin əsası qoyulmuşdu. İlk mə'zunlar universiteti 1953-cü ildə bitirib kitabxanalara göndərilmişdilər. 1948-1952-ci illərdə isə kitabxanalarda əsasən Bakı Kitabxanaçılıq Texnikumunu bitirmiş orta ixtisaslı mütəxəssislər və digər sahələr üzrə ali təhsili olan kadrlar çalışırdılar. Qeyd etməliyik ki, ali ixtisas təhsili olmayan, lakin hərtərəfli təcrübəyə və əməli səriştəyə malik bir sıra kitabxanaçılar respublikanın kitabxana həyatında fəal iştirak edir, metodik rəhbərlik sisteminin formalaşmasında mühüm rol oynayırdılar. Bunların içərisində H.Tağıyevin, M. Səmədovanın, Z.Seyidovanın, H.Rzaquliyevin, A.Lermanın, A.Quliyevin, Ə.Əliyevin, R.Rəhimbəyovanın, T.Babayevanın, B.Qasımovanın, A.Şıxəliyevin, M.Nəcəfovanın və başqalarının xidməti xüsusi qeyd edilməlidir.

Ümumiyyətlə, 40-cı illərin sonu - 50-ci illərin əvvəllərində respublikada kitab-

---

143 M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının arxivi, f.1, iş 25, v.74.
144 Xələfov A. Azərbaycanda kitabxana işinin tarixi.-B.:Azərnəşr, 1974.-S.158-159.
145 Xələfov A. Azərbaycanda kitabxana işinin tarixi.-B.:Azərnəşr, 1974.-S.158-161.

xanaçı kadrların tərkibinin yeniləşməsi və zənginləşməsi sahəsində xeyli iş görülmüş, nəzərə çarpan keyfiyyət dəyişikliyi özünü qabarıq şəkildə büruzə vermişdi.

1949-1952-ci illərdə mədəni-maarif müəssisələrində çalışan kadrların tərkibi yoxlanılmış, 300 nəfərdən artıq kitabxana işçisi savadlı və bacarıqlı kadrlarla əvəz olunmuş, 250 nəfərdən çox qadın mədəni-maarif işlərinə irəli çəkilmişdi. Ümumiyyətlə, bu dövrdə mədəni-maarif işində ali təhsilli və natamam təhsili olanların sayı 363 nəfər, orta təhsillilərin sayı isə 1458 nəfər idi.[146]

Kitabxana işçiləri sırasında peşə təhsili olmayan kadrların ixtisasının artırılması metodik fəaliyyətin əsas məzmununu təşkil edirdi. Təkcə onu göstərmək kifayətdir ki, 1950-1952-ci illərdə Mədəni-Maarif Müəssisələri Komitəsi tərəfindən hər il 9-10 rayonda bir aylıq ixtisasartırma kursları təşkil olunurdu və bu kurslarda ildə orta hesabla 320-350 kitabxana işçisi iştirak edirdi.[147] Yalnız 1952-ci ildə respublikanın 9 rayon mərkəzində (Şəki, Lənkəran, Quba, Füzuli, Xankəndi, Şamaxı, Zəngilan, Naxçıvan) bir aylıq kurslar təşkil edilmiş və həmin kursları 320 nəfər bitirmişdi.[148]

Azərbaycan SSR Nazirlər Soveti yanında Mədəni-Maarif Müəssisələri Komitəsi 1953-cü ilin may ayından öz fəaliyyətini Mədəniyyət Nazirliyi adı ilə davam etdirməyə başladı. Respublika Mədəniyyət Nazirliyi yarandıqdan sonra isə kitabxanalara rəhbərlik işi bu nazirliyin mədəni-maarif müəssisələri idarəsi tərəfindən yerinə yetirilirdi. Mədəni-maarif müəssisələri idarəsinin tərkibinə kitabxanalar şö'bəsi, klub müəssisələri şö'bəsi, respublika metodkabinəsi, mərkəzi mühazirə bürosu və xalq yaradıcılığı evi daxil idi.

Mədəniyyət Nəzirliyinin metodik fəaliyyəti haqqında mə'lumat verməzdən əvvəl qeyd etməliyik ki, Mədəni-Marif Müəssisələri Komitəsinin təqribən 8 il ərzindəki fəaliyyəti kitabxanalara metodik rəhbərlik işində xüsusi mərhələ sayılmalıdır. Məhz bu dövrdə respublikada kitabxanalara metodik rəhbərlik sisteminin formalaşmasının əsası qoyulmuş və bu iş Azərbaycanda kitabxanaşünaslıq fikrinin inkişafına, kitabxana işinin nəzəri-metodik prinsiplər əsasında təkmilləşdirilməsinə, əhaliyə kitabxana xidməti sahəsində meydana çıxan mütərəqqi meyllərin ümumiləşdirilməsinə və təbliğ edilməsinə, kursların ixtisas səviyyəsinin artırılmasına səmərəli tə'sir göstərmişdir. Kitabxanalara metodik rəhbərlik işi məhz bu dövrdə müstəqil sahə kimi formalaşmağa başlamış və kitabxana işinin bir çox təşkilati məsələlərinin, əhaliyə kitabxana xidmətinin aktual problemlərinin həllində diqqətəlayiq rol oynamışdı. Respublikamızda Mədəniyyət Nazirliyinin yaradılmasının kitabxana işi sahəsində ən mühüm əhəmiyyəti isə ondan ibarət idi ki, «Mədəniyyət Nazirliyi dövlət kitabxana şəbəkəsi ilə yanaşı olaraq ayrı-ayrı idarə və müəssisələrin kitabxana şəbəkələrinə də dövlət rəhbərliyini həyata keçirməyə başladı ki, bu da respublikada kitabxana işinin əlaqələndirilməsi üçün şərait yaratdı».[149]

Respublika Mədəniyyət Nazirliyinin kitabxanalara metodik rəhbərlik işində həyata keçirdiyi ilk tədbir kitabxana işçilərinin ixtisasını artırmaq məqsədilə Lənkəran şəhər mədəniyyət şö'bəsi yanında rayon, uşaq və kənd kitabxanaları işçiləri üçün bir aylıq kitabxanaçılıq kursunun təşkili idi. Bu kursa eyni zamanda Astara, Lerik, Yardımlı, Masallı, Cəlilabad (Astraxanbazar) və Biləsuvar (Puşkin) rayonlarından 35 nəfər kitabxana işçisi də'vət edilmişdi.[150]

1954-cü ildə Mədəniyyət Nazirliyi respublikada kitabxana işinə dair metodik fəaliyyətin cari vəzifələrini müəyyənləşdirən mühüm bir qərar qəbul etdi. Bu qərar

---

[146] Tağıyev H. Sovet hakimiyyəti illərində Azərbaycanda kitabxana işinin inkişafı (1920-1955).-B.:Azərnəşr,1960.-S.89-90.
[147] Azərbaycan Respublikası MN arxivi, f.10, s.2, iş 85, v.77.
[148] Tağıyev H. Sovet hakimiyyəti illərində Azərbaycanda kitabxana işinin inkişafı (1920-1955).-B.:Azərnəşr,1960.-S.90.
[149] Xələfov A.A. Azərbaycanda kitabxana işinin tarixi.-B.,1974.-S.192.
[150] Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin arxivi. f.10, s.2. iş 118, v.7-8.

«Kənddə mədəni-maarif işlərinin vəziyyəti və qarşıda duran vəzifələr» adlanırdı[151] və 1953-1954-cü illərdə SSRİ-də kənd təsərrüfatının daha da inkişaf etdirilməsinə yönəldilmiş ümumittifaq tədbirlərinə uyğun tərzdə kitabxanaların kənd təsərrüfatına köməyi, bu sahədə ədəbiyyatın geniş təbliği, yerlərdə bu mövzuda tədbirlərin keçirilməsi ruhunda hazırlanmışdı. Qərarda kənd əhalisinə kitabxana xidmətinin yaxşılaşdırılmasına yönəldilmiş tədbirlərin metodik tə'minatına geniş yer verilir, həmçinin mədəni-maarif müəssisələri idarəsinin 5000 nüsxə xüsusi vərəqələr nəşr etməsi və pambıqçılıq rayonlarındakı kitabxanalara və mədəni çadırlara göndərməsi nəzərdə tutulurdu.[152]

Daha sonra M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasına tapşırılırdı ki, «ictimai-siyasi, kənd təsərrüfatı və elmi-kütləvi ədəbiyyatın təbliğ edilməsinə dair tövsiyə siyahıları, yaddaş və kitab sərgiləri, sxem və diaqramlar tərtib edib rayon kitabxanalarına göndərsin».[153] Qərarda MTS və sovxozlara xidmət edən kitabxanaların təşkilində, fondların komplektləşdirilməsində, mühazirə, mə'ruzə və icmalların aparılmasında yaxından iştirak etmək mərkəzi kitabxanalara həvalə olunmuşdu.

Beləliklə, 50-ci illərin birinci yarısında kitabxanalara metodik rəhbərlik işi əsasən kənd əhalisinə kitabxana-biblioqrafiya xidmətinin təkmilləşdirilməsinə istiqamətləndirilmişdi. Bu özünü kitabxana işinə dair təşkilati-metodik fəaliyyətin bütün forma və üsullarında tapırdı. Belə ki, bu dövrdə respublika kitabxana işçiləri tərəfindən rəğbətlə qarşılanan bir sıra maraqlı və qiymətli metodik tövsiyələr, yaddaşlar və biblioqrafik vəsaitlər hazırlanıb nəşr edilirdi. Bunlardan M.F.Axundov adına Dövlət Kitabxanasının tərtib etdiyi «Kənd təsərrüfatının mexanikləşdirilməsinə dair ədəbiyyatın təbliği» (1953, 16 s.); «Heyvandarlıq fermalarında səyyar kitabxanaların təşkili» (1954, 12 s.); «Tarlalarda kitabxana xidmətinin təşkili» (1954, 8 s.); «Qarğıdalı və onun kənd təsərrüfatında əhəmiyyəti: Ədəbiyyat icmalı» (1955, 18 s.); «Möhkəm yem bazasının yaradılması heyvandarlığın sür'ətlə artması üçün zəruri şərtdir» (1955, 16 s.) və s. göstərmək olar. Bu metodik məktublarla yanaşı, Dövlət Kitabxanası 1950-ci illərin birinci yarısında rayon və kənd kitabxanalarının fəaliyyətinin təkmilləşdirilməsinə dair bir sıra orijinal vəsaitlər də çap etdirib yerlərə göndərmişdilər. Məsələn:

1.Kolxoz kitabxanaçısına yaddaş (müxtəsər vəsait) /Tərtib edənlər: Ə.Əliyev, M.Nəcəfova.-B.,1950.-36 s.

2.Tağıyev H. Kənddə kitabxana işi.-B.,1952.-44 s.

3.Həsənov H. Kolxoz və kənd kitabxanalarının iş təcrübəsindən /Red.H.Rzaquliyev.-B.,1954.-59 s.

4.Onluq təsnifat: Kütləvi kitabxanalar üçün /Tərtib edəni: Ə.Əliyev; red.H.Tağıyev.-B.,1952.-54 s.

5.Rayon kitabxanaları /Tərtib edəni: Ə.Xələfov.-B.,1956.-25 s.

Dövlət Kitabxanası həmçinin rayon və kənd kitabxanalarının fondlarının və xüsusən kənd təsərrüfatı ədəbiyyatı fondlarının komplektləşdirilməsinə kömək məqsədilə nümunəvi kitab kataloqları nəşr edirdi. Həmin kitab kataloqları bunlardır:

1.Kənd təsərrüfatının daha da inkişaf etdirilməsi uğrunda: (tövsiyə ədəbiyyat kataloqu) /Tərtib edəni: A.K.Quliyev, red.Ə.Əliyev.-B.,1954.-32 s.

2.Rayon və kənd kitabxanaları üçün kitab kataloqu (63. Kənd təsərrüfatı) /Tərtib edəni A.K.Quliyev.-B.,1957.-52s.

3.Rayon və kənd kitabxanaları üçün kitab kataloqu: Təbiət və kənd təsərrüfatı şö'bəsi /Tərtib edəni A.K.Quliyev.-B.,1958.-96 s.

Belə kitab kataloqlarının nəşri rayon və kənd kitabxanaları fondlarının cari və retrospektiv komplektləşdirməsində, oxuculara mə'lumat-biblioqrafiya xidmətində

---

[151] Yenə orada. v.31-35.

[152] Yenə orada.

[153]Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin arxivi, f.10, s.2, iş 118, v.31-35.

mühüm rol oynayırdı. Bunların vasitəsilə rayon və kənd kitabxana işçiləri son on il ərzində kənd təsərrüfatının bütün sahələrinə dair ölkədə Azərbaycan və rus dillərində nəşr olunmuş kitab və kitabçalar haqqında ətraflı biblioqrafik mə'lumat alır, kitabxana fondlarını müvafiq ədəbiyyatla tamamlamaq və oxuculara biblioqrafik xidməti daha keyfiyyətli təşkil etmək imkanı qazanırdılar.

Kitab kataloqlarına əlavə olaraq Dövlət Kitabxanası 1955-ci ildə metodik tövsiyələrlə biblioqrafik siyahıları özündə birləşdirən və kənd təsərrüfatının ayrı-ayrı sahələrinə həsr edilmiş vəsaitlər də çap etdirmişdi. Məsələn:

1.İpəkçilik /Tərtib edəni: Z.Əliyev .-B.,1955.-8 s.

2.Kənd təsərrüfatının mexanikləşdirilməsi /Tərtib edəni: Ş.Əliyeva.-B.,1955.-12 s.

3.Çayçılıq /Tərtib edəni: Z.Əliyev.-B.,1955.-8 s.

4.Pambıqçılıq /Tərtib edəni: Ş.Əfəndiyeva.-B.,1955.-40 s.

5.Pambıqçılıq /Tərtib edəni: H.Həsənov.-B.,1955.-32 s.

6.Tərəvəzçilik /Tərtib edəni Ə.Əliyev.-B.,1955.-24 s.

Bütün bunlar kənd təsərrüfatı sahəsində çalışan əməkçilərə daha məqsədyönlü kitabxana xidməti göstərməyə kömək edirdi.

1953-cü ildə M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanası «Azərbaycan SSR kütləvi kitabxanalarının iş təcrübəsi» adlı xüsusi bülletenin nəşrinə başlamışdı. Bu, respublikanın kütləvi kitabxanalarında tətbiq edilən mütərəqqi iş üsullarının müntəzəm öyrənilməsi və təbliği sahəsində ilk təşəbbüs idi. Bülleten ildə 2 dəfə nəşr olunur, şəhər, rayon və kənd kitabxanalarında oxuculara xidmət işində baş verən qabaqcıl iş üsullarını təsvir edirdi. Təəssüf ki, maddi-texniki bazanın zəifliyi nəticəsində iki ildən sonra bülletenin nəşri dayandırılmışdı.

M.F.Axundov adına Dövlət Kitabxanasının kənd əhalisinə kitabxana xidmətini yaxşılaşdırmağa yönəlmiş metodik fəaliyyəti təkcə metodik vəsaitlərin, bülletenlərin, tövsiyələrin hazırlanması ilə məhdudlaşmırdı.

Bu dövrdə kitabxanalara metodik rəhbərlik işində keyfiyyətcə yeni, mütərəqqi forma meydana çıxdı ki, bu da əhaliyə kitabxana xidmətinin aktual problemlərinə həsr edilmiş elmi-metodik sessiyaların təşkili idi.

Müşavirə və seminarlardan fərqli olaraq elmi-metodik sessiyalar kitabxana işinin aktual məsələlərinin kollektiv müzakirəsinin daha mükəmməl forması olub, elmi təhlil və ümumiləşdirmə məsələlərini qarşıya məqsəd qoyurdu. Elmi-metodik sessiyalara bir qayda olaraq nəzəriyyəçilər və təcrübəli işçilər cəlb edilir, çıxışların və fikir mübadiləsinin gedişində əhaliyə kitabxana xidmətinin optimallaşdırılması sahəsində tövsiyələr hazırlanır və qəbul edilirdi. Respublikada kitabxana işi sahəsində ilk elmi-metodik sessiya 1954-cü ildə Naxçıvan şəhərində «Kitabxanalarda kənd təsərrüfatı ədəbiyyatının təbliğinin forma və üsulları» mövzusunda keçirilmişdir. Sessiyaya muxtar respublikanın hər yerindən 175 nəfər kitabxana işçisi toplaşmışdı. Bunlar Naxçıvan, Ordubad, Culfa, Şahbuz və Şərur (Noraşen) rayonlardakı kütləvi, MTS, sovxaz və digər kitabxanaların nümayəndələri idi.[154] M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanası tərəfindən təşkil olunan və dörd gün davam edən sessiyanın işində Respublika Mədəniyyət Nazirliyinin, Respublika Həmkarlar İttifaqı mədəniyyət şö'bəsinin, Kənd Təsərrüfatı Nazirliyinin və eləcə də Muxtar Respublikanın müvafiq təşkilatlarının məs'ul işçiləri iştirak edirdilər.[155] Sessiyanın iclasında şəhər, rayon, kənd, sovxoz, kolxoz, MTS kitabxanalarının 24 nəfər işçisi Muxtar Respublikanın kitabxanalarında kənd təsərrüfatı ədəbiyyatının təbliği sahəsində qazanılmış təcrübədən danışdı. Sessiyada çıxış edən Respublika Mədəniyyət Nazirliyinin nümayəndəsi M.Sultanov, M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanası-

---

[154]Самедова М. Азербайджанская республиканская библиотека им.М.Ф.Ахундова (Опыт работы).-Б..1959.-С.51-52.

[155] Yenə orada.

nın direktoru H.Qocayev irəli sürülən təcrübi və metodik məsələləri ümumiləşdirərək, Muxtar Respublika kitabxanalarının qarşısında duran yeni vəzifələri müəyyənləşdirdilər. Sessiya Muxtar Respublikanın kitabxanalarında kənd təsərrüfatı ədəbiyyatının təbliğinin yaxşılaşdırılmasına dair tövsiyələr qəbul etdi.

Respublika Dövlət Kitabxanası 1955-ci ildə daha iki sessiya – Quba və Göyçay rayonlarında «Müasir dövrdə rayon və kənd kitabxanalarında kənd təsərrüfatı ədəbiyyatının təbliği məsələləri» mövzusunda iki günlük sessiyalar keçirdi[156]. Qubadakı sessiyanın işinə beş ətraf rayondan 60 nəfər kitabxana işçisi də’vət olunmuşdu. Quba və Göyçay rayonlarında bu mə'ruzələr dinlənilmişdi:

1.«Müasir dövrdə rayon və kənd kitabxanalarında kənd təsərrüfatı ədəbiyyatının təbliğinin yaxşılaşdırılması məsələləri»;

2.«Kənd təsərrüfatı qabaqcıllarının iş təcrübələrinə dair ədəbiyyatın təbliğ edilməsi üsulları»;

3.«Heyvandarlığa dair ədəbiyyatın icmalı»;

4.«Rayon kitabxanalarının kənd və kolxoz kitabxanalarına köməyi».

Bir aylıq fasilə ilə keçirilən hər iki sessiyada əsas mə’ruzələri M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının direktor müavini M.Səmədova, baş kitabxanaçılar Ə.Əliyev, A.Quliyev və B.Qasımova oxumuşdular.

Sessiyalarda rayon və kənd kitabxanaçıları öz çıxışları ilə daha çox fərqlənmişlər. Belə ki, Quba rayon kitabxana işçilərinin elmi-metodik sessiyasında Quba rayon Mərkəzi Kitabxanasının müdiri Ç.Aydınbəyova, Qusar rayon Mərkəzi Kitabxananın müdiri Q.Məmmədova, Qonaqkənd rayon Kitabxanasının və başqa kənd kitabxanalarının müdirləri kənd təsərrüfatı ədəbiyyatının təbliğinə dair maraqlı çıxışlar etmişlər.[157]

Göyçay rayon kitabxana işçilərinin sessiyasında bir çox kənd kitabxanalarının müdirləri pambıqçılığa dair ədəbiyyatın təbliğində əldə edilmiş təcrübədən danışmışlar. Ümumiyyətlə, Quba və Göyçay rayonlarında keçirilən sessiyalarda yerli iş təcrübələrinin öyrənilməsinə və təbliğinə geniş yer verilmişdir. Şübhəsiz ki, 50-ci illərdə kitabxana xidmətinin aktual problemlərinə həsr olunmuş elmi-metodik sessiyalar respublikada kitabxanalara metodik rəhbərlik sisteminin keyfiyyətcə yeni mərhələyə daxil olmasını, elmi-metodik bazanın formalaşmasını sübut edirdi.

50-ci illərin ikinci yarısı ölkənin həyatında bir sıra əlamətdar hadisələrlə zəngin oldu. Şəxsiyyətə pərəstiş və onun nəticələrini aradan qaldırmaq yolunda həyata keçirilən partiya və dövlət tədbirləri, bütün sahələrdə olduğu kimi kitabxana işi aləmində də öz müsbət nəticələrini verirdi. Günahsız olaraq tə’qib edilmiş minlərcə vətənpərvərin, o cümlədən, görkəmli elm, mədəniyyət xadimlərinin, yazıçı və şairlərin yenidən çap olunmuş əsərləri hesabına kitabxanalar öz fondlarını xeyli zənginləşdirmişdi. Eyni zamanda respublikamızda qəzet və jurnalların sayının, tirajının və həcminin çoxalması, kitab nəşrinin nüsxə və ad e’tibarilə artması kitabxana fondunun inkişafına müsbət tə’sir göstərdi. Bundan başqa, kitabxanaçılıq fəaliyyətinin məzmununda bir sıra kəmiyyət və keyfiyyət dəyişiklikləri baş verirdi. Əvvəla, 50-ci illərin ikinci yarısında, daha dəqiq desək, 1952-1958-ci illərdə respublikada kitabxana şəbəkəsi sür’ətlə inkişaf edirdi. Bu dövrdə «təxminən hər il respublikada 50-dən artıq müstəqil kütləvi kitabxana yaradılırdı. Respublikanın şəhər və rayon mərkəzlərində kitabxana şəbəkəsi sabitləşdiyindən yeni kitabxanalar əsasən kənd yerlərində açılırdı. Böyük kəndlərdə və yaşayış məntəqələrində müstəqil, kiçik kəndlərdə isə klub kitabxanaları təşkil edilirdi».[158]

1958-ci ilin əvvəlinə olan mə’lumata görə, respublikada 20 milyon 212 nüsxə kitab fonduna malik olan 5.776 kitabxana var idi. Təkcə 1957-ci ildə 412 yeni kitab-

---

[156] M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının arxivi, f.1, iş 49, v.1-10.
[157] Yenə orada. v.12-22.
[158] Xələfov A.A. Azərbaycanda kitabxana işinin tarixi.-B.,1974.-S.198.

xana yaradılmış, kitab fondu isə 1 milyon nüsxə artmışdı.[159] 1957-ci ildə yalnız Mədəniyyət Nazirliyi sistemində olan kütləvi kitabxanalar 586.900 oxucuya xidmət etmiş və onlara 13.899.600 nüsxə kitab verilmişdi. Müqayisə üçün göstərək ki, hər bir oxucuya düşən kitab verilişi 1957-ci ildə 23-ə çatmışdı.[160]

50-ci illərin ikinci yarısında əhalinin maariflənməsində, respublikanın mədəni və elmi-texniki inkişafında kitabxanaların rolu daha da güclənmişdi. Bu dövrdə kənd rayonları ilə yanaşı, respublikanın ikinci sənaye mərkəzi olan Gəncə, yeni formalaşan sənaye mərkəzlərindən Sumqayıt və Mingəçevirdə də kitabxanalar inkişaf edir, oxuculara xidmətin forma və məzmunu təkmilləşdirilirdi. 1958-ci ildə Gəncədə 85, Mingəçevirdə, Sumqayıtda isə 14 şəhər kitabxanası fəaliyyət göstərirdi.[161] Tədqiq olunan dövrdə Bakı və onun rayonlarında da şəhər əhalisinə kitabxana xidmətinin təşkili sahəsində nəzərə çarpan nailiyyətlər əldə edilmişdi. Əgər 1950-ci ildə Bakıda 1 milyon 947 min kitab fonduna malik olan 137 kitabxana var idisə, 1958-ci ildə onların sayı 171-ə, kitab fondu isə 4 milyon 065 min nüsxəyə çatmışdı.[162] Bunlardan 63-ü geniş əhali kütləsinə xidmət edən dövlət kitabxanaları idi. 1958-ci ildə Bakı şəhər kütləvi kitabxanalarında kitab fondu və oxuculara kitab verilişi 1953-cü ilə nisbətən təqribən iki dəfə artmışdı.[163]

Həmin dövrdə əhaliyə kitabxana xidmətinin təşkilində, oxucularla işdə kütləvi tədbirlərin yeni formalarının meydana gəlməsi kitabxana işinin daha canlı və dinamik təşkilinə şərait yaradırdı. Bu baxımdan kitabxanalarda daim fəaliyyət göstərən lektoriyalar, mədəniyyət universitetləri, elm, mədəniyyət, incəsənət və ədəbiyyat xadimləri, müharibə və əmək veteranları ilə görüşlər, sual-cavab gecələri, ədəbi oyunlar, musiqi axşamları, səhərciklər, disputlar geniş oxucu kütlələrini, xüsusən gəncləri kitabxana və mütaliəyə cəlb etməyin səmərəli vasitəsinə çevrilirdi. Bu dövrdə Azərbaycan kitabxanalarında metodik mərkəzlərin təşəbbüsü ilə açıq rəf üsulu geniş tətbiq olunmağa başlamışdı. Kitabxana xidmətinin ilk demokratik formalarından olan bu üsul oxuculara xidmət işini daha da yaxşılaşdırır, kitab sərvətləri ilə bilavasitə tanış olmaq, lazımi kitabları heç bir maneə olmadan sərbəst surətdə seçmək üçün geniş imkanlar açırdı. Açıq rəf üsulu eyni zamanda kitabxanaçılara da hər bir oxucu ilə fərdi işləməyə, onun mütaliə marağını öyrənməyə və bu prosesi idarə etməyə şərait yaradırdı.

50-ci illərin ikinci yarısında əhaliyə kitabxana xidmətində baş verən müsbət meyllərin əsas səbəbi ondan ibarət idi ki, Azərbaycan dövləti, o cümlədən, Respublika Mədəniyyət Nazirliyi kitabxana işinin inkişafına xüsusi diqqət göstərirdi. Kitabxana şəbəkəsinin artması, kitabxanaların maddi-texniki bazasının tədricən möhkəmlənməsi bu dövrün səciyyəvi xüsusiyyətlərindən idi. Təkcə bunu göstərmək kifayətdir ki, əgər 1946-cı ildə respublikada mədəni-maarif işinin, o cümlədən, kitabxana işinin inkişafına 25 milyon manat ayrılmışdısa, 1953-cü ildə bu vəsait 35 milyon manata, 1958-ci ildə isə 48 milyon manata çatmışdı.[164] Bu vəsaitin təqribən 40 faizi kitabxanaların inkişafına sərf edilirdi. İkinci başlıca səbəb 50-ci illərdə respublikada kitabxanaçı kadrların, ilk növbədə ali təhsilli kitabxanaçı kadrların hazırlanmasında meydana gələn müsbət meyllər idi. 1953-1958-ci illərdə respublikada orta təhsilli kitabxanaçı kadrların hazırlanması xeyli artmış, ilk peşəkar ali təhsilli kitabxanaçı kadrlar nəsli formalaşmağa başlamışdı. Belə ki, 1947-ci ildən fəaliyyətə başlayan Bakı Dövlət Universitetinin kitabxanaçılıq şö'bəsi 1953-cü ildən e'tibarən respublikanın kitabxanalarına hər il orta hesabla 20-22 nəfər ali təhsilli kitabxanaçı-biblioqraf göndərirdi. 1955-ci ildə qiyabi şö'bənin təşkili və hər il bu şö'bəyə 50 nəfərə ya-

---

159 Yenə orada.-S.198.
160 Xələfov A.A. Azərbaycanda kitabxana işinin tarixi.-B.,1974.-S.164,199.
161 Народное строительство Азербайджанской ССР: Статистический сборник.-Б.,1961.-С.91.
162 Баку в цифрах:Статистический сборник.-Б.,1967.-С.87.
163 Xələfov A.A. Azərbaycanda kitabxana işinin tarixi.-B.,1974.-S.206.
164 Культурное строительство Азербайджанской ССР:Статистический сборник.-Б.,1961.-С.21.

xın tələbə qəbulu kitabxanaların ali təhsilli kadr tə'minatında olduqca əhəmiyyətli hadisə idi.[165] Bununla yanaşı, bu dövrdə Moskva və Sankt-Peterburq (Leninqrad) kitabxanaçılıq institutlarının əyani şö'bəsini 6 nəfər, qiyabi şö'bəsini isə 13 nəfər bitirmişdi və həmin gənc kadrlar respublikamızın müxtəlif kitabxanalarında çalışırdılar.

Ali təhsilli kitabxanaçılar hərtərəfli sosial-siyasi və humanitar biliyi kitabxanaşünaslıq və biblioqrafiya sahəsində dərin nəzəri və təcrübi hazırlığı, eləcə də kitab üzərində müntəzəm işləmək vərdişləri olan mütəxəssislər idi. Şübhəsiz ki, bu kadrlar geniş oxucu kütlələrinə, mütəxəssislərə, elmi işçilərə kitabxana sərvətlərinin çatdırılmasında, bütövlükdə kitabxana təcrübəsinin öyrənilməsi, ümumiləşdirilməsi və yayılmasında, elmi-tədqiqat və metodik işin təşkilində fəal iştirak edirdilər.

Nəhayət, 50-ci illərin ikinci yarısında respublikada əhaliyə kitabxana xidməti prosesində baş verən müsbət meyllərin üçüncü müsbət səbəbi göstərdiyimiz amillərdən doğan zərurət kimi kitabxana işinə metodik rəhbərlik sisteminin daha geniş vüs'ət alması və təkmilləşməsi idi. Bu dövrdə kitabxana işinə metodik rəhbərlik nəzəri-elmi səviyyə, təcrübi işin ümumiləşdirilməsi, təhlili və tətbiqi baxımından yeni mərhələyə daxil olurdu. Artıq tanınmış və zəngin təcrübəyə malik kitabxana işçiləri ilə yanaşı, ali təhsilli gənc mütəxəssislər də metodik işin təşkilində yaxından iştirak edirdilər. Bunlar - yeni kitabxanaşünaslar nəslinin nümayəndələri A.A.Xələfov, Ə.T.Xələfov, B.Abdullayev, R.Ə.Kazımov, Z.H.Əliyev, H.B.Həsənov, S.Əliyev, T.F.Quliyev, E.M.Bədəlov, S.M.Rzayev, Ə.Quliyev, M.Həsənov və başqaları kitabxana işinin ümumi inkişafında, elmi-tədqiqat işlərinin və elmi-metodik rəhbərliyin formalaşmasında müstəsna rol oynamışlar.

50-ci illərin ikinci yarısında kitabxana işinə metodik rəhbərlik sisteminin başlıca vəzifəsi kitabxana təcrübəsinin inkişafına müsbət tə'sir göstərmək, bu sahədə baş verən mütərəqqi iş üsullarını dərindən təhlil etmək, ümumiləşdirmək və bütün kitabxanaların fəaliyyətinə tətbiq etməkdən ibarət idi. Dövlət Kitabxana şəbəkələrinə metodik rəhbərlik yenə də əsasən M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanası, Mədəniyyət Nazirliyi və 1955-ci ildən şəhər və rayon mədəniyyət şö'bələri nəzdində olan xüsusi tə'limatçılar (inspektorlar) tərəfindən həyata keçirilirdi. Şübhəsiz ki, metodik fəaliyyət sistemində respublika kitabxanası elmi-metodik mərkəz kimi aparıcı müəssisə idi. Kitabxananın metodkabinəsində gənc kitabxanaşünaslardan Ə.T.Xələfov, R.Ə.Kazımov və H.B.Həsənov kitabxananın digər şö'bələrində çalışan təcrübəli kitabxana işçiləri ilə birgə elmi-tədqiqat və metodik rəhbərlik sahəsində yaradıcı və təşəbbüskar fəaliyyət göstərirdilər.

Bu dövrdə respublika Mədəniyyət Nazirliyi kitabxanalara metodik rəhbərliyin istiqamətləndirici və təşkiledici orqanı kimi fəaliyyət göstərirdi. Qeyd etmək olar ki, 1954-1958-ci illərdə respublika Mədəniyyət Nazirliyinin kollegiya iclaslarında dövlət kitabxana şəbəkəsinin vəziyyəti 49 dəfə müzakirə olunmuş, mövcud nöqsanların aradan qaldırılmasına dair müvafiq qərarlar qəbul edilmişdi. Bu qərarların demək olar ki, hamısında kitabxanalara metodik rəhbərlik işinin məzmununa, forma və üsullarının təkmilləşdirilməsinə dair xüsusi göstərişlər verilmişdi.[166]

1955-1958-ci illərdə M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının metodik fəaliyyəti o dövr üçün kitabxanaşünaslıq nəzəriyyəsinin müddəalarına əsaslanan elmi məzmunla zənginləşirdi. Dövlət Kitabxanasının metodik fəaliyyətində e'zamiyyətlərdən, metodik məktublardan və digər tə'limat sənədlərindən, ixtisaslaşdırma kursları və seminarlardan, elmi sessiya və konfranslardan daha geniş istifadə edilirdi. Respublika kitabxanasının Bakıda və respublikanın müxtəlif rayonlarında keçirdiyi zona müşavirələrinin elmi-metodik səviyyəsi xeyli yüksəlmişdi. Belə müşavirələrdə kitabxanaşünaslıq və biblioqrafiya kabinəsinin mütəxəssisləri mə'ruzələrlə çıxış edirdilər. Metodkabinənin tərtib etdiyi kitabxana plakatları, foto-diaqramlar,

---

[165] Xələfov A.A. Azərbaycanda kitabxanaçılıq təhsilinin inkişafı.-B.:Maarif,1987.-S.20.
[166] Azərbaycan Dövlət siyasi partiyalar və ictimai təşkilatların arxivi, f.1. sv 362, iş 70.v.198-208.

foto-montajlar rayon və kənd kitabxanaları üçün çox qiymətli təbliğat vasitələri idi.[167]

Aparılan hesablamalar göstərir ki, 1955-1958-ci illərdə M.F.Axundov adına Dövlət Kitabxanasının metodkabinəsi tərəfindən 90 metodik məktub, 102 e'zamiyyə, 26 seminar, müşavirə və konfrans təşkil edilmişdir.[168] Təkcə 1958-ci ildə metodkabinə 2 rayonlararası seminar, 4 metodik müşavirə, 11 metodik məktub, 20 tövsiyə siyahısı, 6 metodik vəsait hazırlamış, 25 e'zamiyyə təşkil etmişdir.[169]

50-ci illərin ikinci yarısında metodik rəhbərlik işində rayonlararası zona müşavirələri, seminar və konfranslara xüsusi əhəmiyyət verilirdi. Qeyd etdiyimiz kimi, əhaliyə kitabxana xidmətinin aktual problemlərinə, tarixi hadisələrə, görkəmli şəxsiyyətlərin həyat və yaradıcılığına, ictimai-siyasi kampaniyalara həsr olunan yığıncaqlar kitabxana işçiləri arasında ünsiyyət yaradılması, təcrübə mübadiləsi, aktual vəzifələrin kollektiv müzakirəsi baxımından, olduqca əhəmiyyətli idi.

Əsas vəzifəsi aktual təcrübə məsələlərinin birgə müzakirə edilməsindən və oxuculara xidmət sahəsində təcrübə mübadiləsindən ibarət olan metodik seminar, müşavirə və konfranslar kitabxana işçilərinin peşə səviyyəsinin artırılması üçün əsl məktəb rolunu oynayırdı. Müzakirə olunan məsələlərin hazırlanmasında metodistlərlə yanaşı, yerlərdə fəaliyyət göstərən kitabxanaçıların bilavasitə iştirakı nəinki kitabxana işçilərinin peşə bilik dairəsini genişləndirir, eyni zamanda mövcud qabaqcıl təcrübəni, kitabxana işinin mahiyyətini daha dərindən mənimsəməkdə və təşkilatçılıq vərdişlərinə yiyələnməkdə onlara yaxından kömək edirdi.

1957-1958-ci illərdə Ağdam, Lənkəran və Gəncə şəhərlərində keçirilən kitabxana işçilərinin zona seminar-müşavirələri buna misal ola bilər. Bu seminar-müşavirələr Mədəniyyət Nazirliyi mədəni-maarif müəssisələri idarəsinin kitabxanaçılıq şö'bəsi və metodkabinəsi ilə birlikdə təşkil edilmişdi.

1957-ci ilin sentyabr ayında Ağdamda keçirilmiş Qarabağ zonası kitabxana işçilərinin iki günlük seminar-müşavirəsində 8 mə'ruzə və 24 çıxış dinlənilmişdi. Əsas mə'ruzələri M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının işçiləri Ə.Əliyev («İctimai-siyasi ədəbiyyatın təbliği»), H.Həsənov («Qabaqcıl kənd təsərrüfatı işçiləri haqqında ədəbiyyatın təbliği üsulları»), Ə.Xələfov («Kitabxanalarda bədii ədəbiyyatın təbliği») və başqa natiqlər oxumuşdular.[170] Digər seminar-müşavirələrdən fərqli olaraq Ağdam müşavirəsində yerli iş təcrübəsinin öyrənilməsinə və respublikada geniş yayılmasına xüsusi diqqət yetirilirdi. Belə ki, Şuşa şəhər kitabxanasının müdiri S.Hacıyeva, Ağdam MTS-in kitabxana müdiri T.Sadıxova, Füzuli rayon uşaq kitabxanasının müdiri M.İsmayılova və başqa qabaqcıl kitabxanaçıların apardıqları təcrübə mübadiləsi müşavirə iştirakçıları tərəfindən maraqla qarşılanmışdı.[171]

Qeyd etmək lazımdır ki, 50-ci illərin ikinci yarısında M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının metodik fəaliyyətində rayon və kənd kitabxanalarına əməli köməklə yanaşı, bilavasitə kitabxanaçıların özlərinin ixtisas biliklərinin zənginləşdirilməsinə də xüsusi diqqət yetirilirdi. Bu da o dövr üçün təbii bir proses idi. Çünki respublikada metodik mərkəz funksiyasını yerinə yetirən müəssisənin, şübhəsiz ki, kitabxana işinin müasir problemlərini dərindən mənimsəmiş, əhaliyə kitabxana xidmətini səmərəli təşkil etmək imkanı olan hazırlıqlı əməkdaşlara ehtiyacı daha çox idi. Bu məqsədlə vaxtaşırı kitabxananın metodşurasında işçilərin ixtisasının artırılmasına yönəlmiş tədbirlər müzakirə edilir və həyata keçirilirdi. Yalnız 1955-1958-ci illərdə M.F.Axundov adına Dövlət Kitabxanasının əməkdaşları 24 nəzəri seminar, 194 kitab icmalı, 46 qabaqcıl iş təcrübəsi haqqında mə'lumat təşkil et-

---

[167] Xələfov A.A. Azərbaycanda kitabxana işinin tarixi.-B.,1974.-S.231.

[168] M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının arxivi, f.1, iş 5A, v.12; iş 29, v.74; iş 58. v.12; iş 49, v.17-18.

[169] Yenə orada, iş 62, v.1-12.

[170] Самедова М. Азербайджанская республиканская библиотека им. М.Ф.Ахундова.-Б.,1959.-С.55-56.

[171] M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının arxivi, f.1, iş 49, sv.17-20.

mişdilər[172]. Mövzu aktuallığı ilə seçilən seminar-müşavirələrdə kitabxanaçılıq təcrübəsinin ən aktual məsələlərinə dair fikir mübadiləsi aparılırdı. Bunlara misal olaraq «Biblioqrafik icmalların tərtibi metodikası», «Elmi-texniki ədəbiyyatın təbliği üsulları», «Elmi işçilərə kitabxana xidməti», «Oxucular arasında biblioqrafik biliklərin təbliği» və s.[173] tədbirləri göstərmək olar. Metodik işin məzmunu ilə yanaşı, aparılan metodik tədbirlərin həcmi də dəyişirdi. Belə ki, yalnız 1958-ci ildə Respublika Dövlət Kitabxanası metodkabinəsi 32 metodik məktub, 25 e'zamiyyə, 11 metodik və biblioqrafik vəsait tərtib etmişdi.[174]

Ümumiyyətlə, 1955-1958-ci illərdə respublikamızda kitabxana işinə dair 46 metodik və biblioqrafik vəsait buraxılmışdır ki, bunlar da kitabxana işinin səmərəli təşkilinə müsbət tə'sir göstərmişdir.

Həmin illərdə dövrün ictimai-siyasi hadisələrinə dair vəsaitlərlə yanaşı, qabaqcıl iş təcrübəsini təbliğ edən vəsaitlər də çap edilirdi. Peşə kamilliyi ilə fərqlənən vəsaitlərə bunları nümunə göstərmək olar:

1.Həsənov H.B. Kolxoz və kənd kitabxanasının iş təcrübəsindən /red.H.A.Rzaquliyev.-B.,1957.-59 s.

2.Rayon kitabxanası / Tərtib edəni: Ə.Xələfov.-B.,1957.-64 s.

3.Xələfov Ə.T. Uşaq və məktəb kitabxanalarına kömək.-B.,1958.-64 s.

4.Kənd kitabxanalarında qəzet və jurnallarla aparılan iş / Tərtib edəni: Q.Məmmədov.-B.,1956.-32 s.

5.Səmədova M., Nəcəfova M. Uşaq və məktəb kitabxanalarına kömək.-B.,1957.-56 s.

Beləliklə, artıq 50-ci illərdə respublikamızda dövlət kitabxanalarına metodik rəhbərlik sistemində əsaslı kəmiyyət və keyfiyyət dəyişmələri baş vermişdi.

### *2.2. Kütləvi kitabxanaların metodik tə'minatının inkişafı (1959-1975-ci illər)*

50-ci illərin sonu - 60-cı illərin əvvəllərində Azərbaycanda kitabxana işinin inkişafında bir sıra mütərəqqi proseslər özünü göstərirdi. Bu dövrün kitabxana işinə gətirdiyi yeniliklər ilk növbədə Sov. İKP MK-nın 1959-cu ilin sentyabrında qəbul etdiyi «Ölkədə kitabxana işinin vəziyyəti və onu yaxşılaşdırmaq tədbirləri haqqında» qərarı ilə əlaqədar idi.[175]

Qərarın sırf kommunist ideologiyası ruhunda tərtib edilməsinə baxmayaraq, burada ölkədə kitabxana işinin inkişafına səmərəli tə'sir göstərə biləcək bir sıra mütərəqqi əməli tədbirlərin həyata keçirilməsi nəzərdə tutulurdu. Çox mühüm vəzifələrdən biri kimi qeyd edilirdi ki, «Kitabxanalar fəhlələrə, kolxozçulara və ziyalılara öz biliklərini təkmilləşdirmək və estetik zövqlərini inkişaf etdirməkdə, elm və texnikanın ən yeni nailiyyətlərinə, qabaqcıl iş üsullarına yiyələnməkdə kömək etməli, gənclərə politexnik təhsil verilməsinə və yüksək mə'nəvi keyfiyyətlər aşılanmasına hər vasitə ilə yardım göstərməlidirlər».[176] Daha sonra qərarda müttəfiq respublikaların partiya, dövlət və hökumət orqanlarına tapşırılırdı ki, onlar kitabxanalara diqqəti artırsınlar, kitabxanaların maddi-texniki bazasının möhkəmlənməsinə yönəldilmiş konkret tədbirlər həyata keçirsinlər. Öz dövrü üçün mühüm partiya sənədi hesab edilən bu qərarda eyni zamanda kitabxanaçı kadrların hazırlanması, kitabxanalara metodik rəhbərliyin təkmilləşdirilməsi də mühüm vəzifələr kimi irəli sürülürdü.

60-cı illərin kitabxana işinə gətirdiyi ən mühüm yeniliklərdən biri Azərbaycan-

---

[172] Yenə orada, f.1, iş 49, v.21-24.

[173] Самедова М. Азербайджанская республиканская библиотека им. М.Ф.Ахундова.-Б.,1959.-С.60-61.

[174] M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının arxivi, f.1, iş 49, v.17-18.

[175] İdeoloji iş məsələləri.-B.,1961.-S.220-226.

[176] Yenə orada.-S.221.

da kitabxana şəbəkələrinin, xüsusilə rayon və kənd yerlərində əhaliyə xidmət edən kütləvi kitabxanaların sür'ətlə inkişaf etdirilməsi idi. Belə ki, 1960-cı ildə respublikada 1049 rayon və kənd kitabxanası olduğu halda, 1961-ci ildə bu rəqəm 1151; 1962-ci ildə 1288; 1963-cü ildə 1549; 1964-cü ildə 1563; 1965-ci ildə 1636-ya çatdırılmışdı[177]. Bu dövrdə kitabxanaların fondu da olduqca sür'ətlə inkişaf etməyə başlamışdı. Məsələn, 1960-cı ildə yalnız kənd kitabxanalarının fondunda 4 milyon 419 min nüsxə kitab olduğu halda, 1965-ci ildə kitab fondu artaraq 8 milyon 176 min 880 nüsxəyə çatmışdı. Oxucuların sayı isə müvafiq surətdə 285 min 400 nəfərdən 437 min 843 nəfərə qədər çoxalmışdı.[178] Bu dövrdə Azərbaycanın kitabxana işi həyatında baş verən əlamətdar hadisələrdən biri də M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının 1960-cı ildə yeni, geniş və yaraşıqlı bina ilə tə'min edilməsi idi. Görkəmli me'marımız Mikayıl Hüseynovun layihələşdirdiyi və ümumi sahəsi 10 min kvadrat metrə qədər olan bu bina Dövlət Kitabxanasının fəaliyyətində dönüş yaratdı. Yeni binaya köçməklə əlaqədar kitabxananın işçi ştatı təxminən 3 dəfə artdı. 13 qiraət zalı, sərgi salonu, kütləvi tədbirlər üçün xüsusi zal və başqa köməkçi bölmələr istifadəyə verildi.

M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının yeni binaya köçməsi və maddi-texniki bazasının möhkəmləndirilməsi xüsusilə onun metodik fəaliyyətinin mühüm mərhələyə qədəm qoyması və bu sahədə konkret tədbirlərin həyata keçirilməsinin başlanğıcı idi. Belə ki, bu dövrdə Dövlət Kitabxanası respublika əhəmiyyətli mərkəz kimi formalaşmaq və əməli fəaliyyət göstərmək üçün imkanlar qazandı. 1960-cı ildə kitabxananın nəzdində ali təhsilli və təcrübəli mütəxəssislərdən ibarət 12 nəfər işçisi olan elmi-metodik şöbə yaradıldı.[179] Elmi-metodik şöbəyə rəhbərlik uzun illər kitabxanaçılıq sahəsində uğurlu fəaliyyət göstərən tanınmış kitabxanaçı, respublikanın əməkdar kitabxanaçısı Həsənağa Rzaquliyevə həvalə edildi.[180] Bu dövrdə M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının qarşısında çox mühüm vəzifələr dururdu. Bu kitabxana respublikada kitabxana işinin yüksəlişinə və təkmilləşməsinə səmərəli tə'sir göstərən baş elmi-metodik mərkəz kimi formalaşmalı, bu sahədə qərarların, tə'limatların, əsasnamələrin və digər normativ sənədlərin hazırlanması prosesində yaxından iştirak etməli, təşkilatçılıq rolunu gücləndirməli, kitabxanaşünaslığın aktual problemlərinin həllinə və kitabxana təcrübəsinin optimallaşdırılmasına yönəldilmiş elmi-əməli konfransların, müşavirə və seminarların təşkili istiqamətində öz fəaliyyətini gücləndirməli, əhaliyə kitabxana xidmətinin bir çox mütərəqqi forma, metod və iş üsullarının ümumiləşdirilməsini və yayılmasını daha məqsədyönlü təşkil etməli idi.

Nəhayət, Dövlət Kitabxanası 60-cı illərdə ölkədə mövcud olan bütün sahəvi və ərazi metodik mərkəzlərin fəaliyyətini əlaqələndirən baş kitabxana müəssisəsi funksiyalarını həyata keçirməyə başladı. Belə ki, bu dövrdə respublikada ərazi və sahəvi metodik mərkəzlərin qarşılıqlı əlaqəsi kitabxanaların metodik tə'minatı sahəsində çox ciddi problemə çevrilmişdi.

60-cı illərdə Azərbaycanda kitabxana işinin inkişafı, əhaliyə kitabxana xidmətinin təkmilləşdirilməsi vəzifələrindən irəli gələn problemlər metodik mərkəzlərdən və ilk növbədə M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasından kitabxana təcrübəsinə daha fəal, elmi-metodik tə'minat baxımından əsaslandırılmış müdaxilə tələb edirdi. Kitabxana təcrübəsində isə xeyli problem vardı. Respublikanın bir çox kənd yerlərində yeni kitabxanaların açılması və yerləşdirilməsi kortəbii xarakter daşıyırdı. Yeni kitabxanalar açılarkən çox zaman yerli şərait, oxucuların tərkibi, əhali-

[177] Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin plan-maliyyə şö'bəsinin arxivi 1960-1962, qovluq 1, v.14, 64.
[178] Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin plan-maliyyə şö'bəsinin arxivi, 1964, 1968, qovluq 2, v.224-308.
[179] M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının 1960-cı il hesabatı.-S.12,17,21.
[180] Yenə orada.-S.17.

nin sayı, milli tərkibi, sıxlığı, inzibati ərazi bölgüsü və s. xüsusiyyətlər nəzərə alınmırdı. Məsələn, respublikanın 500-dən 1000 nəfər əhalisi olan 64 yaşayış məntəqəsində heç bir kütləvi kitabxana yox idi. Bununla yanaşı, əhalisi təqribən 300 nəfərə yaxın olan yaşayış məntəqələrində 250 kitabxana fəaliyyət göstərirdi.[181] Belə vəziyyət Zəngilan, Qubadlı, Şəmkir, Qazax, Ağdaş, Masallı, Zərdab, Kürdəmir, Qax, Şəki, Zaqatala və bir çox digər rayonlar üçün səciyyəvi idi. Həmin rayonlarda 600-ə qədər yaşayış məntəqəsi kitabxana xidmətindən kənarda qalmışdı.[182] Ümumiyyətlə, 60-cı illərin əvvəllərində respublika rayonlarının təxminən yarısında kitabxana təşkil edilməmişdi. [183]

Bundan başqa, 1961-1962-ci illərdə respublikanın kənd və uşaq kitabxanaları ictimai əsaslarla fəaliyyət göstərməyə başladıqdan sonra çox bərbad vəziyyətə düşdü və onların bir çoxu faktik olaraq öz fəaliyyətini dayandırdı.[184]

Kitabxana fondlarının formalaşmasında, mövzu-tipoloji tərtibində də çox ciddi nöqsanlar nəzərə çarpırdı. Məsələn, kütləvi kitabxanaların fondunun elm sahələri üzrə nisbəti oxucuların sorğularına, eləcə də ədəbiyyat təbliğinin vəzifələrinə uyğun gəlmirdi. Şəhər və rayon kitabxanalarının fondunda bədii ədəbiyyatın xüsusi çəkisi 58,1 faiz olduğu halda texniki ədəbiyyat 2,5 faiz, təbiətşünaslığa dair ədəbiyyat 3,1 faiz, incəsənət nəşrləri 2,6 faiz təşkil edirdi. Kənd kitabxanalarında isə bədii əsərlər 55,6 faiz olduğu halda, təbiətşünaslığa dair ədəbiyyat 3,5 faiz, texniki nəşrlər 3,6 faiz, kənd təsərrüfatı ədəbiyyatı 9,0 faiz, incəsənət nəşrləri 2,5 faiz təşkil edirdi.[185] Ayrı-ayrı şəhər, rayon və kəndlərdə müvafiq ərazinin təsərrüfat profilinə dair ədəbiyyat bə'zi kitabxanalarda həddindən artıq nüsxələrdə, digərlərində çox məhdud sayda komplektləşdirilmişdi. Kitabxana fondlarının komplektləşdirilməsində ciddi nöqsanlara yol verilməsi dövlət vəsaitindən qeyri-səmərəli istifadə edilməsinə, eyni zamanda oxucularla məqsədyönlü iş aparılmasına mane olurdu. Misal kimi göstərmək olar ki, 1963-cü ildə Ağdam rayonundakı Göytəpə kənd kitabxanasında T.Qarabağlının «Sağ ol, günəş» kitabı 215 nüsxədə, A.Platonovun «Hekayələr» kitabı 150 nüsxədə, M.Cəlalın «Bir gəncin manifesti» kitabı 103 nüsxədə təmsil edilirdi.[186] Belə vəziyyət respublikanın bir çox kütləvi kitabxanaları üçün səciyyəvi idi. Bə’zi kitabxanaların fondunda yüzlərlə adda kitab orta hesabla 30-50 nüsxədə idisə, eyni zamanda əksər kitabxanalarda həmin nəşrlər heç yox idi və ya həddindən az nüsxələrdə komplektləşdirilirdi. Bununla yanaşı, kitabxana fondlarının tərkibini açan, mə’lumat aparatı kimi mühüm rol oynayan kataloq sistemlərinin təşkili də dövlət kitabxanalarında lazımi səviyyədə deyildi. Belə ki, kənd kitabxanalarının çoxunda yalnız əlifba kataloqları mövcud idi.

60-cı illərdə respublikamızda kitabxana işi sahəsində nəzərə çarpan ciddi nöqsanlardan biri də əhalinin kitabxana xidmətinə cəlb edilməsinin nisbətən aşağı səviyyədə olması idi. Məsələn, Əli Bayramlıda əhalinin orta hesabla 19,3 faizi, Abşeronda 18,3 faizi, Masallıda 26,3 faizi, Xaçmazda 20,3 faizi, Salyanda 15,2 faizi, Biləsuvarda (Puşkində) 20,4 faizi kitabxanalara cəlb olunmuşdu.[187] Belə vəziyyət respublikanın rayon, şəhər və kənd kitabxanalarının yarısından çoxu üçün səciyyəvi idi.

Konkret oxucu qruplarının istiqamətləndirilməməsi, kütləvi tədbirlərin formal xarakter daşıması, oxucularla fərdi iş aparılmaması, bir çox rayonlarda kitab təbliğinin yerli şəraitlə əlaqələndirilməməsi və s. kimi mənfi hallar da bir sıra kütləvi ki-

---

[181] Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin arxivi, f.13, s.114, iş 6, v.31.
[182] Yenə orada.
[183] Yenə orada.
[184] Azərbaycın Respublikası Mədəniyyət Nazirliyinin baş kitabxana müfəttişliyinin. 1960-1962-ci il hesabatları.
[185] Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin arxivi, f.10, iş 2, v. 5.
[186] M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının arxivi, f.1. S.53.
[187] Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin baş kitabxana müfəttişliyinin 1960-1965-ci illər üzrə hesabatları.

tabxanaların fəaliyyətində özünü göstərirdi.

Həmin dövrdə Azərbaycanda kitabxana işinin yüksəlişinə mane olan mühüm amillərdən biri də kitabxana işçiləri arasında ali təhsilli ixtisasçıların azlıq təşkil etməsi idi. Bakı Dövlət Universitetinin kitabxanaçılıq fakültəsini hər il orta hesabla 100-150 nəfər ali təhsilli kitabxanaşünas-biblioqraf bitirdiyinə baxmayaraq rayon və kənd kitabxanalarında 10 faizdən az ali təhsilli kitabxanaçı fəaliyyət göstərirdi.

Beləliklə, 60-cı illərin əvvəllərində kitabxana işində nəzərə çarpan müvəffəqiyyətlərlə yanaşı, peşə kamilliyi, metodik hazırlıq, ədəbiyyat təbliği, geniş oxucu kütlələrinin elmi dünyagörüşünün formalaşdırılması baxımından xeyli nöqsanlar var idi. Bütün bunlar M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının qarşısında çox mürəkkəb və keyfiyyətcə yeni vəzifələr qoyurdu.

Kitabxanaların işini hərtərəfli öyrənib ümumiləşdirmək, qabaqcıl iş üsullarını təbliğ etmək, kitabxanalara kömək məqsədilə rəngarəng metodik vəsaitlər tərtib etmək, kitabxana işinə yerlərdə əməli köməklik göstərmək kitabxananın metodik fəaliyyətində aparıcı yer tuturdu.

60-cı illərin əvvəllərində artıq formalaşmış olan metodistlər kollektivi olduqca məqsədyönlü və məhsuldar işləməyə başlamışdı. Dövlət Kitabxanasının metodistləri sırasına bir çox cavan, iste’dadlı gənc mütəxəssislər – E.Bədəlov, S.Rzayev, Ə.Əliyeva və başqaları gəlmişdilər. M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının metodik fəaliyyətinin əsas xətti respublikada kütləvi kitabxana şəbəkəsinin məqsədyönlü yerləşdirilməsinin elmi-metodik bazasını tə’min etməkdən ibarət idi. Bu məqsədlə kitabxananın elmi-metodik şö’bəsinin müdiri H.Rzaquliyevin təşəbbüsü ilə Azərbaycanda kütləvi kitabxana şəbəkələrinin düzgün yerləşdirilməsinə dair 5 illik tədbirlər proqramı hazırlandı.[188] Proqramda hər bir ailəyə kitabxana kitabının çatdırılması, rayon və kənd yerlərində dövlət kitabxana şəbəkəsinin daha məqsədəuyğun yerləşdirilməsi məqsədilə yerlərə e’zamiyyətlər, respublikada kütləvi kitabxanaların yerləşdirilməsinə dair normativ sənədlərin hazırlanması və s. nəzərdə tutulurdu. Həmin proqramın yerinə yetirilməsini tə’min edən xüsusi işçi qrupu yaradılmışdı. İşçi qrupuna Dövlət Kitabxanasının metodistləri ilə yanaşı, kitabxananın digər şö’bələrinin təcrübəli mütəxəssisləri də daxil edilmişdi.

Qeyd etmək lazımdır ki, işçi qrupu 10 il ərzində respublikada kitabxana şəbəkələrinin qaydaya salınması və gələcək inkişaf istiqamətinin müəyyənləşdirilməsi sahəsində xeyli iş görmüşdü. Belə ki, əhalinin sayını, yerli şəraitin tələblərini nəzərə alaraq kitabxanaların düzgün yerləşdirilməsi planı hazırlanmış və ona uyğun tədbirlər həyata keçirilmişdi. Bundan əlavə yerli hakimiyyət orqanları ilə birlikdə kitabxanaların yenidən yerləşdirilməsi haqqında xüsusi protokollar tərtib edilmişdi.[189]

Bu dövlət əhəmiyyətli tədbirlərin həyata keçirilməsi nəticəsində 1970-ci ilə qədər əhalisi az olan, bir-birinə yaxın məsafədə yerləşən yaşayış məntəqələrinin kitabxanaları birləşdirilmiş, uzaq məsafədə yerləşən, kitabxanası olmayan yaşayış məntəqələrində isə 600-dən çox yeni stasionar kitabxana və onların səyyar fondları, həmçinin kitab verilişi məntəqələri açılmışdı.

Beləliklə, 60-cı illərin sonunda ölkənin yaşayış məntəqələrinin təqribən 80 faizi kitabxana xidməti ilə tə’min edilmişdi. Bu böyük təşkilati-metodik tədbirlər respublika Mədəniyyət Nazirliyi Baş Kitabxana Müfəttişliyinin iştirakı və yaxından köməyi nəticəsində həyata keçirilmişdi.

1960-1966-cı illər ərzində Dövlət Kitabxanasının metodistləri və digər işçiləri yerlərə təxminən 300 dəfə e’zamiyyəyə getmişdilər. Hər il e’zamiyyələrlə 40-50 rayon, habelə 120-150 kənd kitabxanası əhatə olunmuşdu.[190] Kitabxanaçıların bilavasitə yerlərdə tə'limatlandırılması, hər bir rayon və kənd kitabxanasının yerli

---

[188] Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin arxivi, f.13, iş 57, S.201-205.

[189] M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının arxivi f.1, S.32062, v.11,14,45,49,62.

[190] M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının 1961-1966-cı il hesabatları.

xüsusiyyətləri nəzərə alınmaqla əməli kömək göstərilməsi metodik fəaliyyəti maksimum dərəcədə konkretləşdirməyə və kitabxana işçilərinin peşə biliklərinin dərinləşməsinə xidmət edirdi.

Yerlərə e'zamiyyələr əksər hallarda kompleks xarakter daşıyıb toplanmış materialların respublika Mədəniyyət Nazirliyinin kollegiyasında geniş müzakirə edilməsi ilə yekunlaşdırılırdı. 1960-1968-ci illərdə Mədəniyyət Nazirliyinin kollegiyasında respublikanın 8 şəhər və rayonunda əhaliyə kitabxana xidmətinin vəziyyəti müzakirə edilmiş və müzakirəyə təqdim edilmiş sənədlər məhz respublika kitabxanasının metodik şö'bəsi tərəfindən hazırlanmışdı. Bunlar Ağdam, Zərdab, Sumqayıt, Naxçıvan, Mingəçevir, Şəki və digər şəhər və rayonlarda kitabxana işinin vəziyyətinə həsr olunmuşdu. 1968-ci il dekabrın 30-da Azərbaycan Mədəniyyət Nazirliyinin kollegiyasında «Şəki rayonunda əhaliyə kitabxana xidmətinin təşkili və kitabxanaların maddi-texniki bazasının möhkəmləndirilməsi» məsələsi müzakirə edilmişdi.[191] Kollegiyanın qərarında gələcəkdə Şəkidə yeni kitabxana binaları tikmək, mövcud binaları tə'mir etmək, bu məqsədlər üçün kolxozların və digər idarə və müəssisələrin vəsaitlərindən istifadə etmək, qeyri-stasionar kitabxanalar açmaq vasitəsilə kitabxana xidmətindən kənarda qalmış yaşayış məntəqələrində səmərəli iş aparmaq, bir sıra kitabxanaların yerini dəyişmək, yaxın məsafələrdə yerləşən bə'zi kitabxanaları birləşdirmək, kitabxana sərvətlərini və avadanlıqları bərabər səviyyədə bölüşdürmək və s. kimi mühüm məsələlər qoyulmuş, onların konkret yolları və icra müddətləri müəyyənləşdirilmişdi. Qeyd etmək lazımdır ki, qərarda nəzərdə tutulmuş mühüm tədbirlər 1968-1974-cü illərdə əsasən yerinə yetirilmişdir.

60-cı illərdə Azərbaycan Dövlət Kitabxanası müntəzəm olaraq ümumrespublika və rayonlararası müşavirə, konfrans və seminarlar keçirirdi. Belə tədbirlər Bakıda, Gəncədə, Ağdamda, Xankəndində, Lənkəranda, Şəkidə, Naxçıvanda, Qubada, digər şəhər və rayonlarda təşkil edilmişdi. Təkcə 1959-1965-ci illərdə 18 rayonlararası və 6 ümumrespublika müşavirəsi keçirilmişdi. 1965-1974-cü illərdə hər il bir qayda olaraq respublikanın 2 zonasında müşavirə və ya seminarlar təşkil edilməsi ən'ənə halını almış və artıq respublika kitabxanasının metodik fəaliyyətinin əsas istiqamətinə çevrilmişdi. Bunlar kitabxana işinin aktual problemlərinin həlli, kitabxana işi təcrübəsinin mübadiləsi sahəsində mühüm vasitə rolunu oynayırdı.

Müşavirə və seminarlar əksər hallarda respublikada fəaliyyət göstərən digər sahəvi elmi-metodik mərkəzlərlə birgə həyata keçirilirdi. Məsələn, 1962-ci ildə Lənkəranda, 1965-ci ildə Ağdamda, 1971-ci ildə Gəncədə keçirilən 2 günlük zona müşavirələri kitabxanalarda kənd təsərrüfatı ədəbiyyatının təbliğinə həsr edilmişdi. Həmin müşavirələr Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanası ilə birlikdə təşkil edilmişdi. Gəncə şəhərində keçirilən müşavirədə kənd təsərrüfatı ədəbiyyatının təbliği, kataloq və kartotekaların tərtibi, kənd təsərrüfatı ədəbiyyatının təbliğində kütləvi kitabxanaların digər kitabxanalarla qarşılıqlı fəaliyyəti və s. məsələlər ətrafında geniş fikir mübadiləsi aparılmışdı. Burada 26 ətraf rayonun kitabxana işçilərinin nümayəndələri iştirak etmişdi. Bu dövrdə kitabxana işinin ümumi yüksəlişi və kitabxanaçıların peşə səviyyəsinin dərinləşməsi baxımından M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanası tərəfindən təşkil edilmiş elmi-əməli konfranslar da xüsusi əhəmiyyət kəsb edirdi.

Metodik müşavirə və seminarlardan fərqli olaraq, elmi-əməli konfranslar respublikada kitabxana işinin aktual məsələlərinin kollektiv müzakirəsinin daha mükəmməl forması kimi elmi təhlil və ümumiləşdirmə keyfiyyətlərinə malik olmaqla müzakirə obyektini daha dərindən öyrənib konkret əməli tövsiyələrin hazırlanmasında çox böyük əhəmiyyətə malik idi.

Dövlət Kitabxanasında keçirilən belə elmi-əməli konfranslara kitabxanaşünas alimlər, təcrübəli kitabxana işçiləri cəlb edilir, geniş fikir mübadiləsi nəticəsində

---

[191] Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin arxivi, f.10, S.2, iş 111-157.

əhaliyə kitabxana xidmətinin yaxşılaşdırılması sahəsində olduqca qiymətli tövsiyələr hazırlanıb həyata keçirilirdi. Belə elmi-əməli konfranslara nümunə kimi 1961-ci ildə «Kitabxanalarda oxuculara soraq-biblioqrafiya xidmətinin təkmilləşdirilməsi», 1968-ci ildə «Kitabxanalarda diyarşünaslıq işləri» mövzusunda təşkil edilmiş ümumrespublika konfranslarını göstərmək olar[192]. Bu konfranslarda Dövlət Kitabxanasının metodik biblioqrafiya şö'bəsinin müdiri Rasim Kazımov, Respublika Mədəniyyət Nazirliyinin baş müfəttişi Faiq Əliyev əsaslı elmi mə'ruzələrlə çıxış etmişlər. Həmin tədbirlərdə qonşu respublikaların və keçmiş SSRİ Dövlət Kitabxanasının (indiki Rusiya Dövlət Kitabxanası) nümayəndələri də iştirak edirdilər. Hər iki elmi-əməli konfransda 2 gün ərzində müxtəlif sahələr üzrə meydana çıxan mühüm problemlər müzakirə olunmuş, geniş fikir mübadiləsi əsasında respublikanın elmi və kütləvi kitabxanalarında əhaliyə mə'lumat-biblioqrafiya xidməti, geniş oxucu kütləələri arasında diyarşünaslıq biliklərinin təbliği məsələləri üzrə tövsiyələr qəbul edilmişdi. Bunların içərisində oxuculara soraq-biblioqrafiya və mə'lumat-biblioqrafiya xidmətində elmi kitabxanalarının fəaliyyətinin əlaqələndirilməsi, Bakı şəhər kitabxanalarında yerinə yetirilmiş biblioqrafik arayışların birləşmiş kartotekalarının yaradılması, respublikanın şəhər və rayon mərkəzi kitabxanalarında soraq-mə'lumat ədəbiyyatı fondlarının təşkili, diyarşünaslıq kartotekalarının təkmilləşdirilməsi, Azərbaycanşünaslıq ədəbiyyatı fondlarının və müvafiq mə'lumat-axtarış sistemlərinin formalaşması, diyarşünaslıq məsələlərinə dair tövsiyə biblioqrafik vəsaitlər sisteminin yaradılması və s. kimi ümdə vəzifələr irəli sürülürdü.

60-cı illərdən başlayaraq M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının metodik fəaliyyətində tə'limati-metodik xarakterli vəsaitlərin tərtibi çox böyük yer tuturdu. Metodik vəsaitlər təşkilati-metodik fəaliyyətin çevik, operativ forması olub, kitabxana işinin aktual məsələlərinə dair yeni müddəa və tövsiyələri, eləcə də qabaqcıl təcrübəni eyni vaxtda bütün kitabxanalar arasında yaymağa imkan verir. Dövlət Kitabxanası əhaliyə kitabxana xidmətinin müxtəlif məsələləri üzrə metodik vəsaitlərin və tövsiyələrin tərtib edilməsi və yayılması sahəsində artıq xeyli təcrübə toplamışdı. Bunların içərisində kompleks xarakterli vəsaitlərdən başlayaraq kitabxana işinin ayrı-ayrı təşkilati və texnoloji proseslərinə həsr edilmiş vəsaitlər, eləcə də normativ sənədlər var idi.

60-cı illərin əvvəllərində Dövlət Kitabxanasının metodik vəsaitlərin tərtibi sahəsindəki fəaliyyətində xüsusi bir canlanma nəzərə çarpırdı. Buraxılan metodik vəsaitlər respublikada kitabxana işinin inkişafının bütün istiqamətləri ilə sıx surətdə əlaqələndirilir, onun hər bir nailiyyətini, eyni zamanda nöqsan və çatışmazlıqlarını əks etdirirdi. Bu vəsaitlərdə bir sıra hallarda həmin dövrə münasib doqmatik fikirlərin hökm sürdüyünə baxmayaraq, onlar öz vəzifələrini əsasən yerinə yetirməyə çalışmış və kitabxana işinin ümumi inkişafına kömək göstərmişlər.

Respublika Dövlət Kitabxanasının 60-cı illərdə nəşr etdirdiyi metodik vəsaitlər sistemində «Əlamətdar və tarixi günlər təqvimi» xüsusi yer tutur. «Təqvim» bilavasitə kitabxananın elmi-metodik şö'bəsi tərəfindən hazırlanır və şö'bə müdiri Həsənağa Rzaquliyevin redaktəsi ilə nəşr edilirdi. Bu seriyalı metodik vəsaitin özünəməxsusluğunu şərtləndirən bir neçə amil vardır ki, o da həmin vəsaitin dövriliyində, müntəzəmliyində, metodik göstərişlərlə biblioqrafik ünsürlərin əlaqələndirilməsində özünü göstərirdi. Onun digər vəsaitlərdən fərqlənən xüsusiyyəti ondan ibarət idi ki, burada kitabxana işi mühüm tarixi və müasir həyat problemləri ilə əlaqələndirilir, kitabxanaçıların diqqəti günün aktual problemlərinə cəlb edilirdi.

«Əlamətdar və tarixi günlər təqvimi»nin meydana gəlməsi, ümumiyyətlə, Dövlət Kitabxanasının 60-cı illərdən başlayan metodik fəaliyyətinin yeni mərhələsi ilə əlaqədər bir mühüm məsələni də qeyd etmək lazımdır. Bu, həmin illərdə kitabxanaların metodik fəaliyyətinə bir sıra iste'dadlı ali təhsilli gənc mütəxəssislərin cəlb

[192] M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının 1961-1970-ci il hesabatları.

olunması idi. Bakı Dövlət Universitetinin kitabxanaçılıq şö'bəsini bitirmiş bu gənc mütəxəssislər özlərinin nəzəri hazırlığı nəticəsində kitabxananın metodik fəaliyyətinə yeni mütərəqqi meyllər gətirmişdilər. Onlardan Müzəffər Həsənovu, Qulu Məmmədovu, Ərşad Paşayevi, Fərman Bayramovu, Fazil Məmmədovu və başqalarını göstərmək olar. Bu gənc mütəxəssislərin «Təqvim»in səhifələrində dərc etdirdikləri məqalələrdə bə'zi hallarda təcrübəsizlikdən irəli gələn təsvirçilik və şablonçuluq hiss olunurdu. Bununla belə onlar respublikamızın kitabxana işində fəal iştirak edir, əhaliyə kitabxana xidmətinin aktual problemləri ilə əlaqədar öz fikirlərini söyləməyə, mühakimə yürütməyə cəhd göstərirdilər.

1960-1970-ci illərdə «Əlamətdar və tarixi günlər təqvimi»nin 51 nömrəsi çap olunmuş, bu nömrələrdə 300-dən artıq müxtəlif məqalə və mə'lumat xarakterli yazılar dərc edilmişdir. Dərc edilən materialların içərisində öz elmiliyi, fikir bütövlüyü ilə seçilən, kitabxana işində meydana gələn müsbət meylləri ümumiləşdirib qiymətləndirən, problem xarakteri daşıyan məqalələr də az deyil və belə yazıların çoxunun müəllifləri gənc metodistlər idi. Bunlara misal olaraq F.Bayramovun «Molla Nəsrəddin» jurnalının 50 illiyi», E.Bədəlovun «Kitabxanaçı adını yüksək tutmalı», S.Rzayevin «Məktəb və kitabxana», Ş.Abdullayevin «Əhaliyə kitabxana işini yaxşılaşdıraq» və s. yazılarını göstərmək olar.

Ümumiyyətlə, «Əlamətdar və tarixi günlər təqvimi» 1960-1970-ci illərdə respublikada kitabxana işinə dair nəşr edilən metodik vəsaitlər sistemində yeganə universal xarakterli vəsait olmuş, onun nəşri və yayılması Azərbaycanda kitabxana işinin metodik tə'minatında mütərəqqi hadisəyə çevrilmişdir. 1970-ci ildən «Əlamətdar və tarixi günlər təqvimi» artıq keyfiyyətcə və məzmunca yeni formada - «Kitabxana işçisinə kömək» adlı elmi-metodik məcmuə şəklində dərc edilməyə başladı.

1970-1975-ci illər ərzində bu məcmuənin ildə 4 nömrəsi buraxılırdı. Hər nömrə 3 çap vərəqi həcmində idi. Həmin dövrdə məcmuənin 20 nömrəsi çıxmış və bu nömrələrdə 200-dən çox məqalə dərc edilmişdi.

Məcmuənin başlıca vəzifələri kitabxana işində baş verən mühüm prosesləri təhlil etmək, kitabxana işçilərinin diqqətini əhaliyə kitabxana xidmətinin aktual məsələlərinə cəlb etmək, respublikada kitabxanaçılıq sahəsində baş verən mütərəqqi ən'ənələrə əsaslanan müasir ruhlu fikir və mühakimələr irəli sürmək, qabaqcıl iş təcrübəsini ümumiləşdirib yaymaq idi. Məcmuənin təqdirəlayiq cəhətlərindən biri də o idi ki, dərc edilən məqalələrdə irəli sürülən fikirlər, elmi-nəzəri və metodik mühakimələr mücərrəd şəkildə deyil, konkret kitabxanaların fəaliyyətinin təhlili əsasında aparılırdı. O vaxtlar gənc metodistlərdən E.Bədəlov, S.Rzayev, F.Bayramov, F.Məmmədov, Ə.Əfəndiyev, M.Həsənov və başqaları ilə yanaşı, böyük təcrübəyə malik, ölkədə kitabxana quruculuğu sahəsində mühüm xidmətləri olan qocaman kitabxana işçilərindən Hüseyn Tağıyev, Əliyusif Əliyev, Məryəm Nəcəfova, A.Quliyev, Dövlət Kitabxanasının ilk direktoru M.Səlimov da məcmuə ilə əməkdaşlıq edirdilər.

Məcmuədə dərc edilən məqalələr respublikada kitabxana işini obyektiv təhlil edir, kitabxana işçilərinə bu və ya digər aktual məsələlər üzrə faydalı tövsiyələrlə nəticələnirdi. Bu baxımdan F.Məmmədovun «Kütləvi kitabxanalarda ədəbiyyatın təbliğində biblioqrafiyanın rolu» (1970, №1,S.7-11), D.Bayramovun «Kütləvi kitabxanalarda kitab fondunun təşkili və mühafizəsi» (1971, №4, s.3-8), Q.Məmmədovun «Kənd kitabxanalarının məktəb kitabxanaları ilə əlaqəsi» (1972, №4, s.3-9), H.Zeynalovanın «Rayon kitabxanalarında ölkəşünaslıq işlərinin təşkili» (1974, №1, s.29-36) və s. məqalələrdə yüksək peşəkarlıq, kitabxana işinin dövrün tələbləri ilə əlaqələri özünü göstərir.

Qeyd edək ki, «Kitabxana işçisinə kömək» nəzəri-təcrübi məcmuəsi Dövlət Kitabxanasının orqanı olsa da, tez bir zamanda respublikada dövlət kütləvi kitabxanalarından başqa digər kitabxana şəbəkələrinin də metodik tə'minatçısına çevrilmişdi. Burada Elmlər Akademiyası kitabxana şəbəkəsini, tibb kitabxanaları şəbəkə-

sini və başqa kitabxana şəbəkələrini təmsil edən yazılar da dərc olunurdu.

Ümumiyyətlə, həmin məcmuə 70-ci illərin əvvəllərində ölkədə kitabxana işinin idarə olunmasının mühüm tərkib hissəsi olan metodik fəaliyyətin tərəqqisinə fəal kömək etmişdir ki, bunun da nəticələri özünü cəmiyyətdə əhaliyə kitabxana xidmətinin təkmilləşdirilməsində göstərmişdir.

60-70-ci illərdə M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının metodik vəsaitlər sisteminin formalaşmasındakı fəaliyyəti dövri orqanlarla yanaşı, kitabxana işinin aktual proseslərinə həsr edilmiş metodik tə'limatlar, göstərişlər, tövsiyələr, qabaqcıl iş təcrübəsinə dair kitab və kitabçalar hazırlanmasında da öz əksini tapırdı. İldən-ilə metodik vəsaitlərin sayının artması, kitabxana işini hərtərəfli əks etdirən kitabçaların meydana gəlməsi Dövlət Kitabxanasının metodik fəaliyyətinin mühüm xüsusiyyətlərindən biri olmuşdur. Bu illərdə məzmun və forma baxımından qiymətli metodik göstərişlər, metodik məktublar, metodik məsələlər, metodik tövsiyələr, metodik-biblioqrafik vəsaitlər, tə'limatlar və s. sənədlər çap olunmuşdur.

Mövzu, məzmun, forma e'tibarı ilə müxtəlif olan həmin vəsaitləri birləşdirən ümumi cəhət əhaliyə kitabxana xidmətinin təkmilləşdirilməsi və bu məqsədlə kitabxanaların potensial imkanlarından geniş istifadə edilməsi idi. Bu dövrdə belə vəsaitlərin hazırlanmasının metodik fəaliyyətin aparıcı tərkib hissəsinə çevrilməsi, metodik vəsaitlərin mükəmməl nümunələrinin meydana çıxması 50-ci illərdə Dövlət Kitabxanasına gəlmiş ali təhsilli gənc metodist kadrların peşə xüsusiyyətlərinin püxtələşməsinin nəticəsi idi. Onlar artıq dövrün irəli sürdüyü mühüm vəzifələri dərk edərək kitabxanaların fəaliyyətini bu yola istiqamətləndirən bilik və təcrübəyə malik idilər.

60-cı illərdə yaranan metodik nəşrlər əvvəlki illərin qabaqcıl ən'ənələri və inkişaf mərhələləri ilə üzvi surətdə əlaqədə yaranırdı. Metodik vəsaitlərin məzmununun təkmilləşdirilməsində Rusiya ilə kitabxanaçılıq əlaqələrinin, tərcümə işinin genişlənməsi də mühüm rol oynayırdı. Azərbaycan kitabxanaşünasları Rusiya kitabxanaşünaslığı fikrindən və təcrübəsindən yaradıcılıqla istifadə edirdilər.

Bu dövrün metodik ədəbiyyatında geniş işlənən mövzular kitabxanalarda ədəbiyyat təbliği, oxucularla iş, kitabxana fondunun təşkili və mühafizəsi, kataloqlaşdırma, biblioqrafiya işləri və s. idi.

60-cı illərdə və xüsusən 70-ci illərin əvəllərində Dövlət Kitabxanasının metodik nəşrləri dövrün tələblərinə daha operativ cavab verirdi. Sovetlər ölkəsinin kitabxana işində elə bir mövzu və ya problem yox idi ki, o öz əksini respublikanın metodik nəşrlərində tapmasın.

Ümumiyyətlə, 1960-1974-cü illərdə M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanası tərəfindən 60-dan çox müxtəlif tipli metodik vəsait nəşr edilmişdi. Bunlardan M.Nəcəfovanın «Kitabxanalarda ölkəşünaslıq işi» (1963), «Kütləvi kitabxanalar üçün təsnifat cədvəlləri» (1965), S.Məmmədovun «Abonementdə oxucularla iş» (1971), C.Məmmədovun «Rayon kitabxanasının metodik işi» (1972) və s. vəsaitləri göstərmək olar.

70-ci illərin əvvəllərində M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının elmi-metodik işində əhəmiyyətli keyfiyyət dəyişiklikləri baş verdi. Bu, ilk növbədə SSRİ-də, o cümlədən, Azərbaycanda kütləvi kitabxanalar şəbəkəsinin mərkəzləşdirilməsinə hazırlıqla və bu işlə əlaqədar aparılan eksperimentlərlə bağlı idi. Artıq SSRİ miqyasında dövlət kütləvi kitabxanalarının vahid sistemdə mərkəzləşdirilməsi məsələsi qarşıda duran ən əsas vəzifə idi. Məhz buna görə Dövlət Kitabxanası bu prosesin təşkilati-metodik bazasını tə'min etməli idi. Odur ki, yerlərə göndərilən e'zamiyyələrin sayı ildən-ilə artırdı. Təkcə 1972-1974-cü illərdə respublikanın rayon və şəhərlərinə 126 e'zamiyyə təşkil olunmuşdu. Bu e'zamiyyələr vasitəsilə 66 rayon və şəhər əhatə olunmuşdu. Bakı, Sumqayıt, Əli Bayramlı, Gəncə, Şəki, Zəngilan, Qax, Salyan və digər yerlərdə 29 seminar-müşavirə təşkil edilmişdi.[193]

---

[193] M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının 1972-1974-cü il hesabatları.

Bu illərdə yerlərə gedən metodistlər mərkəzləşmə ilə əlaqədar mə'ruzə və seminarlarda mərkəzləşmənin məqsədi və mahiyyəti, mərhələləri, hüquqi əsasları, statusu, filial kitabxanalarının yaradılması, MKS-lərin təşkili və idarə olunması, struktur quruluşu və s. haqqında kitabxana ictimaiyyətinə izahatlar verirdilər.

Həmin dövrdə kütləvi kitabxana şəbəkələrinin mərkəzləşdirilməsinə yönəldilmiş təşkilati-metodik tədbirlər Bakı şəhərinin Nizami rayonunda, Sumqayıt şəhərində və Zaqatala rayonunda daha ardıcıl şəkildə aparılırdı. Bu, həmin şəhər və rayonlarda mərkəzləşmə eksperimentlərinin aparılması ilə bağlı idi. Sonralar həmin ərazilərdə kitabxanaların mərkəzləşdirilməsi ilə əlaqədar qabaqcıl təcrübə məktəbləri formalaşmışdı. Bütün bunlar 70-ci illərin II yarısında dövlət kitabxana şəbəkələrinin elmi-metodik fəaliyyətinin yeni mərhələyə daxil olması üçün zəmin yaradırdı.

## *2.3. Sahəvi kitabxana şəbəkələrinin metodik tə'minatı (1959-1975-ci illər)*

50-ci illərin sonu - 60-cı illərin əvvəllərində elmi, elmi-texniki, digər sahəvi və ixtisaslaşdırılmış xüsusi kitabxana şəbəkələrinin inkişafında canlanma meylləri güclənirdi. Bu, ilk növbədə Sov. İKP Mərkəzi Komitəsinin 1959-cu ildə qəbul etdiyi «Ölkədə kitabxana işinin vəziyyəti və onu yaxşılaşdırmaq tədbirləri haqqında» qərarı ilə əlaqədar idi.

Belə ki, bu illər respublikanın bütün nazirlikləri, komitələri, müxtəlif təşkilatları öz tabeliklərində olan kitabxanaların sayını artırır, onların maddi-texniki bazasının möhkəmləndirilməsinə yönəlmiş müxtəlif tədbirlər həyata keçirirdilər. 1959-1960-cı illərdə, demək olar ki, respublikanın bütün nazirlik və komitələrinin kollegiyalarında müvafiq kitabxana şəbəkələrinin vəziyyəti müzakirə edilmiş, onların fəaliyyətinin yaxşılaşdırılması ilə əlaqədar tədbirlər müəyyənləşdirilmiş, kitabxanaların maliyyələşdirilməsi, müasir avadanlıqla tə'min edilməsi, kitab vahidlərinin artırılması istiqamətində müəyyən işlər görülmüş, kitabxana işini daim nəzarət altında saxlamaq, onların fəaliyyətini təkmilləşdirmək məqsədilə kitabxana şuraları yaradılmışdı.

Belə tədbirlər xüsusən respublikanın neft və digər sənaye nazirliklərində, kənd təsərrüfatı, səhiyyə, ali və orta ixtisas təhsili nazirliklərində, eləcə də Elmlər Akademiyası və Azərbaycan Həmkarlar İttifaqı Şurasında daha geniş və səmərəli həyata keçirilirdi.

Respublikada müxtəlif idarə və nazirliklərin tabeliyində olan kitabxana şəbəkələrinin fəaliyyətinin genişlənməsi, oxuculara xidmət işində bir sıra mütərəqqi meyllərin meydana gəlməsi, şübhəsiz ki, sahəvi kitabxanaların metodik tə'minatını gücləndirməyi tələb edirdi.

### *Texniki kitabxanalar şəbəkəsinin metodik tə'minatı*

Bu dövrdə mütəxəssislərə və fəhlə sinfinə kitabxana xidmətində rəngarəng və operativ iş üsullarının geniş vüs'ət alması respublikanın elmi-texniki kitabxanaları şəbəkəsində daha qabarıq nəzərə çarpırdı. Bu proses öz əksini ilk növbədə sənaye kompleksinin inkişafı ilə əlaqədar kitabxanaların sayının durmadan artırılmasında tapırdı. Belə ki, 50-ci illərin əvvəllərində respublikada texniki kitabxanaların ümumi sayı 700-ə yaxın olduğu halda, «beşinci və altıncı beşilliklər dövründə texniki kitabxanaların sayı 2 dəfəyə qədər artırılmışdır. Artıq 1958-ci ildə respublikamızda sənaye müəssisələrinin 175 elmi-texniki, texniki və tədris kitabxanaları var idi ki, bu kitabxanaların 35-i neft sənayesi nazirliyinin müəssisələrində, 140-ı isə digər sənaye müəssisələrində yerləşirdi»[194].

1957-ci ilin iyulunda Neft Sənayesi Nazirliyinin mərkəzi texniki kitabxanası Respublika Elmi Texniki Kitabxanasına (RETK) çevrildi və Nazirlər Sovetinin Elm

---

[194] Xələfov A.A. Azərbaycanda kitabxana işinin tarixi (1938-1958).-S.234.

və Texnika Komitəsinin tabeliyinə verildi.[195]

Bununla əlaqədar kitabxanaya respublikanın bütün texniki kitabxanaları üçün metodik mərkəz statusu verildi. Beləliklə, ölkənin bütün texniki kitabxanalarının elmi-metodik tə'minatında yeni mərhələ başladı.

Qeyd etmək lazımdır ki, Respublika Elmi Texniki Kitabxanasının təşkilati-metodik fəaliyyəti məzmun, forma və iş üsulları baxımından Azərbaycanda bu sahədə ən mütərəqqi fəaliyyət kimi qiymətləndirməlidir. Belə ki, bu kitabxana bir neçə il ərzində ölkənin çoxsahəli sənaye müəssisələrində yerləşən kitabxanaların işinin bütün sahələrində dönüş yaratmağa müvəffəq oldu və texniki kitabxanalar 60-cı illərin əvvələrində SSRİ miqyasında ən qabaqcıl kitabxana şəbəkələrindən birinə çevrildi. Yalnız 1959-1960-cı illər ərzində Respublika Elmi Texniki Kitabxanasının 3 nəfər işçisi olan elmi-metodik şö'bəsi tərəfindən sənaye müəssisələri kitabxanalarına 358 gediş təşkil edilmiş, əvvəllər ləğv edilmiş 18 kitabxana bərpa edilmişdi. Oxuculara 2006 məsləhət verilmiş, 41 seminar-müşavirə təşkil edilmiş, metodkabinənin fondundan kitabxana işçilərinə 1264 nüsxə metodik vəsait və ixtisasa dair digər kitablar verilmişdi.[196]

1963-cü ildən RETK-nın metodik fəaliyyətində yeni mütərəqqi keyfiyyət dəyişiklikləri başladı. Bunlar 1962-ci ildə SSRİ Nazirlər Soveti tərəfindən qəbul edilmiş «Ölkədə elmi-texniki informasiya sisteminin təşkilini yaxşılaşdırmaq tədbirləri haqqında» qərarla əlaqədar idi. Bu qərarda elmi-texniki informasiyanın toplanması və istifadə edilməsi, soraq-informasiya fondlarının təşkili, sənəd informasiyalarının hazırlanması, işlənməsi və axtarılmasının kompleks şəkildə mexanikləşdirilməsi və avtomatlaşdırılması kimi çox mühüm vəzifələr irəli sürülürdü.

Ölkədə elmi-texniki informasiya sisteminin inkişafı və təkmilləşdirilməsi məsələləri və bu işdə elmi-texniki kitabxanaların rolu SSRİ Nazirlər Sovetinin 1966-cı il noyabrın 29-da qəbul etdiyi «Ümumdövlət elmi-texniki informasiya sistemi haqqında»[197] qərarında daha qabarıq şəkildə öz əksini tapdı.

Qərarda qeyd edilirdi ki, ölkədə elmi-texniki informasiyanın mövcud sistemi xalq təsərrüfatının idarə edilməsinin yeni prinsiplərinə, mütəxəssislərin və istehsalat yenilikçilərinin artan informasiya tələbatına hələ də kifayət qədər cavab vermir: informasiya orqanları arasında sıx əlaqə yaradılmamışdır və bə'zi paralelçilik halları vardır; elmi-texniki yeniliklərin mə'lumat nəşrləri formasında yayılması operativ təşkil edilməmişdir.

Daha sonra informasiya orqanlarının sənəd bazasını möhkəmləndirmək məqsədilə elmi-texniki kitabxanalar mərkəzi sahəvi və ərazi elmi-texniki informasiya sisteminə daxil edildi. Bununla da elmi-texniki kitabxanaların sosial funksiyaları artdı və dünya təcrübəsinə uyğunlaşdırılaraq informasiya funksiyaları ön plana çəkildi.

Şübhəsiz ki, ölkənin texniki kitabxanalarının sosial vəzifələrində baş verən bu keyfiyyət dəyişiklikləri onların elmi-metodik tə'minatında da obyektiv dəyişikliklərin meydana çıxmasına və tədricən sistemli şəkildə formalaşmasına səbəb oldu, eyni zamanda dərhal özünü Respublika Elmi Texniki Kitabxanasının metodik fəaliyyətində göstərməyə başladı. Belə ki, kitabxananın metodik fəaliyyətinin mühüm istiqamətləri texniki kitabxanaların informasiya fəaliyyətinin səmərəliliyinin yüksəldilməsinə yönəldildi.

Respublika Elmi Texniki Kitabxanasının 1963-cü il üçün yeniləşdirilmiş metodik fəliyyətinin əsas istiqamətləri bunlardan ibarət idi:

1.Bütün texniki kitabxanaların müvafiq sənaye müəssisələrində yaradılan inforomasiya orqanlarının tərkibinə daxil edilməsi ilə əlaqədar təşkilati-metodik tədbirlərin həyata keçirilməsi;

---

[195] Respublika Elmi Texniki Kitabxanasının 1959-1960-cı illərdəki hesabatları.
[196] Respublika Elmi Texniki Kitabxanasının 1959-1960-cı il hesabatları.
[197] Научно-технические библиотеки СССР.-1966.-№2.-С.3-9.

2.Bütün texniki kitabxanalarda Universal Onluq Təsnifat cədvəllərinin tətbiq edilməsi;

3.Texniki kitabxanaların bazası əsasında soraq-informasiya fondlarının yaradılması;

4.Texniki kitabxanaların müvafiq informasiya orqanları ilə birlikdə fəaliyyətinin müəyyənləşdirilib təşkil edilməsi.[198]

Qeyd etmək lazımdır ki, bu məsələlər respublika kitabxanasının metodistləri tərəfindən bilavasitə yerlərdə, müvafiq idarə, təşkilat və sənaye müəssisələrində yaradılmış elmi-texniki informasiya orqanları ilə birgə həll edilirdi. Texniki kitabxananın işçilərinin yeni vəzifələrin həyata keçirilməsinə hazırlanması üçün Respublika Elmi Texniki Kitabxanası 1963-cü ildən həftəlik seminar və təcrübi məşğələlərin təşkilinə başladı. Seminar məşğələlərində əvvəlcədən planlaşdırılmış proqram əsasında bu cür mövzular müzakirə edilirdi:

-soraq-informasiya fondlarının təşkili;

-UOT-un quruluşu və tərtibi prinsipləri;

-UOT üzrə təsnifləşdirmə qaydaları;

-UOT üzrə kitab fondunun düzülüşü;

-UOT üzrə sistemli kataloqun təşkili;

-nəşr olunmamış materiallar və texniki sənədlərlə iş;

-mütəxəssislərə elmi-texniki informasiya xidmətinin forma və üsulları və s.

Qeyd etmək lazımdır ki, «UOT üzrə kataloqlaşdırma» mövzusunda seminar 1962-ci ildə başlamış və bir il ərzində davam edərək bütün kitabxana işçilərini əhatə etmişdi. Həmin dövrdə 42 nəzəri-təcrübi məşğələ keçirilmişdi.

Göstərilən məsələlər üzrə RETK-da keçirilən seminar və praktik məşğələlərlə yanaşı, kitabxananın metodistləri müntəzəm surətdə yerlərdə həmin proseslərin təşkilində və həyata keçirilməsində bilavasitə iştirak edirdilər.

Ümumiyyətlə, 60-cı illərdə texniki kitabxanalara metodik rəhbərliyin iş üsulları bilavasitə yerlərdə həyata keçirilirdi. Belə ki, yerlərdə təşkil edilən daimi lektoriyalar, informasiya günləri, ədəbiyyata baxış və s. kimi tədbirlər olduqca səmərəli idi.

1963-1965-ci illərdə 42 texniki kitabxananın fəaliyyəti hərtərəfli şəkildə öyrənilib ümumiləşdirilmiş, onların fəaliyyətinin təkmilləşdirilməsinə yönəldilmiş proqram hazırlanmışdı. Bunların içərisində «Əzizbəyovneft» idarəsinin, «Bakı fəhləsi» zavodunun, Sumqayıt sintetik kauçuk zavodunun, P.Montin adına maşınqayırma zavodunun, Sumqayıt superfosfat zavodunun kitabxanaları, eləcə də Gəncə, Şəki, Daşkəsən şəhərlərinin kitabxanaları da var idi.[199] Bundan başqa, 1964-cü ildə Gəncə və Daşkəsəndə texniki kitabxana işçilərinin 2 günlük seminarları təşkil edilmişdi[200]. Respublika kitabxanasının metodistləri uzunmüddətli e'zamiyyətdə olmuş, yerlərdə mürəkkəb kitabxana-biblioqrafiya prosesləri ilə bağlı kitabxana işçilərinə köməklik göstərmişdilər. Məsələn, 1965-ci ildə «Neft daşları» idarəsinin kitabxanasında 12 günlük e'zamiyyətdə olan 2 nəfər metodist 5200 nüsxə ədəbiyyatı UOT üzrə təsnifləşdirmiş və kitabxana texnikası minimumuna uyğun sistemləşdirmişdi.[201]

Kitabxanaların fəaliyyətinin genişlənməsi, metodik fəaliyyətin həcminin artması ilə əlaqədar hələ 1961-ci ildə respublika kitabxanasının metodik şö'bəsinin nəzdində 8 nəfərdən ibarət ştatdankənar metodistlər qrupu yaradılmışdı. Texniki kitabxanalar şəbəkəsinin təcrübəli mütəxəssislərindən ibarət olan bu qrup yerlərə gedir, seminar və müşavirələrdə qabaqcıl iş təcrübəsinə dair çıxış edirdilər. Bu dövrdə Respublika Elmi Texniki Kitabxanasının metodik fəaliyyətində fərdi məsləhətlər, ixtisas ədəbiyyatına dair sərgilər, qabaqcıl iş təcrübəsinə həsr edilmiş xüsusi seminar-müşavirələr və s. iş üsullarından geniş istifadə edilirdi. Hər il kitabxana işçiləri

---

[198] Respublika Elmi Texniki Kitabxanasının 1963-cü il iş planı.-S.12-16.

[199] Respublika Elmi Texniki Kitabxanasının 1963-1965-ci il hesabatları.

[200] Respublika Elmi Texniki Kitabxanasının metodik şö'bəsinin 1964-cü il hesabatı .-S.9.

[201] Respublika Elmi Texniki Kitabxanasının 1965-ci il hesabatı.-S.7.

üçün orta hesabla 400-500 fərdi məsləhət, 85-90 sərgi və qabaqcıl iş təcrübəsinə həsr olunmuş 2-3 seminar-müşavirə təşkil edilirdi.[202]

60-cı illərdə Azərbaycanda yeni sənaye obyektləri meydana gəlir, onların nəzdində kitabxana və informasiya orqanları təşkil edilir, eyni zamanda əvvəllər texniki kitabxanası olmayan nisbətən kiçik sənaye obyektlərində informasiya büroları və soraq-informasiya fondları yaradılırdı. Belə orqanlar xüsusilə neftçıxarma idarələrində, yüngül sənaye, meşə və ağac e'malı, avtomobil sənayesi nazirlikləri, "Azərdövlət» tikinti idarəsi və s. orqanların sənaye müəssisələrində təşkil edilirdi. Bu dövrdə hər il sənaye obyektlərində ictimai əsaslarla işləyən təqribən 8 -10 yeni informasiya mərkəzi - kitabxana yaradılırdı.

Respublikada texniki kitabxanalar şəbəkəsinin inkişafı meydana çox mühüm bir problem - məqsədyönlü komplektləşdirmənin təşkili prinsiplərini qoyurdu. Bu problemin meydana çıxması texniki kitabxanaların komplektləşdirilməsinin bir sıra özünəməxsus xüsusiyyətləri ilə əlaqədar idi. Çünki yeni şəraitdə artıq sənaye informasiya orqanlarının əsas sənəd bazası sayılan kitabxanalar ən'ənəvi kitabxana fondları ilə soraq–informasiya fondları funksiyasını daşıyan informasiya kütləsi yaratmalı idilər. Buraya çap əsərləri ilə yanaşı, nəşr olunmamış sənədlər, müxtəlif informasiya materialları, normativ-texniki sənədlər və s. informasiya daşıyıcıları daxil edilməli idi. Həmçinin respublikada texniki kitabxanaların komplektləşdirilməsi ilə məşğul olan ixtisaslaşdırılmış kitabxana kollektorunun olmaması, ümumiyyətlə, kitabxanaların kitab təchizatı sisteminin zəifliyi, eləcə də texniki ədəbiyyatın kitabxanalar tərəfindən məqsədyönlü komplektləşdirilməsinin əlaqələndirilməməsi vahid konsepsiyanın işlənməsini və kompleks şəkildə həyata keçirilməsini tələb edirdi.

Bu məqsədlə 1965-ci ildə Respublika Elmi Texniki Kitabxanasının metodik şö'bəsi Azərbaycanda texniki kitabxanalar şəbəkəsinin mərkəzləşdirilmiş qaydada komplektləşdirilməsi ideyasını irəli sürdü və onun icrasına başladı. Qeyd edək ki, texniki kitabxanaların bütün informasiya daşıyıcıları ilə səmərəli və məqsədyönlü təchiz edilməsi məqsədi daşıyan bu mütərəqqi iş üsulu respublikada kitabxanaların kitab təchizatı tarixində təşkilati-metodik tə'minat baxımından ilk təşəbbüs idi. Bu təşəbbüs respublika miqyasında 100-dən artıq müxtəlif sənaye müəssisələri və idarələrinə məxsus olan kitabxanaların komplektləşdirilməsinin əlaqələndirilməsi, vahid toplu kataloqların yaradılması, mütəxəssislərə və fəhlələrə kompleks kitabxana-informasiya xidməti, vahid soraq-informasiya fondu yaratmaq sahəsində çox mühüm mərhələ idi. İqtisadi baxımdan isə mərkəzləşdirilmiş komplektləşdirmə dövlət idarə və müəssisələri tərəfindən bu məqsədlər üçün ayrılan vəsaitin qənaətlə və səmərəli istifadəsi üçün geniş imkanlar yaradırdı.

Texniki kitabxanaların mərkəzləşdirilmiş komplektləşdirilməsi əsaslı təşkilati-metodik hazırlıq işlərinin həyata keçirilməsi ilə başladı. Bu məqsədlə Respublika Elmi Texniki Kitabxanasının metodik şö'bəsi tərəfindən kitabxana işçiləri üçün müntəzəm olaraq məşğələlər təşkil edilirdi. Daimi fəaliyyət göstərən həftəlik seminar məşğələlərində texniki kitabxanaların əməkdaşları və ilk növbədə kitabxana müdirləri komplektləşdirmə mənbələri ilə, bu prosesdə biblioqrafik vəsaitlərdən istifadə etmək qaydaları ilə, komplektləşdirmənin planlaşdırılması, təşkili, normativ-texniki sənədlərin komlektləşdirmə xüsusiyyətləri və s. kimi məsələlər üzrə mə'lumatlandırılırdılar.

Daha sonra metodik şö'bə respublika texniki kitabxanalarının 5 illik vahid komplektləşdirmə planını hazırladı. Bu proqramın hazırlanması ərəfəsində kitabxanaların fondlarının tematik-tipoloji tərkibi, dövriyyəsi, onların oxucuların informasiya sorğularına uyğunluğu və digər məsələlər üzrə tədqiqatlar aparılırdı.

Mərkəzləşdirilmiş komplektləşdirmənin bütün təşkilati məsələləri və bilavasitə həyata keçirilməsi də məhz respublika kitabxanasının metodistləri tərəfindən

[202] Respublika Elmi Texniki Kitabxanasının 1961-1965-ci il hesabatları.

istiqamətləndirilirdi. Belə ki, kitabxananın metodik şö'bəsində nəşriyyatların tematik planları öyrənilir və cari il üçün 2 nüsxədə vahid sifariş sənədi hazırlanırdı. Hər həftə komplektləşdirmə üçün ayrılmış çap əsərləri və digər sənədlərin nümunələri kitabxana kollektorundan və texniki kitablar mağazasından alınırdı. Metodik şö'bə sifarişlərin alınmasına ciddi nəzarət edirdi.[203]

1968-ci ildə Respublika Elmi Texniki Kitabxanasının metodik şö'bəsi texniki kitabxanalar üçün yeni alınan ədəbiyyatın mərkəzləşdirilmiş kataloqlaşdırılmasına başladı. Bu məqsədlə metodistlər yeni alınan hər bir kitabın əlifba və sistemli kataloqlar üçün kartoçkalarını hazırlayır, sonra onların tirajını kitabxanaların sayına uyğun çoxaldırdılar.

Texniki kitabxanalara daxil olan yeni ədəbiyyatın mərkəzləşmiş kataloqlaşdırılmasının bir sıra üstünlükləri var idi.

Əvvəla, mərkəzləşdirilmiş kataloqlaşdırma zamanı texniki kitabxanalar şəbəkəsində ədəbiyyatın təsviri və təsnifləşdirilməsi prosesində vahid qayda və metodika yaranırdı. Bu isə öz növbəsində respublika kitabxanalarında texniki ədəbiyyatın toplu çap kataloqunun hazırlanmasında əsas prinsip idi. Bundan başqa, ədəbiyyatın kataloqlaşdırılması əməliyyatlarından azad olan kitabxana işçiləri özlərinin iş vaxtlarından səmərəli istifadə edərək oxuculara xidmət işinin keyfiyyətinin yüksəlməsinə daha çox imkan qazanırdılar.

Beləliklə, 60-cı illərin ortalarında Respublika Elmi Texniki Kitabxanasının metodik fəaliyyətində meydana gəlmiş bu mütərəqqi iş üsulu Azərbaycanda texniki kitabxanaların yeni vətən və dünya ədəbiyyatı ilə operativ və məqsədyönlü şəkildə təchiz edilməsində irəliyə atılan ciddi addım idi. Bunun nəticəsi bir neçə ildən sonra texniki kitabxanaların fondunun kəmiyyət və keyfiyyət göstəricilərinin inkişafında özünü göstərməyə başladı. Belə ki, mərkəzləşdirilmiş komplektləşdirmənin ilk illərində respublikanın texniki kitabxanaları fondunun ümumi həcmi 1 milyondan bir qədər artıq olduğu halda, 10 il sonra, yə'ni 1977-ci ildə 3 milyon nüsxəyə çatdırılmışdı. Həmin fondlardan respublikada 53 min nəfər oxucu istifadə edirdi ki, onların çoxu mühəndis-texniki işçilər, texnika və sənaye problemləri ilə məşğul olan alimlər, eləcə də fəhlələr və tələbələr idi. Yalnız 1976-cı ildə respublikanın texniki kitabxanalarından oxuculara 1 milyona yaxın müxtəlif ədəbiyyat və s. sənədlər verilmişdi.

60-cı illərin sonu - 70-ci illərin əvvəllərində respublikamızda texniki kitabxanaların fəaliyyətinin elmi-metodik tə'minatının təkmilləşdirilməsi müvəffəqiyyətlə davam edirdi. Bu məqsədlə Respublika Elmi Texniki Kitabxanasının metodik fəaliyyətində özünü doğrultmuş iş üsulları (yazılı və şifahi tə'limatlar, yerlərə gedişlər, seminarlar və s.) ilə yanaşı, yeni mütərəqqi metodlardan da geniş istifadə edilirdi.

1968-ci ildə Respublika Elmi Texniki Kitabxanasının Azərbaycan Dövlət Elmi Texniki İnformasiya İnstitutunun tərkibinə daxil olması ilə əlaqədar metodik şö'bə kitabxananın yeni əsasnaməsini, yeni iş planını və oxuculara xidmətin yeni qaydalarını hazırladı.[204] Eyni zamanda respublikada ilk dəfə mə'lumatın seçilib yayılması kimi mütərəqqi xidmət sisteminin tətbiq edilməsi ilə bağlı metodik şö'bə tərəfindən müvafiq tə'limat hazırlandı, onun tətbiqinə başlandı. Hər 3 aydan bir bu xidmət sisteminin tətbiqinin yekunları metodistlər tərəfindən təhlil edilir, ümumiləşdirilmiş arayışlar hazırlanır və Elmi Texniki İnformasiya İnstitutuna təqdim edilirdi.[205]

60-cı illərin ikinci yarısında texniki kitabxanalar şəbəkəsində baş verən mütərəqqi kəmiyyət və keyfiyyət dəyişiklikləri, iş üsullarının genişlənməsi onların fəaliyyətini nizama salan və normalaşdıran tə'limatların hazırlanması vəzifələrini irəli sürürdü. Bu məqsədlə 1968-ci ildə Respublika Elmi Texniki Kitabxanasının metodistləri tərəfindən «Texniki kitabxanaların iş normaları»nın hazırlanmasına yönəlmiş

---

[203] Respublika Elmi Texniki Kitabxanasının 1968-ci il hesabatı.-S.26-27.
[204] Respublika Elmi Texniki Kitabxanasının metodik şö'bəsinin 1968-ci il hesabatı. -S.1.
[205] Yenə orada.-S.2.

eksperimentlər aparılmağa başlandı. Bu işin yerlərdə təşkili üçün bütün texniki kitabxanalar müvafiq normaların müəyyənləşdirilməsinə dair sənədlər təqdim edirdilər.[206]

Şübhəsiz ki, texniki kitabxanaların fəaliyyətini normallaşdıran, hər bir iş prosesinin vaxtını və həcmini müəyyənləşdirən belə normativ sənədlərin hazırlanması bu kitabxanaların fəaliyyətinin səmərəli təşkilində və idarə olunmasında müstəsna əhəmiyyət kəsb edirdi.

60-cı illərdə texniki kitabxanaların fondunun məzmun və tipinə görə genişlənməsi və cəmiyyətin informasiya tələbatına daha məqsədyönlü istiqamətləndirilməsi, onların fondunda toplanmış informasiya sənədlərindən istifadə edilməsi kitabxanaşünaslığın ən aktual problemlərindən biri kimi meydana çıxmışdı. Problemin aktuallığını əsaslandırmaq üçün təkcə bir faktı göstərmək kifayətdir ki, bu dövrdə respublikanın texniki kitabxana şəbəkəsi və xüsusən bu şəbəkədə baş kitabxana-informasiya müəssisəsi sayılan Respublika Elmi Texniki Kitabxanası 56 növdə müxtəlif çap əsərləri və sənədlərlə kompleklәşdirilirdi. Bunların içərisində kitablar, seriyalı nəşrlər, sənaye kataloqları, normativ texniki sənədlər, müəllif şəhadətnamələri və patentlərin təsvirləri, nəşr edilməmiş sənədlər və s. informasiya daşıyıcıları var idi ki, bu materialların da alınmasına külli miqdarda vəsait sərf edilirdi. Bu baxımdan həmin sənədlərin informasiya istehlakçıları tərəfindən istifadə edilməsinin öyrənilməsi, bu işə çəkilən xərclərin nə qədər səmərəli olmasının müəyyənləşdirilməsi, şübhəsiz ki, sırf kitabxana-informasiya işindən əlavə, eyni zamanda əhəmiyyətli bir tədbir idi. Belə mühüm elmi-metodik tədbirin həyata keçirilməsi ölkənin texniki kitabxanalarının fəaliyyətinin metodik tə’minatında yeni mərhələnin - kitabxanaların elmi əsaslarla idarə olunması mərhələsinin başlanması idi. Bu məqsədlə 1968-ci ildə Respublika Elmi Texniki Kitabxanasının fondu ilk tədqiqat obyekti kimi seçildi. Qeyd edək ki, həmin il kitabxananın fondu da patent fondu da daxil olmaqla 491.721 nüsxə çap vahidindən ibarət idi.[207]

Tədqiqatın ilk mərhələsi kitabxana fondunun ən iri bölmələrindən olan və xüsusi əhəmiyyət kəsb edən «Neftçıxarma sənayesi» şö’bəsindən başladı və sonralar digər şö’bələr əhatə edildi. Tədqiqat 5 il müddətində, yə’ni 1972-ci ildə başa çatdırıldı.

Başlanğıc mərhələsində metodik şö’bə tərəfindən ilk növbədə tədqiqat üsulları, mərhələlər, icraçılar müəyyənləşdirildi. Tədqiqata respublika kitabxanasının bütün şö’bələrinin təcrübəli mütəxəssisləri də (cəmi 22 nəfər) cəlb olunmuşdu. Bu dövrdə respublika kitabxanasının strukturunda elmi-tədqiqat şö’bəsi olmadığına görə[208] bütün tədqiqat prosesi metodik şö’bə tərəfindən idarə olunurdu.

Tədqiqat prosesində kitabxana fondunun bütün bölmələrinin mövzu-tipoloci tərkibi, müvafiq fondların hansı oxucu qrupları tərəfindən istifadə olunması, ayrı-ayrı mövzu, tipologiya, dil baxımından istifadəsi intensivliyi, oxuculara verilən rədd cavablarının tərkibi və s. amillər öyrənilərək alınan nəticələr və göstəricilər Respublika Elmi Texniki İnformasiya İnstitutunun EHM bazasında sistemləşdirilirdi.

Tədqiqatın sonrakı mərhələsində, yə’ni 1972-1973-cü illərdə alınmış statistik göstəricilərin ümumiləşdirilməsi əsasında Respublika Elmi Texniki Kitabxanası fondunun inkişaf perspektivləri proqramı hazırlandı ki, bu da tədqiqatın nəticələrinin kitabxananın komplektləşdirilməsi prosesinə əməli surətdə tətbiq edilməsi ilə bağlı idi.

Bu proqram 1973-1976-cı illərdə RETK fondunun daha məqsədyönlü formalaşması və istifadəsi ilə əlaqədar aşağıdakı mühüm təşkilati-metodik tədbirlərin həyata keçirilməsini tə'min etdi:

-fondun komplektləşdirilməsinin tematik-tipoloji, məzmun, nəşr tipləri, nüsxələrin nisbəti və s. baxımdan əsaslı şəkildə redaktə edilib dəqiqləşdirilməsi;

---

[206] Respublika Elmi Texniki Kitabxanasının metodik şö’bəsinin 1968-ci il hesabatı. -S.2.

[207] Respublika Elmi Texniki Kitabxanasının 1968-ci il hesabatı.-S.1-2.

[208] Bu şö’bə 1976-cı ildə yaradılmışdı.

-fonddan uzun illərdən bəri istifadə edilməyən köhnəlmiş, qeyri-profilli və s. nəşrlərin çıxarılması;

-kitabxana qaydalarına əməl etməyən, aldıqları nəşrləri uzun müddət ərzində qaytarmayan oxucuların müəyyənləşdirilməsi və müvafiq nəşrlərin kitabxanaya qaytarılması;

-Elmi Texniki İnformasiya İnstitutu ilə birlikdə institut maşın bazası əsasında oxuculara xidmət işi ilə əlaqədar bütün texnoloji proseslərin texniki statistik uçotunun avtomatlaşdırılması.

Bütün bunlar 70-80-ci illərdə Respublika Elmi Texniki Kitabxanası informasiya ehtiyatlarının inkişafının elmi əsaslarını təşkil edirdi.

Beləliklə, 60-cı illərin sonu - 70-ci illərin birinci yarısında həyata keçirilən bu tədqiqat işi respublikada kitabxanaların fəaliyyətinin metodik tə'minatında yeni keyfiyyət mərhələsinin başlanması idi. Sonralar, yə'ni 70-ci illərin ikinci yarısında bu mütərəqqi iş dövlət kitabxanaları təcrübəsində, o cümlədən, M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasında, eləcə də Respublika EA Mərkəzi Elmi Kitabxanasında da tətbiq edilməyə başladı. Bu dövrdə texniki kitabxanaların metodik tə'minatında artıq tarixi sınaqdan çıxmış və təcrübədə özünü doğrultmuş iş üsullarından: kitabxana işçiləri üçün tədris, məsləhət, ixtisasartırma xarakterli təcrübələrdən, yerlərə gedişlərdən və qabaqcıl təcrübənin təbliği kimi metodlardan geniş istifadə edilirdi. Belə ki, hər il kitabxana işçiləri üçün orta hesabla 18-20 mövzu üzrə 40-45 seminar məşğələsi, qrup üzrə 15-20 məsləhətlər, 20-25 yeni ədəbiyyatın icmalı, mühazirə və mə'ruzələr təşkil edilirdi.[209] Bunların mövzularına ölkədə və xaricdə kitabxana işinin təşkili, UOT üzrə təsnifləşdirmə, normativ-texniki sənədlər fondunun təşkili, kitabxanalarda nümunəvi layihələr və s. aktual məsələlər daxil edilirdi.

Texniki kitabxanaların metodik tə'minatında yerlərə gedişlər və kitabxana işçilərinin bilavasitə iş prosesində tə'limatlandırılması xüsusi yer tuturdu. Bu məqsədlə hər il orta hesabla 40-a yaxın yerlərə gedişlər təşkil edilir[210] və gedişlər zamanı kitabxanaçılara müvafiq tə'limatların verilməsi ilə yanaşı, metodistlər tez-tez kitabxanaların mənsub olduğu sənaye obyektinin rəhbərliyi ilə görüşüb onların qarşısında kitabxananın fəaliyyəti ilə əlaqədar təşkilati və maliyyə məsələlərinin həll edilməsinə yönəlmiş məsələlər qaldırırdılar.

1969-cu ildə Respublika Elmi Texniki Kitabxanasının metodistləri «Azərbaycanın texniki kitabxanaları 50 ildə» adlı vəsait hazırlayıb, rotaprint vasitəsilə çap etdirmiş, kitabxana ictimaiyyətinə çatdırmışdılar.

70-ci illərdə texniki kitabxanalara kömək məqsədilə tərtib edilmiş metodik işləmələrə misal olaraq «Respublikanın texniki kitabxanalarına baxışın keçirilməsinə dair tə'limat», «Texniki kitabxanaların plan və hesabatının tərtibi qaydaları», «Texniki kitabxanalarda ixtiraçı və səmərələşdiricilərlə iş», «Soraq-informasiya fondunun təşkili» və s. göstərmək olar. Bu dövrdə metodik işləmələrlə yanaşı texniki kitabxanalara metodik rəhbərlik işində seminar-müşavirələrin sayı ildən-ilə artırdı. Əvvəlki illərdən fərqli olaraq belə tədbirlərin mövzuları daha aktual, konkret və kitabxanaların gündəlik fəaliyyətini istiqamətləndirən məsələlərə həsr edilirdi.

RETK-nın nəzdində daimi (həftəlik) seminarlarla yanaşı, sənaye işçilərinə kitabxana-informasiya xidmətinin mühüm məsələlərinə həsr olunmuş respublika miqyaslı müşavirələr də keçirilirdi. 1969-1970-ci illərdə təşkil edilmiş müşavirələrə nümunə olaraq «Mə'lumatın seçilib yayılması və kitabxanalar», «Ümumittifaq Elmi Texniki İnformasiya İnstitutu nəşrlərinin texniki kitabxanalarda istifadə edilməsi», «Texniki kitabxanalar və elmi-texniki tərəqqi», «Ölkə kitabxanalararası abonement sistemində texniki kitabxanaların yeri», «Texniki və həmkarlar ittifaqı kitabxanala-

---

[209] Respublika Elmi Texniki Kitabxanasının 1960-1974-cü il hesabatları.
[210] Yenə orada.

rının əlaqəli fəaliyyəti» və s.[211] göstərmək olar.

Bundan başqa, hər ilin əvvəllərində ən'ənəvi olaraq respublika kitabxanasında ötən ilin yekunlarına və cari vəzifələrə həsr edilmiş kitabxanaların ümumrespublika müşavirəsi təşkil edilirdi. Müşavirədə respublikanın texniki kitabxanalarının il ərzindəki fəaliyyəti yekunlaşdırılır, qarşıda duran vəzifələr müəyyənləşdirilirdi. Belə yığıncaqlarda metodistlərlə yanaşı, qabaqcıl texniki kitabxanaların müdirləri təcrübə mübadiləsi aparır, qazanılmış nailiyyətlərdən bəhs edirdilər. Müşavirələrə Dövlət Elm və Texnika Komitəsinin, Dövlət Plan Komitəsinin, iri sənaye müəssisələrinin rəhbər işçiləri və aparıcı mütəxəssisləri də'vət edilirdilər.

Kitabxana işçilərinin peşə səviyyəsinin yüksəldilməsində, cəmiyyətin müasir kitabxana informasiya tələbatına uyğun kadrların hazırlanmasında 1972-ci ildə Respublika Elmi Texniki Kitabxanası və Elmi Texniki İnformasiya İnstitutunun birgə yaratdıqları 2 illik İnformatika Xalq Universitetinin müstəsna rolu oldu.[212] İnformatika Universitetinin nəzdində 3 fakültə fəaliyyət göstərirdi: elmi-texniki informasiya, kitabxanaşünaslıq və biblioqrafiya, elmi-texniki tərcümə.

Universitetin nizamnaməsində yazıldığı kimi xalq universitetinin məqsədi elmi-texniki kitabxanaların, sənaye müəssisələri və idarələrinin informasiya sahələrində çalışan əməkdaşlarının peşə biliklərini daha da dərinləşdirməkdən ibarət idi.

Kitabxanaşünaslıq və biblioqrafiya fakültəsinin tədris planı RETK-nın metodik şö'bəsi tərəfindən hazırlanmışdı, bütün məşğələlərin təşkili şö'bə tərəfindən yerinə yetirilirdi. Fakültədə nəzəri mühazirələr, təcrübi məşğələlər, ev tapşırıqları, kurs işləri və diplom layihələri hazırlanması həyata keçirilirdi. Fakültənin tədris prosesinə elmi-texniki kitabxananın əməkdaşları ilə yanaşı, digər kitabxanaların təcrübəli işçiləri, Elmi Texniki İnformasiya İnstitutunun əməkdaşları, Bakı Dövlət Universitetinin professor-müəllim hey'ətinin nümayəndələri, eləcə də Moskvadan tanınmış mütəxəssislər müntəzəm olaraq cəlb edilirdilər. 1973-1977-ci illər ərzində İnformatika Xalq Universitetinin kitabxanaşünaslıq və biblioqrafiya fakültəsini 200-dən artıq kitabxana işçisi bitirmişdi.

Texniki kitabxanaların fəaliyyətinin təkmilləşdirilməsində RETK-nın metodik şö'bəsinin nəzdində yaradılmış metodkabinənin rolu xüsusilə böyük idi.

Metodik kabinə kitabxanaçılıq, biblioqrafiya və elmi-texniki informasiya problemlərinə həsr edilmiş ölkə və dünya ədəbiyyatının zəngin fondunu yaratmışdı. Burada monoqrafiyalar, mə'lumat kitabları, dövri nəşrlər, kitabxanaların işi ilə əlaqədar bütün sənədlər, eləcə də onların fəaliyyətini təkmilləşdirən normativ aktlar, müxtəlif tə'limatlar, direktiv materiallar toplanmışdı.

70-ci illərin əvvəllərində metodkabinədə mühafizə edilən belə sənədlərin ümumi həcmi 6200 nüsxədən artıq idi. Bu fond təxminən 250-300 nüsxə yeni sənədlərlə tamamlanırdı.[213] 1968-ci ildə bu fondun əsasında kitabxana-informasiya soraq-mə'lumat fondu yaradılmışdı. Respublika Elmi Texniki Kitabxanasının metodik kabinəsində zəngin kataloq-kartoteka sistemi də təşkil edilmişdi. Bu sistemə 16 adda kataloq və kartoteka daxil idi. Bunların içərisində «Kitabxanaşünaslıq ədəbiyyatı fondunun əlifba və sistemli kataloqları», «Kitabxanaların profil və ünvan kartotekaları», «Xarici ölkələrdə kitabxana işinin təşkili kartotekası», «Mərkəzləşdirilmiş komplektləşdirmə üzrə sifariş kartotekası», «Texniki kitabxanaların sənaye sahələri üzrə kartotekası», «Texniki kitabxanaların pasport kartotekası», «Azərbaycan texniki kitabxanaları mətbuatda» və başqa kataloq və kartotekalar mühüm əhəmiyyət kəsb edirdi. Bu kataloq və kartotekalardan başqa metodkabinədə kitabxana işinə dair müxtəlif sənədlərin toplandığı 205 qovluq hazırlanmışdı.[214] Bunların əsasında metodik şö'bənin nəzdində 1968-ci ildə Azərbaycanda texniki kitabxanaların arxivinin

---

[211] Respublika Elmi Texniki Kitabxanasının 1969-1970-ci il hesabatları.
[212] Научные и технические библиотеки СССР.-1977.-№11.-С.4.
[213] Respublika Elmi Texniki Kitabxanasının 1970-1973-cü il hesabatları.
[214] Yenə orada, 1974-cü il hesabatı.-S.7.

özülü qoyulmuşdur. Metodkabinənin müxtəlif texniki kitabxanalarda işləyən 167 nəfər üzvü vardı ki, onlara il ərzində abonement yolu ilə 2000 nüsxəyədək ixtisas və mə'lumat ədəbiyyatı verilmişdi.[215]

Respublika texniki kitabxanaları şəbəkəsinin metodik tə'minatının təşkili və idarə olunmasında Respublika Elmi Texniki Kitabxanasının metodik şö'bəsinin müdiri N.Kazımovanın, şö'bənin əməkdaşlarından L.Mustafayevanın, Y.Salahlının, O.Ağalarovanın xidmətləri daha çoxdur. Onların çoxu 50-60-cı illərdə Moskva Dövlət Kitabxanaçılıq İnstitutunu bitirmiş bacarıqlı mütəxəssislər idilər.

Bu illərdə respublikanın elmi-texniki kitabxanalarının metodik tə'minat sahəsində qazandığı nailiyyətlər yerli mətbuatda və xüsusən SSRİ-də kitabxanaçılıq sahəsində ən nüfuzlu nəşrlərdən olan «Nauçnıe i texniçeskie biblioteki SSSR» jurnalının səhifələrində dərc edilirdi.[216]

Beləliklə, respublikamızda texniki kitabxanaların metodik tə'minatı 50-ci illərin sonu və 70-ci illərin birinci yarısında səmərəli forma və metodlar tətbiq edilməklə keyfiyyətcə yeni bir mərhələyə yüksəlmişdir.

Bu dövrdə yaradılmış Respublika Elmi Texniki Kitabxanasının metodistləri çoxsahəli texniki kitabxanalar şəbəkəsinin metodik baxımdan idarə olunmasında çox mühüm nailiyyətlər qazanmış və kitabxanaların metodik tə'minat sistemində bir sıra mütərəqqi metodların təşəbbüsçüsü kimi çıxış etmişlər.

RETK-nın bu dövrdəki metodik fəaliyyəti belə bir həqiqəti sübut edir ki, bu fəaliyyət yalnız elmi-nəzəri əsaslara, elmi təhlil prinsipinə və yüksək təşkilati metodlara söykəndikdə onun nəticələri səmərəli ola bilər. Bu həqiqəti respublikanın texniki kitabxanalarının 1958-1975-ci illərdə mühüm göstəricilərinin nisbətində görmək olar. Belə ki, 50-ci illərin əvvəllərində respublikada texniki kitabxanalar şəbəkəsində cəmi 70-ə yaxın kitabxana olduğu halda, 1977-ci ildə respublikanın sənaye sahələrinə 182 müxtəlif kitabxana informasiya müəssisəsi xidmət edirdi.[217]

1958-ci ildə texniki kitabxanalar 964.335 nüsxədən ibarət kitab fonduna malik olduqları halda, 1977-ci ildə bu fondun həcmi ümumilikdə 3 milyon nüsxəyə çatmışdı. Texniki kitabxanalar 1958-ci ildə 26794 nəfər oxucuya xidmət etmişdisə, 1977-ci ildə onların sayı 53 min nəfərdən çox olmuş, kitab verilişi isə təqribən 3 dəfə artaraq 1 milyon nüsxəyə çatmışdı.[218]

Bu dövr respublikada texniki kitabxanaların fəaliyyətində, xüsusilə oxuculara xidmət işində dövrün informasiya tələblərinə müvafiq səviyyədə mütərəqqi iş üsullarının tətbiq edilməsi kimi səciyyələnir. Bu illərdə texniki kitabxanalarda soraq-mə'lumat fondlarının formalaşması, elmi-texniki informasiya fəaliyyətinin güclənməsi, mütəxəssislərə kitabxana-informasiya xidmətində şablon və trafaret üsullardan əl çəkilməsi, ümumiyyətlə, onların fəaliyyətinin sənayenin inkişafının tələblərinə daha sıx bağlanması, maddi-texniki bazası, kadr tə'minatının təkmilləşməsi və s. kimi mütərəqqi meyllər onların cəmiyyətdə elmi-texniki tərəqqinin sür'ətlənməsindəki rolunu göstərən amillər idi.

Şübhəsiz ki, 60-70-ci illərdə respublikanın texniki kitabxanalarının fəaliyyətində meydana gəlmiş mütərəqqi iş üsulları onların səmərəli elmi-texniki tə'minatının

---

[215] Respublika Elmi Texniki Kitabxanasının 1968-ci il hesabatı.-S.3.

[216] Казымова Н.Г. В библиотеках нефтяной промышленности//Техн. библ. ССР.-1965.-№3.-С.5-8;Лаборатория опыта работы технической библиотеки//Техн.библ.ССР.-1961.-№1.-С.31-33;Практикумы в Республиканской научно-технической библиотеке Азербайджана//Техн. библ. СССР.-1962.-№1.-С.40-42; Вступая в последний год семилетки/о сети НТБ Азербайджана // Техн.библ.СССР.-1965.-№2.-С.15-19; Система комплектования фондов в технической библиотеке Азербайджана // Техн.библ.СССР.-1966.-№9.-С.41-44; Мамедов Г., Жукова Н. Централизованное комплектование сети НТБ Азербайджана//Научно-технические библиотеки СССР.-1976.-№12.-С.20-22; История развития и современное состояние НТБ Азербайджанской ССР//Научно-технические библиотеки СССР.-1977.-№11.-С.3-5 и др.

[217] Respublika Elmi Texniki Kitabxanasının 1977-ci il hesabatı.-S.17.

[218] Yenə orada, 1958-1977-ci il hesabatları.

nəticələri idi.

***Tibb kitabxanaları şəbəkəsinin metodik tə'minatı***

50-ci illərin sonunda respublikanın müxtəlif kitabxana şəbəkələrində meydana gələn canlanma özünü tibb kitabxanalarının fəaliyyətində də qabarıq şəkildə büruzə verirdi. Bu, ilk növbədə kitabxana şəbəkələrinin sayının artmasında özünü göstərirdi. Əgər 1953-cü ildə respublikada 77 tibb kitabxanası var idisə, 1960-cı ildə onların sayı 135-ə çatmışdı.[219]

70-ci illərin ortalarında isə respublikada müxtəlif növ tibb kitabxanalarının sayı 152 olmuşdur. Bu kitabxanalar 57 min oxucuya xidmət edirdi ki, onlardan 22 mini bilavasitə tibb və səhiyyə müəssisələrində çalışan mütəxəssislər idi. Bu dövrdə respublikanın tibb kitabxanalarının ümumi fondu 1 milyon nüsxədən artıq idi. Oxuculara kitab verilişinin illik miqdarı orta hesabla bir milyon nüsxəyə çatırdı.[220]

60-cı illərin əvvəllərində ölkənin tibb kitabxanaları şəbəkəsinə Respublika Elmi Tibb Kitabxanasından başqa, Naxçıvan Muxtar Respublikası Elmi Tibb Kitabxanası, Dağlıq Qarabağ Muxtar Vilayəti Elmi Tibb Kitabxanası, Gəncə şəhər Elmi-Tibb Kitabxanası, N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun elmi kitabxanası, orta ixtisas tibb təhsil müəssisələri kitabxanaları, Həkimləri Təkmilləşdirmə İnstitutu kitabxanası, müalicə-profilaktika müəssisələri kitabxanaları və s. daxil idi.

Bu dövrdə tibb kitabxanaları şəbəkəsində şəhər və rayon xəstəxanaları kitabxanaları getdikcə mühüm yer tutmağa başlamışdı. «Tibb elminin sür'ətli inkişafı, xəstəxanalarda yüksək ixtisaslı mütəxəssislərin fəaliyyət göstərməsi belə kitabxanaların inkişaf etdirilməsi zərurətini qarşıya qoyurdu.[221]

Xüsusilə rayon və kənd yerlərində tibb kitabxanaları şəbəkəsinin inkişafında 1956-cı ilin yanvar ayında Azərbaycan SSR Ali Sovetinin «Respublikanın kənd yerlərində səhiyyənin vəziyyəti və onu yaxşılaşdırmaq tədbirləri haqqında» qərarının, eləcə də həmin ilin fevral ayında Respublika Səhiyyə Nazirliyinin eyni adlı əmrinin xüsusi əhəmiyyəti oldu.[222] Bu tədbirlərin nəticəsi olaraq 50-ci illərin sonlarında tibb kitabxanaları şəbəkəsinin maddi-texniki bazası müəyyən qədər möhkəmlənmiş, onların yeni ədəbiyyat və avadanlıqla təchizatı xeyli yaxşılaşmışdı. Bu dövrdə ən mühüm vəzifə rayon xəstəxanalarında yeni açılmış kitabxanaların fəaliyyətini düzgün istiqamətləndirməkdən, digər tibb və səhiyyə müəssisələri kitabxanalarının işini daha da təkmilləşdirməkdən ibarət idi. Bu isə ilk növbədə Respublika Elmi Tibb Kitabxanasının metodik fəaliyyətini müvafiq tələblər səviyyəsində qurmağı tələb edirdi.

Qeyd etməliyik ki, əvvəllər olduğu kimi bu dövrdə də respublika tibb kitabxanaları şəbəkəsinin inkişafı və təkmilləşdirilməsində, onlara metodik rəhbərliyin təşkilində, həmçinin tibb və səhiyyə sahələrinə kitabxana-informasiya xidmətinin təşkilində Respublika Elmi Tibb Kitabxanasının xüsusi rolu var idi. O, respublikanın tibb ictimaiyyətinə xidmət edən baş kitabxana olmaqla yanaşı, eyni zamanda tibb kitabxanalarının metodik tə'minatçısı kimi də fəaliyyət göstərirdi və bu sahədə müəyyən təcrübə qazanmışdı. 1960-cı ilin əvvəllərində Respublika Tibb Kitabxanasının yeni binaya köçməsi, onun maliyyə və maddi-texniki bazasının xeyli yaxşılaşdırılması kitabxananın metodik fəaliyyətinin təkmilləşdirilməsi üçün də əlverişli şərait yaratmışdı.

Bu illərdə kitabxananın fondu 200 min nüsxəyə çatmışdı və 2 mindən artıq oxucuya xidmət edirdi. Kitabxanada hər il oxuculara orta hesabla 48-52 min nüsxə

---

[219] Respublika Elmi Tibb Kitabxanasının 1960-cı il hesabatı.-S.14.
[220] Научные и технические библиотеки СССР.-1977.-№11.-С.7.
[221] Xələfov A.A. Azərbaycanda kitabxana işinin tarixi (1933-1958).-S.238.
[222] Respublika Elmi Tibb Kitabxanasının 1956-cı il hesabatı.-S.3.

kitab və digər materiallar verilirdi.[223]

Respublika Elmi Tibb Kitabxanasının 60-cı illərdə həyata keçirdiyi metodik fəaliyyətin mühüm istiqamətlərini xarakterizə etməzdən əvvəl tibb kitabxanaları şəbəkəsinin metodik tə'minatında mövcud olan obyektiv çətinliklərdən bəhs etmək lazım gəlir.

Bu dövrdə tibb kitabxanalarına metodik köməklik göstərmək məqsədilə Respublika Elmi Tibb Kitabxanasının strukturunda xüsusi metodik şö'bə yox idi və metodik fəaliyyətlə kitabxananın bütün şö'bələri məşğul olurdular (xüsusi metodik şö'bə 1983-cü ildə yaradılmışdı). Belə vəziyyət tibb kitabxanaları şəbəkəsinin metodik tə'minatı üçün müəyyən çətinliklər yaradırdı.

Metodik fəaliyyətlə bilavasitə məşğul olan xüsusi ixtisaslaşdırılmış şö'bənin yoxluğu, şübhəsiz ki, bu işin kitabxana miqyasında kompleks şəkildə təşkili və əlaqələndirilməsini xeyli çətinləşdirirdi. Ona görə ki, respublika kitabxanasının aparıcı şö'bələrinin (komplektləşdirmə, kataloqlaşdırma, mə'lumat-biblioqrafiya, xidmət, kitabsaxlayıcı və s.) metodik fəaliyyəti vahid mərkəzdə planlaşdırılmır və eyni zamanda bu işə sistemli nəzarət lazımi səviyyədə deyildi. Respublika kitabxanasının hər bir funksional şö'bəsi öz metodik fəaliyyətinə bir növ əlavə iş kimi baxırdı.

Tibb kitabxanaları şəbəkəsinin metodik tə'minatının digər çətinliyi bu şəbəkənin tipoloji baxımdan müxtəlif olması ilə bağlı idi. Belə ki, respublikanın tibb kitabxanaları şəbəkəsi tipoloji baxımdan, başqa sözlə, iş üsulları, fondun təşkili və s. baxımdan bir-birindən tamamilə fərqlənən kitabxanalardan ibarət idi. Buraya tibb və səhiyyə sahələrindəki elmi-tədqiqat institutlarının, ali və orta ixtisas təhsili ocaqlarının, müalicə-profilaktika müəssisələrinin, sanitariya və epidemioloji stansiyaların kitabxanaları daxil idi ki, bunların da fəaliyyətinin təşkili və idarə olunması bir-birindən xeyli fərqlənirdi.

Nəhayət, tibb kitabxanalarının metodik tə'minatını mürəkkəbləşdirən üçüncü amil onların kadr tə'minatındakı nöqsanları ilə bağlı olmuşdur. Belə ki, bu dövrdə tibb kitabxanaları şəbəkəsində çalışan 82 nəfər işçinin təqribən 90 faizinin ixtisas təhsili yox idi. Rayon xəstəxanaları kitabxanalarında işləyənlərin, demək olar ki, hamısı ümumi orta təhsil müəssisələrini bitirmiş və əksər hallarda kitabxana işinə təsadüfi gəlmiş işçilər idi.

Bütün bunlar respublikada tibb kitabxanaları şəbəkəsinə metodik rəhbərlik işinin keyfiyyətinə mənfi tə'sir göstərirdi.

Bu nöqsanlara baxmayaraq, 60-70-ci illərdə tibb kitabxanalarının metodik tə'minatının mühüm istiqamətləri müəyyənləşdirilmiş və aşağıdakı vəzifələrin həllinə yönəlmişdi:

-səhiyyə və tibb sahəsində fəaliyyət göstərən kitabxanaların vahid əlaqələndirilmiş planının hazırlanması və onun icrasına nəzarət;

-kitabxanalara yerlərdə əməli köməklik göstərmək, bu məqsədlə təcrübəli kitabxana işçilərinin yerlərə göndərilməsinə nail olmaq;

-şəbəkənin qabaqcıl kitabxanalarının iş təcrübəsini ümumiləşdirib təbliğ etmək;

-kitabxana işçilərinin peşə səviyyəsinin yüksəldilməsinə yönəlmiş tədbirlərin həyata keçirilməsi.

Respublika Elmi Tibb Kitabxanasının arxiv sənədlərindən mə'lum olur ki, 60-cı illərdə göstərilən istiqamətlərdən yalnız ikisi: yerlərə gedişlər və kitabxanaçıların ixtisasının artırılması istiqamətində aparılmış işlər nisbətən səmərəli olmuş və müəyyən müsbət nəticələr əldə edilmişdir. Belə ki, hər il orta hesabla 20-25 kitabxanaya gedişlər təşkil olunmuş və iş yerlərində kitabxanaçıları tə'limatlandırmaq yolu ilə ayrı-ayrı kitabxanaların fəaliyyəti təkmilləşdirilmişdi. Belə gedişlər xüsusən Gəncə, Qazax, Şəmkir, Yevlax, Mingəçevir, Şamaxı rayon xəstəxanaları kitabxanala-

[223] Respublika Elmi Tibb Kitabxanasının 1958-1962-ci il hesabatları.

rında müəyyən müsbət nəticələr vermişdi.[224] Yerlərə gedişlər zamanı Respublika Tibb Kitabxanasının əməkdaşları müvafiq kitabxanaların fondunun düzülüşünü təkmilləşdirmiş, əlifba kataloqunun əsasını yaratmış, ədəbiyyatın uçotu və statistikasına dair tövsiyələr vermiş, kitabxanaçıları oxuculara xidmət işindəki mütərəqqi iş üsulları ilə tanış etmiş, Şamaxı, Gəncə və Mingəçevir xəstəxanalarında oxucularla görüş təşkil edərək «Sağlamlığınızı qoruyun» mövzusunda mətbuat icmalı, yeni ədəbiyyata baxış və s. tədbirlər keçirmişlər.[225] Ümumiyyətlə, 1960-1975-ci illərdə Respublika Elmi Tibb Kitabxanası yerlərə 344 gediş təşkil edərək kitabxanaçılara bilavasitə iş yerində təşkilati-metodik tövsiyələr vermişlər.[226]

Bu zaman diqqət mərkəzində duran ən mühüm məsələlərdən biri də stansionar kitabxanası olmayan müalicə-profilaktika müəssisələrində səyyar kitabxanaların təşkili idi. 1961-1975-ci illərdə rayon və kənd müalicə-profilaktika müəssisələrində 72 səyyar kitabxana yaradılmışdı ki, bunlardan 4703 oxucu istifadə edirdi.[227] Bu məqsədlə Respublika Elmi Tibb Kitabxanasında səyyar kitabxanaların təşkilinə dair 2 metodik tövsiyə hazırlanmış, təxmini ədəbiyyat siyahısı əlavə edilmiş, yerlərdə konkret təşkilati işlər aparılmışdı.[228]

Bu dövrdə respublika kitabxanasında kitabxana işçilərinin ixtisasının artırılmasına yönəlmiş aylıq seminarlar təşkil edilirdi. Seminarlarda hər dəfə orta hesabla 35-40 tibb kitabxanası işçisi müntəzəm iştirak etmişdi. Əsasən Bakı şəhərindəki səhiyyə və tibb müəssisələri kitabxanalarını əhatə edən belə seminarlarda tibb kitabxanalarının fəaliyyətinin aktual məsələlərinə dair mə'ruzələr və mühazirələr oxunmuş, yeni ədəbiyyatın icmalları keçirilmiş, kitabxana işinə dair nəşrlərin sərgisi və onlara baxış təşkil edilmişdir.

Yalnız 1970-1975-ci illərdə keçirilmiş 52 seminar məşğələsində Respublika Elmi Tibb Kitabxanasının təcrübəli işçilərindən başqa Elmlər Akademiyası Mərkəzi Elmi Kitabxanasının, M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının əməkdaşları, eləcə də Səhiyyə Nazirliyi məs'ul işçilərinin mə'ruzə və çıxışları dinlənilmişdi.[229]

Beləliklə, 60-70-ci illərdə tibb kitabxanaları şəbəkəsinin metodik tə'minatı kitabxanaşünaslıq baxımından dövrün tələblərinə tam cavab verməsə də, bu sahədə qazanılmış nailiyyətləri də inkar etmək olmaz. Bu nailiyyətlər ilk növbədə tibb kitabxanaları şəbəkəsinin genişlənməsində, fondun artımında, oxuculara xidmət işinin inkişafında özünü göstərmişdir.

Təsadüfi deyil ki, təşkilati-metodik sahədəki göstəricilərə görə Respublika Elmi Tibb Kitabxanası 1977-ci ildə SSRİ tibb kitabxanalarının Ümumittifaq baxışında xüsusi diploma layiq görülmüşdü.

60-70-ci illərdə tibb kitabxanalarının metodik tə'minatında qazanılmış təcrübə 80-ci illərdə daha da inkişaf etdirilmiş, əhəmiyyətli nəticələrə zəmin yaratmışdı.

### *Elmlər Akademiyası kitabxana şəbəkəsinin metodik tə'minatı*

60-cı illər Respublika Elmlər Akademiyası kitabxana şəbəkəsinin metodik tə'minatı sisteminin formalaşması dövrü adlandırıla bilər.

1961-ci ildə EA Mərkəzi Elmi Kitabxanasının nəzdində akademiyanın kitabxana şəbəkəsinin fəaliyyətini istiqamətləndirmək, bu işi elmi əsaslarla təşkil etmək məqsədi ilə elmi-metodik şöbə yaradıldı. M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının mə'lumat-biblioqrafiya şö'bəsinin müdiri, Moskva Dövlət Mədə-

---

[224] Respublika Elmi Tibb Kitabxanasının 1960-1975-ci il hesabatları.
[225] Yenə orada.
[226] Yenə orada.
[227] Научные и технические библиотеки СССР.-1977.-№11.-С.6.
[228] Respublika Elmi Tibb Kitabxanasının 1970-1975-ci il hesabatları.
[229] Yenə orada.

niyyət İnstitutunun mə'zunu Rasim Kazımov şö'bənin rəhbəri vəzifəsinə də'vət edildi. İlkin mərhələdə şö'bədə 3 nəfər ali kitabxanaçılıq təhsili olan işçi çalışırdı.[230]

Elmlər Akademiyası kitabxana şəbəkəsinin fəaliyyətinin elmi-metodik baxımdan idarə edilməsi tələbatının meydana gəlməsi son illər bu şəbəkənin nəzərə çarpan dərəcədə inkişafı ilə əlaqədar idi. Bu inkişaf hələ 1945-ci ildə respublika Elmlər Akademiyasının yaradılması ilə başlanmışdı. Professor Abuzər Xələfovun qeyd etdiyi kimi, bu dövrdə «Azərbaycan SSR EA kitabxana şəbəkəsi xeyli inkişaf edib təkmilləşmişdi. Yeni elmi-tədqiqat müəssisələrinin, elmi kadrların miqdarının çoxalması kitabxana işinə diqqəti xeyli artırmışdı. Ayrı-ayrı elmi-tədqiqat institutlarının kitabxanalarının maddi-texniki bazası möhkəmlənmiş, onlar üçün daha əlverişli binalar ayrılmışdı».[231] Akademiyanın elmi-tədqiqat institutlarının sayı 19-a çatmışdı. O cümlədən, Astrofizika, Fiziologiya, Genetika və Seleksiya, İqtisadiyyat, Fizika, Kibernetika, Şərqşünaslıq, Fəlsəfə və Hüquq elmi-tədqiqat müəssisələri yaradılmışdı ki, onların nəzdində də profilə uyğun kitabxanalar təşkil edilmişdi.

50-ci illər eyni zamanda EA Mərkəzi Elmi Kitabxanasının inkişafında əlamətdar dövr olmuşdur. EA Rəyasət Hey'ətinin müntəzəm qayğısı nəticəsində elmi kitabxananın maddi-texniki bazası getdikcə genişlənirdi.

Mərkəzi Elmi Kitabxananın, eləcə də digər akademiya kitabxanalarının gündəlik fəaliyyətini istiqamətləndirmək məqsədilə 1951-ci ildə Rəyasət Hey'ətinin qərarı ilə Mərkəzi Elmi Kitabxananın nəzdində kitabxana şurası yaradılmışdı.[232] Akademiklərdən A.İ.Qarayev, Ş.Ə.Əzizbəyov, F.A.Məlikov, Z.İ.Xəlilov, Q.Ə.Əlizadə, V.R.Volobuyev və b. kitabxana şurasının üzvləri idilər. Onlar kitabxana fondunun komplektləşdirilməsinin istiqamətləndirilməsində, elmi-biblioqrafik vəsaitlərin hazırlanmasında, kitabxana şəbəkəsinin inkişaf perspektivlərinin müəyyənləşdirilməsində yaxından iştirak edirdilər. Bütün bunlar Mərkəzi Elmi Kitabxananın fəaliyyətinin istiqamətləndirilməsi və təkmilləşdirilməsində, onun maliyyə və maddi-texniki bazasının möhkəmləndirilməsində öz səmərəsini verirdi. Əgər 1951-ci ildə Mərkəzi Elmi Kitabxananın fondunda 500 min nüsxəyə yaxın çap məhsulu vardısa, 1959-cu ildə 700 minə yaxın ədəbiyyat, o cümlədən 145, min nüsxə xarici nəşr toplanmışdı. Kitabxanalarda 1800-dən artıq elmi işçiyə xidmət göstərilirdi.[233]

Sov.İKP MK-nın 1959-cu ildə qəbul etdiyi kitabxana işinə dair qərarından sonra Mərkəzi Elmi Kitabxananın fəaliyyəti bir qədər də təkmilləşdi. 1960-cı ilə qədər EA Rəyasət Hey'ətinin binasında yerləşdirilmiş M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının yeni inşa edilmiş binaya köçməsi nəticəsində boşalmış min kvadrat metrdən artıq sahə də Mərkəzi Elmi Kitabxananın sərəncamına verildi, kitabxananın ştat vahidi 23 nəfərdən 67 nəfərə çatdırıldı.[234]

Beləliklə, 50-60-cı illərdə Respublika EA sistemində kitabxana şəbəkəsinin artması, kitabxanaların fəaliyyətinin məzmun və təşkilati baxımdan mürəkkəbləşməsi, Mərkəzi Elmi Kitabxananın fəaliyyətindəki kəmiyyət və keyfiyyət dəyişiklikləri akademiya sistemində kitabxana işinin tə'minatının yaranması və formalaşması üçün zəmin yaratdı.

Mərkəzi Elmi Kitabxananın elmi-metodik qrupunun 1961-1967-ci illər[235] ərzindəki fəaliyyəti 2 mühüm istiqamətdə aparılırdı: birincisi, Mərkəzi Elmi Kitabxananın fəaliyyətinin dövrün tələblərinə uyğun şəkildə təkmilləşdirilməsi; ikincisi elmi-tədqiqat müəssisələri kitabxanalarının fəaliyyətinin elmi-metodik əsaslarla təşkil

---

230 Azərbaycan Respublikası EA Mərkəzi Elmi Kitabxanasının 1961-ci il hesabatı.-S.9-11

231 Xələfov A.A. Azərbaycanda kitabxana işinin tarixi: (1933-1958).-S.231

232 Azərbaycan Respublikası EA arxivi, f.7, saxlama vahidi 1184 A, v.277-278.

233 Azərbaycan Respublikası EA arxivi, f.7, saxlama vahidi 1184 A, v.277-278.

234 Azərbaycan Respublikası EA Mərkəzi Elmi Kitabxanasının arxivi. Mərkəzi Elmi Kitabxananın 1951-1960-cı il hesabatları.

235 Mərkəzi Elmi Kitabxananın 1967-ci ildə yeni binaya köçməsi və Qeyd:bununla əlaqədar metodik fəaliyyətin yeni şəraitdə təşkilinə qədərki dövr nəzərdə tutulur.

edilməsi.

EA kitabxana şəbəkəsinin elmi-metodik tə'minatı ilk növbədə Mərkəzi Elmi Kitabxananın bütövlükdə metodik mərkəz səviyyəsinə qaldırılmasını tələb edirdi. Belə ki, kitabxananın hər bir şö'bəsi öz profilinə uyğun metodik mərkəz funksiyasını həyata keçirmək imkanına malik olmalı idi.

Qeyd edək ki, 60-cı illərin əvvəllərinə qədər EA Mərkəzi Elmi Kitabxanasının metodik sahədə lazımi təcrübəsi yox idi. Bu vaxta qədər o, EA sistemində fəaliyyət göstərən institut kitabxanaları ilə heç bir təşkilati-metodik tədbir keçirməmişdi. Mərkəzi kitabxanada metodik fəaliyyətin planlaşdırılması, forma və metodların müəyyənləşdirilməsi istiqamətində heç bir ən'ənə və tarixi təcrübə formalaşmamışdı. Ümumiyyətlə, kitabxana öz fəaliyyətini EA kitabxana şəbəkəsi ilə əlaqəli şəkildə qurmamışdı.

Odur ki, 60-cı illərin əvvəllərində yaranmış metodik qrupun fəaliyyəti ilk növbədə EA Mərkəzi Elmi Kitabxanasının metodik mərkəz kimi formalaşmasına yönəldilmişdi.

Metodik qrup öz işinə normativ sənədlərin tərtib edilməsi ilə başladı. Belə ki, 1961-1962-ci illər ərzində «Mərkəzi Elmi Kitabxananın elmi-metodik şurası haqqında», komplektləşdirmə, kitabişləmə və kataloqlaşdırma, oxuculara xidmət, mə'lumat-biblioqrafiya şö'bələri haqqında əsasnamələr, bir sıra digər tə'limatlar tərtib edilərək kitabxananın elmi-metodik şurasında təsdiq olundu.[236]

1961-ci ilin dekabr ayında isə burada metodik qrupun təqdim etdiyi Mərkəzi Elmi Kitabxananın 1962-1965-ci illərdə metodik fəaliyyətinin mühüm istiqamətləri təsdiq edildi. Kompleks xarakter daşıyan bu proqramda yaxın 4 il ərzində həyata keçiriləcək tədbirlərin konkret adları, müddəti, icraçılar və s. işlər öz əksini tapmışdı.

Proqramın əsas bölmələri aşağıdakılardan ibarət idi:

1.Mərkəzi elmi kitabxananın metodik fəaliyyət sahəsində vəzifələri;
2.Metodik mə'lumatların hazırlanması;
3.Kitabxanalara gedişlər, işçilərin yerlərdə mə'lumatlandırılması;
4.Müşavirə və seminarların təşkili;
5.Metodik fəaliyyətin əlaqələndirilməsi.[237]

Tərtib edilən proqrama əsasən istər Mərkəzi Elmi Kitabxana, istərsə də elmi-tədqiqaq müəssisələri kitabxana işçiləri üçün ildə 4 metodik tə'limatın, ayda 2 seminar məşğələsinin, ildə 2 elmi konfrans və ya müşavirənin təşkil edilməsi və s. nəzərdə tutulurdu. Məsələn, 1962-1965-ci illərdə 16 yazılı metodik tə'limat tərtib edilmişdi. Onlardan bir neçəsinin adını çəkək: «Elmi-tədqiqat institutu kitabxanasının işinin planlaşdırılması və planının sxemi», «Yeni ədəbiyyatın kataloqlarda əks olunması qaydası», «Soraq-mə'lumat fondunun təşkili» və s.[238]

1962-ci ildə kitabxana işçiləri üçün nəzərdə tutulan seminar məşğələləri mövzularına nümunə kimi bunları göstərmək olar: «Çap əsərlərinin təsvir qaydaları», «Əlifba kataloqunun təşkili», «Mühüm təsnifat cədvəlləri», «Sistemli kataloqun təşkili» və s.[239]

EA Mərkəzi Elmi Kitabxanasının metodik fəaliyyət proqramında bu işin digər metodik mərkəzlərlə əlaqələndirilməsi diqqəti cəlb edir. Bu əlaqə M.F.Axundov adına Dövlət Kitabxanası və Respublika Elmi Texniki Kitabxanası ilə birlikdə həyata keçirilən müşavirə, seminar, metodik vəsaitlərin hazırlanması, müxtəlif elmi-tədqiqat işləri və s. kimi tədbirlərdə öz əksini tapmışdır.

Beləliklə, bu proqramda respublika əhəmiyyətli metodik mərkəzlər arasında sıx əlaqə saxlanılması, bu işin korporasiyası, metodik fəaliyyətdə təcrübə mübadiləsi və digər əlaqəli tədbirlər nəzərdə tutulurdu.

---

[236] EA Mərkəzi Elmi Kitabxanasının arxivi. Mərkəzi Elmi kitabxananın 1961-1962-ci il hesabatları.
[237] Azərb.EA Mərkəzi Elmi Kitabxanasının arxivi. Metodik qrupun 1962-ci il hesabatı, S.6.
[238] Yenə orada.
[239] Yenə orada.

Qeyd etmək lazımdır ki, həmin metodik fəaliyyət proqramı dörd il ərzində tamamilə yerinə yetirilmiş, EA Mərkəzi Elmi Kitabxanasının metodik fəaliyyəti elmi ictimaiyyətin diqqətini cəlb etmişdi. Heç təsadüfi deyil ki, metodik qrupun rəhbəri Rasim Kazımov 1965-ci ildə Mərkəzi Elmi Kitabxananın direktoru tə'yin edildi. Metodik qrupa rəhbərlik isə təcrübəli kitabxanaçı S.Lipetskayaya həvalə edildi.[240]

1965-1967-ci illərdə Mərkəzi Elmi Kitabxananın metodik fəaliyyəti kitabxananın yeni binaya köçməsi ilə əlaqədar hazırlıq işlərinin təşkilinə və yeni şəraitə uyğun qurulmasına yönəlmişdi. Belə ki, metodik qrup rəhbərliklə birlikdə kitabxananın yeni struktur quruluşu, abonement və oxu zallarının profili, fəaliyyət prinsipləri, fondun yenidən yerləşdirilməsi sxemi, əlavə xidmət növləri, yeni təşkil ediləcək şö'bələrin məqsəd və vəzifələri, kadrların düzgün tə'yinatı və s. kimi təşkilati-metodik məsələləri müəyyənləşdirmişdi.[241]

1966-cı ildə SSRİ EA kitabxanasının 3 nəfər metodisti Mərkəzi Elmi Kitabxananın də'vəti ilə Bakıya gələrək kitabxananın fəaliyyəti ilə yaxından tanış olmuş, yeni binada onun işinin təşkilinə dair tövsiyələr hazırlamış, eyni zamanda kitabxana işçilərinin attestasiyasında iştirak etmişdilər. Attestasiyanın suallarının hazırlanması və keçirilməsində, eləcə də Mərkəzi Elmi Kitabxananın işinin yeni binada təşkilinə dair tövsiyələrin hazırlanmasında kitabxananın metodistləri bilavasitə iştirak edirdilər.[242]

SSRİ EA kitabxanasının Bakıya gəlmiş metodistlər qrupunun rəhbəri, SSRİ EA kitabxana şurasının elmi katibi M.V.Vorfolomeyeva Azərbaycan EA prezidenti Z.İ.Xəlilov tərəfindən qəbul edilmiş və Mərkəzi Elmi Kitabxananın yeni binaya göçürülməsi ilə əlaqədar aparılmış təşkilati-metodik işlər haqqında ona mə'lumat vermişdi. Eyni zamanda yeni binada kitabxananın fəaliyyətinin təkmilləşdirilməsi ilə əlaqədar akademiyanın rəhbərliyinə bir sıra tövsiyələr söyləmişdi ki, həmin tövsiyələr kitabxananın metodik şöbəsi ilə birgə hazırlanmışdı. Bunlar əsasən Mərkəzi Elmi Kitabxananın struktur quruluşu, ştat tə'minatı və maddi-texniki bazasının möhkəmlənməsi ilə əlaqədar idi.[243]

1967-ci il noyabrın 5-də EA Mərkəzi Elmi Kitabxanasının yeni binasının açılışı kitabxananın fəaliyyətində, xüsusən onun elmi təşkilati və metodik fəaliyyətində keyfiyyət və kəmiyyət baxımından yeni mərhələnin başlanğıcı oldu. Kitabxananın yeni binaya köçməsi ilə əlaqədar onun sahəsi, o cümlədən, kitab fondu və xidmət işləri ilə məşğul olan şö'bələrinin sahəsi orta hesabla 10 dəfə artdı, yeni avadanlıq və texniki vasitələr alındı, kadrların sayı 67 nəfərdən 122 nəfərə çatdırıldı, 5 yeni şö'bə: elmi biblioqrafiya, elmi-texniki informasiya, elmi-tədqiqat, beynəlxalq kitab mübadiləsi, eləcə də metodistlər qrupu müstəqil elmi-metodik şö"bə kimi fəaliyyət göstərməyə başladı.[244]

Oxuculara səmərəli xidmət məqsədi ilə 3 oxu zalı, 2 abonement, kitabxanalararası abonement, sərgi salonu, kataloq və kartotekalar sistemi, şərq ölkələri ədəbiyyatı zalı və s. bölmələr yenidən təşkil olundu.[245] Bütün bunlar EA Mərkəzi Elmi Kitabxanasının şəbəkədaxili metodik fəaliyyətini dövrün tələblərinə cavab verən iş üsulları əsasında təşkil etmək üçün geniş imkanlar açdı.

1968-ci ildən müstəqil fəaliyyət göstərən elmi-metodik şö'bənin 4 nəfərdən ibarət əməkdaşları EA kitabxana şəbəkəsinin metodik tə'minatını respublikanın ən qabaqcıl və mütərəqqi kitabxanaşünaslıq metodikasına uyğun şəkildə həyata keçirməyə başladı. Bu məqsədlə metodistlər 1968-1972-ci illər ərzində SSRİ-nin bir sıra iri metodik mərkəzlərinə, o cümlədən, Moskva, Leninqrad, Kiyev, Riqa, Minsk, Tallin və başqa şəhərlərə e'zam olundular. 60-cı illərin sonu - 70-ci illərin əvvəllərində

[240] Azərb. EA Mərkəzi Elmi Kitabxanasının arxivi. 1965-ci il hesabatı.- S.22.
[241] Yenə orada. 1965-1967-ci il hesabatları.
[242] Yenə orada.
[243] EA Mərkəzi Elmi Kitabxanasının arxivi: 1965-1966-ci il hesabatları.
[244] Yenə orada: 1967-ci il hesabatı. S.8-12.
[245] Yenə orada: 1968-ci il hesabatı.- S.14.

EA Mərkəzi Elmi Kitabxanasının metodik fəaliyyətinin əsas vəzifələri aşağıdakılardan ibarət olmuşdur:

-EA-da həyata keçirilən elmi-tədqiqat işlərinin kitabxana-informasiya tə'minatı məqsədilə şəbəkə kitabxanalarının elmi informasiya funksiyalarını inkişaf etdirmək, alimlərin dünya informasiya məkanından tam səmərəli və operativ istifadə etməsinə nail olmaq;

-EA şəbəkəsinə daxil olan kitabxanaların fəaliyyətini əlaqələndirilmiş formada həyata keçirərək akademiyanın nəzdində vahid kitabxana sistemi formalaşdırmaq;

-EA kitabxana şəbəkəsi kadrlarının peşə səviyyəsini, nəzəri və təcrübi hazırlığını kitabxanaşünaslıq və elmi informasiya tələblərinə uyğun formalaşdırmaq;

-EA kitabxana şəbəkəsinin ölkədaxili və beynəlxalq əlaqələrini daha da inkişaf etdirmək.

Göstərilən vəzifələrin həlli, şübhəsiz ki, Mərkəzi Elmi Kitabxananın metodik fəaliyyətinin məzmun və təşkilatçılıq baxımından daha yüksək səviyyədə həyata keçirilməsi zərurətini irəli sürürdü.

Bunun üçün kitabxana artıq xeyli informasiya bazasına, kadr potensialına və müəyyən təcrübəyə malik idi. Əvvəlki illərdən fərqli olaraq müəyyən təşkilati-metodik tədbiri həyata keçirmək üçün mərkəzi kitabxananın elmi-metodik şö'bəsi artıq öz kadrlarından başqa kitabxananın digər şö'bələrində çalışan, son illərdə kitabxanaya də'vət olunmuş təcrübəli mütəxəssislərin də potensial imkanlarını nəzərə alırdı. Belə ki, 1969-cu ildən başlayaraq Mərkəzi Elmi Kitabxananın bütün şö'bələri, xüsusən komplektləşdirmə, kataloqlaşdırma, oxuculara xidmət, mə'lumat- biblioqrafiya, fondun mühafizəsi şö'bələri metodik fəaliyyətə cəlb edilmişdi. Onların metodik işləri mərkəzi kitabxananın elmi-metodik fəaliyyətinin kompleks planına daxil olub elmi-metodik şö'bə tərəfindən əlaqələndirilir və kitabxana rəhbərliyinin nəzarətində saxlanılırdı. Bundan başqa, 1961-1967-ci illər ərzində metodik şö'bənin nəzdində ölkə və dünya kitabxanaşünaslıq fikrini, o cümlədən, elmi-metodik fəaliyyətə dair qabaqcıl iş təcrübəsini əks etdirən kitabxanaşünaslıq ədəbiyyatı fondu və onun mə'lumat-axtarış sistemi yaradılmışdı. Burada Azərbaycan, rus və xarici dillərdə kitabxanaşünaslıq, biblioqrafiya və elmi-informasiya problemlərinə dair 4 minə yaxın müxtəlif sənəd toplanmışdı.[246]

60-cı illərin sonu - 70-ci illərin əvvəllərində Mərkəzi Elmi Kitabxananın elmi-metodik fəaliyyətinin mühüm istiqamətlərini belə qruplaşdırmaq olar:

1.EA-da aparılan elmi-tədqiqatların kitabxana-informasiya tə'minatına yönəlmiş mühüm iş proseslərinə dair metodik sənədlərin: vəsaitlərin, tə'limatların, tövsiyələrin hazırlanması;

2.Mərkəzi Elmi Kitabxananın funksional şö'bələrinə və elmi-tədqiqat müəssisələrinin kitabxanalarına yerlərdə əməli köməklik;

3.Kitabxana işçilərinin peşə səviyyəsinin yüksəldilməsinə yönəldilmiş seminar və təcrübi məşğələlərin, eləcə də müşavirə və konfransların təşkili;

4.Ayrı-ayrı elmi-tədqiqat müəssisələri kitabxanalarının fəaliyyətinin kompleks şəkildə öyrənilib ümumiləşdirilməsi, onların işinin təkmilləşdirilməsinə yönəlmiş tövsiyələrin hazırlanması və icrasına nəzarət edilməsi;

5.SSRİ-nin qabaqcıl metodik mərkəzlərinin iş təcrübəsinin öyrənilməsi və EA sistemində tətbiq edilməsi;

6.Mərkəzi Elmi Kitabxananın metodik fəaliyyətinin respublikanın digər metodik mərkəzləri ilə əlaqələndirilməsi;

7.Elmi-metodik şö'bənin nəzdindəki kitabxanaşünaslıq ədəbiyyatı fondunun müntəzəm surətdə zənginləşməsi, kitabxana işçiləri tərəfindən həmin sənədlərin istifadəsinin tə'min edilməsi.

Bu dövrdə elmi-metodik şö'bənin tərtib etdiyi metodik vəsaitlər içərisində

[246] EA Mərkəzi Elmi Kitabxanasının arxivi. Mərkəzi Elmi Kitabxanın 1967-1969-cu il hesabatları.

«Elmi-tədqiqat müəssisələrində kitabxanalar ilə informasiya orqanlarının əlaqəli fəaliyyəti» (1969), «Kitabxanalarda əməyin elmi təşkili» (1970), «Elmi-tədqiqat müəssisələri kitabxanalarında kataloq sisteminin təşkili» (1971)[247] adlı vəsaitlər öz məzmunu və tərtibi metodikası baxımından respublikada kitabxanaşünaslıq fikrinin inkişafında əlamətdar hadisələr kimi qiymətləndirilə bilər.

Mərkəzi Elmi Kitabxananın metodik fəaliyyətində ayrı-ayrı akademiya sistemi kitabxanalarının işinin kompleks təhlilinə də xüsusi diqqət yetirilirdi. Belə ki, 1970-1972-ci illərdə kitabxananın metodistləri tərəfindən Genetika və Seleksiya, Riyaziyyat və Mexanika institutları kitabxanalarının fəaliyyəti hərtərəfli yoxlanılmış, yoxlamanın nəticələri müvafiq institutların elmi şuralarında müzakirə edilmişdi.[248]

Qeyd etmək lazımdır ki, belə kompleks yoxlamalar və nəticələr, bu və ya digər kitabxananın fəaliyyətində müəyyənləşdirilmiş, nöqsanlar, eləcə də həmin nöqsanların aradan qaldırılmasına dair konkret tövsiyələr, onların icra mexanizmi və icra müddəti, nəhayət, bu işlərə nəzarətin həyata keçirilməsi müvafiq kitabxanaların işinin yüksək səviyyəyə qaldırılmasını tə'min edirdi. Məsələn, 1970-ci ilin mart ayında EA Genetika və Seleksiya İnstitutunun kompleks yoxlanılması zamanı olduqca ciddi nöqsanlar meydana çıxdı, o cümlədən, institut kitabxanasının işində də bir sıra çatışmazlıqlar müəyyənləşdirildi. Mə'lum oldu ki, 40 min nüsxə fondu olan bu kitabxanada fondun düzülüşü, kataloq sisteminin quruluşu, elmi-informasiya işi, yeni ədəbiyyatın alınması, oxuculara xidmət, kitabxanadan alınmış ədəbiyyatın qaytarılması və s. proseslərin həyata keçirilməsi, həmçinin institut rəhbərliyi tərəfindən kitabxanaya nəzarət və köməklik yarıtmaz vəziyyətdədir.

İnstitutun elmi şurasında bu məsələnin müzakirəsi metodistlər tərəfindən tərtib edilmiş tövsiyələrin qəbul edilməsi ilə nəticələndi.

Sonrakı iki il ərzində metodistlərin bilavasitə iştirakı ilə müvafiq tövsiyələrin həyata keçirilməsi Genetika və Seleksiya İnstitutu kitabxanasının qabaqcıllar sırasına çıxarılmasına mühüm tə'sir göstərdi.

70-ci illərdə belə kompleks yoxlamalar EA-nın Kibernetika, Fizika, Fiziologiya, Botanika və b. institutlarının kitabxanalarında da aparılmış və bu tədbirlərin müsbət nəticələri öz tə'sirini göstərmişdi.[249]

60-cı illərin sonu - 70-ci illərin əvvəllərində EA Mərkəzi Elmi Kitabxanasının metodik fəaliyyətində kitabxana işçilərinin ixtisas biliklərinin artırılması da diqqət mərkəzində idi.

1968-ci ildən elmi-metodik şö'bə mərkəzi kitabxananın işçiləri üçün ayda bir dəfə (hər ayın axırındakı sanitar günlərində) ixtisasartırma saatları təşkil etməyə başladı. Bu məşğələlərdə mərkəzi kitabxananın direktoru, elmi hissə üzrə direktor müavini, şö'bə müdirləri, digər məs'ul işçilər kitabxana işinin aktual problemlərinə dair mə'ruzə və çıxışlar edirdilər. Bunlara misal olaraq "Müasir kitabxanaşünaslıq problemləri" (mə'ruzəçi R.Kazımov), "Kitabxanaların komplektləşdirilməsinin müasir vəzifələri" (mə'ruzəçi M.Məmmədov), "Elmi kitabxanalarda mə'lumat-axtarış sistemlərinin təkmilləşdirilməsi" (mə'ruzəçi Ş.Kərimova), "Elmi kitabxanalarda elmi-texniki informasiya günlərinin təşkili" (mə'ruzəçi R.Qoydunova) və s.[250] mə'ruzə və çıxışları göstərmək olar.

Metodik şö'bə tərəfindən mərkəzi kitabxana işçiləri üçün həftəlik kitab icmalları da təşkil edilirdi. Hər cümə axşamı keçirilən belə icmallarda əməkdaşların elmi dünyagörüşünü zənginləşdirmək üçün kitabxanaya daxil olan yeni kitabların məzmunu açılırdı. Hər icmal orta hesabla 4-6 elmi kitabı əhatə edirdi. Təkcə 1970-ci ildə 46 kitabın icmalı keçirilmişdi.[251]

---

[247] EA Mərkəzi Elmi Kitabxanasının arxivi: Elmi-metodik şö'bənin 1961-1971-ci il hesabatları.

[248] Yenə orada, Elmi-metodik şö'bənin 1970-1972-ci il hesabatları.

[249] EA Mərkəzi Elmi Kitabxanasının 1970-1972-ci il hesabatları.

[250] [250] EA Mərkəzi Elmi Kitabxanasının arxivi: 1968-1972-ci il hesabatları.

[251] Yenə orada.

Bu dövrdə mərkəzi kitabxana EA kitabxana şəbəkəsi işçilərinin ixtisasının artırılması istiqamətində də səmərəli tədbirlər həyata keçirirdi. Belə tədbirlərə misal olaraq ayda 2 dəfə təşkil edilən seminar məşğələlərini, 3 aylıq ixtisasartırma kurslarını göstərmək olar. Əgər 2 həftədə bir dəfə təşkil edilən daimi seminarın mövzusu aktual məsələlərə həsr edilirdisə, 3 aylıq kurslar isə müəyyən bir problem üzrə kitabxana işçilərinin nəzəri və təcrübi biliklərini əsaslı surətdə dərinləşdirmək məqsədi daşıyırdı.

70-ci illərdə təşkil edilmiş 3 aylıq ixtisasartırma kurslarının mövzularına "Elmi kitabxanalarda KBT-nin tətbiqi", "Kitabxanalarda elmi-texniki informasiya xidmətinin təşkili", "Çap əsərlərinin yeni dövlət standartına müvafiq təsvir qaydaları" və s. daxil idi.[252]

70-ci illərin əvvəllərində SSRİ-də müxtəlif kitabxana şəbəkələrinin vahid sisteminin formalaşması, nazirlik, idarə və müəssisələrin nəzdində mərkəzləşdirilmiş kitabxana sistemlərinin yaradılması fikri yayılmışdı.

Ölkədə şəbəkədaxili və şəbəkələrarası (sahəvi və sahələrarası) mərkəzləşdirilmiş kitabxana sistemlərinin yaradılması zərurəti kitabxanaşünaslıq mətbuatında bir sıra tarixi, nəzəri və metodik müddəalarla əsaslandırılırdı. Bu təşəbbüsdə eyni zamanda inkişaf etmiş xarici ölkələrin kitabxana şəbəkələrinin təşkili təcrübəsinə də isnad edilirdi.

Mərkəzləşdirilmiş kitabxana sistemi dedikdə struktur cəhətdən bütöv, təşkilati, iqtisadi, ümumi fond və texnologiya baxımından vəhdət təşkil edən kitabxanalar birliyi, bir-biri ilə üzvi əlaqədə olan kitabxana-informasiya kompleksi nəzərdə tutulurdu.

Beləliklə, mərkəzləşdirilmiş kitabxana sistemləri bir-birindən təcrid olunmuş, pərakəndə şəkildə fəaliyyət göstərən kitabxanalar əvəzinə vahid proqram əsasında inkişaf edən, müasir kitabxanaçılıq metodikasına söykənən mütəşəkkil kitabxana qurumlarının formalaşmasını və bununla da oxuculara xidmət işinin səmərəsinin yüksəldilməsini nəzərdə tuturdu.

Bu məqsədlə 70-ci illərin əvvəllərində ayrı-ayrı kitabxana şəbəkələrində eksperimentlər aparılır, mərkəzləşdirilmiş kitabxana sistemlərinin fəaliyyət mexanizminin metodik bazası yaradılırdı. Bir qədər sonra - 1974-cü ilin may ayında Sov.İKP MK-nın "Zəhmətkeşlərin kommunist tərbiyəsində və elmi-texniki tərəqqidə kitabxanaların rolunu artırmaq haqqında"[253] qərarı ilə mərkəzləşdirilmiş kitabxana sistemlərinin təşkili üzrə hüquqi sənəd qəbul olundu. 1970-ci ildə (15-20 sentyabr) Sankt-Peterburq (Leninqrad) şəhərində SSRİ EA kitabxana şəbəkələri direktorlarının Ümumittifaq müşavirəsi ölkədə akademiya kitabxanalarının mərkəzləşdirilmiş sistemlərinin yaradılması haqqında xüsusi qərar qəbul etdi. Qərarda göstərilirdi ki, müttəfiq respublika EA-ları elmi-tədqiqat institutlarının kitabxanaları mərkəzi kitabxananın filiallarına çevrilməli və EA nəzdində mərkəzləşdirilmiş qaydada fəaliyyət göstərən vahid kitabxana sistemləri yaradılmalıdır.

Beləliklə, Azərbaycan EA sistemində vahid mərkəzləşdirilmiş kitabxana sisteminin yaradılması üçün kifayət qədər hüquqi baza var idi. Bununla əlaqədar əsas vəzifə mərkəzləşdirilmiş kitabxana sisteminin formalaşmasının metodik bazasını yaratmaq idi.

Qeyd etmək lazımdır ki, 70-ci illərin əvvəllərində respublika EA sistemində geniş informasiya potensialına malik, oxuculara xidmət işində əhəmiyyətli təcrübə qazanmış kitabxana şəbəkəsi mövcud idi. Buraya ümumi kitab fondu 1,5 milyon nüsxəyə yaxın olan, 8 min oxucuya xidmət edən 20 elmi-tədqiqat institutu daxil idi.[254] EA kitabxana şəbəkəsinin mərkəzləşdirilməsinin həyata keçirilməsi üçün əsas

---

[252] EA Mərkəzi Elmi Kitabxanasının 1970-1972-ci il hesabatları.
[253] Kommunist.-1974.-28 may.
[254] EA Mərkəzi Elmi Kitabxanasının 1970-1972-ci il hesabatları.

vəzifə "EA mərkəzləşdirilmiş kitabxana sisteminin əsasnaməsi"nin hazırlanması idi. Bu sənəd kitabxananın elmi-metodik şö'bəsi tərəfindən 1972-ci ilin sentyabr ayında hazırlandı və EA Rəyasət Hey'ətinə təqdim edildi.

Qeyd etmək lazımdır ki, "Əsasnamə"nin tərtib edilməsi EA sistemindəki kitabxanaların mərkəzləşdirilmiş qaydada fəaliyyətinin bir sıra mühüm hüquqi, təşkilati, metodik və inzibati məsələlərinin həllini tələb edirdi. Bu baxımdan "Əsasnamə" hazırlanarkən təqribən 10 ay ərzində xeyli sənəd təhlil edilmiş, təcrübəli metodistlərin Moskva və Leninqrad şəhərlərindəki metodik mərkəzlərə e'zamiyyələri təşkil olunmuş, əsasnamənin layihəsi Mərkəzi Elmi Kitabxananın elmi-metodik şurasında dəfələrlə müzakirə edilmişdi. "Əsasnamə" üç hissədən ibarət idi:

1.Ümumi məsələlər. Mərkəzləşdirilmiş kitabxana sistemlərinə daxil olan kitabxanaların vəzifələri və funksiyaları.

2.Mərkəzləşdirilmiş kitabxana sisteminin vahid fondu və onun komplektləşdirilməsi.

3.Mərkəzləşdirilmiş kitabxana sistemlərinin idarə edilməsi.

Göstərilən bölmələrdə EA mərkəzləşdirilmiş kitabxana sistemi daxilində fəaliyyət göstərən mərkəzi kitabxana və filialların yeni şəraitdə vəzifələri, həyata keçirdikləri funksiyalar, elmi işçilərə xidmətin forma və üsulları, onlarının fondunun formalaşması qaydaları, filial kitabxanaları ilə mərkəzi kitabxananın əlaqələri, mərkəzi kitabxana sisteminin maliyyələşdirilməsi, kadr tə'minatı, bütövlükdə inzibati və metodik baxımdan idarə olunması prinsipləri tənzimlənirdi.

"Əsasnamə" 1973-cü il iyunun 15-də EA Rəyasət Hey'əti tərəfindən qəbul edildi.[255] 1974-cü ildən EA sistemində mərkəzləşdirilmiş kitabxana sistemi fəaliyyətə başladı və bununla da EA-nın kitabxana şəbəkəsinin metodik tə'minatında mütərəqqi dəyişikliklər baş verdi.

### *Kənd təsərrüfatı kitabxanalarının metodik tə'minatı*

50-ci illərin sonu - 60-cı illərin əvvəllərində respublikada kitabxana işinin elmi metodik tə'minatı müxtəlif kitabxana şəbəkələrində eyni vəziyyətdə və eyni dərəcədə səmərəli deyildi. Məsələn, texniki və ya EA kitabxana şəbəkələrində elmi-metodik işlər məzmun, forma və təşkilati baxımdan əsasən dövrün tələbləri səviyyəsində olduğu halda, kənd təsərrüfatı, təhsil sistemi və uşaqlara xidmət edən kitabxanalar şəbəkəsində bu iş dövrün tələblərindən geri qalırdı.

Şübhəsiz ki, hər bir kitabxana şəbəkəsinin metodik tə'minatının vəziyyəti ilk növbədə həmin şəbəkənin metodik mərkəzi sayılan kitabxananın kadr potensialından, maddi-texniki bazasından, işçilərin təcrübəsindən, həmçinin hər bir şəbəkənin tabe olduğu nazirlik, komitə və digər təşkilatın kitabxana işinə göstərdiyi qayğıdan asılı idi. Çox təəssüf ki, bu dövrdə respublikanın müxtəlif idarə və təşkilatlarında kitabxana işinə diqqət və qayğı bir-birindən kəskin surətdə fərqlənirdi. Respublikada fəaliyyət göstərən kənd təsərrüfatı kitabxanalarının vəziyyəti, onun elmi-metodik tə'minatı olduqca zəif idi. 50-ci illərin sonunda hərtərəfli inkişaf edən geniş aqrar kompleksinə malik Azərbaycan Respublikasında cəmi 3 kənd təsərrüfatı kitabxanası fəaliyyət göstərirdi ki, bu kitabxanaların ümumi fondu 390 minə yaxın çap vahidindən ibarət idi.[256] Ümumi kitab fondunun yarıdan çoxu Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanasının və Gəncədə yerləşən Kənd Təsərrüfatı İnstitutu (indiki Kənd Təsərrüfatı Akademiyası) Kitabxanasının payına düşürdü. Digər kənd təsərrüfatı kitabxanaları əsasən elmi tədqiqat müəssisələrində, kənd təsərrüfatı kadrları hazırlayan orta ixtisas məktəblərində, habelə sovxozlarda və bə'zi təcrübə stansiyalarında təşkil

---

[255] Azərbaycan Respublikası Elmlər Akademiyası Rəyasət Hey'ətinin qərarı.- 1973.- 15 iyun, № 24.
[256] Xələfov A.A. Azərbaycanda kitabxana işinin tarixi (1933-1958).-B.,1974.-S.239.

edilmişdi.

Kənd təsərrüfatı kitabxanalarına metodik rəhbərlik işinin 60-cı illərin ortalarına qədərki zəif inkişafının əsas səbəblərindən biri Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanasının kitabxana işi üçün tamamilə yararsız olan kənd təsərrüfatı muzeyinin darısqal bir sahəsində yerləşməsi, kitabxana işçilərinin sayca azlığı (cəmi 20 nəfər), xüsusilə kitabxananın nəzdində xüsusi metodik şö'bənin olmaması idi.

Kənd təsərrüfatı kitabxanalarının metodik tə'minatında canlanma 1966-cı ildə Respublika Kənd Təsərrüfatı Kitabxanasının yeni binaya köçməsi və kitabxananın ştat cədvəlində metodist ştatının ayrılması ilə başladı. Bununla əlaqədar kitabxanalara vaxtaşırı gedişlər və kitabxanaçıların bilavasitə iş yerlərində tə'limatlandırılması təcrübəsinin əsası qoyuldu. 1966-1970-ci illərdə kənd təsərrüfatı kitabxanalarına 46 gediş təşkil edilmiş, kitabxana işçilərinə 214 məsləhət verilmiş, onlar üçün mərkəzi kitabxanada 12 seminar təşkil edilmişdi.[257] Bu tədbirlər planlı və müntəzəm xarakter daşımış, elmi-metodik baxımdan kifayət qədər əsaslandırılmış və nəticədə nəzərə çarpan səmərə vermişdi.

Respublika Kənd Təsərrüfatı Kitabxanasının yeni binası əvvəlkinə nisbətən geniş olsa da, müəyyən avadanlıqlarla təchiz edilsə də, kitabxananın hərtərəfli fəaliyyətini tə'min etmirdi. Odur ki, 70-ci illərin əvvəllərində kitabxananın yeni bina ilə tə'min edilməsi məsələsi ortaya çıxdı. 1974-cü ilin oktyabr ayında kitabxana üçün geniş şəraitə malik olan bina ayrıldı.

Respublika Kənd Təsərrüfatı Kitabxanasının elmi-metodik tə'minatı sahəsindəki fəaliyyətindəki canlanma, kəmiyyət və keyfiyyət dəyişmələrinin əsası da elə həmin ildən başlayır. Belə ki, kitabxananın elmi metodik tə'minat fəaliyyətinə xüsusi diqqət yetirildi, ştat vahidlərinin sayı artırıldı. Metodik şö'bə SSRİ-də kənd təsərrüfatı kitabxanaları üzrə metodik mərkəz rolunu oynayan Ümumittifaq Kənd Təsərrüfatı EA-nın Mərkəzi Elmi Kənd Təsərrüfatı Kitabxanası ilə elmi metodik əlaqələri genişləndirməyə başladı. Bu məqsədlə Respublika Kənd Təsərrüfatı Kitabxanasının işçiləri e'zamiyyələrdə olub mütərəqqi iş üsullarını öyrənirdilər. 1974-75-ci illərdə Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanasının metodik fəaliyyəti aşağıdakı istiqamətlərdə həyata keçirilirdi:

-kənd təsərrüfatı kitabxanalarının hesabatlarının təhlili və respublika üzrə vahid hesabatın hazırlanması;

-kitabxanalara gedişlər və kitabxana işçilərinə yerlərdə metodik məsləhətlərin verilməsi;

-kitabxana işçiləri üçün aylıq seminar məşğələlərinin təşkili;

-müxtəlif mövzular üzrə vəsaitlər və metodik məktubların hazırlanması və yerlərə göndərilməsi.

Qeyd etməliyik ki, Gəncə şəhəri istisna olmaqla, bu illərdə Respublika Kənd Təsərrüfatı Kitabxanasının metodik fəaliyyəti əsasən Bakı şəhəri və Abşeronda yerləşən kitabxanalarla məhdudlaşdırılırdı.

1974-1975-ci illərdə Respublika Kənd Təsərrüfatı kitabxanasının metodik fəaliyyətində nisbətən mütərəqqi iş növü kitabxana işçiləri üçün aylıq seminarların təşkili oldu. Belə ki, Bakı şəhəri kənd təsərrüfatı kitabxanalarının iştirakı ilə 16 seminar məşğələsi keçirilmişdi.[258] Məşğələlərin mövzularına nümunə olaraq «Kənd təsərrüfatı mütəxəssislərinə mə'lumat-biblioqrafiya xidmətinin təşkili», «Zona təcrübə məntəqə işçilərin kitabxana xidmətinin vəziyyəti və yaxşılaşdırılması yolları», «Kənd təsərrüfatı kitabxanalarının fondunun Azərbaycan dilində nəşr edilən ədəbiyyatla komplektləşdirilməsi məsələləri» və s. göstərmək olar.[259]

Rayonlardakı kitabxana işçiləri üçün isə vaxtaşırı zona və rayonlararası semi-

---

[257] Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanasının 1966-1970-ci il hesabatları.

[258] Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanasının 1971-1975-ci il hesabatları.

[259] Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanasının. 1974-1975-ci illərə dair metodik materiallar qovluğu.-S.14-22.

nar-müşavirələr keçirilirdi. Təkcə həmin dövrdə Gəncə, Şəki, Zaqatala, Sabirabad və Lənkəranda 6 seminar-müşavirə təşkil edilmişdi.[260] Bu tədbirlərdə respublikanın kənd təsərrüfatı kitabxanalarının ümumi icmalı verilir, mütəxəssislərə xidmət işinin aktual məsələlərindən bəhs edilirdi. Belə zona və rayonlararası müşavirələrin əsas mahiyyəti yerli vəziyyətlə yaxından tanış olmaqdan, oxucularla işdə əldə edilmiş nailiyyətlər ətrafında təcrübə mübadiləsi aparmaqdan ibarət idi. Orada kənd təsərrüfatı kitabxanalarının əməkdaşları ilə yanaşı, həmin ərazidə yerləşən dövlət kütləvi kitabxanalarının işçiləri də fəallıq göstərirdilər. Müvafiq rayonun kənd təsərrüfatı ilə məşğul olan rəhbər işçilərinin, tanınmış istehsalat nümayəndələrinin yaxından iştirakı həmin tədbirlərin gedişini daha məqsədyönlü edir, kitabxana işçilərinin fəaliyyətini konkret vəzifələrin həllinə istiqamətləndirirdi.

Qeyd etmək lazımdır ki, 70-ci illərin əvvəllərində Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanası yeni bina ilə tə'min edildikdən sonra metodik iş sahəsində əsaslı dönüş yarandı. Xüsusilə kitabxana fondlarının komplektləşdirilməsinin optimallaşdırılmasında, kataloq-kartoteka sisteminin yaxşılaşdırılmasında, elmi işçilərə və kənd təsərrüfatı mütəxəssislərinə informasiya xidmətinin təşkilində və s. məsələlərdə bir sıra yeniliklər tətbiq edilməyə başlandı. Təbii ki, kitabxananın metodik fəaliyyətini səmərəli təşkil etmək üçün ilk növbədə onun bütün şö'bələrinin işi məzmun, təşkilati və texnoloji baxımdan optimalaşdırılmalı, kitabxananın hər bir şö'bəsində çalışan işçilər metodist səviyyəsinə yüksəlməli və kənd təsərrüfatı kitabxanaları şəbəkəsində təşkilati-metodik işləri həyata keçirmək üçün nəzəri, metodik və təcrübi biliklərə malik olmalı idilər. Bu vəzifələrin yerinə yetirilməsi üçün yeni direktor Ofelya Məmmədova Respublika Kənd Təsərrüfatı Kitabxanasının metodik mərkəz kimi formalaşmasına gərgin əmək sərf etmiş, bütün təcrübəli işçiləri kitabxanadaxili metodik fəaliyyətə cəlb etmişdi. Kitabxananın əməkdaşları tez-tez aktual məsələlərə dair mə'ruzə və icmallarla çıxış edirdilər. «Elmi işçilərə informasiya xidməti», «Kitabxanalarda mövzu sərgilərinin təşkili», «Kitabxanalarda informasiya günlərinin təşkili», «Kitabxanalarda kənd təsərrüfatına dair qabaqcıl təcrübənin təbliği» və s. mövzularda çıxışları buna misal göstərmək olar.[261]

1974-1975-ci illərdə Respublika Kənd Təsərrüfatı Kitabxanası şəbəkə kitabxanaları üçün tə'limati-metodik xarakterli bir sıra mühüm sənədlər hazırlamışdır. Bunlardan «Kitabxanalarda mütəxəssis günlərinin təşkili», «Kitabxanada patentlər və müəllif şəhadətnamələri ilə işin təşkili», «Kitabxanalarda kənd təsərrüfatı ədəbiyyatının icmalının təşkili», «Kənd təsərrüfatı mütəxəssislərinə kitabxana-informasiya xidmətində universal və kənd təsərrüfatı kitabxanalarının birgə fəaliyyəti» və s. sənədləri göstərmək olar.[262]

Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanasının 1974-cü ilin noyabrında Ümumittifaq Kənd Təsərrüfatı EA-nın Mərkəzi Elmi Kənd Təsərrüfatı Kitabxanası ilə birlikdə təşkil etdiyi Zaqafqaziya kənd təsərrüfatı kitabxanaları işçilərinin seminar-müşavirəsi xüsusi əhəmiyyət kəsb etmişdir.[263] Seminar-müşavirədəki mə'ruzə və çıxışlarda kənd təsərrüfatı mütəxəssislərinə kitabxana xidmətinin vəzifələrindən, bu sahədə əldə edilmiş nailiyyətlərdən, qazanılmış mütərəqqi iş üsullarından və mövcud çətinliklərdən bəhs edildi. Seminar-müşavirə Zaqafqaziya kənd təsərrüfatı kitabxanalarının fəaliyyətinin təkmilləşdirilməsinə dair geniş proqram qəbul etdi. Bu yekun sənədin ilkin layihəsini Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanasının işçiləri hazırlamışdılar. Sənəddə kənd təsərrüfatı kitabxanalarının fondunun komplektləşdirilməsi, kataloq sisteminin təşkili, kənd təsərrüfatı mütəxəssislərinə kitabxana-informasiya xidmətinin optimallaşdırılması vəzifələri öz əksini tapmışdı.

Elmi-metodik və təşkilati baxımdan yüksək səviyyədə təşkil edilmiş bu semi-

---

[260] Сводный отчет РНСХБ за 1974 и 1975 годы.
[261] Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanasının 1974-1975-ci il hesabatları.
[262] Yenə orada.
[263] Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanasının 1974-1975-ci il hesabatları.

nar-müşavirə Respublika Kənd Təsərrüfatı Kitabxanasının metodik mərkəz kimi formalaşmasında irəliləyiş idi.

70-ci illərin birinci yarısında Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanasının ümumi fəaliyyətinin təkmilləşdirilməsi, oxuculara xidmət işində bir sıra nailiyyətlər qazanılması, şübhəsiz ki, ilk növbədə kitabxana işinin müvafiq elmi-metodik əsaslarla təşkil edilməsinin nəticəsi idi. Bunu kitabxananın həmin illərdəki fəaliyyətinə dair statistik rəqəmlərdən də görmək olar. Belə ki, 1966-cı ildə kitabxana fondunun həcmi 121.562 nüsxə olduğu halda, 1971-ci ildə bu rəqəm 150.374-ə, 1976-cı ildə isə 177.464-ə çatmışdı. 1966-1970-ci illərdə kitab verilişi 104.534 nüsxə olduğu halda, 1971-1975-ci illərdə 131.229 nüsxəyə çatmışdı.

Həmin dövrdə kitabxana fondunun ümumi həcmində kənd təsərrüfatı ədəbiyyatının xüsusi çəkisi getdikcə artırdı. Belə ki, 1966-cı ildə kənd təsərrüfatı ədəbiyyatının verilişi 16.201 nüsxə olduğu halda, 1975-ci ildə bu rəqəm 22.460 nüsxəyə çatmışdı. Kənd təsərrüfatına yaxın elm sahələri üzrə (biologiya, kimya, texnika və s.) 1972-ci ildə cəmi 1096 nüsxə ədəbiyyat verilmişdisə, 1975-ci ildə bu rəqəm 12460 nüsxə təşkil edirdi.[264]

Bütün bunlar və digər göstəricilər Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanasının 60-70-ci illərdə tədricən şəbəkənin baş kitabxanasına və metodik mərkəzə çevrilməsini sübut edən amillər idi.

### *Uşaq kitabxanalarının metodik tə'minatı*

50-ci illərin sonu - 60-cı illərin birinci yarısında respublikamızın uşaq kitabxanalarının metodik tə'minatı tənəzzül keçirirdi. Bu tənəzzül ilk növbədə respublika miqyasında uşaq kitabxanalarının metodik tə'minatı sistemindəki boşluqla izah edilirdi. Belə ki, bu dövrdə uşaq kitabxanalarının metodik tə'minatını təşkil edən və əlaqələndirən metodik mərkəz yox idi. Bu isə təkcə uşaq kitabxanalarının işinə deyil, eyni zamanda məktəb və kütləvi kitabxanalarda aparılan tərbiyə işlərinə, yeniyetmələrin mütaliə mədəniyyətinin inkişafında iştirak edən digər kitabxanaların fəaliyyətinin elmi-metodik əsaslarla həyata keçirilməsinə mənfi tə'sir göstərirdi. Uşaq kitabxanalarının fəaliyyətini istiqamətləndirən tə'limati-metodik vəsaitlər, bu sahədə metodik tədbirlərin, o cümlədən, müşavirə və seminarların, ixtisasartırma kursları və məşğələlərin təşkili, qabaqcıl təcrübənin öyrənilməsi, respublikada uşaqlara kitabxana xidmətinin kompleks şəkildə həyata keçirilməsi yox dərəcəsində idi.

60-cı illərin əvvəllərində Azərbaycanda 88 müstəqil uşaq kitabxanası var idi.[265] Bundan başqa, 200-ə qədər dövlət kütləvi kitabxanasının nəzdində uşaq şö'bələri, kənd kitabxanalarının əksəriyyətində uşaq ədəbiyyatı fondu formalaşmışdı və bu kitabxanalarda uşaqlarla müəyyən işlər aparılırdı. Bu dövrdə Bakı şəhərində fəaliyyət göstərən 22 müstəqil uşaq kitabxanasının fəaliyyətinin metodik tə'minatı V.Q.Belinski adına (hazırda Mir Mehdi Seyidzadə) Bakı şəhər Mərkəzi Uşaq Kitabxanası tərəfindən, digər şəhər və rayon uşaq kitabxanalarının metodik fəaliyyətinin tə'minatı isə rayonların mədəniyyət şö'bələri tərəfindən həyata keçirilirdi. Lakin şəbəkə üzrə metodik şö'bə və ya qruplar olmadığına görə onların metodik fəaliyyəti sistemsiz və təşkilati baxımdan qeyri - mütəşəkkil idi. Uşaq kitabxanalarının metodik tə'minatı xüsusən kənd rayonlarında yarıtmaz idi.

Beləliklə, 60-cı illərin birinci yarısında uşaq kitabxanalarına metodik rəhbərlik mahiyyət e'tibarı ilə vahid və bütöv sistem kimi təşəkkül tapmamışdı. Bu baxımdan 1965-ci ildə Azərbaycan Respublikası Nazirlər Sovetinin qərarı ilə Respublika Uşaq Kitabxanasının yaradılması uşaqlara kitabxana xidmətinin və onun metodik tə'minat

---

[264] Rəqəmlər Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanasının 1966-1975-ci illərə dair hesabat sənədlərindən götürülmüşdür.
[265] Azərbaycan Respublikası MD arxivi, f.13, iş 43, v.124-126

sisteminin formalaşmasında irəliyə atılmış ciddi addım oldu.

Görkəmli alim və maarifçi Firidun bəy Köçərlinin adını daşıyan Respublika Uşaq Kitabxanasının yaradılması nəticəsində uşaqlara kitabxana xidmətinin ümumrespublika metodik mərkəzi meydana gəldi, uşaqlara xidmət edən digər kitabxanalara, o cümlədən, 3 mindən çox məktəb kitabxanasına metodik rəhbərlik tə'min edildi.

Respublikada uşaq kitabxanalarının fəaliyyətini metodik cəhətdən tənzimləyən mərkəzin yaradılması uşaqlara xidmət edən kitabxanaların təşkilati-metodik problemlərinin vahid qaydada həllini tə'min etməkdən, eyni zamanda ayrı-ayrı kitabxanaların qabaqcıllar səviyyəsinə qaldırılmasına kömək etməkdən ibarət idi.

Nəhayət, uşaq kitabxanaları üçün metodik mərkəzin yaradılması ölkədə uşaqlara kitabxana xidmətinin inkişaf perspektivlərinin elmi konsepsiyasının yaradılmasına, bu işə xidmət edən bütün kitabxanaların fəaliyyətinin əlaqələndirilməsinə və tam bir sistem kimi fəaliyyət göstərməsinə hüquqi, nəzəri, metodik və təşkilati zəmin yaradırdı.

Qeyd etmək lazımdır ki, F.Köçərli adına Respublika Uşaq Kitabxanasının metodik fəaliyyətini səmərəli təşkil etmək üçün kifayət qədər şərait yaradılmış, bu məqsədlə 4 nəfərdən ibarət ştatı olan metodik şö'bə təşkil edilmişdi. Kitabxanada cəmi 23 nəfər ali kitabxanaçılıq təhsili olan işçi çalışırdı və onlar metodik işin həyata keçirilməsində uşaq kitabxanalarına yaxından köməklik göstərirdilər.

Əvvəllər Respublika Maarif Nazirliyində və Nazirlər Soveti yanında Mədəni Maarif İşləri Komitəsində metodist kimi çalışmış, 1959-1965-ci illərdə M.F.Axundov adına Respublika Dövlət Kitabxanasının elmi-metodik şö'bəsinin müdiri vəzifəsində işləmiş təcrübəli kitabxanaşünas, respublikanın əməkdar kitabxanaçısı Həsənağa Rzaquliyev şö'bənin rəhbəri vəzifəsinə də'vət edilmişdi.

Bu dövrdə yerlərə e'zamiyyələr təşkil etmək üçün kifayət qədər vəsait var idi. Belə ki, 60-cı illərdə bu məqsədlə kitabxanaya hər il 1000 manat həcmində vəsait ayrılırdı[266] (o dövr üçün bu, böyük məbləğ idi). 60-cı illərin ikinci yarısında uşaq kitabxanalarının metodik tə'minat sisteminin inkişaf konsepsiyası müəyyənləşdirilərkən çox düzgün qeyd olunmuşdu ki, əsas vəzifə respublikada uşaqlara kitabxana xidmətinin sistemli formalaşmasından ibarət olmalı və bu sistemin mühüm tərkib hissəsini şəhər və rayon mərkəzi uşaq kitabxanaları təşkil etməlidir. Çünki uşaqlara kitabxana xidmətinin metodik tə'minatı sistemi yalnız uşaq kitabxanalarının fəaliyyətini əhatə etməklə məhdudlaşa bilməzdi. Burada əsas problem uşaq mütaliəsi ilə məşğul olan digər kitabxanaların, o cümlədən, böyüklərlə yanaşı, uşaqlara da xidmət edən kütləvi kitabxanaların, kənd kitabxanalarının və məktəb kitabxanalarının metodik tə'minatının formalaşması idi.

Şübhəsiz ki, belə bir mühüm problemin həlli mütləq bu işə rayon və şəhər mərkəzi uşaq kitabxanalarını da cəlb etməyi tələb edirdi. Məhz bu səbəbdən Respublika Uşaq Kitabxanası öz fəaliyyətinin ilk illərində şəhər və rayon mərkəzi uşaq kitabxanalarının ayrı-ayrı regionlar üzrə metodik mərkəz kimi formalaşmasına xüsusi diqqət yetirirdi. Bu məqsədlə respublika kitabxanasının metodistləri və təcrübəli əməkdaşları şəhərlərə və rayon mərkəzlərinə çoxsaylı e'zamiyyələr təşkil edərək uşaqlara kitabxana xidmətinin metodik tə'minatının dayaq bazalarını yaratmağa başladılar. Təbii ki, belə dayaq bazaları müvafiq regionların mərkəzi uşaq kitabxanalarının əsasında təşkil edilirdi. Yalnız 1966-cı ildə belə e'zamiyyələrlə respublikanın 24 rayonu əhatə olunmuş, Ağcabədi, Ağsu, Astara, Bərdə, Quba, Qubadlı, Dəvəçi, Yevlax, Zəngilan, Zərdab, Kəlbəcər, Masallı, Mingəçevir, Naxçıvan, Şəki, Ucar, Xaçmaz, Şamaxı və s. rayon və şəhərlərdə dayaq bazaları yaradılmışdı.[267] Eyni zamanda həmin yerlərdə zona kitabxana işçilərinin seminar-müşavirəsi təşkil edilir və konkret olaraq «Mərkəzi rayon (şəhər) uşaq kitabxanası bölgədə uşaqlara kitabxana xidməti-

---

[266] F.Köçərli adına Respublika Uşaq Kitabxanasının 1966-1970-ci il hesabatları.
[267] F.Köçərli adına Respublika Uşaq Kitabxanasının 1966-cı il hesabatı.- S.12.

nin metodik mərkəzi kimi formalaşması vəzifələri» məsələsi müzakirə edilirdi. Geniş kitabxana ictimaiyyətinin iştirakı ilə keçirilən seminar-müşavirələrdə Respublika Uşaq Kitabxanasının əməkdaşları uşaqlara kitabxana xidmətinin metodik tə'minatının forma və metodları, metodik işin təşkili, qabaqcıl təcrübənin ümumiləşdirilməsi, uşaq kitabxanası işçilərinin ixtisasının artırılması və s. məsələlərə dair mə'ruzə və çıxışlar edir, kitabxana işçilərinə yerlərdə əməli köməklik göstərir və təlimatlar verirdilər. Rayonlarda keçirilən zona xarakterli bu tədbirlərdə ətraf bölgələrin kitabxanaçıları da iştirak edirdilər. Məsələn, 1966-cı ilin may ayında Xaçmaz rayonunda təşkil edilmiş seminar-müşavirəyə Quba, Dəvəçi və Qusar rayonlarından 140 nəfər kitabxana işçisi gəlmişdi.[268] Həmin ilin oktyabrında Masallı rayonunda keçirilmiş müşavirədə Cəlilabad (Astraxanbazar), Astara və Lənkəran rayonu kitabxana işçiləri də iştirak edirdilər.[269]

1966-1970-ci illərdə bu kimi seminar-müşavirələr 12 şəhər və rayonda - Bakı, Şəki, Şəmkir (Şamxor), Gəncə, Naxçıvan, Quba, Salyan, Xankəndi və s. yerlərdə ətraf rayonlar cəlb olunmaqla təşkil edilmişdi. Məsələn, 1969-cu ildə Naxçıvan şəhərində təşkil edilmiş seminar-müşavirədə Ordubad, Culfa, Babək (İliç), Şahbuz rayonlarından 200 nəfərədək kitabxana işçisi iştirak etmişdi.[270]

Ümumiyyətlə, 1966-1974-cü keçirilmiş 28 zona seminar-müşavirəsi 3200 nəfərdən artıq kitabxana işçisini və əksər rayonları əhatə etmişdi.[271]

Belə seminar-müşavirələrin əsas strateji əhəmiyyəti mərkəzi şəhər və rayon uşaq kitabxanalarını regionda uşaqlara kitabxana xidməti üzrə metodik mərkəz kimi formalaşdırmaqdan, müvafiq ərazidə fəaliyyət göstərən digər kitabxanaların işini canlandırmaqdan ibarət idi. Ona görə də burada uşaqların kitabxanalara cəlb edilməsi, onların mütaliəsinə rəhbərlik işində kitabxanaların fəaliyyətinin əlaqələndirilməsi, regionda yeniyetmələrə kitabxana xidmətinin vahid planının tutulması, uşaq mütaliəsini sistemli təşkil etmək məqsədilə müxtəlif tipli biblioqrafik vəsaitlərin tərtibi və istifadə edilməsi, kənd kitabxanalarının fəaliyyətində uşaqlara xidmət işinin müvafiq metodik əsasnamələrlə tə'min edilməsi, kitabxana fondlarının uşaq ədəbiyyatı ilə komplektləşdirilməsinin təkmilləşdirilməsi, onların maddi-texniki bazasının möhkəmləndirilməsi, bütün bu işlərdə mərkəzi uşaq kitabxanasının rolunun gücləndirilməsi, regionun rəhbər orqanlarının və ictimai təşkilatlarının uşaqlara kitabxana xidmətinin vəziyyətinə diqqətinin artırılması və s. kimi aktual məsələlər müzakirə edilir və tədbirlər müəyyənləşdirilirdi. Bu tədbirlərdə təcrübə mübadiləsinə də geniş yer verilir, uşaqlara xidmət sahəsində nailiyyətlər əldə etmiş kitabxanaların qabaqcıl təcrübəsi müzakirə obyektinə çevrilirdi. Ümumiyyətlə, bu müşavirələr sıravi kitabxana işçilərinin fəallığı şəraitində keçirdi. Məsələn, 1966-cı ilin oktyabrında Masallı rayonunda keçirilmiş zona müşavirəsində kənd kitabxanalarının 16 nəfər nüma-yəndəsi, Xaçmaz rayon müşavirəsində isə (1966, may) 14 kənd kitabxanası işçisi çıxış etmiş, uşaqlara xidmət işində qazandıqları təcrübə haqqında fikir mübadiləsi aparmışlar.[272]

F.Köçərli adına Respublika Uşaq Kitabxanası tərəfindən təşkil edilmiş bir sıra seminar-müşavirələr M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanası və digər metodik mərkəzlərlə əlaqəli şəkildə həyata keçirilirdi. Məsələn, 1969-cu ilin oktyabr ayında Respublika Uşaq Kitabxanası Azərbaycan Dövlət Kitabxanası ilə birlikdə Oğuz (Vartaşen) rayonunda Sovet Azərbaycanının 50 illiyi qarşısında 2 günlük seminar - müşavirə təşkil etmişdi.[273] Bu tədbir siyasi şüar altında keçsə də, burada uşaq-

---

[268] F.Köçərli adına Respublika Uşaq Kitabxanasının 1966-cı il hesabatı.- S.13.
[269] Yenə orada, S.13-14.
[270] Yenə orada.
[271] Yenə orada, 1966-1974-cü il hesabatları.
[272] F.Köçərli adına Respublika Uşaq Kitabxanası metodik şö'bəsinin arxivi:1966-cı il seminar-müşavirələri materialları qovluğu.- S.4, 16, 28.
[273] F.Köçərli adına Respublika Uşaq Kitabxanasının 1969-cu il hesabatı.- S.50.

lara kitabxana xidmətinin aktual məsələləri müzakirə edilmiş, uşaqlar arasında diyarşünaslıq biliklərinin təbliği, kənd kitabxanalarında uşaqlara xidmətin təkmilləşdirilməsi diqqət mərkəzinə çəkilmişdi. Seminar – müşavirədə eyni zamanda Qəbələ (Qutqaşen), Şəki, Zaqatala, Qax, Balakən, Yevlax, Mingəçevir uşaq kitabxanalarının işçiləri (cəmi 80 nəfər) iştirak edirdilər 2 gün ərzində mövzu ilə bağlı təcrübə mübadiləsi nəticəsində həm bir sıra kəndlərdə uşaqların kitabxanalara cəlb edilməsi vəziyyətinin yarıtmaz olduğu, həm də bu işdə əhəmiyyətli nailiyyətlər qazanmış kitabxanalar müəyyənləşdirildi, onların fəaliyyəti haqqında kitabxana ictimaiyyətinə ətraflı mə'lumat verildi.[274] Müşavirədə kənd yerlərində uşaqlara kitabxana xidmətinin yaxşılaşdırılmasına yönəlmiş tövsiyələr qəbul edildi. Bu tövsiyələrdə kənd kitabxanalarında uşaq şö'bələrinin yaradılması, kənd kütləvi kitabxanalarının məktəb kitabxanaları ilə əlaqəli fəaliyyəti, uşaqların vətənpərvərlik tərbiyəsinə diqqətin artırılması, onların diyarşünaslıq biliklərinin dərinləşdirilməsi ilə əlaqədar kitabxana işçilərinin qarşısında konkret vəzifələr qoyulurdu.

Həmin il Naxçıvan şəhərində keçirilən seminar-müşavirə muxtar respublikanın Mədəniyyət Nazirliyi ilə birlikdə təşkil edilmişdi. Formal olaraq V.İ.Leninin 100 illiyi və Sovet Azərbaycanının 50 illiyi şüarı altında keçirilən bu tədbir əslində məzmun e'tibarı ilə muxtar respublikada uşaqlara kitabxana xidmətinin aktual problemlərinə həsr edilmiş mö'təbər nəzəri-metodik yığıncaq idi. Naxçıvan kitabxana ictimaiyyətinin, həmçinin Qubadlı və Zəngilan kitabxanaçılarının iştirak etdiyi iki günlük müşavirədə Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin hazırladığı «Muxtar respublikada kitabxana işinin vəziyyəti və onun yaxşılaşdırılması tədbirləri haqqında» ümumi mə'ruzədən sonra bölgədə uşaqlara kitabxana xidmətinin vəziyyəti və onun kökündən təkmilləşdirilməsi problemi geniş müzakirə obyektinə çevrilmişdi. Burada «Uşaq kitabxanalarının komplektləşdirilməsi vəzifələri», Naxçıvan və Ordubad rayonlarında uşaqlara kitabxana xidməti məsələlərinə dair mə'ruzələr dinlənilmişdir. Müşavirədə 24 nəfər kitabxana işçisi çıxış edərək Culfa, Babək (İliç), Şahbuz, Ordubad, Zəngilan, Qubadlı rayonlarında uşaqların mütaliə mədəniyyətinin formalaşmasında kitabxanaların iş təcrübəsi, bu sahədə mövcud çatışmazlıqlar haqqında ətraflı fikir mübadiləsi aparmışdılar.[275] Sonra müşavirə iştirakçıları Naxçıvan və Ordubad uşaq kitabxanalarının fəaliyyəti ilə yerlərdə tanış olmuşdular.

Ümumiyyətlə, Respublika Uşaq Kitabxanası tərəfindən 1966-1974-cü illərdə keçirilmiş seminar-müşavirələrdə qəbul olunmuş qərarlarda uşaqlara kitabxana xidmətinin yaxşılaşdırılmasının cari vəzifələri, bölgədə kitabxana işinə vahid rəbhərlik sisteminin formalaşması, uşaqlara kitabxana xidmətinin kompleks planlarının tutulması, bu işə ictimai təşkilatların cəlb edilməsi, bu sahədə şəbəkələrarası qabaqcıl təcrübə mübadiləsinin təşkili, uşaq mütaliəsinə rəhbərlik edən kitabxana işçilərinin ixtisasının artırılması nəzərdə tutulur və onların icrasına nəzarət edilirdi.

F.Köçərli adına Respublika Uşaq Kitabxanasının ilk metodik fəaliyyətində yerlərə gedişlərə və kitabxanaçıların bilavasitə iş yerində tə'limatlandırılmasına xüsusi diqqət verilirdi. Bunu kitabxananın 1966-1974-cü illərdə e'zamiyyələrlə əhatə olunmuş rayonların sayına dair göstəriciləri sübut edir. Bu dövrdə respublikanın şəhər və rayonlarına gedişlərin ümumi sayı və kitabxanaların əhatəliliyi illər üzrə aşağıdakı kimidir:

1966-cı ildə –(96 kitabxanadan) 24-ü;
1967-ci ildə –(125 kitabxanadan) 33-ü;
1968-ci ildə –(116 kitabxanadan) 35-i;
1969-cu ildə – (114 kitabxanadan) 34-ü;
1970-ci ildə – (122 kitabxanadan) 33-ü;

[274] Yenə orada.-S.51.
[275] F.Köçərli adına Respublika Uşaq Kitabxanasının 1969-cu il hesabatı.-S.42.

1972-ci ildə – (106 kitabxanadan) 25-i;

1974-cü ildə – (108 kitabxanadan) 30-u əhatə olunmuşdur.[1]

Respublika Uşaq Kitabxanası öz fəaliyyətinin yalnız ilk beş ilində, yə’ni 1966-1970-ci illərdə respublikanın şəhər, rayon və kənd kitabxanalarına, o cümlədən, uşaq, kütləvi və məktəb kitabxanalarına 159 gediş təşkil edərək 604 tə’limati-metodik köməklik göstərmişdi. Təcrübəli əməkdaşların hər il respublikanın şəhər və rayonlarına e’zam edilməsi, kitabxanaçıların bilavasitə yerlərdə tə’limatlandırılması, kitabxana işçilərinə məsləhət və tövsiyələrin verilməsi, onlar üçün konkret məsələlər üzrə praktikumların təşkil edilməsi, şübhəsiz ki, uşaqlara kitabxana xidmətinin məzmun və forma baxımından daha səmərəli təşkilinə müsbət tə’sir göstərirdi.

Statistik rəqəmlərdən mə’lum olur ki, hər il belə e’zamiyyələrlə orta hesabla 30-35 kitabxana əhatə edilirdi. Gedişlər zamanı metodik tə’limatlandırma ilə təkcə müstəqil uşaq kitabxanaları deyil, həmçinin kənd və məktəb kitabxanaları da əhatə edilirdi. Məsələn, 1968-ci ildə təşkil edilmiş e’zamiyyələr zamanı 43 rayon mərkəzi uşaq kitabxanasına, 15 rayon məktəb kitabxanasına, 51 kənd kütləvi kitabxanasına və 7 kənd məktəb kitabxanasına metodik köməklik göstərilmişdi.[277] 1971-ci ildə şəhər və rayonlara 33 e’zamiyyə təşkil edilmiş və il ərzində 42 rayon, 43 kənd və 19 məktəb kitabxanasına metodik köməklik göstərilmişdir.[278]

Şübhəsiz ki, uşaq mütaliəsi ilə məşğul olan şəhər, rayon, kənd kütləvi və məktəb kitabxanalarının metodik tə’minatı yalnız həmin kitabxanalara gedişlərin miqdar göstəriciləri ilə xarakterizə edilə bilməz. Miqdar göstəriciləri keyfiyyət göstəriciləri ilə tamamlanmalı, təşkilati baxımdan tə’sirli olması, nəticədə isə uşaqlara kitabxana xidmətinin səmərəsi yüksəldilməlidir. Bu da yeniyetmələrin kitabxanalara cəlb edilməsində, onların mütaliə mədəniyyətinin inkişafında, oxu dairəsinin genişlənməsində özünü göstərməlidir.

Qeyd etmək lazımdır ki, Respublika Uşaq Kitabxanası əməkdaşlarının yerlərə gedişləri təşkilati və məzmun baxımından səmərəli təşkil edilirdi. Belə ki, e’zamiyyələr zamanı metodistlər bu və ya digər kitabxananın fəaliyyətini nəzərdən keçirir, işdə olan müsbət meylləri daha da inkişaf etdirməyə sə’y göstərir, hər bir kitabxanada fondun təşkili və oxucular tərəfindən istifadə edilməsi göstəricilərini təhlil edir, kitabxanaçılara konkret tövsiyələr verirdilər. Məsələn, 1969-cu ildə bir qrup metodist Qax rayon uşaq kitabxanasında seminar təşkil etmiş, sistemli kataloqun tərtibindəki mövcud nöqsanları işçilərin nəzərinə çatdırmış, yeni kitabların icmalı metodikasına və diyarşünaslıq kartotekasının tərtibinə dair konkret məsləhətlər vermiş, kənd kitabxanalarında uşaqlarla aparılan işləri gücləndirmək məqsədi ilə rayon uşaq kitabxanasının iş planını yenidən tərtib etmişdilər. Bu dövrdə rayonda və şəhərdə uşaqlara kitabxana xidmətinin vahid sisteminin yaradılması istiqamətində aparılmış işlər ön plana çəkilməlidir. Belə ki, 1966-cı ildən Respublika Uşaq Kitabxanasının sə’yi nəticəsində şəhər və rayon mərkəzlərində maarif şö’bəsi və komsomol təşkilatı tərəfindən «Uşaqlara kitabxana xidmətinin vahid planı» təsdiq edilməyə başlandı və bu iş 1970-ci ildə sona çatdırıldı.[279]

Qeyd edək ki, əhaliyə kitabxana xidməti sahəsində belə təşəbbüs ilk dəfə məhz Respublika Uşaq Kitabxanası tərəfindən göstərilmişdir. Şübhəsiz ki, şəhər və rayonlarda uşaqlara kitabxana xidmətinin vahid, bütöv sisteminin formalaşmasında olduqca əhəmiyyətli bir iş olan belə şəbəkələrarası kompleks planın hazırlanması Respublika Uşaq Kitabxanasının nailiyyəti idi. Bu kompleks plan ilk növbədə dövlət kütləvi kitabxanaları ilə məktəb kitabxanalarının uşaqlara xidmət işində fəaliyyətinin əlaqələndirilmiş şəkildə həyata keçirilməsi prinsipini nəzərdə tuturdu. Bu prinsipin ardıcıl surətdə həyata keçirilməsi rayon və kənd kütləvi kitabxanalarının, rayon mər-

---

[276] F.Köçərli adına Respublika Uşaq Kitabxanasının 1966-1974-cü il hesabatları.

[277] F.Köçərli adına Respublika Uşaq Kitabxanasının 1968-ci il hesabatı.-S.52

[278] Yenə orada, 1971-ci il hesabatı.-S.77.

[279] F.Köçərli adına Respublika Uşaq Kitabxanasının 1966-cı il hesabatı.-S.15.

kəzi uşaq kitabxanalarının, məktəb kitabxanalarının uşaqlara kitabxana xidmətinin təşkilində əlaqəli və birgə fəaliyyətinin tə'min olunması demək idi. Belə kompleks planlar 60-cı illərin sonu - 70-ci illərin əvvəllərində artıq səmərəli nəticələr verirdi. Məsələn, 1966-cı ildən Tovuz rayon mərkəzi uşaq kitabxanası maarif şö'bəsi ilə birlikdə kütləvi və məktəb kitabxanalarının komplektləşdirilməsinin vahid əlaqələndirilmiş planını tərtib etmişdir.[280] Respublika kitabxana kollektoru ilə bu sahədə müqavilə bağlanılmışdı. Vahid komplektləşdirmə planı müvafiq kitabxanalara daxil olan yeni ədəbiyyatın alınmasında dövlət vəsaitinin hər il orta hesabla təqribən 30 faiz qənaət edilməsinə və gələcəkdə həmin vəsait hesabına yeni ədəbiyyatın komplektləşdirilməsinə şərait yaratmışdı. 1968-1972-ci illərdə belə vahid komplektləşdirmə planları Kəlbəcər, Zəngilan, Şamaxı, Şəmkir (Şamxor), Gədəbəy, Lənkəran, Şəki, Zaqatala, Balakən, Kürdəmir, Qazax və digər rayonlarda da tərtib edilmiş və öz səmərəsini vermişdi.[281]

Şəhər və rayonlar üzrə uşaqlara kitabxana xidmətinin vahid planlarının icrası nəticəsində kütləvi və məktəb kitabxanalarının əlaqəli fəaliyyəti kütləvi tədbirlərin təşkilində özünü daha çox göstərirdi. Buna misal olaraq 1969-cu ildə Bakı şəhər Mərkəzi Uşaq Kitabxanasının 134 №-li məktəb kitabxanası ilə birgə keçirdiyi oxucu konfransını, 1969-1972-ci illərdə Şəki, Zaqatala, Qax, Balakən, Yevlax, Mingəçevir, Qazax, Naxçıvan şəhərlərində uşaq kitabxanaları ilə məktəb kitabxanalarının birgə təşkil etdikləri ədəbi-bədii gecələri, oxucu konfranslarını göstərmək olar.[282] Doğrudur, belə tədbirlər əksər hallarda dövrün siyasi kampaniyalarına, kommunist partiyası ideologiyasına xidmət edən mövzularla (Oktyabr çevrilişinin 50 illiyi, Leninin anadan olmasının 100 illiyi, SSRİ-nin yaradılmasının 50 illiyi, Azərbaycanda Sovet hakimiyyəti qurulmasının 50 illiyi və s.) məhdudlaşdırılırdı. Ümumiyyətlə, uşaq mütaliəsinə xidmət edən kitabxanaların əlaqəli fəaliyyəti prinsip baxımından perspektivli və mütərəqqi xarakter daşıyırdı. 70-ci illərdə bu ən'ənə inkişaf etdirilərək mövzu baxımından olduqca əhəmiyyətli problemlərə də həsr olunurdu. Məsələn, bu dövrdə və xüsusən 70-ci illərin əvvəllərində vətənpərvərlik, diyarşünaslıq, peşəyönümü ədəbiyyatının təbliğinə, uşaqların estetik tərbiyəsində mütaliənin rolu məsələlərinə dair Gəncə, Şamxor (Şəmkir), Mingəçevir, Bakı, Sumqayıt şəhərlərində uşaq və məktəb kitabxanalarının birlikdə təşkil etdikləri konfranslar uşaqların və yeniyetmələrin dünyagörüşünün formalaşmasına səmərəli tə'sir göstərmişdi. Bu tədbirlər 1972-ci ildə BMT xəttilə e'lan edilmiş Beynəlxalq kitab ilinə həsr edilirdi.

Qeyd etdiyimiz kimi, Respublika Uşaq Kitabxanasının metodistləri e'zamiyyə dövründə rayon mərkəzi uşaq kitabxanalarında bir sıra əhəmiyyətli təşkilati-metodik tədbirlər həyata keçirirdilər. Belə tədbirləri şərti olaraq bu istiqamətlərə ayırmaq olar:

-mərkəzi uşaq kitabxanalarında kitabxana işinə dair nəzəri-metodik nəşrlər fondunun, metodkabinə və ya metodguşənin yaradılması;

-mərkəzi uşaq kitabxanasının nəzdində ictimai əsaslarla işləyən metodik şö'bənin təşkil edilməsi;

-mərkəzi uşaq kitabxanasının metodik fəaliyyətinin planlarının tərtib edilməsi;

-mərkəzi uşaq kitabxanasının əməkdaşlarının peşə səviyyəsininin yüksəldilməsinə yönəlmiş tədbirlərin həyata keçirilməsi.

1966-1968-ci illərdə, demək olar ki, respublikanın bütün şəhər və rayon mərkəzi uşaq kitabxanalarında metodik kabinələr və metodik nəşrlər fondları yaradılmışdı. Çatışmayan mühüm nəşrlər mərkəzi rayon (şəhər) kitabxanalarından, yerli nəşrlər isə Respublika Uşaq Kitabxanasından alınırdı. 1968-ci ildə artıq Mingəçevir şəhər Mərkəzi Uşaq Kitabxanasının metodkabinəsində 614 nüsxə, Gəncə şəhər Mərkəzi

---

[280] Yenə orada.-S.37.
[281] F.Köçərli adına Respublika Uşaq Kitabxanasının 1968-1972-ci il hesabatları.
[282] Yenə orada.

Uşaq Kitabxanasının metodkabinəsində 926 nüsxə metodik nəşrlər fondu var idi. Digər mərkəzi uşaq kitabxanalarının metodik nəşrlər fondu orta hesabla 300-600 nüsxə kitabxanaşünaslıq ədəbiyyatından və metodik vəsaitlərdən ibarət idi.[283] Bu fondlarda əsasən rus və Azərbaycan dillərində kitabxana işinə dair metodik sənədlər, SSRİ və Azərbaycan Respublikası mədəniyyət nazirliklərinin tə'limatları, kitabxanaşünaslığa dair monoqrafiyalar, dərsliklər, dərs vəsaitləri, təsnifat cədvəlləri, ikirəqəmli cədvəllər, tə'limati-metodik məktublar və göstərişlər, ixtisas üzrə dövri nəşrlər və s. toplanmışdı.

Respublikanın bütün mərkəzi uşaq kitabxanalarındakı metodkabinə və metodik nəşrlər fondu, şübhəsiz ki, yerlərdə uşaqlara kitabxana xidmətinin metodik tə'minatı üçün elmi zəmin yaradırdı. Qeyd etmək lazımdır ki, Respublika Uşaq Kitabxanası sonralar metodkabinələrin və xüsusən metodik nəşrlər fondlarının müntəzəm surətdə yeni nəşrlərlə tamamlanmasını daim nəzarət altında saxlayırdı. Bu məqsədlə o, SSRİ-nin metodik mərkəzlərində və respublikada nəşr edilən metodik ədəbiyyatı alır və lazımi nüsxələrdə mərkəzi uşaq kitabxanasına göndərirdi. Belə ki, 1966-1974-cü illərdə hər bir mərkəzi uşaq kitabxanasına ildə orta hesabla 15-20 nüsxə metodik ədəbiyyat göndərilmişdi.

F.Köçərli adına Respublika Uşaq Kitabxanasının 60-cı illərin ikinci yarısında həyata keçirdiyi təşkilati-metodik tədbirlər içərisində şəhər və ra-yon mərkəzi uşaq kitabxanalarının nəzdində ictimai əsaslarla işləyən metodik şö'bələrin yaradılmasını təqdirəlayiq iş üsullarından biri kimi qiymətləndirmək olar. Yalnız 1966-cı ildə belə şö'bələr 8 şəhərdə - Gəncə, Naxçıvan, Sumqayıt, Tovuz, Mingəçevir, Xaçmaz, Lənkəran, və Şəki şəhər Mərkəzi Uşaq Kitabxanalarında yaradılmışdı.[284] 1968-1970-ci illərdə 14 mərkəzi uşaq kitabxanasında belə şö'bələr təşkil edilmişdi.

İctimai əsaslarla fəaliyyət göstərən metodik şö'bələrin tərkibi təqribən 12-15 nəfərdən ibarət olub, uşaq və məktəb kitabxanalarının, pioner və komsomol təşkilatlarının, rayon maarif və mədəniyyət şö'bələrinin nümayəndələrini, ayrı-ayrı məktəblərdən valideyn komitələrinin üzvlərini özündə birləşdirirdi. Doğrudur, bütün mərkəzi uşaq kitabxanalarında onlar ictimai əsaslarla işləyən metodik şö'bələr adlanırdı, amma zənnimizcə, bu şö'bələr öz fəaliyyətinin məzmunu baxımından daha çox metodik şuraya yaxın idi. Necə adlandırılmasına baxmayaraq bu qurum 60-cı illərdə respublikanın şəhər və rayonlarında uşaqlara kitabxana xidmətinin təkmilləşdirilməsində olduqca faydalı işlər görmüşdü. Bu baxımdan Tovuz, Mingəçevir, Gəncə, Sumqayıt, Salyan şəhər Mərkəzi Uşaq Kitabxanaları metodik şö'bələrinin fəaliyyəti nəzərə-çarpan dərəcədə əhəmiyyətli olmuşdur. Metodik şö`bələr kitabxana işində ictimai təşəbbüsün tə`sirli forması kimi müvafiq şəhər və rayonlarda uşaqların kitabxanalara cəlb edilməsi məsələsinə xüsusi diqqət yetirirdilər. Məsələn, 1966-1970-ci illərdə Sumqayıt şəhər Mərkəzi Uşaq Kitabxanası metodik şö'bəsinin fəal iştirakı ilə oxucu konfransları, şifahi biblioqrafik icmallar, kitablar haqqında icmallar, müxtəlif məsləhətlər və ucadan oxular təşkil edilmişdi.

İctimai əsaslarla fəaliyyət göstərən metodik şö'bələr bu dövrdə məktəb kitabxanalarının fəaliyyətinə xüsusi diqqət yetirirdilər. Onlar ayrı-ayrı məktəb kitabxanalarının, xüsusən kənd məktəb kitabxanalarının fəaliyyətini yoxlayır, müvafiq məktəbin pedaqoji şurasına çıxarırdılar. Yoxlama nəticəsində tərtib edilmiş arayışların bir nüsxəsi rayon maarif şö'bəsinə, digər nüsxələri isə Rayon Mərkəzi Uşaq Kitabxanasına və Respublika Uşaq Kitabxanasına göndərilirdi. Arayışlar pedaqoji və kitabxanaçılıq işi baxımından yüksək elmi-metodik səviyyədə hazırlanırdı.

1967-1972-ci illərdə Salyan rayon Mərkəzi Uşaq Kitabxanasının metodik şö'bəsi ərazidə yerləşən 14 məktəb kitabxanasında yeniyetmələrin mütaliəsi vəziyyətini hərtərəfli araşdıraraq, yoxlamanın gedişinə dair arayış tərtib etmişdi.

---

[283] F.Köçərli adına Respublika Uşaq Kitabxanasının 1966-1974-cü il hesabatları.

[284] F.Köçərli adına Respublika Uşaq Kitabxanasının 1966-cı il hesabatı.-S.16.

Arayışların məzmunundan mə'lum olur ki, yoxlanılan məktəb kitabxanalarının çoxunda şagirdlərin formulyarları təhlil edilmiş, mütaliə dairəsi müəyyənləşdirilmiş, oxuduqları kitabların məzmun baxımından onların yaxşı xüsusiyyətlərinə və təhsil dərəcəsinə nə qədər uyğun olduğu müəyyənləşdirilmişdir. Arayışların demək olar hamısında son 2-3 il ərzində nəşr olunmuş qiymətli uşaq ədəbiyyatı nümunələri sadalanır və onların kitabxana fondlarında olmaması ciddi nöqsan kimi gös-tərilir.

Hər bir arayışda məktəb kitabxanasının fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı verilmiş tövsiyələr xüsusən maraqlıdır. Məsələn, məktəb kitabxanasının işinin təkmilləşdirilməsinə dair tövsiyələrdən birində göstərilir:

-məktəb kitabxanasında valideynlər guşəsi təşkil edilsin və burada yeniyetmələrin tərbiyəsində valideynlərin roluna dair materialların daimi sərgisi açılsın;

-kitabxanalarda əlifba və sistemli kataloqun təşkilinə başlanılsın;

-kitabxanaçı sinif rəhbərləri ilə müntəzəm əlaqə saxlasın, mütaliəsi zəif olan uşaqları kitabxanaya cəlb etsin;

- məktəb kitabxanalarının kənd kütləvi kitabxanaları ilə əlaqələri möhkəmləndirilsin və birgə tədbirlər təşkil edilsin;

-hər il kitabxananın komplektləşdirmə planı tərtib olunsun və pedaqoji şurada təsdiq edilsin;

-məktəb kitabxanasının yeni ədəbiyyat almaq üçün pul vəsaitinin qənaətbəxş olmasını nəzərə alaraq məktəbin rəhbərliyindən bu vəsaitin 2 dəfə artırılması tələb edilsin;

-kitabxanaya kömək məqsədilə fəal məktəblilər kitabxana işinə cəlb edilsin;

-hər il kitabxananın planı və hesabatı məktəbin pedaqoji şurasında müzakirə və təsdiq edilsin.[285]

Qeyd etmək lazımdır ki, bir neçə il ərzində ictimai əsaslarla işləyən metodik şö'bələr uşaqlara kitabxana xidmətinin metodik tə'minatı sahəsində xeyli təcrübə toplayaraq, Respublika Uşaq Kitabxanasının yerlərdəki dayaq bazası rolunu oynayırdılar. Onlar ayrı-ayrı regionlarda və xüsusən iri şəhərlərdə uşaqlara kitabxana xidmətinin aktual məsələlərinin təhlilini verir, ümumiləşdirmələr aparır və bu prosesə əhəmiyyətli tə'sir göstərən dövlət proqramlarının yaradılmasına çalışırdılar.

Belə ki, 1972-ci ildə Gəncə və Mingəçevir şəhər mərkəzi uşaq kitabxanalarının metodik şö'bələri Respublika Uşaq Kitabxanasının bilavasitə rəhbərliyi və iştirakı ilə uşaqlara kitabxana xidmətinin vəziyyətini əsaslı surətdə öyrənib təhlil etmişdi.

Elmi-metodik əsaslarla təşkil edilmiş bu təhlil prosesində aşkara çıxarılmışdı ki, hər iki şəhərdə yeniyetmələrin 40 faizi uşaq və məktəb kitabxanalarına cəlb olunmamış, uşaqlara kitabxana xidmətinin vahid planı nəzərdə tutulmamışdır. Ayrı-ayrı kitabxanalar uşaqların mütaliə mədəniyyətinin formalaşması ilə məşğul olmur, bu işdə məktəb kitabxanaları ilə əlaqəli iş aparmır. Metodistlər bu şəhərlərin 30-dan çox məktəb və kütləvi kitabxanalarındakı uşaq şö'bələrindən istifadə edən 2 minədək oxucunun formulyarlarını təhlil edərək yeniyetmələrin mütaliə prosesindəki ciddi nöqsanları müəyyənləşdirmişdi. Mə'lum olmuşdu ki, əksər uşaqların mütaliə dairəsi əsasən bədii əsərlərlə məhdudlaşır, tədris prosesi ilə zəif əlaqələndirilir, məktəbli oxucuların mütaliə etdikləri kitablar arasında elmə, texnikaya, peşəyönümünə və estetik tərbiyəyə həsr olunmuş kitablar ümumiyyətlə azlıq təşkil edir. Eyni zamanda uşaq və məktəb kitabxanalarında oxuculara xidmət işində pedaqoji və psixoloji amillər yox dərəcəsində idi. Kütləvi tədbirlər olduqca az keçirilirdi.

Yoxlama prosesində müəyyənləşdirilmişdi ki, bir çox uşaq və məktəb kitabxanaları yeni ədəbiyyatla sistemli və planlı surətdə təchiz edilmir, kitabxanalarda komplektləşdirmə planları tərtib edilmir, bir sıra uşaq kitabxanalarında çalışan işçilərin

---

[285] F.Köçərli adına Respublika Uşaq Kitabxanasının metodik şö`bəsinin arxivi: Rayon uşaq və məktəb kitabxanalarının fəaliyyətinə dair arayışlar qovluğu-1972.-S.32-36.

peşə səviyyəsi olduqca aşağıdır. Bununla yanaşı, Gəncə şəhərindəki 1 və 32 saylı məktəb kitabxanaları, 2 və 4 saylı uşaq kitabxanaları, Mingəçevir şəhərində yeni təşkil edilmiş uşaq kitabxanasının binası tamamilə yararsız vəziyyətdə idi.

Gəncə və Mingəçevir şəhərlərində uşaqlara kitabxana xidmətinin vəziyyəti 1972-ci il oktyabrın 25-də Respublika Mədəniyyət Nazirliyinin kollegiyasında müzakirə edildi. Kollegiyanın qərarı ilə bu şəhərlərdə uşaqlara kitabxana xidmətinin vəziyyətinin yaxşılaşdırılmasına dair konkret tövsiyələr müəyyənləşdirildi. Qərarda yoxlama komissiyalarının aşkar etdiyi nöqsanların aradan qaldırılmasına dair müvafiq şəhərlərin icra orqanlarına - mədəniyyət şö'bələrinə konkret tapşırıqlar verildi. Komissiyanın qərarı respublikanın bütün şəhər və rayonlarının mədəniyyət şö'bələrində kitabxana işçiləri ilə birlikdə müzakirə edildi və yerlərdə uşaqlara kitabxana xidmətinin yaxşılaşdırılması sahəsində müəyyən tədbirlərin həyata keçirilməsinə səmərəli tə`sir göstərdi.[286]

Beləliklə, F.Köçərli adına Respublika Uşaq Kitabxanasının təşəbbüsü və rəhbərliyi ilə yerlərdə ictimai əsaslarla fəaliyyət göstərən rayon və şəhər kitabxanalarının metodik şö'bələri 60-cı illərin sonu - 70-ci illərin əvvəllərində uşaqlara kitabxana xidmətinin təkmilləşdirilməsi istiqamətində faydalı işlər görmüş, bu sahədə ictimaiyyətin və hökumət orqanlarının diqqətini artırmışdı. Təəssüf ki, sonralar Respublika Uşaq Kitabxanası bu işi lazımi səviyyədə inkişaf etdirə bilmədi, 70-ci illərin ikinci yarısında ictimai əsaslarla yaradılan metodik şö'bələr tədricən öz fəaliyyətlərini dayandırdılar.

60-cı illəri sonu - 70-ci illərin birinci yarısını respublika uşaq kitabxanalarının metodik tə'minatında kitabxana işçilərinə kömək məqsədilə müxtəlif tipli və məzmunlu vəsaitlər sisteminin tədricən formalaşması dövrü də adlandırmaq olar.

Metodik vəsaitlər sisteminin formalaşması prosesi vəsaitlərin tipologiyası, məzmun və forması baxımından bir neçə istiqamətdə inkişaf edirdi.

Birinci istiqamət uşaq kitabxanalarının fəaliyyətini tənzimləyən müxtəlif tə'limatların, əsasnamələrin və digər normativ sənədlərin meydana gəlməsindən ibarət idi. Bu işdə Respublika Uşaq Kitabxanası Mədəniyyət Nazirliyi ilə birlikdə yaxından iştirak edirdi.

1966-1974-cü illərdə Respublika Uşaq Kitabxanasının metodik fəaliyyəti bir tərəfdən kitabxananın özünün struktur bölmələrinin normativ sənədlərinin hazırlanmasına, digər tərəfdən isə respublikada uşaqlara kitabxana xidmətinin təşkilini tənzimləyən sənədlərin, o cümlədən, müxtəlif tə'limat və əsasnamələrin hazırlanmasına yönəldilmişdi.

Qeyd etmək lazımdır ki, müxtəlif kitabxana proseslərinə dair normativ sənədlər bu illərdə əsasən SSRİ Mədəniyyət Nazirliyi tərəfindən tərtib edilmiş materialların rus dilindən tərcüməsi idi. Bunlara misal olaraq «Rayon uşaq kitabxanalarının kitab fondunun komplektləşdirilməsi haqqında əsasnamə» (1969) «Rayon uşaq kitabxanasının əsasnaməsi» (1969), «Di-yarşünaslıq kartotekasının sxemi» (1972), «Məktəb kitabxanasının işinin təşkili» (1971), «Uşaq kitabxanalarında mə'lumat-biblioqrafiya işlərinin təşkili haqqında əsasnamə» (1974) və s. vəsaitləri göstərmək olar.

Şübhəsiz ki, SSRİ mühitində, ölkədə vahid kitabxana siyasəti həyata keçirildiyi şəraitdə normativ sənədlər əsasən Moskvada mərkəzi kitabxana təşkilatları tərəfindən tərtib edildiyindən onların məhz rus dilindən tərcümə edilməsi bu dövr üçün qanunauyğun hal idi.

Lakin Respublika Uşaq Kitabxanasının metodik potensialı və metodik təşkilatçılıq təcrübəsi gücləndikcə respublikamızın siyasi, iqtisadi, tarixi və mədəni xüsusiyyətləri ilə əlaqələndirilən və yaradıcı xarakter daşıyan orijinal tə'limati-metodik vəsaitlərin hazırlanması meylləri də ildən-ilə artırdı. Belə vəsaitlər əsasən uşaq ki-

---

[286] F.Köçərli adına Respublika Uşaq Kitabxanasının arxivi. Uşaq və məktəb kitabxanalarının fəaliyyətinə dair arayışlar qovluğu.- 1972-ci il.- S.3-16.

tabxanalarında oxucularla işin aktual məsələlərinə həsr edilir və bir çox hallarda özündə metodik məsləhətlərlə tövsiyə ədəbiyyat siyahısını birləşdirirdi.

Bu dövrdə Respublika Uşaq Kitabxanası tərəfindən tərtib edilmiş metodik vəsaitləri aşağıdakı qruplara ayırmaq olar:

1.Müəyyən bilik sahəsində dair ədəbiyyatın təbliğinə yönəlmiş vəsaitlər;

2.Siyasi kampaniya, tarixi, əlamətdar hadisələr və günlərlə bağlı kitabxanaların fəaliyyətinə dair vəsaitlər;

3.Yeniyetmələrin və uşaqların ayrı-ayrı qrupları içərisində kitabxana işinə həsr edilmiş vəsaitlər;

4.Uşaq kitabxanalarında oxucularla işin müxtəlif metodlarına həsr edilmiş vəsaitlər.

Əsasən sovet kitabxanaşünaslığının son nailiyyətlərini özündə əks etdirən vəsaitlərin hazırlanıb yerlərə göndərilməsi uşaq kitabxanalarının metodik tə'minatında müstəsna əhəmiyyətə malik idi. Bu vəsaitlər metodik tə'minatın operativ forması olub, bu və ya digər məsələyə dair tövsiyə və məsləhətləri eyni vaxtda bütün uşaq kitabxanaları və uşaqlara xidmət edən digər kitabxanalar arasında yaymağa imkan verir, kitabxana işçilərinin peşə səviyyəsinin, elmi dünyagörüşünün zənginləşməsinə səmərəli tə'sir göstərirdi. Belə vəsaitlərin ildən-ilə artması eyni zamanda Respublika Uşaq Kitabxanasının elmi-metodik potensialının inkişaf etməsindən xəbər verirdi. Bu metodik vəsaitlər içərisində kitabxanaşünaslıq nəzəriyyəsi və metodik baxımdan yeni elmi müddəalara söykənən bitkin vəsaitlər az deyildi.

Bunlara misal olaraq «Uşaq kitabxanalarında bədii ədəbiyyatla iş» (1967), «Rayon və kənd uşaq kitabxanalarının fondunun komplektləşdirilməsi» (1968), «Uşaq kitabxanalarında estetik tərbiyə işləri» (1969), «Uşaq kitabxanalarında aparılan söhbətin formaları» (1969), «Uşaq kitabxanalarında soraq-biblioqrafiya işlərinin təşkili» (1970), «Uşaqların hərbi vətənpərvərlik tərbiyəsində kitabxanaların rolu» (1972), «Uşaq kitabxanalarında hüquqi biliklərin təbliği» (1974) və başqa vəsaitləri göstərmək olar.

F.Köçərli adına Respublika Uşaq Kitabxanasının yazılı metodik vəsaitlər sisteminə tə'limati-metodik məktublar da daxildir.

Mətbəə və ratoprint üsulu ilə nəşr edilən metodik vəsaitlərdən fərqli olaraq metodik məktublar daha operativ xarakter daşıyaraq günün ən aktual məsələləri, əksər hallarda tarixi və əlamətdar hadisələrlə əlaqədar kitabxana fəaliyyətini istiqamətləndirən yazılar idi. Makina üsulu ilə çap edilib yerlərə göndərilən metodik məktublar bir qayda olaraq özündə tövsiyə və məsləhətlərlə yanaşı, mövzu ilə əlaqədar yeni ədəbiyyat siyahılarını da əks etdirirdi. Bunlardan hər il tərtib edilib rayon kitabxanalarına göndərilən «Yayda nə oxumalı» seriyası altında 2-8-ci sinif şagirdləri üçün kitab siyahıları (siniflər üzrə) «İllik əlamətdar və tarixi günlər təqvimi», «Kosmonavt günü» (1968), «Diyarşünaslıq üzrə müsabiqənin təşkili» (1968), «A.S.Puşkin» (1969), «Azərbaycan yazıçıları uşaqlara» (1971), «Kitabxanalarda uşaq kitabı həftəsinin keçirilməsi metodikası» (1972) və s. göstərmək olar. Respublika Uşaq Kitabxanasının həmin dövrdə tərtib etdiyi metodik vəsaitlər və məktubların sayı da müəyyən təsəvvür yarada bilər:

1966-cı il – 6 adda; 1967-ci il – 10 adda; 1968-ci il – 27 adda; 1969-cu il – 28 adda; 1970-ci il – 24 adda; 1971-ci il – 12 adda; 1972-ci il – 16 adda; 1973-cü il – 18 adda; 1974-cü il – 20 adda.[287]

Apardığımız hesablamalara görə, 1965-1974-cü illərdə Respublika Uşaq Kitabxanasının yazılı metodik vəsaitlərinin ümumi həcmi 90 çap vərəqinə yaxın olmuşdur.[288]

1967-ci ildə Respublika Uşaq Kitabxanasının təşəbbüsü ilə «Uşaq kitabxanala-

---

[287] F.Köçərli adına Respublika Uşaq Kitabxanasının 1966-1974-cü il hesabatları.

[288] Yenə orada.

rının illik fəaliyyəti» adlı analitik icmal hazırlanmağa başlandı. İcmalın ilk buraxılışı rayon uşaq kitabxanalarının 1966-cı ildəki fəaliyyətini əks etdirirdi.

Rayon kitabxanalarının hesabatları, eləcə də yerlərə gedişlərin, ayrı-ayrı kitabxanaların işinin yoxlanılmasının nəticələrini əks etdirən arayışlar və digər sənədlər əsasında tərtib edilən bu illik icmallar respublikanın rayonlarında uşaqlara kitabxana xidmətinin tam mənzərəsini yaradırdı.

Həcmi orta hesabla 4 çap vərəqi olan icmallarda cari il ərzində respublikada uşaqlara kitabxana xidmətinin ölkənin ictimai-siyasi həyatı ilə əlaqəsi, uşaqların mütaliəsinə rəhbərlik işində əldə edilmiş mühüm nailiyyətlər haqqında geniş və sistemli elmi mə'lumat verilir, statistik rəqəmlər göstərilirdi. İllik icmalların bütün buraxışlarında ayrı-ayrı şəhər və rayon uşaq kitabxanalarında formalaşmış qabaqcıl təcrübəyə xüsusi diqqət yetirilir, onların bütün kitabxanalarda tətbiq edilməsi zərurəti əsaslandırılırdı.

Bir çox icmallarda rayon mərkəzi uşaq kitabxanalarında valideynlərlə aparılan işlərdən, valideynlər üçün ailədə uşaq tərbiyəsinə dair xüsusi guşələrdən, kitab sərgilərinin təşkilindən, yeni kitablar haqqında söhbətlərdən ətraflı bəhs edilirdi. Belə qabaqcıl iş təcrübəsinin təsvirinə icmalların, demək olar ki, bütün buraxılışlarında rast gəlmək olar.

Ümumiyyətlə, illik icmallarda müntəzəm olaraq respublikanın qabaqcıl uşaq kitabxanalarının, o cümlədən, Bakı şəhərinin «8 mart» və Qubanov adına uşaq kitabxanalarının, Şəki şəhər Nizami adına Mərkəzi Uşaq Kitabxanasının, eləcə də Tovuz, Füzuli, Astara, Salyan, Ağsu, Zaqatala və b. şəhər və rayonlardakı uşaq kitabxanalarının iş təcrübəsinin ümumiləşdirilmiş təsvirinə geniş yer verilirdi.

Bu baxımdan 1967-ci ildə uşaq kitabxanalarının fəaliyyətini əks etdirən icmal olduqca səciyyəvidir. İcmalda Astara rayon Uşaq Kitabxanası haqqında oxuyuruq: «Kitabxana işçiləri oxucuların mütaliəsini düzgün istiqamətləndirmək məqsədilə kitabı düzgün seçməkdə onlara kömək edir, məsləhətlər verirlər. Oxuculardan kitabın məzmununu soruşur, yaxud sual-cavab yolu ilə kitabın oxunmasını müəyyən edirlər. Həmin kitabxanada işçilər 1-2-ci sinif şagirdlərinin mütaliəsinə xüsusi diqqət yetirirlər. Onlar hələ tam mütaliə texnikasını mənimsəməmiş bu balaca oxucuları nəzarət altına alırlar. Onlarda mütaliəyə maraq oyadılır. İlk gündən azyaşlı oxucuya səmimi münasibət, qayğıkeşlik və tələbkarlıq yaxşı nəticə verir».[289]

İllik analitik icmallarda geniş şərh edilən mütərəqqi iş üsulları respublikada uşaqlara kitabxana xidmətində meydana gələn qabaqcıl təcrübənin yayılmasının tə'sirli forması idi.

Qeyd edək ki, illik analitik icmallarda uşaqlara kitabxana xidmətində qabaqcıl təcrübə ilə yanaşı, bu sahədəki ciddi nöqsanlara, onları yaradan səbəblərə də xüsusi diqqət yetirilirdi. İcmallarda Kəlbəcər, Tərtər (Mirbəşir), Qubadlı, Beyləqan, Ağcabədi, Zəngilan, Gəncə, Mingəçevir, Şamaxı, Xaçmaz və bir sıra başqa regionların uşaq kitabxanalarında yeniyetmələrin kitabxanalara cəlb edilməsindəki ciddi nöqsanlar, bu sahədə kitabxanaların fəaliyyəti, uşaqların mütaliəsinə rəhbərliyin zəif təşkili xüsusi vurğulanırdı. Məsələn, 1968-ci ildə nəşr edilən analitik icmalda qeyd edilirdi ki, «respublikamızın elə uşaq kitabxanaları var ki, şagirdlərin müntəzəm mütaliəyə cəlb edilməsi məsələsinə laqeyd münasibət bəsləyirlər. Kitabxananın oxucusu olduqdan sonra şagirdin ildə neçə dəfə kitabxanadan istifadə etməsi kitabxana işçilərini narahat etmir. Məsələn, Tərtər (Mirbəşir) rayon Uşaq Kitabxanasının 1128 oxucusundan hər biri il ərzində kitabxanaya orta hesabla bir dəfə gəlmişdir. Ağcabədi rayon Uşaq Kitabxanasının oxucularının hər biri orta hesabla 4 aydan bir, Zəngilan rayon Uşaq Kitabxanasının oxucularının hər biri orta hesabla 2 ayda bir kitabxanadan

---

[289] Uşaq kitabxanasının fəaliyyətinin icmalı (1967-ci il).-B.,1968.-S.25. (F.Köçərli adına Respublika Uşaq Kitabxanası).

istifadə etmişlər».[290]

Beləliklə, 60-cı illərin sonu - 70-ci illərin əvvəllərində müntəzəm surətdə çap edilən analitik icmallar F.Köçərli adına Respublika Uşaq Kitabxanasının metodik nəşrlər sisteminə üzvi surətdə daxil olaraq müvafiq il ərzində uşaq kitabxanalarında aparılan rəngarəng iş üsullarını, bu sahədə mövcud nöqsanları ümumiləşdirib kitabxana ictimaiyyətinə çatdıraraq, respublikada yeniyetmələrə kitabxana xidmətinin təkmilləşdirilməsinin mühüm amilinə çevrilmişdi. Bu baxımdan analitik icmallarda uşaqlara kitabxana xidmətinin ümdə vəzifələrinə dair elmi müddəaların pedaqoji prinsiplərlə əlaqələndirilməsi, irəli sürülən tövsiyələrin kitabxanaşünaslıq fikrinin son nailiyyətlərinə əsaslanması meylləri də diqqəti cəlb edir. Fikrimizin əyani təsdiqini 1967-ci ildə uşaq kitabxanalarının fəaliyyətini ümumiləşdirən icmalda verilən bir tövsiyənin nümunəsində görmək olar. İcmalda oxuyuruq: «Mütaliəyə rəhbərlikdə əsas məqsəd nədir? Mütaliəyə rəhbərlikdə əsas məqsəd ən yaxşı, anlaşıqlı olan kitabları uşağın diqqətlə, müntəzəm surətdə oxumasından, onun xarakterinin və dünyagörüşünün formalaşmasına kitab vasitəsilə tə'sir etməkdən ibarətdir. Mütaliəyə düzgün rəhbərlik etmək üçün kitabxanaçı hər bir oxucunun fərdi zövq və həvəsini, inkişaf səviyyəsini, mütaliə xarakterini, dərsini necə oxumasını və evdə özünü necə aparmasını bilməlidir»[291].

Nəzəri-metodik baxımdan kitabxanaçıları uşaqlara xidmətdə düzgün istiqamətləndirən belə yetkin tövsiyələrə icmallarda müntəzəm rast gəlmək olar.

Analitik icmallarda uşaqlara kitabxana xidmətinin çox vacib və zəruri metodik məsələlərinə dair fikirlərin elmi-pedaqoji şəkildə şərh edilməsi göstərir ki, Respublika Uşaq Kitabxanasının metodik fəaliyyəti kəmiyyətcə olduğu kimi keyfiyyətcə də inkişaf etmişdi.

Beləliklə, illik icmallarda diqqəti cəlb edən əsas xüsusiyyət Respublika Uşaq Kitabxanasının metodik fəaliyyətində tədricən formalaşan elmi ümumiləşdirmə və analitik təhlil yolu ilə ayrı-ayrı kitabxanaların fəaliyyətində nəzərə çarpan müsbət və mənfi meylləri açıqlamaq, eyni zamanda onları elmi tövsiyələrlə tamamlayıb şərh etmək cəhdləri idi. Bu nailiyyətlər eyni zamanda F.Köçərli adına Respublika Uşaq Kitabxanasının metodik fəaliyyətinin təşkili və idarə olunmasında istifadə edilən mütərəqqi iş üsullarının tətbiqindən də asılı idi. Qeyd etmək lazımdır ki, Respublika Uşaq Kitabxanasında metodik fəaliyyətin təşkili və idarə olunmasının bir sıra özünəməxsus müsbət xüsusiyyətləri var idi. Birincisi, kitabxananın metodistləri arasında həm regional, həm də uşaqlara kitabxana xidmətinin mühüm problemləri üzrə ixtisaslaşma və xüsusi bölgü var idi. Ayrı-ayrı metodistlər bir tərəfdən respublikanın bir qrup şəhər və rayon kitabxanalarına təhkim olunur, digər tərəfdən isə uşaq kitabxanalarında ədəbiyyat təbliğinin sahələri üzrə mütəxəsis kimi formalaşır və fəaliyyət göstərirdilər. Məsələn, şö'bə müdiri rəhbərliklə yanaşı, uşaq kitabxanalarının hərbi vətənpərvərlik, diyarşünaslıq və hüquq tərbiyəsi istiqamətindəki fəaliyyətinin metodik tə'minatı ilə məşğul olur, eyni zamanda Bakı, Sumqayıt, Mingəçevir, Lənkəran, Əli Bayramlı, Gəncə, Daşkəsən və s. (cəmi 16) şəhər və rayon uşaq kitabxanalarının metodik tə'minatına birbaşa məs'uliyyət daşıyırdı.[292] Şö'bənin baş kitabxanaçı-metodisti kitabxanalarda elmi-təbii və peşəyönlü ədəbiyyatının təbliğinin metodik tə'minatı ilə məşğul olmaqla yanaşı, eyni zamanda Naxçıvan, Babək, Ordubad, Culfa, Şahbuz, Şərur, Ağsu, Kürdəmir və s. (cəmi 14) şəhər və rayonların uşaq kitabxanalarına təhkim olunaraq bilavasitə metodik tə'minatçı kimi fəaliyyət göstərirdi.[293] Müvafiq iş bölgüsü prinsipi metodik şö'bənin digər işçilərinə də şamil edilirdi. Zənnimcə, Respublika Uşaq Kitabxanasında metodistlərin fəaliyyətinin bölgələr və ədəbiyyat təbliğinin mühüm sahələri üzrə ixtisaslaşdırılması, kitabxanalarda metodik fəaliyyə-

---

[290] Uşaq kitabxanalarının illik icmalı.-B.,1968.-S.13.
[291] Uşaq kitabxanalarının fəaliyyətinin illik icmalı (1967-ci il).-B.,1968.-S.29.
[292] F.Köçərli adına Respublika Uşaq Kitabxanasının 1968-1974-cü il hesabatı.
[293] Yenə orada.

tin təşkili və idarə olunması optimal variant kimi qəbul edilə bilər. Belə ixtisaslaşma metodunun üstünlüyü ondan ibarətdir ki, bu zaman metodistlər tədricən yeniyetmələrdə aparılan kitabxana işinin mühüm problemləri kimi formalaşmaqla bərabər, eyni zamanda metodik fəaliyyəti hər bir regionun iqtisadi, mədəni və digər xüsusiyyətləri ilə əlaqəli şəkildə həyata keçirmək imkanlarına malik olurdular. Bununla uşaq kitabxanalarının metodik tə'minatı konkret və məqsədyönlü xarakter alırdı.

Respublika Uşaq Kitabxanasında metodik fəaliyyətin təşkili və idarə olunmasının ikinci mühüm xüsusiyyəti isə onun kitabxana işi təcrübəsində kompleks şəkildə həyata keçirilməsi idi ki, bu da öz təzahürünü metodik fəaliyyətdə kitabxananın bütün şö'bələrinin birgə iştirakında tapırdı. Bu, işə komplekslik və sistemlilik xarakteri verir, kitabxananın bütün potensial imkanlarının metodik fəaliyyətə səfərbər edilməsinə şərait yaradırdı. Respublika Uşaq Kitabxanasının bütün şö'bələri öz illik planlarında müvafiq sahə üzrə şəhər və rayon uşaq kitabxanalarına metodik köməkliyin konkret formalarını nəzərdə tutur və həyata keçirirdilər. Bütün bunlar metodik şö'bənin ümumi rəhbərliyi, nəzarəti və köməkliyi ilə aparılırdı. Bu məqsədlə bütün şö'bələr metodik məktublar tərtib edir, Respublika Uşaq Kitabxanası tərəfindən təşkil edilən seminar, müşavirə, praktikum və e'zamiyyələrdə fəal iştirak edirdilər. Məsələn, 1968-ci ildə xidmət şö'bəsinin işçiləri Dağlıq Qarabağ Muxtar Vilayətinə və Astara rayonuna e'zamiyyətə gedərək regionların uşaq kitabxanalarında oxuculara xidmət işinin vəziyyəti ilə tanış olmuş, elmi-təbii ədəbiyyatın təbliği, kütləvi tədbirlərin təşkili və diyarşünaslıq işləri ilə əlaqədar əməli köməklik göstərmişdilər.[294]

Həmin ildə Respublika Uşaq Kitabxanası fondunun işçiləri «Uşaqların mütaliə tərbiyəsində kitab və kitabxananın rolu» mövzusunda metodik məktubu, komplektləşdirmə şö'bəsinin əməkdaşları isə «Rayon uşaq kitabxanalarının fondunun komplektləşdirilməsi haqqında əsasnamə»ni rus dilindən Azərbaycan dilinə tərcümə edib yerlərə göndərmişdilər.[295]

1970-ci ildə Respublika Uşaq Kitabxanasının soraq-biblioqrafiya şö'bəsi şəhər və rayon uşaq kitabxanaları üçün «Diyarşünaslıq kartotekasının tərtibi sxemi»ni, bir sıra ictimai-siyasi mövzular üzrə tövsiyə siyahılarını tərtib edib yerlərə göndərmişdi.[296] Şö'bənin işçiləri Xanlar, Quba və Füzuli rayonlarında e'zamiyyələrdə olmuş, yerlərdə soraq-biblioqrafiya aparatının tərtibi və uşaqlara biblioqrafiya xidmətinin təşkili istiqamətində önəmli kömək göstərmişdilər. [297]

70-ci illərin əvvəllərində Respublika Uşaq Kitabxanasının komplektləşdirmə və kitabişləmə şö'bəsinin işçiləri şəhər və rayon uşaq kitabxanalarının fondunun və kataloq sisteminin təkmilləşdirilməsində fəal iştirak edərək xeyli faydalı iş görmüşdülər. Şö'bənin təcrübəli işçiləri həftədə bir dəfə respublika kitabxana kollektorunda olaraq yerlərə göndərilən uşaq nəşrlərinin tematik-tipoloji tərkibinə nəzarət edirdilər.[298] Belə gedişlər zamanı rayon və şəhər uşaq kitabxanalarının Azərbaycan dilində nəşr olunmuş uşaq ədəbiyyatı nümunələri ilə təchiz edilməsinə xüsusi diqqət yetirirdilər. 1972-ci ildə şö'bənin 2 nəfər işçisi Balakən və İmişli rayon uşaq kitabxanalarında olaraq kataloqların təşkili və istifadəsi ilə əlaqədar seminar-praktikum təşkil etmiş, uşaq ədəbiyyatının təsviri, təsnifləşdirilməsi, kataloqların quruluşu və istifadə edilməsinin yaxşılaşdırılması ilə əlaqədar konkret tədbirlər görmüşdülər.[299] Belə tədbirlər Lənkəran, Masallı, Astara, Yardımlı, Cəlilabad rayonlarında və Əli Bayramlı şəhərində həyata keçirilmişdi.[300]

Respublika Uşaq Kitabxanasının elmi-metodik fəaliyyətini kitabxanaşünaslıq

---

[294] F.Köçərli adına Respublika Uşaq Kitabxanasının 1968-1974-cü il hesabatları.-S.63-64.
[295] Yenə orada.
[296] F.Köçərli adına Respublika Uşaq Kitabxanasının, 1970-ci il hesabatı.-S.-63-64.
[297] Yenə orada, 1968-1974-cü il hesabatları- S. 77-78.
[298] Yenə orada, 1972-ci il hesabatı.-S. 56.
[299] Yenə orada.
[300] Yenə orada.

fikrinin son nailiyyətləri zəminində təşkil etmək məqsədilə 70-ci illərdə zəngin metodik nəşrlər fondu yaradılmışdı. 1974-cü ildə 2000 nüsxədən artıq çap vahidini əks etdirən bu fondda uşaqlara kitabxana xidmətinin bütün nəzəri, metodik və təcrübi nailiyyətlərini və qabaqcıl təcrübəni əks etdirən ədəbiyyat toplanılmışdı. Bu fonddan kitabxananın öz işçiləri, Bakı şəhərinin bütün uşaq kitabxanaları fəal istifadə edirdilər. Onun əsasında kitabxana işçilərinə hər il orta hesabla 140-150 yazılı və şifahi arayış və tövsiyə verilirdi.[301]

60-70-ci illərdə Azərbaycanda uşaq kitabxanalarının metodik tə'minatının vəziyyətini yekunlaşdırarkən qeyd etmək istərdik ki, ümumiyyətlə, hər bir kitabxana şəbəkəsində təşkilati-metodik işlərin nəticəsi müvafiq şəbəkədə oxuculara xidmət işinin səmərəliliyi ilə ölçülür.

Kitabxana işinin metodik tə'minatı o zaman səmərəli hesab edilə bilər ki, o, həmin kitabxana və şəbəkənin fəaliyyətinin bütövlükdə optimallaşması ilə nəticələnsin, müvafiq kitabxana və oxucu məkanında müsbət kəmiyyət və keyfiyyət dəyişmələri baş versin. Bu özünü ilk növbədə kitabxana fondlarının zənginləşməsində, əhalinin kitabxanalara cəlb edilməsi göstəricilərinin artmasında, onlara xidmət işi səviyyəsinin təkmilləşdirilməsində və son nəticə olaraq oxucuların mütaliəsində kitabxana kitabının xüsusi çəkisinin fasiləsiz inkişafında göstərməlidir.

Bu baxımdan F.Köçərli adına Respublika Uşaq Kitabxanasının metodik fəaliyyətinə bu me'yarlardan yanaşdıqda həmin illərdə Azərbaycanda uşaqlara kitabxana xidmətinin təşkilində və məzmununda əhəmiyyətli dəyişilmələrin baş verdiyini görürük.

Belə ki, 1967-ci ildə şəhər və rayonlarda uşaqlara xidmət edən 88 müstəqil və 23 uşaq şö'bəsi olan kütləvi kitabxana vardı. Onların ümumi fondu 2 milyon 38 min nüsxədən çox idi. Bu kitabxanalardan istifadə edən oxucuların sayı 200 min 310 nəfər, kitab verilişi isə 4 milyon 369 min 700 nüsxə olduğu halda, 1971-ci ildə müstəqil uşaq kitabxanalarının sayı 103, kitab fondu 2 milyon 316 nüsxə, oxucuların sayı 208 min 40 nəfər, kitab verilişi isə 5 milyon 302 min 396 nüsxə olmuşdu.[302]

Beləliklə, 5 il ərzində respublikada uşaqlara xidmət edən müstəqil kitabxanaların sayı 15, kitab fondu 294.257 nüsxə, oxucuların sayı 7 min 340 nəfər, kitab verilişi isə 832.696 nüsxə artmışdı.[303]

1971-1974-cü illərdə isə respublikada müstəqil uşaq kitabxanalarının sayı 10, ümumi kitab fondu 360 min nüsxə, oxucuların sayı 16.400 nəfər, kitab verilişi 323 min nüsxə, kitabxanaya gəliş 334 min nəfərədək artmışdı.

Onu da qeyd edək ki, bu göstəricilər Qafqaz respublikaları içərisində uşaqlara kitabxana xidmətinə dair ən yüksək göstərici idi. Bu artım respublikada uşaqlara kitabxana xidmətinin məzmununda baş vermiş mütərəqqi iş üsullarının tətbiq edilməsi ilə müşayiət edilirdi. Belə ki, bu illərdə uşaq kitabxanalarının fondunun tərkibi tematik-tipoloji baxımdan onların məqsəd və vəzifələrinə uyğun şəkildə təkmilləşərək daha çox elmi-kütləvi və peşəyönümü nəşrlərlə tamamlanmış, uşaqların mütaliəsinin idarə olunması daha məqsədyönlü olmuş, yeniyetmələrin kitabxanaya cəlb edilməsi xeyli artmış, kütləvi tədbirlərin forma və üsulları zənginləşmiş, kitabxana işçilərinin peşə səviyyəsi yüksəlmişdi.

Bütün bunlar F.Köçərli adına Respublika Uşaq Kitabxanasının metodik fəaliyyətinin ilk 10 ili ərzində əldə etdiyi mühüm nailiyyətlər sayıla bilər.

Ümumiyyətlə, bəhs edilən dövrdə Azərbaycanda uşaq kitabxanalarının metodik tə'minatının ən mühüm nəticəsi onun tədricən sistemli xarakter alması idi.

70-ci illərin ikinci yarısında respublikada uşaq kitabxanalarının metodik tə'minatı sisteminə şəhər və rayon mərkəzi uşaq kitabxanaları da daxil oldu və bu-

---

[301] F.Köçərli adına Respublika Uşaq Kitabxanasının, 1972-1975-ci il hesabatları.

[302] F.Köçərli adına Respublika Uşaq Kitabxanasının 1967-1971-ci il hesabatları.

[303] Yenə orada. 1972-1975-ci il hesabatları.

nunla da Azərbaycanda uşaqlara kitabxana xidmətinin metodik tə'minatının yeni mərhələsi başlandı.

## *Təhsil sistemi kitabxanalarının metodik tə'minatı*

60-cı illərin əvvəllərində təhsil sistemi kitabxanaları respublikada ən iri kitabxana şəbəkəsi idi. 1958-1959-cu tədris ilində Azərbaycanda 4300 ümumtəhsil, 19 internat, 67 orta ixtisas, 15 ali məktəb fəaliyyət göstərirdi ki,[304] onların da hamısında kitabxanalar vardı. Buna baxmayaraq təhsil müəssisələri kitabxana şəbəkəsinə metodik rəhbərlik yarıtmaz vəziyyətdə idi.

Belə ki, məktəb kitabxanalarının fəaliyyətinin metodik baxımdan tənzimlənməsi ilə şəhər və rayon icraiyyə komitələri maarif şö'bələrinin metodistləri, ali və orta ixtisas təhsili müəssisələri kitabxanalarının metodik tə'minatı ilə isə 1959-cu ildə Ali və Orta İxtisas Təhsili Nazirliyinin nəzdində yaradılmış kitabxana şurası məşğul olurdu. Əməkdar kitabxanaçı Azərbaycan Dövlət Politexnik İnstitutu kitabxanasının direktoru Aslan Şıxəliyev şuranın sədri seçilmişdi. Bundan başqa, həmin il ali təhsil müəssisələrinin nəzdində də kitabxana şuraları yaradılmışdı ki, bunlar kitabxanaların cari məsələləri ilə müntəzəm məşğul olurdular. Əlbəttə, belə bir vəziyyətdə təhsil müəssisələri kitabxanalarının metodik tə'minatından geniş söhbət gedə bilməzdi. Çünki bu iş əksər hallarda o dövrün kitabxanaşünaslıq fikrinə əsaslanmır, sistemli xarakter daşımır və respublika miqyasında əlaqələndirilmirdi.

1965-ci ildə F.Köçərli adına Azərbaycan Dövlət Uşaq Kitabxanasının yaradılması məktəb kitabxanalarının işinin metodik baxımdan idarə olunmasını müəyyən qədər istiqamətləndirə bilmişdi. Bu kitabxana təşkilati-metodik cəhətdən uşaq kitabxanaları ilə yanaşı, məktəb kitabxanalarının işinə də köməklik edirdi. Bununla bağlı 60-70-ci illərdə hiss edilən mütərəqqi meyllər əsasən məktəb kitabxanaları ilə uşaq kitabxanalarının əlaqəli fəaliyyətində özünü göstərirdi.

Ali və Orta İxtisas təhsili müəssisələrinin metodik tə'minatı isə nazirliyin kitabxana şurası tərəfindən elmi əsaslarla kompleks şəkildə həyata keçirilə bilməzdi. Çünki bu şura ictimai əsaslarla fəaliyyət göstərən bir orqan kimi yalnız Təhsil Nazirliyi sistemində olan kitabxanaların ümumi inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi ilə məşğul olurdu. Onun fəaliyyəti isə əsasən ildə bir dəfə kitabxanaların hesabatlarının müzakirəsinə həsr edilmiş iclaslarla məhdudlaşdırılırdı.

Beləliklə, 60-cı illərdə respublikada ali və orta ixtisas təhsili müəssisələrinin fəaliyyətini istiqamətləndirən, professor-müəllim və tələbə hey'ətinə kitabxana xidmətində mütərəqqi iş üsullarını tətbiq edən, kitabxanalarda həyata keçirilən mühüm texnoloji prosesləri metodik baxımdan tənzimləyən, əməyin elmi təşkilini tə'min edən, qabaqcıl təcrübəni ümumiləşdirən, nəhayət, kitabxana işçilərinin ixtisasının artırılması və təkmilləşdirilməsi ilə məşğul olan vahid metodik mərkəzin yaranması olduqca vacib idi. Bu vəziyyəti nəzərə alan Ali və Orta İxtisas Təhsili Nazirliyinin ixtisas şurası 1971-ci ilin yanvar ayında nazirlik sistemindəki ali və orta ixtisas təhsili məktəblərinin kitabxanaları üçün metodik mərkəzin Azərbaycan Dövlət Universiteti (indiki BDU) kitabxanasının bazasında yaradılması haqqında məsələ müzakirə etdi.

Nazirliyin kollegiyası 1971-ci il 7 may tarixli 131 saylı qərarı ilə BDU-nun kitabxanasına respublika ali və orta ixtisas təhsili müəssisələri kitabxanaları üçün metodik mərkəz statusu verdi və onu elmi kitabxana adlandırdı. Daha sonra qərarda elmi kitabxananın metodik fəaliyyətini yüksək səviyyədə qurmaq üçün kitabxananın nəzdində metodkabinənin təşkil edilməsi məqsədəuyğun sayıldı.[305]

Qeyd edək ki, kollegiyanın qərarına baxmayaraq metodkabinənin yaradılması

---

[304] Культурное строительство Азербайджанской ССР: Статитический сборник.-B., 1961.-S.66-67; Müasir mərhələdə Azərbaycanda kitabxana işi məsələləri.-B., 1988.-S.6.
[305] BDU-nun Elmi kitabxanasının arxivi.1971-ci ilin rəsmi sənədlər qovluğu.-S.46.

yalnız 1974-cü ilin may ayında baş tutdu. Əsas səbəb metodkabinə üçün kitabxanada yerin olmaması və nəzərdə tutulan 3 nəfər ştat vahidi üçün maliyyə çətinliyi idi. Buna baxmayaraq kitabxana xüsusən ali təhsil müəssisələri kitabxanalarının metodik tə'minatı sahəsində müəyyən işlər görürdü. Bu dövrdə ali məktəb kitabxanalarının fəaliyyətinə metodik rəhbərlik BDU-nun kitabxanasında fəaliyyət göstərən şura tərəfindən həyata keçirilirdi. Universitetin kitabxana şurasında 23 nəfər aparıcı alim təmsil olunurdu. Şura bu illərdə ali məktəb kitabxanalarının fəaliyyətinin təkmilləşdirilməsi sahəsində bir sıra əhəmiyyətli təşəbbüslərin irəli sürülməsi və həyata keçirilməsində səmərəli işlər görmüşdü. 1971-1974-cü illərdə kitabxana şurasının hər il 4 iclası keçirilmiş, tədris prosesində və elmi-tədqiqat işlərinin yerinə yetirilməsində ali təhsil müəssisələri kitabxanalarının iştirakının gücləndirilməsi məsələsi müzakirə edilmiş, müəyyən qərarlar qəbul olunmuş və təkliflər irəli sürülmüşdü.

Bu illərdə kitabxana şurası tərəfindən «Ali təhsil müəssisələri kitabxanalarının maddi-texniki bazasının möhkəmləndirilməsi və onların binalarının genişləndirilməsi» (may, 1972-ci il) «Oxuculara xidmətin yaxşılaşdırılması» (oktyabr, 1972-ci il), «Kitabxanaların xarici nəşrlərlə komplektləşdirilməsinin vəziyyəti və yaxşılaşdırılması» (may, 1973-cü il), «Ali və orta ixtisas təhsili müəssisələrində oxuculara xidmət işinin təşkili (may, 1973-cü il), «Ali təhsil müəssisələrində elmi-texniki informasiyanın təşkili» (oktyabr, 1973), «Ali məktəb kitabxanalarının illik fəaliyyətinin yekunları» (oktyabr, 1974) və s. kimi mühüm məsələlərin müzakirəsi xüsusi aktuallıq kəsb edirdi. Bu tədbirlərə uyğun olaraq ali və orta ixtisas məktəbləri kitabxanalarında müəyyən əməli işlər görülürdü. Məsələn, kitabxana şurasında elmi-texniki informasiyanın vəziyyəti ilə əlaqədar məsələnin müzakirəsi bir sıra iri ali təhsil müəssisələri kitabxanalarında, o cümlədən, BDU-nun, Neft Akademiyasının, Tibb Universitetinin, İqtisadiyyat İnstitutunun kitabxanalarında elmi-texniki informasiya şö'bələrinin yaradılması ilə nəticələndi.[306]

1974-cü ilin may ayında BDU-nun Elmi kitabxanasında 3 nəfər işçisi olan metodkabinənin təşkili ali və orta ixtisas təhsili müəssisələri kitabxanalarının metodik tə'minatında çox böyük əhəmiyyət kəsb etdi.

İlk illərdə metodkabinənin fəaliyyəti 2 istiqamətə ayrılırdı: a) ali və orta ixtisas məktəbləri kitabxanalarının metodik tə'minatı və b) BDU Elmi kitabxanasının şö'bələrinə metodik rəhbərlik.

Qeyd etmək lazımdır ki, metodkabinə 1974-cü ilin may-dekabr aylarında olduqca gərgin və səmərəli iş apararaq təhsil müəssisələri kitabxanalarının metodik tə'minatı üçün əsaslı zəmin yaratdı. Bu dövrdə metodkabinənin təşkilatçılıq fəaliyyətinin əsas istiqamətləri aşağıdakılardan ibarət olmuşdur:

-kitabxanaşünaslıq ədəbiyyatı yardımçı fondunun və müvafiq mə'lumat aparatının yaradılması (2.267 nüsxə);

-SSRİ-nin metodik mərkəzləri ilə işgüzar əlaqələrin yaradılması və metodik nəşrlərin mübadiləsinin təşkili;

-ali və orta ixtisas təhsili müəssisələri kitabxanalarının fəaliyyətinə dair mə'lumat bazasının yaradılması;

-ali və orta ixtisas məktəbləri kitabxanaları ilə yerlərdə tanışlıq (24 gediş);

-şəbəkə kitabxanalarının vahid planının tərtibi;

-1974-1975-ci tədris ili üçün kitabxana işçilərinin ixtisasının rtırılması proqramının tərtibi;

-kitabxana işçiləri üçün məsləhətlərin verilməsi (190 şifahi məsləhət);

-şəbəkə kitabxana işçiləri üçün 2 seminar-müşavirənin təşkili;

-metodik kabinənin nəzdində yeni kitabxanaşünaslıq nəşrlərinin sərgisi;

-1976-1980-ci illərdə ali məktəb kitabxanalarının elmi-tədqiqat işlərinin bir-

---

[306] BDU-nun Elmi kitabxanası: 1972-1974-cü illərdə metodkabinənin hesabatları.

ləşmiş planının tərtibi.[307]

Bu tədbirlərlə yanaşı, metodkabinənin nümayəndələri universitet kitabxanasının bütün şö'bələrinin fəaliyyətinin metodik tə'minatında bilavasitə iştirak edir, işçiləri müvafiq iş prosesləri üzrə tə'limatlandırır, onlar üçün yeni nəşrlərin biblioqrafik icmallarını təşkil edirdilər. Metodkabinənin təşkilinin ilk aylarında həyata keçirilən hazırlıq işləri 1975-ci ildə ali və orta ixtisas təhsili müəssisələri kitabxanalarının idarə olunması və işinin təkmilləşdirilməsi üçün geniş imkanlar yaratdı. Metodkabinənin fəaliyyəti ali təhsil müəssisələri kitabxanalarının müxtəlif iş proseslərinə dair bir sıra mühüm normativ sənədlərin hazırlanması ilə başladı. Bu məqsədlə metodkabinə təhsil müəssisələri kitabxanalarında «Elmi-texniki informasiya xidməti haqqında», «Soraq-biblioqrafiya xidməti haqqında», «Sistemli kataloqun KBT cədvəlləri üzrə yenidən təşkili»nə dair əsasnamələr hazırlayıb nazirliyin kitabxana şurasında təsdiq etdirdi.[308] Həmin il metodkabinə ilk dəfə olaraq ali təhsil məktəbləri kitabxanalarına kömək məqsədilə yazılı metodik tövsiyələrin tərtib edilməsi ilə də məşğul olmağa başladı və bir il ərzində 7 metodik göstəriş hazırladı. Bunların içərisində «Kitabxanalarda müvəqqəti mühafizə edilən ədəbiyyatın uçotu», «Kitabxanalarda surətçıxarma, çoxaldıcı və digər mexanikləşdirmə vasitələrinin əldə edilməsi və istifadəsi», «Orta ixtisas təhsili müəssisələrinin kitabxanalarında planlaşdırma, uçot və hesabat işləri» və s. kimi yazılı tövsiyələr diqqəti cəlb edir.[309]

1975-ci ildə BDU-nun Elmi kitabxanası ali təhsil müəssisələri kitabxanalarının fəaliyyəti üçün problem sayılan tələbələrin kitabxana kitabı ilə tə'minatı vəziyyətinin öyrənilməsinə başladı. Ciddi elmi-tədqiqat nəticəsində həyata keçirilən bu tədbirdə kitabxananın direktoru və digər məs'ul işçilər iştirak edirdilər. Metodkabinə tərəfindən hazırlanmış plan əsasında təqribən 6 ay ərzində qiymətli mə'lumatlar əldə edildi. Respublikanın 10 ali məktəb kitabxanasının fondunun öyrənilməsi nəticəsində meydana gəlmiş analitik təhlil zamanı bu işdə ciddi nöqsanların olması, tələbələrin xüsusən iqtisadiyyat, tibb, texnika və incəsənət üzrə fənlərə dair dərsliklər və dərs vəsaitləri ilə tə'min edilməsində çatışmazlıqlar aşkar edildi. Tədqiqatın nəticələri 1975-ci il iyunun 16-da Ali və Orta İxtisas Təhsili Nazirliyinin kollegiyasında müzakirəyə çıxarıldı və xüsusi qərar qəbul edildi.[310] Qərarda ali məktəb kitabxanalarında müvafiq təhsil müəssisələrinin profili üzrə komplektləşdirmənin qənaətbəxş olmaması, kitabxanalarda hələ də xeyli miqdarda köhnəlmiş və az istifadə edilən ədəbiyyatın saxlanılması, bir sıra ali məktəb kitabxanalarında fondun mühafizəsi üçün lazımi şəraitin yaradılmaması və s. neqativ hallar qeyd edildi. Ali məktəb rektorlarına, xüsusən xalq təsərrüfatı, tibb, incəsənət institutlarının rəhbərlərinə öz kitabxanalarının sahəsinin genişləndirilməsi, fondun mühafizəsi və yeni ədəbiyyatla müntəzəm surətdə tamamlanması barədə ciddi tapşırıqlar verildi. Kollegiya ali məktəb kitabxanalarının yeni dərsliklər və dərs vəsaitləri ilə komplektləşdirilməsinin təkmilləşdirilməsinə yönəlmiş iki mühüm təşkilati-metodik məsələnin həll edilməsi istiqamətində çox düzgün qərar çıxardı. Birincisi, «Maarif» nəşriyyatına tapşırıldı ki, yeni nəşr edilmiş dərsliklər lazımi nüsxələrlə ali məktəb kitabxanalarının ehtiyaclarını ödəmək üçün əvvəlcə kitabxana kollektoruna göndərilsin, sonra isə kitab ticarəti təşkilatlarına verilsin. İkincisi, gələcəkdə dərsliklər və dərs vəsaitlərinin repertuarı və nəşrinin tematik planlarının formalaşması ali məktəb kitabxanaları ilə razılaşdırılsın. Bu məsələ respublikada tədris-metodik ədəbiyyatın nəşrində kitabxanaların rolunu xeyli gücləndirirdi. Qərarda daha sonra ali məktəb kitabxanalarının sahələrinin genişlənməsi, köhnəlmiş kitabxana avadanlıqlarının yeniləri ilə əvəz edilməsi, kitab-

---

[307] BDU-nun Elmi kitabxanasının 1974-cü il hesabatı.-S.36-37.

[308] BDU-nun Elmi kitabxanasının 1975-ci il hesabatı.-S.37.

[309] Yenə orada, 1975-ci il hesabatı.-S.38-39.

[310] Решение коллегии Министерства высшего и среднего специального образования Азер.ССР от 16 июня 1975 г. за № 14 (1 «Об обеспечении высших учебных заведений учебниками и учебными пособиями».-BDU-nun Elmi kitabxanasının arxivi: 1975-ci il rəsmi sənədlər qovluğu.

xanalara daxil olan yeni nəşrlər haqqında kitabxanalararası informasiyanın təşkili və bu məqsədlə «İnformasiya günləri», «Kafedra günləri» və s. adlı xüsusi bülletenlərin hazırlanması və s. tədbirlərin həyata keçirilməsi nəzərdə tutulurdu.

Qeyd etmək lazımdır ki, respublikanın ali təhsil müəssisələri kitabxanalarının dərsliklər və dərs vəsaitləri ilə tə'min edilməsi təcrübəsinin kökündən yaxşılaşdırılmasına istiqamətləndirilmiş belə bir tədbirin hazırlanıb həyata keçirilməsi Bakı Dövlət Universiteti Elmi kitabxanasının metodik fəaliyyətinin çox mühüm nailiyyəti idi. 1975-ci ildə metodkabinənin yardımçı fondu artıq 2.377 nüsxədən ibarət idi. Fondun mə'lumat aparatına 1.062 yeni biblioqrafik təsvir əlavə edilmişdi.[311] Metodik fəaliyyətin informasiya bazasının yaradılması nəticəsində metodkabinə ildən-ilə kitabxana işçilərinə səriştəli, müasir kitabxanaşünaslıq fikrinə əsaslanan tövsiyələr və məsləhətlər vermək imkanı qazanmışdı. Belə ki, 1975-ci ildə metodistlər kitabxana işçilərinə 293 məsləhət vermişlər.[312] Bu məsləhət və tövsiyələr mövzu baxımından olduqca rəngarəng idi. Bunlar kitabxana işinin planlaşdırılması və uçotu, fondun komplektləşdirilməsi və təşkili, oxuculara xidmət işinin texnoloji məsələləri, soraq-mə'lumat aparatının təşkili, elmi-tədqiqat işlərinin informasiya tə'minatı və s. kimi aktual məsələləri əhatə edirdi. 1975-ci ildə elmi kitabxana tərəfindən respublikanın ali və orta ixtisas məktəblərinə 300-ə qədər gedişlər təşkil edilmiş, yerlərdə kitabxanaların fəaliyyəti ilə bilavasitə tanışlıq nəticəsində konkret iş üsulları üzrə tə'limatlandırılma aparılmışdı.[313] Həmin ildən başlayaraq artıq bütün ali məktəb kitabxanaları və orta ixtisas təhsili müəssisələrinin bir çoxu öz plan və hesabatlarını metodkabinəyə göndərməyə başladılar. Metodistlər hər bir sənədi təhlil edir və onlar haqqında rə'y hazırlayıb kitabxanalara göndərirdilər. Bu sənədlər əsasında metodkabinədə təhsil müəssisələri kitabxanalarının fəaliyyətinin ümumiləşdirilmiş statistik uçotunun aparılmasının əsası qoyulmuşdur. 1975-ci ildə belə ümumiləşdirilmiş statistika artıq 64 ali və orta ixtisas məktəblərinin kitabxanalarını əhatə edirdi.[314]

BDU-nun Elmi kitabxanasının metodik fəaliyyətinin çox mühüm tərkib hissəsini kitabxana işçilərinin ixtisasının artırılmasına yönəlmiş tədbirlər təşkil edirdi.

1975-ci ildə respublikanın yalnız ali təhsil müəssisələri kitabxanalarında 390 kitabxana işçisi fəaliyyət göstərirdi ki, bunların da təqribən 50 faizdən çoxunun ali ixtisas təhsili yox idi. Məsələn, BDU-nun Elmi kitabxanasında çalışan 74 nəfər işçidən yalnız 39 nəfərinin ali ixtisas təhsili vardı.[315] Bu nisbət orta hesabla digər kitabxanalar üçün də səciyyəvi idi. Bu səbəbdən elmi kitabxananın metodik fəaliyyətində işçilərin peşə səviyyəsinin yüksəldilməsini tə'min edən tədbirlərin xüsusi çəkisinin çoxluğu təbii idi. 1975-ci ildə elmi kitabxananın və şəbəkənin işçiləri üçün 41 müxtəlif seminar, praktikum, icmal, mühazirə və kurs təşkil edilmişdi.[316] Bütün bunlar 70-ci illərin birinci yarısında respublikada ali və orta ixtisas təhsili kitabxana şəbəkəsinin metodiki tə'minatı sisteminin tədricən formalaşmasını göstərirdi. Bu dövrdə əsası qoyulmuş metodik işin ilkin əsasları sonrakı illərdə təhsil sistemi kitabxanalarının fəaliyyəti üçün güclü zəmin yaratdı.

### *Həmkarlar İttifaqı kitabxanalarının metodik tə'minatı*

50-ci illərin sonu - 60-cı illərin əvvəllərində Azərbaycan Həmkarlar İttifaqının geniş kitabxana şəbəkəsi fəaliyyət göstərirdi.

1955-ci ildə respublika həmkarlar ittifaqı sistemində 2 milyona yaxın kitab fon-

311 BDU-nun Elmi kitabxanasının 1975-ci il hesabatı.-S.39.
312 Yenə orada. –S.38.
313 Yenə orada.-S.40-42.
314 BDU-nun Elmi kitabxanasının 1975-ci il hesabatı.-S.40-42.
315 Yenə orada.-S.40-44.
316 Yenə orada.-S.11

du, 150 min nəfər oxucusu olan 160 kitabxana fəaliyyət göstərirdisə,[317] 1959-cu ildə artıq 165 min oxucuya xidmət edən 173 kitabxana mövcud idi. Bu kitabxanalarda müxtəlif elm sahələri üzrə 2 milyon 100 min nüsxə ədəbiyyat vardı. 1959-cu ildə Həmkarlar İttifaqı Kitabxanaları tərəfindən oxuculara 3 milyon 154 min kitab verilmişdir.[318]

Əsasən istehsal müəssisələrində, o cümlədən, zavod, fabrik, kommunal təsərrüfatlarda, neftçıxarma və neftayırma müəssisələrində, sovxozlarda, mədəniyyət saraylarında, mədəniyyət evlərində və klubların nəzdində yerləşən kitabxana şəbəkəsi ilk növbədə elmi-texniki tərəqqiyə, fəhlə sinfinin mütaliə mədəniyyətinin formalaşmasına xidmət edirdi.

Qeyd etdiyimiz kimi, respublikada Həmkarlar İttifaqı Kitabxanalarının metodik tə'minatı sahəsində hələ 20-30-cu illərdə zəngin təcrübə və mütərəqqi ən'ənə formalaşmışdı. Əgər o dövrdə Həmkarlar İttifaqı Kitabxanalarının metodik tə'minatı əsasən AHİŞ nəzdində kitabxana işinə dair metodik büro tərəfindən həyata keçirilirdisə, 40-cı illərdən başlayaraq bu sistemdə metodik mərkəzlər formalaşmışdı ki, bunların içərisində Həmkarlar İttifaqı Kitabxanaları üçün rəsmi metodik mərkəz statusuna malik akademik Qubkin adına Mərkəzi Həmkarlar İttifaqı Kitabxanası aparıcı rol oynayırdı. Bu kitabxana ilə yanaşı, Aşıq Ələsgər adına mədəniyyət sarayının, İliç adına mədəniyyət sarayının kitabxanaları dayaq bazaları kimi əhəmiyyətli rol oynayırdılar.

60-cı illərin əvvəllərində Həmkarlar İttifaqı Kitabxana şəbəkəsinin metodik tə'minatında ciddi canlanma baş verdi. Ən'ənəvi olaraq cəmiyyətdə baş verən bütün sosial-siyasi hadisələrə operativ və mütəşəkkil reaksiya verən Həmkarlar İttifaqı Kitabxana şəbəkəsində kitabxanaların qarşısında qoyulan vəzifələrin yerinə yetirilməsinə yönəlmiş tədbirlər həyata keçirilməyə başlamışdı. Bu vəzifələr AHİŞ Rəyasət Hey'ətinin 1959-cu il 14 dekabr tarixli «Sov.İKP MK-nın «Ölkədə kitabxana işinin vəziyyəti və onu yaxşılaşdırmaq tədbirləri haqqında» qərarının yerinə yetirilməsi sahəsində Respublika Həmkarlar İttifaqı Təşkilatlarının işi haqqında» qərarında müəyyənləşdirilmişdi.[319] Qərarda Həmkarlar İttifaqı kitabxanalarında oxuculara xidmət işinin gücləndirilməsinə, kitabxana fondlarının təkmilləşdirilməsinə, fondlarda açıq rəf üsulunun genişləndirilməsinə, sənaye müəssisələrində Həmkarlar İttifaqı kitabxanalarının səyyar fondlarının təşkilinə, kitabxanaların maliyyələşdirilməsinin yaxşılaşdırılmasına yönəlmiş bir sıra tədbirlər nəzərdə tutulmuşdu. Burada həmçinin Həmkarlar İttifaqı kitabxanalarına metodik rəhbərliyin gücləndirilməsi və bu işdə metodik mərkəz kimi ilk növbədə Qubkin adına Mərkəzi Həmkarlar İttifaqı Kitabxanasının fəaliyyətinin daha məqsədyönlü təşkil edilməsi vəzifəsi qoyulmuşdu.

Qeyd etmək lazımdır ki, Respublika Həmkarlar İttifaqı kitabxanalarının metodik tə'minatı sistemində ən`ənəvi olaraq işin əsasını qabaqcıl təcrübənin öyrənilməsi, ümumiləşdirilməsi və təcrübəyə tətbiqi təşkil edirdi.

Hələ 30-cu illərdən başlayaraq bu kitabxana şəbəkəsində qabaqcıl təcrübədən istifadə edilməsi əsas iş üsuluna çevrilmişdi. Bu istiqamətdə aparılan metodik işlər Həmkarlar İttifaqı kitabxana şəbəkəsində hər cür yeniliyin aşkara çıxarılmasından və qabaqcıl kitabxanaların mütərəqqi iş təcrübəsinin geniş yayılmasından, o cümlədən, müşavirə, seminar, praktikum və kitabxanalarla kollektiv və fərdi təşkilati-metodik tələblərin həyata keçirilməsindən ibarət idi. Bu məqsədlə Həmkarlar İttifaqı kitabxana şəbəkələrində qabaqcıl təcrübənin kollektiv müzakirəsi, mütərəqqi metodların diqqətlə təhlil edilməsi və geniş yayılması, nəhayət, onların bütün kitabxanalarda bu və ya digər dərəcədə tətbiq edilməsi üçün konkret tövsiyələrin hazırlanması metodik işin əsas məzmununu, demək olar ki, ana xəttini təşkil edirdi.

[317] ARDA, f.1114, s.5, iş 1137, v.8.
[318] Yenə orada, f.1114, s.5, iş 1161, v.12-14.
[319] ARDA, f.1114, s.10, iş 11, v.190.

Bu dövrdə metodik işi təkmilləşdirmək məqsədilə Həmkarlar İttifaqı rəhbərliyi də bir sıra əhəmiyyətli təşkilati tədbirlər həyata keçirmişdi. Belə ki, 1959-cu ilin noyabrında AHİŞ yanında 11 nəfərdən ibarət metodşura təşkil edilmişdi.[320] Şuranın əsas məqsədi Həmkarlar İttifaqı kitabxanalarına metodik rəhbərliyin planlı və sistemli şəkildə həyata keçirilməsi idi. Bu məqsədlə AHİŞ-in mədəniyyət şö'bəsində kitabxana işi üzrə xüsusi tə'limatçı da ayrılmışdı.[321]

Bütün bunlar Respublika Həmkarlar İttifaqı sistemindəki kitabxanaların metodik tə'minatının kompleks və planlı surətdə həyata keçirilməsi, bu işin şəbəkə daxilində ittifaqlararası əlaqələndirilməsi, eyni zamanda vahid mərkəzdən idarə edilməsi üçün əlverişli şərait və geniş imkan yaradırdı. Qubkin adına Mərkəzi Həmkarlar İttifaqı Kitabxanası AHİŞ-in metodik şurası ilə birlikdə tərtib etdiyi «Respublika Həmkarlar İttifaqı kitabxanalarına 1959-1965-ci illərdə metodik rəhbərliyin əsas istiqamətləri» proqramına əsasən 1959-cu ilin noyabr ayında Şəkidə və Gəncədə iki günlük, 1960-cı ilin may-iyun aylarında isə Bakıda Həmkarlar İttifaqı kitabxana işçilərinin yeddi günlük seminarını təşkil etmişdi.[322] İki qrupda keçirilən seminarlar Azərbaycan və rus dillərində SSRİ və Azərbaycanda qabaqcıl Həmkarlar İttifaqı kitabxanalarında oxuculara xidmət işinin yaxşılaşdırılması ilə əlaqədar həyata keçirilən tədbirlərin öyrənilməsinə və tətbiqinə həsr edilmişdi. Hər iki seminarda partiya və hökumət sənədlərinin təbliğinin gücləndirilməsi məsələləri ilə yanaşı, fəhlələrə kitabxana xidmətinin təkmilləşdirilməsi, kitabxana fondunun və kataloqların təşkilinin yaxşılaşdırılması, səyyar kitabxanaların təşkili, kitabxana işçilərinin ixtisasının artırılması işinə xüsusi diqqət yetirilirdi.

Bakı şəhərində keçirilən seminarda 70 nəfər kitabxana işçisi iştirak etmiş və seminarın son 2 günündə şəhərin qabaqcıl kitabxanalarının işi ilə də tanış olmuşdular. Seminarın sonuncu günü kitabxanaçılara bir sıra metodik tövsiyələr, kitabxana işinə dair yeni nəşrlər və tə'limatlar paylanılmışdı.[323]

60-cı illərdə Həmkarlar İttifaqı kitabxanalarına metodik rəhbərliyin olduqca mühüm tərkib hissəsini kitabxana fondlarının komplektləşdirilməsinin yaxşılaşdırılması və kataloq sisteminin təşkilinə yönəlmiş tədbirlər təşkil edirdi. Bu məqsədlə Qubkin adına Mərkəzi Kitabxananın, 1 may adına və İliç adına mədəniyyət saraylarının kitabxana işçiləri orta hesabla hər il yerlərə 10-12 e'zamiyyə təşkil edərək Həmkarlar İttifaqı kitabxanalarının fondu ilə tanış olur, fondun və kataloqların təşkili ilə əlaqədar konkret tövsiyələr verirdilər. Bu illərdə metodik mərkəzlərin təcrübəli işçiləri Sumqayıt, Gəncə, Bakı, Lənkəran, Əli Bayramlı, Naxçıvan, Ordubad, Qax, Şəki, Zaqatala, Balakən, Yevlax həmkarlar təşkilatları kitabxanalarında olmuşdular.[324]

1962-1965-ci illərdə respublikanın 102 Həmkarlar İttifaqı kitabxanasının kitabxanaçıları konkret olaraq yerlərdə tə'limatlandırılmışdılar. Qubkin adına Mərkəzi Kitabxana 16 metodik məktub və tövsiyə hazırlayıb yerlərə göndərmişdi.[325] Bu metodik məktublar əsasən oxucularla iş, ədəbiyyat təbliği, kütləvi tədbirlərin təşkili, oxuculara soraq-biblioqrafiya xidməti məsələlərinə həsr edilmişdi. Metodik tövsiyələrin ikisi Həmkarlar İttifaqı kitabxanalarının işinə fəalların cəlb edilməsi və kitabxanaların fəaliyyətində ictimaiyyətin rolunun gücləndirilməsi məsələləri ilə əlaqədar idi.

60-cı illərin ikinci yarısında Həmkarlar İttifaqı kitabxanaları fondlarının komplektləşdirilməsinin yaxşılaşdırılması aktual problem kimi qalırdı. Buna əsas səbəb

---

[320] Quliyev T.F. Azərbaycanda kitabxanaçılıq işi (Respublika Həmkarlar İttifaqı kitabxanalarının materialları əsasında).-B., 1986.-S.67.
[321] Yenə orada.
[322] ARDA, f.1114, s.10,iş 11, v, 196-198.
[323] Yenə orada.
[324] ARDA, f.1114, s.10, iş 11, v.196-198.
[325] Qubkin adına Həmkarlar İttifaqı Mərkəzi Kitabxanasının 1962-1965-ci il hesabatları.

bir çox kitabxanalarda fondun komplektləşdirilməsinin planlı surətdə aparılmaması, elmin və texnikanın nailiyyətlərini əks etdirən ədəbiyyatın alınmaması və ya az miqdarda alınması, komplektləşdirmədə kitabxana kollektorunun imkanlarından zəif istifadə edilməsi, kitabların alınması üçün ayrılmış vəsaitdən istifadə edilməməsi, sənaye müəssisələrində fəaliyyət göstərən həmkarlar təşkilatları kitabxanalarının komplektləşdirilməsinin həmin müəssisələrdəki texniki kitabxanaların komplektləşdirilməsi ilə əlaqələndirilməməsi idi. Belə nöqsanlar xüsusilə Bakı, Sumqayıt, Əli Bayramlı, Gəncə, Şəki, Naxçıvan və digər şəhərlərin sənaye müəssisələrində fəaliyyət göstərən həmkarlar təşkilatları kitabxanaları üçün səciyyəvi idi. Bunu nəzərə alan Qubkin adına Mərkəzi Kitabxana 1967-ci ilin noyabr ayında «Respublika Həmkarlar İttifaqı kitabxanaları kitab fondlarının komplektləşdirilməsinin vəziyyəti və kitab alınması üçün büdcə vəsaitindən istifadə olunmasının yaxşılaşdırılmasına dair tövsi-yələr» hazırlayıb, onun AHİŞ-in Rəyasət Hey'əti tərəfindən təsdiqlənməsini, şəbəkənin bütün kitabxanalarına göndərilməsini tə'min etdi.[326] Nəzəri-metodik baxımdan yüksək səviyyədə tərtib edilmiş bu sənəddə respublika Həmkarlar İttifaqı kitabxana şəbəkəsinin komplektləşdirilməsi və fondun təşkilində əldə edilmiş nailiyyətlər və mövcud nöqsanlar göstərilirdi. Qərarda bu sahədə müsbət iş keyfiyyətləri ilə fərqlənən İliç adına, Orconikidze adına, Lenin adına, Buzovnaneft, 1 may, Əzizbəyov adına mədəniyyət saraylarının, bir sıra zavod kitabxanalarının müsbət fəaliyyəti ilə yanaşı, əksər kitabxanalarda fondun komplektləşdirilməsindəki ciddi nöqsanlar da qeyd edilirdi. Bu sənədin metodik baxımdan qiymətli xüsusiyyəti Həmkarlar İttifaqı kitabxanalarının komplektləşdirilməsinin optimallaşdırılmasına yönəlmiş tövsiyələrdən ibarət olması idi.

Tövsiyələrdə qeyd edilirdi ki, Həmkralar İttifaqı kitabxanaları fondlarının yeni ədəbiyyatla təchizini kökündən yaxşılaşdırmaq məqsədi ilə Həmkarlar İttifaqının şura və komitələri kitabxana fondlarının vaxtında profilə uyğun şəkildə komlektləşdirilməsinə, komplektləşdirilmə üçün ayrılmış vəsaitin düzgün planlaşdırılmasına və xərclənməsinə ciddi nəzarət etməlidirlər. Tövsiyələrdə məsləhət görülürdü ki, komplektləşdirmə üçün ayrılmış vəsaitin ən azı 60 faizini Respublika Kitabxana Kollektoruna köçürmək yolu ilə Həmkarlar İttifaqının bütün kitabxanalarının kollektor tərəfindən planlı komplektləşdirilməsini tə'min etmək lazımdır. Hər bir baza kitabxanasının nəzdində Həmkarlar İttifaqı kitabxanalarının komplektləşdirilməsi nəzarətə alınmalı və bu məqsədlə kitabxananın nəzdində fəallardan ibarət komplektləşdirmə şuraları yaradılmalıdır.

Sənəddə hər bir kitabxananın fondunun tərkibinin elmlər üzrə nisbətinə dair də təkliflər irəli sürülürdü; ictimai-siyasi ədəbiyyat - 18-20 faiz; texniki nəşrlər -14-15 faiz; bədii və uşaq ədəbiyyatı- 45- 50 faiz və s.

Kitabxanaların komplektləşdirilməsində ayrı-ayrı elm və texnika sahələri üzrə mütəxəssislərdən məsləhətçi kimi istifadə edilməsi də tövsiyə edilirdi.

Şübhəsiz ki, kitabxanaların komlektləşdirilməsinə yönəlmiş belə bir sənədin meydana gəlməsi kitabxana şəbəkəsinin metodik tə'minatında əlamətdar hadisə sayıla bilər. Qubkin adına Həmkarlar İttifaqı Mərkəzi Kitabxanası bu əhəmiyyətli sənədin hazırlanıb yerlərə göndərilməsi ilə kifayətlənməyərək, onun yerlərdə tətbiqi mexanizmini tə'min etmək məqsədilə 1968-ci ilin aprel ayında İliç adına Mədəniyyət sarayı kitabxanasının bazasında Respublika Həmkarlar İttifaqı kitabxanalarının 2 günlük seminar-müşavirəsini təşkil etdi. 90 nəfər kitabxana işçisinin iştirak etdiyi bu seminar-müşavirənin mövzusu «Respublika Həmkarlar İttifaqı kitabxanalarının fondlarının təşkili və istifadəsi» idi. Seminar-müşavirədə Qubkin adına Mərkəzi Kitabxananın müdiri Y.P.Zakalskaya mövzu üzrə mə'ruzə etdi. Sonra Naxçıvan mədəniyyət işçiləri evi kitabxanasının müdiri M.Sultanov, «Siyəzənneft» mədəniyyət sarayının, İliç adına mədəniyyət sarayının, bir sıra sənaye müəssisələri həmkarlar itti-

[326] Qubkin adına Mərkəzi Həmkarlar İttifaqı Kitabxanasının 1967-ci il hesabatı.-S.91-94.

faqı kitabxanalarının nümayəndələri (cəmi 12 nəfər) çıxış edərək, öz kitabxanalarının komplektləşdirilməsi ilə əlaqədar təcrübə mübadiləsi apardılar. Seminar-müşavirənin ikinci günü Qubkin adına Mərkəzi Kitabxanada iştirakçılar üçün fondun komplektləşdirilməsinə dair praktikum təşkil edildi. Praktikumda komplektləşdirmənin te matik-tipoloji planının tərtibi, kitab fondundan istifadənin öyrənilməsinin statistik metodu, mə'lumat aparatının təşkili məsələlərinə dair təcrübi məşğələlər keçirildi.

Respublikada Həmkarlar İttifaqı kitabxanalarının fəaliyyətinin təkmilləşdirilməsi və qabaqcıl təcrübənin yayılması vəzifələrinə həsr olunmuş növbəti seminar-müşavirə AHİŞ-in mədəniyyət şö'bəsi və Qubkin adına Mərkəzi Kitabxana tərəfindən 1969-cu ilin mart ayında təşkil olundu.[327] Seminar-müşavirədə Qubkin adına kitabxananın abonement şö'bəsinin müdiri Y.Q.Levıkina müasir dövrdə oxuculara, o cümlədən, gənc fəhlələrə kitabxana xidmətinin yaxşılaşdırılması vəzifələrindən danışdı və bu sahədə səmərəli fəaliyyət göstərən 1 may adına, Əzizbəyov adına, İliç adına mədəniyyət saraylarının müvəffəqiyyətlərini xüsusi vurğuladı. Daha sonra müşavirədə iştirak edən 64 kitabxana işçisi bir sıra qabaqcıl kitabxanaların fəaliyyəti ilə tanış oldular.

1971-ci ilin noyabr ayında Ümumittifaq Həmkarlar İttifaqı Mərkəzi Şurası (ÜİHİMŞ) və SSRİ Yazıçılar İttifaqı katibliyi sovet ədəbiyyatının fəhlə sinfinə həsr edilmiş ən yaxşı əsərlərinin təbliğini gücləndirmək məqsədilə xüsusi qərar qəbul etdi.[328] Qərarda eyni zamanda ölkənin bütün kitabxanalarında 1972-ci ildə «Fəhlə baş qəhrəmandır» mövzusunda silsilə oxucu konfranslarının keçirilməsi tövsiyə olunurdu. Bu məsələ ilə əlaqədar Qubkin adına Mərkəzi Kitabxana xüsusi tədbirlər planı hazırlayıb AHİŞ-in mədəniyyət şö'bəsinə təqdim etdi. Bu tədbirlər planında ilboyu respublikanın bütün iri Həmkarlar İttifaqı kitabxanalarında həmin mövzuda fəhlə sinfinin nümayəndələri ilə birlikdə geniş oxucu konfranslarının keçirilməsi nəzərdə tutulur və tövsiyələr verilirdi.[329] Bir qədər sonra Qubkin adına Mərkəzi Kitabxanada mövzu ilə əlaqədar xüsusi metodik məktub, oxucu konfransının təşkilinin təxmini planını və SSRİ xalqları, o cümlədən, rus və Azərbaycan ədəbiyyatının fəhlə sinfinə həsr olunmuş ən yaxşı nümunələrinin tövsiyə biblioqrafik siyahısını tərtib edib Həmkarlar İttifaqı baza kitabxanalarına göndərdi.[330]

1972-ci il ərzində respublikanın Həmkarlar İttifaqı kitabxana şəbəkəsində «Fəhlə baş qəhrəmandır» mövzusunda 114 oxucu konfransı təşkil edilmişdi.[331] Bir çox Həmkarlar İttifaqı kitabxanalarında, xüsusən iri sənaye müəssisələri və mədəniyyət saraylarının kitabxanalarında təşkil edilmiş oxucu konfranslarında fəhlə sinfinin qabaqcıl nümayəndələri geniş təmsil olunmuş və müzakirə edilən əsərlər ətrafında maraqlı fikir mübadiləsi aparılmışdı. Bu baxımdan İliç, Əzizbəyov, Aşıq Ələsgər, 1 may adına mədəniyyət saraylarının kitabxanalarında keçirilən konfranslar geniş ictimaiyyətin marağına səbəb olmuşdu. Belə konfransların təşkili xüsusilə gənc fəhlələrin kitabxanalara və mütaliəyə cəlb edilməsi işində əhəmiyyətli rol oynayırdı.

Ümumiyyətlə, Həmkarlar İttifaqı kitabxanalarının metodik tə'minatı istiqamətində həyata keçirilən səmərəli işlər 60-cı illərdə kəmiyyət və keyfiyyət göstəricilərinə müsbət tə'sir göstərmişdi. Məsələn, 1965-ci ildə respublikada 1 milyon 982 min nüsxə kitab fondu olan 187 Həmkarlar İttifaqı kitabxanası vardısa, 1970-ci ildə kitabxanaların sayı artıb 251-ə, kitab fondu isə 2 milyon 675 min nüsxəyə çatmış, onların fondunun tərkibi mövzu-tipoloji baxımdan daha məqsədyönlü şəkildə formalaşmışdı. Bu da öz növbəsində həmin kitabxanalardan istifadə edən oxucuların sayına və kitab verilişinə əsaslı tə'sir göstərmişdi. Əgər 1965-ci ildə Həmkarlar İttifaqı kitabxanalarından 179.805 nəfər oxucu istifadə etmişdisə, 1970-ci ildə oxucuların sayı 227.421

[327] Qubkin adına Mərkəzi Kitabxananın 1969-cu il hesabatı.-S.27-29.
[328] Сборник постановлений ВЦСПС.-М.,№972.-С.91-93.
[329] Qubkin adına Mərkəzi Kitabxananın 1972-ci il hesabatı.-S.12.
[330] AHİŞ mədəniyyət və idman şö'bəsinin 1972-ci il hesabatı.-S.36-39.
[331] Yenə orada.

nəfərə çatmış, onlara 5 milyon 685 min 525 nüsxə ədəbiyyat verilmişdi[332].

70-ci illər Respublika Həmkarlar İttifaqı kitabxanalarının metodik tə'minatının daha da təkmilləşdirilməsi dövrü olmuşdur. 1971-1974-cü illərdə metodik tə'minatın əsas strateji istiqaməti bu kitabxana şəbəkəsinin elmi-texniki tərəqqidə daha fəal iştirak etməsinə yönəlmiş tədbirlərin həyata keçirilməsindən ibarət olmuşdur.

Bu illərdə Həmkarlar İttifaqı kitabxanalarının qarşısında duran əsas vəzifə oxucular, xüsusən fəhlələr arasında texniki biliklərin təbliğinin gücləndirilməsindən, istehsalat qabaqcıllarının iş üsullarının yayılmasından ibarət idi. Metodik tə'minat işi də məhz bu vəzifələrin yerinə yetirilməsinə yönəlmişdi. Metodik mərkəzlərin, ilk növbədə Qubkin adına Mərkəzi Kitabxananın bütün təşkilati-metodik tədbirləri kitabxanaların işinin istehsalatla əlaqələndirilməsinin, elmi-texniki tərəqqiyə xidmət edən ədəbiyyatın təbliğinin səmərəli tətbiqinə xidmət edirdi. Bu məqsədlə 1973-cü ilin aprel ayında AHİŞ-in mədəniyyət şö'bəsi Mərkəzi Kitabxana ilə birlikdə «Həmkarlar İttifaqı kitabxanalarının elmi-texniki tərəqqidə iştirakı» mövzusunda metodik müşavirə təşkil etdi.[333] 200 nəfərdən artıq kitabxanaçının və Həmkarlar İttifaqı rəhbər işçilərinin iştirak etdiyi bu müşavirədə İ.M.Qubkin adına kitabxananın, İliç adına, Aşıq Ələsgər adına mədəniyyət saraylarının kitabxana müdirləri mə'ruzə oxudular. Mə'ruzələrdə Həmkarlar İttifaqı kitabxanalarının elmi-texniki tərəqqidə iştirakı, fəhlələrə kitabxana xidmətinin mütərəqqi iş üsulları, geniş oxucu kütləsi arasında elmi-texniki biliklərin təbliği yolları, bu işdə əldə edilmiş nailiyyətlər, nöqsanlar və həyata keçirilməsi zəruri olan tədbirlər haqqında geniş söhbət açıldı. Müşavirə İliç, Əzizbəyov, 1 may, Aşıq Ələsgər adına mədəniyyət saraylarında fəaliyyət göstərən oxucu şuralarının, həmin kitabxanaların təbliğatçılıq işində fəal iştirak edən yüksək ixtisaslı texniki sahə ziyalılarının cəlb edilməsi təcrübəsini bəyənərək, bu təcrübənin kitabxana ictimaiyyəti arasında geniş yayılması haqqında xüsusi qərar qəbul etdi.

Qubkin adına Mərkəzi Kitabxana Həmkarlar İttifaqı kitabxanalarında elmi-texniki ədəbiyyatın təbliğini gücləndirmək məqsədi ilə 1973-cü ildə bir sıra səmərəli təşkilati-metodik tədbirlər, o cümlədən, aylıq seminarlar keçirməyə başladı. 1973-cü ilin may ayından e'tibarən xüsusi proqram əsasında «Elmi-texniki yenilikləri fəhlələrə» mövzusu ətrafında 6 seminar məşğələsi keçirildi. Məşğələlərin mövzuları bunlardan ibarət idi:

-Həmkarlar İttifaqı kitabxanalarının fəhlələrə xidmət işində problem məsələlər:

-Həmkarlar İttifaqı kitabxanalarında briqada abonementinin təşkili:

-Həmkarlar İttifaqı kitabxanalarında qabaqcıl istehsalat təcrübəsini əks etdirən ədəbiyyatın təbliği üsulları:

-Elmi-texniki ədəbiyyatla kütləvi iş üsulları:

-Xırda sənaye müəssisələrində fəhlələrə səyyar kitabxana xidmətinin təşkili.

Məşğələləri əsasən Qubkin adına Mərkəzi Kitabxananın və digər metodik mərkəzlərin təcrübəli işçiləri aparırdılar.

Belə seminarlar 1974-1975-ci illərdə artıq ən'ənəyə çevrilmişdi. Bu illərdə keçirilən 9 seminar məşğələsi Həmkarlar İttifaqı kitabxanalarında mühəndis-texniki işçilərə informasiya xidməti, KAA-nın təşkili, mə'lumat aparatı və kataloq sisteminin təşkili və istifadəsi, sənaye müəssisələrində Həmkarlar İttifaqı və texniki kitabxanaların əlaqəli fəaliyyəti və s. mövzulara həsr edilmişdi. Seminarlarla yanaşı, 1973-1975-ci illərdə Həmkarlar İttifaqı kitabxanaları işçiləri üçün Qubkin adına kitabxananın nəzdində 4 dəfə bir aylıq ixtisasartırma kursları təşkil edilmişdi.[334] Sonralar bu kurslar ildə iki dəfə təşkil edilməklə daimi ixtisasartırma kurslarına çevrildi.

---

[332] Quliyev T.F. Azərbaycanda kitabxana işi.-B.,1986.-S.77-78.
[333] AHİŞ-in mədəniyyət şö'bəsinin 1973-cü il hesabatı.-S.48.
[334] İ.Qubkin adına Həmkarlar İttifaqı Mərkəzi Kitabxanasının 1973-1975-ci il hesabatları.

70-ci illərdə metodik rəhbərliyin operativ və olduqca səmərəli forması kimi özünü doğrultmuş metodik məktubların tərtib edilməsi də Mərkəzi Həmkarlar İttifaqı kitabxanasının metodik fəaliyyətinin mühüm tərkib hissəsini təşkil edirdi.

1973-1975-ci illərdə kitabxana tərəfindən respublikanın Həmkarlar İttifaqı kitabxanalarına 8 metodik məktub göndərilmişdi. Bunlar oxucularla fərdi iş, gənc fəhlələrin kitabxanalara cəlb edilməsi, kitabxanalarda oxucu şuralarının təşkili və onların işi, sosializm yarışının təşkili, kitabxana fondlarının elm, texnika və istehsalat nailiyyətlərini əks etdirən nəşrlərlə komplektləşdirmək üsulları kimi mövzulara həsr edilmişdi.[335]

Ümumiyyətlə, 70-ci illərin birinci yarısı Həmkarlar İttifaqı kitabxana şəbəkəsinin inkişaf dövrü sayıla bilər. Bu inkişaf kompleks xarakter daşıyaraq kitabxana şəbəkəsinin təşkili və yerləşdirilməsində, kitabxana fondlarının və mə'lumat aparatının formalaşmasında, oxuculara xidmətin təşkilində və nəhayət, kitabxana şəbəkələrinin idarə olunmasında və metodik tə'minatında təzahür edirdi.

Həmkarlar İttifaqı kitabxanalarının metodik tə'minatının digər kitabxana şəbəkələrindən fərqlənən ən mühüm cəhəti ondan ibarət idi ki, onların işinə həmişə həmkarlar təşkilatı fəalları geniş cəlb edilirdi. Bu dövrdə «Respublika Həmkarlar İttifaqı kitabxanaları öz ətrafında təqribən 600-700 nəfər fəal toplamışdı».[336]

Həmkarlar İttifaqı kitabxanalarının metodik tə'minatına müsbət tə'sir göstərən digər amil ondan ibarət idi ki, kitabxana şəbəkəsinə malik olan bir çox nazirlik, komitə və digər orqanlardan fərqli olaraq Azərbaycan Həmkarlar İttifaqı Şurasının bütün qurultay, plenum, konfrans və digər yığıncaqlarında kitabxana işinə müntəzəm diqqət yetirilir, kitabxanaların fəaliyyətinin yaxşılaşdırılmasına yönəlmiş konkret tədbirlər müəyyənləşdirilirdi. Şübhəsiz ki, bu tədbirlər Həmkarlar İttifaqı Kitabxana şəbəkəsinin inkişafına və təkmilləşməsinə səmərəli tə'sir göstərirdi. Belə ki, əgər 1970-ci ildə respublikada 2.675.000-ə kitab fondu olan 251 kitabxana var idisə, 1975-ci ildə kitabxanaların sayı 276-ya, kitab fondu isə 2.855.000 çatmışdı.[337] Bu kitabxanalar 1970-ci ildə 227.421 nəfər oxucuya, 1975-ci ildə isə 238.661 nəfər oxucuya xidmət etmişdilər. Bu dövrdə oxuculara kitab verilişinin həcmi artaraq 5.876.469 nüsxəyə çatmışdı. 1975-ci ildə Həmkarlar İttifaqı kitabxanalarında fəhlə oxucular ümumi oxucuların 80 faizini təşkil edirdi.[338]

1971-1975-ci illərdə Həmkarlar İttifaqı kitabxanalarında çalışan 310 kitabxana işçisinin hamısı ixtisasartırma kursu, seminar, praktikum və digər peşə səviyyəsinin yüksəldilməsinə tə'sir göstərən tədbirlərə cəlb edilmişdi.[339]

Ümumiyyətlə, 60-70-ci illərdə Respublika Həmkarlar İttifaqı kitabxanalarının metodik tə'minatı müntəzəm və planlı şəkildə həyata keçirilərək daim təkmilləşmiş və peşə baxımından dərinləşmişdi. Bu dövrdə Həmkarlar İttifaqı kitabxana şəbəkəsinin metodik tə'minatı məqsədilə 24 metodik müşavirə, 58 seminar, 26 metodik məktub, 190 kitabxanaya gediş, 700-dən çox fərdi və kollektiv məsləhət və s. tədbirlər həyata keçirilmişdi.[340]

Nəticə kimi qeyd etmək lazımdır ki, 1959-1975-ci illərdə respublikanın kitabxana sisteminin metodik tə'minatının vəziyyətini və inkişaf istiqamətlərini qısa şəkildə yekunlaşdırarkən qeyd etmək istərdik ki, bu dövrdə Azərbaycanda fəaliyyət göstərən müxtəlif kitabxana şəbəkələrinin metodik baxımdan idarə olunması nəzəri-elmi səviyyə və təcrübi prosesi vəhdətdə ümumiləşdirib təşkil etmək baxımından yeni mərhələyə daxil olmuşdu. Bu müddət ərzində respublikada kitabxanaların me-

---

[335] Yenə orada.

[336] Quliyev T.F. Azərbaycanda kitabxanaçılıq işi (Respublika Həmkarlar İttifaqı kitabxanalarının materialları əsasında).-B., 1986.-S.82.

[337] Yenə orada. -S.84.

[338]Qubkin adına Həmkarlar İttifaqı Mərkəzi Kitabxanasının 1971-1975-ci il hesabatları.

[339] Yenə orada.

[340] Hesablama Qubkin adına Mərkəzi Kitabxananın 1960-70-ci il hesabatları əsasında hazırlanmışdır.

todik tə'minat sisteminin formalaşmasında ciddi addımlar atılmış, metodik fəaliyyət bütün kitabxana şəbəkələrinin idarə edilməsinin ayrılmaz tərkib hissəsinə çevrilmişdi.

1959-1975-ci illərdə əvvəllərdə olduğu kimi kitabxanaların metodik tə'minatında M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanası aparıcı rol oynamışdır. Bu dövrdə həmin kitabxananın metodik fəaliyyəti məzmun, forma və təşkilati baxımdan xeyli təkmilləşmişdi. O, kitabxana işinin aktual problemlərinə həsr edilmiş metodik vəsaitlər sisteminin formalaşmasında da bir sıra nailiyyətlər əldə etmişdir.

1965-ci ildə F.Köçərli adına Azərbaycan Dövlət Uşaq Kitabxanasının yaradılması uşaqlara və yeniyetmələrə kitabxana xidmətinin təşkilində mühüm hadisə olmuş, onun metodik fəaliyyəti Azərbaycanda uşaqlara kitabxana xidmətinin təkmilləşdirilməsinə olduqca müsbət tə'sir göstərmişdir. Həmin dövrdə respublikada kitabxana işinin metodik tə'minat sistemində sahəvi kitabxana şəbəkələrinin metodik mərkəzləri formalaşmağa başlamış, bu metodik mərkəzlər müvafiq sahələrə kitabxana-informasiya xidmətinin optimallaşdırılmasında əhəmiyyətli rol oynamışlar. Bu baxımdan Elmlər Akademiyası və texniki kitabxanaların metodik mərkəzlərinin fəaliyyətini fərqləndirmək olar.

Respublikanın Həmkarlar İttifaqı kitabxana şəbəkəsinin metodik tə'minatı nəzərə çarpan dərəcədə inkişaf edərək oxuculara, xüsusilə istehsalatda çalışan mütəxəssislərə və fəhlələrə kitabxana xidmətinin mütərəqqi iş üsulları ilə zənginləşməsinə şərait yaratmışdı. Bu müddət ərzində kitabxanaların metodik tə'minat sistemində uzun müddət kitabxanalarda çalışan təcrübəli işçilərlə yanaşı, gənc metodistlər nəsli formalaşmağa başlamış, onlar metodik fəaliyyəti mütərəqqi ruhlu yeni iş üsulları və nəzəri müddəalarla zənginləşdirmişlər.

1959-1975-ci illərdə Azərbaycanda metodik tə'minat sistemində qazanılmış təcrübə və müvəffəqiyyətlər sonrakı dövrdə bu fəaliyyətin daha da inkişaf etdirilməsi üçün əsaslı zəmin yaratmışdır.

# III FƏSİL

# MƏRKƏZLƏŞDİRİLMİŞ KİTABXANA SİSTEMLƏRİNİN METODİK TƏ'MİNATI (1975-2000-ci illər)

## *3.1. Dövlət kütləvi kitabxanalarının mərkəzləşdirilməsinin metodik tə'minatı*

70-ci illərin ikinci yarısı Azərbaycanda mühüm kitabxana proseslərinin, o cümlədən, əhaliyə kitabxana xidmətinin mərkəzləşdirilmiş qaydada təşkili və bu məqsədlə ölkədə mərkəzləşdirilmiş kitabxana sistemlərinin (MKS) yaradılması və formalaşmasının başlanğıc dövrü kimi xarakterizə edilir.

Azərbaycanda kitabxana işinin təşkili və idarə olunmasında keyfiyyətcə yeni mərhələ olan mərkəzləşmə prosesinin həyata keçirilməsi Sov.İKP MK-nın 1974-cü ilin mayında qəbul etdiyi «Zəhmətkeşlərin kommunist tərbiyəsində və elmi-texniki tərəqqidə kitabxanaların rolunu artırmaq haqqında» qərarı ilə əlaqədar idi.[341]

Bu qərar SSRİ-də, o cümlədən, Azərbaycanda kitabxana işinin təşkili istiqamətində olduqca əhəmiyyətli bir sənəd kimi qiymətləndirilməlidir. Bu sənədin sovet dövründə kitabxana işinə dair əvvəllər meydana gəlmiş bütün partiya və dövlət sənədlərindən fərqlənən bir sıra mütərəqqi xüsusiyyətləri var idi. Əvvəla, bu sənədlə ilk dəfə olaraq kitabxanaların siyasi, ideoloji və mədəni-maarif sahəsindəki funksiyalarına elmi-informasiya funksiyası da əlavə edilmişdi. Belə ki, bu qərarda kitabxana işi anlayışı yeni məzmunla zənginləşdirilmiş, ilk dəfə olaraq kitabxananın ideoloji müəssisə olmaqla yanaşı, eyni zamanda elmi-informasiya müəssisəsi olması xüsusi göstərilmişdir. Bu da kitabxanaların cəmiyyətdəki rolunu daha düzgün ifadə edirdi. Bu müddəa eyni zamanda kitabxanaların elmi-texniki tərəqqidə daha fəal iştirak etməsi üçün geniş imkanlar açırdı.

70-ci illərin kitabxana işinə dair ən mühüm partiya və dövlət sənədi sayılan bu qərarda kitabxanaların metodik tə'minatının yaxşılaşdırılması, kitabxanara kömək məqsədilə metodik vəsaitlər sisteminin daha operativ və məqsədyönlü hazırlanması məsələləri də xüsusi qeyd olunmuşdu.

Qərarın ən mühüm müddəalarından biri də ölkədə 1980-ci ilə qədər bütün dövlət kitabxanalarının mərkəzləşdirilməsi, eyni zamanda müxtəlif idarə və müəssisələrin nəzdindəki kitabxanaların mərkəzləşdirilmiş qaydada fəaliyyət göstərməsi üçün lazımi tədbirlərin həyata keçirilməsi vəzifələri idi. Şübhəsiz, ölkədə kitabxanaların mərkəzləşdirilmiş qaydada fəaliyyət göstərməsi əhaliyə, cəmiyyətin bütün üzvlərinə kitabxana xidmətinin təşkilində yeni mütərəqqi mərhələnin başlanması idi.

Mərkəzləşdirilmiş kitabxana sistemlərinin ən'ənəvi kitabxana sistemlərindən fərqlənən əsas keyfiyyətləri və üstünlükləri bunlardan ibarətdir:

1.Mərkəzləşdirilmiş kitabxana sistemi iriləşdirilmiş, genişləndirilmiş yeni tipli kitabxana-informasiya müəssisəsidir;

2.Bu sistem nisbətən xırda və ən'ənəvi olaraq pərakəndə şəkildə fəaliyyət göstərən kitabxanalardan fərqli olaraq yeni kitabxana kompleksinin formalaşması deməkdir;

3.Kitabxana işinin mərkəzləşdirilməsi nəticəsində müvafiq regionun və ya bir sahəyə xidmət edən kitabxanalar qrupunun fəaliyyəti prosesində mərkəzi kitabxana və onun filialları fəaliyyət göstərir;

4.Mərkəzləşdirilmə nəticəsində kitabxanaların fəaliyyət göstərdiyi ərazidə və

[341] Kommunist.-1974.-28 may

ya elm, təsərrüfat sahəsində vahid kitabxana fondu formalaşır və bütün oxucular həmin fonddan eyni dərəcədə istifadə etmək hüququna malik olurlar;

5.Mərkəzləşdirilmiş kitabxana sistemlərində bütün mühüm kitabxana prosesləri (komplektləşdirmə, kataloqlaşdırma, kitabişləmə və s.) mərkəzləşdirilmiş qaydada həyata keçirilərək kitabxana-informasiya ehtiyatlarından daha səmərəli və məqsədyönlü istifadə edilir;

6.Mərkəzləşdirmə şəraitində sistemdaxili vahid soraq-informasiya bazası yaradılır və sistemə daxil olan kitabxanalar oxuculara xidmət işində bu bazadan hərtərəfli istifadə etmək imkanı qazanırlar;

7.Mərkəzləşdirilmiş kitabxana sistemləri vahid maddi-texniki bazaya, kadr və maliyyə sisteminə malik olduğuna görə kitabxana işi iqtisadi baxımdan səmərəli fəaliyyət sahəsinə çevrilir.

Təsadüfi deyil ki, dünya təcrübəsində mərkəzləşdirilmiş kitabxana sistemləri, kitabxana-informasiya kompleksləri, vahid metodik və texnoloji prinsiplərə əsaslanan kitabxana birlikləri geniş vüsət almışdır.

Kitabxanaların mərkəzləşdirilməsindən bəhs edən professor A.A.Xələfov qeyd edir ki: «Vahid kitabxana sisteminin yaranması şəhər və rayonlarda keçmişdə olan xırda kitab fondlarının yerinə kəmiyyət və keyfiyyətcə böyük və güclü universal kitab fondlarının yaranmasına səbəb olmuşdur. Mərkəzləşmə həmçinin kitabxanalara mə'lumat-biblioqrafiya və informasiya işini daha operativ və keyfiyyətli təşkil etmək imkanı vermişdir».[342]

Azərbaycanda kitabxana işinin mərkəzləşdirilməsi kitabxanaların metodik tə'minat sistemində də əsaslı kəmiyyət və keyfiyyət dəyişmələrinin həyata keçirilməsi üçün geniş imkanlar açırdı.

Mərkəzləşdirmə nəticəsində şəhər və rayon mərkəzlərində MKS-lərin mərkəzi kitabxanalarının nəzdində xüsusi metodik şö'bələr yaradıldı və bununla da respublikada kitabxana işinin metodik tə'minat sisteminin vahid kompleks şəklində formalaşması üçün şərait yarandı. MKS-lərə məxsus mütərəqqi iş üsullarının formalaşması, o cümlədən, mərkəzləşmə şəraitində kitabxanaların metodik tə'minat sistemində yeni kəmiyyət və keyfiyyətlərin meydana çıxması ən ümdə məsələlərdən idi.

1975-1980-ci illərdə Azərbaycanda kitabxana işi sahəsində metodik fəaliyyətin əsas vəzifəsi respublikada müxtəlif kitabxana şəbəkələrinin, xüsusilə dövlət kütləvi kitabxana şəbəkələrinin ərazi MKS-lərinin yaradılmasından və onların normal fəaliyyətinin təşkil edilməsindən ibarət idi. Bu işin təşkili və həyata keçirilməsi ilə Respublika Mədəniyyət Nazirliyi və kitabxana işi sahəsində baş metodik mərkəz olan M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanası məşğul olurdu.

Qeyd etmək lazımdır ki, M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının mərkəzləşdirmə ilə əlaqədar metodik fəaliyyəti hələ 1973-cü ilin ortalarından başlamışdı. Çünki kitabxanaların mərkəzləşdirilməsi ilə bağlı partiya qərarından hələ bir il əvvəl ölkədə bu istiqamətdə eksperimentlər aparılırdı.

Bu məqsədlə Respublika Mədəniyyət Nazirliyinin kollegiyası 1973-cü il iyunun 13-də «Azərbaycanda dövlət kütləvi kitabxana şəbəkəsinin mərkəzləşdirilməsi haqqında»[343] xüsusi qərar qəbul etmiş və bununla əlaqədar mərkəzləşdirmə prosesinin metodik tə'minatı Dövlət Kitabxanasına həvalə edilmişdi. Artıq 1974-cü ilin əvvəllərindən bu kitabxana bilavasitə mərkəzləşdirmə məsələləri ilə əlaqədar təşkilati-metodik işlərin həyata keçirilməsinə başlamışdı. Belə ki, 1974-1976-cı illərdə rayon və şəhər kitabxanalarında mərkəzləşmə məsələlərinə dair 30-dan çox seminar məşğələləri təşkil edilmiş, Gəncə, Sumqayıt, Şəki, Salyan, Yevlax, Ağdam və Lənkəran

---

[342] Xələfov A.A. Azərbaycanda kitabxana işinin mərkəzləşdirilməsinin bə'zi yekunları və təkmilləşdirilməsi məsələləri // Azərbaycanda kitabxana işinin mərkəzləşdirilməsi məsələləri: Elmi əsərlərin tematik məcmuəsi.-B.,1986.-S.8.

[343] Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin arxivi, f.13, iş 89.-S.27-29.

şəhərlərində mərkəzləşmə ilə bağlı qabaqcıl təcrübə məktəbləri yaradılmışdı.[344]

M.F.Axundov adına Dövlət Kitabxanasının mərkəzləşmə problemi ilə əlaqədar ilk metodik tə'limatları «Kütləvi kitabxanaların mərkəzləşdirilməsi haqqında», «MKS-lərdə komplektləşmənin təşkili və prinsipləri», «Mərkəzləşdirmə şəraitində ədəbiyyatın uçotu və işlənməsi», «Mərkəzləşdirmə şəraitində soraq-biblioqrafiya aparatının təşkili» 1974-cü ildə hazırlanmışdı.[345] Bundan başqa, kitabxananın elmi metodik şö'bəsi Respublika Mədəniyyət Nazirliyinin Baş Kitabxana Müfəttişliyi ilə birlikdə «Azərbaycanda dövlət kütləvi kitabxanalarının mərkəzləşdirilməsinə dair müvəqqəti əsasnamə», «Kitabların işlənməsi prosesi və kitabxanaların mərkəzləşdirilməsinə hazırlıq tədbirləri» haqqında tə'limati-metodik tövsiyələr də hazırlayıb yerlərə göndərmişdi.[346] Bunların bir qismi SSRİ-nin mərkəzi kitabxanaları tərəfindən hazırlanmış vəsaitlərin Azərbaycan şəraitinə uyğunlaşdırılmış şəkildə tərcüməsi idi.

1975-ci ildən başlayaraq M.F.Axundov adına Respublika Dövlət Kitabxanasının metodik fəaliyyətindən respublikanın şəhər və rayon kitabxanalarının mərkəzləşdirilməsi prosesinə bilavasitə əməli köməklik üstünlük təşkil edirdi. Belə ki, yalnız həmin il kitabxananın əməkdaşlarının iştirakı və köməkliyi nəticəsində Masallı, Neftçala, Qəbələ (Qutqaşen), Saatlı, Salyan və Göyçay rayonlarında bütövlükdə 400-dən çox kitabxananı birləşdirən 6 rayon mərkəzləşdirilmiş kitabxana sistemi yaradıldı.[347] Bu məqsədlə kitabxananın metodistləri və digər əməkdaşları yerlərdə kitabxana işçiləri üçün mərkəzləşdirmə şəraitində kitabxana işinin xüsusiyyətləri məsələlərinə həsr edilmiş mühazirə və seminarlar təşkil edir, praktikum və təcrübi məşğələlər keçirir, müvafiq sənədlərin, o cümlədən, yerli icraiyyə orqanlarının mərkəzləşmə ilə əlaqədar layihələrini hazırlayırdılar.

1975-ci ildə Dövlət Kitabxanası tərəfindən mərkəzləşmə ilə əlaqədar 18 metodik məktub, 65 seminar, müxtəlif mövzularda 270 məsləhət və yerlərə 155 gediş təşkil edilmişdi.[348]

1976-cı ildə Dövlət Kitabxanası işçilərinin yaxından iştirakı ilə 15 yeni rayon və şəhər kitabxanası, o cümlədən, DQMV-nin 4 rayonunda kitabxanaların mərkəzləşdirilməsi həyata keçirildi. Bunların içərisində Əli Bayramlı, Mingəçevir, Yevlax kimi iri kitabxana şəbəkələrinə malik şəhər və rayonlar da var idi.[349] Həmin il Respublika Dövlət Kitabxanasından şəhər və rayonlara 380 gediş və e'zamiyyələr təşkil olunmuşdu. İl ərzində 43 adda müxtəlif metodik sənəd hazırlanmışdı.[350]

1977-ci ilin əvvəlində respublikamızda 961 filial kitabxananı özündə birləşdirən 25 mərkəzləşdirilmiş kitabxana sistemi fəaliyyət göstərirdi.

1977-ci il SSRİ dövləti üçün ictimai-siyasi baxımdan əlamətdar olduğundan (oktyabr çevrilişinin 70 illiyi, yeni konstitusiyanın qəbulu və s.) Dövlət Kitabxanasının metodik fəaliyyətində siyasi məsələlərə dair tədbirlər üstünlük təşkil etsə də, respublikada kitabxana işinin mərkəzləşdirilməsi ön plana çəkilmiş, bu istiqamətdə təşkilati-metodik tədbirlər davam etdirilmişdir.

Həmin ildən başlayaraq Respublika Dövlət Kitabxanası artıq kütləvi kitabxanaların mərkəzləşdirilməsi prosesində alınan ilk nəticələri hələ formalaşmaqda olan digər MKS-lər arasında təbliğ etməyə başladı. Bunun üçün Sumqayıt şəhər Mərkəzləşdirilmiş Kitabxana Sistemi nümunəvi model kimi qəbul edildi. Bu kitabxana birliyi özündə MKS-lərə məxsus olan bütün üstünlükləri əks etdirirdi. Burada mərkəzləşdirmə prosesindən cəmi 2 il keçdikdən sonra əhaliyə kitabxana xidmətinin bütün kəmiyyət və keyfiyyət göstəriciləri üzrə də nəzərəçarpan mütərəqqi dəyişmələr baş

---

[344] Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin arxivi, f.13, iş 431.-S.2.

[345] M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının arxivi: 1974-cü il hesabatı.-S.29

[346] Yenə orada.

[347] M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının 1975-ci il hesabatı.-S.30.

[348] Yenə orada.

[349] Yenə orada.-S.9.

[350] Yenə orada, 1976-cı il hesabatı-S.7.

vermişdi.

Belə ki, əgər 1974-cü ildə, yə'ni mərkəzləşdirməyə qədər Sumqayıt şəhərindəki dövlət kitabxanaları 17.175 nəfər oxucuya xidmət edirdisə, 1977-ci ildə bu rəqəm 26.400-ə çatmışdı ki, bunlardan da 85 faizi sənayenin müxtəlif sahələrində çalışan mütəxəssislər idi.[351]

1976-cı ildən başlayaraq Sumqayıt şəhər MKS-də oxuculara informasiya xidməti təşkil edilmiş, mütəxəssislərə müntəzəm olaraq yeni daxil olmuş ədəbiyyat haqqında mə'lumatlar verilmişdi.

1976-1977-ci illərdə Sumqayıt şəhər MKS tərəfindən sənaye müəssisələrinin yataqxanalarında, kitabxanası olmayan kiçik təşkilat və müəssisələrdə 25 səyyar kitabxana təşkil edilmişdi.[352]

Mərkəzləşdirilmiş kitabxana sistemlərinin formalaşması sistemdaxili vahid kitabxana fondunun istifadə səmərəliliyinə əhəmiyyətli tə'sir göstərmişdi ki, bu da Sumqayıt şəhər MKS-in timsalında qabarıq şəkildə nəzərə çarpırdı. Belə ki, mərkəzləşdirmədən sonrakı 2 il ərzində fondun dövriyyəsi 1,8 olmuşdu. Bu rəqəm keçmiş ittifaq üzrə göstəricidən yüksək idi.

Bütün bunlar M.F.Axundov adına Dövlət Kitabxanasına məhz Sumqayıt şəhər MKS-in bazasında mərkəzləşmə istiqamətindəki metodik fəaliyyətini daha konkret və məqsədyönlü həyata keçirməyə şərait yaradırdı. Bu məqsədlə 1977-ci ilin aprel ayında Sumqayıt şəhər MKS-də ümumrespublika kitabxana işçilərinin seminar-müşavirəsi keçirildi. İki günlük seminarda respublikanın bütün şəhər və rayonlarının kitabxana işçiləri təmsil edilmişdi. Seminar Azərbaycanda dövlət kütləvi kitabxanalarının mərkəzləşdirilməsinin vəziyyətinə və mərkəzləşdirmə prosesində əhaliyə kitabxana xidmətində qazanılmış ilk nailiyyətlərin təbliğinə həsr edilmişdi. Seminarda «Müasir dövrdə Azərbaycanda əhaliyə kitabxana xidmətinin vəzifələri», «Əhaliyə kitabxana xidmətində Sumqayıt şəhər MKS qabaqcıl təcrübə məktəbidir», «Mərkəzləşdirmə şəraitində Sumqayıt şəhəri kütləvi kitabxanalarında kitab fondlarının yenidən təşkili və mərkəzləşdirilməsi» mövzularında mə'ruzələr dinlənilmiş və geniş təcrübə mübadiləsi aparılmışdı.[353] Seminar iştirakçıları üçün Sumqayıt şəhər MKS-in mərkəzi kitabxanasında təşkil edilmiş «Oxuculara informasiya xidməti», «Sumqayıt şəhər MKS-də işin təşkili» mövzularında sərgilərdə mərkəzləşmə prosesi ilə bağlı yeni tə'limatlar, sərəncamlar, metodik məktublar, uçot və hesabat nümunələri nümayiş etdirilmişdi.

70-ci illərin ikinci yarısında, xüsusilə 1976-1978-ci illərdə qabaqcıl təcrübəni mənimsəyib yerlərdə tətbiq etmək məqsədilə Abşeron, Dəvəçi, Zəngilan, Gəncə, Xaçmaz, Dağlıq Qarabağ və digər regionların kitabxana işçiləri Sumqayıt əhər MKS-də e'zamiyyədə olub müvafiq iş təcrübəsi qazanmışdılar.[354]

Bu dövrdə M.F.Axundov adına Dövlət Kitabxanasının mərkəzləşdirmə prosesi ilə bağlı təşkilati-metodik fəaliyyəti təkcə qabaqcıl təcrübə məktəblərinin formalaşması ilə məhdudlaşdırılmırdı. Bu məqsədlə kitabxana yalnız 1977-ci ildə yerlərə 53 gediş, 18 seminar məşğələsi, yüzlərlə məsləhət və tə'limat xarakterli çıxışlar təşkil etmişdi. Təkcə həmin il ərzində bilavasitə Dövlət Kitabxanasının təşkilati-metodik fəaliyyəti nəticəsində Goranboy (Qasım İsmayılov), Zəngilan, Zərdab, Ağdərə (Mardakert), Neftçala, Ucar və s. (cəmi 11) rayonlarda dövlət kütləvi kitabxanalarının mərkəzləşdirilməsi başa çatdırılmışdı. Beləliklə, 1977-ci ildə respublikada artıq

---

[351] M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanası elmi-metodik şö'bəsinin 1977-ci il hesabatı.- S.13.

[352] Yenə orada.

[353] M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanası elmi-metodik şö'bəsinin 1977-ci il hesabatı.- S.14.

[354] M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanası elmi-metodik şö'bəsinin 1977-ci il hesabatı.- S.26.

39 mərkəzləşdirilmiş kitabxana sistemi fəaliyyət göstərirdi.

Respublikada kütləvi kitabxanalar şəbəkəsinin mərkəzləşdirilməsinin metodik tə'minatı sahəsində ilk üç il ərzində həyata keçirilmiş tədbirlər, qazanılmış təcrübə sonrakı illərdə bu işin daha da təkmilləşdirilməsi üçün zəmin yaratdı.

Belə ki, 1978-ci ildə Dövlət Kitabxanasının elmi-metodik şö'bəsində respublikanın bütün şəhər və rayonlarında fəaliyyət göstərən kitabxanaların kartotekası yaradılmış, öz işini mərkəzləşmə qaydaları əsasında nümunəvi təşkil edən kitabxanaların fəaliyyəti xüsusi əks olunmuş və onlar haqqında geniş mə'lumat verilmişdi. Kartotekada hər bir kitabxananın fondu, oxucusu, kitab verilişi, filial kitabxanaların sayı və başqa əsas mə'lumatlar şərh edilirdi. Bu kartoteka respublikada kitabxanaların mərkəzləşdirilməsi ilə əlaqədar bütün məsələləri əks etdirirdi.

Qeyd etmək lazımdır ki, 1978-ci ildə artıq 48 mərkəzləşdirilmiş kitabxana sistemi fəaliyyət göstərirdi ki, bu da Azərbaycanda mövcud dövlət kütləvi kitabxanalarının təqribən 80 faizini təşkil edirdi.[355] Həmin dövrdə M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının mərkəzləşdirmə istiqamətindəki metodik fəaliyyəti məzmun və təşkilati, forma və üsul baxımından yeni mərhələyə daxil olmuşdu. Bu mərhələ ilk növbədə mərkəzləşdirmə prosesinin ilkin yekunlarını ümumiləşdirən, artıq fəaliyyətdə olan MKS-lərin fəaliyyətini tənzimləyən metodik vəsaitlərin meydana gəlməsini tələb edirdi. Bu baxımdan 1978-ci ildə kitabxananın elmi-metodik şö'bəsi tərəfindən Mədəniyyət Nazirliyinin kollegiyasına təqdim edilmiş «Azərbaycan SSR Mədəniyyət Nazirliyi sistemində olan kitabxanaların mərkəzləşdirilməsinin vəziyyəti haqqında» analitik arayış mərkəzləşdirmə prosesini elmi-metodik və təcrübi baxımdan vəhdətdə ümumiləşdirib təhlil etmək və bu prosesin inkişaf meyllərini düzgün müəyyənləşdirmək istiqamətində irəli atılmış bir addımdır. O, eyni zamanda Dövlət Kitabxanasının metodik fəaliyyətinin elmi-nəzəri əsaslarının güclənməsini sübut edən bir sənəddir. Burada son üç il ərzində respublikada dövlət kütləvi kitabxanalarının mərkəzləşdirilməsi prosesinin mühüm mərhələləri təhlil edilmiş, bu məqsədlə həyata keçirilmiş təşkilati-metodik tədbirlər açıqlanmışdı. Sənəddə mərkəzləşmə prosesində MKS-lərdə vahid fond və soraq-mə'lumat aparatının təşkili, mühüm kitabxana proseslərinin, o cümlədən, kitabxana fondlarının mərkəzləşdirilməsi, çap əsərlərinin vahid metodika əsasında təsviri və təsnifləşdirilməsi, oxuculara xidmət işinin, MKS-lərin fəaliyyətinin planlaşdırılması və s. işlərin mərkəzləşdirmə nəticəsində daha da optimallaşdırılması konkret MKS-lərin nümunəsində geniş işıqlandırılmışdı. Daha sonra bu sənəddə son iki il ərzində Sumqayıt şəhər MKS-dən başqa Salyan, Xanlar, Yevlax, Xaçmaz və Xocavənd (Martuni) rayonlarında mərkəzləşdirməyə dair qabaqcıl təcrübə məktəblərinin formalaşması sahəsində aparılan təşkilati-metodik işlər geniş şərh edilmişdi.

Beləliklə, bu sənəd Azərbaycanda kitabxana işinin mərkəzləşdirilməsi prosesinin elmi-metodik baxımdan təhlil edilməsi sahəsində ilk mühüm tədqiqat kimi qiymətləndirilə bilər.

Qeyd etdiyimiz kimi, Azərbaycanda kitabxana işinin mərkəzləşdirilməsi, dövlət kitabxanalarının xeyli hissəsinin artıq vahid kitabxana birliyi kimi fəaliyyət göstərməsi onların işinin metodik baxımdan normativ sənədlərlə tənzimlənməsini tələb edirdi. Bu sahədə ilk təşəbbüs Dövlət Kitabxanası tərəfindən 1979-cu ildə göstərildi və həmin il MKS-lərin normativ-texniki sənədlərini özündə əks etdirən xüsusi məcmuə nəşr edildi.[356] Həmin məcmuə ilk növbədə MKS şəraitində fəaliyyət göstərən kitabxanalar üçün nəzərdə tutulmuşdu. Burada bütün MKS-lərin normal fəaliyyəti üçün zəruri olan materiallar, o cümlədən, onların şö'bə, bölmə və filialları

---

[355] M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanası elmi-metodik şö'bəsinin 1978-ci il hesabatı.-S.7.

[356] Mərkəzləşdirilmiş kitabxana sistemi bölmələrinin nümunəvi əsasnamələri, kitabxana işçilərinin vəzifə tə'limatları və uçot formaları/Tərtib edəni:L.Qafurova və B.M.Səfiyev.-B.,1979.-130 s. (M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanası).

haqqında əsasnamələr, əməkdaşların tutduqları vəzifələr barədə tə'limatlar, gündəlik iş proseslərinə dair uçot formaları, müxtəlif əməliyyat və iş proseslərinin akt formaları, sənəd nümunələri və blanklar, eləcə də MKS-lərdən nümunəvi istifadə qaydaları öz əksini tapmışdı. Belə bir məcmuənin meydana gəlməsi əvvəllər kitabxanalarda hökm sürən hüquqi boşluğu aradan qaldırır, kitabxanalarda həyata keçirilən mühüm texnoloji prosesləri tə'limati-metodik baxımdan tənzimləmək üçün əlverişli imkan yaradırdı.

Ümumiyyətlə, 1979-1980-ci illərdə respublikada dövlət kütləvi kitabxanalarının mərkəzləşdirilməsi metodik tə'minatı baxımından gərgin və səmərəli olmuşdur. 1980-ci ildə artıq Azərbaycanın bütün dövlət kütləvi kitabxanaları öz fəaliyyətini mərkəzləşdirilmiş qaydada həyata keçirirdi.

1979-1980-ci illərdə M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanası öz metodik fəaliyyətini iki mühüm istiqamətdə həyata keçirirdi: birinci istiqamət – respublikada dövlət kütləvi kitabxanalarının mərkəzləşdirilməsinin başa çatdırılmasına yönəldilmiş tədbirlər; ikinci istiqamət - son üç il ərzində formalaşmış mərkəzləşdirilmiş kitabxana sistemlərinin metodik tə'minatının düzgün təşkili və onların fəaliyyətinin istiqamətləndirilməsi idi.

Birinci istiqamət üzrə, yə'ni respublikanın bütün şəhər və rayonlarında MKS-lərin formalaşmasını başa çatdırmaq, onların struktur quruluşunu təkmilləşdirmək və yeni formada yüksək kitabxana-biblioqrafiya xidməti köstərmək məqsədi ilə konkret tədbirlər görülürdü. Məsələn, Dövlət Kitabxanası 1979-cu ildə yerlərə, xüsusilə kənd rayonlarına 261 gediş təşkil etmiş, 369 məsləhət vermiş, 39 adda metodik tə'limat, 18 seminar müşavirə, 29 mə'ruzə hazırlamışdı və 51 nəfər ixtisasartırmada iştirak etmişdi.[357] Bu tədbirlərin əksəriyyəti bu və ya digər dərəcədə kitabxanaların mərkəzləşdirilməsi ilə əlaqədar idi. Həmin il Dövlət Kitabxanasında 26 rayonun 600-dən çox kitabxana işçisini təmsil edən 5 zona müşavirəsi təşkil edilmişdi. Bu müşavirələrdə MKS-lərin fəaliyyəti ilə əlaqədar 2 xüsusi məsələ müzakirə edilmişdi:

1.MKS-lərin uçot-hesabat işlərinin təşkili;

2.MKS-lərin vahid kitab fondlarının köhnəlmiş ədəbiyyatdan təmizlənməsi qaydaları.

Əvvəllər olduğu kimi bu illərdə də MKS-ləri formalaşdırmaq məqsədi ilə Dövlət Kitabxanasının metodistləri və digər təcrübəli əməkdaşları Ağdam, Ağdaş, Astara, Bərdə və s. rayonlarda gərgin təşkilati işlər aparır, mərkəzləşdirmə şəraitində vahid fondun təşkili, mərkəzi soraq-biblioqrafiya aparatının yaradılması, texnoloji proseslərin vahid metodika əsasında həyata keçirilməsi, MKS-in struktur quruluşu və fəaliyyətinə dair müxtəlif sənədlərin və tə'limatların tərtib edilib icra hakimiyyəti orqanlarında təsdiqlənməsi ilə məşğul olur, bu məsələlər ətrafında kitabxana işçiləri üçün seminarlar və praktikumlar təşkil edir, bilavasitə iş yerlərində məsləhətlər verirdilər. Nəticədə 1979-cu ilin sonunda respublikamızda artıq 53 MKS fəaliyyət göstərirdi.

Kitabxanaların mərkəzləşdirilməsinin çox vacib təşkilati məsələlərinin, ayrı-ayrı şəhər və rayonlarda MKS-lərin təşkilinə və formalaşmasına konkret əməli köməkliyin çoxalması və daha məqsədyönlü olması göstərirdi ki, Dövlət Kitabxanasının elmi-metodik fəaliyyəti təkmilləşdirilmişdir və kitabxana təcrübəsi ilə sıx əlaqə əsasında inkişaf etməkdədir. Bu fikri kitabxananın metodik fəaliyyətinin əsas göstəriciləri bir daha təsdiqləyir. Belə ki, 1980-ci ildə kitabxanalara 34 gediş təşkil edilmiş, bütün MKS-lər 10 adda yeni metodik vəsaitlə tə'min edilmiş, yerlərdə 281 məsləhət, seminar məşğələsi və praktikum keçirilmişdi.

M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının təşkilati-metodik fəa-

---

[357] M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanası elmi-metodik şö'bəsinin 1979-cu il hesabatı.- S.4.

liyyətinin ən mühüm nailiyyəti dövlət kütləvi kitabxanalarının (Bakı şəhəri istisna olmaqla) mərkəzləşdirilməsinin başa çatdırılması idi.[358]

1980-ci ildə respublikada 74 MKS fəaliyyət göstərirdi ki, bunların 69-u rayonlarda, 5 isə şəhərlərdə idi. Bütün MKS-lərdə 3309 filial kitabxana fəaliyyət göstərirdi.[359]

MKS-lərin yaradılması kitabxanaların potensialını xeyli artırmış, kitabxana xidmətində mütərəqqi iş üsullarının tətbiqi üçün əlverişli şərait yaratmışdı.

Kitabxanaların mərkəzləşdirilməsinin ilk nailiyyətlərindən bəhs edən professor A.A.Xələfov qeyd edir ki, «Mərkəzləşmə zamanı kütləvi kitabxanaların kitab fondu 5 milyon nüsxə, kitab verilişi 9 milyon nüsxə, oxucuların sayı 513 min nəfər artmış, 332 yeni kitabxana açılmışdır».[360]

Qeyd etdiyimiz kimi, respublikada dövlət kütləvi kitabxanalarının mərkəzləşdirilməsinin 1980-ci ildə başa çatdırılması əsaslı dərəcədə M.F.Axundov adına Azərbaycan Dövlət kitabxanasının təşkilati-metodik fəaliyyətinin uğurlu nəticəsi idi. Bu fikri dövlət kitabxanasının 70-ci illərin ikinci yarısında həyata keçirdiyi tədbirlərin miqdar göstəriciləri bir daha təsdiq edir. Belə ki, 1975-1980-ci illərdə kitabxanaların mərkəzləşdirilməsi ilə əlaqədar Dövlət Kitabxanası tərəfindən yerlərə 1567 gediş təşkil edilmiş, 349 seminar və praktikum keçirilmiş, 2688 məsləhət və tövsiyə verilmiş, 2 məcmuə hazırlanıb nəşr edilmiş, 5 qabaqcıl təcrübə məktəbi formalaşmış və s. işlər görülmüşdür.[361]

Kitabxanaların mərkəzləşdirilməsi ilə bağlı M.F.Axundov adına Dövlət Kitabxanasının təşkilati-metodik şö'bəsinin işçiləri ilə yanaşı, komplektləşdirmə, soraq-biblioqrafiya, xidmət, not-musiqi və xidmət şö'bələrinin əməkdaşları da fəallıq göstərirdilər.

Ümumiyyətlə, respublikada kitabxana işinin mərkəzləşdirilməsi prosesində Dövlət Kitabxanasının əməkdaşlarından L.Qafurovanın, Q.Məmmədovun, M.Həsənovun, S.Allahverənovun, F.Məmmədovun, D.Bayramovun, T.Alıyevin, Ç.Məmmədovun, N.Şorkinanın və başqalarının xüsusi xidmətləri olmuşdur.

1980-ci ildə M.F.Axundov adına Dövlət Kitabxanasının təşkilati-metodik fəaliyyətinin elmi əsaslarla zənginləşməsinə şərait yarandı. Həmin ildən kitabxananın tarixində ilk dəfə olaraq «Elmi əsərlər» nəşr edilməyə başladı.[362] Azərbaycanda kitabxanaşünaslıq sahəsində olduqca əlamətdar hadisə sayılan «Elmi əsərlər»in nəşrə başlaması tanınmış elm və mədəniyyət xadimləri tərəfindən (A.Xələfov, B.Vahabzadə, Ə.Mirəhmədov, P.Xəlilov) rəğbətlə qarşılanmış və onlar həmin nəşrin əhəmiyyətini birinci buraxılışda ətraflı şərh etmişlər. Görkəmli xalq şairi, akademik Bəxtiyar Vahabzadə bu nəşrin meydana gəlməsini Dövlət Kitabxanasının respublikamızda kitabxana işinin «baş qərargahından» kitabxanaşünaslıq elminin «baş qərargahına» çevrilməsi kimi qiymətləndirirdi. Akademik Əziz Mirəhmədov isə «Əsərləri» «Azərbaycanımızda kitabxanaşünaslığı elmin müstəqil qolu kimi görmək arzusunun həqiqətə çevrilməsi» kimi şərh edirdi.[363]

M.F.Axundov adına Dövlət Kitabxanasının «Elmi əsərlər»inin meydana gəlməsi mərkəzləşmə prosesində həyata keçirdiyi mürəkkəb və çoxşaxəli elmi-metodik fəaliyyətin zəruri nəticəsi idi. Mübaliğəsiz demək olar ki, məhz mərkəzləşmə

---

[358] M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanası elmi-metodik şö'bəsinin 1980-ci il hesabatı.-S.30-31.

[359] M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanası elmi-metodik şö'bəsinin 1980-ci il hesabatı.-S.17.

[360] Xələfov A.A. Azərbaycanda kitabxana işinin mərkəzləşdirilməsinin bə'zi yekunları və təkmilləşdirilməsi məsələləri// Azərbaycanda kitabxana işinin mərkəzləşdirilməsi məsələləri (tematik məcmuə).-B.,1986.-S.10.

[361] M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanası elmi-metodik şö'bəsinin 1975-1980-ci il hesabatları.

[362] M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının elmi əsərləri. Bur.1.-B.,1980.-180 s.

[363] Yenə orada-S.6.

dövründə Dövlət Kitabxanasının təşkilati-metodik fəaliyyətində elmi təhlil meydana gəlmiş, mərkəzləşmə proseslərini kitabxanaşünaslıq tədqiqatlarının nəticələrinə əsasən təşkil etmək üsulları formalaşmağa başlamışdı. Elə bu səbəbdən Dövlət Kitabxanasının metodik fəaliyyəti elmi əsaslarla inkişaf etməyə başlamışdı.

Mərkəzləşdirmə prosesinin başa çatdırılması metodik mərkəzlərin və ilk növbədə kitabxana işi üzrə baş metodik mərkəz olan M.F.Axundov adına Dövlət Kitabxanasının metodik fəaliyyətində yeni keyfiyyətlərin formalaşması zərurətini irəli sürürdü. 80-ci illərdən başlayaraq Dövlət Kitabxanasının metodik fəaliyyətinin başlıca vəzifəsi yeni formalaşmış MKS-lərin problemləri ilə hərtərəfli məşğul olmaqdan, onların inkişafına səmərəli tə'sir göstərməkdən ibarət idi. Ona görə də Dövlət Kitabxanası metodik fəaliyyətini artıq MKS-lərin fəaliyyətinə uyğun şəkildə qurmağa çalışırdı. Çünki MKS-lərdə təşkilati-metodik şö'bələrin yaradılması ilə əlaqədar respublikanın bütün şəhər və rayon mərkəzlərində yeni metodik mərkəzlər formalaşmağa başlamışdı. Belə bir şəraitdə Dövlət Kitabxanasının ən mühüm vəzifəsi məhz MKS-lərin mərkəzi kitabxanalarının metodik mərkəz kimi formalaşmasını tə'min etməkdən ibarət idi.

80-ci illərdə M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının metodik fəaliyyətinin əsas istiqamətlərini belə qruplaşdırmaq olar:

-MKS-lərin fəaliyyətini istiqamətləndirmək, onların filial kitabxanaları üzrə metodik mərkəz kimi formalaşmasını tə'min etmək;

-Dövlət Kitabxanasının metodik fəaliyyətini MKS-lərin metodik fəaliyyəti ilə əlaqələndirmək;

-Dövlət Kitabxanasının metodik fəaliyətini respublikanın digər metodik mərkəzləri ilə əlaqəli şəkildə təşkil etmək;

-mərkəzləşmə şəraitində respublikanın rayon və şəhərlərində əhaliyə kitabxana xidmətinin xüsusiyyətlərini təhlil edib metodik fəaliyyəti yeni şəraitə uyğunlaşdırmaq;

-qabaqcıl MKS-lərin iş təcrübəsini ümumiləşdirib təbliğ etmək;

-kitabxanaçılıq fəaliyyətində ölkə və dünya təcrübəsində meydana gələn yeni mütərəqqi istiqamətləri öyrənib tətbiq etmək;

-kitabxanaların fəaliyyətinin optimallaşdırılmasına yönəlmiş yeni, müasir tipli orijinal metodik vəsait tərtib etmək, SSRİ-nin metodik mərkəzləri tərəfindən hazırlanmış müvafiq vəsaitləri Azərbaycan dilinə tərcümə etmək;

-təşkilati-metodik fəaliyyətin elmi bazasını möhkəmləndirmək, onu kitabxananın elmi tədqiqat fəaliyyəti ilə daha sıx əlaqələndirmək.

Qeyd edək ki, bu vəzifələri həyata keçirmək üçün M.F.Axundov adına Dövlət Kitabxanasında bütün şərait (təcrübəli əməkdaşlar, geniş elmi-metodik və elmi-tədqiqat şö'bələri, pul vəsaiti, maddi-texniki baza və s.) var idi.

80-ci illərin əvvəllərində M.F.Axundov adına Dövlət Kitabxanasının metodik fəaliyyəti ilk növbədə mərkəzləşmə prosesində hələ də tamamlanmamış, lazımi dərəcədə formalaşmamış yeni iş üsullarının həyata keçirilməsinə yönəldilmişdi. Belə problemlər isə az deyildi. Məsələn, bir çox MKS-lərdə hələ də vahid fondun komplektləşdirilməsi, uçotu, sistemləşdirilməsi məsələləri təşkilati və metodik baxımdan çətinliklərlə üzləşirdi. Belə çətinliklər Gəncə, Daşkəsən, Bərdə, Şamaxı, Zərdab, Goranboy (Qasım İsmayılov), Ağdaş və s. rayon və şəhər MKS-lərində daha çox nəzərə çarpırdı.

Ən çox narahatlıq yaradan problem MKS-lərin vahid fondlarının komplektləşdirilməsindəki nöqsanlar idi. Bu nöqsanların aradan qaldırılması məqsədi ilə M.F.Axundov adına Dövlət Kitabxanasının bir qrup metodisti komplektləşdirmə şö'bəsinin işçiləri ilə birlikdə respublikanın şəhər və rayon MKS-lərinin komplektləşdirmə məsələlərini il ərzində diqqətlə işləyib, müvafiq sənədləri təhlil edərək bu işdə əsaslı dönüş yaratmaq üçün Mədəniyyət Nazirliyinə, «Azərkitab» rəhbərliyinə və bilavasitə respublika Kitabxana Kollektoruna əsaslı və olduqca əhəmiyyətli töv-

siyələr vermişdi.

MKS-lərin vahid fondlarının cari ədəbiyyatla komplektləşdirilməsinin təhlili göstərdi ki, Respublika Kitabxana Kollektoru yerlərdə fəaliyyət göstərən kitabxanaların təsərrüfat və sahə profilini nəzərə almır, ədəbiyyat göndərərkən MKS-lərin sifarişlərinə əməl etmir, bu məqsədlə ayrılmış vəsaitdən səmərəli istifadə edilmir. Nəticədə bir çox rayon və şəhər MKS-lərin vahid fonduna daxil olan ədəbiyyat həmin regionların oxucu sorğularına cavab vermir, fondlarda boşluqlar yaradır, eyni zamanda kitabxana fondlarında lüzumsuz çoxnüsxəli kitabların xüsusi çəkisini artırır. Bütün bunlar MKS-lərdə bir tərəfdən ədəbiyyat artıqlığına, digər tərəfdən isə ədəbiyyat və informasiya qıtlığına gətirib çıxarırdı.

Problemi dərindən və hərtərəfli öyrənmək məqsədi ilə Dövlət Kitabxanası tərəfindən Daşkəsən, Ağdaş, Xocavənd (Martuni), Qubadlı, Kürdəmir, Lerik, Sabirabad, Masallı, Lənkəran, Şahbuz, Xaçmaz, Babək rayon MKS-lərinin vahid kitabxana fondlarının cari ədəbiyyatla komplektləşdirilməsi vəziyyəti ətraflı təhlil edilmiş, bu sahədə Kitabxana Kollektorunun fəaliyyətindəki ciddi nöqsanlar aşkara çıxarılmışdı.[364]

Dövlət Kitabxanası və Mədəniyyət Nazirliyi tərəfindən Nəşriyyat Komitəsinə və Kitabxana Kollektoruna təqdim edilən metodik tövsiyələr faktik olaraq respublikada mərkəzləşdirilmiş kitabxana sistemlərinin yeni nəşrlərlə komplektləşdirilməsinin əsaslı surətdə qaydaya salınması konsepsiyası idi. Burada cari komplektləşdirmə prosesini optimallaşdırmaq məqsədi ilə nəşriyyatların tematik planları ilə aparılan işlər, bu sahədə biblioqrafik axtarışların həyata keçirilməsi, cari komplektləşdirmənin planlaşdırılması, uçotu, təşkili və idarə olunması, yeni ədəbiyyat haqqında kitabxana işçiləri üçün informasiya xidmətinin yaradılması və s. məsələlərlə bağlı MKS-lərin, Kitabxana Kollektorunun və Dövlət Nəşriyyat Komitəsinin görəcəyi işlərin geniş şərhi verilmişdi. Bununla yanaşı, M.F.Axundov adına Dövlət Kitabxanası tərəfindən «Kitabxana seriyası» adı ilə zəruri olan 2336 adda kitab müəyyənləşdirilmiş və Nəşriyyat Komitəsinə sifariş kimi təqdim olunmuşdu.[365]

Qeyd etmək lazımdır ki, Dövlət Kitabxanasının MKS-lərin yeni ədəbiyyatla təchiz edilməsinə dair hazırladığı metodik tövsiyələr hazırda da öz aktuallığını itirməmişdir və hətta orada irəli sürülən müddəaların müasir dövrdə həyata keçirilməsi bu işin yeni şəraitə uyğun tənzimlənməsinə olduqca güclü tə'sir edə bilər.

80-ci illərdə MKS-lərin və böyük kütləvi kitabxanaların qarşısında duran ən mühüm təşkilati-metodik məsələlərdən biri sistemli kataloqların və kitab fondlarının yeni Kitabxana-Biblioqrafiya Təsnifatına keçirilməsi, yə’ni kitabxana fondları və kataloqların bu təsnifat sistemi əsasında təşkili idi.[366]

Bu məqsədlə Azərbaycan Mədəniyyət Nazirliyi 20 aprel 1979-cu ildə «Respublikanın kütləvi və uşaq kitabxanalarında Kitabxana-Biblioqrafiya Təsnifatının tətbiq edilməsi haqqında» 150 №-li xüsusi qərar qəbul etmişdi. Bu qərara uyğun olaraq Dövlət Kitabxanası «1981-1985-ci illərdə Azərbaycan SSR kütləvi və uşaq kitabxanalarında Kitabxana-Biblioqrafiya Təsnifatının tətbiq edilməsinə dair tədbirlər planı» qəbul etdi.[367] Planda kitabxanaların yeni təsnifat sisteminə keçirilməsinin mərhələləri, kitabxana işçilərinin yeni təsnifat sistemini mənimsəməsinə və bu mürəkkəb təşkilati-metodik tədbirin yerlərdə təşkilinə dair xeyli işlər nəzərdə tutulmuşdu.

Kütləvi və uşaq kitabxanalarında KBT-nin tətbiq edilməsinə dair Dövlət Kitabxanasının həyata keçirdiyi ilk əhəmiyyətli tədbir 1981-ci il noyabrın 25-də təşkil

---

[364] M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanası elmi-metodik şö’bəsinin 1981-ci il hesabatı.-S.25-26.

[365] M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanası elmi-metodik şö’bəsinin 1981-ci il hesabatı.-S.28-30.

[366] Библиотечно-библиографическая классификация (ББК):Таблица для массовых библиотек.-М.:Книга,1977.-430 с.; Yenə həmin nəşr.-M., 1986.-535 s.

[367] M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanası elmi-metodik şö’bəsinin 1981-ci il hesabatı.-S.17.

etdiyi ümumrespublika kitabxana işçilərinin seminarı oldu.[368] Seminarda SSRİ-də kitabxana işi üzrə baş metodik mərkəz olan Ümumittifaq Dövlət Kitabxanasının bir qrup mütəxəssisi də iştirak edirdi. Ümumiyyətlə, 200 nəfərdən artıq kitabxana işçisinin iştirak etdiyi bu tədbirdə respublikada KBT-nin tətbiqinin mühüm məsələləri müzakirə obyektinə çevrildi. Seminarda respublikanın kütləvi və uşaq kitabxanalarında KBT-nin tətbiqinə dair hazırlıq işlərinə, fondun və kataloqların yeni təsnifat sisteminə keçirilməsinin metodik tə'minatına dair konkret tədbirlər müəyyənləşdirildi. Bunların içərisində KBT-nin Azərbaycan dilinə tərcümə edilməsi, onun tətbiqinə dair qabaqcıl təcrübə bazalarını formalaşdırmaq üçün (Sumqayıt, Abşeron və Yevlax MKS-lərində) lazımi tə'limati-metodik sənədlərin hazırlanması, fond və kataloqların KBT üzrə yenidən təşkilinin işçi proqramının və həyata keçirilmə cədvəlinin tutulması, bütövlükdə prosesin idarə olunması, maddi texniki bazasının tə'min edilməsi, kitabxanalararası əlaqələndirmə və s. məsələlər də nəzərdə tutulurdu.

Kitabxanalarda KBT-nin tətbiqinin metodik tə'minatını sistemli şəkildə həyata keçirmək üçün Dövlət Kitabxanasının nəzdində metodik komissiya təşkil edilmişdi. Bütün bunlar 1981-1985-ci illərdə KBT-nin kütləvi və uşaq kitabxanalarında tətbiqinin məqsədyönlü təşkilinə zəmin yaratdı və nəticədə 80-ci illərin sonuna qədər bu mürəkkəb və çətin proses demək olar ki, uğurla başa çatdı.

Qeyd etmək lazımdır ki, bu məqsədlə yalnız 1981-ci ildə Dövlət Kitabxanası 3 seminar, 28 stajirovka, 312 məsləhət və 60-dan çox yerlərə gedişlər təşkil etmişdi.[369]

Ümumiyyətlə, 80-ci illərdə kitabxanaların mərkəzləşdirilməsinə və ölkədə kitabxana quruculuğunun qanunauyğunluqlarına uyğun olaraq kitabxanaların funksiyaları mürəkkəbləşmiş, cəmiyyətin həyatında, ideoloji və informasiya işinin ümumi sistemində, elmi-texniki tərəqqidə onların rolu yüksəlmiş, bununla əlaqədar olaraq metodik mərkəzlərin, ilk növbədə M.F.Axundov adına Dövlət Kitabxanasının qarşısında yeni tələblər qoyulmuşdu. Kitabxana fondlarından istifadə səmərəliliyinin yüksəlməsi, kitabxana proseslərinin standartlaşdırılması, rayon və kənd kitabxanalarının mədəni-maarif funksiyalarının daha da genişləndirilməsi informasiya funksiyalarının inkişaf etdirilməsi və s. problemlər MKS-lərin fəaliyyətinin təkmilləşdirilməsini və bu istiqamətdə Dövlət Kitabxanasının metodik fəaliyyətinin müvafiq problemlərin həllinə yönəldilməsini tələb edirdi.

Dövlət Kitabxanasının metodik fəaliyyətində baş verən ən mühüm keyfiyyət dəyişikliyi metodik köməyin bilavasitə yerlərdə təşkil edilməsi idi. Təcrübəli metodistlərin kitabxana işçilərini bilavasitə yerlərdə, iş prosesində tə'limatlandırması səmərəli nəticələr verirdi. Bu iş üsulu xüsusən 1975-1980-ci illərdə - kitabxanaların mərkəzləşdirilməsi dövründə özünü doğrultmuşdu. Qeyd etdiyimiz kimi, yeni metodik mərkəzlərin yaradılması ilk növbədə kənd kitabxanalarının fəaliyyətini bilavasitə yerlərdə istiqamətləndirməyə hərtərəfli şərait yaratmışdı. Metodik tə'minat artıq şəhər və rayon MKS-lərin öhdəsinə düşürdü. Bu baxımdan mərkəzi kitabxanalar filial kitabxanalarının metodik tə'minatında M.F.Axundov adına Dövlət Kitabxanasının dayaq bazası rolunu həyata keçirirdi. Məhz bu səbəbdən Dövlət Kitabxanasının metodik fəaliyyətinin əsas istiqaməti MKS-lərin mərkəzi kitabxanalarını müvafiq ərazidə metodik mərkəzə çevirməyə yönəlmişdi. Bu məqsədlə Dövlət Kitabxanası 80-ci illərin birinci yarısında metodistlərin və digər əməkdaşların iştirakı ilə tez-tez yerlərə fərdi və briqada şəklində gedişlər təşkil edirdi. Belə gedişlər zamanı mərkəzi kitabxanaların əməkdaşları üçün mühazirə, mə'ruzə, çıxış, şifahi və yazılı tövsiyələr hazırlanır, müxtəlif məsələlərə dair praktikumlar keçirilirdi.

Qeyd etmək lazımdır ki, yerlərdə həyata keçirilən metodik tədbirlərə çox düzgün olaraq yalnız metodistlər deyil, mərkəzi kitabxananın bütün məs'ul işçiləri,

---

[368] Yenə orada.-S.17-18.

[369] M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanası elmi-metodik şö'bəsinin 1981-ci il hesabatı.-S.33.

xüsusən şö'bə və qrup rəhbərləri və digər işçilər cəlb edilirdi. Çünki mərkəzləşmə şəraitində MKS-in mərkəzi kitabxanasının metodik fəaliyyəti yalnız metodistlərin fəaliyyəti ilə məhdudlaşmırdı. Hər bir MKS-də metodik mərkəz statusu almış şəhər və rayon mərkəzi kitabxanası bütövlükdə bu funksiyanı yerinə yetirməli idi.

**1981-1985-ci illərdə M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının şəhər və rayon MKS-lərinə yerlərdə köməyinin əsas göstəriciləri[370]**

| İllər | Yerlərə gedişlərin ümumi sayı | Gedişlər zamanı əhatə edilən rayonların sayı | Yerlərdə təşkil edilmiş məsləhət və digər tədbirlər |
|---|---|---|---|
| 1981 | 55 | 60 | 312 |
| 1982 | 35 | 55 | 320 |
| 1983 | 51 | 64 | 227 |
| 1984 | 56 | 64 | 331 |
| 1985 | 63 | 80 | 271 |
| Cəmi: | 253 | 303 | 1461 |

Bu illər eyni zamanda M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının metodik fəaliyyət sistemində müxtəlif tipli vəsaitlərin (tövsiyələr, tə'limatlar, göstərişlər və s.) xüsusi çəkisinin artması dövrü kimi xarakterizə edilə bilər.

80-ci illərin birinci yarısında meydana gələn metodik vəsaitlərin bir qismi ictimai-siyasi həyatın məhsulu kimi həmin dövrdə partiya və dövlət tərəfindən irəli sürülən siyasi kampaniyalar və tarixi hadisələrlə əlaqədar idi. V.İ.Leninə, Sov.İKP-yə, əlamətdar hadisələrə və yubileylərə, SSRİ-də və Azərbaycan SSR-də həyata keçirilən siyasi hadisələrə həsr edilən, peşəkarlıq baxımından zəif olan, daha çox siyasi məzmun daşıyan belə vəsaitlər dövrün ümumi ruhuna uyğun gəlirdi.

Metodik vəsaitlərin digər qismi Azərbaycan Respublikasının həyatındakı tarixi hadisələrə, görkəmli şəxslərin, elm və mədəniyyət xadimlərinin həyat və yaradıcılığına, tarixi və əlamətdar günlərə həsr edilmişdi. Bunlar məzmun baxımından öz orijinallığı ilə fərqlənməyən, lakin həmin məsələlərlə bağlı ədəbiyyat təbliğinə kömək edən metodik-biblioqrafik materiallar idi. «H.Ərəblinskinin 100 illiyi və kitabxanaların vəzifələri» (1981), «Nizami Gəncəvinin 840 illiyi və kitabxanaların vəzifələri» (1981), «Mir Möhsün Nəvvab: anadan olmasının 150 illiyi» (1984), «Qasım bəy Zakir: anadan olmasının 200 illiyi», «Üzeyir Hacıbəyov və Müslüm Maqomayevin anadan olmasının 100 illiyi və kitabxananın vəzifələri» (1985) və s. vəsaitləri buna misal göstərmək olar.

Həmin dövrdə Dövlət Kitabxanası tərəfindən hazırlanmış vəsaitlərin çoxu məzmun, problemin qoyuluşu və həlli baxımından bu gün də öz aktuallığını itirməmişdir.

Belə sanballı vəsaitlər metodik tə'minatın operativ forması olub, əhaliyə kitabxana xidmətinin təşkili və təkmilləşdirilməsinə dair yeni ideyaları, mütərəqqi iş üsullarını, kitabxanaşünaslıq elminin son nailiyyətlərini eyni vaxtda bütün kitabxanalar arasında yaymağa imkan verirdi. O dövrdə meydana gəlmiş bir neçə mühüm vəsaitin qısa şərhini verək.

1981-ci ildə Dövlət Kitabxanası tərəfindən hazırlanmış «Kütləvi kitabxanalarda çap əsərlərinin biblioqrafik təsvirinin öyrənilməsi və tətbiqinə dair metodik məsləhətlər» adlı vəsait kitabxana işçilərinə gündəlik əməli köməklik baxımından olduqca qiymətli idi.[371] Burada kitabxana işinin çox mühüm komponentini təşkil edən çap əsərlərinin təsvirinə dair son illər SSRİ-nin bir sıra mərkəzi kitabxanaları tərəfindən hazırlanmış dövlət standartlarının məzmunu açılır, biblioqrafik təsvirlərin mühüm ünsürlərinin yerləşdirilməsi konkret nümunələrlə izah edilirdi. Vəsaitdə çap əsərlərinin biblioqrafik təsviri vasitəsilə kitabxanalarda kataloq sisteminin mükəmməl təşkilinə dair Azərbaycan kitabxanalarının xüsusiyyətlərini nəzərə alan biblioqrafik təsvir nümunələri, onların tərtibi qaydaları ətraflı şərh edilirdi.

---

[370] Hesablama kitabxananın 1981-1985-ci illərə dair uçot və hesabat sənədləri əsasında aparılmışdır.

[371] Kütləvi kitabxanalarda çap əsərlərinin biblioqrafik təsvirinin öyrənilməsi və tətbiqinə dair metodik məsləhətlər.-B.,1981.-20 s.

Həmin il nəşr edilmiş kitabxanalararası abonement xidmətinin təşkili ilə bağlı vəsait də diqqəti cəlb edir.[372] Burada kitabxanalarda oxuculara xidmət işinin çox mühüm istiqamətini təşkil edən KAA-nın əhəmiyyəti və bu işin təşkilinin ümumi məsələləri, KAA vasitəsilə sifarişvermə qaydaları, KAA yolu ilə alınan ədəbiyyatın istifadəsi və müvafiq əməliyyatların sənədləşdirilməsi, KAA xidmətinin köməkçi aparatının yaradılması və istifadəsi, qeydiyyat və uçot məsələləri, eləcə də KAA işinin hesabat forması və digər məsələlər işıqlandırılmışdı.

80-ci illərdə M.F.Axundov adına Dövlət Kitabxanasının tərtib etdiyi metodik vəsaitlər içərisində yeni formalaşmış mərkəzləşdirilmiş kitabxana sistemlərinin idarə olunmasına, MKS-lərin fəaliyyətinin tənzimlənməsinə dair sənədlərin hazırlanması xüsusi əhəmiyyətə malik idi. Bu baxımdan 1983-cü ildə tərtib edilmiş «Kütləvi və universal kitabxanaların illik statistik hesabatının tərtibinə dair göstərişlər»[373] adlı metodik vəsait vaxtında hazırlanmış sənədlər məcmuəsi idi. Belə bir vəsaitin nəşri zərurəti ondan irəli gəlirdi ki, mərkəzləşdirilmə ilə əlaqədar kitabxanaların fəaliyyətinin xeyli mürəkkəbləşməsi MKS-lərin statistik hesabatlarında ciddi dəyişmələrin aparılmasına səbəb olmuşdu. Belə ki, kitabxanaların hesabat formalarına yeni bölmələr və göstəricilər daxil edilmiş, əvvəlki miqdar göstəriciləri tamamilə yeni məzmunda verilmişdi ki, həmin vəsaitdə bu yeniliklər ətraflı şərh edilmişdi. Burada kitabxanaların statistik hesablamaların tərtibi qaydaları, müxtəlif iş üsullarına dair (fondun hərəkəti, oxucuların sayı və gəlişi, kitab verilişi, sistemdaxili mübadilə, kütləvi işlər, kitabxana kadrları və s.) statistik hesabat formalarının doldurulması qaydaları Azərbaycan və rus dillərində geniş izah edilmişdir.

Bu dövrdə MKS-lərin fəaliyyətinin təkmilləşdirilməsinə yönəlmiş metodik vəsaitlər sistemində kitabxananın baş metodisti Dəmir Bayramov tərəfindən hazırlanmış və mərkəzləşdirmə şəraitində kitabxana fondlarının komplektləşdirilməsi, mühafizəsi, mübadiləsi və istifadəsinin təşkilinə həsr edilmiş metodik vəsait də diqqəti cəlb edir.[374] Həcmcə böyük olmayan, lakin öz orijinallığına və məzmununa görə fərqlənən bu vəsait MKS-lərdə vahid fondun formalaşması ilə əlaqədar olduqca qiymətli tövsiyələri və məsləhətləri əks etdirir. Vəsaitdə kitabxana fondlarının komplektləşdirilməsi, MKS-lər üçün tamamilə yeni iş üsulu olan sistemdaxili mübadilə, fondun tərkibinin elm sahələri üzrə nisbəti, nəhayət, kitab fondunun təşkili, yerləşdirilməsi, sistemdaxili əlaqələndirilməsi və istifadə səmərəliliyinə dair olduqca faydalı mülahizələr və tövsiyələr verilmişdir.

Dövlət Kitabxanasının 1983-cü ildə hazırlayıb nəşr etdirdiyi «Kütləvi kitabxanalarda kitabxana-biblioqrafiya təsnifatının tətbiqi»[375] adlı kitabça ən qiymətli metodik vəsaitlərdən biri kimi xarakterizə edilə bilər.

Bu illərdə kütləvi kitabxanaların fondlarının və kataloqlarının müntəzəm surətdə KBT cədvəlləri üzrə yenidən təşkil edilməsi şəraitində belə bir vəsaitin meydana gəlməsi bu prosesin metodik tə'minatında ən uğurlu addımlardan biri idi. Vəsaitin müstəsna əhəmiyyəti bir də onunla izah edilə bilər ki, bu vaxt respublikada KBT-nin Azərbaycan dilində tərcüməsi və ümumiyyətlə, ana dilimizdə bu təsnifat cədvəllərinin məzmununu açan heç bir qısaldılmış variant yox idi.

Vəsaitdə əvvəlcə KBT cədvəllərinin mahiyyəti açıqlanmış, onun əsas bölgülə-

---

[372] Kitabxanalararası abonement vasitəsilə oxuculara xidmət (metodik tövsiyələr).-B.,1981.-24 s. (M.F.Axundov adına ADK-nın elmi-metodik və kitabxanaşünaslıq şö'bəsi).

[373] Kütləvi və universal kitabxanaların illik statistik hesabatının tərtibinə dair metodik göstərişlər (6-NK forması üzrə)-B.,1983.-18 s.-(M.F.Axundov adına ADK).

[374] Mərkəzləşdirmə şəraitində kitabxana fondlarının komplektləşdirilməsi, mühafizəsi, sistemdaxili kitab mübadiləsindən və kitabxanalararası abonementdən səmərəli istifadənin təşkili: Metodik tövsiyələr /Tərtib edəni: D.Bayramov. -B., 1983. -26.s. (M.F.Axundov adına ADK-nın elmi-metodik və kitabxanaşünaslıq şö'bəsi).

[375] Kütləvi kitabxanalarda KBT-nin tətbiqi: Metodik tövsiyələr/ Tərtib edəni: S.N.Allahverənov.-B.,1983.-47 s. (M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının elmi-metodik kitabxanaşünaslıq şö'bəsi).

rinin Azərbaycan dilinə tərcüməsi verilmiş, sonra isə kitabxanalarda KBT əsasında təsnifləşdirmənin ümumi metodikası müfəssəl şəkildə izah edilmişdir. Burada müəllif kitabxanalarda çap əsərlərinin təsnifləşdirilməsi prinsiplərini, təsnifləşdirmə prosesinin mühüm mərhələlərini, elmin bütün sahələrinə dair kitabların sistemləşdirilməsinin özünəməxsus xüsusiyyətlərini, indeksləşdirmə qaydalarını, elmlərdaxili əlaqələrin düzgün müəyyənləşdirilməsi qaydalarını, hər bir sənədin xüsusi əlamətləri əsasında onun elmlər sistemində və o cümlədən, sistemli kataloqda yerini dəqiq müəyyənləşdirmək qaydalarını nəzəri və təcrübi baxımdan ətraflı və səlis şərh edə bilmişdir. Vəsaitdə kitabxanaların əməli fəaliyyəti üçün çox faydalı olan «Kitabxanalarda sistemli kataloqun tərtibi» adlı bölmə də verilmişdir.

80-ci illərdə kənd kitabxanalarının əksəriyyətində sistemli kataloqun olmadığı bir şəraitdə bu məsələ ilə əlaqədar metodik tövsiyələrin verilməsi olduqca əhəmiyyətli idi. Məhz buna görə də haqqında bəhs etdiyimiz vəsait o dövrdə respublikanın bütün kitabxanalarında KBT cədvəllərinin tətbiqində kitabxana işçilərinin stolüstü kitabı kimi istifadə edilirdi.

Qeyd etdiyimiz kimi, M.F.Axundov adına Dövlət Kitabxanasının 80-ci illərdəki metodik fəaliyyətinin ana xəttini yeni təşkil edilmiş mərkəzləşdirilmiş kitabxana sistemlərində ardıcıl və sistemdaxili idarəetmə prinsiplərinin formalaşması təşkil edirdi. Bu işin müvəffəqiyyətlə həyata keçirilməsi kitabxana təcrübəsində Dövlət standartlarının tətbiqini tələb edirdi. SSRİ məkanında hələ 70-ci illərdən əsası qoyulmuş kitabxana-biblioqrafiya proseslərinin mövcud Dövlət standartlarının tətbiqi artıq 80-ci illərdə respublika kitabxanalarının qarşısında duran ən mühüm vəzifələrdən biri idi.

Standartlaşmanın əsas məqsədi kitabxanaların işinin keyfiyyət və səmərəsinin artırılması, onların fəaliyyətində qabaqcıl təcrübənin və elmi nailiyyətlərin geniş tətbiqi, texnoloji proseslərin və iş metodlarının modernləşdirilməsi, planlaşdırmanın elmi əsaslarla təkmilləşməsi, eləcə də təşkilati-metodik tə'minatın və ümumiyyətlə, kitabxanaların idarə olunmasının səviyyəsinin yüksəldilməsindən ibarət idi.

Kitabxanalarda standartlaşdırma proseslərinin geniş tətbiqi sadəcə olaraq təşkilati-metodik tədbirlər kimi nəzərdə tutulmamış, uzun illərdən bəri kök salmış, artıq köhnəlmiş vərdişlərdən və stereotiplərdən azad olunmağa yönəlmişdi.

Bu baxımdan Dövlət Kitabxanasının 80-ci illərdə hazırladığı metodik vəsaitlər sistemində standartlaşdırma problemlərinə dair sənədlərin meydana gəlməsi cəmiyyətdə kitabxanaçılıq fəaliyyətinin səmərəliliyinin yüksəlməsinə xidmət edirdi.

Bu silsilədən standartlar haqqında metodik tövsiyələr[376] və abonementdə xidmətin uçot vahidlərinə aid Dövlət standartının tətbiqinə dair metodik göstərişlər[377] olduqca əhəmiyyətli idi. Birinci vəsaitdə əsasən kitabxana-biblioqrafiya sahəsinə aid SSRİ-də meydana gələn Dövlət standartları haqqında ümumi mə'lumat verilir, onların kitabxana işində əhəmiyyəti və tətbiqi məsələləri şərh edilirdi. İkinci vəsaitdə kitabxana və informasiya orqanlarında çox mühüm məsələ - abonementlərə xidmətin uçot vahidlərinə dair 7.41-82 Dövlət Standartının tətbiqinə dair geniş izahat verilirdi. Burada kitabxanaya gələnlərin uçotu, kitab verilişinin uçotu, oxucu sorğularına cavabların uçotu, kitabxanalarda təşkil edilən kütləvi tədbirlərin uçotu dünya kitabxanaçılıq standartlarına uyğun şəkildə hərtərəfli təhlil edilirdi.

M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanası tərəfindən hazırlanmış bu vəsaitlər, əlbəttə, orijinal sənədlər deyildi. Lakin əsasən rus dilində olan materiallar əsasında hazırlanmış bu kitabçalarda respublikamızın şəhər, rayon və kənd kitabxanalarında çalışan mütəxəssislərə müxtəlif kitabxana-biblioqrafiya proseslərinə dair SSRİ standartlarına uyğun geniş mə'lumat verilirdi.

---

[376] Kitabxana-biblioqrafiya sahəsinə dair standartlar haqqında metodik tövsiyələr.-B.,1983.-14 s. (M.F.Axundov adına ADK-nın elmi-metodik şö'bəsi).

[377] Kitabxana və elmi-texniki informasiya orqanları abonentlərinə və oxucularına xidmətin uçot vahidləri.-B.,1984.-19 s. (M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının elmi-metodik və kitabxanaşünaslıq şö'bəsi).

Qeyd etdiyimiz kimi, kitabxananın çap etdiyi metodik vəsaitlər içərisində siyasi kampaniyalar, tarixi günlər və yubileylərlə əlaqədar vəsaitlər çoxluq təşkil edirdi. Belə vəsaitlərə nümunə olaraq «Yaylaqlarda heyvandarlara kitabxana xidmətinin təşkili» (1981), «Kitabxanalarda mülki müdafiə ədəbiyyatının təbliği» (1982), «Kənd təsərrüfatı peşələrinin təbliği» (1983), «Maldarlara kitabxana xidmətinin təşkili» (1983), «V.İ.Lenin irsinin kitabxanalarda təbliği» (1984), «Kitabxanalarda hərbi-vətənpərvərliyə dair ədəbiyyatın təbliği» (1984), «Qışlaqlarda heyvandarlara kitabxana xidmətinin təşkili» (1985) və s. göstərmək olar. Bu vəsaitlərin əksəriyyəti demək olar ki, iki hissədən ibarət idi. Birinci hissədə kitabxana işinin müvafiq sahəsinə dair ümumiləşdirilmiş metodik tövsiyələr, ikinci hissədə isə həmin məsələ ilə əlaqədar mövcud ədəbiyyatın siyahısı verilirdi. Kitabxananın tarixi günlər və əlamətdar hadisələrlə bağlı metodik vəsaitləri içərisində partiya və dövlət xadimləri ilə yanaşı, Azərbaycan yazıçı və şairlərinə həsr olunmuş kitabçalar çoxluq təşkil edirdi. Bunlardan «Xalq yazıçısı Mirzə İbrahimov» (1981), «Hüseyn Ərəblinskinin anadan olmasının 100 illiyi» (1981), «Hüseyn Cavidin anadan olmasının 100 illiyi» (1982), «M.F.Axundovun anadan olmasının 170 illiyi» (1982), «Cəfər Cabbarlının anadan olmasının 85 illiyi» (1984), «B.Vahabzadənin anadan olmasının 60 illiyi» (1985) və s. göstərmək olar. Bu vəsaitlər də bir qayda olaraq iki hissədən ibarət idi. Birinci hissədə şair və yazıçıların əsərlərinin kitabxanalarda təbliğinə dair metodik göstərişlər, ikinci hissədə isə onların əsərlərinin siyahısı, həyat və yaradıcılığı haqqında ədəbiyyat verilirdi. Yubileylər münasibəti ilə hazırlanmış metodik vəsaitlər şablonçuluqdan uzaq olmasa və orijinal xarakter daşımasa da, ümumilikdə hər bir kitabxanada bədii ədəbiyyatın təbliğinin güclənməsinə tə'sir göstərirdi.

Ümumiyyətlə, 80-ci illərin birinci yarısında M.F.Axundov adına Dövlət Kitabxanası metodik nəşrlərin hazırlanmasında məhsuldar işləmişdir. Bu illərdə meydana gəlmiş metodik vəsaitlər məzmun baxımından əvvəlki vəsaitlərdən xeyli fərqlənirdi. Bunu aşağıdakı cədvəldən aydın görmək olar.

**1981-1985-ci illərdə M.F.Axundov adına ADK-nın nəşr etdiyi metodik vəsaitlərin əsas göstəriciləri**

| İllər | Vəsaitlərin sayı | Həcmi | Nüsxəsi |
|---|---|---|---|
| 1981 | 9 | 10 ç/ v | 6500 |
| 1982 | 8 | 12 ç/ v | 7200 |
| 1983 | 17 | 19 ç/ v | 9300 |
| 1984 | 15 | 17 ç/ v | 8500 |
| 1985 | 15 | 13 ç/ v | 6800 |
| Cəmi: | 64 | 71 ç/ v | 38600 |

80-ci illərin birinci yarısında M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının metodik fəaliyyətinin ən mühüm yekunu dövlət mərkəzləşdirilmiş kitabxana sistemlərinin müvafiq ərazilərdə metodik mərkəz kimi formalaşması idi. Bu metodik mərkəzlər MKS-lərin mərkəzi kitabxanaları idi.

80-ci illərin ikinci yarısında M.F.Axundov adına Dövlət Kitabxanasının elmi-metodik fəaliyyətində MKS-lərin təşkilati-metodik işlərinin güclənməsi ilə əlaqədar yeni keyfiyyət göstəriciləri formalaşmağa başladı.

Kütləvi kitabxanaların mərkəzləşdirilməsinin başa çatdırılması və bununla əlaqədar regional metodik mərkəzlərin meydana gəlməsi Dövlət Kitabxanasının elmi-metodik fəaliyyətində əlaqələndirmə funksiyasının gücləndirilməsini tələb edirdi.

Metodik mərkəzlər kimi rayon və şəhər MKS-lərinin rolunun artdığı bir şəraitdə M.F.Axundov adına Dövlət Kitabxanası respublikada digər metodik mərkəzlərin sə'ylərini əlaqələndirərək baş metodik mərkəz funksiyasını yerinə yetirməyə başlamışdı.

Bu baxımdan Dövlət kitabxanasının metodik fəaliyyətində bir sıra mütərəqqi

meyllər nəzərə çarpırdı. Bu meyllər öz əksini kitabxananın metodik fəaliyyətindəki yeni istiqamətlərin daha güclü təzahür etməsində tapırdı. Bu istiqamətlərdən ən başlıcası təşkilati-metodik fəaliyyətin elmi-tədqiqat işləri ilə bilavasitə əlaqəli şəkildə həyata keçirilməsi idi. Kitabxananın metodik fəaliyyətinin elmi əsaslarla qurulması, elmi-tədqiqat xarakterli iş üsullarının güclənməsi peşəkar fikir yetkinliyini nümayiş etdirir, ayrı-ayrı kitabxana proseslərinin təhlilində elmi-tədqiqat və xüsusən sosioloji tədqiqat metodlarından daha geniş istifadəyə səbəb olurdu. Belə ki, son illərdə Dövlət Kitabxanası tərəfindən aparılmış bir sıra sosioloji tədqiqatlarda kitabxananın metodistlərinin fəal iştirakı, əməli metodik fəaliyyətin elmi-tədqiqat üsullarına söykənməsi, təşkilati-metodik tədbirlərin təşkilində tədqiqatların nəticələrinin nəzərə alınması və tətbiqi baxımından olduqca faydalı idi. 70-ci illərin sonu - 80-ci illərin əvvəllərində Dövlət Kitabxanası tərəfindən bilavasitə metodistlərin yaxından köməyi və iştirakı ilə həyata keçirilmiş «Kütləvi kitabxanalarda mütaliə və oxucu sorğusunun inkişaf dinamikası», «Azərbaycanda neftçilərin mütaliəsinin sosial-psixoloji və peşə amilləri», «Azərbaycan kəndində kitab və mütaliə problemləri», «Azərbaycanda kitabxana ehtiyatlarının səmərəli yerləşdirilməsi və istifadəsi problemləri» istiqamətlərindəki elmi-tədqiqat, şübhəsiz ki, öz əksini metodik fəaliyyətin məzmununun daha da dərinləşməsində, elmi konfrans və seminarlarda problemlərin qoyuluşu və müzakirəsində, metodik vəsaitlərdə mühüm kitabxana məsələlərinin təhlilində, kitabxananın «Elmi əsərlər»ində, dərc edilən tədqiqat xarakterli yazılarda tapırdı. Bütün bunlar nəticə e'tibarı ilə kitabxanaların metodik tə'minatının tə'sir dairəsini genişləndirir və daha səmərəli edirdi.

80-ci illərin ikinci yarısında M.F.Axundov adına Dövlət Kitabxanasının metodik fəaliyyətində müxtəlif elmi-təcrübi konfransların, zona müşavirələrinin və seminarların təşkili getdikcə artırdı. Bunlar əhaliyə kitabxana xidmətinin aktual problemlərinin həllində kitabxanalar arasında ünsiyyət, təcrübə mübadiləsinin mühüm forması kimi təzahür edərək kitabxana işçilərinin müasir peşə bilikləri və vərdişlərinə nail olması üçün olduqca əhəmiyyətli idi.

Belə konfrans, müşavirə və seminarlar elmi təhlil və ümumiləşdirmə ünsürlərinə malik olub, təcrübi işçiləri kitabxana xidmətinin təkmilləşdirilməsinə yönəlmiş müasir elmi-metodik bazaya söykənən tövsiyələr və perspektiv proqramlarla tə'min edirdi. 80-ci illərdə yerlərdə belə tədbirlərin təşkil edilməsində artıq formalaşmış və bu sahədə müəyyən təcrübə qazanmış MKS-lərin mərkəzi kitabxanaları M.F.Axundov adına Dövlət Kitabxanasının dayaq bazası kimi bu işdə ona yaxından köməklik göstərirdilər.

Regional metodik mərkəz funksiyalarını yerinə yetirən şəhər və rayon mərkəzi kitabxanaları hər bir elmi konfrans, metodik müşavirə və ya seminarın təşkilində, müvafiq məsələlərə dair yerli təcrübəni ümumiləşdirib təhlil etməkdə, təcrübə mübadiləsinin aparılmasında, bu işə kitabxana işçilərinin cəlb olunmasında və qabaqcıl təcrübənin müəyyənləşdirilib tətbiq edilməsində əhəmiyyətli rol oynamışdı. Bu baxımdan 1986-ci ilin sentyabr ayında Gəncə şəhər MKS-in bazasında «Kitabxanalarda ictimai-siyasi ədəbiyyatın təbliği» mövzusunda təşkil edilmiş ümumrespublika seminar-praktikumu kitabxana işi sahəsində həyata keçirilən ən mühüm təşkilati-metodik tədbirlərdən biri sayıla bilər. Dövrün siyasi iyerarxiyası baxımından olduqca yüksək səviyyədə təşkil edilmiş bu seminar-praktikumda oxucular arasında ictimai-siyasi biliklərin təbliği məsələlərinə dair Azərbaycan Kommunist Partiyası MK-nın təbliğat şö'bəsinin müdiri Ə.Daşdəmirov, Gəncə şəhər Partiya Komitəsinin birinci katibi R.Bağırlı, mədəniyyət nazirinin müavini T.Əliyev, Respublika Nəşriyyat Komitəsinin sədri N.İbrahimov, Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin sədri E.Quliyev, Yazıçılar Birliyinin katibi C.Novruz, Respublika Kitabsevərlər Cəmiyyətinin sədri Z.Salahova və başqaları mə'ruzə etdilər. Bundan başqa, 20-dən çox təcrübəli kitabxana işçisinin çıxışları və mə'lumatları dinlənildi. Seminar-praktikum respublikada əhaliyə kitabxana xidmətinin təkmilləşdirilməsində və

xüsusən geniş oxucu kütlələri arasında ictimai-siyasi biliklərin təbliğində o dövr üçün olduqca əhəmiyyətli idi.[378] Əlbəttə, tədbirin mahiyyətini zamanın aparıcı və hakim ideologiyası olan kommunist ideologiyasına xidmət edən əsərlərin təbliği üsulları təşkil edirdi. Lakin seminarda müzakirə edilən qabaqcıl təcrübə üsulları sırf peşəkarlıq baxımından təbliğ edilən əsərlərin məzmunundan asılı olmayaraq kitabxanaların təbliğatçılıq fəaliyyətinin təkmilləşdirilməsinə xidmət edirdi. Çünki bu iş üsulları eyni müvəffəqiyyətlə elmi-təbii, elmi-texniki, bədii, estetik və s. nəşrlərin təbliğində də kitabxanalar tərəfindən istifadə edilə bilərdi. Seminar - praktikumun təşkili, onun qəbul etdiyi tövsiyələr istər Dövlət Kitabxanasının, istərsə də Gəncə əhər MKS-in mərkəzi kitabxanasının metodik fəaliyyətinin nailiyyəti idi.

1986-cı ildə kitabxanalarda ədəbiyyat təbliğinin aktual problemlərinə, müxtəlif elm sahələrinə dair ədəbiyyat təbliğinin forma və üsullarına həsr edilmiş belə müşavirə-praktikumlar Naxçıvanda, Qusarda, Lənkəranda və Bakı şəhərində də təşkil edildi.[379]

Mə’lum olduğu kimi, kitabxanalarda oxucularla aparılan bütün işlər və xüsusən ədəbiyyat təbliği ilk növbədə kitab fondlarının səmərəli təşkili və istifadə edilməsi ilə əlaqədardır. MKS şəraitində vahid fondun planlı və məqsədyönlü formalaşması; komplektləşdirilməsi, təşkili və idarə olunması əhaliyə kitabxana xidmətinin səmərəli təşkili üçün əsas şərtdir. Təsadüfi deyil ki, 80-ci illərdə Dövlət Kitabxanasının metodik fəaliyyətində MKS-lərin vahid fondunun formalaşması və istifadəsi prosesinin elmi təhlili və təkmilləşdirilməsi məsələləri mühüm yer tuturdu.

1985-ci ilin noyabr ayında Respublika Mədəniyyət Nazirliyi kollegiyası «Azərbaycan SSR-in kütləvi kitabxanaları fondlarının komplektləşdirilməsi, istifadəsi və mühafizəsinin vəziyyəti haqqında» qərar qəbul etmişdi.[380]

Qərarda M.F.Axundov adına Dövlət Kitabxanasında bu istiqamətdə tə’sirli metodik tədbirlərin həyata keçirilməsi tövsiyə edilmişdi. Bununla əlaqədar MKS-lərin vahid fondunun formalaşması və istifadə səmərəliliyini artırmaq məqsədilə müxtəlif şəhər və rayon MKS-lərində vaxtaşırı seminar məşğələlərin keçirilməsi dövlət kitabxanasının metodik fəaliyyətinin tərkib hissəsini təşkil edirdi. Dövlət Kitabxanası bu işə yerli MKS-lərin metodistlərini fəal cəlb edirdi. Bu məqsədlə yalnız 1986-1987-ci illərdə Gəncə, Quba, Qazax, Şəki MKS-lərində seminarlar təşkil edilmişdi.[381] Seminar məşğələlərindən əvvəl müvafiq MKS-lərin mərkəzi kitabxanaları metodistlərinin köməyi ilə vahid fondun komplektləşdirilməsinin vəziyyəti təhlil edilir, nöqsanlar üzə çıxarılır və seminarlar məhz bu nöqsanlar ətrafında aparılırdı. Əvvəlki illərdən fərqli olaraq MKS-lərin vahid fondunun istifadə səmərəliliyinin vəziyyəti kitabxanalarda müvafiq oxucu qruplarının informasiya tələbatının öyrənilməsi və müəyyənləşdirilməsi prosesi ilə əlaqəli şəkildə həyata keçirilirdi.

Belə ki, 1987-ci ildə M.F.Axundov adına Dövlət Kitabxanasının rəhbərliyi ilə Ordubad şəhər MKS-də kənd təsərrüfatı mütəxəssislərinin, Şahbuz Rayon MKS-də tibb işçiləri və müəllimlərin, Şuşa şəhər MKS-də inzibati orqanlarda çalışanların informasiya tələbatının mühüm istiqamətləri müəyyənləşdirilmiş, həmin ərazilərdə fəaliyyət göstərən MKS-lərdə görülmüş işlər geniş təhlil edilmişdi.[382] Daha sonra metodistlərin iştirakı və yaxından köməyi ilə müvafiq MKS-lərdə vahid fondun isti-

---

[378] M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanası elmi-metodik şö’bəsinin 1986-cı il hesabatı.-S.9-10.

[379] M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanası elmi-metodik şö’bəsinin 1986-cı il hesabatı. S.9-10.

[380] Постановление Коллегии Минкультуры (№82) 213 от 4 ноября 1985 г) «О состоянии комплектования использования и сохранности книжных фондов массовых библиотек Азерб.ССР».

[381] M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanası elmi-metodik şö’bəsinin 1987-ci il hesabatı.-S.10.

[382] M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanası elmi-metodik şö’bəsinin 1987-ci il hesabatı.-S.10.

fadə səmərəliliyinin gücləndirilməsinə yönəlmiş konkret tövsiyələr hazırlanıb seminarlarda müzakirə edilmişdi.

1987-ci ildə Dövlət Kitabxanasının metodik fəaliyyətində Bakı şəhəri kütləvi kitabxanaları fondlarının formalaşması və istifadə səmərəliliyinin yüksəldilməsi diqqət mərkəzində idi. Bu məqsədlə hələ 1986-cı ildə şəhər kütləvi kitabxanaları fondlarının komplektləşdirilməsi istifadəsi ilə əlaqədar geniş yoxlama aparılmış, kitabxanaların informasiya ehtiyatlarının vəziyyəti və müxtəlif oxucu qrupları tərəfindən istifadəsi mövzu-tipoloji baxımdan ətraflı təhlil edilmiş və bu məsələ 14 yanvar 1987-ci ildə Respublika Mədəniyyət Nazirliyinin kollegiyasında geniş müzakirə edilmişdi.[383] Kollegiya Dövlət Kitabxanasının təqdim etdiyi arayış və tövsiyələrə əsaslanaraq Bakı şəhər dövlət kitabxanalarında fondun formalaşması və istifadəsinin daha səmərəli təşkilinə dair proqram xarakterli tövsiyələr qəbul etmişdi.

MKS-lərin vahid fondlarının formalaşması və istifadə səmərəliliyinin artırılması ilə əlaqədar konfrans, seminar və praktikumlar 1988-1989-cu illərdə Neftçala, Sabirabad, Xanlar, Tovuz, Şamaxı, Balakən, Göyçay və digər rayonlarda da təşkil edilmişdi. Belə seminar-müşavirələrdə müzakirə edilən məsələlər əsasən bu mövzularda olmuşdu: ictimai-siyasi ədəbiyyatın təbliği; hərbi vətənpərvərlik ədəbiyyatının təbliği; kitabxana fondlarının komplektləşdirilməsi; aqrosənaye kompleksinə kitabxana xidməti; sənaye işçilərinə kitabxana xidməti; kitabxana fondlarının uçot və hesabat işləri; komplektləşdirmənin mövzu-tipoloji planının tərtibi metodikası və s.[384]

80-ci illərdə M.F.Axundov adına Dövlət Kitabxanasının təşkilati-metodik fəaliyyətində MKS-lərin nəzdində musiqi-not şö'bələri və fonotekaların təşkili məsələsi də mühüm yer tuturdu.

Qeyd etməliyik ki, hələ 70-ci illərdən əhalinin estetik tərbiyəsində kitabxanaların rolu güclənməyə başladı ki, bu da onların mədəniyyət müəssisəsi kimi əhəmiyyətini daha da artırırdı.

Kütləvi kitabxanaların mərkəzləşdirilməsi nəticəsində MKS-lərdə oxucuların mütaliə mədəniyyətinin hərtərəfli inkişaf etdirilməsində informasiya mənbələri sırasında audiovizual materialların (qrammofon valları, maqnitafon lent yazıları, diafilmlər və s.) xüsusi çəkisinin artması meylləri gücləndi.

Bununla əlaqədar hələ 1971-ci ildə Respublika Mədəniyyət Nazirliyi «Kütləvi kitabxanaların nəzdində fonotekaların təşkili haqqında» qərar qəbul etmişdi. Qərarda bu işə metodik rəhbərlik M.F.Axundov adına Dövlət Kitabxanasına, o cümlədən, musiqi-not şö'bəsinə tapşırılmışdı.

1980-ci ildə respublikada kütləvi kitabxanaların mərkəzləşdirilməsinin başa çatdırılmasından sonra MKS-lərin maddi-texniki bazasının xeyli möhkəmləndirilməsi, onların dövlət tərəfindən maliyyələşdirilməsinin artması, mərkəzi kitabxanaların struktur quruluşunda musiqi-not şö'bələrinin və fonotekaların təşkili üçün geniş imkanlar yaradılmışdı.

80-ci illərdə M.F.Axundov adına Dövlət Kitabxanasının rəhbərliyi ilə respublikanın demək olar ki, bütün MKS-lərində musiqi-not şö'bələri və fonotekalar təşkil edilmişdi. Bu məqsədlə kitabxananın metodistləri xüsusən musiqi-not şö'bəsinin əməkdaşlarından D.Şamilova, Q.Məmmədova, A.Malaxova və b. müntəzəm surətdə respublikanın MKS-lərinə e'zam olunaraq yerlərdə şö'bələrin təşkili istiqamətində əməli köməklik edirdilər. E'zamiyyələr prosesində kitabxana işçilərinə musiqi-not şö'bələrinin əsas funksiyaları, fonoteka fondunun tərkib hissələri, fondun təşkili, musiqi-not materiallarının kataloq və kartoteka sisteminin formalaşması, audiovizual materialların təsviri, təsnifləşdirilməsi, oxuculara xidmət, musiqi gecələrinin təşkili və s. məsələlər üzrə seminar məşğələləri keçirilirdi.

---

383 Yenə orada.

384 M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanası elmi-metodik şö'bəsinin 1987-1989-cu il hesabatları.

Nəticədə artıq 80-ci illərdə şəhər və rayon kitabxanalarında ədəbiyyat təbliğinin bütün formalarında və istiqamətlərində fonotekalar mühüm rol oynayırdı. Respublikanın bir çox MKS-lərində və xüsusən Gəncə, Mingəçevir, Göyçay, Şuşa, Astara, Sabirabad şəhər və rayon MKS-lərində fonoteka fondunda olan audiovizual materiallardan olduqca səmərəli istifadə edilirdi.[385] Bütün bunlar əhalinin estetik tərbiyəsində, musiqi mədəniyyətinin formalaşmasında kitabxanaların müstəsna rolunu göstərirdi. Respublikanın rayon və şəhər kütləvi kitabxanalarının fəaliyyətində tamamilə yeni istiqamət olan musiqi-not və fonoteka bölmələrinin yaradılması və onların fəaliyyətinin səmərəli formalaşması bu işin metodik tə'minatının düzgün təşkilindən xeyli asılı idi. Bu işdə Dövlət Kitabxanası tərəfindən hazırlanmış «Fonoteka işçilərinə kömək»[386] və «Kütləvi kitabxanalarda fonotekaların təşkili məsələləri»[387] adlı metodik tövsiyələr yerlərdə musiqi-not ədəbiyyatı ilə aparılan işlərdə kitabxanaçılara əməli köməklik kimi qəbul olunmalıdır. Xüsusilə ikinci vəsait öz məzmunu, üslubu və məsələlərin dolğun şərhi baxımından fərqlənir. Burada MKS-lərdə fonotekaların təşkili ilə əlaqədar bütün təşkilati və metodik məsələlər öz əksini geniş şəkildə tapmışdır. Vəsaitdə musiqi-not materiallarının kitabxana işində əhəmiyyəti, komplektləşdirilməsi, fondun təşkili, kataloqlaşdırılması və təbliği ən nümunəvi vəsaitlərə xas olan tərzdə aydın və əyani nümunələr əsasında şərh edilmişdir.

Ümumiyyətlə, M.F.Axundov adına Dövlət Kitabxanasının metodik sənədlərin hazırlanması istiqamətindəki fəaliyyəti 80-ci illərin ikinci yarısında daha məhsuldar və səmərəli olmuşdur. Belə ki, 1986-1990-cı illərdə kitabxana tərəfindən hər il orta hesabla 10-12 vəsait tərtib edilmiş və onlar cəmiyyətdə baş verən mühüm sosial-mədəni vəzifələrlə əlaqədar kitabxanaların fəaliyyətini istiqamətləndirmişdir. Bunların içərisində «MKS-lərdə fondların mövzu-tipoloji planlaşdırılması» (1986), «Elmi-texniki tərəqqi və kitabxanalar» (1987); «Kitabxanalarda maraq klubları» (1987), «Mərkəzləşdirilmiş kitabxana sistemlərinin işinin təşkili: Tə'limatlar və uçot formaları» (1988), «Sənədlərin biblioqrafik təsvir qaydaları haqqında» (7.1-84. Dövlət standartları əsasında) (1988), «Kitabxana-biblioqrafiya biliklərinin təbliği» (1989), «Kitabxanalarda kütləvi tədbirlərin təşkili və keçirilməsi metodikası» (1990) və bir sıra başqa vəsaitlər öz aktuallığı və məzmunu baxımından dövrün kitabxanaşünaslıq fikri səviyyəsində dayanırdı. Bu vəsaitlərdə dövrün mədəni-mə'nəvi həyatında baş verən dəyişikliklər, kitabxana təcrübəsində meydana çıxan yeni mütərəqqi iş üsulları öz həllini tapmışdır. Məsələn, «Kitabxanalarda maraq klubları»[388] adlı vəsaitdə gənclərin asudə vaxtlarının səmərəli keçirilməsində maraq klublarının əhəmiyyəti və təbliği məsələlərindən ətraflı bəhs edilir.

«Elmi-texniki tərəqqi və kitabxanalar» adlı vəsaitdə isə elm və texnikanın inkişafında, sənaye, aqrar kompleks, elmi-tədqiqat işlərinin informasiya tə'minatında kitabxanaların öhdəsinə düşən vəzifələr şərh edilmiş, elmi-texniki tərəqqidə kitabxanaların iştirakının mühüm istiqamətlərinə dair konkret tövsiyələr verilmişdir.

Oxucuların istər tədris, istərsə elmi-təcrübi fəaliyyətində mühüm əhəmiyyət kəsb edən kitabxana-biblioqrafiya biliklərinə yiyələnməsi məsələsi «Kitabxana-biblioqrafiya biliklərinin təbliği»[389] vəsaitində geniş şərh edilmişdir. Vəsaitin əsas məqsədi kitabxanalarda oxucular arasında mühüm kitabxana-biblioqrafiya biliklərinin təbliğinin əsas istiqamətlərini, forma və metodlarını işıqlandırmaqdan, müxtəlif

---

[385] M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının 1981-1988-ci il hesabatları.

[386] Fonoteka işçilərinə kömək. Metodik materiallar / Tərtib edənlər: D.Şamilova, A.Malaxova, Q.Məmmədova.-B.,1978.-96 s.

[387] Məmmədova Q. Kütləvi kitabxanalarda fonotekaların təşkili məsələləri / M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının elmi əsərləri. Bur.5.-B.,1990.-S.60-75.

[388] Kitabxanalarda maraq klubları: metodik tövsiyələr /Tərtib edəni: O.Rüstəmov.-B.,1987.-44 s. (M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanası).

[389] Elmi-texniki tərəqqi və kitabxanalar: Metodik tövsiyələr.-B., 1987.-42 s. (M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanası).

oxucu qruplarında kataloq-kartoteka, informasiya, biblioqrafiya vəsaitlərindən istifadə etmək vərdişlərini formalaşdırmaqdan ibarət idi.

Dövlət Kitabxanasının bu illərdəki metodik vəsaitlər sistemində öz aktuallığı və orijinallığı ilə seçilən «Kitabxanalarda kütləvi tədbirlərin təşkili və keçirilməsi metodikası»[390] adlı metodik tövsiyə də fikir yetkinliyinin və peşə səviyyəsinin yüksəlməsini sübut edir. Mə'lum olduğu kimi, iqtisadiyyatımızı, tariximizi əks etdirən çap əsərlərinin təbliğində kitabxanalarda keçirilən kütləvi tədbirlər çox mühüm əhəmiyyət kəsb edir. Hər bir kütləvi tədbir oxucuların mütaliə mədəniyyətinin formalaşmasına tə'sir göstərir, lazımi ədəbiyyata meylini və marağını artırır. Bu baxımdan xüsusən rayon və kənd kitabxanalarında təşkil edilən kütləvi tədbirlərin təşkilati və metodik baxımdan səmərəli olması üçün kitabxana işçiləri müvafiq nəzəri biliklərə və təcrübi iş üsullarına dərindən bələd olmalıdırlar. Kütləvi kitabxanaların işçilərinə kömək məqsədilə tərtib edilmiş bu vəsaitdə müxtəlif şifahi, əyani, yazılı və kütləvi tədbirlərin planlaşdırılması və keçirilməsi qaydaları izah edilir. Vəsaitdə oxucu konfransları, ədəbi-bədii gecələr, sual-cavab gecələri, uşaqlar üçün təşkil edilən səhərciklər, kitab sərgiləri, görüşlər, müxtəlif guşələr, plakatlar və s. kimi kütləvi tədbirlərin keçirilməsinə dair tövsiyələr verilmiş, ədəbiyyat siyahısı tərtib edilmişdir.

Ümumiyyətlə, 80-ci illərin sonu - 90-cı illərin əvvəllərində M.F.Axundov adına Dövlət Kitabxanası tərəfindən hazırlanmış yazılı sənədlərdə metodik fikrin nəzəri və elmi səviyyəsinin inkişafını aydın görmək olar. Bu inkişaf özünün ümumiləşdirilmiş təcəssümünü ilk növbədə 1980-1992-ci illərdə altı buraxılışdan ibarət «Elmi əsərlər» də dərc olunmuş məqalələrdə tapmışdır. Belə ki, bu dövrdə kitabxananın metodistlərindən S.Allahverənovun, M.Həsənovun, D.Bayramovun, Q.Məmmədovun, O.Rüstəmovun və metodik fəaliyyətlə məşğul olan başqa mütəxəssislərin məqalələrində müasir kitabxanaşünaslığın zəruri məsələlərinə münasibət bildirilmiş, kitabxanaların son illərdəki inkişaf yoluna nəzər salınmış, əhaliyə kitabxana xidmətinin təkmilləşdirilməsi problemləri ilə əlaqədar yeni, maraqlı, elmi və təcrübi cəhətdən faydalı mülahizələr söylənilmişdir. Belə yazılar içərisində S.Allahverənovun «Oxucu mütaliəsinə rəhbərlikdə biblioqrafik göstəricilərin rolu», «Metodik iş: inkişaf yolları və problemlər», «Kitabxana fondunun formalaşmasına tə'sir göstərən amillər»[391] adlı məqalələrində klassik kitabxanaşünaslıqda müəyyən olunmuş müddəalar yamsılanmamış, əksinə, müasir həyatın tələb etdiyi yeni, mütərəqqi ideyalar ortaya atılmışdır. Bu baxımdan onun «Metodik iş: inkişaf yolları və problemlər» məqaləsi xüsusilə səciyyəvidir. Məqalədə Azərbaycanda kitabxana işinin metodik tə'minatında M.F.Axundov adına Dövlət Kitabxanasının statusu çox düzgün müəyyənləşdirilir. Qeyd edilir ki, «M.F.Axundov adına Dövlət Kitabxanasının metodik funksiyalarının gücləndirilməsi və inkişafı üçün metodik işin səmərəliliyinin sistemli şəkildə aparılması mühüm əhəmiyyət kəsb edir»[392]. 1988-ci ildə irəli sürülmüş bu fikir hazırda kitabxanaşünaslıq mətbuatında ən geniş müzakirə edilən aktual problemlərdən biridir.

Ümumiyyətlə, 80-ci illərdə M.F.Axundov adına Dövlət Kitabxanasında formalaşmış elmi-metodik fikirdə təsvirçilik, şablon və trafaret üslubdan kənara çıxan yeniləşmə və müasirləşmə meylləri çox aydın nəzərə çarpır. Bu meyllər demək olar ki, kitabxananın nəşr etdirdiyi elmi-metodik vəsailərin bir çoxunda və xüsusən «Elmi əsərlər»də diqqəti daha çox cəlb edir.

Azərbaycanda kitabxana işinin inkişaf mərhələlərini öyrənmək sahəsində ciddi

---

[390] Kitabxanalarda kütləvi tədbirlərin təşkili və keçirilməsi metodikası / Metodik tövsiyə / Tərtib edəni: M.Abidov.-B.,1990.-16 s. (M.F.Axundov adına Dövlət kitabxanası).

[391] Allahverənov S. Oxucu mütaliəsinə rəhbərlikdə biblioqrafik göstərişlərin rolu // M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının Elmi əsərləri. Bur II B.,1983.-S.38-61; Metodik iş: inkişaf yolları və problemlər.-Yenə orada.Bur.IV.-B.,1988.-S.67-82; Kitabxana fondunun formalaşmasına tə'sir göstərən amillər// Yenə orada.Bur. VI.-B.,1992.-S.20-37.

[392] M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının elmi əsərləri. Bur.IV.-B.,1988.-S.76.

elmi-metodik sənədlər sayılan bu yazılar və kitabxananın nəşr etdirdiyi digər vəsaitlər əhatə etdiyi məsələlərə, zəngin faktik materiallara və məzmununa görə çox qiymətli idi.

M.F.Axundov adına Dövlət Kitabxanasının 80-ci illərdəki metodik fəaliyyəti bütövlükdə ölkədə kitabxana işinin inkişaf salnaməsi kimi qiymətləndirilə bilər. Çünki o, kitabxana işində meydana çıxan mütərəqqi meylləri ümumiləşdirmək və təbliğ etmək, qabaqcıl kitabxanaların fəaliyyətini düzgün qiymətləndirmək, əhaliyə kitabxana xidmətində buraxılan nöqsanları operativ şəkildə aradan qaldırmaq prosesində yaxından iştirak etmişdir.

1980-1990-cı illərdə M.F.Axundov adına Dövlət Kitabxanasının metodik fəaliyyətinin mühüm istiqamətləri və miqdar göstəriciləri haqqında aşağıdakı rəqəmlər aydın təsəvvür yarada bilər:

1.Seminar-müşavirələr – 78
2.Metodik məsləhətlər - 2962
3.E'zamiyyələr - 514
4.Yazılı arayışlar- 114
5.Mə'ruzələr - 46
6.Mədəniyyət Nazirliyinin kollegiya iclasına müzakirə üçün hazırlanan materiallar-34
7.Metodik vəsaitlər -14.[393]

80-ci illərdə Dövlət Kitabxanasının metodik fəaliyyətinin müvəffəqiyyətləri xeyli dərəcədə bu işə iste'dadlı gənclərin cəlb edilməsi ilə izah edilə bilər. Əlbəttə, metodik fəaliyyətlə məşğul olan, kitabxana işinə həvəs və maraq göstərən bu gənclərin bir sıra yazılarında təsvirçilik, rus dilində hazırlanmış sənədlərdən mexaniki istifadə etmək və s. qüsurlar nəzərə çarpırdı. Bununla belə gənc metodistlər ölkənin kitabxana işində fəal iştirak edir, kitabxanaşünaslığın mühüm problemləri ətrafında mühakimə yürütməyə cəhd göstərir və bir çox hallarda bu işi uğurla həyata keçirirdilər.

Mübaliğəsiz demək olar ki, 80-ci illərdə Azərbaycanda kitabxana təcrübəsi və nəzəriyyəsinin səciyyəvi cəhətlərini və elmi-metodik istiqamətini tə'yin edən tədqiqat xarakterli yazılar içərisində Dövlət Kitabxanasının metodistlərinin xüsusi zəhməti olmuşdur.

Əvvəlki dövrlərdə olduğu kimi, yenə də elmi-metodik fikrin inkişafında kitabxananın metodistləri ilə yanaşı digər əməkdaşların, o cümlədən K.Tahirov, F.Məmmədov, T.Ağamirova, E.Rəsulova, H.Zeynalova, H.Həmidova, Z.Nağıyeva və başqalarının da payı var idi.

Kitabxanada 1970-1979-cu illərdə nəşr edilmiş, lakin sonralar nəşri dayandırılmış «Kitabxana işçisinə kömək»[394] məcmuəsinin 1991-ci ildə bərpa edilməsi əlamətdar hadisə oldu. Məcmuədə Azərbaycan Demokratik Respublikasının yaranmasının ildönümü, eləcə də digər tarixi və əlamətdar hadisələrlə əlaqədar kitabxana işçiləri üçün bir sıra faydalı yazılar dərc edilmişdir. Təəssüf ki, hələlik «Kitabxana işçisinə kömək» məcmuəsi maliyyə çatışmazlığı üzündən nəşr edilmir.

Ümumiyyətlə, 80-ci illərin axırlarında SSRİ məkanında baş verən sosial-siyasi hadisələr, xüsusən Azərbaycan xalqına qarşı yönəldilmiş təcavüz və bu təcavüzün əsas icraçısı Ermənistanın Azərbaycana qarşı törətdiyi düşmənçilik əməlləri, nəhayət, ölkədə kommunist rejiminin iflasa uğraması, Sovet imperiyasının dağılması, 1990-cı ilin qanlı yanvar hadisəsi və bütün bunlarla əlaqədar respublikada tüğyan edən oyunlar və bu oyunlar qarşısında keçmiş dövlət rəhbərlərinin acizliyi, səriştəsizliyi, bir sıra hallarda xalqa düşmənçilik siyasəti bütün sahələr kimi kitabxana işini də böhran və-

[393] Hesablama M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının hesabat sənədləri əsasında aparılmışdır.
[394] Kitabxana işçisinə kömək.-B.,1991.-128 s. (M.F.Axundov adına Dövlət Kitabxanası).

ziyyətinə saldı. Bu da öz növbəsində respublikamızda kitabxana işinin metodik tə'minatında da tənəzzül meyllərinin formalaşmasına səbəb oldu. Təsadüfi deyil ki, 1992-1993-cü illərdə M.F.Axundov adına Kitabxananın 70 illik yubileyi ilə bağlı nəşr edilmiş «Elmi əsərlər»in VI buraxılışından, məqalələr məcmuəsindən və kitabxananın nəşrlərini əhatə edən iki biblioqrafik göstəricidən[395] başqa, son altı ildə heç bir metodik vəsait nəşr edilməmişdir. Bu illərdə maliyyə çətinlikləri ilə əlaqədar kitabxananın metodistləri yerlərə e'zamiyyələrə göndərilməmişlər.

Lakin mövcud problemlərlə və çətinliklərlə yanaşı son vaxtlar Dövlət Kitabxanasının fəaliyyətində bə'zi inkişaf meylləri nəzərə çarpır. Belə ki, kitabxanın ölkənin mədəni-mə'nəvi həyatında iştirakı (ictimaiyyətin diqqətini cəlb edən sərgilərin təşkili, maraqlı kitabların təqdimetmə mərasimləri və s.), mühüm kitabxana proseslərinin kompüterləşməsi istiqamətində göstərilən sə'ylər, beynəlxalq əməkdaşlığın genişlənməsi və s. kimi uğurlu işlər yaxın gələcəkdə onun elmi-metodik fəaliyyətinin də dövrün tələblərinə uyğun, daha səmərəli qurulması üçün zəmin yaradır.

1999-cu ildə qəbul edilmiş «Kitabxana işi haqqında Azərbaycan Respublikasının Qanunu»[396] ölkədə kitabxana işinin gələcək inkişafında dövlət siyasətinin əsas prinsiplərini, kitabxana işinin və kitabxana sisteminin ümumi əsaslarını müəyyən etməklə yanaşı, M.F.Axundov adına Dövlət Kitabxanasının bütövlükdə inkişafının yeni istiqamətlərini müəyyənləşdirmişdir. Qanuna uyğun olaraq milli kitabxana statusu almış bu kitabxana ölkədə kitabxana işinin bütün istiqamətləri, xüsusilə elmi-metodik fəaliyyət sahəsində öz qüvvələrini qətiyyətlə səfərbərliyə almalıdır. Çünki bu ali dövlət sənədində respublikada kitabxana işinin inkişafında milli kitabxananın vəzifələri xüsusi vurğulanır.

Qanunda qeyd edilir ki, Milli kitabxana Azərbaycan Respublikasında kitabxana işi sahəsində dövlət siyasətini həyata keçirir, kitabxanaşünaslıq-biblioqrafiya və kitabşünaslıq sahəsində elmi-tədqiqat işləri üzrə aparıcı müəssisədir, ölkənin bütün kitabxanaları üçün metodik mərkəz funksiyalarını yerinə yetirir.[397] Beləliklə, bu mühüm dövlət sənədində M.F.Axundov adına Dövlət Kitabxanasının milli kitabxana kimi ölkədə bu sahədə metodik mərkəz statusu bir daha təsdiqlənmişdir.

Ümid etmək olar ki, kitabxana qanununa uyğun olaraq M.F.Axundov adına Milli Kitabxananın elmi-metodik fəaliyyəti yaxın vaxtlarda Azərbaycanda əhaliyə kitabxana xidməti sahəsində formalaşmış tarixi təcrübənin, mütərəqqi ən'ənələrin qorunub saxlanılması, kitabxana işinin dünya standartlarına uyğun yenidən qurulması problemlərinin həllinə istiqamətləndiriləcəkdir.

## 3.2. Dövlət mərkəzləşdirilmiş kitabxana sistemlərinin təşkilati-metodik fəaliyyəti

Kitabxanaların mərkəzləşdirilməsi respublikanın bütün şəhər və rayonlarında yeni tipli kitabxanaların, başqa sözlə, ayrı-ayrı regionlarda yeni metodik mərkəzlərin meydana gəlməsinə səbəb oldu. Bunlar MKS-lərin mərkəzi kitabxanaları idi.

80-ci illərin əvvəllərində respublikada dövlət kitabxanalarının mərkəzləşdirilməsinin başa çatdırılması kitabxana işinə metodik rəhbərlik sistemini təşkilati baxımdan tamamilə formalaşdıraraq bu işi sistemli fəaliyyətə çevirdi. Belə ki, məkəzləşdirmə nəticəsində Azərbaycanda kitabxanaların metodik tə'minatı sistemində şəhər və rayon MKS-lərinin mərkəzi kitabxanalarının simasında bu sistemin əsası qoyuldu. MKS-lərin mərkəzi kitabxanaları rayon və şəhər kitabxanalarına daha operativ,

---

[395] Kitabxana işçisinə kömək.-B.,1991.-128 s.; Elmi əsərlər.Bur.V1.-B.,1992.-75 s.;M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının nəşrləri (1923-1993):Biblioqrafik göstərici.-B.,1993.-124 s. M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının əməkdaşlarının əsərləri: Biblioqrafik göstərici.-B.,1993.-84 s.; 70 il xalqın xidmətində /M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının tarixinə dair materiallar: Məcmuə.-B.,1993.-154 s.

[396] Kitabxana işi haqqında Azərbaycan Respublikasının Qanunu// Azərbaycan.-1999.-14 mart.

[397] Yenə orada.

planlı və müntəzəmköməklik göstərmək imkanları əldə etdilər. Əvvəlki dövrlərdən fərqli olaraq yeni şəraitdə ilk növbədə kənd kitabxanaları operativ və fasiləsiz metodik tə'minata malik oldular.

MKS-lərin mərkəzi kitabxanalarının nəzdində müstəqil metodik şö'bələrin, bə'zilərində isə metodik-biblioqrafiya şö'bələrinin təşkili və onların əsasən yüksək ixtisaslı kadrlarla tə'min edilməsi kənd kitabxanalarına metodik rəhbərlik işinin kökündən yaxşılaşdırılması üçün əsaslı zəmin yaratdı.

Yeni şəraitdə MKS-lərin mərkəzi kitabxanalarının təşkilati-metodik funksiyaları daha da genişləndi. Belə ki, mərkəzi kitabxanaların metodik şö'bələri nəinki filialların, eyni zamanda mərkəzi kitabxananın bütün şö'bələrinin fəaliyyətinin metodik tə'minatı ilə məşğul olmalı və bu işdə ilk növbədə özünün əlaqələndirici funksiyalarını artırmalı idi. Son illərin araşdırmaları göstərir ki, istər M.F.Axundov adına Respublika Kitabxanasının, istərsə də rayon və şəhər mərkəzi kitabxanalarının metodistləri ilə yanaşı, digər şö'bələrin işçiləri də metodik tə'minatın həyata keçirilməsində fəallıq göstərmişlər.

MKS-lərin formalaşmasının ilk illərində metodik fəaliyyətin ən ümdə vəzifəsi mərkəzləşdirmə şəraitində sistemin gələcək fəaliyyətinin vahid planını yaratmaq, onu elmi baxımdan əsaslandırmaq, sistemə daxil olan bütün filialların fəaliyyətinin əlaqələndirilməsini tə'min etməkdən ibarət idi.

İkinci mühüm vəzifə oxuculara xidmət işində sistemdaxili vəzifə bölgüsü həyata keçirmək və MKS-in informasiya sərvətlərinin geniş oxucu kütləri tərəfindən səmərəli istifadə olunmasına nail olmaq idi.

Nəhayət, mərkəzləşmə şəraitində metodik fəaliyyətin ən başlıca vəzifələrindən biri də bu fəaliyyətin baş metodik mərkəzlərin fəaliyyəti ilə əlaqələndirilməsindən, məntiqi tabeçilik sisteminin yaradılmasından və təkrarçılığın aradan qaldırılmasından ibarət idi.

Göstərdiyimiz əsaslı vəzifələrlə yanaşı, MKS-lərin metodik funksiyalarına normativ sənədlərin və standartların tətbiqi, əməyin elmi təşkili, zəif fəaliyyət göstərən kitabxanalara köməklik, müxtəlif ixtisasartırma tədbirlərindən istifadə, qabaqcıl kitabxanaların iş təcrübəsinin ümumiləşdirilməsi, yayılması və s. işlər daxil idi.

Beləliklə, 80-ci illərdə yeni yaradılmış mərkəzləşdirilmiş kitabxana sistemlərində rayon və şəhər səviyyəsində metodik fəaliyyətin formalaşması respublikada kitabxana işinin idarə olunması sistemində olduqca mühüm vəzifə kimi qarşıda dururdu.

Qeyd edək ki, bu dövrdə MKS-lərin metodik fəaliyyətində artıq tarixi təcrübədə formalaşmış iş üsullarından istifadə olunurdu. Bunların içərisində qabaqcıl təcrübə məktəbləri, daimi seminarlar, praktikumlar, metodik yoxlamalar, yazılı tövsiyələrin hazırlanması, yerlərə gedişlər və s. formalar geniş yer tuturdu. Hələ MKS-lərin təşkil edilməsi və formalaşması prosesində M.F.Axundov adına Dövlət Kitabxanasının fəaliyyəti nəticəsində respublikanın ayrı-ayrı rayon və şəhərlərində yaradılmış «Qabaqcıl təcrübə məktəbi» funksiyalarını həyata keçirən mərkəzləşdirilmiş kitabxana sistemləri fərqlənir və onların iş təcrübələri nümunə kimi öyrənilirdi. Bunların içərisində Sumqayıt, Zaqatala, Salyan, Yevlax, Füzuli, Xanlar, Abşeron, Göyçay, Saatlı və Neftçala MKS-lərinin təşkilati-metodik fəaliyyəti xüsusilə nəzərə çarpırdı.[398] Bu dövrdə MKS-lər tərəfindən həyata keçirilən tədbirlər sistemində uzun illərdən bəri özünü doğrultmuş iş üsullarından olan «Kitabxana işçilərinin iki günlük seminar məşğələləri»ndən geniş istifadə edilirdi. Respublikanın bütün rayon və şəhər MKS-lərində hər ay təşkil edilən ikigünlük seminarlar demək olar ki, kənd kitabxanalarının metodik tə'minatı işində ən səmərəli və ardıcıl keçirilən tədbirlərdən sayıla bilər. Bu seminarlarda bir qayda olaraq birinci gün sosial-siyasi hadisələrlə əlaqədar kitabxa-

---

[398] M.F.Axundov adına Respublika Dövlət Kitabxanasının arxivi; Elmi-metodik şö'bənin 1980-1985-ci il hesabatları.

naların vəzifələrinə həsr edilmiş mə'ruzə və mühazirələr dinlənilir, ikinci gün isə kitabxana işinin müxtəlif məsələlərinə həsr olunmuş seminar və təcrübi məşğələlər, praktikumlar, ədəbiyyat icmalları, digər tədbirlər təşkil edilirdi. Belə metodik seminarları mütəşəkkil keçirmək, bu işdə şəhər və rayon mərkəzi kitabxanalarının təşkilatçılıq rolunu daha da artırmaq və məzmunlu etmək məqsədi ilə M.F.Axundov adına Dövlət Kitabxanası həmin seminarların illik təqribi planlarını tərtib edib mərkəzi kitabxanalara göndərirdi. Bu planlarda ilin hər bir ayında seminar məşğələlərində öyrənilməsi və müzakirə edilməsi tövsiyə ediləcək mövzuların təqribi siyahısı, təcrübi məşğələlərin mühüm istiqamətləri, təcrübə mübadiləsinə dair məsələlər sadalanır, bu və ya digər məsələnin işıqlandırılmasında metodik köməkliyin hansı növündən və formasından istifadə edilməsi göstərilirdi. Seminar planlarında tövsiyə edilən mövzular hər bir MKS-in fəaliyyətinin xüsusiyyətlərinə uyğun şəkildə yerlərdə dəqiqləşdirilirdi.

MKS-lərin mərkəzi kitabxanalarının hesabat sənədlərindən mə'lum olur ki, 1981-1989-cu illərdə rayon və şəhər MKS-lərində təşkil edilən aylıq seminarlarda il ərzində orta hesabla 75-80 məsələ müzakirə edilərək kitabxana işçilərinə müvafiq məsələlər üzrə metodik tövsiyələr verilmişdir.[399]

1981-1988-ci illərdə respublikanın bütün MKS-lərində olduqca geniş müzakirə edilən seminar mövzularına bunları misal göstərmək olar:

-kütləvi kitabxanalarda çap əsərlərinin təsvirinə dair QOST 71-76 dövlət standartının tətbiqi (1981);

-kütləvi kitabxanalarda KBT-nin tətbiqi metodikası (1983);

-kitabxana fondlarının məzmunca köhnəlmiş, çoxnüsxəli və istifadəyə yararsız ədəbiyyatdan təmizlənməsi (1984);

-mərkəzləşmə şəraitində kitabxana fondlarının mühafizəsi və qorunması (1984);

-kitabxanalarda kataloq və kartotekaların tərtibi metodikası (1985);

-MKS-lər metodik mərkəz kimi (1985);

-kitabxanalarda sənədlərin tərtibi metodikası (1986);

-mərkəzləşdirilmiş kitabxana sistemi fondlarının mövzu-tipoloji planlaşdırılması (1987)[400] və s.

Ümumiyyətlə, 1981-1988-ci illərdə respublikanın bütün şəhər və rayon MKS-lərində təşkil edilmiş ikigünlük seminarlarda 600-dən artıq məsələ müzakirə edilmiş, təcrübə mübadiləsi aparılmışdı.[401]

Bu dövrdə şəhər və rayon MKS-lərinin metodik fəaliyyətində yeni və mütərəqqi bir istiqamət formalaşmağa başlamışdı ki, bu da onların tədricən SSRİ və Azərbaycan miqyasında həyata keçirilən kompleks kitabxanaşünaslıq tədqiqatlarına cəlb edilməsi idi. Bu iş hələ 70-ci illərin sonunda başlamışdı və 80-ci illərin əvvəllərində daha mütəşəkkil həyata keçirilirdi. Bu illərdə Dövlət Kitabxanasının rəhbərliyi ilə Yevlax, Zaqatala, Şahbuz, Kəlbəcər, Masallı, Xanlar, Xaçmaz, Qəbələ, Cəlilabad, Salyan, Sabirabad rayon MKS-lərinin metodistləri və digər təcrübəli işçiləri kənd yerlərində əhalinin mütaliə marağını öyrənmək məqsədilə sosioloji tədqiqatlar aparmışdılar. Bu məqsədlə hər rayonda təsərrüfat profili, əhalinin sosial tərkibi və sənaye xüsusiyyəti nəzərə alınmaqla beş kənd tədqiqat obyekti kimi seçilmiş və bu kəndlərdə ümumilikdə 4 minə yaxın ailə sorğuya cəlb edilmişdi.[402] Tədqiqatın keçirilməsi üçün seçilmiş rayonların miq- darı elə müəyyən edilmişdi ki, alınan göstə-

---

[399] M.F. Axundov adına Respublika Dövlət Kitabxanasının arxivi; Elmi-metodik şö'bənin 1981-1989-cu il hesabatları.

[400] Yenə orada.

[401] M.F. Axundov adına Respublika Dövlət Kitabxanasın arxivi; Elmi-metodik şö'bənin 1981-1989-cu il hesabatları.

[402] Əliyev Ə., Yusif qızı L. Azərbaycan kəndində kitab və mütaliə problemləri // M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının elmi əsərləri. Bur. II.-B., 1983.-S.93-94.

ricilər respublikanın kənd əhalisinin ictimai tərkibi, ümumi-mədəni səviyyəsi, informasiya sorğuları, mütaliə marağı və s. amillər haqqında kifayət qədər sanballı mə'lumat verə bilsin. Odur ki, tədqiqat kənd təsərrüfatının pambıqçılıq, taxılçılıq, tərəvəzçilik, çayçılıq, üzümçülük, heyvandarlıq və tütünçülük sahələri ilə məşğul olan rayonlarda aparılmışdı. Bu proses göstərilən MKS-lərin mərkəzi kitabxanalarının elmi-metodik fəaliyyətinin formalaşmasında mühüm mərhələ oldu. Tədqiqatlar prosesində alınmış nəticələr bu və ya digər rayonda əhaliyə kitabxana xidmətinin metodik tə'minatını elmi əsaslarla daha məqsədyönlü təşkil etmək üçün kifayət qədər konkret mə'lumat verirdi.

Tədqiqatın nəticələrinə, xüsusilə bu prosesdə doldurulmuş bir sıra sorğu vərəqələrinə və anketlərə əsasən, 70-80-ci illərdə kənd əhalisi arasında mütaliənin geniş vüs'ət almasında kənd kitabxanaları əsas rol oynayırdı. Tədqiqat göstərdi ki, 70-ci illərin sonu -80-ci illərin əvvəllərində respublikada kənd ailələrinin orta hesabla 79,3 faizi kitabxanaların fəal oxucularıdır. Lakin bütün rayonlarda vəziyyət eyni deyildi. Tədqiqat zamanı müəyyənləşdirilmişdi ki, Masallı rayonunun sorğuda iştirak edən kənd əhalisinin 42,2 faizi, Zaqatala rayonunda 41,9 faizi, Xanlar rayo- nunda 32,2 faizi ümumiyyətlə, kitabxanadan istifadə etmir.[403]

Eyni zamanda tədqiqat göstərdi ki, kitabxanalardan istifadə edən oxucuların yazı və peşə tərkibi də bir-birindən fərqlidir. Məsələn, 25 yaşdan yuxarı olan və kənd təsərrüfatının müxtəlif sahələrində çalışan əhalinin Qəbələ (Qutqaşen) rayonunda 19,5 faizi, Şahbuz rayonunda 17,1 faizi, Masallı rayonunda 7,4 faizi kənd kitabxanalarından istifadə edirdi.[404]

Tədqiqatın əhəmiyyətini göstərən mühüm amillərdən biri də ondan ibarət idi ki, bu iş başa çatdıqdan sonra alınan nəticələr əsasında respublikada kənd əhalisinin mütaliə mədəniyyətinin daha səmərəli olmasına dair konkret tədbirlər hazırlanmış və bu prosesdə bir sıra MKS-lər, o cümlədən Yevlax, Şahbuz, Salyan rayonlarının kitabxanaları fəal iştirak etmişdilər. Tədbirlər proqramında oxucuların kitabxanalara və sistemli mütaliəyə cəlb edilməsi yolları, kənd kitabxanalarının fondlarının komplektləşdirilməsi, oxucularla fərdi işin təkmilləşdirilməsinə yönəlmiş konkret təşkilati-matodik tədbirlər nəzərdə tutulmuşdu. Bunların içərisində səyyar xidmətin genişləndirilməsi, müxtəlif oxucu qruplarının mütaliə marağının təhlili və istiqamətləndirilməsi, kitabxanaların fəaliyyətinin digər mədəni-maarif müəssisələri, o cümlədən, məktəblər və muzeylərlə əlaqələndirilməsi və s. diqqəti daha çox cəlb edir.

80-ci illərin əvvəllərində respublikada kitabxana işi sahəsində həyata keçirilən digər iri miqyaslı kompleks tədqiqaq işi də mərkəzləşdirilmiş kitabxana sistemlərinin metodik fəaliyyətinin elmi baxımdan zənginləşməsində mühüm rol oynadı. Bu, Azərbaycanda kitabxana ehtiyatlarının düzgün yerləşdirilməsi və səmərəli istifadəsi problemi ilə əlaqədar respublikanın bütün rayon və şəhərlərində aparılan geniş tədqiqatlarla bağlı idi. Dövlət Kitabxanasının rəhbərliyi ilə bütün şəhər və rayon MKS-lərində bu tədqiqatın ilk mərhələsi 1981-1984-cü illərdə həyata keçirilmiş və onun məqsədi respublika kitabxana fondlarının məzmun təhlilindən ibarət olmuşdur.

Tədqiqat prosesində müəyyənləşdirilmiş faktlar, göstəricilər, alınan nəticələr və nəhayət, ümumiləşdirilmiş tövsiyələr respublikada kitabxana ehtiyatlarının səmərəli yerləşdirilməsini və istifadəsini optimallaşdırmaq üçün elmi zəmin yaradırdı. Belə ki, bu kompleks tədqiqatın I mərhələsində respublikada kitabxana işinə dair 1980-ci il üzrə aşağıdakı mə'lumatlar əldə edilmişdi:

-əhalinin və mütəxəssislərin xalq təsərrüfatı sahələri üzrə miqdar göstəriciləri;
-sahələr üzrə miqdar göstəriciləri;
-sahələr üzrə oxucuların miqdarı;

[403] M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının elmi əsərləri. Bur.II.-B., 1983.-S.98.
[404] Yenə orada.

-sahələr üzrə oxuculara kitab verilişinin həcmi;
-kitabxana sistemində oxunuş, dövriyyə və kitab tə'minatı üzrə uyğunluq əmsalı;
-kitabxana fondlarının elm sahələri üzrə tərkibi;
-kitab verilişinin elm sahələri üzrə tərkibi və s.

Ümumiyyətlə, cəmi 30 istiqamətdən çox maraqlı statistik mə'lumat əldə edilmişdi. Məsələn, əhaliyə kitabxana xidmətində olduqca mühüm amil olan kitab verilişi üzrə nisbət belə idi:

Dövlət kitabxanalarında - 66,95 faiz;
Həmkarlar İttifaqı kitabxanalarında – 2,14 faiz;
Elmi-texniki kitabxanalarda – 22,43 faiz;
Kənd təsərrüfatı kitabxanalarında – 1,30 faiz;
Tibb kitabxanalarında – 2,41 faiz;
Ali və orta ixtisas təhsili müəssisələrinin kitabxanalarında– 1,28 faiz;
Elmlər Akademiyası kitabxanalarında– 3,52 faiz.[405]

Respublika kitabxana sistemində oxunuş, dövriyyə və kitab tə'minatı üzrə uyğunluq əmsalı 0,71-ə bərabərdir ki, bu da Azərbaycanda əhaliyə kitabxana xidmətinin bütövlükdə qeyri-səmərəli olduğunu sübut edirdi.

Dövlət kitabxanaları, o cümlədən, MKS-lər üzrə əldə edilmiş statistik mə'lumatların təhlili respublikanın şəhər və rayonlarında əhaliyə kitabxana xidmətinin təkmilləşdirilməsinə yönəlmiş aşağıdakı nəticələri çıxarmağa imkan verirdi:

1.Oxucuların informasiya tələbatının dolğun ödənilməsi üçün respublikada kitab nəşri kitabxanaların tələbatı baxımından dəqiqləşdirilməli və bu işdə kitabxanaların fəallığı artırılmalıdır.

2.Kitabxana fondları mütəxəssislərin və elmi işçilərin informasiya tələbatına daha da uyğunlaşdırılmalıdır. Kitabxana fondları köhnəlmiş, az istifadə edilən və çoxnüsxəli nəşrlərdən tezliklə azad edilməli, digər tərəfdən fondlarda oxucular tərəfindən müntəzəm istifadə edilən kitabların və digər sənədlərin nüsxələri artırılmalıdır.

3.Kitabxana fondlarının mühafizəsinə dövlət diqqəti artırılmalıdır.

4.Kitabxanalarda işin səmərəli təşkilinə, əməkdaşların peşə səviyyəsinin və ixtisasının artırılmasına xüsusi diqqət yetirilməlidir.

5.Kitabxanalarda milli nəşrlərin istifadəsinə və dövriyyəsinin xüsusi çəkisinin artırılmasına yönəlmiş tədbirlər həyata keçirilməlidir.[406]

Beləliklə, bu mühüm və mürəkkəb tədqiqat prosesində respublikanın şəhər və rayon MKS-lərinin fəal iştirakı şübhəsiz ki, elmi metodik fəaliyyətin nəticəsi idi.

Bu dövrdə respublikanın bir sıra MKS-ləri daha bir tədqiqatın - «Oxucu mütaliəsinə rəhbərlikdə biblioqrafik göstəricilərin rolu» mövzusunda tədqiqatın həyata keçirilməsində olduqca səmərəli iş görmüşlər. Bu tədqiqat Bakı şəhərinin dörd kütləvi kitabxanasının, Lənkəran, Şamaxı, Yevlax və Balakən MKS-lərinin bazasında aparılmışdır. Bu məqsədlə hər bir baza kitabxanasının metodistləri tərəfindən mə'lumat-biblioqrafiya fondunun tərkibi, həmin fondlarda mövcud biblioqrafik vəsaitlər öyrənilmiş, onların mövzu əhatəsi, qrupları dəqiqləşdirilmiş, müxtəlif oxucu qrupları tərəfindən istifadə səmərəliliyi təhlil edilmişdir.[407]

Tədqiqat prosesində tətbiq edilən anketləşdirmə nəticəsində kitabxanalardan istifadə edən oxucuların mütaliə dairəsi öyrənilmiş, onların müxtəlif tipli və növlü biblioqrafik göstəricilərdən istifadə dərəcələri müəyyənləşdirilmiş, biblioqrafik vəsaitlərə oxucuların münasibəti aydınlaşdırılmış, nəhayət, ayrı-ayrı oxucu qruplarının,

---

[405] Региональное размещение и использование библиотечных ресурсов в стране. Итоги I этапа исследований на примере Азербайджана.-Б.,1984. Таблица 6.
[406] Региональное размещение и использование библиотечных ресурсов в стране. Итоги I этапа исследований на примере Азербайджана.-Б.,1984.-С.8-9.
[407] Allahverənov S. Oxucu mütaliəsinə rəhbərlikdə biblioqrafik göstəricilərin rolu // M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının elmi əsərləri. Bur.2.-B.,1983.-S.42.

xüsusilə mütəxəssislərin gələcəkdə hansı mövzularda biblioqrafik göstəricilərin hazırlanmasına dair maraqları dəqiqləşdirilmişdir.

Tədqiqat nəticəsində formalaşdırılmış tövsiyələr və konkret təkliflər sonralar respublikada biblioqrafik vəsaitlər sisteminin təkmilləşdirilməsində mühüm rol oynamışdır.

80-ci illərdə MKS-lərin mərkəzi kitabxanalarının təşkilati-metodik rolu genişləndikcə və məzmun baxımından dərinləşdikcə onların təcrübəsində filial kitabxanaçılarının bilavasitə iş yerlərində tə'limatlandırılması forması da səmərəli nəticələr verirdi. Bu məqsədlə mərkəzi kitabxanaların metodistləri filial kitabxanaların işi ilə tanış olmaq və onlara kömək göstərmək üçün tez-tez yerlərə gedişlər təşkil edirdilər.

Apardığımız hesablamalara görə, 1981-1988-ci illərdə hər bir şəhər və rayon MKS-ində filial kitabxanalarına ildə orta hesabla 50-80 gediş təşkil olunmuşdur.[408]

Bu illərdə mərkəzi kitabxanaların metodistləri il ərzində hər bir filialda 2 dəfə olmuşdular. Kitabxanalara gedişləri məqsəd baxımından 2 yerə ayırmaq olar: 1) bu və ya digər kitabxana ilə ümumi tanışlıq və yerindəcə əməli köməklik göstərmək, 2) hər hansı bir məsələ üzrə bir və ya bir qrup kitabxanada işin vəziyyətini öyrənmək və müvafiq məsələ üzrə problem xarakterli geniş tədbirlər keçirmək. Belə gedişlər kitabxana təcrübəsini daha dərindən öyrənməyə, işin məzmununa nüfuz etməyə, iş metodları ilə müfəssəl tanış olmağa imkan verirdi. Bu zaman metodik tə'minat da ünvanlı, məqsədyönlü, konkret və səmərəli olurdu.

Qeyd etmək lazımdır ki, bu illərdə mərkəzi kitabxanalar tərəfindən filiallara gedişlərin əksəriyyəti məhz məqsədli gedişlər idi və onlar ilk növbədə KBT-nin kitabxanalarda tətbiqi ilə bağlı idi. Bu problem demək olar ki, 80-ci illərin birinci yarısında ən aktual məsələlərdən biri kimi metodik şö'bənin qarşısında duran başlıca vəzifə sayılırdı.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin 20 aprel 1979-cu il tarixli 150 saylı «Kitabxana-biblioqrafiya təsnifatının kütləvi və uşaq kitabxanalarının iş təcrübəsinə tətbiqi haqqında» əmrinə uyğun olaraq KBT-nin rayon, şəhər və kənd kitabxanalarında tətbiqi bu illərdə MKS-lərin mərkəzi kitabxanalarının metodik fəaliyyətinin ana xəttini təşkil edirdi. Bu məqsədlə şəhər və rayon MKS-lərinin mərkəzi kitabxanalarının hamısında KBT-nin tətbiqi üzrə işçi qrup yaradılmışdı. Bu işçi qruplarına təşkilati-metodik şö'bələrin müdirləri rəhbərlik edirdi. İşçi qrupu öz fəaliyyətini M.F.Axundov adına Dövlət Kitabxanasının nəzdində yaradılmış respublika komissiyasının rəhbərliyi ilə həyata keçirirdi. Hər bir MKS-də KBT-nin mərhələlərlə tətbiqinin işçi planı tərtib edilmişdi. Bu planlarda kənd kitabxanalarında cədvəllərin öyrənilməsi, fond və kataloqların yeni təsnifat cədvəllərinə keçirilməsi mərhələləri, kitabxanalara təşkilati-metodik köməkliyin proqramı, qabaqcıl təcrübə məktəblərinin yaradılması, yerlərə gedişlərin cədvəli, kitabxanaların lazımi sənədlər və texniki vasitələrlə (kartoçkalar, ayırıcılar, işçi cədvəlləri və s.) tə'min edilməsi və digər məsələlər əks etdirilmişdi.

Qeyd etmək lazımdır ki, respublikanın kənd kitabxanalarında KBT cədvəllərinə keçid prosesində bir sıra ciddi problemlər də meydana çıxırdı. Bu problemlər MKS-lərdə fəaliyyət göstərən filialların əksəriyyətində sistemli kataloqun olmaması, işçilərin ədəbiyyatın təsnifləşdirilməsinə dair təcrübəsizliyi, KBT cədvəllərinə keçid üçün ləvazimatların çatışmaması və s. kimi təşkilati-metodik məsələlərlə əlaqədar idi. Bütün bunlar və xüsusilə kitabxana işçilərinin ədəbiyyatın elmi təsnifləşdirilməsi sahəsində lazımi biliklərə malik olmaması MKS-lərin metodik fəaliyyətinin səmərəliliyinin artırılmasını, onların yerlərə gedişinin daha operativ həyata keçirilməsini tələb edirdi.

Məhz bu səbəbdən əksər MKS-lərin metodistlərinin yerlərə gedişləri zamanı

---

[408] Hesablama Azərbaycan Mədəniyyət Nazirliyinin hesabat sənədləri, MKS-lərin hesabatları əsasında aparılmışdır.

kənd kitabxanalarında KBT cədvəlləri üzrə nəzəri-təcrübi seminar və praktikumlar keçirilirdi. Zaqatala, Yardımlı, Yevlax MKS-lərinin və Bakı şəhər Mərkəzi Kitabxanasının metodik fəaliyyəti daha müvəffəqiyyətli olmuşdu. Belə ki, həmin MKS-lərdə 80-ci illərin birinci yarısında kitabxana fondları və kataloqlarının KBT cədvəllərinə keçirilməsi əsasən başa çatdırılmışdı.[409] Məsələn, 1981-1985-ci illərdə KBT ilə əlaqədar yalnız Yardımlı rayon MKS-in metodik-biblioqrafiya şö'bəsi tərəfindən 18 yazılı metodik material (tə'limat, qısaldılmış cədvəllər, KBT-nin müxtəlif şö'bələri üzrə ədəbiyyatın təsnifləşdirilməsinə dair tövsiyələr və s.) hazırlanıb yerlərə göndərilmiş, kənd kitabxanalarına 40-dan artıq gediş təşkil edilmişdi.[410] Həmin dövrdə Yardımlı rayon MKS-in metodik-biblioqrafiya şö'bəsinə daxil olan sorğunun çoxu KBT cədvəllərinin tətbiqi ilə əlaqədar idi.[411]

80-ci illərdə KBT-nin tətbiqinə dair yerlərə gedişlər və kitabxana işçilərinin bilavasitə iş yerində tə'limatlandırılması, eləcə də filialların əməkdaşları üçün seminar və təcrübi məşğələlərin keçirilməsi istiqamətində fərqlənən MKS-lərdən Şamaxı, Göyçay, Şəki, İsmayıllı, Salyan, Ağdam, Gədəbəy, Ağdaş, Kürdəmir, Ordubad, Şahbuz, Xocavənd (Martuni) mərkəzləşdirilmiş kitabxana sistemlərini göstərmək olar. Həmin MKS-lərin mərkəzi kitabxanaları tərəfindən təşkil edilmiş gedişlər zamanı kənd kitabxana işçiləri yerlərdə standartlaşdırma, oxucularla fərdi işin təşkili, filial fondlarının komplektləşdirilməsi, diyarşünaslıq işləri, uçot və hesabat və s. məsələlər üzrə tə'limatlandırılır, konkret məsləhətlər və tövsiyələr alırdılar. Yerlərə gedişlər zamanı filialların fəaliyyətinin bütövlükdə planlaşdırılmasına xüsusi fikir verilirdi.

Kitabxanalara gedişlərin nəticələrinə nəzarət etmək məqsədi ilə demək olar ki, MKS-lərə daxil olan bütün filiallarda «Metodistin qeyd dəftəri» yaradılmışdı. Bu dəftərdə hər bir gedişin tarixi, metodis- tin familiyası və adı, görülən işlər, verilmiş tövsiyələrin qısa məzmunu, tapşırıqlar və onların icra müddəti göstərilirdi.

80-ci illərdə respublikanın bir sıra rayon MKS-lərində apardığımız müşahidələr və filiallarda «Metodistlərin qeyd dəftərləri» ilə tanışlıq göstərir ki, yerlərə gedişlər zamanı metodistlər tərəfindən verilən tövsiyələr və tapşırıqlar əhaliyə kitabxana xidmətinin bütün məsələlərini əsasən əhatə edir. Məsələn, Gədəbəy rayonu Slavyanka və Qızıltorpaq kənd kitabxanalarında 1985-ci il «Metodistin qeyd dəftəri»ndə aşağıdakı tövsiyələrin verilməsi haqqında yazılar vardır:

1.Kitabxanada oxuculara verilən rədd cavablarının uçotunun aparılması (ilboyu);

2.Diyarşünaslıq kartotekasının tərtib edilməsi. Bu məqsədlə rayon diyarşünaslıq muzeyi ilə əlaqə yaradılsın (icra müddəti 3 ay);

3.Əlifba kataloqunda köhnəlmiş təsvirlər yeni dövlət standartına uyğun şəkildə təkmilləşdirilsin (icra müddəti 1 il);

4.Kənd məktəb kitabxanası ilə birlikdə yuxarı sinif şagirdləri üçün hərbi vətənpərvərlik mövzusunda və peşəyönümü istiqamətində birgə tədbirlər: gö-rüşlər, oxucu konfransları, biblioqrafik icmallar təşkil edilsin və s. (il boyu).

Müsbət səmərə verən belə təkliflər və tövsiyələr müəllif tərəfindən 80-ci illərin sonu - 90-cı illərin ortalarında Qazax, Tovuz və Xanlar rayonlarının kənd kitabxanalarında da müşahidə edilmişdir.

Qeyd etdiyimiz kimi, «Metodistin qeyd dəftəri» MKS-lərdə filialların metodik tə'minatında bir növ nəzarət funksiyasını oynayırdı. Belə ki, kitabxanalara növbəti gediş zamanı əvvəllər müəyyənləşdirilmiş nöqsanlar və onların aradan qaldırılması vəziyyəti məhz bu dəftərlər vasitəsilə aydınlaşdırılırdı. Bu dövrdə respublikanın şə-

[409] Qafurova L., Qaracayev İ. Respublika kütləvi kitabxanalarında KBT-nin tətbiqi // M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının elmi əsərləri. Bur.IV.-B., 1988.-S.22.

[410] M.F. Axundov adına Respublika Dövlət Kitabxanasının arxivi; Elmi-metodik şö'bənin 1981-1985-ci il hesabatları

[411] Yenə orada.

hər və rayon MKS-lərində müxtəlif metodik tövsiyələrin hazırlanması və filiallara göndərilməsi sistemdaxili metodik tə'minatın səmərəli forması kimi, demək olar ki, iri MKS-lərin əksəriyyəti üçün səciyyəvi idi.

Bu metodik tövsiyələr əsasən M.F.Axundov adına Dövlət Kitabxanasının metodik vəsaitləri və məktubları əsasında tərtib edilib, bir növ onların yerli şəraitə uyğunlaşdırılmış qısa şərhindən ibarət idi. Belə tövsiyələr əsasən 6-11 səhifədən ibarət olaraq makinada yazılmış qaydada bütün kənd kitabxanalarına göndərilirdi.

Respublikanın şəhər və rayon MKS-lərinin mərkəzi kitabxanalarının metodik fəaliyyətində çox mühüm yer tutan belə metodik tövsiyələr əsasən tarixi hadisələr və əlamətdar günlər, müxtəlif oxucu qrupları (heyvandarlar, müəllimlər, mexanizatorlar, fəhlələr, gənclər, uşaqlar və s.) arasında ədəbiyyatın təbliğinə, kitabxana işinin ayrı-ayrı proseslərinə (kataloqlaşdırma, komplektləşdirmə, səyyar kitabxanaların təşkili və s.) həsr olunmuşdur.

Metodik tövsiyələr tərtib edilərkən nəzəri-metodik məsələlərlə yanaşı, müvafiq iş üsuluna dair MKS-də mövcud qabaqcıl təcrübə, bu və ya digər filialın bu sahədə əldə etdiyi nailiyyətlərdən bəhs edilirdi. 80-ci illərdə MKS-lər tərəfindən hər il kənd kitabxanalarına müxtəlif mövzularda 350-400 metodik tövsiyə göndərilmişdi. Bu baxımdan Sumqayıt, Mingəçevir, Ordubad, Naxçıvan, Şəki, Əli Bayramlı, Yevlax, Şamaxı, Neftçala, Abşeron, Yardımlı, Lənkəran, İsmayıllı, Zaqatala və bir sıra başqa MKS-lərin fəaliyyəti daha səciyyəvi idi. Metodik tövsiyələr içərisində məzmun baxımından bunlar daha çox fərqlənirdi:

1. «Doğma vətənimizi öyrənmək» (Naxçıvan şəhər MKS, 1982-ci il);
2. «Görkəmli satira ustası M.Ə.Sabir» (Şamaxı MKS, 1988-ci il);
3. «Gənc fəhlə oxuculara kitabxana xidməti» (Sumqayıt, Əli Bayramlı MKS-ləri, 1983-cü il);
4. «Kənd kitabxanalarında kənd təsərrüfatı ədəbiyyatının təbliği» (Lənkəran, Ağdaş MKS-ləri, 1984-cü il);
5. «Sənədlərin biblioqrafik təsvir qaydaları» (İsmayıllı, Mingəçevir, Şəki, Yevlax MKS-ləri, 1983-84-cü illər);
6. «Səyyar kitabxanalar və kitab verilişi məntəqələrinin təşkili» (Abşeron, Naxçıvan, Yardımlı, Neftçala MKS-ləri, 1986-1987-ci illər);
7. «Kitabxana fondunun mühafizəsi» (Mingəçevir, Sumqayıt, Yevlax, Qax, Zəngilan, Bərdə, Ağdaş, Zərdab, Göyçay, Kürdəmir MKS-ləri, 1985-1988-ci illər);
8. «Kənd kitabxanalarında KBT-nin tətbiqi» (bütün MKS-lər, 1981-1988-ci illər);
9. «Təbiətin mühafizəsi ümumxalq işidir» (Şəki, Zaqatala, Abşeron, Qəbələ, Goranboy (Qasım İsmayılov), Ağdam, Şamaxı - cəmi 24 MKS, 1981-1986-cı illər);
10. «Əhalinin sağlamlığının qorunması və kitabxanaların vəzifələri» (Neftçala, Sumqayıt, Mingəçevir, Əli Bayramlı, Kürdəmir, Şamaxı, Beyləqan - təxminən 14 MKS 1983-1987-ci illər).

Şübhəsiz ki, MKS-lərin metodik fəaliyyətində getdikcə geniş tətbiq edilən belə yazılı tövsiyələr çap vəsaitlərindən fərqli olaraq daha operativ xarakter daşıyır, filial kitabxanalarının diqqətini əhaliyə kitabxana xidmətinin ən ümdə vəzifələrinə cəlb edir, onların gündəlik fəaliyyətində məsləhətçi rolunu oynayırdı.

80-ci illərdə respublikanın bir çox MKS-lərinin metodik fəaliyyətində yerlərdə kitabxana işinin ümumi yüksəlişinə, oxuculara kitabxana xidmətinin təkmilləşdirilməsinə, bu sahədə qabaqcıl təcrübə mübadiləsinə xidmət edən kitabxana işçilərinin rayon, şəhər və zona müşavirələrinin keçirilməsi də getdikcə geniş yayılmağa başlamışdı. Qeyd edək ki, belə müşavirələr əksər hallarda Respublika Mədəniyyət Nazirliyinin, M.F.Axundov adına Dövlət Kitabxanasının, yerli hakimiyyət orqanlarının və ictimai təşkilatların rəhbərliyi və iştirakı ilə keçirilir, əsas təşkilatçılar isə MKS-in işçiləri olurdular. Onlar müşavirələrin gündəliyinin formalaşmasında, müzakirə ediləcək mövzuların müəyyənləşdirilməsində, mə'ruzə və çıxışların hazırlanmasında,

yerli qabaqcıl təcrübənin ümumiləşdirilməsində, sərgilərin təşkilində və başqa təşkilati işlərin həyata keçirilməsində bilavasitə iştirak edirdilər. Bu baxımdan Sumqayıt, Qazax, Abşeron, Lənkəran, Ağdam, Gəncə, Salyan, Xanlar, Qax, Saatlı, Neftçala, Füzuli, Yevlax və s. MKS-lərin fəaliyyəti daha səmərəli idi.

Bu illərdə bilavasitə yerli MKS-lərin təşəbbüsü və fəal iştirak ilə keçirilən müşavirələrə bunları misal göstərmək olar: «Çap əsərlərinin sistemləşdirilməsinin xüsusi metodikası» (Abşeron MKS, 1981); «Hüquqi biliklərin təbliğində mədəni-maarif müəssisələrinin rolu» (Sumqayıt MKS, 1984); «Rayon, şəhər və kənd kitabxanalarının əhalinin mə'nəvi tərbiyəsində iştirakı» (Ağdam, Gəncə, Yevlax, Sabirabad, Şəki, Salyan MKS-ləri, 1983-1987); «Kənd təsərrüfatı mütəxəssislərinə kitabxana xidməti» (Lənkəran MKS, 1984); «MKS-lərdə vahid kitabxana fondlarının komplektləşdirilməsinin təşkili» (Qazax, Şəki, Salyan, Göyçay, Yevlax, Ağdam MKS-ləri, 1985); «Kitabxana fondlarının komplektləşdirilməsi, istifadəsi və mühafizəsi» (Gəncə, Quba, Qax MKS-ləri, 1987) və s.

80-ci illərdə artıq ən'ənə xarakteri alan belə müşavirələr yerlərdə kitabxana işinin mühüm prob- lemlərinin kollektiv müzakirələrinə çevrilərək kitabxanaların fəaliyyətinin məqsədyönlü təşkilində, qabaqcıl təcrübə mübadiləsinin aparılmasında olduqca əhəmiyyətli rol oynayırdı. Hər bir müşavirədən əvvəl yerli MKS-də müvafiq məsələnin həlli yolları öyrənilir, nöqsanlar aşkar edilir, qabaqcıl təcrübə müəyyənləşdirilir və işin təkmilləşdirilməsinə dair proqram xarakterli tövsiyələr hazırlanıb tətbiq edilirdi.

Qeyd etdiyimiz kimi, kitabxana işinin aktual problemlərinə həsr edilmiş müşavirələrdə əhaliyə kitabxana xidmətində qabaqcıl təcrübənin müəyyənləşdirilib yayılması çox mühüm əhəmiyyət kəsb edirdi. Belə ki, 80-ci illərdə MKS-lər tərəfindən kitabxanaların işində tətbiq edilən mütərəqqi iş üsullarının, onların səmərəli nəticələrinin respublikanın kitabxana ictimaiyyətinə çatdırılması istiqamətində müəyyən işlər görülmüşdü. Bu məqsədlə rayon və şəhər MKS-lərində ayrı-ayrı kənd kitabxanalarının təcrübəsi kompleks şəkildə öyrənilir, meydana çıxarılmış qabaqcıl iş nümunələri ümumiləşdirilib ikigünlük seminarlarda və müşavirələrdə geniş müzakirə olunur, müvafiq kitabxanaların fəaliyyətinə dair arayışlar hazırlanıb M.F.Axundov adına Dövlət Kitabxanasına təqdim edilirdi. Nəticədə həmin kitabxanaların qabaqcıl iş təcrübəsinə dair məqalələr, kitabçalar nəşr edilib kitabxana işçiləri arasında geniş yayılırdı. Bunlardan Bakı şəhər Uşaq Kitabxanasının[412] və Lənkəran MKS-in qabaqcıl iş təcrübəsini əks etdirən vəsaitlər olduqca qiymətli idi.[413] Məsələn, M.Abidovun «Lənkəran MKS-ində vahid fondun komplektləşdirilməsi» adlı vəsaitində MKS-də komplektləşdirmənin tematik-tipoloji planının tərtibi, sistemin kitab fondunun formalaşmasında ərazinin təsərrüfat profili və rayon oxucularının informasiya tələbatının nəzərə alınması, nəticədə fonddan səmərəli istifadə olunması, fondun komplektləşdirilməsinin sistemdaxili əlaqələndirilməsi, təşkili və idarə olunması məsələlərinə dair şərh etdiyi iş üsulları geniş kitabxana ictimaiyyətinin marağına səbəb olmuşdu.

80-ci illərdə qabaqcıl iş üsullarının meydana çıxarılıb tətbiq edilməsində Respublika Mədəniyyət Nazirliyi tərəfindən ildə bir dəfə keçirilən MKS direktorlarının seminar-müşavirəsi də xüsusi əhəmiyyət kəsb edirdi. Mədəniyyət nazirinin müavini T.S.Əliyevin təşəbbüsü və sədrliyi ilə bir neçə il dalbadal keçirilən müşavirələrdə əsas diqqət hesabat xarakterli rəqəmləri əks etdirən çıxışlara deyil, il ərzində bu və ya digər MKS-də oxuculara xidmət işində qazanılan nailiyyətlərə yetirilirdi. Hər bir müşavirə rayon və şəhər MKS-lərinin işinin təkmilləşdirilməsinə yönəldilmiş töv-

---

[412] 80 yaşlı kitabxana (Zevin adına uşaq kitabxanası haqqında) / Tərtib edəni: X.Mehribanı, red. K.Tahirov.-B.,1984.-27 s.

[413] Kitabxana fondunun komplektləşdirilməsi (Lənkəran MKS-in iş təcrübəsi) / Tərtib edəni: M.Abidov, red.M.Bəşirov.-B.,1992.-23 s.

siyələr və təkliflərdən ibarət geniş proqram qəbul edilməsi ilə nəticələnirdi. Təəssüf ki, kitabxanaların metodik tə'minatı işində olduqca səmərəli rol oynayan illik müşavirələr son ictimai-siyasi hadisələrlə bağlı 1990-cı ildən e'tibarən dayandırılmışdır.

Respublikanın mərkəzləşdirilmiş kitabxana sistemlərinin metodik fəaliyyətində Naxçıvan Muxtar Respublikasının MKS-ləri də əhəmiyyətli rol oynayırdı.

80-ci illərin əvvəllərində Naxçıvan Muxtar Respublikasında 5 mərkəzləşdirilmiş kitabxana sistemi fəaliyyət göstərirdi. Bunlar Naxçıvan şəhər, Şərur (İliç), Babək, Şahbuz və Culfa rayon MKS-ləri idi.[414] Həmin MKS-lərin ümumi metodik tə'minatı M.S.Ordubadi adına Muxtar Respublika Kitabxanası tərəfindən həyata keçirilirdi. Bununla yanaşı, adları çəkilən MKS-lərin kitabxanaları müvafiq ərazidəki kənd kitabxanalarının fəaliyyətinin metodik tə'minatçısı rolunu oynayırdılar və 80-ci illərdə bu istiqamətdə müəyyən nailiyyətlər əldə etmişdilər. MKS-lərdə tədricən kənd kitabxanalarına metodik rəhbərliyin forma və üsulları təkmilləşir, onların səmərəsi özünü kənd kitabxanalarında daha qabarıq şəkildə göstərirdi. Naxçıvan Muxtar Respublikası MKS-lərinin hamısında metodik-biblioqrafik şö'bələr yaradılmışdı. Hər bir mərkəzi kitabxananın müvafiq şö'bələrində 2 nəfər metodist çalışırdı. Bundan əlavə M.S.Ordubadi adına Muxtar Respublika Kitabxanasının metodistləri müntəzəm surətdə şəhər (rayon) MKS-lərinin fəaliyyətini istiqamətləndirirdilər. Naxçıvan Respublikası MKS-lərinin metodik fəaliyyətində ən mühüm istiqamət kitabxana işçilərinin peşə səviyyəsinin artırılmasına yönəlmiş müxtəlif tipli tədbirlərin həyata keçirilməsindən ibarət idi. M.S.Ordubadi adına Muxtar Respublika Kitabxanası tərəfindən 1982-ci ildə MKS işçiləri üçün üçaylıq ixtisasartırma kurslarının mövzularının nümunəvi proqramı tərtib edilmişdi.[415] Proqram özündə sosial-siyasi və ixtisas problemləri üzrə mühazirələrin, seminar-məşğələlərin, praktikumların mövzularını və saatlarını nəzərdə tuturdu. Məsələn;

-MKS-lərin fəaliyyətinin planlaşdırılması- 2 s.
-MKS-in fondunun komplektləşdirilməsi - 1 s.
-MKS-lərdə soraq-biblioqrafiya aparatı - 2 s.
-MKS-lərdə diyarşünaslıq işləri - 1 s.
-MKS-lərdə oxuculara xidmət işinin təşkili- 4 s.
-Filiallarda oxuculara xidmət işinin mərkəzi kitabxananın fəaliyyəti ilə əlaqələndirilməsi - 1 s.
-Filiallarda kitabxana fondunun yoxlanılması qaydası - 1 s.
-Filiallarda uçot-hesabat işləri - 2 s.
-Filiallarda kataloq sisteminin təşkili 2s. və s.[416]

Qeyd etmək lazımdır ki, Muxtar Respublikanın kitabxana işçilərinin peşə səviyyəsinin yüksəldilməsinə yönəlmiş hər hansı bir tədbirin həyata keçirilməsinin zəruriliyi kitabxana işçilərinin peşə səviyyəsinin aşağı olmasından irəli gəlirdi. Belə ki, 80-ci illərdə Muxtar Respublikada fəaliyyət göstərən 300-ə qədər kitabxana işçisinin yalnız 40 nəfərinin ali, 100 nəfərinin isə orta ixtisas təhsili var idi. Bu isə özündə 2 Muxtar Respublika kitabxanasını, 5 mərkəzi kitabxananı, 223 kənd kitabxanasını, 6 şəhər kitabxanasını və 3 avtokitabxananı (bibliobus) cəmləşdirən Muxtar Respublika üçün olduqca az idi.[417]

80-ci illərdə Muxtar Respublikanın metodik mərkəzlərində çalışan 16 metodistdən 7-sinin ali kitabxanaçılıq təhsili yox idi.[418] Belə vəziyyətdə respublikanın ki-

---

[414] Əliyev A.M. Naxçıvan MSSR-də dövlət kütləvi kitabxanalarının mərkəzləşdirilməsinin təşkili // M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının elmi əsərləri. Bur.II.-B.,1983.-S.105-111.
[415] Yenə orada. -S.112-115.
[416] Əliyev A. Naxçıvan MSSR-də dövlət kütləvi kitabxanalarının mərkəzləşdirilməsinin təşkili // M.F.Axundov adına ADK-nın elmi əsərləri.-Bur. II, 1983,-S.112-115.
[417] Yenə orada.
[418] Hesablama Muxtar Respublika MKS-nin hesabatlarına əsaslanır.

tabxana şəbəkəsinin metodik tə'minatının səmərəli təşkilindən ciddi söhbət gedə bilməzdi. Metodistlərin peşə səviyyələrinin aşağı olması, metodik fəaliyyət sahəsində ən'ənənin və uzunmüddətli təcrübənin formalaşmaması, MKS-lərdə müvafiq metodik nəşrlərin azlığı, kənd kitabxanalarının metodik tə'minatının lazımi səviyyədə qurulmasına mənfi tə'sir göstərirdi.

Bu baxımdan Naxçıvan Muxtar Respublikası MKS-lərinin metodik fəaliyyətinin elmi potensialının inkişafında M.F.Axundov adına Dövlət Kitabxanası həlledici rol oynayırdı. Belə ki, 1981-1988-ci illərdə Dövlət Kitabxanası tərəfindən Naxçıvan Muxtar Respublikasının kitabxanalarına, o cümlədən, Naxçıvan, Şahbuz, Şərur, Babək, Culfa, Ordubad MKS-lərinə 14 e'zamiyyə təşkil edilmiş, MKS metodistləri üçün 20-dən artıq mə'ruzə və mühazirə oxunmuş, metodik fəaliyyətin bütün sahələri üzrə əsaslı tə'limatlandırma işləri aparılmışdı. Bundan başqa, Naxçıvan Muxtar Respublikasının bütün MKS-ləri müntəzəm olaraq Dövlət Kitabxanasının metodik vəsaitlərini alırdılar.

Qeyd etmək lazımdır ki, düzgün metodik rəhbərlik nəticəsində Muxtar Respublikanın bir sıra MKS-lərində qabaqcıl iş təcrübəsinin formalaşması nəzərə çarpırdı. Məsələn, Şahbuz rayon MKS-in Tırkeş, Nurs, Kolanı, Kükü kənd filiallarında, Culfa rayon MKS-in Saltaq, Bənəniyar kəndlərində yerləşən filiallarda, Ordubad MKS-in Düylün, Aza, Dırnıs kəndlərindəki filiallarda 80-ci illərdə əhalinin kitabxanaya cəlb edilməsi istiqamətində müsbət nəticələr əldə edilmişdi.[419]

1985-ci ildən başlayaraq Muxtar Respublikada kitabxana işçilərinin illik seminar-müşavirələrinin təşkili təcrübəsi davam etdirilirdi. Belə tədbirlər hər ilin mart-aprel aylarında M.S.Ordubadi adına Muxtar Respublika Kitabxanasında təşkil edilirdi. Seminar-müşavirələrdə bir qayda olaraq MKS-lərin direktorları, mərkəzi kitabxanaların şö'bə müdirləri, qabaqcıl filial kitabxanalarının müdirləri, cari il ərzində qazanılmış təcrübə mübadiləsi aparır, nailiyyətləri şərh edir, mövcud çətinliklər və problemlərdən bəhs edirdilər. Bütün müşavirələrdə Respublika Mədəniyyət Nazirliyinin, rayon mədəniyyət şö'bələrinin nümayəndələri yaxından iştirak etmişdilər. Müşavirələrin sənədləri onların olduqca işgüzar şəraitdə keçməsini sübut edir. 1986-cı il müşavirə-seminarında 18 nəfər kitabxana işçisi, o cümlədən kənd kitabxanalarının 7 nümayəndəsi çıxış edərək qabaqcıl təcrübədən, meydana çıxan çətinliklərdən danışmış, bir sıra əhəmiyyətli təkliflər irəli sürmüşdülər. Məsələn, Culfa rayonu Bənənyar kənd kitabxanasının müdiri S.Səidova, Babək rayonu Zeynəddin kənd kitabxanasının müdiri Z. Bağırova, Ordubad rayonu Dəstə kənd kitabxanasının müdiri S. Musayeva, M.S.Ordubadi adına Muxtar Respublika Kitabxanasının metodisti R.Səfixanova öz çıxışlarında kitabxanalara metodik rəhbərlik sisteminin təkmilləşdirilməsi məsələlərindən ətraflı danışmış, bu sahədə nəzərə çarpan çətinliklərin aradan qaldırılması yollarını izah etmişdilər.[420]

1987-ci ilin yekunlarına həsr edilmiş müşavirə-seminarın qəbul etdiyi tövsiyələrdə aşağıdakı müddəalar verilmişdi:

-Muxtar Respublikanın mərkəzləşdirilmiş kitabxana sistemləri oxuculara və istehsalat kollektivlərinə kitabxana-biblioqrafiya və mə'lumat xidmətini müxtəlif idarə və təşkilat kitabxanaları ilə əlaqəli təşkil etsinlər;

-Muxtar Respublikada az istifadə olunan nəşrlərin depozitar fondu yaradılsın;

-MKS-lərin fond və kataloqlarının KBT cədvəlləri üzrə yenidən təşkilinin 1988-ci ilin sonunadək başa çatdırılmasına nail olunsun;

-Telefon rabitəsinin, digər nəqliyyat vasitələrinin kifayət qədər olmaması xidmət işini çətinləşdirir, oxucuların ədəbiyyatdan vaxtında və səmərəli istifadə etməsinə maneçilik törədir. Halbuki bu, MKS-lərin təşkilində nəzərdə tutulmuş ən mühüm

---

[419] M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının 1987-1988-ci il hesabatları.

[420] Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin cari arxivi (Naxçıvan Muxtar Respublikasının Mədəniyyət Nazirliyi: 1986-cı il hesabatı, S.7).

məsələlərdən biri idi. Buna görə də Naxçıvan MR Mədəniyyət Nazirliyi mərkəzləşdirilmiş kitabxana sistemlərində telefon rabitəsi və nəqliyyat vasitələrinin təşkil edilməsini ciddi nəzarət altına almalı və onların tədricən həyata keçirilməsinə nail olmalıdır.[421]

80-ci illərdə Bakı şəhəri kütləvi kitabxanaları üzrə baş metodik mərkəz kimi şəhər Mərkəzi Kitabxanası da əsaslı işlər görmüşdür.

Mə'lumdur ki, Bakı şəhərində kütləvi kitabxanaların vahid mərkəzləşdirilmiş sistemini yaratmaq mümkün olmamışdır. Belə ki, paytaxtda fəaliyyət göstərən kütləvi kitabxanaların maddi-texniki bazasının və ilk növbədə binaların müvafiq inzibati rayonların icra hakimiyyəti orqanlarına məxsusluğu, kitabxanaların kommunal xərclərinin həmin rayonun icra orqanları tərəfindən tənzimlənməsi və onların vahid mərkəzdə birləşdirilməsinin mümkün olmaması, eləcə də digər təşkilati məsələlərin həllində bir sıra bürokratik əngəllərin meydana çıxması və onların həllinə şəhər icra hakimiyyəti mədəniyyət idarəsinin laqeyd münasibəti kitabxanaların vahid mərkəzləşdirilmiş sisteminin formalaşmasına imkan vermədi. Nəticədə Bakı şəhərində əvvəllər eksperiment, sonralar isə daimi xarakter daşıyan ilkin dövrlərdə (1990-cı ilə qədər) özündə 2 inzibati rayonu (Nizami və Xətai) birləşdirən, sonra isə 2 müstəqil MKS-ə çevrilən kitabxana birlikləri yarandı. Bunlar Nizami və Xətai rayon MKS-ləri idi. Lakin Bakıda vahid mərkəzləşdirilmiş kitabxana sisteminin olmaması şəhərin kütləvi kitabxanalarının metodik tə'minatına əsaslı mənfi tə'sir göstərmədi. Belə vəziyyət şəhər Mərkəzi Kitabxanasının metodik fəaliyyətinin fərdiləşməsini və bu işin 2 istiqamətdə aparılmasını tələb edirdi: birincisi, Nizami və Xətai rayonları MKS-lərinin metodik fəaliyyətinin formalaşmasını tə'min etmək və bu fəaliyyəti əlaqələndirmək; ikincisi, MKS-lərə daxil olmayan və müstəqil fəaliyyət göstərən kitabxanaların metodik tə'minatını həyata keçirmək.

Qeyd etmək lazımdır ki, Bakı şəhər Mərkəzi Kitabxanasının zəngin təcrübəsi bu işi yeni tələblərə uyğun şəkildə həyata keçirmək üçün əsaslı zəmin idi. 1968-ci ildən fəaliyyət göstərən şəhər Mərkəzi Kitabxanası metodik şö'bəsinin 80-ci illərdəki fəaliyyəti təşkilati və məzmun baxımından çoxşaxəli idi. Bu dövrdə tərkibində 7 nəfər ali təhsilli əməkdaşı olan Bakı şəhər Mərkəzi Kitabxanasının metodik fəaliyyətini belə qruplaşdırmaq olar:

1.Elmi-əməli konfranslar - ildə 2-3 dəfə;

2.Şəhər üzrə seminarlar – ayda 1 dəfə;

3.İnzibati rayonlar üzrə seminarlar - ayda 1 dəfə;

4.Metodik işləmələr - ildə 8-10 ədəd;

5.Kitabxanalarda gedişlər - ildə 150-200 dəfə;

6.Metodik şö'bədə məsləhətlər – ildə 220-250.[422]

Şəhər Mərkəzi Kitabxanasının həmin dövrdəki metodik fəaliyyətinin ən mühüm müsbət xüsusiyyəti bu fəaliyyətin M.F.Axundov adına Dövlət Kitabxanası və Mərkəzi şəhər Uşaq Kitabxanası ilə əlaqəli şəkildə həyata keçirilməsi idi. Mərkəzi Kitabxanada keçirilən konfrans, müşavirə və seminarlarda Dövlət Kitabxanasının metodistləri, o cümlədən, M.Həsənov, S.Allahverənov, N.Şorkina, D.Bayramov və başqaları fəal iştirak edirdilər. Belə tədbirlərə misal olaraq bunları göstərmək olar: «Kitabxana fondlarının və kataloq sisteminin KBT üzrə yenidən təşkili» (1982), «Kitabxana işinə dair Dövlət standartlarının tətbiqi» (1983), «Kitabxanalarda oxucuların əxlaq tərbiyəsinə dair ədəbiyyatın təbliği» (1983), «Kitabxanalarda estetik biliklərin təbliği» (1984), «Oxuculara soraq-biblioqrafiya xidmətinin yaxşılaşdırılması» (1985), «Yenidənqurma və kitabxanalar» (1986), «Kitabxanalarda hüquqi biliklərin təbliği» (1987), «Kitabxanalarda hərbi vətənpərvərlik ədəbiyyatının təbliği» (1988-1989) və

---

[421] Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin cari arxivi: 1988-ci il hesabatı.-S.12.

[422] Bakı şəhər Mərkəzi Kitabxanasının 1980-1990-cı illər üzrə hesabatları əsasında.

s.[423] Mərkəzi Kitabxananın metodik fəaliyyətində müxtəlif yazılı materialların xüsusi çəkisi həmişə yüksək olmuşdur. Belə ki, metodistlər tərəfindən 1992-ci ilə qədər hər il 71 kütləvi kitabxanaya və iki mərkəzləşdirilmiş kitabxana sisteminə orta hesabla 8-10 metodik işləmə tərtib edilib göndərilirdi. Məsələn, 1992-ci ildə mövcud maddi-texniki çətinliklərə baxmayaraq metodik şö'bə tərəfindən şəhər kütləvi kitabxanalarına ümumi həcmi 12 çap vərəqində 9 metodik işləmə göndərilmişdir. Nümunə kimi bunları göstərmək olar:

-«M.Ə.Sabirin anadan olmasının 130 illiyinə həsr olunmuş ədəbi-bədii gecənin «senarisi» (fevral);

-«Kitabxanalarda oxucular üçün «Novruz bayramı» mövzusunda tədbirlərin təşkili» (mart);

-«Kitabxanalarda dirçəliş gününün keçirilməsinə dair tövsiyələr» (may);

-«Oxuculara kitabxana xidmətinin yeni üsulları» (sentyabr);

-«Kitabxanaçılıq peşəsi: vəziyyəti və perspektivləri» (oktyabr);

-«Əhalinin asudə vaxtının təşkilində kitabxanaların rolu» (metodik tövsiyələr) (noyabr).[424]

Hər bir metodik mərkəzin fəaliyyətinin kəmiyyət və keyfiyyət göstəriciləri əhəmiyyətli dərəcədə təşkilati məsələlərin nə qədər düzgün və məqsədyönlü həll edilməsindən asılıdır. Bu baxımdan Bakı şəhər Mərkəzi Kitabxanasının metodik fəaliyyətinin təşkili və idarə olunması bu fəaliyyətin səmərəli olmasına hər

cür şərait yaradırdı.

Metodik şö'bədə əməyin məqsədyönlü bölüşdürülməsi, şö'bənin fəaliyyətini hərtərəfli əks etdirən fərdi və ümumiləşdirlmiş real iş planlarının tərtib edilməsi, planların yerinə yetirilməsinə nəzarət, dəqiq uçot, yardımçı aparat və müasir kitabxanaşünaslıq fikrini özündə cəmləşdirən metodik nəşrlər fondu və s. kimi təşkilati məsələlərin keyfiyyətli həlli metodik fəaliyyətin səmərəli olmasını tə'min edirdi. Belə ki, şəhərin hər bir inzibati bölgüsü üzrə kitabxanalar metodistlər arasında bölüşdürülmüşdü. Hər bir metodist müvafiq inzibati rayonda fəaliyyət göstərən kitabxanaların metodik tə'minatına cavabdeh olmaqla öz işini həmin kitabxanaların xidmət göstərdiyi ərazinin mədəni və təsərrüfat xüsusiyyətlərinə uyğun təşkil edirdi. Məsələn, metodist İ.Məmmədova – Nizami və Xətai rayon MKS-ləri üzrə, metodist X.Zülalova - Nəsimi və Səbayel rayonları kitabxanaları üzrə, metodist Z.İsmayılova - Qaradağ rayonu kitabxanaları üzrə və s.

Hər bir metodist fərdi plan və qrafik əsasında hər ay ərzində bir dəfə ona təhkim olunmuş kitabxanalara getməli idi.

Bakı şəhərinin bütün kütləvi kitabxanalarında «Metodistin qeyd dəftəri» təşkil olunmuşdu ki, onların əsasında hər bir gediş zamanı müvafiq kitabxanaya verilən tapşırıq və təkliflərin yerinə yetirilməsinə nəzarət edilirdi.

Metodik şö'bədə kitabxanaların profili, ünvanları, kitabxana işçiləri, metodik vəsaitlər üzrə yardımçı kartotekalar yaradılırdı. Şö'bənin nəzdində özündə müasir kitabxanaçılıq məsələlərini əks etdirən 3 min nüsxədən artıq metodik nəşrlər fondu vardı. Burada Azərbaycan və rus dillərində kitabxana işinə dair rəsmi və normativ sənədlər, elmi ədəbiyyat, mə'lumat nəşrləri, qabaqcıl təcrübəyə dair yazılar, dövri nəşrlər və s. materiallar toplanılmışdı.

Ümumiyyətlə, 80-ci illərdə respublikanın kütləvi kitabxanaları üzrə metodik mərkəzlərdə də zəngin metodik nəşrlər fondu formalaşmışdı. Bu fondlar metodik fəaliyyəti müasir tələblərə uyğun, elmi əsaslarla təşkil etmək üçün zəngin informasiya bazası rolunu oynayırdılar. Mərkəzi kitabxanaların metodik nəşrlər fondunun tərkibinə əsasən SSRİ-nin mərkəzi kitabxanaları tərəfindən hazırlanan ədəbiyyat,

---

[423] Bakı şəhər Mərkəzi Kitabxanasının 1980-1990-cı illər üzrə hesabatları əsasında.

[424] Yenə orada. 1992-ci il hesabatı.- S.35-36.

eləcə də M.F.Axundov adına Dövlət Kitabxanası və respublikanın digər metodik mərkəzləri tərəfindən buraxılmış vəsaitlər, kitabxana işinin tarixini və müasir vəziyyətini əks etdirən çap əsərləri dövlət standartları, rəsmi sənədlər, mə'lumat nəşrləri və s. sənədlər daxil idi. Apardığımız təqribi hesablamalara görə, MKS-lərdə formalaşmış metodik ədəbiyyatın ümumi həcmi 100 min çap vahidindən artıq idi. Metodik nəşrlər fondunun kəmiyyət və keyfiyyət göstəricilərinə görə Sumqayıt, Gəncə, Mingəçevir, Xanlar, Yardımlı, Göyçay, Bakı şəhərinin Nizami rayonu MKS-ləri xüsusilə fərqlənirdilər. Metodik nəşrlər fondlarının müntəzəm surətdə yeni nəşrlərlə tamamlanması əsasən metodik mərkəzlərarası mübadilə, kitabxana kollektoru və dövri nəşrlərə abunə vasitəsi ilə həyata keçirilirdi.

Bu dövrdə MKS-lərin metodik fəaliyyətinin ən mühüm nailiyyətlərindən biri yüksək peşə potensialına malik olan metodistlər ordusunun yaradılması idi. 80-ci illərin sonunda respublikanın şəhər və rayon MKS-lərinin mərkəzi kitabxanalarında çalışan metodistlərin ümumi sayı 240-250 nəfər arasında idi.[425] Bunların əksəriyyəti (təxminən 80-85 faizi) ali təhsilli idi. Bir çox metodik şö'bələrin metodistləri isə (Bakı, Gəncə, Sumqayıt, Bakının Nizami və Xətai rayonlarının MKS-ləri, Şamaxı, Qax, Gədəbəy, Ağdaş, Zərdab, Naxçıvan və s.) yalnız ali təhsilli mütəxəssislərdən ibarət idi.

Beləliklə, Azərbaycanda dövlət kütləvi kitabxanalarının mərkəzləşdirilməsindən keçən dövr aydın şəkildə sübut etdi ki, ölkədə kitabxana işinin inkişafı, əhaliyə və xüsusən kənd əhalisinə kitabxana xidmətinin optimallaşdırılması bilavasitə onların metodik tə'minatının məzmunu ilə əlaqədardır.

Bu fikri 80-ci illərdə MKS-lərin fəaliyyətində baş vermiş mütərəqqi kəmiyyət və keyfiyyət dəyişikliyi də təsdiq edir. Bu dəyişikliklər xüsusən kütləvi kitabxanaların mərkəzləşdirilməsinin ilk ili (1981-ci il) ilə Azərbaycana erməni təcavüzü başlayana qədərki son illə - 1987-ci il müqayisədə daha aydın görünür. Belə ki, əgər 1981-ci ildə respublikada 3593 dövlət kütləvi kitabxanası fəaliyyət göstərirdisə, 1987-ci ildə bu kitabxanaların sayı 3949-a çatdırılmışdı. Həmin kitabxanaların kitab fondu 1981-ci ildə 29 milyon 863 min nüsxə olduğu halda, 1987-ci ildə bu rəqəm 37 milyon 843 minə çatmışdı. Bu dövrdə dövlət kütləvi kitabxanalarında kitab verilişi müvafiq surətdə 56.326.900 nüsxədən 63.687 min nüsxəyə, oxucuların sayı isə 2.517.400 nəfərdən 2.984.500 nəfərə qədər artmışdı. Ümumiyyətlə, bu illərdə dövlət kütləvi kitabxanalarının sayı 356, kitab fondu 7.980 min nüsxə, kitab verilişi 7.361 min nüsxə, oxucuların sayı isə 467 min nəfərdən çox artmışdı. Bununla yanaşı, kitabxanaların fondlarının tərkibi də xeyli təkmilləşmiş, MKS-lərin vahid fondunda elmi-texniki və kənd təsərrüfatı ədəbiyyatının xüsusi çəkisi xeyli çoxalmışdı.[426]

Müqayisə etdiyimiz illərdə dövlət kütləvi kitabxanalarında çalışan ali ixtisas təhsili olan mütəxəssislərin sayı müvafiq surətdə 180 nəfərdən 994 nəfərə, orta ixtisas təhsili olan kitabxanaçıların sayı isə 2506 nəfərdən 1990 nəfərə çatdırılmışdı. Kitabxanalarda çalışan əməkdaşların ümumi sayı isə 616 nəfərdən 6709 nəfərə qədər artmışdı.[427]

Mərkəzləşmə şəraitində dövlət kütləvi kitabxanalarının düzgün metodik tə'minatı onların fəaliyyətində xeyli mütərəqqi iş üsullarının meydana gəlməsinə, kitabxanaçıların təşəbbüskarlıq meyllərinin inkişafına səbəb olmuşdur.

Belə ki, MKS-lərdə mühüm işlərin və texnoloji proseslərin, o cümlədən, yeni ədəbiyyatın komplektləşdirilməsinin, ədəbiyyatın uçotu, işlənməsi və kataloq-

---

[425] Hesablamalar Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin və MKS-lərin illik hesabatları əsasında aparılmışdır.

[426] Hesablamalar M.F.Axundov adına Dövlət Kitabxanasının elmi-metodik şö'bəsinin hesabat materialları əsasında aparılmışdır.

[427] Hesablamalar M.F.Axundov adına Dövlət Kitabxanasının elmi-metodik şö'bəsinin hesabat materialları əsasında aparılmışdır.

laşdırılmasının mərkəzi kitabxana tərəfindən həyata keçirilməsi nəticəsində filial kitabxana işçilərinin əlavə işlərdən azad olunması, onların iş vaxtının məhz oxuculara xidmətin həyata keçirilməsinə yönəlməsi üçün geniş imkanlar yaratmışdı. Bununla yanaşı, MKS şəraitində sistemdaxili metodik tə’minat fəaliyyətinin ildən-ilə təkmilləşdirilməsi, bu fəaliyyətin kitabxanaların təcrübəsinə elmi baxımdan nüfuz etməsi, onların işinin sistemli təhlil edilib, məqsədyönlü istiqamətləndirilməsi, qabaqcıl təcrübənin meydana çıxarılıb tətbiq edilməsi, kitabxana işçilərinin peşə səviyyəsinin artırılmasının sistemli şəkildə təşkil edilməsi və s. kimi metodik tədbirlər 80-ci illərdə əhaliyə kitabxana xidmətinin məzmununu dəyişmiş, onun yüksəlişini tə’min etmişdir.

Bu illərdə MKS-lərin fəaliyyətində nəzərə çarpan yeni keyfiyyətlər özünü oxucularla aparılan fərdi işin güclənməsində, kitabxana xidmətinin oxucuların peşə fəaliyyəti ilə daha sıx əlaqələndirilməsində, kütləvi tədbirlərin rəngarəngliyində və bu işdə estetik tərbiyə amilinin gücləndirilməsində, yeniyetmələrin mütaliəsi ilə ardıcıl məşğul olmaqda, MKS-lərarası əlaqələrin möhkəmlənməsində və s. işlərdə tapırdı.

MKS-lərdə oxuculara informasiya xidmətinin canlanması da onların metodik tə’minatının nailiyyətlərindən idi. Kütləvi kitabxanalarda oxuculara kollektiv və fərdi mə’lumat-biblioqrafiya xidmətinin formalaşması, informasiya, mütəxəssis günlərinin təşkili məhz bu dövrə, yə’ni MKS-lərin yaradılması dövrünə təsadüf edir.

Yekun olaraq belə bir qənaətə gəlmək olar ki, 80-ci illərdə respublikanın mərkəzləşdirilmiş kitabxana sistemlərinin fəaliyyətinin formalaşmasında və təkmilləşdirilməsində onların metodik tə’minatı canlı kitabxana işinin ayrılmaz tərkib hissəsi kimi MKS-lərin idarə olunmasında aparıcı rol oynamışdır.

# IV FƏSİL

## SAHƏVİ KİTABXANA ŞƏBƏKƏLƏRİNİN METODİK TƏ'MİNAT SİSTEMİ (1975-2000-ci illər)

### *4.1. Elmlər Akademiyası kitabxana şəbəkəsinin metodik tə'minatı*

Mərkəzləşdirmə prosesində dövlət kütləvi kitabxanaları ilə yanaşı, sahəvi kitabxana şəbəkələrində də yeni, kompleks tipli kitabxana müəssisələri yaradıldı ki, bu da öz növbəsində müvafiq MKS-lərin metodik tə'minatında əsaslı kəmiyyət və keyfiyyət göstəricilərinin meydana gəlməsinə səbəb oldu.

Respublikanın sahəvi kitabxanaları şəbəkəsində ilk mərkəzləşdirilmiş kitabxana sistemi 1973-cü ildə Elmlər Akademiyasının kitabxanaları əsasında yaradılmışdır.

1974-cü ildə EA Mərkəzləşdirilmiş Kitabxana Sistemi özündə 21 elmi-tədqiqat institutunun kitabxanalarını birləşdirirdi. Buraya Fizika, Riyaziyyat və Mexanika, Neft və Kimya Problemləri, Genetika və Seleksiya, Zoologiya, Botanika, Aşqarlar Kimyası, Şamaxı Astrofizika Rəsədxanası, Ədəbiyyat, Dil, Tarix, Şərqşünaslıq, Fəlsəfə və Hüquq və s. kimi elmi-tədqiqat müəssisələrinin kitabxanaları daxil idi.

MKS şəraitində EA Mərkəzi Elmi Kitabxanasının metodik fəaliyyəti xeyli genişlənmiş, məzmun və təşkilati baxımdan nəzərəçarpan dərəcədə mürəkkəbləşmişdi.

1976-cı ildə Mərkəzi Elmi Kitabxananın metodik şö'bəsində 4 nəfər metodist çalışırdı ki, onlar təcrübəli və ali ixtisas təhsilli mütəxəsislər idilər. EA sistemində fəaliyyət göstərən vahid kitabxana birliyinin metodik tə'minatı 1976-1985-ci illərdə aşağıdakı istiqamətlərdə həyata keçirilirdi:

-SSRİ məkanında fəaliyyət göstərən akademiya kitabxana şəbəkələrində elmi işçilərə kitabxana-informasiya xidməti sahəsində mütərəqqi iş üsullarının öyrənilməsi və tətbiqi;

-mərkəzləşdirmə şəraitində mühüm kitabxana proseslərinin vahid texnoloji prinsiplər əsasında həyata keçirilməsini tənzimləyəcək normativ sənədlərin hazırlanması;

-kitabxana işçilərinin peşə səviyyəsinin yüksəldilməsinə həsr olunmuş təşkilati-metodik tədbirlərin həyata keçirilməsi;

-EA Mərkəzi Elmi Kitabxanasının metodik nəşrlər fondunun yeni sənədlərlə tamamlanması;

-kitabxana işçiləri üçün fərdi və qrup halında məsləhətlərin təşkili;

-kitabxanalara gedişlər və onlara yerlərdə əməli köməklik göstərilməsi, elmi-tədqiqat müəssisələri kitabxanalarının fəaliyyətinin təhlili və istiqamətləndirilməsi;

-metodik fəaliyyətin respublikanın digər metodik mərkəzlərinin işi ilə əlaqələndirilməsi.[428]

Bu dövrdə EA mərkəzləşdirilmiş kitabxana sisteminin qarşısında duran ən mühüm vəzifə akademiyada aparılan elmi tədqiqatların kitabxana-informasiya tə'minatını həyata keçirməkdən ibarət idi. Bu ilk növbədə kitabxanaların fondlarının komplektləşdirilməsinin optimallaşdırılmasını, mərkəzləşmə nəticəsində formalaşmaqda olan vahid fondun elmi işlər tərəfindən istifadə səmərəliliyinin artırılmasını tələb edirdi. Odur ki, EA kitabxana sisteminin metodik tə'minatı ilk növbədə sistemxadili vahid kitabxana xidməti mexanizminin təşkilinə yönəlmişdi. Bu məqsədlə Mərkəzi Elmi Kitabxana metodik işin bütün formalarından istifadə edirdi. Elmi Kitabxananın metodistləri hər il orta hesabla 8-10 elmi-tədqiqat institutu kitabxanasının fəaliyyətini yoxlayıb təhlil edir, onların iş planlarını dəqiqləşdirir, uçot-hesabat işlərini qaydaya

---

[428] Kitabxana-biblioqrafiya və mə'lumat işi məsələləri: (Məqalələr məcmuəsi).-B.:Elm, 1979.-S.70-71.

salır, oxuculara xidmət işində mütərəqqi iş üsullarının tətbiqini tə'min edirdi.

Metodik fəaliyyətdə Mərkəzi Elmi Kitabxananın digər şö'bələrinin əməkdaşları da fəal iştirak edirdilər.

Qeyd etmək lazımdır ki, EA sistemində olan kitabxanaların mərkəzləşdirilməsinə qədərki dövrdə ən qüsurlu məsələ kitabxana fondlarının komplektləşdirilməsinin elmi-metodik baxımdan zəif təşkili idi. Əksər elmi tədqiqat müəssisələrində fondun komplektləşdirilməsi plansız və qeyri-mütəşəkkil aparılırdı. Yeni ədəbiyyat yalnız «Azərkitab»ın kitabxana kollektorundan və şəhər mağazalarından alınırdı. Fondun komplektləşdirilməsində beynəlxalq və ölkədaxili kitab mübadiləsi, Mərkəzi Elmi Kitabxana ilə əlaqələndirmə lazımi səviyyədə qurulmamışdı. Kitabxana fondlarının məzmunu bir çox hallarda onların xidmət etdiyi elmi-tədqiqat müəssisələrinin elmi işlərinə və tədqiqat proqramlarına uyğun gəlmirdi. Kitabxanalar bir-birindən təcrid olunmuş şəkildə komplektləşdirilir, beləliklə, akademiyada müxtəlif institutlar tərəfindən birlikdə aparılan kompleks tədqiqatların kitabxana-informasiya tə'minatı lazımi səviyyədə əlaqələndirilmirdi. Nəticədə yeni alınmış kitablar fondlarda istifadəsiz qalır, elmi-tədqiqat institutlarının planları ilə bilavasitə əlaqədar olan qiymətli nəşrlər çatışmırdı.

Bu baxımdan 1975-ci ildə EA MKS-də vahid komplektləşdirmə planının hazırlanması çox böyük nailiyyət oldu. Bununla yanaşı, elmi tədqiqat institutlarının əksəriyyətinin mərkəzləşdirilmiş qaydada komplektləşdirilməsinin təşkilati-metodik əsasları işləndi və bu iş 1978-ci ildən e'tibarən geniş miqyasda həyata keçirilməyə başladı.[429] Bu istiqamətdə aparılan təşkilati-metodik işlər nəticəsində kitabxana fondlarına daxil edilən yeni ədəbiyyatın tematik-tipoloji strukturu təkmilləşdirildi, kitabxana fondlarının istifadə səmərəliliyi xeyli artdı. Bununla yanaşı, kitabxana işçiləri ilə aparılan seminarlarda onlara nəşriyyatların tematik planları ilə işləmək qaydaları, komplektləşdirmə planlarının tərtibi metodikası, sifarişlərin tərtibi, komplektləşdirmənin köməkçi aparatının yaradılması və s. iş üsulları üzrə 40 saatdan artıq mühazirə, təcrübi məşğələ və praktikumlar təşkil edilmişdi.[430] Qeyd etdiyimiz kimi, EA-da mərkəzləşmiş kitabxana sisteminin formalaşması bir sıra metodik göstərişlərin, normativ sənədlərin və digər metodik vəsaitlərin hazırlanmasını tələb edirdi.

Rusiyanın görkəmli kitabxanaşünas alimi A.N.Vaneyev kitabxana işinin təkmilləşdirilməsində metodik nəşrlərin əhəmiyyətindən bəhs edərək yazır ki, «Metodik nəşrlər sistemi kitabxana işinin bütün sahələrini və istiqamətlərini əhatə edərək onların metodik tə'minatını təşkil etməlidir. Kitabxanaların fəaliyyətinin düzgün müəyyənləşdirilməsinə, əhaliyə kitabxana xidmətinin yaxşılaşdırılmasına, elmi tədqiqatların nəticələrinin və qabaqcıl təcrübənin tətbiqinə, kitabxana kadrlarının peşə səviyyəsinin yüksəldilməsinə xidmət etməlidir».[431] Bu fikrə əlavə olaraq qeyd etmək istərdik ki, hər bir metodik mərkəzin fəaliyyətinin elmi səviyyəsi, məzmunu, peşəkarlığı, səriştəsi, müasirliyi və səmərəliliyi xeyli dərəcədə məhz onların metodik sisteminin kəmiyyət və keyfiyyət göstəriciləri ilə ölçülür.

70-80-ci illərdə EA Mərkəzi Elmi Kitabxanasının metodik nəşrlər sistemində normativ xarakterli sənədlərin tərtibinə üstünlük verilirdi. Bu, akademiya sistemində formalaşmaqda olan mərkəzləşmiş kitabxana sistemində texnoloji proses və əməliyyatları vahid metodika əsasında tənzimləmək vəzifələrindən irəli gəlirdi. Metodik şö'bənin tərtib etdiyi belə sənədlər aşağıdakılardır:

-«Azərbaycan SSR EA əsaslı kitabxanasının filialları haqqında əsasnamə» (1976);

-«Ümumdövlət sistemində kitabxanalararası abonement (KAA) haqqında əsasnamə» (1976);

---

[429] Azərbaycan Respublikası EA Mərkəzi Elmi Kitabxanasının 1975-1978-ci il hesabatları.

[430] Yenə orada.

[431] Ванеев А.Н. Система методического руководства библиотечным делом. -Л.,1982.-С.54. (Ленинград Мядяниййят Институтунун елми ясярляри).

-«EA elmi tədqiqat institutları kitabxanalarından istifadə qaydaları» (1978) və s.

Bunlarla yanaşı, 1973-1985-ci illərdə Mərkəzi Elmi Kitabxanın metodik şö'bəsinin bilavasitə rəhbərliyi ilə komplektləşdirmə, kataloqlaşdırma, rədd cavabları ilə iş, kitabxanalarda plan və hesabatların tərtibi, kitabxana fondlarından köhnəlmiş ədəbiyyatın çıxarılması, depozitar fondların təşkili, elmi-biblioqrafik vəsaitlərin tərtibi metodikası, elmi işçilərə elmi informasiya xidməti, «Azərbaycanın elm və mədəniyyət xadimləri» seriyasından şəxsi biblioqrafik göstəricilərin tərtibi, EA Mərkəzi Elmi Kitabxanasında yazılı biblioqrafik arayışların qəbulu, ödənilməsi və saxlanılması və s. məsələlərə dair 20-dən artıq qayda, tə'limat, əsasnamə və normativ sənəd hazırlanmışdır.

Bu sənədlər hazırlanarkən elmi işçilərə kitabxana-biblioqrafiya və informasiya xidmətinə dair nəzəri ədəbiyyatdan, kitabxana işinə dair SSRİ miqyasında keçirilmiş elmi konfrans, müşavirə, seminar və simpoziumların materiallarından, eləcə də keçmiş SSRİ-nin digər akademiya kitabxanalarının təcrübəsindən istifadə edilirdi.

EA Mərkəzi Elmi Kitabxanası tərəfindən hazırlanan normativ-metodik materiallar MKS miqyasında kitabxana işinin səmərəli təşkilinə, oxuculara xidmətin ahəngdar, vahid kompleks, birlik kimi tə'min olunmasına xidmət edirdi.

80-ci illərdə EA Mərkəzi Elmi Kitabxanasının metodik fəaliyyətində filiallara yerlərdə əməli köməkliyə, kitabxanaçıların bilavasitə iş yerlərində tə'limatlandırılmasına xüsusi diqqət yetirilirdi. Bu iş əksər hallarda metodik şö'bə tərəfindən kompleks şəkildə həyata keçirilirdi. Bu məqsədlə 1980-ci ildə filialların işinin öyrənilməsinə dair tə'limat hazırlanmışdı.

1980-1988-ci illərdə Mərkəzi Elmi Kitabxana tərəfindən təşkil edilmiş briqadalar Şamaxı Astrofizika Rəsədxanasının, Naxçıvan Elmi Mərkəzinin, Şəki Zona Elmi Bazasının kitabxanalarını yerlərdə yoxlayaraq, onların fəaliyyətinin səmərəliliyini artırmaq məqsədi ilə bir sıra təşkilati-metodik tədbirlər həyata keçirmişdilər.[432]

Məsələn, 1982-ci ildə Şamaxı Astrofizika Rəsədxanası kitabxanasının fəaliyyəti ilə tanış olan 3 metodist kitabxananın əlifba kataloqunu qaydaya salmış, astronomiya və astrofizika elmləri üzrə ədəbiyyatı sistemləşdirərək sistemli kataloqun əsasını qoymuş, KBT üzrə təsnifləşdirmə qaydalarına dair məsləhət və tə'limatlar təşkil etmiş, kitab fondunda seçmə prinsipi üzrə ayrı-ayrı bölmələrdə ədəbiyyatın düzülüşünü yoxlamış, yeni təsvir qaydalarına dair nümunələr hazırlamış, kitabxanada uçot, statistika və hesabat işləri ilə əlaqədar məsləhətlər təşkil etmişdilər.[433]

1986-cı ildə Naxçıvan Elmi Mərkəzinin kitabxanasında metodistlər tərəfindən kitabxananın işçiləri ilə birlikdə aşğıdakı tədbirlər həyata keçirilmişdir:

-kitabxananın komplektləşdirmə profili dəqiqləşdirilmiş;

-kitab fondu uçot sənədləri ilə seçmə yolu ilə tutuşdurularaq fondun uçotundakı nöqsanlar meydana çıxarılmış;

-əlifba və sistemli kataloqlar üçün təsvir qaydalarına dair nümunələr hazırlanmış;

-dövri nəşrlərin kartotekası yaradılmış;

-KBT üzrə təsnifləşdirmə məsələlərinə dair məsləhətlər verilmiş və praktikum keçirilmiş;

-elmi işçilərə informasiya xidmətinin təşkilinə dair tə'limat verilmişdir.[434]

Həmin il Şəki Elmi Bazasının kitabxanasında kitab fondunun uçotu qaydaya salınmış, fondun düzülüşünə yenidən baxılmış, KBT üzrə sistemli kataloqun maketi yaradılmış, dövri və ardı davam edən nəşrlərin kartotekası tərtib edilmiş, digər töv-

---

[432] Azərbaycan Respublikası EA Mərkəzi Elmi Kitabxanasının arxivi: 1980-1990-cı il hesabatları.

[433] Yenə orada, Metodik şö'bənin 1980-ci il e'zamiyyələr qovluğu, v.14-16.

[434] Azərbaycan Respublikası EA Mərkəzi Elmi Kitabxanasının arxivi: 1980-1990-cı il hesabatları. Metodik şö'bənin 1980-ci il e'zamiyyələr qovluğu, v.2-6.

siyə və məsləhətlər təşkil edilmişdir.[435]

Yerlərdə aparılan bütün yoxlamaların və metodik tədbirlərin nəticələri müvafiq tövsiyələr və təkliflərlə birlikdə bir qayda olaraq müvafiq elmi müəssisələrin elmi şuralarında müzakirə olunmuş, kitabxananın fəaliyyəti ilə əlaqədar elmi işçilərin mühazirələri dinlənilmiş və bütün bunlar kitabxana - informasiya xidmətinin təkmilləşdirilməsində nəzərə alınmışdır.

Ümumiyyətlə, EA Mərkəzi Elmi Kitabxanasının metodistləri yerlərdə olarkən yalnız kitabxana işçilərini tə'limatlandırmaqla kifayətlənmirdilər. Onlar hər bir gediş zamanı müvafiq elmi-tədqiqat müəssisəsinin əməkdaşları ilə kitabxananın fəaliyyəti ətrafında rə'y və mülahizələrini təhlil edir, kitabxana işini təkmilləşdirmək proqramını birgə müəyyənləşdirirdilər.

EA Mərkəzi Elmi Kitabxanasının 1976-1990-cı illər hesabatlarından mə'lum olur ki, hər il elmi tədqiqat institutları kitabxanalarının metodik tə'minatı məqsədi ilə orta hesabla yerlərə 75-80 e'zamiyyə təşkil edilmişdir.

1980-1984-cü illərdə isə Mərkəzi Elmi Kitabxana hər il kitabxana işçilərinin peşə səviyyəsinin artırılmasına yönəlmiş 3-4 metodik müşavirə, 3 aylıq ixtisasartırma kursları keçirmişdir.

1980-ci ildə təşkil edilmiş 3 aylıq ixtisasartırma kursunda 10 mühazirə oxunmuş, 30-dan artıq təcrübi məşğələ aparılmışdır. Mühazirələrin mövzularına vətən və xarici nəşrlərin komplektləşdirilməsi, fondun uçotu, komplektləşdirmənin əlaqələndirilməsi, əlifba kataloqunun təşkili, kitabxana-biblioqrafiya təsnifatı, oxuculara xidmət, kitabxanalararası abonement və s. problemlər daxil edilmişdir. Məşğələlərdə 24 kitabxana işçisi iştirak etmişdir. Bundan başqa, 1980-ci ildə filial müdirləri üçün kitabxanalarda beşillik planların tərtibi üzrə 2 günlük seminar və cari məsələlərlə əlaqədar 3 müşavirə təşkil edilmişdir.[436] Müşavirələrdə bir qayda olaraq kitabxanaların fəaliyyətinin ilk yekunları və növbəti ilin vəzifələri, mərkəzləşdirilmiş komplektləşdirmənin vəziyyəti, nəşriyyat planları ilə iş, kataloqların redaktəsi, oxuculara elmi informasiya xidməti, Mərkəzi Elmi Kitabxananın fəaliyyətini filiallarla əlaqələndirmək və s. təşkilati-metodik məsələlər müzakirə edilmişdir.

Təəssüflə qeyd etməliyik ki, 1984-cü ildə metodik şö'bənin elmi-tədqiqat şö'bəsi ilə birləşdirilməsi Mərkəzi Elmi Kitabxananın metodik fəaliyyətinin zəifləməsinə səbəb oldu.[437] Həmin ildən kitabxanaşünaslıq şö'bəsi adlandırılan bu şö'bənin fəaliyyətində müxtəlif proseslər ətrafında tədqiqat xarakterli işlərin güclənməsi öz-özlüyündə müsbət hadisə olsa da, o, eyni zamanda akademiya kitabxanalarına operativ metodik köməkliyin, kitabxana işçilərinin ixtsasının artırılmasına yönəlmiş tədbirlərin, filialların fəaliyyətinin müntəzəm surətdə öyrənilib təhlil edilməsinin, xüsusən elmi-tədqiqat müəssisələri kitabxanalarının əməkdaşlarının bilavasitə iş yerlərində tə'limatlandırılması tədbirlərinin azalmasına gətirib çıxardı.

Kitabxanaşünaslıq şö'bəsində elmi-tədqiqat işləri təşkilati metodik fəaliyyət ilə üzvi surətdə əlaqələndirilmədi, tədqiqatların yekunları öz əksini metodik fəaliyyətdə tapa bilmədi, nəticədə istər elmi-tədqiqat işlərinin, istərsə də metodik fəaliyyətin səmərəliliyi xeyli azaldı.

1992-ci ildə Respublika EA sistemində mərkəzləşdirilmiş kitabxana sisteminin ləğv edilməsi, bir qədər sonra kitabxanaşünaslıq şö'bəsi əməkdaşlarının sayının 80 faiz azaldılması (6 nəfərdən 2 nəfərin ştatda saxlanılması), digər təcrübəli və yüksək ixtisaslı mütəxəsislərin şö'bədən getməsi EA kitabxanası şəbəkəsininin metodik tə'minat işinin sistemli fəaliyyətinin ləğv olunması və bu işin səmərəliliyinin heçə endirilməsi ilə nəticələndi. Hazırda EA sistemində pərakəndə fəaliyyət göstərən 29 elmi-tədqiqat müəssisəsi kitabxanalarının metodik tə'minatı günün tələbləri səviyyə-

---

[435] Yenə orada, v.10-12.
[436] EA Mərkəzi Elmi Kitabxanasının 1980-ci il hesabatı.-S.60.
[437] EA Mərkəzi Kitabxanasının 1980-ci il hesabatı.-S.6.

sindən aşağıdır.

### *4.2. Təhsil müəssisələri və uşaq kitabxanalarının metodik tə'minat sistemi*

#### a) Təhsil müəssisələri kitabxanaları

80-ci illərdə məktəb kitabxanalarının metodik tə'minatı ilə Respublika Elmi Pedaqoji Kitabxanası məşğul olurdu. 1983-cü ildə təşkil edilmiş bu kitabxanaya ümumtəhsil müəssisələri kitabxanaları üzrə baş elmi-metodik mərkəz statusu verilmişdir[438] (qeyd edək ki, ali təhsil müəssisələri üzrə metodik mərkəz isə BDU-nun Elmi kitabxanasıdır).

Respublika Elmi Pedaqoji Kitabxanasının metodik fəaliyyətinin əsas istiqaməti ümumtəhsil müəssisələri kitabxanalarının fəaliyyətini tənzimləyən normativ sənədlərin və digər tə'limati-metodik xarakterli materialların tərtibindən ibarət olmuşdur.

Şübhəsiz ki, müasir dövrdə öz fondlarında təqribən 36 milyon çap vahidi qoruyub saxlayan 4 mindən çox[439] ümumtəhsil müəssisələri kitabxanalarının metodik tə'minatı sistemi hələ formalaşma prosesindədir.

80-90-cı illərdə Respublika Elmi Pedaqoji Kitabxanası tərəfindən ilk dəfə hazırlanmış normativ sənədlər sırasında «Məktəb kitabxanalarının işinin planlaşdırılması» (1985, 1993), «Rayon, şəhər, vilayət xalq maarif şö'bələrinin (idarələrinin) metodkabinələrinin kitabxanaları haqqında əsasnamə» (1987), «Siyasi aktuallığını itirmiş və məzmunca köhnəlmiş nəşr və materialların kitabxana və mə'lumat-informasiya fondlarından çıxarılması haqqında tə'limat» (1995) xüsusi maraq doğurur. Məsələn, Azərbaycanda məktəb kitabxanalarının fəaliyyətinin planlaşdırılmasına dair ilk nəzəri-metodik və tə'limat xarakterli "Məktəb kitabxanalarının işinin planlaşdırılması» adlı vəsait[440] yüksək peşəkarlıq məsələlərinin qoyuluşu və izahı baxımından diqqəti cəlb edir. Burada məktəblilərə kitabxana xidməti, fond və kataloqların təşkili, uşaq birlikləri, gənclər təşkilatları, sinif rəhbərləri, valideynlərlə iş, kitabxana şuraları, kitabxana işçilərinin peşə səviyyəsinin yüksəldilməsi və s. məsələlərin qoyuluşu və şərhi ümumtəhsil məktəblərində kitabxana işinin təşkilinin ən önəmli cəhətlərini müəyyənləşdirir. Sırf metodik xarakter daşıyan vəsaitlər içərisində kitabxananın 1990-cı ildə hazırladığı «Kitabxana-biblioqrafiya təsnifatının qısa cədvəlləri», «İkirəqəmli cədvəl» (1992) və bir sıra digər metodik-biblioqrafik vəsaitlər, şübhəsiz ki, məktəb kitabxanalarının texnoloji proseslərinin təşkili və idarə olunmasında mühüm əhəmiyyət kəsb etmişdir.

Respublika Elmi Pedaqoji Kitabxanasının təşkilati-metodik fəaliyyətinin elmi tədqiqat fəaliyyəti ilə sıx əlaqəli şəkildə inkişaf etməsi diqqətəlayiqdir. Belə ki, bu illərdə kitabxananın əməkdaşları, xüsusilə metodik şö'bənin müdiri Hidayət Musayev tərəfindən məktəb kitabxanalarının fəaliyyəti ilə əlaqədar bir sıra qiymətli nəzəri, problem xarakterli yazılar hazırlanıb nəşr etdirilmişdir. Əsasən tədris problemləri ilə məşğul olan dövri mətbuatda, məcmuələrdə dərc edilmiş 20-dən artıq məqalədə məktəb kitabxanalarının ən ümdə problemləri işıqlandırılmış, onlarla bağlı maraqlı müddəalar, təklif və tövsiyələr irəli sürülmüşdür. Bunların içərisində öz orijinallığı, peşəkarlığı, fikir yetkinliyi, problemlərin qoyuluşu və izahı baxımından seçilən materiallara nümunə olaraq «Məktəb kitabxanası və yaxud Pedaqoji işin bu mühüm sahəsi niyə unudulub»,[441] H.Musayev və M.Tağıyevin «Məktəb kitabxanalarına tövsiyələr»[442], H.Musayevin «Məktəb kitabxanasının fondu»,[443] «Məktəb kitab-

---

[438] Zəngibasarlı M.M. və b. Azərbaycan Respublikası Elmi Pedaqoji Kitabxanası.-B., 1997.-S.23-26.
[439] Yenə orada-S.12.
[440] İsmixanova T., Musayev H. Məktəb kitabxanalarının işinin planlaşdırılması.-B.: EA mətbəəsi, 1983.-24 s.
[441] Azərbaycan gəncləri.-1983.-21 sentyabr.
[442] Azərbaycan müəllimi.-1984.-24 avqust.

xanalarında mə'lumat-biblioqrafiya işlərinin təşkili»,[444] T.İsmixanovanın «Məktəblilərdə mütaliə mədəniyyətinin formalaşması»,[445] H.Musayevin «Kitabxana ilə təhsilin əlaqəsi»[446] və s. yazıları göstərmək olar.

Son illərdə Respublika Elmi Pedaqoji Kitabxanası tərəfindən təhsil sisteminin təkmilləşdirilməsinə yönəlmiş onlarca analitik icmal və metodik işləmələr hazırlanıb Təhsil Nazirliyinə və onun yerli orqanlarına göndərilmişdir. Bunların içərisində «Respublika dövri mətbuatında xalq təhsili haqqında materiallar», «Məktəblərdə tərbiyə işinin təşkili», «Məktəbdə estetik tərbiyə», «Məktəblilərin mənəvi tərbiyəsinə tə'sir edən amillər», «Məktəb kitabxanasında ədəbiyyatın təbliği», «Məktəb kitabxanaları fondları və kataloqlarının KBT cədvəlləri üzrə təşkili» və s. sənədlər son dərəcə əhəmiyyətlidir.

Respublika Elmi Pedaqoji Kitabxanasının metodik fəaliyyətində kitabxana işçilərinin peşə səviyyəsinin yüksəldilməsinə və bu məqsədlə müxtəlif tədbirlərin (seminarlar, praktikumlar, qısamüddətli kurslar, elmi konfranslar) təşkilinə xüsusi fikir verilmişdir. Bu məqsədlə kitabxana işçiləri üçün planlaşdırma, kataloqlaşdırma, biblioqrafiya işləri, oxucularla fərdi iş mövzuları ilə əlaqədar son 10 il ərzində 20-dən çox seminar və konfrans təşkil edilmişdir. Bu baxımdan 1996-cı il martın 5-də «Müasir dövrdə ümumtəhsil və texniki peşə məktəbi kitabxanalarının vəziyyəti və inkişaf problemləri» mövzusunda keçirilmiş ümumrespublika nəzəri-təcrübi konfransını xüsusi qeyd etmək olar.[447]

Respublika Təhsil Nazirliyi rəhbərliyinin, geniş kitabxana ictimaiyyətinin, o cümlədən, kitabxanaşünas alim və mütəxəssislərin, qabaqcıl məktəb kitabxanaları nümayəndələrinin iştirak etdiyi bu konfransda ümumtəhsil müəssisələri kitabxanalarının müasir problemləri, vəzifələri və perspektivləri ilə bağlı 6 mə'ruzə dinlənilmiş, maraqlı təcrübə mübadiləsi aparılmışdır. Konfransda məktəb kitabxanalarının fəaliyyətinin yaxşılaşdırılmasına yönəlmiş proqram qəbul edilmişdir və hazırda bu proqramın həyata keçirilməsi istiqamətində müəyyən işlər aparılır.

* * *

Qeyd etmək lazımdır ki, 80-ci illərdə ali təhsil müəssisələri kitabxanalarının metodik tə'minatında qabarıq şəkildə nəzərəçarpan nailiyyətlər əldə edilməmişdir. Bunun bir neçə səbəbi olmuşdur. Əvvəla, 70-ci illərdə Azərbaycanda kitabxana işində başlanan mərkəzləşdirmə prosesləri ali təhsil müəssisələri kitabxanalarına tətbiq edilməmiş, bu şəbəkə daxilində nəinki mərkəzləşdirilmiş sistem yaradılmamış (bəlkə də buna heç ehtiyac yox idi), hətta digər kitabxana şəbəkələrində təcrübədən keçirilmiş ayrı-ayrı kitabxana prosesləri (məsələn, mərkəzləşdirilmiş komplektləşdirmə, kataloqlaşdırma) belə həyata keçirilməmişdir. Nəticədə ali təhsil müəssisələri kitabxanalarının bütövlükdə və ya qismən vahid metodik tə'minat sisteminin formalaşması mümkün olmamışdır.

Digər tərəfdən, ali məktəb kitabxanaları üzrə metodik mərkəz statusu daşıyan BDU-nun Elmi kitabxanasında yüksək ixtisaslı metodist kadrların olmaması, eləcə də kitabxana binasında 80-ci illərin sonu - 90-cı illərin əvvəllərində aparılan əsaslı tə'mir işləri, fondun köçürülməsi və yenidən təşkili, bu məqsədlə bütün işçi qüvvəsinin səfərbər edilməsi, 3 il ərzində kitabxananın fəaliyyətinin faktik olaraq dayandırılması metodik fəaliyyətin formalaşmasına öz mənfi tə'sirini göstərmişdir. Nəticədə 80-90-cı illərdə ölkənin ali təhsil müəssisələri kitabxanalarının metodik tə'minatı sistemi əsas fəaliyyət sahəsinə çevrilməmişdir.

---

[443] Azərbaycan müəllimi.-1985.-12 oktyabr.
[444] Azərbaycan müəllimi.-1986.-14 mart.
[445] Azərbaycan məktəbi.-1989.-№12.-S.11-14.
[446] Respublika Elmi Pedaqoji Kitabxanasının arxivi. Metodik sənədlər və icmallar qovluğu (1990-1996-cı illər).
[447] Respublika Elmi Pedoqoji Kitabxanasının arxivi: 1996-cı ilin konfrans və seminar materialları qovluğu.-32 s.

Nəhayət, 90-cı illərdə respublikanın ali məktəb kitabxanalarında, o cümlədən, BDU-nun Elmi Kitabxanasında meydana gəlmiş maliyyə çatışmazlığı metodik tə'minat işinin təşkilinə də öz mənfi tə'sirini göstərmişdir.

Bütün bunlara baxmayaraq, 80-ci illərdə ali təhsil müəssisələri kitabxanalarının metodik tə'minatı istiqamətində BDU-nun Elmi Kitabxanasında müəyyən işlər görülmüşdür. Bunları belə qruplaşdırmaq olar:

1.Kitabxana işçilərinə şifahi və yazılı arayışların, məsləhətlərin verilməsi.

2.Kitabxanaların planları və hesabatları əsasında respublikada ali məktəb kitabxanalarının fəaliyyətinin vahid planının və ümumiləşdirilmiş hesabatlarının hazırlanması.

3.Kitabxanaya gedişlər və işçilərin yerlərdə tə'limatlandırılması.

4.Kitabxana müdirlərinin müşavirələrinin vaxtaşırı təşkili (ildə 1-2 dəfə).

5.Kitabxana işçiləri üçün aylıq seminar məşğələlərinin təşkili (BDU-nun Elmi kitabxanasının işçiləri üçün).

6.BDU-nun Elmi kitabxanasının nəzdində kitabxanaşünaslıq metodik kabinəsinin və metodik nəşrlər fondunun təşkili.

7.Metodik fəaliyyətə dair qabaqcıl təcrübənin öyrənilməsi.[448]

Göstərilən iş üsulları əksər hallarda epizodik xarakter daşımış, mütəmadi və sistemli şəkildə həyata keçirilməmiş, məzmun, forma və təşkilati baxımdan müasir kitabxanaşünaslıq tələblərinə tam cavab verməmişdir.

Lakin son illər BDU-nun Elmi kitabxanasının metodik fəaliyyətində müəyyən canlanma hiss edilir. Bu, ilk növbədə metodik kabinənin işinin təşkilində, metodik nəşrlərin, o cümlədən, bir sıra xarici ölkələrdə, xüsusilə Rusiyada kitabxanaşünaslıq və kitabxana təcrübəsi sahəsində qazanılmış mütərəqqi meylləri əks etdirən ədəbiyyatın ardıcıl surətdə əldə edilməsində, kitabxana işçilərinə operativ məsləhətlərin verilməsində, kitabxana işinə dair bir sıra əsasnamə və tə'limatların hazırlanmasında özünü göstərir. Kitabxananın metodik fəaliyyətində nəzərə çarpan, əlamətdar hadisə kimi 1995-ci il noyabr ayında təşkil edilmiş «Ali məktəb kitabxanalarının müasir problemləri» mövzusunda elmi konfrans şübhəsiz ki, diqqətəlayiqdir.

BDU-nun kitabxanaçılıq fakültəsi ilə birlikdə keçirilmiş bu konfransda Azərbaycan dövlətinin müstəqilliyi və suverenliyi şəraitində strateji əhəmiyyətə malik olan təhsil sisteminin təkmilləşdirilməsində ali məktəb kitabxanalarının rolu müzakirə edilmişdir.

Respublika Təhsil Nazirliyi və BDU rektorluğunun iştirakı ilə keçirilmiş bu konfransda Bakı şəhərindəki ali məktəb kitabxanalarının müdirləri, kitabxanaçılılq fakültəsinin professoru A.A.Xələfov, dosent R.Ə. Kazımov mə'ruzə etmişlər. Konfransda ali məktəb kitabxanalarının müasir vəziyyəti ilə əlaqədar ətraflı fikir mübadiləsi olmuşdur. Konfransın sonunda BDU-nun Elmi kitabxanasının metodik şö'bəsi tərəfindən hazırlanmış «Azərbaycanda ali məktəb kitabxanalarının fəaliyyətinin təkmilləşdirilməsi haqqında» geniş proqram qəbul edilib Respublika Təhsil Nazirliyinə təqdim edilmişdir. Proqramda ali təhsil müəssisələri kitabxanalarının yeni nəşrlərlə təchizatı, professor-müəllim hey'ətinə və tələbələrə kitabxana xidmətinin təkmilləşdirilməsi, bu işdə dünya təcrübəsinə uyğun mütərəqqi üsulların tətbiqi, kitabxanaçı kadrların peşə səviyyəsinin, ümumiyyətlə, kadr tə'minatının və metodik tə'minatın təkmilləşdirilməsi, kitabxana işinin bazasının keyfiyyətinin yüksəldilməsi, təhsil müəssisələri kitabxanalarının beynəlxalq əlaqələrinin genişləndirilməsi və s. problemlərin həlli yolları müəyyənləşdirilmişdir.[449]

1998-ci ilin oktyabr və noyabr aylarında BDU-nun Elmi kitabxanasında ali təhsil müəssisələri kitabxanaları müdirlərinin iki geniş iclası keçirilmişdir. Hər iki iclas-

---

[448] BDU-nun Elmi kitabxanasının 1980-1995-ci il hesabatları.

[449] BDU-nun Elmi kitabxanasının arxivi. «Ali məktəb kitabxanalarının müasir problemləri» elmi konfransının materiallar qovluğu. 1995.

da «Kitabxana işi haqqında» Azərbaycan Respublikasının qanun layihəsi müzakirə olunmuş, layihəyə dair təkliflər ümumiləşdirilərək Milli Məclisə təqdim edilmişdir. Bu kitabxananın 1998-1999-cu illərdəki ən mühüm nailiyyəti beynəlxalq təşkilatların qrantlarını proqramlar hazırlamaq yolu ilə qazanmasıdır.

Respublikada ali məktəb kitabxanaları şəbəkəsinin vahid avtomatlaşdırılmış sisteminin yaradılmasına yönəlmiş qrantların proqramı kitabxananın əməkdaşları tərəfindən hazırlanmış, bir neçə qrant alınmışdır. 1999-cu ildə qrant yolu ilə 4 ədəd kompüter alınmışdır ki, hazırda burada respublikanın ali təhsil müəssisələri kitabxanalarının kompüterləşdirilməsi, vahid informasiya bankının proqram tə'minatı istiqamətində konkret işlər aparılır. Bu iş M.Lomonosov adına Moskva Dövlət Universiteti Elmi kitabxanasının nəzdindəki «Avtomatlaşdırılmış kitabxana-informasiya sistemi» proqramlarının tərtibi və tətbiqi ilə məşğul olan xüsusi səhmdar cəmiyyətin köməyi ilə həyata keçirilir. Bu məqsədlə BDU-nun Elmi kitabxanasının nəzdində kitabxana işinin kompüterləşdirilməsi elmi tədqiqat laboratoriyası yaradılmışdır. Bütün bunlar yaxın gələcəkdə respublikanın ali təhsil müəssisələri kitabxanalarının avtomatlaşdırılmasının metodik tə'minatı sahəsində qazanılmış əsaslı nailiyyətlərin ilkin mərhələsi hesab edilə bilər.

Qeyd etmək lazımdır ki, fəaliyyət göstərdiyi dövrdə adına BDU-nun Elmi kitabxanasının metodik şö'bəsi xeyli müvəffəqiyyət qazansa da, indiki şəraitdə daha çox iş görməlidir. İlk növbədə ali məktəb kitabxanaları ilə yaxından əlaqə saxlamaq, onlarla birgə iş planları tərtib etmək, metodik tədbirləri birgə keçirmək, yeni texnika və texnologiyanın tətbiq edilməsində xüsusi fəallıq göstərmək tələb olunur. Son illər metodik işə dair tək-tək tədbirlər keçirilsə də, indi belə tədbirlər daha çox və rəngarəng olmalıdır.

### b) Uşaq kitabxanaları

70-ci illərin ikinci yarısında Azərbaycanda 96 müstəqil uşaq kitabxanası fəaliyyət göstərirdi ki, bunlardan 69-u respublikanın şəhər və rayon MKS-lərinin struktur quruluşuna daxil olmuşdu.[450] Yalnız mərkəzləşdirilmiş sistemlərdəki uşaq kitabxanalarının fondu 70-ci illərin sonunda 30 milyon 424 min 363 nüsxə təşkil edirdi. Ümumi fondu 945.142 nüsxə olan müstəqil uşaq kitabxanası isə Bakı şəhərində fəaliyyət göstərirdi. Yalnız bu kitabxanalardan 53.116 uşaq və yeniyetmə istifadə edirdi.[451]

70-80-ci illərdə Azərbaycanda uşaq kitabxanalarında metodik işin təşkilinə başlanılmış və bu fəaliyyət sistemi artıq formalaşmışdı. Bu sistemə aşağıdakı kitabxanalar rəhbərlik edirdi:

F. Köçərli adına Respublika Uşaq Kitabxanası;

A. Babayev adına Naxçıvan Muxtar Respublikası Uşaq Kitabxanası;

Dağlıq Qarabağ Muxtar Vilayəti Uşaq Kitabxanası;

Rayon və şəhər MKS-lərinin mərkəzi uşaq kitabxanaları.

Qeyd edək ki, uşaqlara kitabxana xidməti üzrə respublikada formalaşmış metodik mərkəzlərin fəaliyyəti heç də müstəqil uşaq kitabxanaları ilə məhdudlaşdırılmırdı. Xüsusilə 70-ci illərin ikinci yarısından başlayaraq gənclərə və yeniyetmələrə xidmət edən kütləvi kitabxanalarda uşaqlara xidmət işinin məzmunu və əhatə dairəsi xeyli genişlənmişdi. Aparılan hesablamalara görə, respublikanın iri şəhər və kənd kütləvi kitabxanalarında fondun təqribən 10 faizini uşaq ədəbiyyatı, oxucuların 20-22 faizini isə uşaq oxucuları təşkil edirdi. Bütün bunlar uşaqlara kitabxana xidmətinin metodik tə'minatının məzmun, forma və təşkilati baxımdan təkmilləşdirilməsinə səbəb oldu.

Tədqiq edilən dövrdə uşaq kitabxanalarının metodik tə'minatının ana xəttini uşaqların mütaliəsi və kitabxanalara cəlb olunması, onlarda sağlam mə'nəviyyatın

---

[450] F. Köçərli adına Respublika Uşaq Kitabxanasının 1976-1980-ci il hesabatları.

[451] Yenə orada.

formalaşmasında kitabın rolunun yüksəldilməsi, yeniyetmələrdə elmə, biliyə həvəsin və marağın artırılması, estetik zövqün və biliklərin, gələcək peşə marağının tədricən inkişafı təşkil edirdi.

Uşaq mütaliəsi problemləri ilə məşğul olan kitabxanaşünas alim S.Rzayev yazır: «Tərbiyə işində öyrətmək başlıca vasitədir. Ona görə də kitabxanaların üzərinə düşən vəzifə böyük məs'uliyyət tələb edir. Bu baxımdan mütaliə vasitəsilə öyrətmək, öyrətməklə tərbiyə etmək vəzifəsini üzərinə götürən uşaq kitabxanalarının işi daha rəngarəng və çoxcəhətlidir. Uşaq mütaliəsinə rəhbərlik onların tərbiyə edilməsi prosesinin tərkib hissəsidir»[452].

Qeyd etmək lazımdır ki, 70-ci illərin sonu - 80-ci illərin əvvəllərində respublikada uşaq kitabxanalarının metodik tə'minatında əsas əlaqələndirici rolu yenə də F. Köçərli adına Respublika Dövlət Uşaq Kitabxanası həyata keçirirdi. Kitabxanaların mərkəzləşdirilməsi və uşaq kitabxanalarının metodik tə'minat sisteminin formalaşması şəraitində isə bu kitabxana eyni zamanda metodik işin əlaqələndirici mərkəzi funksiyasını da həyata keçirirdi. Belə ki, burada Azərbaycanda uşaqlara kitabxana xidmətinin metodik tə'minatının vahid, kompleks planı tərtib edilir və respublikada uşaq kitabxanaları üzrə digər metodik mərkəzlərin, ilk növbədə şəhər və rayon MKS-lərinin mərkəzi uşaq kitabxanalarının fəaliyyətinə rəhbərlik edilirdi. Bu dövrdə F. Köçərli adına Respublika Uşaq Kitabxanasının metodik fəaliyyətinin ən mühüm vəzifələrindən biri şəhər və rayon MKS-lərinin mərkəzi uşaq kitabxanalarının metodik fəaliyyətini sistemli fəaliyyətə çevirməkdən ibarət idi. Bu məqsədlə kitabxana yerlərə gedişlər, metodik tə'limatlar, müşavirə və seminarlar kimi iş üsullarından geniş istifadə edirdi. 60-cı illərdən fərqli olaraq uşaqlara kitabxana xidmətində pedaqoji amillərin güclənməsi, metodik fəaliyyətdə elmi ünsürlərin mövcudluğu nəzərə çarpırdı.

70-ci illərin ikinci yarısında F.Köçərli adına Respublika Uşaq Kitabxanası tərəfindən yerlərə hər il orta hesabla 25-30 gediş təşkil edilirdi. Bu dövrdə Sumqayıt, Mingəçevir, Abşeron, Lənkəran, İmişli, Tərtər, Lerik, Gəncə, Daşkəsən, Cəlilabad, Biləsuvar, Yardımlı, Bərdə, Zərdab, Şamaxı, Salyan, Xaçmaz, Sabirabad, Saatlı rayonlarına gedişlərdə Respublika Uşaq Kitabxanasının təcrübəli metodistləri iştirak etmiş, yerlərdə mərkəzi uşaq kitabxanasının əməkdaşları ilə uşaqlara kitabxana xidmətinin təşkili məsələləri ilə əlaqədar seminarlar, müşavirə və söhbətlər aparmışdılar. Bundan başqa, hər gediş prosesində şəhər və rayon mərkəzi uşaq kitabxanalarının metodik nəşrlər fonduna yeni sənədlər, metodik tə'limatlar verilirdi.

70-ci illərin sonunda respublikanın bütün şəhər və rayonlarında «Uşaq kitabı həftəsi» keçirilməsi təcrübəsi artıq ən'ənəyə çevrilmişdi. Bu məqsədlə F.Köçərli adına Respublika Uşaq Kitabxanasında hələ 1978-ci ildə uşaq kitabı həftəsinin ssenarisi və təşkili metodikası hazırlanmışdı.[453] Belə tədbirlər hər ilin mart ayında demək olar ki, respublikanın bütün şəhər və rayonlarında təşkil edilirdi. Bakı, Gəncə, Sumqayıt, Mingəçevir kimi iri şəhərlərdə uşaq kitabı həftələri bilavasitə Respublika Uşaq Kitabxanası metodistlərinin iştirakı ilə keçirilirdi. Digər ərazilərə isə hər il uşaq kitabı həftəsi keçirilənə qədər əlavə metodik materiallar göndərilir və bu iş bilavasitə müvafiq şəhər və rayonun mərkəzi uşaq kitabxanası əməkdaşlarının rəhbərliyi ilə təşkil edilirdi. Uşaq kitabı həftələrində parklarda, mədəniyyət saraylarında və digər əyləncə mərkəzlərində kitabxana fondlarında olan uşaq ədəbiyyatına baxış təşkil olunur, kitablar haqqında icmallar, söhbətlər aparılır, bir çox yerlərdə müəlliflərlə görüşlər keçirilir, uşaq əsərlərindən səhnəciklər göstərilirdi. Uşaq kitabı həftəsinin təşkilində və respublikanın uşaq kitabxanaları ilə yanaşı, kütləvi və məktəb kitabxanaları da iştirak edirdilər.

---

[452] Rzayev S.M. Kiçik məktəbyaşlı uşaqların mütaliəsinə fərdi rəhbərliyin pedaqoji və psixoloji əsasları (Elmi əsərlərin tematik məcmuəsi).-Bakı. 1983.-S.61.

[453] Ümumittifaq uşaq və gənclər həftəsi (Metodik tövsiyələr).-B.,1978.-24s. (F.Köçərli adına Respublika Uşaq Kitabxanası).

F. Köçərli adına Respublika Uşaq Kitabxanasının hesabatlarına əsasən 1980-1982-ci illərdə respublikanın bütün bölgələrində təşkil olunan «Uşaq və gənclər kitabı həftələri»nə 96 müstəqil uşaq kitabxanası, 2456 kütləvi kitabxana, 2146 məktəb kitabxanası qoşulmuşdur. Bu tədbirlər 2 milyon 254 min məktəbli oxucunu əhatə etmişdir.[454]

70-ci illərin sonu - 80-ci illərin əvvəllərində bütün kütləvi kitabxanalarda olduğu kimi, uşaq kitabxanalarında da audiovizual materialların komplektləşdirilməsinə və yeniyetmələrin mütaliəsinə rəhbərlikdə istifadəsinə xüsusi diqqət yetirilirdi. Bu məqsədlə Respublika Uşaq Kitabxanasının metodik fəaliyyətində uşaq kitabxanalarında fonotekaların təşkili, qrammofon valları, maqnitofon yazıları, diafilmlər fondlarının təşkili, kataloqlaşdırılması və oxuculara xidmət işində istifadəsi məsələlərinə diqqət artırılmışdı. Bu iş kitabxananın incəsənət və musiqi ədəbiyyatı şö'bəsi ilə birlikdə həyata keçirilirdi. Çünki uşaq kitabxanalarında audiovizual materiallardan səmərəli istifadə yeniyetmələrin estetik tərbiyəsinə xidmət edirdi. Bu baxımdan uşaq kitabxanalarında audiovizual materiallarla iş proseslərinə dair silsilə metodik materialların (metodik məktubların, tövsiyələrin və s. sənədlərin) hazırlanması metodik fəaliyyətin zamanın tələblərinə uyğun həyata keçirilməsinə əyani sübutdur. Belə ki, bu illərdə kitabxanada hazırlanmış «Uşaq və məktəb kitabxanalarında audiovizual xidmət», «Uşaq kitabxanalarında fonotekaların təşkili məsələləri", "Qrammofon yazılarının təsviri və kataloqun təşkili», «Uşaq və məktəb kitabxanalarında oxucuların estetik tərbiyəsi», «Kitabxanalarda musiqi, ədəbiyyat və incəsənət dərnəklərinin təşkili» və s.[455] kimi faydalı metodik materiallar uşaq kitabxanalarında estetik tərbiyənin mahiyyətini açır, bu sahədə daha səmərəli iş görmək üçün onların fəaliyyətini istiqamətləndirirdi.

1978-1980-ci illərdə Respublika Uşaq Kitabxanası «Uşaqların mə'nəvi tərbiyəsində kitab, mütaliə və kitabxanaların rolu» mövzusunda seminar-müşavirə təşkil etmişdi. Şəki, Lənkəran və bir sıra başqa zonalarda keçirilən bu tədbirlərdə yeniyetmələrin beynəlmilən tərbiyəsində, onların elmi dünyagörüşünün, peşəyönümünün formalaşmasında kitabxanaların fəaliyyəti geniş işıqlandırılmışdı. Əlbəttə, bu məsələlər məzmun, və şərh baxımından dövrün hakim kommunist ideologiyasına əsaslanırdı, mə'ruzə və çıxışlarda kommunist partiyası sənədlərinin təbliğinə üstünlük verilirdi. Bununla yanaşı, kitabxana işçilərinin seminar-müşavirələri yeniyetmələrə kitabxana xidmətinin təkmilləşdirilməsinə, kitabxana işçilərinin peşə səviyyəsinin, uşaq oxucuları ilə kütləvi və fərdi iş üsullarından səmərəli istifadəsinə müsbət tə'sir göstərirdi. Bu fikri 80-ci illərin birinci yarısında Respublika Uşaq Kitabxanası tərəfindən təşkil edilən Sov.İKP-nin XXV və XXVI qurultaylarına, partiya plenumlarına, Leninin anadan olmasının 110 və 115 illiyinə, SSRİ-nin 60 illiyinə, digər siyasi kampaniyalara həsr olunmuş seminar-müşavirələrə və digər tədbirlərə də aid etmək olar. Dövrün siyasi tələblərindən, rəhbər orqanların direktiv göstərişlərindən irəli gələn belə tədbirlər trafaret, şablon olduğundan və keçmiş «mə'nəvi dəyərləri» özündə əks etdirdiyindən uşaqlara kitabxana xidmətinin təkmilləşdirilməsinə səmərəli tə'sir göstərə bilməzdi.

1985-ci ildən başlayaraq SSRİ-də «yenidənqurma», «aşkarlıq», «demokratiya», «insan amili» kimi şüarların meydana gəlməsi, bu şüarların altında pərdələnən Sovet imperiyasının sosial-iqtisadi və siyasi mahiyyət baxımından dəyişdirilməsi cəmiyyətin bütün sahələrində, xüsusilə ideologiya sahəsində müəyyən canlanmaya səbəb oldu.

O dövrün partiya rəhbəri M.Qorbaçovun kitabxana

---

[454] F.B.Köçərli adına Respublika Uşaq Kitabxanasının 1980-1982-ci il hesabatları. Uşaq kitabı qovluğu.

[455] Yenə orada, 1978-1984-cü il hesabatları. Metodik materiallar qovluğu.

işinin ideya-siyasi, əmək və əxlaq tərbiyəsinin tərkib hissəsi kimi dinamik fəaliyyətdə olmaması və bu sahədə durğunluğun dözülməzliyi tezisi xeyli canlanma yaratmışdı.[456] Şübhəsiz ki, bu canlanma metodik tə'minatın güclənməsinə, kitabxanalarda metodik rəhbərliyin məzmununda və təşkilində müəyyən keyfiyyət göstəricilərinin meydana gəlməsinə səbəb olmuşdu.

Cəmiyyətdə baş verən «yenidənqurma» proseslərinin ideoloji tə'minatında uşaq kitabxanalarının iştirakını təmin edən kompleks metodik tədbirlərin hazırlanıb həyata keçirilməsi bu dövrdə Respublika Uşaq Kitabxanasının və digər metodik mərkəzlərin fəaliyyətinin başlıca istiqamətini təşkil edirdi. Bu məqsədlə kitabxanada o dövr üçün özünü doğrultmuş metod və üsullardan geniş istifadə edilirdi. Bunu 1981-1990-cı illərdə F. Köçərli adına Respublika Uşaq Kitabxanasının metodik fəaliyyətini əks etdirən cədvəldən[457] aydın görmək olar.

| İllər | Kitabxanalara | Məsləhətlər | | Seminar | | Müşavirə | Prakti- | Metodik sənədlər | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | gedişlər | Şifahi | Yazılı | Zona | Respub. | Rayon.üzrə | kumlar | mətbəə | Rotoprint |
| 1986 | 20 | 36 | 24 | 1 | 1 | 1 | 1 | 4 | 6 |
| 1987 | 32 | 42 | 22 | 1 | 1 | 1 | 2 | 6 | 8 |
| 1988 | 42 | 32 | 20 | 1 | 1 | 1 | 3 | 6 | 18 |
| 1989 | 12 | 25 | 15 | 1 | 1 | 1 | - | 2 | 16 |
| 1990 | 19 | 21 | 31 | 2 | - | 1 | - | 1 | 16 |
| CƏMİ | 125 | 156 | 112 | 6 | 4 | 5 | 6 | 19 | 64 |

Bu illərdə kitabxanaçıların yerlərdə tə'limatlandırılması məqsədilə 125 e'zamiyyə təşkil olunmuş, demək olar ki, respublikanın bütün uşaq kitabxanaları əhatə edilmişdir. Yerlərdə olarkən F.Köçərli adına Respublika Uşaq Kitabxanasının əməkdaşları nəinki uşaq kitabxanalarının, eləcə də kütləvi və məktəb kitabxanalarının işi ilə də tanış olmuşlar. Bu zaman kitabxana işçiləri üçün fondun komplektləşdirilməsi və təşkili, kataloq sisteminin təkmilləşdirilməsi, uşaq oxucularına fərdi xidmət, kütləvi tədbirlərin, uşaq kitabı həftələrinin təşkili, uşaq və məktəb kitabxanalarının əlaqəli fəaliyyəti və s. məsələlərlə bağlı seminarlar, fərdi məsləhətlər, təcrübi məşğələlər təşkil edilmişdi. Məsələn, 1986-cı ildə həmin kitabxananın metodistləri komlektləşdirmə və kataloqlaşdırma, xidmət və soraq biblioqrafiya şö'bələrinin əməkdaşları ilə birlikdə Daşkəsən, Masallı və Yardımlı rayonlarında mərkəzi uşaq kitabxanalarının diyarşünaslıq işləri ilə yaxından tanış olmuş, kitabxanalarda diyarşünaslıq kartotekasının, «Təbiəti sevək və mühafizə edək», «Sülh və xoşbəxtlik» kartotekalarının sxemini tərtib etmiş, yeniyetmələr arasında estetik biliklərin təbliği, fondun komplektləşdirilməsi ilə əlaqədar kitabxana işçilərinə konkret tövsiyələr vermiş, işçi planları hazırlamışdılar.[458] 1987-ci ildə bu kitabxananın əməkdaşlarından ibarət xüsusi briqada Yevlax rayonunda kitab bayramı təşkil etmiş və bu tədbirə 20-yə qədər ətraf rayonlardan kitabxana işçiləri cəlb olunmuşdu.[459]

1987-ci ildə Respublika Uşaq Kitabxanasının təqdimatı ilə Şamaxı, Zərdab və Ucar rayonlarında yeni uşaq kitabxanaları açılmış və onların açılışı yerli icra hakimiyyəti orqanlarının iştirakı ilə əlamətdar hadisə kimi təntənəli şəkildə qeyd edilmişdir.[460] 1989-cu ildə respublikamızda artıq 114 müstəqil uşaq kitabxanası fəaliyyət göstərirdi ki, bu da 1976-cı ildən bəri 18 yeni uşaq kitabxanasının yaranmasına sübut idi.[461] Bu kitabxanalar Mingəçevir, Sumqayıt, Naxçıvan şəhərlərində, Zərdab,

[456] Sov.İKP-nin XXVII qurultayının materialları.-Azərnəşr, 1988.-S.97.
[457] Cədvəl F.Köçərli adına Respublika Uşaq Kitabxanasının 1986-1990-cı illərə dair hesabat sənədləri əsasında tərtib edilmişdir.
[458] F.Köçərli adına Respublika Uşaq Kitabxanasının arxivi: Metodik şö'bə. 1986-cı il hesabatı.-S.3-5.
[459] Yenə orada. 1987-ci il hesabatı.-S.28-30.
[460] Yenə orada.
[461] Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Muzey və Kitabxana İşləri İdarəsinin 1989-cu il hesabatı. Statistik materiallar.

Ucar, Şamaxı rayonlarında və Dağlıq Qarabağ Muxtar Vilayətində təşkil edilmişdi. Onların fondlarının formalaşması, kataloq sisteminin yaradılması, oxuculara xidmət işinin təşkili bilavasitə Respublika Uşaq Kitabxanasının metodik rəhbərliyi ilə həyata keçirilirdi.

Bu illərdə onun A.Babayev adına Naxçıvan Muxtar Respublikası Uşaq Kitabxanası ilə birgə fəaliyyəti də xeyli güclənmişdi. Belə ki, 1988-ci ildə Respublika Uşaq Kitabxanasının bir qrup əməkdaşı Naxçıvan şəhər, Babək və Ordubad rayon uşaq kitabxanalarının işi ilə tanış olmuş, yeniyetmələrə abonement və qiraət zalları vasitəsilə kitabxana xidmətinin təşkili, kütləvi tədbirlərin keçirilməsi, diyarşünaslıq işləri, uçot və hesabat, fondun komplektləşdirilməsi və s. məsələlər üzrə seminar-müşavirələr, praktikumlar təşkil etmiş, Muxtar Respublika Uşaq Kitabxanasının metodik vəsaitlər fondunu xeyli sənədlər ilə tamamlamışdır.[462]

Çox təəssüf ki, 1988-ci ildə Azərbaycana erməni təcavüzü ilə əlaqədar baş verən hadisələr sonralar Respublika Uşaq Kitabxanası əməkdaşlarının yerlərə getmək imkanlarını xeyli məhdudlaşdırdı. 90-cı illərin əvvəllərində isə bu iş tamamilə dayandırıldı.

80-ci illərin ikinci yarısında Respublika Uşaq Kitabxanasında yazılı metodik sənədlərin hazırlanması da diqqət mərkəzində duran məsələlərdən biri idi.

Qeyd etmək lazımdır ki, bu illərdə hazırlanmış metodik sənədlərdə elmilik, müasirlik, yüksək peşəkarlıq ünsürləri nəzərə çarpırdı. Bunların içərisində «Məktəblilərin estetik tərbiyəsində uşaq və məktəb kitabxanalarının vəzifələri» (1986), «Məktəblilərə texnika haqqında» (1986), «Uşaq kitabxanaları və yeni- yetmələrin hüquq tərbiyəsi» (1987), «Musiqi və sən» (1983), «Rayon uşaq kitabxanaları haqqında metodik gös- tərişlər» (1989) və başqaları kitabxanalarda metodik fikrin, elmi tədqiqatların nəticələrinin, uşaq pedaqogikası və psixologiyası ilə üzvi surətdə əlaqələndirilməsindən xəbər verirdi.

Metodik vəsaitlərin tərtib və məzmun baxımından təkmilləşdirilməsi 90-cı illərdə də əsasən müvəffəqiyyətlə davam etdirilirdi. Belə ki, Respublika Uşaq Kitabxanası tərəfindən 1991-ci ildə 18, 1992-ci ildə 22, 1993-cü ildə 18, 1994-cü ildə 13, 1995-ci ildə 12 və 1996-cı ildə 11 adda müxtəlif məzmunlu yazılı metodik materiallar tərtib edilmişdir.[463] Bunlardan «Müasir şəraitdə uşaq kitabxanalarında mütaliəyə rəhbərliyin metodikası» (1993), «Uşaq kitabxanalarında məktəbəqədər yaşlılarla iş» (1993), «Kitabxana və ailə» (1994), «Uşaq kitabxanalarının tədris-tərbiyə prosesində iştirakı» (1994), «Kiçikyaşlı məktəblilərin mütaliə mədəniyyətinin formalaşması» (1996), «Uşaq kitabxanalarında hərbi vətənpərvərlik tərbiyəsi» (1995) və s. kimi metodik vəsaitlər Azərbaycan Respublikasının müstəqillik şəraitində qarşıya çıxan yeni vəzifələri əks etdirmək, köhnə ideoloji dəyərlərdən xilas olmaq baxımından kitabxana işində yeni təfəkkürün, milli ideologiyanın, suverenlik təfəkkürünün tədricən bərqərar olmasının nümunələri idi.

Qeyd edək ki, 90-cı illərdə Respublika Uşaq Kitabxanası tərəfindən tərtib edilmiş metodik materialların sayı ilə əlaqədar yuxarıda verilən rəqəmlərə əlamətdar və tarixi günlər münasibətilə hazırlanmış yazılar daxil edilməmişdir. Həmin rəqəmlər yalnız problem xarakterli tə'limati-metodik sənədləri əks etdirir. Tarixi günlərlə bağlı olaraq kitabxana hər il 10-12 operativ metodik məktub hazırlayır, rotator üsulu ilə çoxaldır və yerlərə göndərirdi. Belə metodik məktublar bir qayda olaraq ayrı-ayrı elm, mədəniyyət xadimlərinə, yazıçıların yaradıcılığına həsr edilirdi.

90-cı illərdə artıq Respublika Uşaq Kitabxanası xalqımızın görkəmli mütəfəkkirlərinə həsr edilmiş metodik materiallar hazırlayır. «Mən bəşəriyyətin dostuyam» (M.F.Axundovun 180 illiyi münasibətilə) (1992), «Filosof Əbülhəsən Bəhmənyar – 100» (1993), «Məhəmməd Naxçıvani - 700» (1993), «M.Füzuli - 500» (1993), «İs-

---

[462] F.Köçərli adına Respublika Uşaq Kitabxanasının 1988-ci il hesabatı.-S.29-31.

[463] F.Köçərli adına Respublika Uşaq Kitabxanasının 1991-1996-cı il hesabatları.

mayıl Şıxlı - 75» (1994), «Nəbi Xəzri - 70» (1994), «S.Bəhlulzadə - 85» (1994), «Xocalı faciəsi» (1995), «İbn-Sina - 1015» (1995), «Həyatda Səməd Vurğun vardır» (1996), «Maral Rəhmanzadə – 80» (1996) və s. kimi göstəriciləri və materialları buna misal göstərmək olar. Apardığımız ümumiləşmələrə görə, 1991-1996-cı illərdə belə tarixi hadisələrə həsr edilmiş metodik işləmələrin ümumi sayı 80-dən artıq olmuşdur.

Uşaq kitabxanalarının metodik tə'minatı sistemində 90-cı illərdə keçirilən nəzəri-təcrübi konfransların rolundan danışmaq da yerinə düşər. Uşaqlara kitabxana xidmətinə, yeniyetmələrin mütaliə problemlərinə həsr edilmiş belə konfransların uşaq və gənclərin mütaliəsi ilə məşğul olan digər kitabxanalarla və tə'lim-tərbiyə müəssisələri ilə birlikdə təşkil edilməsi müsbət meyl idi. Belə ki, Respublika Uşaq Kitabxanası 1990-cı ildə Respublika Elmi Pedaqoji Kitabxanası və Quba rayon MKS-in mərkəzi uşaq kitabxanası ilə birlikdə «Şagirdlərin sinifdənkənar mütaliəsinin təşkilində uşaq və məktəb kitabxanalarının əlaqəli fəaliyyəti», 1991-ci ildə C.Cabbarlı adına Respublika Gənclər Kitabxanası və Salyan rayon MKS ilə birlikdə «Müasir dövrdə uşaqlara və gənclərə kitabxana və biblioqrafiya xidmətinin təkmilləşdirilməsi məsələləri» (zona müşavirəsi), 1993-cü ildə M.F.Axundov adına Dövlət Kitabxanası, Respublika Elmi Pedaqoji Kitabxanası və Yevlax rayon MKS-in mərkəzi kitabxanası ilə birlikdə «Müasir dövrdə uşaq tərbiyə sisteminin kitab tə'minatı», 1996-cı ildə Gəncə şəhər mədəniyyət və maarif şö'bələri, Gəncə şəhər Uşaq Kitabxanası ilə birlikdə «Müasir dövrdə uşaq və məktəb kitabxanalarında xidmət işinin mütərəqqi üsulları və metodik tə'minatı məsələləri» mövzuları üzrə nəzəri-təcrübi konfranslar təşkil etmişdir.[464] Bu konfranslarda bir qayda olaraq ərazidə fəaliyyət göstərən uşaq və məktəb kitabxanaları işçiləri, mədəniyyət və maarif sahəsində çalışan mütəxəssislər, fəal oxucular, müəllimlər və valideynlər, icra hakimiyyəti orqanlarının nümayəndələri iştirak etmişlər. Salyan rayonunda keçirilmiş müşavirədə yerli kitabxana işçiləri ilə yanaşı, Cəlilabad, Biləsuvar, Saatlı, Sabirabad, Neftçala, Əli Bayramlı, Qazıməmməd şəhər uşaq kitabxanalarının işçiləri də təmsil olunmuşdular.[465]

Ümumiyyətlə, 100 nəfərə yaxın müxtəlif kitabxana və təhsil sistemi işçilərini əhatə edən belə konfranslar 90-cı illərdə uşaq kitabxanalarının metodik tə'minatında olduqca əlamətdar hadisə kimi qiymətləndirilə bilər. Bu tədbirlərin əsas mahiyyəti və əhəmiyyəti ondan ibarətdir ki, burada yeni dövrün tələblərinə uyğun olaraq Azərbaycanın müstəqilliyi şəraitində gənc nəsildə sağlam milli şüur, ləyaqət, vətənpərvərlik duyğularını formalaşdırmaq, yeniyetmələrin öz tarixi köklərinə, doğma diyar və torpağına, mənsub olduğu xalqa məhəbbət, milli qürur, məkrli düşmənlərimizə qarşı yenilməz vahid qüvvəyə çevrilmək hisslərinin aşılanmasında kitabxana xidmətinə keyfiyyətcə yeni münasibətdən yanaşmaq fikirləri ilk dəfə səslənirdi. Qeyd edək ki, 90-cı illərdə elmi, texniki, tibb, kənd təsərrüfatı və digər kitabxana şəbəkələrinin metodik tə'minatında belə nəzəri-təcrübi konfransların təşkili təcrübəsi olmamışdır.

### *4.3.Elmi-texniki, kənd təsərrüfatı və tibb kitabxanalarının metodik tə'minat sistemi*

#### a) Texniki kitabxanalar

70-ci illərin sonu - 80-ci illərin əvvəllərində respublikamızda 158 elmi-texniki kitabxana fəaliyyət göstərirdi.[466] Müxtəlif nazirliklərə və baş idarələrə tabe olduğundan texniki kitabxanaların vahid mərkəzləşdirilmiş sistemini yaratmaq mümkün olmamışdı. Lakin belə çoxsahəli kitabxana şəbəkəsinin vahid metodik mərkəz tərəfindən idarə olunması ən'ənəsi hələ 30-cu illərdə formalaşmış və 60-70-ci illərdə daha

---

464 F.Köçərli adına Respublika Uşaq Kitabxanasının cari arxivi: Nəzəri-təcrübi konfranslar qovluğu (1991-1996).

465 F.Köçərli adına Respublika Uşaq Kitabxanasının 1991-ci il hesabatı.-S.29.

466 Перечень НТБ Азербайджана.-4-е изд.-Б.: АЗМИИНТИ, 1983.-16 с.

da möhkəmləndirilmişdi.

Elmi-texniki kitabxanaların respublika üzrə metodik tə'minatı, əvvəllər olduğu kimi, 70-80-ci illərdə də Azərbaycan Dövlət Plan Komitəsinin Respublika Elmi Texniki Kitabxanası tərəfindən həyata keçirilirdi.

Qeyd etdiyimiz kimi, elmi-texniki kitabxanaların vahid mərkəzləşdirilmiş sisteminin olmamasına baxmayaraq, şəbəkədə bir sıra mühüm kitabxana prosesləri, o cümlədən, fondların komplektləşdirilməsi və kataloqlaşdırılması Respublika Elmi Texniki Kitabxanası tərəfindən mərkəzləşdirilmiş qaydada həyata keçirilirdi ki, bu da onun təşkilati-metodik fəaliyyətində çox mühüm yer tuturdu. Lakin çox əhəmiyyətli olan bu təşəbbüs 1976-1978-ci illərdə dayandırıldı. Buna səbəb həmin illərdə bu kitabxananın metodik şö'bəsinin müdiri N.Kazımovanın, baş kitabxanaçılar C.Salahlının və L.Mustafayevanın Elmlər Akademiyası sisteminə işə keçmələri ilə əlaqədar idi.

80-ci illərin əvvəllərində respublikanın elmi-texniki kitabxanalarında 15 milyona yaxın müxtəlif sənəd növləri mühafizə edilirdi ki, bunların da təqribən 13 milyonunu normativ-texniki sənədlər, o cümlədən, patent ədəbiyyatı təşkil edirdi.[467] Bu kitabxanalardan orta hesabla hər il 40 min mütəxəssis, texniki işçi və tələbə istifadə edirdi. Ən zəngin informasiya ehtiyatlarına malik texniki kitabxanalar əsasən və ən'ənəvi olaraq neft sənayesi kompleksində yerləşdirilmişdi. Bu dövrdə yalnız neft e'malı və neft-kimya sənayesi sahəsində çalışan 7017 nəfər oxucuya fondunda 280.858 nüsxə çap məhsulu olan 11 elmi-texniki kitabxana xidmət göstərirdi.[468]

70-ci illərin sonu - 80-ci illərin əvvəllərində «Azneft» İstehsalat Birliyi (18 kitabxana), «Soyuzneftmaş» İstehsalat Birliyi (14 kitabxana), Kimya Sənayesi Nazirliyi (16 kitabxana) və s. iri texniki kitabxana şəbəkəsinə malik idi.[469]

Bu dövrdə də Respublika Elmi Texniki Kitabxanasının metodik fəaliyyəti kitabxanalara gedişlərdən və işçilərin yerlərdə tə'limatlandırılmasından, sənaye müəssisələrində fəaliyyət göstərən kitabxanaların işinin təhlilindən, metodik materialların hazırlanmasından, kitabxana işçilərinin peşə səviyyəsinin yüksəldilməsindən, müxtəlif tədbirlərin həyata keçirilməsindən, texniki kitabxanaların təcrübəsindən bəhs edən nəzəri və metodik nəşrlər fondunun formalaşdırılmasından ibarət idi.

Kitabxana işçilərinin fərdi və qrup halında tə'limatlandırılması xüsusilə artmışdı. Belə ki, 1980-1990-cı illərdə belə məsləhət və tə'limatların sayı hər il orta hesabla 380-400 olurdu.[470] Bu tə'limatlandırma əsasən respublika kitabxanasının metodkabinəsində təşkil edilirdi. Tə'limatlandırma prosesində bir qayda olaraq kitabxananın bütün şö'bələrinin işçiləri iştirak edirdilər.

Respublika Elmi Texniki Kitabxanasının təşkilati-metodik fəaliyyətində yerlərə gedişlər olduqca səmərəli nəticələr verirdi. Belə gedişlər əvvəlcədən tərtib edilmiş qrafik əsasında təşkil edilirdi. Bir sıra hallarda yerlərə gedişlər kitabxananın kompleks yoxlanılması kimi aparılır və onun fəaliyyətinin təkmilləşdirilməsinə yönəlmiş proqram xarakterli sənədlərin hazırlanıb ilboyu həyata keçirilməsi ilə nəticələnirdi.

Metodik şö'bənin kitabxanalara gediş cədvəlindən mə'lum olur ki, 1978-1988-ci illərdə bilavasitə yerlərdə köməklik göstərilən kitabxanaların sayı bu cür olmuşdur: 1978 - 38 kitabxana; 1980 - 36 kitabxana, 1982-30 kitabxana; 1984 - 30 kitabxana; 1986 – 28 kitabxana, 1987 - 32 kitabxana; 1988 - 22 kitabxana və s.

Beləliklə, 1989-cu ildən e'tibarən maddi-texniki səbəblər, eləcə də respublikamızda yaranmış qeyri-sabitlik nəticəsində kitabxanalara gedişlər dayandırılmış və çox təəssüf ki, bu günə qədər bərpa olunmamışdır.

80-ci illərdə kitabxanalar arasında «Leninneft» neftçıxarma idarəsinin, Keşlə

---

[467] Xələfov A.A. və b. Kitabxana işçisinin mə'lumat kitabı.-B., 1986.-S.89.

[468] Sosializmin təkmilləşdirilməsi mərhələsində Azərbaycanda elmi işçilərə kitabxana xidməti.-B.,1985.-S.24.

[469] Перечень научно-технической библиотеки.-17 стр.

[470] Respublika Elmi Texniki Kitabxanasının arxivi: Metodik şö'bənin 1980-1988-ci il hesabatları.

maşınqayırma zavodunun, Bakı şin zavodunun, Bakı, Sumqayıt, Mingəçevir neft-kimya istehsalı müəssisələrinin, Sumqayıt kompressorlar zavodunun və başqa müəssisələrin kitabxanalarında kompleks xarakterli yoxlamalar keçirilmişdi. Yalnız 1985-1988-ci illərdə 22 kitabxananın fəaliyyəti hərtərəfli yoxlanılmış, onların işindəki ciddi nöqsanların aradan qaldırılmasına dair konkret proqram müəyyən edilmişdir. Bütün kompleks yoxlamaların nəticələri müvafiq müəssisənin rəhbərliyinə arayış şəklində təqdim edilmişdir. Yoxlama prosesində nəzərəçarpan müsbət iş növləri isə metodkabinədə təşkil edilmiş «Qabaqcıl iş təcrübəsi» kartotekasına daxil edilmişdir. Qeyd edək ki, bu kartoteka özündə 1975-1988-ci illərdə respublikanın elmi-texniki kitabxanalarında oxuculara xidmət işinə, kitabxana fondlarının təşkili və istifadəsinə dair 60-dan artıq qabaqcıl iş təcrübəsini əks etdirirdi. Bu dövrdə Respublika Elmi Texniki Kitabxanası tərəfindən yazılı tə'limati-metodik sənədlərin hazırlanması istiqamətində də xeyli iş aparılmışdır. Məsələn, araşdırma nəticəsində 1976-1988-ci illərdə tərtib edilmiş 18 adda sanballı tə'limati-metodik sənəd müəyyənləşdirilmişdir. Bunlar dövrün tələblərinə uyğun olaraq yeni müddəalar əsasında işlənilmiş yazılardan ibarət idi. Bu yazılarda, demək olar ki, 70-80-ci illərdə elmi-texniki kitabxanalar üçün aktual olan bütün problemlər öz əksini tapmışdır. Problemlərin müxtəlifliyindən, mürəkkəbliyindən asılı olmayaraq bu metodik tə'limatların hamısı sənaye kompleksində çalışan alimlərə, mütəxəssislərə, texniki işçilərə, fəhlələrə və tələbələrə kitabxana-informasiya xidmətinin optimallaşdırılmasına yönəlmiş materiallardan ibarət idi. Həmin sənədlərə misal olaraq bunları göstərmək olar: «Texniki kitabxanalarda normativ-texniki sənədlər fondunun təşkili», «Texniki kitabxanalarda elmi-texniki informasiyanın təşkili», «Texniki kitabxanaların elmi-texniki informasiya orqanları ilə birlikdə fəaliyyəti», «UOT üzrə təsnifləşdirmənin bə'zi qaydaları», «Texniki kitabxanalarda normativ-texniki sənədlərə açıq baxış», «Mühüm kitabxana proseslərinə dair dövlət standartları» və s.

Bu illərdə tərtib edilmiş metodik materiallarda elmi-texniki kitabxanaların fəaliyyətinin mühüm istiqamətləri tənzimlənir, onların funksiyalarının həyata keçirilməsi, görüləcək işlərin təcrübi mexanizmi açılır, mühüm texnoloji proseslərin məzmunu müəyyənləşdirilir, bu və ya digər mütərəqqi iş üsullarının tətbiqinə dair təkliflər və tövsiyələr verilir. Məsələn, «Texniki kitabxanalarda normativ-texniki sənədlər fondunun təşkili»[471] adlı tə'limati-metodik materialda dövrün aktual məsələlərindən biri olan standartlaşdırmaya kömək məqsədi ilə texniki kitabxanalarda müvafiq sənədlərin komplektləşdirilməsi mənbələri, fondun tərkibi, təşkili və istifadəsi məsələləri işıqlandırılırdı. 70-ci illərin sonu - 80-ci illərin əvvəllərində respublikanın bütün iri sənaye komplekslərində, elmi tədqiqat müəssisələrində, layihə-konstruktor təşkilatlarında standartlar fondları yaradılır, Bakı, Sumqayıt, Gəncə, Mingəçevir, Əli Bayramlı kimi iri şəhərlərdə standartların işlənməsi üzrə baza təşkilatları, metodik mərkəz funksiyalarını yerinə yetirən təşkilatlar yaradılırdı. Normativ-texniki sənədlər artıq elmi-texniki informasiya sisteminin ayrılmaz tərkib hissəsinə çevrilmişdi. 1983-cü ildə respublikada təşkil edilmiş standartlaşdırma orqanlarında 5 minə yaxın mütəxəssis çalışırdı. Həmin il respublikanın elmi-texniki kitabxanalarında və elmi-informasiya orqanlarında 641.289 nüsxə normativ sənəd var idi ki, bunların verilişi 434.926 nüsxə təşkil edirdi.[472] Texniki kitabxanalarda normativ-texniki sənədlərin kataloqlaşdırılması və təbliği ilə əlaqədar geniş işlər aparılırdı. Odur ki, texniki kitabxanalarda normativ texniki sənədlərlə aparılan işlərin kompleks şərhini əks etdirən belə metodik sənəd dövrün tələblərinə cavab verən material kimi olduqca qiymətli idi. Bu fikri 80-ci illərdə tərtib edilmiş digər sənədlərə də aid etmək olar.

---

[471] Организация фондов нормативно-технической документации технической библиотеки.-Б.:РНТБ, 1984.-18 с.

[472] Рустамов А.М., Алиева Т.М. Обслуживание работников народного хозяйства нормативно-технической документацией //Научно-технические библиотеки СССР.-1984.-№2.-С.9-12.

1986-cı ildə Respublika Elmi Texniki Kitabxanasının akademik Qubkin adına Həmkarlar İttifaqı Mərkəzi Kitabxanası ilə birgə tərtib etdiyi «Elmi-texniki və iqtisadi ədəbiyyat aylığının təşkilinə dair metodik tövsiyələr»[473] adlı metodik material bir daha bu qənaəti təsdiq edir.

Həcmcə çox iri olmayan bu sənəddə kitabxanalarda texniki və iqtisadi ədəbiyyatın təbliğinə yönəlmiş xüsusi aylığın keçirilməsi (1 noyabr-1 dekabr 1986) ilə əlaqədar müvafiq materialların sərgiləri, onlara kütləvi baxış, sənaye müəssisələrində «İnformasiya günləri», «Mütəxəssis günləri», kitabların müzakirəsi və s. tədbirlərin təşkilinə dair konkret tövsiyələr verilir.

1987-ci ildə tərtib edilmiş «Fəhlə və gənc mütəxəssislərə kitabxana xidmətində tövsiyə göstəricilərindən istifadə edilməsi»[474] və «Patent fondu üzrə göstərici»,[475] «Kitabxanalarda informasiya günləri»[476] adlı vəsaitlərdə də texniki kitabxanaların qarşısında duran mühüm məsələlərə toxunulurdu.

80-ci illərdə də Respublika Elmi Texniki Kitabxanasının metodik fəaliyyətində kitabxana işçilərinin peşə səviyyəsinin yüksəldilməsinə yönəlmiş tədbirlərə geniş yer verilirdi. Bu məqsədlə hər il 10 ay ərzində respublika kitabxanasının qiraət zalında hər çərşənbə günü şəbəkənin işçiləri üçün seminarlar təşkil edilirdi. Məşğələlərin proqramı hər il yenidən tutulur və kitabxana işinin aktual problemlərinə dair mühazirələrin, fikir mübadiləsinin, kitab icmallarının, təcrübi məşğələlərin keçirilməsini nəzərdə tuturdu.

Məşğələləri metodistlərlə yanaşı, respublika kitabxanasının digər əməkdaşları, Respublika Elmi Texniki İnformasiya İnstitutunun mütəxəssisləri, eləcə də digər kitabxanaların təcrübəli işçiləri aparırdılar.

1989-cu ildə Respublika Elmi Texniki Kitabxanasının metodik şö'bəsi kitabxanaçılıq təhsili olmayan işçilər üçün müxtəlif problemlər üzrə 5 günlük seminarların yeniləşdirilmiş proqramını tərtib etdi.[477] Yeni problemlərə bu mövzular daxil idi: «Müasir cəmiyyət və kitabxana», «Elmi-texniki informasiya sistemində kitabxanaların yeri», «Kitabxanalarda əməyin elmi təşkili», «Universal onluq təsnifatı», «Kitabxana işinə dair dövlət standartları», «Kitabxanalarda soraq-informasiya fondlarının təşkili» və s.

Kitabxana işçilərinin ixtisasının artırılması üzrə hələ 1974-cü ildə tə'sis edilmiş «İnformatika» Xalq Universitetinin BDU-nun kitabxanaçılıq fakültəsində aparılan məşğələləri respublika kitabxanası metodik şö'bəsinin rəhbərliyi ilə birlikdə həyata keçirilir, nəzəri, təcrübi seminar məşğələləri ilə yanaşı, referat işləri də tərtib edilirdi.

1980-1988-ci illərdə «İnformatika» Xalq Universitetini 125 kitabxana işçisi bitirmişdir. Bu dinləyicilər üçün hər il orta hesabla 60 mövzu üzrə 50 məşğələ keçirilmişdir.[478]

Metodik fəaliyyətin mühüm tərkib hissəsi olan nəzəri-təcrübi konfrans və müşavirə-seminarların təşkili baxımından 80-ci illər o qədər də zəngin olmamışdır. Tədqiq etdiyimiz dövrdə nəzərəçarpan tədbir kimi 1982-ci ilin aprel ayında Bakıda Ümumittifaq Neft Sənayesi Nazirliyi elmi-texniki kitabxanalarının qabaqcıl iş təcrübəsinə həsr edilmiş müşavirə-seminarı göstərmək olar.[479]

---

[473] Методические рекомендации по проведению месячника научно-техничекой и экономической литературы.-Баку:РНТБ,1986.-12 с.

[474] Об использовании рекомендательных указателей для рабочих и молодых специалистов.-Баку:РНТБ. 1987.-16 с.

[475] Путеводитель по патентному фонду.-Б.:РНТБ, 1987.-18 с.

[476] Дни информации в библиотеке.-Баку:РНТБ. 1987.-20 с.

[477] Respublika Elmi Texniki Kitabxanasının arxivi: Metodik şö'bənin 1988-ci il hesabatı. Əlavə №2.

[478] Yenə orada, 1980-1990-cı il hesabatları.

[479] RETK-nın arxivi: SSRİ Neft Nazirliyi elmi texniki kitabxanalarının ümumittifaq müşavirə-seminarı (14-16 aprel 1982, Bakı) materialları.-28 s.

Müşavirə Respublika Elmi Texniki Kitabxanası və SSRİ Neft Sənayesi Nazirliyinin Mərkəzi Elmi Texniki Kitabxanası tərəfindən təşkil edilmişdi. Burada SSRİ-nin neft rayonlarından gəlmiş 35 kitabxana işçisi, həmçinin respublika neftçıxarma istehsalat birliyi elmi-texniki kitabxanalarının işçiləri, Respublika Dövlət Plan Komitəsinin, «Azərneft» İstehsalat Birliyinin əməkdaşları iştirak edirdilər. Müşavirə-seminarda neft sənayesi kitabxanalarının qabaqcıl iş təcrübəsinin öyrənilib ümumiləşdirilməsi və tətbiqi məsələlərinə dair 30 mə'ruzə, o cümlədən, Azərbaycandan 4 mə'ruzə dinlənildi. Sonra iştirakçılar Respublika Elmi Texniki Kitabxanası və respublika neft sənayesi sahəsində dayaq kitabxanası funksiyasını yerinə yetirən Neftçıxarma Elmi Tədqiqat İnstitutunun kitabxanasının fəaliyyəti ilə tanış oldular.

Müşavirə-seminar neft sənayesi kitabxanalarının fəaliyyətinin optimallaşdırılmasına, qabaqcıl iş təcrübəsinin ümumiləşdirilib tətbiq edilməsinə, kitabxanaların metodik tə'minatının səmərəliliyinin yüksəldilməsinə yönəldilmiş geniş proqram qəbul etdi. Neft sənayesi ictimaiyyətinin diqqətinə səbəb olmuş bu tədbir respublika mətbuatında yüksək qiymətləndirilmişdi.[480]

Digər sahəvi kitabxana şəbəkələrindən fərqli olaraq respublikada elmi-texniki kitabxanaların metodik tə'minatının təşkilində onilliklər ərzində olduqca qiymətli təcrübə qazanılmışdır.

Bu baxımdan qabaqcıl təcrübəni qısaca şəkildə təhlil etməyi lazım bilirik.

70-ci illərdən başlayaraq Respublika Elmi Texniki Kitabxanasında metodik fəaliyyətin planlaşdırılması üç səviyyədə aparılırdı:

Birincisi, perspektiv planlaşdırma. Bir qayda olaraq yaxın 5 illik dövrü əhatə edən perspektiv planda texniki kitabxanaların inkişafının proqnozu və bu inkişaf üçün metodik tə'minatın strateji məsələləri əks etdirilirdi.

İkincisi, metodik fəaliyyətin koordinasiya planı. Burada Respublika Elmi Texniki Kitabxanasının metodik fəaliyyətinin digər metodik mərkəzlərlə əlaqəsinin əsas ünsürləri, birgə əməliyyatlar və tədbirlərin həmin mərkəzlərlə razılaşdırılmış proqramı əks etdirilirdi.

Üçüncüsü, cari (illik) plan. Normativ sənədlər əsasında və perspektiv planlaşdırmaya uyğun şəkildə tərtib edilən metodik işlərin cari planında il ərzində görüləcək işlər, onların həcmi, müddəti, icraçılar göstərilməklə aşağıdakı istiqamətlər nəzərdə tutulurdu:

1.Texniki kitabxanaların ümumi sayı və yerləşdirilməsi.

2.Məsləhətlər:
   a) şifahi
   b) yazılı
   v) praktikumlar.

3.Seminarlar (sayı, mövzular, cədvəl-qrafik).

4.Müşavirələr (mövzular, vaxt, yeri, iş icraçıları, məs'ul şəxslər).

5.Qruplar üzrə məsləhətlər.

6.Mə'ruzələr.

7.Kitabxanaların komplektləşdirilməsinin metodik tə'minatı
a) yeni kitabların icmalları
b) komplektləşdirmə günləri

8.Metodkabinənin təşkili
a) oxucuların sayı
b) ədəbiyyat verilişi
v) kataloq və kartotekalara daxil ediləcək yeni təsvirlər
q) «Mətbuat kitabxana işi haqqında» stendinin yeni sənədlərlə tamamlanması
d) «Kitabxana işinə dair yeni ədəbiyyat» daimi sərgisinin təşkili

---

[480] Baxşəliyev Z. Elmi-texniki kitabxanaların işi haqqında ümumittifaq metodik seminar-müşavirə // Azərbaycan neft təsərrüfatı. -1982.-№9.-S.61-62.

9.Hesabatların təhlili.
10.Qabaqcıl kitabxanaların işinin ümumiləşdirilməsi.
11.Metodik işləmələr.
12.Arayışların tərtib edilməsi.
13.Kitabxanalara gedişlər.
14.Metodik materialların göndərilməsi.

Bu sxem eyni zamanda metodik fəaliyyətin hesabatlarında da əsas götürülürdü.

Respublika Elmi Texniki Kitabxanasının metodik fəaliyyətinin nəzəri bazasını kitabxana işinə dair sənədlərin soraq-informasiya fondu təşkil edirdi. Qeyd etmək lazımdır ki, respublikanın metodik mərkəzlərindən, o cümlədən, M.F.Axundov adına Dövlət Kitabxanasından fərqli olaraq Respublika Elmi Texniki Kitabxanasının metodik şö'bəsində kitabxana, biblioqrafiya və informasiya sahəsində SSRİ-də nəşr olunmuş və əlyazması hüququnda buraxılmış materialların ümumi həcmi 10 min nüsxədən artıq olan zəngin fondu yaradılmışdı. Burada mədəniyyət, elm, texnika və kitabxana işinə dair mə'lumat kataloqları, terminoloji lüğətlər, rəsmi sənədlər, kitabxana işinin tarixi, nəzəriyyəsi və metodikasına dair materiallar, monoqrafiyalar, dərsliklər və dərs vəsaitləri, müxtəlif kitabxana şəbəkələrinin inkişafına dair sənədlər, metodik materiallar, dövlət standartları, kitabxanaçılığa dair dövri nəşrlər, informasiya nəşrləri və s. materiallar sistemləşdirilmiş və kataloqlaşdırılmış qaydada kitabxana ictimaiyyətinin istifadəsinə verilmişdi. Soraq-informasiya fondunun mühüm tərkib hissəsini 20-ci illərdən başlayaraq Azərbaycanda fəaliyyət göstərən texniki kitabxanaların arxiv fondu təşkil edirdi.

Metodik şö'bənin nəzdində eyni zamanda köməkçi soraq-biblioqrafiya aparatı yaradılmışdı. Buraya kitabxana işinə dair sistemli kartoteka, əlifba kataloqu, şəbəkəyə daxil olan texniki kitabxanaların uçot kartoçkası, kitabxana işçilərinin kartotekası, hər bir kitabxananın ayrılıqda fəaliyyəti ilə əlaqədar qovluqlar və sənədlər toplanmışdı. Şö'bədə fəaliyyət göstərən 3 əməkdaş arasında normativ sənədlərə uyğun dəqiq iş bölgüsü aparılmışdı və onların fəaliyyəti kitabxana rəhbərliyinin nəzarətində idi.

Təəssüflə qeyd etməliyik ki, hələ 30-cu illərdən formalaşmağa başlamış, zəngin ən'ənələrə və mütərəqqi iş üsullarına malik olmuş Respublika Elmi Texniki Kitabxanasının metodik fəaliyyəti hazırda çox zəifləmişdir və günün tələblərinə cavab vermir.

90-cı illərdən başlayaraq respublika sənayesində davam edən böhran, sənaye kompleksinin bir çox müəssisələrinin iflic vəziyyətinə düşməsi əksər texniki kitabxanların dağılmasına səbəb olmuşdur. Bu da öz növbəsində kitabxanaların metodik tə'minatında əvvəllər formalaşmış səmərəli iş üsullarının tədricən zəifləməsinə gətirib çıxarmışdır. Odur ki, müasir dövrdə Respublika Elmi Texniki Kitabxanası öz işini müstəqil Azərbaycan Respublikasının kitabxana işi sahəsindəki vəzifələrinə uyğun qurmağa çalışmalıdır.

### b) Kənd təsərrüfatı kitabxanaları

Mərkəzləşdirmə ilə əlaqədar kitabxanaların, ilk növbədə sahəvi kitabxana şəbəkələrinin metodik tə'minatında baş verən keyfiyyət dəyişiklikləri özünü kənd təsərrüfatı kitabxanalarında da göstərməyə başladı.

80-ci illərin əvvəllərində respublikamızda 45 kənd təsərrüfatı kitabxanası fəaliyyət göstərirdi. Bu kitabxanaların fondunda 2 milyan nüsxəyə yaxın ədəbiyyat və müxtəlif sənədlər var idi. Təkcə 1982-ci ildə Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanası 29 min 902 oxucuya xidmət etmiş, onlara 842 min 775 nüsxə ədəbiyyat vermişdi.[481]

---

[481] İnkişaf etmiş sosializm şəraitində Azərbaycanda əhaliyə kitabxana xidmətinin təşkili (Elmi əsərlərin tematik məcmuəsi). –B., 1983. –S.129.

Qeyd edək ki, 70-ci illərin ikinci yarısı - 80-ci illərin əvvəllərində dövlət kütləvi kitabxanaları və ya EA kitabxana şəbəkələrində formalaşmış mərkəzləşdirilmiş kitabxana sistemləri kənd təsərrüfatı kitabxanalarında yaradılmamışdı və bu sahədə vahid kitab fonduna, metodik prinsiplərə və maddi-texniki bazaya əsaslanan kitabxana kompleksi yox idi. Buna əsas səbəb kənd təsərrüfatı kitabxanalarının respublika ərazisində pərakəndə şəkildə, bir-birindən uzaq məsafədə yerləşməsi, onların müxtəlif idarələrə mənsub olması və müxtəlif mənbələrdən maliyyələşdirilməsi idi. Buna baxmayaraq, kənd təsərrüfatı kitabxanaları şəbəkəsinin metodik tə'minatında mərkəzləşdirmə ünsürləri özünü göstərirdi.

İlk növbədə şəbəkədə mərkəzləşdirilmiş komplektləşdirmə sistemi yaradılmışdı ki, bu da Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanasının şəbəkə üzrə uğurlu metodik fəaliyyətinin nəticəsi idi.

Belə ki, hələ 1976-cı ildə respublika kitabxanasında şəbəkədaxili mərkəzləşdirilmiş komplektləşdirmə siyasətinin konsepsiyası yaradılmış, onun konkret işçi proqramı tərtib edilmişdi. Nəticədə Bakı şəhəri və Abşeron rayonunda fəaliyyət göstərən kənd təsərrüfatı kitabxanaları vahid mərkəzin, yəni Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanasının bilavasitə metodik və təşkilati rəhbərliyi ilə komplektləşdirilirdi. Təkcə 1978-ci ildə respublika kitabxanası digər kənd təsərrüfatı kitabxanalarına 4428 nüsxə yeni ədəbiyyat göndərmişdi. Qeyd edək ki, kitabxanalara göndərilən yeni nəşrlər əvvəlcədən respublika kitabxanasında işlənilir və bölüşdürülürdü. 80-ci illərin sonuna qədər kənd təsərrüfatı kitabxanalarına məhz mərkəzləşdirilmiş qaydada orta hesabla hər il 5000-7500 nüsxə yeni ədəbiyyat göndərilirdi. Bu dövrdə Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanasının metodik fəaliyyətində oxuculara, xüsusilə elmi işçilərə və mütəxəssislərə biblioqrafik informasiya xidmətinin təkmilləşdirilməsi məsələləri ön plana çəkilmişdir. Bu məqsədlə mütəxəssislərə biblioqrafik informasiya xidmətinin təkmilləşdirilməsi, biblioqrafik informasiya ilə əhatə edilən tələbatçıların qruplaşdırılması və s. işlər aparılmışdır. Nəticədə 1982-1990-cı illərdə 3082 fərdi və 1620 kollektiv abonent müntəzəm surətdə kənd təsərrüfatı ədəbiyyatına dair biblioqrafik informasiya ilə tə'min edilmişdir. Bu dövrdə Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanası oxuculara kitabxana xidmətinin səmərəliliyini artırmaq məqsədi ilə kənd təsərrüfatı mütəxəssislərinin informasiya tələbatının müəyyənləşdirilməsi ilə əlaqədar bir sıra sosioloji xarakterli sorğular keçirməyə başlamışdı.

Bu məqsədlə kitabxanada xüsusi sorğu anketləri hazırlanmışdır. Təkcə 1985-ci ildə yerlərə 3636 anket göndərilmiş və alınan təkliflərə əsasən mütəxəssislərin informasiya tə'minatında əsaslı dəyişikliklər edilmiş, onlara göndərilən biblioqrafik bülletenlər mövzu və ədəbiyyatı əhatə baxımından daha məqsədəuyğun tərtib edilmişdir. Bu da öz növbəsində respublika kitabxana-informasiya ehtiyatlarının istifadə səmərəliliyinə müsbət tə'sir göstərmişdir. 1982-1989-cu illərdə kənd təsərrüfatı kitabxanaları şəbəkəsində kitabxanalara gələnlərin sayı 20 faiz, kitab verilişi isə 14 faiz artmışdır.[482] Buna əsas səbəb 1982-ci ildə respublika kitabxanasında oxuculara informasiya xidmətinin metodik tə'minatının formalaşması idi. Bu metodik konsepsiya əsasında 80-ci illərin ikinci yarısında kənd təsərrüfatı mütəxəssislərinə informasiya xidmətinin yeni formaları meydana gəlmişdi. Belə ki, hər il «Yeni kitablar», «Kənd təsərrüfatının iqtisadiyyatı», «Torpaqşünaslıq», «Bitkilərin mühafizəsi», «Heyvandarlıq» mövzuları üzrə müntəzəm surətdə informasiya bülletenləri hazırlanıb elmi-tədqiqat institutlarının kitabxanalarına, təcrübə stansiyalarına və təhsil müəssisələrinə göndərilirdi. Yerlərdə informasiya xidmətinin istifadə səmərəliliyini öyrənmək üçün respublikanın şəhər və rayonlarına hər il 12-15 e'zamiyyə təşkil edilirdi.

Tədqiq edilən illərdə respublikanın kənd təsərrüfatı kitabxanalarının metodik

---

[482] Hesablama Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanasının 1982-1989-cu illərdəki hesabatları əsasında aparılıb.

baxımdan idarə olunmasına, nəzəri-təcrübi konfransların təşkilinə xüsusi əhəmiyyət verilirdi. Özündə çoxsaylı kitabxana işçilərini təmsil edən belə konfranslar əksər hallarda M.F.Axundov adına Dövlət Kitabxanası ilə birlikdə təşkil edilirdi.

1982-ci il mayın 27-28 də təşkil olunmuş Şəki-Zaqatala zona kitabxana işçilərinin «Kənd zəhmətkeşləri arasında kənd təsərrüfatı ədəbiyyatının təbliğində kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında» elmi-əməli konfransında müasir dövrdə kənd təsərrüfatı mütəxəssislərinə kitabxana-informasiya xidmətinin aktual problemləri müzakirə edilmişdir.[483] Konfrans M.F.Axundov adına Dövlət Kitabxanası ilə birlikdə təşkil edilmiş və orada kənd təsərrüfatı kitabxanaları ilə yanaşı, dövlət kitabxanaları da təmsil olunmuşdu. Konfransda çıxış edən Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanasının direktoru O.Məmmədova və M.F.Axundov adına Dövlət Kitabxanası metodik şö'bəsinin müdiri M.Həsənov zonada fəaliyyət göstərən aqrar-sənaye kompleksinə kitabxana xidmətinin vəziyyətini təhlil etmiş, bu işdə qazanılmış nailiyyətləri və qabaqcıl iş təcrübəsini ümumiləşdirərək, kənd təsərrüfatı mütəxəssislərinin kitabxana-informasiya tə'minatındakı mövcud nöqsanların aradan qaldırılmasına xüsusi diqqət yetirmişdilər.

Konfransda mə'lumat verildi ki, 80-ci illərdə respublika kənd təsərrüfatı ədəbiyyatının nəşri yarıtmaz vəziyyətdədir. Dövlət nəşriyyatları M.F.Axundov adına Dövlət Kitabxanasının və Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanasının «Kitabxana seriyası» ilə sifariş verdiyi nəşrləri çap etmir, nəticədə kitabxana fondlarında kənd təsərrüfatı ədəbiyyatı ildən-ilə azalır. Bu da öz növbəsində aqrar-sənaye kompleksində kitabxana-informasiya xidmətinin səmərəsini aşağı salır. Konfransda çıxış edən Zaqatala rayonu Muxax kənd kitabxanasının müdiri C.Məmmədov, Şəki təcrübə stansiyasının kitabxana müdiri S.Orucova və başqaları (cəmi 14 nəfər) zona aqrar-sənaye kompleksində kütləvi peşələrdə çalışan işçilər üçün ədəbiyyatın, eləcə də üzümçülük, meyvəçilik, heyvandarlıq və tərəvəzçilik haqqında ədəbiyyatın, xüsusilə elmi-kütləvi nəşrlərin çox az olduğunu xüsusi qeyd etdilər. Konfransda Şəki istehsalat birliyinin baş mütəxəssisi M.Əliyev, tərəvəzçilik və baramaçılıqla məşğul olan təsərrüfatların nümayəndələri, Şəki Meliorasiya Qurğuları Tikinti İdarəsinin mühəndisi G.Abdullayev və başqaları mütəxəssislərə kitabxana xidmətinin yaxşılaşdırılmasına dair bir sıra əməli təlkiflər irəli sürdülər.

Konfrans kənd təsərrüfatı mütəxəssislərinə kitabxana xidmətinin təkmilləşdirilməsinə yönəlmiş geniş proqram qəbul etdi.

Sonralar belə nəzəri-təcrübi konfranslar Gəncə şəhərində, Qazax, Balakən, Ağdam və Zərdab rayonlarında da təşkil edilmişdi.[484]

80-ci illərin sonu - 90-cı illərin əvvəllərində kənd təsərrüfatı kitabxanalarında çalışan işçilərin peşə səviyyəsinin yüksədilməsi Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanasının metodik fəaliyyətində mühüm yer tuturdu. Bu məqsədlə kitabxanada daim aylıq seminarlar təşkil edilirdi. Seminarların mövzuları əsasən ölkədə baş verən ictimai-siyasi, elmi-mədəni hadisələrə, ərzaq proqramına, kənd təsərrüfatının inkişafına yönəlmiş partiya və dövlət sənədlərinin təbliğinə, eləcə də mühüm kitabxana-biblioqrafiya proseslərinin həyata keçirilməsi ilə əlaqədar məsələlərə həsr olunurdu.

1995-ci ildə Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanasının rəhbərliyi bir ay müddətində kənd təsərrüfatı kitabxanaları işçiləri üçün ixtisasartırma kurslarının təşkil edilməsinə nail olmuş və bu məşğələlərə 24 nəfər kitabxana işçisini cəlb etmişdi. Kurslarda Ə.Vahabzadə, Ş.Axundov, Mədəniyyət Nazirliyi Kitabxana və Muzey İşləri İdarəsinin rəisi K.Tahirov, M.F.Axundov adına Dövlət Kitabxanasının metodistləri, Bakı Dövlət Universiteti kitabxanaçılıq fakültəsinin müəllimlərindən professor Zöhrab Əliyev, dosent Rasim Kazımov, dosent Tacəddin Quliyev, baş müəllim Akif

---

[483] Respublika Elmi Texniki Kitabxanasının 1982-ci il hesabatı: Metodik sənədlər qovluğu.-S.4-16.
[484] Cəfərov A. Müasir dövrdə Azərbaycan SSR-də kənd təsərrüfatı mütəxəssislərinə kitabxana xidmətinin təşkili: Kitabxanaşünaslıq və biblioqrafiya seriyası.-B.1983.-S.133.

Cəfərov və başqaları çıxış etmişdilər.

Ümumiyyətlə, 80-90-cı illərdə Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanasının metodik fəaliyyətini qənaətbəxş saymaq olmaz. Bu fəaliyyət kompleks şəkildə həyata keçirilməmiş, əksər hallarda epizodik xarakter daşımışdır. Çox vaxt metodik fəaliyyətin tətbiq obyekti elmi-tədqiqat və təhsil müəssisələrinin kitabxanaları olmuş və təcrübə stansiyalarının kiçik kitabxanaları faktik olaraq metodik tə'minatdan kənarda qalmışlar.

Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanası öz fəaliyyətinin bütün dövrlərində demək olar ki, maddi-texniki baza baxımından ciddi çətinliklərə və problemlərə mə'ruz qalmış, onun inzibati binası tez-tez dəyişdirilmiş, metodik şö'bənin ştat vahidi bir nəfərdən ibarət olmuşdur.

90-cı illərdə respublikada fəaliyyət göstərən bütün kənd təsərrüfatı kitabxanaları ciddi maddi problemlərlə qarşılaşmış, əksər kitabxanaların maliyyələşdirilməsi dayandırılmış, təcrübə stansiyaları kitabxanaları ləğv edilmişdir.

Son illər Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanasının binası və ümumiyyətlə, maddi-texniki tə'minatı ilə əlaqədar bir sıra ciddi problemlər meydana çıxmış və bütün bunlar kitabxananın əvvəllərdə də zəif şəkildə həyata keçirilən metodik fəaliyyətini yox dərəcəsinə endirmişdir.

### v) Tibb kitabxanaları:

70-ci illərin ikinci yarısında respublikada 146 tibb kitabxanası fəaliyyət göstərirdi. Bu kitabxana şəbəkəsinə 2 respublika, 1 vilayət, 1 şəhər, 12 elmi-tədqiqat, 2 ali məktəb, 12 texnikum və ya orta ixtisas məktəbi, 116 müalicə-profilaktika müəssisəsi kitabxanaları daxil idi.[485]

Tibb kitabxanaları şəbəkəsinə ilk dövrlərdən Respublika Elmi Tibb Kitabxanası metodik rəhbərlik edirdi. Lakin tibb kitabxanaları şəbəkəsinin metodik tə'minatı, qeyd etdiyimiz kimi, uzun illər lazımi səviyyədə qurulmamışdı. Bunun əsas səbəbi respublika kitabxanasının nəzdində müstəqil metodik şö'bənin yaradılmaması idi. Bu baxımdan 1983-cü ildə bir neçə əlamətdar hadisə baş verdi. Belə ki, Respublika Səhiyyə Nazirliyinin qərarı ilə Respublika Elmi Tibb Kitabxanasına yeni bina verildi, kitabxananın nəzdində 4 nəfər işçisi olan metodik şö'bə yaradıldı və özündə 10 filial kitabxananı birləşdirən tibb kitabxanalarının mərkəzləşdirilmiş sistemi yaradıldı.[486]

Tibb kitabxanalarının MKS-i özündə Bakı şəhərində yerləşən 10 iri müalicə-profilaktika müəssisəsinin kitabxanalarını birləşdirirdi. Respublika Elmi Tibb Kitabxanasının nəzdində yaradılmış metodik şö'bə şəbəkə kitabxanalarının metodik tə'minatının yüksəlişinə səbəb oldu. Məhz 1983-cü ildən başlayaraq Azərbaycan tibb kitabxanalarının metodik tə'minatında müasir tələblərə uyğun iş üsulları, mütərəqqi iş formaları tətbiq edilməyə başladı.

Metodik şö'bə fəaliyyətinin ilk aylarında respublika tibb kitabxanalarının fondunun tərkibinə, onların səhiyyə və tibb işçilərinin sorğularına uyğunluğuna xüsusi diqqət yetirirdi. Bu məqsədlə şö'bənin əməkdaşlarından baş kitabxanaçı T.Abdullayeva və böyük kitabxanaçı M.Güləliyeva yeni uçot formaları və digər sənədlər əsasında, oxucular arasında anket sorğusu və şifahi rə'y sorğusu aparmaqla, eləcə də, son beş il ərzində kitab verilişinə dair müvafiq sənədləri təhlil etməklə Pediatriya Elmi Tədqiqat İnstitutu və Həkimləri Təkmilləşdirmə İnstitutu kitabxanalarının fondlarının müxtəlif oxucu qrupları tərəfindən istifadə səmərəliliyini öyrənib maraqlı nəticələr əldə etdilər. Mə'lum oldu ki, müvafiq kitabxanaların fondları oxucuların müasir informasiya tələbatına tam cavab vermir, fondlarda müxtəlif dillərdə köhnəlmiş və istifadə üçün yararsız vəziyyətə düşmüş, eyni zamanda depozitar

---

[485] İsmayılov N. Müasir mərhələdə Azərbaycanda tibb işçilərinə biblioqrafik xidmətin bə'zi məsələləri: (Elmi əsərlər toplusu).-B.,1982.-S.147.

[486] Azərbaycan Dövlət Elmi Tibb Kitabxanası .-B.,1990.-S.3.

fondlara verilməsi zəruri olan xeyli nəşrlər vardır. Kitab fondlarının öyrənilməsindəki təcrübə sonralar Eksperimental Tibb İnstitutunun, Q.Musabəyov adına Virusologiya, Mikrobiologiya və
Gigiyena Elmi Tədqiqat İnstitutunun kitabxanalarında və digər kitabxanalarda tətbiq edildi. Nəticədə 1983-1985-ci illər ərzində bütün iri tibb kitabxanalarının fondunda köhnəlmiş ədəbiyyatdan təmizlənmə işləri və depozitar fondların yaradılması müvəffəqiyyətlə həyata keçirildi.

80-ci illərdə Respublika Elmi Tibb Kitabxanasının fəaliyyətində əvvəllər çox az tətbiq edilmiş yerlərə gedişlər, tibb kitabxanalarının işi ilə tanışlıq, onların işinin təhlili və kitabxana işçilərinin bilavasitə iş prosesində tə'limatlandırılması təcrübəsi genişləndi. Bu məqsədlə metodistlər Respublika kitabxanasının digər işçiləri ilə birlikdə hər il orta hesabla 3-5 dəfə e'zamiyyədə olur və kitabxana işçilərinə əməli köməklik göstərirdilər.

Yerlərə gedişlər zamanı metodik köməkliyin məzmunu yalnız kitabxana işçilərinin tə'limatlandırılmasından ibarət olurdu. Bundan başqa, metodistlər e'zamiyyə dövründə müvafiq ərazidə işləyən tibb və səhiyyə işçiləri ilə görüşüb onlara respublikada fəaliyyət göstərən tibb kitabxanaları şəbəkəsi, həmin kitabxanaların informasiya səviyyələri haqqında mə'lumat verir, oxucular Respublika Elmi Tibb Kitabxanasından KAA yolu ilə müntəzəm surətdə yeni ədbiyyat almaq imkanlarını izah edirdilər.

Belə ki, 1983-1988-ci illərdə e'zamiyyələrin gedişində ayrı-ayrı şəhər və rayon tibb kitabxanaları daxil olmaqla 73 müalicə-profilaktika müəssisəsi nəzdində səyyar kitabxana və kitab verilişi məntəqələri, ayrı-ayrı rayon və şəhərlərdə yaşayan 400-ə yaxın həkim qiyabi yolla abonementdən istifadə etmişdir.[487]

Yerlərə e'zamiyyələr bütün hallarda səhiyyə şö'bələrində geniş müzakirə olunur, tibb kitabxanalarının fəaliyyətinin, maddi-texniki bazasının, komplektləşdirmə vəziyyətinin, bina və avadanlığının, kadr tə'minatının yaxşılaşdırılmasına yönəlmiş tədbirlər müəyyənləşdirilirdi.

80-ci illərdə tibb kitabxanalarının metodik tə'minatında konfrans, müşavirə və seminarların keçirilməsinə xüsusi diqqət yetirilirdi.

1982-ci ilin aprel ayında keçirilən tibb elmi işçilərinin respublika müşavirəsində səhiyyə və tibb sahəsində aparılan elmi tədqiqatların informasiya tə'minatının vəziyyəti kəskin tənqid olunmuş, elmi tədqiqat institutlarında araşdırılan problemlərin dünya ədəbiyyatı üzrə informasiya ilə tə'min edilməsi işindəki ciddi nöqsanlar göstərilmişdi.[488]

Bununla əlaqədar 1983-cü ilin may ayında Respublika Elmi Tibb Kitabxanasında «Tibb üzrə elmi informasiya və kitabxana-biblioqrafiya xidmətinin vəziyyəti və təkmilləşdirilməsi tədbirləri haqqında» mövzusunda keçirilmiş elmi konfransın böyük əhəmiyyəti oldu.

Konfransda çıxış edən Respublika Elmi Tibb Kitabxanası metodik şö'bəsinin müdiri L.Selinskaya, Respublika Səhiyyə Nazirliyinin elmi-tibb mə'lumatı şö'bəsinin müdiri, tibb elmi tədqiqat institutları kitabxanalarının rəhbərləri Azərbaycanda tibb işçilərinə kitabxana-informasiya xidmətinin vəziyyətinin təkmilləşdirilməsi, kitabxana xidmətinin optimallaşdırılması ilə əlaqədar bir sıra təşkilati-metodik tövsiyələr irəli sürdülər. Konfrans səhiyyə və tibb sahəsində çalışan elmi işçi və mütəxəssislərin informasiya tələbatının öyrənilməsi məqsədi ilə sosioloji tədqiqatların və anket sorğularının aparılması, kitabxanalarda soraq informasiya fondlarının təşkili, alimlərə informasiyanın operativ verilməsi, biblioqrafik mə'lumat sisteminin tətbiqi və nəhayət, bu işin tibb kitabxanaları sistemində vahid metodika əsasında informasiya or-

[487] Respublika Elmi Tibb Kitabxanasının 1983-1988-ci il hesabatları / Tibb kitabxanaları işçiləri üçün keçirilən seminarın materialından.
[488] Kommunist.- 1982.-30 aprel.

qanları ilə əlaqələndirilmiş şəkildə həyata keçirilməsi məsələlərinə yönəlmiş konkret proqram müəyyənləşdirdi.[489] Konfransın tövsiyələri respublika kitabxanası tərəfindən nəzarətə götürüldü və sonrakı 2-3 il ərzində tibb müəssisələrinin kitabxana informasiya tə'minatında əsaslı dönüş yaradıldı. Səhiyyə və tibb müəssisələri işçiləri, xüsusən elmi-tədqiqat müəssisələrində çalışan alimlər vaxtlı-vaxtında dünya tibb elminin nailiyyətlərini əks etdirən operativ informasiya ilə tə'min olunmağa başladılar.

1981-ci ildə Respublika Elmi Tibb Kitabxanasının metodik şö'bəsi «Respublika Elmi Tibb Kitabxanasının fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi yolları" mövzusunda nəzəri-təcrübi konfrans təşkil etdi. Konfransda digər mə'ruzələrlə yanaşı, «Metodik işin keyfiyyəti və səmərəliliyi» mövzusunda mə'ruzə də dinlənildi.[490]

Mə'ruzədə tibb kitabxanaları şəbəkəsinin metodik tə'minatının mühüm istiqamətləri, forma və metodların səmərəliliyi və operativliyi, qabaqcıl iş təcrübəsinin təbliği, kitabxanaların fəaliyyətinin dərindən öyrənilməsi və təhlili, respublika kitabxanasında metodik nəşrlər fondunun zənginləşməsi, metodkabinənin işinin yenidən təşkili və s. məsələlər geniş müzakirə obyekti oldu.

Konfransda çıxış edən kitabxana işçiləri respublika kitabxanası tərəfindən tərtib edilən metodik vəsaitlərin daha aktual problemləri, o cümlədən, kitabxana proseslərinin standartlaşdırılmasına, kitabxanaların elmi informasiya fəaliyyətinin optimal təşkilinə həsr edilməsi zərurətini xüsusi vurğuladılar. Eyni zamanda metodik fəaliyyətə qabaqcıl kitabxana işçilərinin, təcrübəli metodistlərin cəlb edilməsi təklifini dəfələrlə səsləndirdilər. Konfransda Respublika Elmi Tibb Kitabxanasının metodik fəaliyyətinin yaxın gələcəkdə yeni vəzifələrə uyğun qurulmasına dair perspektiv plan müzakirə edildi.

80-ci illərdə Respublika Elmi Tibb Kitabxanası tərəfindən kitabxana işinin aktual problemlərinə həsr edilmiş nəzəri-təcrübi konfranslar təkcə Bakı şəhərində deyil, yerlərdə də təşkil edilirdi. Bu baxımdan 1986-1987-ci illərdə Xankəndi (Stepanakert), Dəvəçi və Naxçıvanda yerli tibb kitabxanalarının bazasında keçirilən konfransların işi maraq doğurur.[491]

Xankəndi şəhərində keçirilmiş konfrans Dağlıq Qarabağ Muxtar Vilayətində tibb işçilərinə kitabxana xidmətinin vəziyyəti və onun yaxşılaşdırılması tədbirlərinə həsr olunmuşdu. Konfransda kitabxana işçiləri ilə yanaşı, 40 nəfərdən çox səhiyyə və tibb işçisi də iştirak edirdi. Tədbirdə Respublika Elmi Tibb Kitabxanası metodik şö'bəsinin müdiri L.Selinskaya, kitabxanın xarici ədəbiyyat şö'bəsinin müdiri L.Yermolova və Dağlıq Qarabağ Muxtar Vilayəti Elmi Tibb Kitabxanasının direktoru səhiyyə və tibb sahəsində çalışan mütəxəssislərə kitabxana- informasiya xidmətinin vəziyyətindən və onun təkmilləşdirilməsi problemlərindən ətraflı danışdılar. Konfransda səhiyyə və tibb işçiləri də çıxış edərək, onlara kitabxana xidmətindəki nöqsanlardan, bu sahədə kitabların və digər informasiyanın qıtlığından söz açdılar. Belə tədbir göstərdi ki, vilayətdə mövcud kitabxana fondlarından lazımi səviyyədə istifadə edilmir, səhiyyə və tibb problemləri ilə əlaqədar qiymətli nəşrlər uzun illərdən bəri istifadəsiz qalmışdır, ədəbiyyatın kataloqlaşdırılması və təbliği yarıtmaz vəziyyətdədir, istər Vilayət Kitabxanasında və istərsə də Vilayət Elmi Tibb Kitabxanasında tibb ədəbiyyatının təbliğinə dair tə'sirli tədbirlər həyata keçirilmir. Respublika kitabxana kollektoru tərəfindən Vilayət Tibb Kitabxanasına göndərilən rus və Azərbaycan dillərində tibbə dair yeni elmi kütləvi nəşrlər aylarla işlənilmir və həmin nəşrlər haqqında səhiyyə və tibb ictimaiyyətinə heç bir informasiya verilmir.

Konfransın sonunda Dağlıq Qarabağ Muxtar Vilayətində səhiyyə və və tibb

---

[489]Respublika Elmi Tibb Kitabxanasının arxivi: Elmi metodik şö'bənin 1983-cü il müşavirə və konfranslarının qovluğu.-S.32-36.

[490] Respublika Elmi Tibb Kitabxanasının arxivi: Elmi-metodik şö'bənin hesabatı.-S.12-14.

[491] Respublika Elmi Tibb Kitabxanasının arxivi: metodik şö'bənin 1986-cı il hesabatı.-S.8-10; 1987-ci il hesabatı.-S.7-9.

sahəsində çalışan mütəxəssislərə kitabxana-informasiya xidmətinin təkmilləşdirilməsinə yönəlmiş kompleks proqram təsdiq edildi.

Dəvəçi rayonunda və Naxçıvan şəhərində keçirilmiş tədbirlər oxucu konfrasları adlandırılırdı. Bu konfransların məqsədi geniş tibb ictimaiyyəti ilə birlikdə kitabxana xidmətinin vəziyyətini təhlil etmək, bu sahədə mövcud nöqsanları aradan qaldırmaq idi. Hər iki konfransda Respublika Elmi Tibb Kitabxanasının elmi işlər üzrə direktor müavini Z.Əzimova və metodik şö'bənin baş kitabxanaçı-metodisti M.İmaməliyeva müasir dövrdə səhiyyə və tibb işçilərinə kitabxana-informasiya xidmətinin vəzifələri, bu sahədə yerlərdə görülən işlərin vəziyyəti barəsində mə'ruzə etdilər. Konfranslarda çıxış edən səhiyyə və tibb müəssisələri nümayəndələri, xüsusən müalicə-profilaktika müəssisələrində çalışan fəal oxucular kitabxanaların fondlarında olan tibb ədəbiyyatı qıtlığından və tibb-sağlamlıq məsələlərinə dair elmi-kütləvi ədəbiyyatın qeyri-qənaətbəxş olmasından gileyləndilər.

Dəvəçi rayonunda keçirilən konfransda mə'lum oldu ki, oxucuların əksəriyyətinin kitabxana-biblioqrafiya biliklərinin səviyyəsi olduqca aşağıdır. Məsələn, KAA xidməti və onun imkanları haqqında onların təsəvvürləri belə yox idi. Oxucuların çoxu kataloqlardan, biblioqrafik vəsaitlərdən və kartotekalardan istifadə etmək, lazımi ədəbiyyatı axtarıb tapmaq vərdişlərinə malik deyildilər. Qiyabi abonement haqqında verilmiş arayış da onlar üçün tamamilə yeni bir məsələ idi.

Qeyd etmək lazımdır ki, Respublika Elmi Tibb Kitabxanası tərəfindən təşkil edilmiş və tibb ədəbiyyatının təbliğinin genişləndirilməsinə yönəlmiş oxucu konfransları ümumiyyətlə, kitabxana işinin metodik tə'minatı sahəsində tamamilə yeni və orijinal iş üsulu idi. Bu cür konfrasların fəal oxucularla birgə keçirilməsi, kitabxanaların fəaliyyətinin qiymətləndirilməsində oxucuların rə'ylərinin öyrənilməsi və nəzərə alınması metodik fəaliyyəti daha konkret və məqsədyönlü həyata keçirmək üçün şərait yaradırdı. Bundan başqa, belə oxucu konfransları əhalinin, xüsusən fəal oxucuların kitabxana-biblioqrafiya biliklərinin zənginləşməsinə, onların KAA və qiyabi abonement xidmətindən istifadə etməsinə müsbət tə'sir göstərirdi.

80-ci illərin sonunda Respublika Elmi Tibb Kitabxanasının metodik fəaliyyətində mütərəqqi iş üsulu kimi özünü doğrultmuş belə konfranslar Gəncədə, Mingəçevirdə, Sumqayıtda, Əli Bayramlıda və başqa şəhərlərdə təşkil olunmuşdu.

Təsadüfi deyil ki, 80-ci illərin sonu - 90-cı illərin əvvəllərində Respublika Elmi Tibb Kitabxanasından qiyabi abonement vasitəsi ilə 600-ə yaxın həkim və tibb işçisi istifadə edirdi.[492] Bu isə respublikada müvafiq xidmət sahəsində ən yüksək göstərici idi.

80-ci illərdə Elmi Tibb Kitabxanasının təşkilati-metodik fəaliyyətində kitabxana işçilərinin peşə biliklərinin sistemli şəkildə yüksəldilməsinə üstünlük verilirdi. Bu iş əvvəlcədən planlaşdırılmış aylıq seminarlarda, qısamüddətli kurslarda və praktikumların təşkilində öz əksini tapırdı. Aylıq seminarlara bir qayda olaraq kitabxana müdirləri, kurslara və praktikumlara isə sıravi əməkdaşlar də'vət edilirdilər. Məsələn, 1988-ci ildə aylıq seminarlarda aşağıdakı məsələlər müzakirə edilmişdir: [493]

-kitabxanalarda planlaşdırma, uçot və hesabat işləri;
-kitabxanalarda əməyin elmi təşkili;
-mühüm kitabxana proseslərinə dair standartlar;
-kitabxanalarda oxuculara elmi-informasiya xidməti;
-kitabxanalarda pullu xidmətə dair Rusiya təcrübəsi;
-kitabxana fondunun istifadəsinin öyrənilməsi;
-kitabxana fondlarının formalaşması və mühafizəsi;
-kitabxanalarda cari nəşrlərin icmalı;

---

[492] Azərbaycan Respublikası Elmi Tibb Kitabxanası.-B.,1990.-S.3.

[493] Azərbaycan Respublikası Elmi Tibb Kitabxanasının arxivi. Metodik şö'bənin 1988-ci ilə dair hesabat sənədləri (İxtisasartırma qovluğu).

-müalicə müəssisələrində biblioqrafik işin təbliği;

Respublika Elmi Tibb Kitabxanasında təşkil edilən qısamüddətli kurslar ilk növbədə kitabxanaçılıq təhsili olmayan işçilər üçün nəzərdə tutulurdu. Həmin dövrdə belə işçilərin sayı şəbəkə üzrə təxminən 75 nəfər idi. Bu kurslarda metodistlər kitabxana işçilərinə əsasən kitabxana texnologiyası üzrə mə'lumat verir, ayrı-ayrı iş prosesləri (oxucu formulyarlarının doldurulması, kitabların ilkin işlənilməsi, çap əsərlərinin biblioqrafik təsviri, kitab verilişinin sənədləşdirilməsi, kataloq və kartoteka sistemlərindən istifadə edilməsi və s.) üzrə təcrübi məşğələlər keçirdilər.

Ümumiyyətlə, 1983-1989-cu illərdə kitabxana işçiləri üçün hər il 4-6 qısamüddətli kurslar və praktik məşğələlər keçirilmişdir.[494]

80-ci ilərin sonunda Respublika Elmi Tibb Kitabxanasının metodik fəaliyyətində kitabxana işçiləri üçün işgüzar oyunların təşkili də tədricən genişlənirdi.

Qeyd etmək lazımdır ki, Respublika Elmi Tibb Kitabxanasında yazılı metodik sənədlərin hazırlanması geniş tətbiq olunmamışdır. Buna əsas səbəb çoxaldıcı və surətçıxarma texnikasının yoxluğu idi. Elmi Tibb Kitabxanası SSRİ-nin Mərkəzi Tibb Kitabxanasının metodik vəsaitlərini geniş yayır, kitabxana işçilərini mütərəqqi iş formaları ilə tanış edirdi. Bununla yanaşı, metodik şö'bə tərəfindən hər il tibb kitabxanalarının illik fəaliyyətini təhlil edən icmallar hazırlanırdı. Belə icmallar əsasən iki istiqamətdə tərtib edilirdi; «İllər üzrə elmi tədqiqat institutlarının kitabxanalarının fəaliyyəti», «Tibb təhsil müəssisələri kitabxanalarının icmalı». Bu materiallar əsasən 1984-1989-cu illərdə nəşr edilmişdir. İcmallarda müvafiq il ərzində kitabxana şəbəkəsində oxuculara xidmətin əsas istiqamətləri: kitab verilişi, oxucularla iş, mə'lumat-biblioqrafiya və elmi informasiya xidməti, fondun artımı, kataloqlarla iş və s. işlər, əldə olunmuş nailiyyətlər və nöqsanlar təhlil edilirdi.

80-ci illərdə respublikanın tibb kitabxanalarının metodik tə'minatının vəziyyətini təhlil edərkən təəssüflə qeyd etməliyik ki, bu dövrdə tədricən formalaşan və sistemli fəaliyyətə çevrilən bu iş gözlənilmədən nəzərəçarpan dərəcədə zəifləməyə başladı. Belə ki, 1992-ci ilin ortalarında Respublika Elmi Tibb Kitabxanasının binası o dövrün səriştəsiz rəhbərlərinin əli ilə alınıb ABŞ-ın Azərbaycandakı səfirliyinə verildi. Kitabxana isə tamamilə yararsız, darısqal bir binaya - keçmiş «Tibb işçiləri evi»nin bir mərtəbəsinə köçürüldü. Hazırda həmin binada yerləşən Respublika Elmi Tibb Kitabxanasının lazımi fəaliyyəti üçün imkanlar olduqca məhduddur. Bundan başqa, son illər meydana çıxan çətinliklər, getdikcə zəifləyən maddi-texniki baza kitabxananın normal fəaliyyətində, o cümlədən, metodik işdə ciddi problemlər yaradır.

### *4.4. Həmkarlar İttifaqı kitabxanalarının metodik tə'minatı*

70-ci illərin ikinci yarısında Respublika Həmkarlar İttifaqı kitabxana şəbəkələrinin işində də xeyli irəliləyiş hiss olunurdu. Bu irəliləyiş Həmkarlar İttifaqı Kitabxana şəbəkələrində son illər ərzində formalaşmış mütərəqqi metodik tə'minat sistemində də özünü göstərirdi.

1976-cı il sentyabrın 3-də Azərbaycan Həmkarlar İttifaqı Şurası (AHİŞ) «Zəhmətkeşlərə kitabxana xidmətinin yaxşılaşdırması və AHİŞ kitabxanalarının mərkəzləşdirilməsi haqqında» qərar qəbul etmişdi.[495] Həmin qərara müvafiq olaraq respublikada ümumi fondu 3 milyon nüsxədən artıq olan 300 həmkarlar ittifaqı kitabxanasını birləşdirən 8 mərkəzləşdirilmiş kitabxana sisteminin yaradılmasına başlanıldı və bu iş 1978-ci ilin sonunda başa çatdırıldı.[496]

1979-cu ildə respublikada fəaliyyət göstərən Həmkarlar İttifaqı kitabxanaları aşağıdakı metodik mərkəzlərdə birləşdirilirdi:

---

[494] Respublika Elmi Tibb Kitabxanasının arxivi 1983-1989-cu il hesabatları.-S.3-9.

[495] İ.M.Qubkin adına Respublika Həmkarlar İttifaqı baza kitabxanasının arxivi 1976-cı il. Mərkəzləşdirməyə dair materiallar qovluğu.-S.3-6.

[496] Yenə orada.

Qubkin adına Respublika Həmkarlar İttifaqı Mərkəzi Baza Kitabxanası;
Aşıq Ələsgər adına mədəniyyət sarayının ittifaqlararası mərkəzi kitabxanası;
İliç adına Mədəniyyət sarayının ittifaqlararası mərkəzi kitabxanası;
Suraxanı rayon Mədəniyyət sarayının ittifaqlararası mərkəzi kitabxanası;
Dəmiryol işçiləri Həmkarlar İttifaqı mərkəzi kitabxanası;
Xəzər dənizçiləri Mədəniyyət sarayının mərkəzi kitabxanası;
Sumqayıt Sənaye işçiləri Həmkarlar Təşkilatının mərkəzi kitabxanası;
Gəncə Alimlər evinin Mərkəzi Həmkarlar İttifaqı kitabxanası;[497]

Metodik mərkəz statusu almış üç kitabxanada - Qubkin, Aşıq Ələsgər və İliç adına kitabxanalarda metodik şö'bələr yaradılmışdı və onlar metodik tə'minat sahəsində aparıcı kitabxanalar sayılırdılar. İ.Qubkin adına kitabxana isə ən'ənəvi olaraq Həmkarlar İttifaqı kitabxanaları üçün baş metodik və əlaqələndirici mərkəz rolunu oynayırdı. Həmkarlar İttifaqı kitabxana şəbəkəsində mərkəzləşdirmə prosesi başa çatdırıldıqdan sonra onların metodik tə'minatında bir sıra qabaqcıl iş üsulları tətbiq edilməyə başlanmışdı.

70-ci illərin sonu - 80-ci illərin əvvəllərində Respublika Həmkarlar İttifaqı kitabxanalarının metodik tə'minatı ilə məşğul olan baza kitabxanalarının fəaliyyəti aşağıdakı istiqamətlərdə həyata keçirilirdi:

Baza kitabxanaları əhaliyə kitabxana xidmətinin təşkili üzrə müvafiq Həmkarlar İttifaqı mərkəzləşdirilmiş kitabxana sisteminin vahid planını tərtib edir, bu planın həyata keçirilməsini təmin edirdi:

Bu baxımdan Qubkin adına, Aşəq Ələsgər adına baza kitabxanalarında tərtib edilmiş kitabxana xidmətinin vahid planları xüsusilə fərqlənirdi. Məsələn, Qubkin adına baza kitabxanasının 1985-ci il üçün şəbəkənin vahid planının sxemini nəzərdən keçirək:

**-Gari ildə Həmkarlar İttifaqı kitabxanalarının əsas vəzifələri;**

**-Planın mühüm miqdar göstəriciləri;**

**-Kitabxana xidmətinin təşkili.** Əmək kollektivlərində xidmət, abonement və oxu zalında xidmətin təşkili; briqada abonementi, səyyar kitab verilişi məntəqələri; KAA yolu ilə və s. oxucularla işin məzmunu və təşkili; oxucu qruplarının müəyyənləşdirilməsi və onların tələbatının öyrənilməsi; elmi-texniki tərəqqinin nailiyyətlərinin təbliği; qabaqcıl istehsalat təcrübəsinin təbliği; mə'nəvi tərbiyə, Həmkarlar İttifaqı fəallarına kitabxana xidmətinin təşkili; kitabxana xidmətinin müəssisənin texnoloji prosesi ilə əlaqəndirilməsi.

**-Soraq-biblioqrafiya və informasiya işləri; vahid fondun komplektləşdirilməsi və təşkili:**

a) komplekləşdirmənin büdcə məsələləri; b) vahid fondun istifadəsinin öyrənilməsi və təhlili; v) komplektləşdirmənin tematik-tipoloji planının əsas bölmələri; q) vahid fonddan köhnəlmiş və istifadə edilməyən ədəbiyyatın çıxarılması; ğ) kataloqlarla iş, KBT-nin tətbiqinin davam etdirilməsi.

**-Kitabxana şəbəkəsinin idarə edilməsi, maddi texniki baza:**

a) istehsalat müşavirələri; b) kitabxana şurasının fəaliyyəti; v) yeni avadanlığın əldə edilməsi, tə'mir və digər təsərrüfat işləri.

**-Təşkilati-metodik işlər:**

a) Həmkarlar İttifaqı Rəyasət Hey'əti, katiblik və komitənin müzakirəsi üçün hazırlanacaq məsələlər; b) kitabxanalara metodik köməkliyin əlaqələndirilməsi; v) metodik fəaliyyətin əsas formaları; q) metodik işləmələr; ğ) qabaqcıl təcrübənin öyrənilməsi və təbliği; d) kənd kitabxanalarına hamilik.[498]

---

[497] Quliyev T.F. Sovet Azərbaycanında Həmkarlar İttifaqı kitabxana şəbəkəsinin inkişafı // Elmi əsərlərin mövzu toplusu.-Bakı, 1991.-S.27.

[498] İ.Qubkin adına Respublika Həmkarlar İttifaqı baza kitabxanasının arxivi. 1985-ci ilin planı.

**Nəticə:**

Baza kitabxanaları şəbəkəsinə daxil olan kitabxanaları müvafiq metodik materiallarla tə'min etmək. Bu məqsədlə baza kitabxanalarının metodik şö'bələri tə'limati-metodik materiallar tərtib edir və digər metodik mərkəzlərdən alınan kiçik həcmli metodik tövsiyələri çoxaldıb şəbəkədaxili kitabxanalara göndərirdilər. Qeyd edək ki, bu iş baza kitabxanalarında o qədər də səmərəli təşkil edilməmişdi. Buna əsas səbəb müvafiq texniki vəsaitlərin olmaması idi. Azərbaycanda bu fəaliyyət növü ilə yalnız Qubkin adına baza kitabxanası məşğul olurdu.

80-ci illərdə kitabxana tərəfindən aşağıdakı metodik materialların tərtib edilməsi müəyyənləşdirilmişdir:

1.Həmkarlar İttifaqı kitabxanalarında briqada abonementlərinin tərtibi qaydaları (1982, 12 s.);

2.Həmkarlar İttifaqı kitabxanalarında kütləvi tədbirlərin təşkili (1984, 16 s.);

3.Həmkarlar İttifaqı kitabxanalarının elmi-texniki kitabxanalarla birgə fəaliyyəti (1985);

4.Həmkarlar İttifaqı kitabxanalarında oxucu fəalları ilə iş (1984,8 s.);

5.Həmkarlar İttifaqı kitabxanalarında fondun uçotu (1985);

6.Həmkarlar İttifaqı kitabxanalarından köhnəlmiş və oxucular tərəfindən istifadə edilməyən ədəbiyyatın təmizlənməsi (1988);

7.Həmkarlar İttifaqı kitabxanalarında diyarşünaslıq və hərbi vətənpərvərlik ədəbiyyatının təbliği (1989, 14 s.).[499]

80-ci illərdə baza kitabxanalarının çox mühüm fəaliyyət istiqamətlərindən biri də kitabxana işçilərinin peşə səviyyəsinə yönəlmiş tədbirlərin həyata keçirilməsindən ibarət idi. Bu məsələ ilə əlaqədar qeyd etməliyik ki, 1980-ci ildən başlayaraq Respublikada Həmkarlar İttifaqı kitabxana işçilərinin ixtisasartırma işləri AHİŞ tərəfindən mərkəzləşdirilmiş qaydada həyata keçirilirdi. Belə ki, həmin il Həmkarlar İttifaqı sahəsində çalışan bütün işçilərin peşə səviyyəsinin artırılması üçün xüsusi tədris mərkəzi istifadəyə verilmişdi. Burada sistemin digər işçiləri ilə yanaşı, kitabxana işçiləri üçün də 3 ayda bir dəfə Azərbaycan və rus dillərində aylıq ixtisasartırma kursları təşkil edilirdi. Kursların proqramı Qubkin adına kitabxananın metodik şö'bəsi tərəfindən tərtib edilir, onun fəaliyyətinə ümumi nəzarəti AHİŞ-in mədəniyyət şö'bəsi edirdi. İxtisasartırma proqramının məzmunu dövrün kitabxanalar qarşısında qoyduğu vəzifələrlə sıx surətdə əlaqələndirilirdi. Proqramda müəyyən edilmiş mövzulara bunları misal göstərmək olar:

-Həmkarlar İttifaqı kitabxanalarının elmi-texniki tərəqqidə iştirakı;

-Həmkarlar İttifaqı kitabxanalarının elmi-informasiya fəaliyyəti;

-Həmkarlar İttifaqı kitabxanalarında əməyin elmi təşkili;

-Həmkarlar İttifaqı kitabxanalarının istehsalata köməyi;

-Həmkarlar İttifaqı kitabxanalarında istehsalat qabaqcıllarının iş təcrübəsinin təbliği;

-Həmkarlar İttifaqı kitabxanalarının müəssisə elmi-texniki kitabxanaları ilə birgə fəaliyyəti və s.[500]

1980-1988-ci illərdə mərkəzləşdirilmiş qaydada təşkil edilmiş kurslarda 500-dən artıq kitabxana işçisi iştirak etmişdir. Bu, o deməkdir ki, həmin dövrdə Həmkarlar İttifaqı kitabxanalarının hər bir işçisi həmin kurslarda təqribən 2 dəfə iştirak etmişdir.[501]

Mərkəzləşdirilmiş qaydada təşkil edilmiş ixtisasartırma kursları ilə yanaşı, baza kitabxanalarında və xüsusən İliç adına, Qubkin adına və Aşıq Ələsgər adına baza ki-

---

[499] İ.Qubkin adına Respublika Həmkarlar İttifaqı baza kitabxanasının arxivi: Metodik işlər qovluğu. 1982-1989-cu illər.

[500] İ.Qubkin adına Respublika Həmkarlar İttifaqı baza kitabxanasının arxivi. Kitabxana işçilərinin ixtisasartırma qovluğu.

[501] Yenə orada.

tabxanalarında müvafiq kitabxana şəbəkəsinin işçiləri üçün də kurslar təşkil edilirdi. Bundan başqa, baza kitabxanalarında Həmkarlar İttifaqı kitabxanalarının aktual problemləri ilə əlaqədar metodik müşavirələr və konfranslar təşkil edilirdi. Belə tədbirlərə respublikanın tanınmış kitabxanaşünasları T.Quliyev, R.Kazımov, E.Bədəlov, M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının, Respublika Elmi Texniki və EA Mərkəzi Elmi Kitabxanasının əməkdaşları cəlb edilirdilər.

Aşıq Ələsgər adına baza kitabxanasında təşkil edilmiş müşavirə seminarlara bunları misal göstərmək olar:

-«Müasir mərhələdə Həmkarlar İttifaqı kitabxanalarının əhalinin mə'nəvi tərbiyəsində iştirakı» (1978);

-«Kitabxana işi haqqında əsasnamə» (1984);

-«Həmkarlar İttifaqı kitabxanalarında gənc fəhlələrə xidmət işinin təşkili» (1985);

-«Həmkarlar İttifaqı kitabxanalarında briqada abonementi» (1985);

-«Həmkarlar İttifaqı kitabxanalarının kütləvi kitabxanalarla əlaqəli fəaliyyəti» (1986);

-Həmkarlar İttifaqı kitabxanalarının fəaliyyətinin demokratikləşdirilməsi məsələləri (1988);

-istehsalat kollektivlərinin kitabxana-informasiya tə'minatında elmi-texniki və Həmkarlar İttifaqı kitabxanalarının fəaliyyəti (1989).[502]

Respublika Həmkarlar İttifaqı kitabxanalarının metodik tə'minatının qısa təhlilini yekunlaşdırarkən qeyd etmək istərdik ki, 90-cı illərdə baş verən mə'lum hadisələr, sənayedə hökm sürən böhran vəziyyəti, digər sosial-iqtisadi çətinliklər başqa kitabxana şəbəkələri ilə müqayisədə Həmkarlar İttifaqı kitabxanalarına öz mənfi tə'sirini daha çox göstərmişdi.

Zəngin mütərəqqi ən'ənələrə, respublikanın kitabxana sistemində özünəməxsus mövqeyə, 80-ci illərin sonunda 4 milyon nüsxədən artıq kitab fonduna, 800 mindən çox oxucuya malik olan 326 kitabxanadan ibarət Həmkarlar İttifaqı kitabxana şəbəkəsi 90-cı illərdə çox sür'ətlə zəiflədi. Bu dövrdə demək olar ki, istehsal müəssisələrində olan Həmkarlar İttifaqı kitabxanaları öz fəaliyyətlərini dayandırdılar. Onların zəngin fondları isə lazımi nəzarət olmadığından dağıdılmış və istifadəsiz qalmışdır. Bir çox kitabxanalar maliyyə çatışmazlığı ucundan yararsız hala düşmüşdür.

Həmkarlar İttifaqı kitabxanalarının tədqiqatçısı T.Quliyevin qeyd etdiyi kimi, «Bütün bunlar onu təsdiqləyir ki, respublikamızda bütün sahələrdə canlanma və dəyişiklik baş versə də, Həmkarlar İtifaqı kitabxanalarına laqeyd münasibət hələ də qalmaqdadır».[503]

* * *

Azərbaycanda kitabxanaların mərkəzləşdirilməsi və sonrakı illərdə kitabxana şəbəkələrinin metodik tə'minatının vəziyyətinin təhlili göstərir ki, bu dövrdə ölkənin bir sıra kitabxana şəbəkələrində metodik mərkəzlər çoxcəhətli və əsasən səmərəli fəaliyyət göstərmişdir. Bu dövrdə xüsusilə Elmlər Akademiyası, elmi-texniki, uşaq və məktəb kitabxanalarının metodik tə'minatında bir sıra orijinal, dövrün tələblərinə uyğun mütərəqqi iş üsulları tətbiq edilmiş, nəticədə müvafiq kitabxana sistemlərində kitabxana xidməti sahəsində nəzərə çarpan nailiyyətlər qazanılmışdır.

Bununla yanaşı, sahəvi kitabxana şəbəkələrinin metodik tə'minatı peşəkarlıq keyfiyyəti baxımından lazımi səviyyədə inkişaf edib təkmilləşdirilmişdir. Təsvirçilik, şablon və trafaret üsullardan kənara çıxmaq halları, demokratik və yaradıcı fəaliyyət kitabxanaların metodik tə'minatında olduqca az nəzərə çarpırdı. Bu baxımdan tibb,

---

[502] Aşıq Ələsgər adına baza kitabxanasının arxivi. «Müşavirələr materialları» qovluğu. 1978-1990-cı illər.

[503] Quliyev T.F. Müasir dövrdə Azərbaycanda Həmkarlar İttifaqı kitabxanalarının vəziyyəti // Kitabxanaşünaslıq və biblioqrafiya ser.,1997.-№1.-S.73.

kənd təsərrüfatı, ali təhsil müəssisələri kitabxanalarının metodik tə'minatı sistemli və səmərəli fəaliyyət kimi formalaşa bilməmişdir.

90-cı illərdə respublikada baş verən sosial-siyasi və iqtisadi dəyişmələr və çətinliklər kitabxana şəbəkələrini, o cümlədən, onların metodik tə'minat sistemini böhran vəziyyətinə salmış, əhaliyə kitabxana xidmətinin səmərəliliyini ciddi surətdə azaltmışdır.

Azərbaycanda kitabxanaların metodik tə'minatının yaradıcı fəaliyyət kimi qarşısında dayanan konkret vəzifələr, müstəqil Azərbaycan Respublikasının tərəqqisi naminə gələcək inkişafının optimallaşdırılması problemləri tədqiqatın sonuncu fəslində işıqlandırılır.

# V FƏSİL

# KİTABXANA İŞİNİN METODİK TƏ'MİNAT SİSTEMİNİN YENİLƏŞMƏSİ VƏ TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

## *5.1. Kitabxana işinin metodik tə'minat sistemində məqsədli proqramlaşdırma istiqamətinin formalaşması*

1991-ci ildə Azərbaycan Respublikasının müstəqilliyinin yenidən bərpası xalqımızın tarixində çox mühüm hadisə oldu. Bir sıra çətinliklərə baxmayaraq, müstəqillik, Azərbaycanın sosial-iqtisadi tərəqqisi, əhalinin mədəni-mə'nəvi və intellektual inkişafı üçün geniş imkanlar açmaqdadır. Artıq ölkəmizdə demokratik proseslərin dərinləşməsi, hüquqi dövlət qurmaq istiqamətində həyata keçirilən tədbirlər müasir dövrün reallıqlarıdır.

Belə tədbirlər sistemində xalqın mədəni və intellektual səviyyəsinin durmadan yüksəldilməsi, cəmiyyətin informasiyalaşdırılması müasir dövrün ən aktual problemlərindəndir. Bu problemlərin həlli üçün digər sosial qurumlarla yanaşı, kitabxanaların da qarşısında çox mühüm və keyfiyyətcə yeni vəzifələr durur. Bu vəzifələr ilk növbədə 1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasında bəyan edilən «Hər kəsin mədəni həyatda iştirak etmək, mədəniyyət tə'sisatlarından və mədəni sərvətlərdən istifadə etmək» (maddə 40) və «Hər kəsin istədiyi mə'lumatı qanuni yolla axtarmaq, əldə etmək, ötürmək, hazırlamaq və yaymaq» (maddə 50)[504] hüquqları və azadlıqlarının tə'min edilməsində kitabxanaların rolu və əhəmiyyəti müəyyənləşdirilir.

Kitabxanalara verilən mühüm sosial tələblər 1998-ci ildə Milli Məclis tərəfindən qəbul edilmiş «Kitabxana işi haqqında Azərbaycan Respublikasının qanunu»[505]nda da öz əksini tapmışdır. Qanunda göstərilir ki, cəmiyyətdə «kitabxana fəaliyyətinin əsas istiqamətləri sənəd-informasiya fondlarının formalaşmasından, mühafizəsindən və bu materialların hüquqi və fiziki şəxslərə istifadəyə verilməsindən, kitabxanalarda toplanıb saxlanılan informasiya vasitələrinin mübadiləsinə imkan verən vahid informasiya məkanının yaradılmasından ibarətdir».[506]

Heç şübhə yoxdur ki, müasir kitabxana dünyada baş verən dinamik informasiya proseslərinin ayrılmaz, üzvi bir sahəsi kimi əvvəlki illərə nisbətən indi daha mürəkkəb sosial-humanitar və elmi texniki vəzifələri yerinə yetirməlidir. Bütün bunlar cəmiyyətdə kitabxanaçılıq fəaliyyətinin təşkili və idarə olunmasının metodik tə'minatının yeni konsepsiyalarının yaradılması zərurətini qarşıya qoyur.

Mə'lumdur ki, hazırda Azərbaycanda kitabxanaların metodik tə'minat sistemi son 70 il ərzində sovet hakimiyyəti illərində formalaşmış metodologiyaya əsaslanır. İnkaredilməz faktdır ki, metodik fəaliyyət XX əsrdə ölkədə kitabxana işinin inkişafına, əhaliyə kitabxana xidmətinin formalaşıb təşəkkül tapmasına olduqca səmərəli tə'sir göstərmişdir. Bu fəaliyyət cəmiyyətdə kitabxana işi sahəsindəki nailiyyətlərin əldə edilməsinin, möhkəmlənməsinin, təbliğinin və daha da inkişaf etdirilməsinin elmi-nəzəri və təşkilati əsaslarını yaratmışdır. Eyni zamanda kitabxanaların metodik tə'minat sistemi sovet hakimiyyəti illərində digər sosial humanitar sahələr kimi totalitar rejimdən doğan iş üsullarına, partiyalılıq, sinfilik prinsiplərinə əsaslanaraq inzibati-amirlik metodlarının tətbiqinə üstünlük vermişdir. Hazırda dünya informasiya məkanında baş verən məzmun, texnoloji keyfiyyət və kəmiyyət dəyişilmələri ilə əlaqədar kitabxanaların daha çox sosial kommunikasiya sisteminə meyl etməsi, ki-

---

[504] Azərbaycan Respublikasının Konstitusiyası.-B.:Azərnəşr, 1995.- 60 s.
[505] Kitabxana işi haqqında Azərbaycan Respublikasının Qanunu // Azərbaycan.-1999.-14 mart.
[506] Yenə orada.

tabxanaçılıq fəaliyyətində müasir texnologiyaya əsaslanan informasiya funksiyalarının güclənməsi metodik tə'minatın məzmununu xeyli zənginləşdirmiş və mürəkkəbləşdirmişdir. Ona görə də «Kitabxanaların metodik tə'minat sistemi necə olmalıdır?» sualı son illər kitabxana ictimaiyyətini yenidən düşündürməyə başlamışdır.

Hələ 80-ci illərin sonundan başlayaraq SSRİ-nin mərkəzi kitabxanaçılıq mətbuatı səhifələrində, sonralar bir sıra dövri mətbuat orqanlarında kitabxanaçılıq sahəsində metodik fəaliyyətin yeni tələblər baxımından vəzifələri haqqında müzakirələr aparılmış, müxtəlif fikir və rə'ylər söylənilmişdir. Bu cür fikirlər yenə də səslənməkdədir.[507]

Kitabxanaların metodik tə'minatının yeniləşməsi probleminə dair son illər irəli sürülən konseptual mülahizələrdə metodik fəaliyyətin mahiyyəti, məzmunu, metodları, metodistin hüquq və vəzifələri, statusu, dünyagörüşü, mühüm peşə xüsusiyyətləri və s. məsələlər ətrafında tez-tez bir-birinə tamamilə zidd fikirlər, bəzi hallarda isə metodik fəaliyyətin bütövlükdə inkar edilməsi müddəalarına da rast gəlmək olur.

Müasir dövrdə bir cəhət tamamilə aydındır ki, kitabxanaların metodik tə'minatına bu vaxta qədər verilən tə'rif və qiymətlərlə hərəkət etmək, kifayətlənmək artıq mümkün deyildir. Bu fikri metodik işə dair indiyədək dərc edilmiş yazılardakı terminoloji qarışıqlıq bir daha sübut edir. Nəzəri ədəbiyyatda o, «metodik rəhbərlik», «metodik iş», «metodik xidmət», «metodik köməklik», «metodik fəaliyyət», «metodik tə'minat», və s. anlayışlar kimi təqdim edilir ki, bu da bir daha kitabxanaların metodik tə'minat sisteminin mahiyyəti və məzmununa dair vahid konsepsiyanın olmamasını sübut edir.

Şübhəsiz ki, sovet rejimi dövründə kitabxanaların metodik tə'minat sistemi daha çox «metodik rəhbərlik» mahiyyəti daşıyırdı. Çünki sovet şəraitində kitabxanalara metodik rəhbərlik sistemi kitabxanaları idarə edən dövlət inzibati amirlik sisteminin tərkib hissəsi kimi təzahür edirdi və onun əsas vəzifəsi kitabxanalarda partiya və dövlət orqanlarının qərarlarının həyata keçirilməsindən ibarət idi. Hələ 70-ci illərdə sovet kitabxanaşünaslığının tanınmış nümayəndələri «metodik köməyi kitabxanaçılıq işinə rəhbərliyin forması» kimi qiymətləndirirdilər.[508] Kitabxana işinə rəhbərlik isə «partiya və hökumət direktivlərinin həyata keçirilməsi üçün, kitabxanaların oxucularla apardığı işin səviyyəsinin yüksəldilməsi üçün zəruri olan tədbirlərin birgə işlənib hazırlanması»[509] kimi izah edilirdi.

Zənnimizcə, müasir dövrdə «kitabxana işinin metodik tə'minatı» termininin işlənməsi istər elmi, istərsə də təşkilati baxımdan bu fəaliyyətin mahiyyətini və sosial funksiyalarını düzgün müəyyənləşdirməyə imkan verir. «Metodik tə'minat» anlayışı ilk növbədə metodik mərkəzlərin fəaliyyətində rəhbərlik, göstəriş vermək, inzibatçılıq, nəsihət, məcburi əməletmə kimi anlayışların tətbiqini nəzərdə tutur. Daha sonra «metodik tə'minat» anlayışı «hüquqi tə'minat», «informasiya tə'minatı» və s. anlayışları kimi demokratik xarakter daşıyaraq normativ hüquqi sənədlərə, faktlara, cəmiyyətin inkişaf qanunauyğunluqlarına əsaslanır və kitabxana işində siyasi və ideoloji amilləri, eləcə də partiyalılıq və sinfilik amillərini rədd edir.

---

[507] Зотова Р.З. Проблемы совершенствования методической деятельности универсальных библиотек // Актуальные вопросы библиотечной работы: Сб.статей.-М.,1986.-С.15-38;Басов С.А. Ты педагог и управленец и. // Библиотекарь.-1986.-№5.-С.30-31; Ванеев А.Н. Проблемы перестройки методической деятельности // Научные технические библиотеки СССР.-1990.-№9.-С.10-16; Будецкая О. Управленец? Методист? Консультант? // Библиотекарь.-1990.-№5.-С.41-42; Бибина Н. Не люблю быть проверяющим // Библиотекарь.-1991.-№11.-С.23-33; Высоцкая Е.К., Семенова Г.А. Методические службы развиваются // Сов. библиотековедение.-1991.-№1.-С.46-53; Бачальдин Б.Н. Методическая служба: Какой ей быть? // Сов.библиотековедение.-1991.-№5.-С.13-23; Суслова И.М. Методическая работа библиотек перспективные концепции.-М.,1993.-44 с.; Allahverənov S. Metodik iş: inkişaf yolları və problemlər // M.F.Axundov adına ADK-nın elmi əsərləri: Bur.III.-B.,1988.-S.67-81.

[508] Ümumi kitabxanaşünaslıq.-B.,1982.-S.296.

[509] Yenə orada.

«Metodik tə’minat» anlayışı özündə eyni zamanda elmilik, informasiya, pedaqoji və maarifçilik funksiyalarını cəmləşdirir. «Metodik tə’minat» anlayışı həmçinin cəmiyyətdə baş verən mühüm kitabxana proseslərinin obyektiv inkişaf meyllərinin öyrənilməsini, ümumiləşdirilməsini və kitabxana işinə tətbiq edilməsini nəzərdə tutur.

Nəhayət, «metodik tə’minat» anlayışının olduqca mühüm tərkib hissəsini digər tə’minat sistemlərində olduğu kimi təşkilatçılıq, mütərəqqi, demokratik idarəetmə metodları təşkil etməlidir.

Beləliklə, bu qənaətə gəlmək olar ki, «metodik tə’minat» termini bu fəaliyyətin mahiyyətini və müasir dövrdəki sosial funksiyalarını sistemli fəaliyyət kimi daha düzgün müəyyənləşdirmək üçün mühüm anlayış vasitəsi ola bilər.

Tədqiqatın əsas obyekti kimi Azərbaycan Respublikasının müasir mərhələsində cəmiyyətimizdə kitabxana işinin metodik tə’minatının inkişaf konsepsiyasının mühüm strateji problemlərini nəzərdən keçirək. Müvafiq prblemlərlə əlaqədar apardığımız tədqiqatlara əsaslanaraq demək olar ki, Azərbaycanda kitabxana işinin metodik tə’minat sisteminin optimallaşdırılmasının mühüm strateji istiqamətləri aşağıdakılardan ibarət olmalıdır:

1. **Kitabxana işinin** metodik tə’minat sistemində məqsədli proqramlaşdırma funksiyasının formalaşması.
2. **Metodik tə’minat** sisteminin kitabxanaşünaslıq elmi-tədqiqatları ilə əlaqələndirilməsi.
3. **Metodik tə’minatın** informasiya funksiyalarının inkişaf etdirilməsi.
4. **Metodik tə’minat mərkəzlərinin** kitabxana işi üzrə tədris və ixtisasartırma məktəblərinə çevrilməsi.
5. **Metodik tə’minat** sisteminin strukturunun və idarə edilməsinin təkmilləşdirilməsi, daha optimal variantların tətbiqi, ölkədə kitabxana işinin metodik tə’minatının optimallaşdırılması ən mühüm proqramlaşdırma, ən perspektiv və səmərəli metod sayıla bilər. Bunu dünya kitabxanaçılıq təcrübəsi sübut edir.

Kitabxana işinə dair məqsədli proqramlaşdırma dedikdə, metodik mərkəzlərin ölkə, region, şəbəkə, şəbəkələrarası, MKS və ayrıca bir kitabxana miqyasında kitabxana-informasiya xidmətinin optimallaşdırılmasına yönəlmiş kompleks və lokal xarakterli proqram sənədlərin hazırlanıb həyata keçirilməsi nəzərdə tutulur. Belə proqramlar ilk növbədə dünyada kitabxana işinin sosial-mədəni sistem kimi inkişaf qanunauyğunluqlarını nəzərə alaraq ölkə kitabxanalarının beynəlxalq informasiya məkanında baş verən proseslərə daxil olmasının metodik tə’minatını yaratmalıdır. Dünya kitabxanaşünaslıq fikrinin, xüsusilə ABŞ və Rusiyanın görkəmli kitabxanaşünaslarının əsərlərində kitabxana işinin inkişaf qanunauyğunluqları haqqındakı fikirlər[510], eləcə də XX əsrdə dünyada və Azərbaycanda kitabxana işinin inkişaf meylləri bizə XXI əsrin əvvəllərində kitabxana işinin inkişaf qanunauyğunluqlarının məqsədli proqramlaşdırılması ilə əlaqədar aşağıdakı müddəaları irəli sürməyə imkan verir:

Cəmiyyətdə kitabxana və informasiya xidmətinin təşkilində kitabxanalararası əlaqələr gücləndirilməli, müxtəlif kitabxana şəbəkələri və sistemləri müasir qlobal texnologiyaya əsaslanmaqla oxuculara kitabxana-informasiya xidmətində informasiya ehtiyatlarından ölkədaxili və dünya miqyasında əlaqəli istifadə etmək imkanları əldə olunmalıdır. Bu proses artıq baş verməkdədir.

Yaxın gələcəkdə oxuculara kitabxana-informasiya xidmətinin keyfiyyəti ölkə-

---

[510] Шира Дж. Введение в библиотековедение.-М.,1983.-255с.;Карташов Н., Скворцов В. Общее библиотековедение: В 2-х ч.-М.,1988; Библиотечное дело на пороге XX1 века:Материалы международной научной конференции.-М.,1998.-356с.;Тюлина Н.И. Основные положения концепции: Библиотечное дело на рубеже XXI в.//Библиотекарь.-1991.-№1.-С.3-49; Библиотеки и библиотечное дело США: Комплексный подход.-М., 1992.-456 с.; Скворцов В. Библиотековедение: Сущность методологии: Дисс. докт.пед.наук.-М.,1997.-320 с.

nin bu və ya digər kitabxanalarının, yaxud bütün kitabxana sistemlərinin informasiya ehtiyatlarından istifadə səmərəliliyi ilə deyil, kitabxanaların bütün tələbatçıların dünya informasiya ehtiyatlarından istifadəsinin dolğunluğunun tə'min edilməsi ilə müəyyənləşdiriləcəkdir.

XXI əsrin əvvəllərində kitabxanaların informasiya ehtiyatlarının formalaşmasında ən'ənəvi çap materialları ilə yanaşı, elektron informasiya daşıyıcılarının rolu getdikcə artacaqdır.

Ölkənin kitabxanaları yaxın gələcəkdə dünya kitabxanalarından, dünya avtomatlaşdırılmış şəbəkə texnologiyasından (internet və s. sistemlərdən) təcrid olunmuş şəkildə öz sosial funksiyalarını həyata keçirə bilməyəcək. Müasir informasiya texnologiyası və telekommunikasiya vasitələrinə malik olmayan kitabxana və ya kitabxana sistemi dünya informasiya məkanından təcrid olunacaqdır. Bunun nəticələri isə cəmiyyətin sosial-iqtisadi və mədəni-mə'nəvi imkanlarına öz mənfi tə'sirini göstərəcəkdir.

Bütün bu proseslər metodik mərkəzlər və ilk növbədə milli kitabxana tərəfindən Azərbaycan kitabxanalarının dünya informasiya məkanında yerini müəyyənləşdirən strateji proqramın hazırlanması vacibliyini irəli sürür. Bu proqram ilk növbədə respublikada kitabxana işinin ümumi vəziyyətinin analitik təhlilini, XXI əsrin əvvəllərində kitabxana sisteminin inkişaf proqnozunu verməlidir. Daha sonra proqramda kitabxana işinin inkişafının əsas vəzifələri və bu vəzifələrin həyata keçirilməsi yolları, vasitələri və mərhələləri, nəhayət, proqramın həyata keçirilməsinin maliyyələşdirilməsi və nəzarət mexanizmi öz əksini tapmalıdır. Zənnimizcə, ölkədə kitabxana işinin inkişaf strategiyası proqramında üstünlük aşağıdakı amillərə verilməlidir:

1.Kitabxana işinin informasiyalaşdırılması, kitabxanalarda müasir informasiya texnologiyasının tətbiqi, elektron-mə'lumat bazalarının formalaşması və istifadə edilməsi. CD-ROM texnologiyası və kitabxanalararası informasiya mübadiləsini tə'min edən şəbəkə texnologiyasının inkişafı, ölkədə vahid kitabxana-informasiya şəbəkəsinin yaradılması.

2.Kitabxanaların bazar iqtisadiyyatına uyğunlaşmış komplektləşdirmə mexanizminin yaradılması və ölkə miqyasında nəşr edilən sənədlər haqqında (elektron informasiya daşıyıcıları) daxil olmaqla milli informasiya sisteminin təşkili, mə'lumat banklarının yaradılması.

3.Kitabxanaların və kitabxana fondlarının təhlükəsizliyinin və mühafizəsinin tə'min edilməsi.

4.Azərbaycanda fəaliyyət göstərən bütün kitabxana şəbəkələri və sistemlərinin idarələrarası kooperasiyasının inkişaf etdirilməsi, onların dünya kitabxana prosesləri və informasiya mübadiləsi sisteminə (internetə) daxil edilməsi.

5.Kitabxana işinin hüquqi normativ bazasının inkişaf etdirilməsi.

Şübhəsiz ki, milli kitabxana və digər sahəvi metodik mərkəzlər tərəfindən hazırlanmış kompleks və lokal proqramlar ekspertlər şurasında müzakirə edilməli, onun maliyyələşdirilməsi üçün vəsaitin miqdarı müəyyənləşdirilməli, sonra dövlət orqanlarına, digər maraqlı təşkilatlara təqdim olunmalıdır.

Kitabxana proqramlarının müəyyənləşdirilməsi ilə əlaqədar qeyd etmək istərdik ki, məqsədli proqramların, xüsusilə ayrı-ayrı kitabxana və kitabxana şəbəkələrində həyata keçirilməsi labüd olan lokal proqramların maliyyələşdirilməsində metodik mərkəzlər respublikada fəaliyyət göstərən bir sıra beynəlxalq təşkilatların xeyriyyəçilik və «inkişafı maliyyələşdirmə fondlarından» səmərəli istifadə etmək vərdişlərinə, bu işin metodik və texnoloji əsaslarına yönəldilməlidir. Bu məqsədlə düzgün strateji proqram seçib onun aktuallığını, təşkilati məsələlərini, büdcəsini, həmin proqramın həyata keçirilməsinin müsbət nəticələrini düzgün müəyyənləşdirən və əsaslandıran layihələrin hazırlanıb müvafiq təşkilatlardan, o cümlədən, NATO, «Avrasiya fondu», «Açıq Cəmiyyət İnstitutu» (SOROS fondu), Ayreks və digər bey-

nəlxalq təşkilatlardan «qrant» almaq metodikasını dərindən mənimsəməli və belə vəsaitlərdən lazımınca istifadə etməlidirlər. Metodik mərkəzlərin «fondreyzinq» (maliyyə mənbələri tapmaq) texnologiyasına yiyələnməsi və bununla da məqsədli proqramların həyata keçirilməsində maliyyə çətinliklərinin əhəmiyyətli dərəcədə aradan qaldırılmasına nail olması vəzifəsi bazar iqtisadiyyatından, bu günün reallıqlarından doğan zərurət kimi qəbul edilməlidir. Bu da öz növbəsində ölkədə kitabxana işinin metodik tə'minat sistemində ikinci yeni sosial funksiyanın - marketinq funksiyasının meydana gəlməsinin təzahürüdür.

Müasir dövrdə ölkədə kitabxana işinin optimallaşdırılmasına yönəldilmiş məqsədli proqramların hazırlanması sahəsində ən mühüm istiqamətlərdən biri Azərbaycanda kitabxana marketinqi konsepsiyasını formalaşdırıb tətbiq etməkdən ibarətdir.

Qeyd edək ki, dünya kitabxanaçılıq təcrübəsində geniş yayılmış «Kitabxana marketinqi» konsepsiyasının Azərbaycanda tətbiq edilməsi üçün «Kitabxana işi haqqında Azərbaycan Respublikasının Qanunu»nda[511] hüquqi baza yaradılmışdır. Bu qanunun 28-ci maddəsində göstərilir ki, «Dövlət kitabxanalarının işinin genişləndirilməsi, maddi-texniki bazasının möhkəmləndirilməsi və əməyin stimullaşdırılması məqsədilə nizamnamələrində göstərilən qaydada təsərrüfat fəaliyyəti və pullu xidmət əsasında büdcədənkənar fondlar formalaşdırılır». Hazırda bir çox xarici ölkələrdə, o cümlədən, Rusiyada metodik mərkəzlərdə kitabxana marketinqi şö'bələrinə çevrilən metodik tə'minat sistemində marketinq konsepsiyasını aparıcı konsepsiya kimi qəbul edirlər.[512]

Şübhəsiz ki, Azərbaycanda kitabxana işinin təşkilində marketinq konsepsiyasının tətbiq edilməsi əhaliyə kitabxana-informasiya xidmətinin inkişafına səmərəli tə'sir göstərərək oxucuların sənəd və informasiya tələbatlarının yeni istiqamətlərini formalaşdırar, nəticədə isə cəmiyyətdə kitabxana-informasiya məsələlərinin daha dərindən dərk edilməsinə səbəb olar.

Respublikada kitabxana iqtisadiyyatı üzrə tanınmış mütəxəssis R.Kazımovun qeyd etdiyi kimi, «Marketinq fəaliyyəti kitabxana işinin iqtisadi mexanizmini formalaşdıraraq, xidmət metodlarının yeni keyfiyyət almasına, kitabxana işinin sosial-iqtisadi səmərəliliyinin yüksəlməsinə, maddi-texniki bazasının möhkəmlənməsinə, kitabxanaçı əməyinin stimullaşdırılmasına və nəhayət, kitabxana-informasiya fəaliyyətinə intellektual qüvvələrin cəlb olunmasına hərtərəfli şərait yaradır».[513]

Zənnimizcə, Azərbaycanda kitabxana marketinqi proqramı ümumi prinsiplər əsasında milli kitabxana tərəfindən ümumrespublika miqyasında və ayrı-ayrı şəbəkələr daxilində müstəqil olaraq hazırlanıb həyata keçirilə bilər.

Marketinq proqramı hazırlanarkən aşağıdakı konseptual amillər əsas götürülə bilər:

-Marketinq məkanının öyrənilməsi ilə əlaqədar tədqiqatların aparılması. Marketinq mühitində oxucuların bilik, sənəd və informasiya tələbatlarının və tələblərinin öyrənilməsi, onların real və potensial imkanlarının müəyyənləşdirilməsi, cari və perspektiv informasiya sorğularının aşkar edilməsi, regionda fəaliyyət göstərən kitabxana-informasiya müəssisələrinin informasiya potensialının təhlili;

-marketinq vəzifələrinin müəyyənləşdirilməsi, marketinq fəaliyyətinin (xidmətlərinin) həcminin, quruluşunun forma və metodlarının müəyyənləşdirilməsi;

-marketinq xidmətinin işlənib hazırlanması, bazar münasibətlərinin seçilməsi, xidmət növlərinin formalaşması;

-qiymətqoyma siyasətinin müəyyənləşdirilməsi;

-marketinq fəaliyyətinin idarə olunması, marketinq fəaliyyətində cari və strateji

---

[511] Azərbaycan.-1999.-14 mart.

[512] Суслова И.М. Маркетинговая концепция методической работы // Методическая работа библиотек. Перспективная концепция.-М.,1998.-С.24-29.

[513] Kazımov R. Bazar iqtisadiyyatı və kitabxanalar.-B.,1996.-S.31.

planlaşdırma, büdcə, nəzarət, təftiş funksiyalarının müəyyənləşdirilməsi, həyata keçirilməsi.

Beləliklə, respublikada kitabxana marketinqi məqsədli proqramının hazırlanması müasir dövrdə kitabxanaların metodik tə'minat sistemində ən önəmli vəzifələrdən biri kimi meydana çıxır. Ölkədə kitabxana işinin metodik tə'minatında məqsədli proqramlaşdırmanın üçüncü mühüm istiqaməti kitabxanaşünaslıq, informasiya, biblioqrafiya və kitabşünaslıq sahələrində standartlaşdırma proqramının hazırlanıb həyata keçirilməsindən ibarət olmalıdır.

Bu proqram Azərbaycanda kitabxana işinin müasir vəziyyəti və inkişaf perspektivlərini tə'min edən milli standartların hazırlanması və tətbiqini nəzərdə tutmalıdır. Bu məqsədlə Dövlət Standartlar Komitəsinin nəzdində «Kitabxanaşünaslıq, informasiya, biblioqrafiya və kitabşünaslıq sahələri üzrə komissiya» yaradılmalı və onun katibliyi Milli Kitabxanaya həvalə olunmalıdır.

Katibliyin tərkibi özündə respublikanın kitabxana işi üzrə metodik mərkəzlərinin, Dövlət Kitab Palatasının, İnformasiya Mərkəzlərinin, BDU-nun kitabxanaçılıq fakültəsinin, Respublika Mətbuat və İnformasiya Nazirliyinin nümayəndələrini əhatə etməlidir.

Kitabxana, informasiya, biblioqrafiya və kitabşünaslıq üzrə dövlət standartlaşdırma proqramı «Standartlaşdırma haqqında Azərbaycan Respublikasının qanunu»na[514] uyğun olaraq kitabxanalar üzrə məcburi hesab edilən milli kitabxana standartlarının hazırlanmasının təşkilati-metodik əsaslarını müəyyənləşdirməlidir. Proqramda həmçinin Beynəlxalq kitabxana standartları, Beynəlxalq kitabxana statistikası, kitab standart nömrələri, kitabxana işinə dair yeni statistik hesabat formalarının hazırlanması və tətbiqi, eləcə də bir sıra xarici ölkələrin (ABŞ, Türkiyə, Rusiya və s.) kitabxana standartlarının Azərbaycan dilinə tərcümə edilib, onlara milli standartlar statusu verilməsi, ABŞ, MDB və digər xarici ölkələrlə standartlaşma işləri ilə əlaqədar birgə əməkdaşlıq formaları öz əksini tapmalıdır.

Standarlaşdırma proqramının mühüm tərkib hissəsi kimi kitabxana işinə dair milli standartların tətbiqi və təbliği mexanizmi müəyyənləşdirilməlidir.

Fəslin əvvəlində qeyd etdiyimiz kimi, ümumdövlət əhəmiyyətli milli kitabxana proqramları ilə yanaşı, sahəvi metodik mərkəzlər tərəfindən müvafiq kitabxana şəbəkələrində texnoloji proseslərin modernləşdirilməsi, şəbəkədaxili və şəbəkələrarası inteqrasiya proseslərinin formalaşmasına yönəlmiş lokal proqramların hazırlanıb həyata keçirilməsi kitabxanaların metodik tə'minatında əhəmiyyətli rol oynaya bilər. Belə proqramlara bunları misal göstərmək olar:

-kitabxanalarda internet mərkəzlərinin yaradılması;

-KAA sisteminin modernləşdirilməsi, sənədlərin elektron poçtu ilə əldə edilməsi;

-kitabxana işinin kompüterləşdirilməsi, müasir kommunikativ formatların öyrənilməsi və tətbiqi;

-elektron kataloqların təşkili, kartoçkalı kataloqların maşın kataloqlarına konversiyası;

-kitabxanaların informasiya ehtiyatlarının internetdə əks etdirilməsi;

-kitabxana işçiləri üçün tədris-treyninq mərkəzlərində ixtisasartırma proqramlarının tərtibi və həyata keçirilməsi və s.

Beləliklə, ölkədə kitabxanaların metodik tə'minat sistemində məqsədli proqramların tərtibi və reallaşdırılması kitabxana işinin cəmiyyətdə həyata keçirdiyi sosial funksiyalarının səmərəliliyinə əhəmiyyətli tə'sir göstərə bilən strateji metodik fəaliyyət kimi qiymətləndirilə bilər.

---

[514] Standartlaşdırma haqqında Azərbaycan Respublikasının Qanunu: 16 aprel 1996//Azərbaycan Respublikasının qanunlar külliyyatı: Kitab III-B.:Qanun, 1997.-S.83-96.

## *5.2. Kitabxanaların metodik tə'minatının elmi-nəzəri əsaslarının gücləndirilməsi*

Azərbaycanda kitabxanaların metodik tə'minat fəaliyyətinin elmi-nəzəri əsaslarının gücləndirilməsi problemi özündə aşağıdakı iki məsələnin həllini nəzərdə tutur:

-kitabxanaların metodik tə'minatında elmi-tədqiqat metodlarından geniş istifadə edilməsi;

-kitabxanaşünaslıq tədqiqatlarının nəticələrinin kitabxana təcrübəsinə tətbiq edilməsində metodik tə'minat orqanlarının rolunun gücləndirilməsi.

Ölkədə kitabxanaçılıq fəaliyyətinin metodik tə'minat sisteminin optimallaşdırılmasının ən mühüm istiqamətlərindən biri metodik fəaliyyət prosesində elmi-tədqiqat metodlarından geniş istifadə edilməsidir. Qeyd edək ki, son illər dünya metodik tə'minat sistemində dərhal nəzərə çarpan cəhət metodik iş üsullarının elmi-tədqiqat üsulları ilə yaxınlaşması, bir çox hallarda isə sintezidir. Bu, müasir cəmiyyətdə baş verən mühüm kitabxana proseslərinin inkişaf qanunauyğunluqları ilə izah edilir.

Lakin bu prosesdə əsas məsələ ondan ibarətdir ki, metodik tə'minat sistemi ona məxsus olan funksiyaları qoruyub saxlaya bilsin. Söhbət metodik işin kitabxanaşünaslıqla əvəz olunmasından yox, kitabxanaşünaslıq metodlarından istifadə etməklə onun zənginləşməsindən və təkmilləşməsindən gedir.

Metodik fəaliyyətin elmi-tədqiqat metodları ilə sintezi bu fəaliyyətin özünün xarakterik cəhətlərindən irəli gəlir. Şübhə yoxdur ki, müasir dövrdə, cəmiyyətdə kitabxana-informasiya proseslərinin getdikcə mürəkkəbləşdiyi bir şəraitdə bu proseslərin metodik tə'minatı müşahidə, izah etmək, öyrətmək, öyrənmək və ümumiləşdirməklə kifayətlənə bilməz. Bu zaman metodik tə'minat sistemi özünün novatorluq funksiyalarını məhdudlaşdırmış olar.

Metodik tə'minat sistemi baş verən kitabxana-informasiya proseslərinin ayrılmaz hissəsidir. Lakin bu prosesdə onun öz yeri vardır. Əgər hər bir kitabxananın əsas xidmət obyekti oxucu və ya informasiya istehsalçısıdırsa, metodik tə'minat sisteminin 3 fəaliyyət obyekti vardır: oxucu, kitabxanaçı və kitabxana. Metodik fəaliyyət eyni zamanda elmi fəaliyyətin bir sahəsidir. Bu, onun spesifik xüsusiyyətidir. O, kitabxanaşünaslıq nəzəriyyəsi və elmi prinsiplər əsasında inkişaf edə bilər. Yalnız elmi müddəalar və prinsiplərdən, həmçinin kitabxanaşünaslığın nəzəri nailiyyətlərindən istifadə etməklə kitabxanaların metodik tə'minat prosesi öz inkişafını və səmərəliliyini təmin edə bilər. Elmi-tədqiqat metodları ilə zənginləşmiş metodik tə'minat sistemi eyni zamanda kitabxanaşünaslıq nəzəriyyəsini yeni keyfiyyətlərlə zənginləşdirməklə onun inkişafına müsbət tə'sir göstərə bilər. Beləliklə, müasir dövrdə kitabxana işinin metodik tə'minat sistemi kitabxanaşünaslıq tədqiqatları ilə vəhdətdə olan sistemli fəaliyyət kimi təzahür edir. Bu baxımdan kitabxanaların təşkilati-metodik prosesində kitabxana işinin proqnozlaşdırılması, mühüm kitabxana əməliyyatlarının səmərəliliyininin öyrənilməsi, kitabxanalarda sosioloji tədqiqatların keçirilməsi, eksperimentlərin qoyulması bu və ya digər xarakterli müddəaların kitabxana işində tətbiq edilməsi, analitik təhlil xarakteri daşıyan arayışların, mə'ruzə və informasiya sənədlərinin hazırlanması, kitabxana işinin iqtisadi təhlili və s. kimi elmi tədqiqat üsulları, şübhəsiz ki, metodik tə'minat sisteminin ayrılmaz tərkib hissəsinə çevrilməlidir. Metodik tə'minat sisteminin elmi əsaslarının gücləndirilməsi metodik fəaliyyətin kitabxanaşünaslıq tədqiqatları ilə əlaqəli şəkildə planlaşdırılması ilə başlanmalıdır. Nəzdində xüsusi elmi-tədqiqat şö'bələri olan elmi kitabxanalar elmi işlərin perspektiv və cari planlarını tərtib edərkən mütləq metodik mərkəzlərin elmi potensialını nəzərə almalı və sırf tətbiqi xarakterli tədqiqatların məhz metodik mərkəzlər tərəfindən həyata keçirilməsini planlaşdırmalıdırlar.

Dünya, xüsusilə Rusiya təcrübəsi sübut edir ki, kitabxanaşünaslıq sahəsində

aparılan kompleks elmi-tədqiqat işləri metodik tə'minat sistemindən təcrid olunarkən nəzəriyyəçiliyə yuvarlanır və belə tədqiqatlarda alınan nəticələr, irəli sürülən müddəalar çox vaxt mücərrəd xarakter daşıyır, kitabxana təcrübəsinə səmərəli tə'sir göstərmir.[515] Mə'lum faktdır ki, hər bir elmi tədqiqat işinin planlaşdırılması özündə problemin müəyyənləşdirilməsini, tədqiqatın məqsəd və vəzifələrini, obyektini, tədqiqat üsullarını və mərhələlərini, aprobasiyasını və tətbiqi ilə əlaqədar təşkilati məsələləri əhatə edir. Bütün bu proseslərdə metodik tə'minatın rolunun və yerinin düzgün müəyyənləşdirilməsi metodik fəaliyyətin elmi-tədqiqat fəaliyyəti ilə kəsişməsinin (birləşməsinin) ən mühüm amili kimi qəbul edilə bilər.

Cəmiyyətdə kitabxanaçılıq fəaliyyəti ilə əlaqədar vaxtaşırı problem xarakterli vəziyyət yaranır, elə vəzifələr meydana çıxır ki, onlar nəzəri baxımdan düzgün dərk edilməyən məsələlərin təcrübədə eksperimentlərinin aparılmasını, bu və ya digər nəzəri müddəaların təcrübədə səmərəliliyini müəyyənləşdirməyi tələb edir. Belə kompleks işlər, şübhəsiz ki, metodik tə'minat sisteminin iştirakı olmadan həyata keçirilə bilməz. Məhz bu baxımdan da kitabxanaların metodik tə'minat sistemi ilə elmi-tədqiqatların inteqrasiyası və sintezi olduqca vacibdir. Bu inteqrasiya özünü xüsusən metodik mərkəzlər tərəfindən aparılan və oxucuların informasiya tələbatının öyrənilməsinə yönəlmiş sosioloji tədqiqatlarda, regionda fəaliyyət göstərən kitabxanaların sosial funksiyalarının səmərəli təşkili ilə əlaqədar proqramların hazırlanmasında, əhaliyə kitabxana xidmətinin vahid sisteminin formalaşmasına dair təklif və tövsiyələrin hazırlanmasında, kitabxana fondlarının istifadə səmərəliyinin öyrənilməsi ilə əlaqədar yeni iş üsullarının öyrənilib tətbiq edilməsində, mühüm texnoloji proseslərin təkmilləşdirilməsinin nəzəri-metodik əsaslarının işlənilməsində, kitabxana işinin mahiyyətcə yeni texniki zəmin üzərində qurulması və s. məsələlərə dair normativ sənədlərin hazırlanmasında özünü göstərə bilər.

Qeyd edək ki, hələ 70-ci illərdə M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanası tərəfindən həyata keçirilən bir sıra kompleks xarakterli tədqiqatlarda, xüsusən «Kitabxana fondlarının səmərəli yerləşdirilməsi və istifadəsi», «Azərbaycanın rayon və kəndlərində kitab və mütaliənin rolu», «Oxuculara rəhbərlikdə tövsiyə biblioqrafik göstəricilərdən istifadə edilməsi» və s. tədqiqatların həyata keçirilməsində MKS-lərin metodik şö'bələrinin iştirakına dair qiymətli təcrübə əldə edilmişdi. Müasir dövrdə bu təcrübənin daha da dərinləşdirilib optimal şəkildə həyata keçirilməsi respublikada kitabxana işinin metodik tə'minat sisteminin elmi əsaslarla təşkilinə müsbət tə'sir göstərə bilər, metodik fəaliyyəti elmi yaradıcılıq ünsürləri ilə zənginləşdirər. Beləliklə, müasir dövrdə «elm-metodika-təcrübə» sisteminin formalaşması metodik tə'minatın optimallaşdırılmasında başlıca amillərdən biri kimi meydana çıxır.

Bu sistemdə metodik tə'minatı elmi-tədqiqatlarla bağlayan mühüm ünsürlərdən biri də kitabxanaşünaslıq tədqiqatlarında əldə edilmiş nailiyyətlərin, çıxarılmış nəticə və tövsiyələrin kitabxana təcrübəsinə tətbiq edilməsində metodik tə'minat sisteminin rolunun inkişaf etdirilməsidir.

Beləliklə, müasir dövrdə kitabxana işinin metodik tə'minat sisteminin məzmun və təşkilati baxımdan optimallaşdırılmasının ən mühüm istiqamətlərindən biri onun analitik-sintetik funksiyalarının genişləndirilməsi ilə bağlıdır. «Elm-metodika-təcrübə» sistemində kitabxanaşünaslıq tədqiqatlarının kitabxana təcrübəsi ilə kəsişməsi elmi-təşkilati fəaliyyətin yeni keyfiyyət alması üçün əsas me'yar sayıla bilər.

Qeyd etmək lazımdır ki, kitabxanaşünaslıq sahəsində aparılan tədqiqatları şərti olaraq əsaslı və tətbiqi xarakterli elmi problemlərə ayırmaq olar.

Əsaslı tədqiqatlar dedikdə kitabxana tarixinə dair tədqiqatları, kitabxanaların

---

[515] Лукашов Н.В. Библиотечная наука: поиск путей обновления // Сов. библиотековедение.-1982.-№2.-С.35-45, Фрумина Б.Н. Оценка качества результатов научных исследований по библиотечному делу // Сов. библиотековедение.-1985.-№5.-С.79-89.

sosial funksiyalarının yeniləşməsini, əhaliyə kitabxana xidmətinin yeni keyfiyyət almasını, kitabxanaşünaslığın digər elmlərlə əlaqələrini, onların mədəniyyət, elm, təhsil, tərbiyə və informasiya tə'sisatları sistemində mövqeyini müəyyənləşdirən, ölkədə kitabxana işinin inkişafı üçün yeni perspektivlər açan kompleks tədqiqatları nəzərdə tutmaq olar.

Tətbiqi xarakterli tədqiqatlara gəldikdə isə bunlara kitabxana işində tətbiq edilən müxtəlif texnoloji proseslərin yeniləşdirilməsi və təkmilləşdirilməsinə (xüsusən avtomatlaşdırılmasına), oxuculara xidmət işində yeni üsulların, pedaqoji, psixoloji, sosioloji metodların həyata keçirilməsinə, kitabxanaların informasiya ehtiyatlarının istifadəsinin səmərəliliyinin artmasına və s. xidmət edən elmi işləri aid etmək olar. Belə tədqiqatların əsas məqsədi kitabxana təcrübəsini bilavasitə yeni keyfiyyət və kəmiyyət göstəriciləri ilə zənginləşdirməkdən ibarətdir. Metodik tə'minat sistemində elmi nailiyyətlərdən, tədqiqatların nəticə və tövsiyələrindən kitabxana təcrübəsində istifadəsinin tə'min edilməsi dedikdə ilk növbədə məhz tətbiqi xarakterli tədqiqatlardan istifadə nəzərdə tutulur. Bu baxımdan tətbiqi xarakterli tədqiqatlarda irəli sürülən və kitabxana işinin təkmilləşdirilməsinə yönəlmiş müddəaların təcrübədə tətbiqi ilə əlaqədar elmi-metodik tədbirlərin kompleks şəkildə işlənib həyata keçirilməsi Azərbaycanda kitabxanaların metodik tə'minat sistemində aparıcı fəaliyyət növü kimi formalaşmalıdır.

Şübhəsiz ki, elmi tədqiqatların nəticələrinin kitabxana təcrübəsinə tətbiqi kütləvi şəkildə həyata keçirilə bilməz. Bu proses əvvəlcədən planlaşdırılmalı, tətbiq mərhələləri və tətbiq obyektləri müəyyənləşdirilməli, tətbiq formaları, eksperimentlərin keçirilməsi dəqiqləşdirilməli, icraçılar seçilməli və nəhayət, tətbiq nəticəsində gözlənilən kəmiyyət və keyfiyyət göstəriciləri ekspertizadan keçirilib ehtimal olunan yenilik və səmərəlilik proqnozlaşdırılmalıdır.

Elmi tədqiqatların nəticələrinin kitabxana təcrübəsinə tətbiqində metodik mərkəzlərin iştirakı ilk növbədə elmi araşdırmaların planlaşdırılmasında, daha doğrusu, tədqiqatların mühüm istiqamətlərinin və problemlərinin müəyyənləşdirilməsində öz əksini tapmalıdır. Belə ki, metodik mərkəzlər kitabxanaşünaslıq tədqiqatları ilə məşğul olan elmi kitabxanalar, digər müəssisələr üçün sosial sifarişçi rolunu oynamalıdırlar.

Metodik tə'minat sistemi orqanları dövrün tələblərinə müvafiq əhaliyə kitabxana-informasiya ehtiyatlarının səmərəli yerləşdirilməsi, formalaşması və istifadəsi, mühüm texnoloji proseslərin optimallaşdırılması və s. problemlərlə əlaqədar elmi araşdırmaların istiqamətlərini kitabxanaşünaslıq elmi-tədqiqat müəssisələri ilə birlikdə müəyyənləşdirməli və bu araşdırmaların metodik tə'minatında yaxından iştirak etməlidirlər.

Təcrübə göstərir ki, elmi tədqiqatların işlənməsi prosesində metodik orqanların iştirakı sonralar onların nəticələrinin kitabxana təcrübəsində istifadəsində çox əhəmiyyətli rol oynayır. Bu barədə əvvəlki fəsillərdə MKS-lərin metodik fəaliyyəti haqqında bəhs edilmişdir.

Elmi-tədqiqat işlərində alınan nəticələrin kitabxana təcrübəsinə tətbiqində metodik mərkəzlərin ən mühüm fəaliyyət formalarından biri müvafiq tədqiqatların tətbiqi ilə əlaqədar normativ, tənzimləyici, tə'limati-metodik sənədlər kompleksinin hazırlanmasıdır.

Belə sənədlərə tədqiqatların nəticəsinə əsaslanan metodik vəsaitlər, kompleks proqramlar, normativlər, texnoloji proseslərin təkmilləşdirilməsinə yönəlmiş yeni təkliflər, tövsiyələr, özündə sosioloji, pedaqoji, psixoloji iş üsullarını əks etdirən tənzimləyici sənədlər, idarəetmə orqanlarına ünvanlanmış təkliflər, arayışlar, əhaliyə kitabxana xidmətinin təkmilləşdirilməsi ilə əlaqədar koordinasiya və kooperasiya planları, kitabxana işinin perspektivlərini müəyyənləşdirən proqnozlar və s. materiallar daxildir.

Elmi tədqiqatların kitabxana təcrübəsinə tətbiqində metodik tə'minat orqanları

tərəfindən təşkil edilən şifahi təbliğat üsulları da olduqca əhəmiyyətlidir. Bu baxımdan metodik mərkəzlərdə kitabxanaşünaslıq tədqiqatlarında əldə edilmiş nailiyyətlərin, elmi əsərlərdə, xüsusilə dissertasiya işlərində irəli sürülən təklif və tövsiyələrin təhlilinə həsr olunmuş elmi konfransların, seminarların, müşavirələrin təşkili kitabxanaların metodik tə'minat sisteminin fəaliyyətində mühüm yer tutmalıdır.

Qeyd etməliyik ki, kitabxanaşünaslıq nəzəriyyəsində əldə edilən nailiyyətlərin təcrübəyə tətbiqi prosesinin təşkilati-metodik baxımdan bir kitabxanada və ya məqsəd və vəzifələri yaxın olan bir neçə kitabxanada həyata keçirilməsi, bütöv bir region və ya şəbəkə miqyasında həyata keçirilməsindən daha səmərəli ola bilər. Çünki bu zaman elmi təklif və tövsiyələri profil və iş üsulları baxımından bir-birinə yaxın olan bir və ya bir neçə kitabxananın konkret olaraq fəaliyyətinə uyğunlaşdırmaq və alınan nəticələrin səmərəsini öyrənmək imkanları daha real olar. Bu cür təcrübələr eksperiment kimi bir neçə kitabxanada tətbiq edildikdən sonra metodik orqanlar tərəfindən bütöv bir sistem, şəbəkə və ya region üzrə daha geniş tətbiq edilə bilər.

Bununla əlaqədar kitabxanaların metodik tə'minat sistemində qabaqcıl təcrübənin tətbiqinə dair iki məsələyə aydınlıq gətirməyi lazım bilirik. Birincisi, hələ 20-ci illərdən başlayaraq nəzəri ədəbiyyatda qabaqcıl kitabxana təcrübəsinin öyrənilməsi, ümumiləşdirilməsi, təbliği və tətbiqi metodik fəaliyyətin mühüm funksiyalarından biri olsa da, «qabaqcıl kitabxana təcrübəsi» anlayışının məhiyyəti və məzmunu düzgün müəyyənləşdirilməmişdi. Əksər hallarda qabaqcıl kitabxana təcrübəsinə müəyyən region və ya şəbəkə daxilində fəaliyyət göstərən kitabxanalar içərisində başqalarına nisbətən daha yüksək kəmiyyət və keyfiyyət göstəricilərinə nail olmuş, lakin ümumi me'yarlar baxımından heç də qabaqcıl olmayan təcrübə məhz digərlərindən müəyyən qədər fərqli olduğuna görə qabaqcıl kitabxana təcrübəsi kimi qiymətləndirilmişdir.

40-cı illərdən başlayaraq Azərbaycanda belə «qabaqcıl kitabxana təcrübəsinə» dair onlarca kitab və məqalə yazılmışdır.[516]

Zənnimizcə, «qabaqcıl kitabxana təcrübəsi» anlayışına cəmiyyətin kitabxanalar qarşısında qoyduğu vəzifələri yerinə yetirmək üçün nəzəriyyə və təcrübənin son nailiyyətlərini, yeni texnologiyanı tətbiq etməklə, öz fəaliyyətinin bütün sahələrində yüksək səmərəyə nail olmuş, normativ sənədlərdə əks etdirilmiş kəmiyyət və keyfiyyət göstəricilərindən daha üstün nəticələr əldə etmiş kitabxana təcrübəsini aid etmək olar.

Qabaqcıl kitabxana təcrübəsinin əsasını təcrübədə kitabxanaşünaslıq nəzəriyyəsinin nailiyyətlərinin yaradıcı şəkildə tətbiqi təşkil edir. Bu proses isə öz növbəsində kitabxanaşünaslıq elminin inkişafı və təşəkkülünə xidmət edir. Bu baxımdan sözün əsl mənasında qabaqcıl kitabxana təcrübəsinin ümumiləşdirilib tətbiq edilməsi sahəsində aparılan işlər metodik tə'minat sistemi orqanlarının elmi potensialının formalaşıb inkişaf etməsi üçün mühüm amil sayıla bilər.

Kitabxanların metodik tə'minat sisteminin funksiyalarında qabaqcıl təcrübənin tətbiqi ilə əlaqədar aydınlaşdırılmasına ehtiyac duyulan ikinci məsələ ondan ibarətdir ki, sovet kitabxanaşünaslığında bu problem həmişə qabaqcıl təcrübənin aşkar edilməsi, öyrənilməsi, təhlili, ümumiləşdirilməsi, təbliği və tətbiqi kimi izah edilmişdir. Məsələn, məşhur rus alimi professor A.N.Vaneyev belə yazır: «Metodik mərkəzlərin vəzifəsi kitabxana şəbəkəsi üzrə qabaqcıl təcrübəni operativ və geniş yaymaqdan

---

[516] Tağıyev H. Salyan kitabxanalarının iş təcrübələri.-B.,1947.-32 s.; Kazımov R. İvanovka kitabxanası.-B.,1960.-34 s.;Məmmədov F. Ə'la işləyən kitabxana.-B.,1963.-29 s.;Bədəlov E. Şamxor rayon kitabxanası.-B.,1966.-35 s.;Rzayev S. S.Vurğun adına Xıllı qəsəbə kitabxanası: iş təcrübəsi.-B.,1966.-37 s.;Paşayev Ə. Kənd təsərrüfatı biliklərinin təbliği:Ağdam rayon Qaradağlı kənd kitabxanasının təcrübəsi.-B.,1967.-42 s.;Qəribov M. Naxçıvan rayonu Cəhri kənd kitabxanasının iş təcrübəsi.-B.,1967.-16 s.;Talıbov F. Ə'la işləyən kitabxana.-B.,1966.-34 s.;Abidov M. Kitabxana fondunun komplektləşdirilməsi: Lənkəran rayon MKS-in iş təcrübəsi.-B., 1992.-14 s. və b.

ibarətdir»[517]. O, daha sonra qabaqcıl kitabxana təcrübəsinin öyrənilməsi və tətbiqi ilə əlaqədar metodik orqanların fəaliyyətini aşağıdakı mərhələlərə bölür:

-tətbiq edilmək üçün qabaqcıl təcrübənin seçilməsi;
-təcrübənin qoyulması;
-təcrübənin tətbiqi ilə əlaqədar tövsiyələrin işlənilməsi və yayılması;
-qabaqcıl təcrübənin tətbiq edilməsi;
-qabaqcıl təcrübənin tətbiqi ilə əlaqədar kitabxanalara operativ metodik köməklik;
-qabaqcıl təcrübənin tətbiqinə dair uçot və nəzarət işləri».[518]

Qabaqcıl kitabxana təcrübəsinin tətbiqi ilə əlaqədar göstərilən tezislər, təbii ki, sovet kitabxanaşünaslığının tərkib hissəsi kimi formalaşmış Azərbaycan kitabxanaşünaslığında da öz əksini tapmışdır. Bu problemlə əlaqədar Azərbaycanda dərc olunmuş elmi məqalələrdə də «Qabaqcıl kitabxanaların iş təcrübəsini öyrənib digər kitabxanaların işinə tətbiq etmək» ölkədə metodik tə'minat sisteminin ən mühüm funksiyalarından biri kimi qəbul edilmişdir.[519] Belə müddəalar, şübhəsiz ki, həqiqətə uyğundur, lakin onun elmi və təcrübi cəhətdən tamamlanmasına və təkmilləşdirilməsinə ehtiyac vardır. Məsələ burasındadır ki, metodik tə'minat istiqamətində həyata keçirilən ilkin vəzifə qabaqcıl təcrübənin yaradılması və formalaşması olmalıdır. Bu iş metodik fəaliyyətin tətbiqindən xeyli asılıdır.

Belə ki, metodik fəaliyyətin mahiyyəti ilk növbədə kitabxana işində yeni mütərəqqi məzmun keyfiyyətləri formalaşdırmaqdan, kitabxanaçılıq təcrübəsini nəzəriyyədən doğan yeni xassələrlə zənginləşdirməkdən ibarət olmalıdır. Formalaşmış qabaqcıl təcrübənin digər kitabxanaların təcrübəsinə tətbiqi isə bu işin sonrakı mərhələlərinə aiddir.

Bütün bunlar bir daha ölkədə kitabxana işinin metodik tə'minat sisteminin kitabxanaşünaslıq nəzəriyyəsi sahəsində aparılan elmi tədqiqatlarla əlaqəli şəkildə inkişaf etməsini, metodik fəaliyyətin məzmununda elmi-tədqiqat ünsürlərinin formalaşmasını, kitabxana təcrübəsi ilə kitabxana nəzəriyyəsin birləşməsindən doğan elmi metodik və təşkilati fəaliyyət kimi təşəkkül tapması zərurətini irəli sürür. Bunu aşağıdakı şəkildə (sxemdə) görmək olar:




Beləliklə, Azərbaycanda kitabxanaların metodik tə'minat sisteminin bir tərəfdən nəzəriyyəyə, digər tərəfdən təcrübəyə söykənən sistemli fəaliyyət kimi formalaşması onun inkişafı üçün əsas şərtlərdən biridir.

---

[517] Ванеев А.Н. Основные направления методического руководства библиотечным делом в СССР:Учебное пособие.-Л.,1980.-С.60.
[518] Yenə orada.-S.61.
[519] Allahverənov S. Metodik iş: inkişaf yolları və problemlər //M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının elmi əsərləri: Bur.IV.-B..1988.-S.67.82; Həsənov M. Elmi-metodik kitabxanaşünaslıq işinin təşkili haqqında // 70 il xalqın xidmətində.-B.,1993.-S.77-83;Xələfov A. və b. Kitabxana işçisinin m'əlumat kitabı.-B.,1986.-S.271-274.

### *5.3. Metodik tə'minatın informasiya funksiyalarının inkişaf etdirilməsi*

Müasir dövrdə Azərbaycanda kitabxana işinin tə'minat sisteminin optimallaşdırılmasında sistemin informasiya funksiyalarının inkişaf etdirilməsi, başqa sözlə, sistemin informasiya tə'minatının formalaşması mühüm əhəmiyyət kəsb edir. Kitabxanaların metodik tə'minat sisteminin informasiya funksiyaları dedikdə sistemin fəaliyyəti və onun tətbiq obyekti - kitabxana işinin vəziyyəti ilə əlaqədar daxili və xarici mə'lumatlar bazasının formalaşması və müvafiq informasiyanın metodik fəaliyyətin bütün mərhələlərində istifadəsi nəzərdə tutulur.

Mə'lum faktdır ki, informasiyasız metodik tə'minat sisteminin məqsəd və vəzifələrinin düzgün müəyyənləşdirilməsi, kitabxana-informasiya məkanında yaranmış şəraitin qiymətləndirilməsi, metodik tə'minat sistemində meydana çıxan problemlərin dərk edilməsi və onların həllinə yönəlmiş strateji və taktiki qərarların qəbul edilməsi, həyata keçirilməsi və idarə olunması mümkün deyildir.

Kitabxanaların metodik tə'minat sisteminin təşkili və idarə olunması informasiyanın müxtəlif növlərinin tətbiqini tələb edir. Müxtəlif informasiya növlərinin tətbiqi nəticəsində cəmiyyətdə kitabxanaçılıq fəaliyyətinin proqnozlaşdırılması, eləcə də metodik fəaliyyətin müxtəlif istiqamətlərinə dair əsaslandırılmış qərarların qəbul edilib həyata keçirilməsi imkanları yaranır.

Dövlət səviyyəsində həyata keçirilən metodik tədbirlər üçün cəmiyyətdə baş verən kitabxana-informasiya proseslərinin vəziyyətinə, inkişaf meyllərinə, bu proseslərdə yaranan problemlərə, kitabxana işinin digər sosial-humanitar institutlarla əlaqələrinə dair kompleks informasiya sisteminin yaradılması tələb olunur.

Kitabxanaların metodik tə'minat sisteminin informasiya funksiyalarını 3 səviyyəli piramida şəklində təsəvvür etmək olar:

**Aşağı səviyyə:** kitabxana işində meydana çıxan cari problemlərin operativ həllinə yönəlmiş informasiya;

**Orta səviyyə:** kitabxana işinin yaxın gələcəkdə inkişafına xidmət edən taktiki vəzifələrin həllinə yönəlmiş informasiya;

**Yuxarı səviyyə:** cəmiyyətdə kitabxana-informasiya proseslərinin strateji vəzifələrinin müəyyənləşdirilməsi və həyata keçirilməsi ilə əlaqədar informasiya.

Aşağıdakı cədvəldə ölkədə kitabxana işinin metodik tə'minat sistemində formalaşmasını zəruri saydığımız informasiya səviyyələri və onların istifadəsi halları göstərilir:

| № | İnformasiya səviyyəsi | İnformasiyanın istifadəsi |
|---|---|---|
| 1. | Strateji məqsədlər üçün informasiya | Cəmiyyətdə kitabxana işinin perspektivlərini və bu inkişafın metodik tə'minatını müəyyənləşdirmək üçün istifadə edilən xarici informasiya |
| 2. | Taktiki vəzifələrlə əlaqədar informasiya | Cəmiyyətdə kitabxana şəbəkələri və sistemlərinin müasir vəzəfələrinin həyata keçirilməsinin metodik tə'minatı məqsədi ilə xarici və daxili informasiya |
| 3. | Cari məsələlərə dair informasiya | Kitabxanaların gündəlik fəaliyyətində meydana çıxan müxtəlif cari problemlərin metodik tə'minatı üçün operativ informasiya |

Kitabxana işinin metodik tə'minatının informasiya sistemi kompüterləşdirilmiş sistem kimi özündə bir-biri ilə əlaqədə olan 3 altsistemi birləşdirərək kitabxanaçılıq fəaliyyətinin cari və perspektiv problemlərinin həllinə yönəlmiş ölkədaxili və xarici sənədləri, həmçinin digər informasiyaları əks etdirməlidir.

Kitabxana işində strateji probemlərin həllinə yönəlmiş dövlət əhəmiyyətli yuxarı səviyyəli kompleks informasiya sistemi respublikada kitabxana işi üzrə baş və əlaqələndirici metodik mərkəz olan M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasında, orta və aşağı səviyyəli informasiya sistemləri isə müvafiq surətdə sahəvi

metodik mərkəzlərdə və MKS-lərin mərkəzi kitabxanalarında yaradılmalıdır.

Metodik tə'minat sisteminin informasiya bazaları vahid proqram tə'minatına, sistemdaxili və sistemlərarası inteqrasiya və kooperasiya prinsiplərinə əsaslanmalıdır. Bu informasiya bazaları özündə kitabxana işinə dair dünya təcrübəsini işıqlandıran xarici materiallarla yanaşı, Azərbaycanda mövcud kitabxana şəbəkələri və sistemlərinin fəaliyyətinə dair bütün mə'lumatları əks etdirməli və bununla da ölkədə kitabxana işinin metodik tə'minatı ilə əlaqədar strateji və cari məsələlərin müəyyənləşdirilməsi və icra edilməsi üçün zəmin yaratmalıdır.

Azərbaycanda kitabxana işinin metodik tə'minat sisteminin informasiya funksiyalarını gücləndirməsi mövcud dünya və ölkə informasiya mənbələrindən səmərəli istifadə ilə yanaşı, eyni zamanda ölkədə metodik tə'minat fəaliyyətinin informasiya ehtiyatlarının yeni tipli müasir metodik materiallarla zənginləşməsini nəzərdə tutur.

Qeyd edildiyi kimi, metodik mərkəzlər tərəfindən kitabxanaçılıq fəaliyyətinin müxtəlif məsələləri üzrə metodik sənədlərin tərtib edilməsi və yayılması metodik tə'minat sistemində əhəmiyyətli yer tutur.

«Kitabxana işi haqqında qanun»da qeyd edildiyi kimi «elmi-metodik mərkəz statusuna malik olan kitabxanalar kitabxanaşünaslığa, biblioqrafiyaya və informasiyaya dair metodik materiallar nəşr edir, kitabxanaçılıq nəzəriyyəsi və təcrübəsində mütərəqqi iş üsullarını ümumiləşdirib tətbiq edir»[520].

Tədqiqatdan göründüyü kimi, son 70 il ərzində respublikanın metodik mərkəzləri tərəfindən metodik vəsaitlərin tərtibi istiqamətində xeyli iş görülmüş, zəngin təcrübə qazanılmışdır. Apardığımız hesablamalara görə, 1923-1993-cü illərdə ölkədə kitabxana işinin müxtəlif problemlərini əhatə edən 1200 addan artıq müxtəlif tipli metodik vəsait tərtib edilərək kitabxana ictimaiyyətinin öhdəsinə verilmişdir. Şübhəsiz ki, bu vəsaitlər respublikada kitabxana işinin inkişafının müxtəlif mərhələlərində öz rolunu oynamışdır. Bununla yanaşı, qeyd etməliyik ki, hazırda bu vəsaitlərin əksəriyyəti məzmun və tipoloji baxımdan köhnəlmiş və öz aktuallığını itirmişdir. Çünki bu materiallarda kitabxana işində kommunist ideologiyasını əks etdirən, kitabxana işinin sosial funksiyalarında kommunist tərbiyəsi və Marksist-Leninçi tə'limindən irəli gələn iş üsullarına daha geniş yer verilir.

Bu baxımdan informasiyalaşdırılmış cəmiyyətin formalaşdığı, dünya informasiya məkanında inteqrasiya proseslərinin getdikcə gücləndiyi bir şəraitdə kitabxanaların yeni statusunu müəyyənləşdirən metodik vəsaitlər sisteminin formalaşması ölkədə kitabxana işinin metodik tə'minatının səmərəliliyinin mühüm amili kimi meydana çıxır. Yeni tipli metodik sənədlər informasiyalaşdırılmış cəmiyyətdə kitabxana işinin strateji inkişaf yollarının, kitabxanalarda yeni texnologiyaların tətbiqinin, milli kitabxana strategiyalarının yaradılmasının tə'minatında əsaslı rol oynamalıdır. Bu sənədlər respublikamızda fəaliyyət göstərən bütün metodik mərkəzlərdə hazırlanmalı, toplanmalı və geniş istifadə edilməlidir. Belə sənədlər dünya təcrübəsindən istifadə edilməklə hazırlanmalı, bütün kitabxanalarda tətbiq edilməlidir.

Müasir dövrdə və yaxın gələcəkdə Azərbaycanda kitabxana işinin perspektivlərinə uyğun olaraq metodik sənədlər sistemi aşağıdakı istiqamətlərdə inkişaf etməlidir;

-***Normativ və tənzimləyici sənədlər.*** Buraya kitabxana işinə dair nümunəvi tə'limatlar, nizamnamələr, əsasnamələr, texnoloji proseslərə dair normalar və qaydalar daxildir. Bu sənədlər əsasən ölkə miqyasında baş metodik mərkəz olan M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanası tərəfindən sahəvi metodik mərkəzlərlə əlaqələndirilmiş şəkildə hazırlanmalıdır. Normativ sənədlər hazırlanarkən ölkədaxili kitabxana şəbəkələrinin fəaliyyətinin əlaqələndirilməsinə yönəlmiş mate-

---

[520] Kitabxana işi haqqında Azərbaycan Respublikasının Qanunu// Azərbaycan.-1999.-14 mart.

rialların işlənməsinə xüsusi diqqət yetirilməlidir. Normativ sənədlərin mühüm tərkib hissəsini kitabxana, biblioqrafiya və informasiya fəaliyyəti ilə əlaqədar milli standartlar təşkil etməlidir.

Normativ və tənzimləyici sənədlər məcmuə şəklində dərc edilərkən belə nəşrlərə kitabxana işinə və əlaqəli sahələrə dair (Kütləvi İnformasiya Vasitələri, arxiv işi, mədəni-maarif işi, informasiya, kitab nəşri və s.) dövlət sənədləri də daxil edilməlidir.

***Elmi tədqiqatların nəticələrinin kitabxana təcrübəsinə dair metodik işləmələr.*** Belə sənədlər özündə ölkədə və dünyada kitabxana işinin təşkili, cəmiyyətdə kitabxana-informasiya sisteminin inkişafının müasir problemlərinə həsr edilmiş elmi-tədqiqatların nəticələrinin kitabxanalarda tətbiqi ilə əlaqədar elmi-təşkilati, metodiki, eksperimental, texnoloji, sosioloji və s. tədbirlərin həyata keçirilməsi məsələlərinə həsr edilməlidir.

Şübhəsiz ki, bu tipli metodik vəsaitlər arasında kitabxana işinin sosial funksiyalarına keyfiyyət və kəmiyyət dəyişilmələri gətirən, müasir texnologiyaya əsaslanan yeni xidmət növlərinə həsr edilmiş tədqiqatlara və eksperiment xarakterli işlərə xüsusi diqqət yetirilməlidir.

Elmi tədqiqatların nəticələrinin kitabxana təcrübəsinə tətbiqi məsələlərinə həsr edilmiş metodik işləmələrdə problemin qoyuluşu, seçilməsi, əsaslandırılması və təhlili, tətbiqi proqramı və icra metodları, mərhələləri, əlaqələndirilməsi, icraçıların müəyyənləşdirilməsi, eksperimentlərin təşkili, tətbiqi nəticələrinin proqnozlaşdırılması, iqtisadi baxımdan qiymətləndirilməsi və s. elmi-tədqiqat işləmələri başlıca yer tutmalıdır.

***-Təcrübi vəsaitlər.*** Belə vəsaitlər bir qayda olaraq kitabxana işinin müxtəlif sahələrinə, əksər hallarda ayrı-ayrı texnoloji proseslərin həyata keçirilməsinə yönəlmiş, kitabxana təcrübəsinin son nailiyyətlərinə əsaslanan əməli işlərin təsvirindən və izahından ibarət olmalıdır.

Təcrübi vəsaitlər respublika əhəmiyyətli metodik mərkəz statusuna malik kitabxanalar tərəfindən tərtib olunaraq müvafiq kitabxana şəbəkəsində aparılan işlərin təşkilinə həsr edilməlidir. Komplektləşdirmə, kataloqlaşdırma, planlaşdırma, uçot, hesabat, əməyin elmi təşkili və s. iş proseslərinin təşkilinə dair əməli işlərin yeni texnologiya əsasında həyata keçirilməsinə həsr edilmiş belə vəsaitlər aktual olub kitabxana işçilərinin peşə səviyyəsinin yüksəlməsində əhəmiyyətli rol oynaya bilər.

***-Metodik məktublar***. Metodik məktublar əsasən ölkədə çap edilən kitabxanaşünaslıq ədəbiyyatında, o cümlədən, nəzəri və təcrübi nəşrlərdə kifayət qədər işıqlandırılan, lakin bitkin həllini tapmayan məsələlərə həsr oluna bilər.

Belə məktubların mövzuları kitabxana təcrübəsində, əhaliyə kitabxana xidmətində meydana çıxan yeni, cari problemlər, çətinliklər, kitabxanaların metodik mərkəzlərə müraciətlərində müşahidə edilən sorğular əsasında müəyyənləşdirilə bilər. Hər bir metodik məktubda problemin qısa xarakteristikası, kitabxana işində tətbiqi, tövsiyə edilən yeni iş üsulunun icra mexanizmi açıqlanmalıdır. Hər bir metodik məktubda mövzu ilə əlaqədar mövcud ölkə ədəbiyyatı və xarici ədəbiyyatın siyahısı verilməlidir. Həmçinin metodik məktublar müstəqil şəkildə və ya kitabxana işinə dair məcmuələrdə çap edilə bilər.

***-Metodik tövsiyələr***. Metodik tövsiyələr dedikdə kitabxana işinin ayrı-ayrı konkret sahələrinə dair kitabxanaçıların fəaliyyətinə kömək məqsədilə tərtib edilmiş vəsaitlər nəzərdə tutulur. Kütləvi kitabxanalar üçün nəzərdə tutulan belə işləmələr özündə kitabxanalarda kütləvi tədbirlərin, o cümlədən, ədəbi-bədii gecələrin, informasiya günlərinin, mütəxəssis günlərinin, yeni ədəbiyyata ictimai baxışların, kitab sərgilərinin, disputların, kitab müzakirələrinin təşkilinə dair tövsiyələrin, ədəbiyyat siyahısının, əyani vəsaitlərin sxemlərini əks etdirməlidir.

Müasir dövrdə kitabxanalarda, o cümlədən, elmi, elmi-texniki və xüsusi kitabxanalarda yeni texnologiyanın tətbiqinə həsr edilmiş metodik tövsiyələrin hazırlan-

ması çox böyük əhəmiyyət kəsb edir. Bu baxımdan ölkənin metodik mərkəzləri tərəfindən «Kitabxanalarda texnoloji proseslərin modernləşdirilməsi», «Kitabxanaların marketinq funksiyalarının formalaşması», «İnternet və kitabxanalar», «Ölkədə kitabxana ehtiyatlarının istifadəsinin inteqrasiyası» və s. mövzularda hazırlanan metodik işləmələr kitabxana ictimaiyyətinin müasir problemlərlə tanışlığına, onların bu sahələrdə təşəbbüskarlığının inkişafına kömək edər.

### *5.4. Metodik mərkəzlərin kitabxanaçılarının fasiləsiz təhsil sistemində iştirakı*

Kitabxana işçilərinin ixtisasının artırılması ilə əlaqədar metodik mərkəzlərdə, ixtisasartırma kurslarında məşğələlərə kömək məqsədi ilə xüsusi tədris planları tərtib edilməlidir. Belə sənədlər ölkəmiqyaslı, şəbəkədaxili və şəbəkələrarası xarakter daşıyaraq kitabxana işçilərinin peşə səviyyəsinin yüksəlməsinə xidmət edən problemləri əhatə etməlidir. Belə sənədlər kitabxana işçilərinin təhsili, iş təcrübəsi, fəaliyyət sahəsi və digər əlamətləri nəzərə alınmaqla müxtəlif səviyyələrdə tərtib oluna bilər. Bu vəsaitlərdə tədris planları və proqramlarla yanaşı, məşğələlərin təşkili, keçirilməsi metodikasına dair tövsiyələr və ədəbiyyat siyahıları verilməlidir.

Zənnimizcə, metodik mərkəzlər respublikada orta və ali ixtisaslı kitabxanaçı kadrlar hazırlayan təhsil müəssisələrində, o cümlədən, BDU-nun kitabxanaçılıq fakültəsində, Ə.Cavad adına Bakı Mədəni Maarif Texnikumunun kitabxanaçılıq şö'bəsində, eləcə də Respublika Mədəniyyət Nazirliyi ixtisasartırma kurslarında planların və proqramların tərtibində iştirak etməklə bu təhsil ocaqlarında tədris prosesinin kitabxana təcrübəsinə daha yaxından əlaqələndirilməsində səmərəli rol oynaya bilər.

-***Qabaqcıl kitabxanaların iş təcrübəsinə həsr edilmiş vəsaitlər.*** Belə vəsaitlər öz fəaliyyətində daha səmərəli iş üsullarından, müasir texniki vasitələrdən, elmi tədqiqatların nəticələrindən istifadə etməklə oxuculara xidmət işində keyfiyyətcə yeni nailiyyətlər qazanmış, müvafiq normalara nisbətən daha yüksək kəmiyyət göstəricilərinə nail olmuş, özünün xidmət dairəsində kitabxanaçılıq fəaliyyətinin sosial funksiyalarının daha da genişlənməsi və gücləndirilməsi istiqamətində başqa kitabxanalar üçün nümunə ola bilən nəticələr əldə etmiş kitabxana müəssisələrinin iş təcrübəsini əks etdirməlidir.

Qabaqcıl kitabxananın iş təcrübəsini əks etdirən hər bir vəsaitin tərtibi metodikasına dair aşağıdakı tələbləri irəli sürmək olar:

1.Qabaqcıl təcrübənin seçilməsi;

2.Qabaqcıl təcrübənin öyrənilməsi:

a) qabaqcıl təcrübənin məzmun və təşkilati baxımdan təhlili;

b) əldə edilmiş kəmiyyət və keyfiyyət göstəricilərinin təsviri;

v) qabaqcıl təcrübənin əldə edilməsi üsullarının səbəb-nəticə baxımından təhlili;

q) qabaqcıl təcrübənin formalaşması prosesində meydana çıxan problemlər.

3.Qabaqcıl təcrübənin ümumiləşdirilməsi. Alınmış nəticələrin sistemli təhlili.

4.Qabaqcıl təcrübənin digər kitabxanaların fəaliyyətində tətbiqinə dair tövsiyələr və təkliflər.

5.Əlavə: qabaqcıl təcrübənin formalaşması prosesində tətbiq edilən plan, proqram, uçot, statistika, anket, müşahidə, eksperiment və s. tədbirlərlə əlaqədar sənədlər, formalar, arayışlar.

-***Kitabxanaların illik fəaliyyətinin icmalları.*** Belə icmallar ümumrespublika, regionlar və şəbəkələr üzrə olub milli kitabxana, sahəvi metodik mərkəzlər və MKS-lərin mərkəzi kitabxanaları tərəfindən hər il hazırlanıb kitabxanalara göndərilə bilər.

Kitabxanaların illik hesabatları əsasında tərtib edilmiş icmalların əsas məqsədi il ərzində müvafiq kitabxana şəbəkəsinin fəaliyyətinin mühüm istiqamətləri, əldə

edilmiş nailiyyətlər, kitabxana kollektivlərinin qarşılaşdığı çətinliklər və onların aradan qaldırılması yolları haqqında kitabxana ictimaiyyətinə geniş mə'lumat verməkdən, ölkədə kitabxana işinə dair şəbəkələrarası və ya regionlararası təcrübə mübadiləsini təşkil etməkdən ibarətdir. Belə nəşrlərdə müvafiq kitabxanaların illik fəaliyyətinin yekunlarının ümumiləşdirilməsinə və bu fəaliyyətin təkmilləşdirilməsinə yönəldilmiş təklif və tövsiyələrə xüsusi diqqət yetirilməlidir. 1970-ci ildən respublikada uşaq kitabxanalarının fəaliyyətini təhlil edən ilk icmalların hazırlanması təcrübəsinin olmasına baxmayaraq sonralar belə icmalların hazırlanması metodik mərkəzlər tərəfindən tətbiq edilmədi. Dünya təcrübəsində geniş yayılmış belə nəşlərin ölkəmizdə meydana gəlməsi kitabxanaların illik fəaliyyətinin təhlilində və ümumiləşdirilməsində eləcə də kitabxanalararası təcrübə sisteminin formalaşmasında əhəmiyyətli rol oynayır.

***-Metodik-biblioqrafik vəsaitlər.*** Bu tipli vəsaitlərdə kitabxana işinin bu və ya digər məsələlərinə və iş proseslərinə dair tövsiyə və təkliflər verilir, bununla yanaşı, müvafiq məsələyə dair yeni ədəbiyyatın tövsiyə siyahısı da əlavə dərc edilir. Belə nəşrlərin əsas məqsədi kitabxana işçilərinin diqqətini həmin məsələyə cəlb etməkdən, eyni zamanda peşə fəaliyyətinə dair mütaliə dairəsini genişləndirməkdən ibarətdir.

***-Tematik məcmuələr***. Milli kitabxana və sahəvi metodik mərkəzlər tərəfindən hazırlanan tematik məcmuələrin hər bir buraxılışı cəmiyyətdə kitabxanaçılıq fəaliyyətinin aktual probleminə həsr edilib, özündə müvafiq problemlə əlaqədar həmin istiqamətdə qazanılmış təcrübəni əks etdirən məqalələr toplusundan ibarət olmalıdır. Tematik məcmuələr nəzəriyyəçilər və qabaqcıl kitabxanaların səriştəli işçilərindən ibarət müəlliflər kollektivinin birgə sə'yi nəticəsində hazırlanmalıdır.

***-Xarici ölkələrdə kitabxana biblioqrafiya və informasiya (referativ və informasiya bülleteni).*** Vaxtaşırı dərc edilən bu informasiya bülletenində dünya kitabxana informasiya məkanında baş verən yeniliklər, dünyanın böyük kitabxanalarının, informasiya orqanlarının, kitabxana - informasiya korporasiya və konsersumlarının, eləcə də beynəlxalq kitabxana təşkilatları və assosiasiyalarının fəaliyyəti haqqında mə'lumatlar verilə bilər.

Referativ informasiya bülletenində verilən, xaricdə dərc olunan kitabxanaşünaslıq ədəbiyyatının məzmununu açan referatlar və s. mə'lumatlar, şübhəsiz ki, Azərbaycanda kitabxana işi nəzəriyyəsi və təcrübəsinin informasiya tə'minatında qiymətli vəsait ola bilər.

Respublikamızdakı kitabxana və informasiya müəssisələrinin təcrübəli əməkdaşlarından ibarət redaksiya hey'əti M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasında, Bakı Dövlət Universitetinin kitabxanaçılıq fakültəsində yaradıla bilər. Bülletenin nəşrinin maliyyələşdirilməsində Azərbaycanda fəaliyyət göstərən «Açıq Cəmiyyət İnstitutu»nun (SOROS fondu) müvafiq qrantlarından istifadə edilə bilər.

Göstərdiyimiz vəsaitlərlə yanaşı, metodik mərkəzlər tərəfindən «Azərbaycanda kitabxana işinə dair statistik mə'lumatlar», «Azərbaycanda nəşr edilən kitabxanaşünaslıq ədəbiyyatının icmalı», «Kitabxanaların metodik tə'minatının birləşmiş planları» və s. vəsaitlərin vaxtaşırı nəşri cəmiyyətdə kitabxanaçılıq fəaliyyətinin dünya me'yarlarına uyğun şəkildə inkişaf etməsinə, bu işdə metodik mərkəzlərin fəaliyyətinin elmi əsaslarla təşkilində, əlaqələndirilməsində, metodist kadrların, kitabxana işçilərinin elmi dünyagörüşünün və peşə səviyyəsinin inkişafında çox böyük rol oynayar.

Azərbaycanda kitabxana işinə dair metodik vəsaitlər sisteminin elmi əsaslarla formalaşması problemi bir sıra metodoloji prinsiplərin həllini tələb edir. Ölkədə kitabxana işinin metodik tə'minatında informasiya funksiyalarını yerinə yetirən bütün vəsaitlərin tərtibində aşağıdakı ümumi tələblərə riayət edilməlidir: Əvvəla, bütün metodik vəsaitlər məzmunu və tərtibi metodikası baxımından aktuallıq kəsb etməli, demokratik ruhda tərtib edilməli, direktiv və inzibati göstərişlərdən uzaq olmalı,

özündə bu və ya digər problemin həlli ilə əlaqədar bir neçə alternativ variantı əks etdirməli, kitabxanaçılarda yaradıcılıq, təşəbbüskarlıq meyllərini gücləndirməlidir.

Daha sonra metodik sənədlər əvvəllərdə olduğu kimi yalnız «Nə etməli?» sualına cavab verməyib, eyni zamanda özündə «Necə etməli?» sualının cavabını da əks etdirməlidir.

Bütün metodik materiallar bu və ya digər məsələ ilə əlaqədar yalnız qabaqcıl dünya təcrübəsini əks etdirən mütərəqqi iş üsullarını işıqlandırmalıdır. Bununla yanaşı, hər bir metodik sənəd özündə kitabxana işi sahəsində dünya təcrübəsində formalaşmış bu və ya digər problemin həllini ölkədə kitabxana işinin inkişaf xüsusiyyətlərinə, Azərbaycanda çoxəsrlik kitabxana fəaliyyətinin tarixi ən'ənələrinə və müasir vəzifələrinə uyğun şəkildə şərh etməlidir. Metodik vəsaitlərin dili, üslubu, problemlərin şərhi, tətbiqi mexanizmi aydın, sadə və nəzəriyyəçilikdən uzaq olmalıdır.

Vəsaitlərdə tövsiyə edilən hər bir iş üsulu, forma və metodları nəzəri, metodik və təcrübi baxımdan kifayət qədər əsaslandırılmalıdır.

Nəhayət, metodik mərkəzlər metodik vəsaitlərin kitabxana təcrübəsində istifadə səmərəliliyini müntəzəm surətdə öyrənməli, vəsaitlərdə əks olunmuş təklif və tövsiyələrin kitabxana işində tətbiqini tə'min edərək bu işi daim nəzarətdə saxlamalıdır.

Kitabxana işi üzrə metodik mərkəzlərin kitabxanaçılıq təhsili sistemində fəaliyyətinin genişləndirilməsi xüsusi əhəmiyyət kəsb edir və aşağıdakı mərhələ və pillələrə bölünür:

1.Orta ixtisas təhsili;
2.Ali ixtisas təhsili:
a) bakalavr pilləsi;
b) magistratura pilləsi;
v) aspirantura pilləsi;
3.İxtisasartırma və kadrların yenidən hazırlanması;
4.Şəxsi təhsil.

Qeyd etmək lazımdır ki, hazırda ölkədə kitabxanaçılıq təhsili sisteminin mərhələ və pillələri əlaqələndirilməmişdir, əksər hallarda isə bir-birindən tamamilə təcrid olunmuş şəkildə fəaliyyət göstərirlər.

Ölkədə kitabxanaçılıq üzrə fasiləsiz təhsil sisteminin ümumi strateji siyasət və konsepsiyaya uyğun inkişaf etdirilməsi, sistemin bütün pillələrinin vahid iyerarxiya prinsipləri əsasında yeniləşdirilməsi vəzifələri metodik mərkəzlərin bu prosesdə fəal iştirakını tələb edir. Söhbət respublikada kitabxanaçı kadrların fasiləsiz təhsil sisteminin kitabxana işinin metodik tə'minat sistemi ilə dialektik vəhdətdə, bir-birini tamamlayan elmi-təcrübi, pedaqoji və metodik baxımdan əlaqələndirilmiş sistemli fəaliyyət kimi formalaşmasından gedir.

Belə güman edirik ki, müasir dövrdə kitabxanaların metodik tə'minat sistemi ilə kitabxanaçılıq təhsili sisteminin inteqrasiyası özünün əməli təzahürünü ilk növbədə orta və ali təhsil müəssisələrində ixtisas fənləri üzrə tədris proqramlarının birgə hazırlanmasında tapmalıdır.

Azərbaycanda kitabxanaçılıq təhsilinin formalaşmasında xüsusi xidmətləri olan professor Abuzər Xələfovun qeyd etdiyi kimi «Yüksək ixtisaslı kadrların hazırlanması tədris prosesinin planauyğun, ardıcıl və məqsədyönlü təşkilindən asılıdır. Bu iş isə bilavasitə kadr hazırlığının strategiyası hesab edilən tədris planlarının dövrün tələblərinə, elmi tərəqqinin səviyyəsinə, elmi proqnozlar əsasında bu və ya digər elmi inkişaf perspektivlərinə, ixtisasın, sənətin gələcəyinə əsaslanaraq tərtib edilməlidir».[521]

Bu fikri bir qədər də inkişaf etdirərək əlavə etmək istərdik ki, kitabxanaçılıq təhsili üzrə tədris planları və proqramları eyni zamanda müasir dövrdə dünya infor-

---

[521] Xələfov A.A. Azərbaycanda kitabxanaçılıq təhsilinin inkişafı.-B.:Maarif, 1987.-S.57.

masiya məkanında getdikcə mürəkkəbləşən kitabxana-informasiya proseslərini nəzərə alan, müasir texnologiya zəminində həyata keçirilən kitabxana proseslərini, kitabxana xidmətindəki demokratik prinsipləri, cəmiyyətdə kitabxana işinin idarə olunmasının elmi, iqtisadi, sosioloji, hüquqi və s. məsələlərini əks etdirən sənədlər olmalıdır. Kitabxanaçılıq təhsili üzrə tədris planları və proqramları gündəlik kitabxana təcrübəsi ilə ayaqlaşan, gələcək mütəxəssislərə öz ixtisası üzrə informasiya əsrinə uyğun peşə biliklərini aşılamaq üçün geniş imkanlar açan vasitə olmalıdır. Bütün bunlar tədris planları və proqramlarının tərtibi prosesinə geniş oxucu kütlələrinə, informasiya istehlakçılarına kitabxana xidməti işində zəngin təcrübəyə və mütərəqqi ən'ənələrə malik olan metodik mərkəzlərin cəlb olunmasını tələb edir.

Azərbaycanda kitabxana işinin metodik tə'minat sisteminin yetmiş ildən artıq təcrübəsi, keçdiyi çox zəngin yol, bu yolun ayrı-ayrı inkişaf mərhələləri aydın şəkildə sübut edir ki, kitabxanaçılıq təhsili üzrə tədris planları və proqramlarının ən optimal variantının formalaşması yalnız bu təcrübənin nəzərə alınması nəticəsində mümkündür. Əks halda tədris sistemindəki nəzəri fənlərdə irəli sürülən ideya və prinsiplər şablona, trafaretə və nəticədə doqmatik öyrənməyə, əzbərçiliyə gətirib çıxarar.

Mə'lum faktdır ki, müasir dövrdə orta və ali kitabxanaçılıq təhsili cəmiyyətdə baş verən mürəkkəb kitabxana - informasiya proseslərindən təcrid olunmuş şəkildə inkişaf edə bilməz. Təsadüfü deyil ki, dünya kitabxanaşünaslıq nəzəriyyəsi və təcrübəsi qarşılıqlı əlaqədə tədris edilir. Buna görə də müasir kitabxanaçılıq təhsili sistemində heç bir nəzəri fənni təcrübədən kənarda təsəvvür etmək mümkün deyildir. Bütün bunlar aydın göstərir ki, kitabxanaçılıq təhsili müəssisələrində tədris prosesinin mütərəqqi təcrübi yeniliklərlə zənginləşdirilməsi ilk növbədə tədris planları və proqramlarının tərtib edilməsinə metodik mərkəz statusuna malik olan elmi kitabxanaların cəlb edilməsi zərurətini irəli sürür.

Metodik mərkəzlərin fəaliyyətinin kitabxanaçılıq təhsili sistemi ilə əlaqələndirilməsinin digər istiqaməti tələbələrin istehsalat təcrübəsinə dair proqramların hazırlanmasında, istehsalat təcrübəsinin təşkilində tapmalıdır.

İstehsalat təcrübəsi proqramlarının tərtib edilməsində metodik mərkəzlərin bilavasitə iştirakı bu sənədlərdə kitabxana təcrübəsində baş verən mütərəqqi meyllərin əks etdirilməsinə, müasir texnologiyaya bələd olan kitabxana mütəxəssisi hazırlanması vəzifələrinə müsbət tə'sir göstərə bilər.

Təbiidir ki, kitabxanaçıların fasiləsiz təhsil sistemində metodik mərkəzlərin iştirakı daha çox ixtisasartırma və kadrların yenidən hazırlanması mərhələsində özünü büruzə verir. Müvafiq istiqamətdə bir neçə onilliklər ərzində müəyyən təcrübə əldə edilməsinə baxmayaraq, 90-cı illərdən başlayaraq bu təcrübə getdikcə zəifləmiş, son vaxtlar isə çox bərbad hala düşmüşdür. Şübhəsiz ki, müasir dövrdə kitabxana işçilərinin ixtisasartırma və yenidən hazırlanma prosesi metodik mərkəzlərin bilavasitə iştirakı olmadan həyata keçirilə bilməz. Dünya təcrübəsi sübut edir ki, inkişaf etmiş xarici ölkələrdə, Rusiyada, MDB məkanında kitabxanaçıların fasiləsiz təhsil sisteminin ixtisasartırma mərhələsi məhz metodik mərkəz statusuna malik olan kitabxanalarda mərkəzləşdirilmişdir. Bu məqsədlə ABŞ-da, Avropa ölkələrində, Rusiyada və s. ölkələrdə iri elmi kitabxanaların bazasında kitabxana işinə dair menecment, treyninq, digər kitabxanaçılıq təhsili mərkəzləri yaranır və bu iş kitabxanaların metodik tə'minat sistemlərində aparıcı fəaliyyət sahəsinə çevrilir.[522]

Hazırda respublikada dövlət kitabxana şəbəkəsi işçilərinin ixtisasının artırılması və yenidən hazırlanması eyni zamanda Mədəniyyət Nazirliyinin nəzdində fəa-

---

[522] Суслова И.М. Методическая работа библиотек: перспективные концепции.-М.,1995.-46 с.; Методические аспекты подготовки менеджеров информационных и коммерческих служб.-М.,1988.-74 с.;Школа Рудомино: учебный центр, стратегия работы.-М.,1999.-7 с.; Бачальдин Б.Н., Инькова Л.М. Менеджмент в научно-методической работе.-М.,1993.-254 с.

liyyət göstərən daimi kurslarda həyata keçirilir. Lakin bu vaxta qədər metodik mərkəzlərlə həmin ixtisasartırma kursları arasında optimal əlaqələndirmə sistemi yaranmamış və metodik mərkəzlərin kurslarda iştirakı sistemsiz həyata keçirilmişdir. Respublikada kitabxana işçilərinin ixtisasının artırılması ilə əlaqədar olaraq perspektiv plan və prosesi tənzimləyən tədris metodik təkliflər və əlaqələr yoxdur. Kitabxana işi üzrə metodik mərkəzlərin heç biri müvafiq kitabxana şəbəkəsi işçilərinin ixtisasartırma problemi ilə əlaqədar uzunmüddətli tədris proqramlarının tərtibi ilə məşğul olmur. Başqa sözlə, ölkədə kitabxanaçılıq fəaliyyəti ilə məşğul olan təqribən 30 minlik mütəxəssislər ordusunun ixtisasının artırılması və yenidən hazırlanması işinin elmi metodik baxımdan əsaslandırılmış strateji proqramı yoxdur. Zənnimizcə, respublikada kitabxana işçilərinin ixtisasının artırılması və yenidən hazırlanması prosesində metodik mərkəzlərin fəaliyyəti məqsəd, vəzifə, forma, məzmun və təşkilati baxımdan aşağıdakı prinsip və metodlar əsasında həyata keçirilməlidir:

Əvvəla, respublikada kitabxana işçilərinin ixtisasının artırılmasının xüsusi proqramı hazırlanmalıdır. Milli kitabxana və şəbəkə kitabxanaları üzrə metodik mərkəzlərin iştirakı ilə yaradılmış bu proqramlar yaxın beş il ərzində kitabxana işçiləri tərəfindən öyrənilməsi nəzərdə tutulmuş problemlər üzrə nəzəri biliklər verən və əməli vərdişlər aşılayan kompleks proqramlar olmalıdır.

Proqramlar tərtib edilərkən kitabxanaların tipləri, profili, sosial vəzifələri, işçilərin təhsil və peşə səviyyəsi, tutduğu vəzifə, əmək fəaliyyəti nəzərə alınmaqla yanaşı, ixtisasartırma təhsilində sistemlilik, fərdilik, müntəzəmlik və planlılıq prinsipləri əsas götürülməlidir. Metodik mərkəzlərin kitabxana işçilərinin ixtisasartırma prosesindəki fəaliyyəti 4 səviyyədə həyata keçirilə bilər.

- kitabxanadaxili;
- şəbəkədaxili;
- şəbəkələrarası;
- respublika səviyyəli.

Hər bir səviyyənin özünəməxsus konkret məqsəd və vəzifələri, iş üsulları və tədris metodları olmalıdır.

Kitabxanadaxili ixtisasartırma tədbirləri müvafiq kollektivin konkret fəaliyyəti ilə sıx əlaqələndirilmiş qaydada, şəbəkədaxili tədbirlər isə bu və yadigər kitabxana şəbəkəsinin respublikanın kitabxana sistemlərində həyata keçirdiyi funksiyaları əsas götürməklə təşkil edilməlidir.

Şəbəkələrarası ixtisasartırma tədbirləri oxuculara kitabxana - informasiya ehtiyatlarının istifadəçilərinə xidmətin aktual problemlərinin həlli üçün kitabxanaçılar tərəfindən nəzəri biliklərin dünya təcrübəsi və əməli vərdişlərin mənimsənilməsinə yönəldilmiş tə’lim metodlarından ibarət olmalıdır. Burada müvafiq problemlərin həyata keçirilməsində şəbəkələrarası inteqrasiya proseslərinin işıqlandırılmasına üstünlük verilməlidir. Respublika miqyaslı ixtisasartırma tədbirləri isə kitabxana işinin qlobal problemlərinin həlli ilə əlaqədar strateji siyasətin müəyyənləşdirilməsi və həyata keçirilməsi ilə əlaqədar olmalıdır.

İxtisasartırma tədbirlərində dinləyicilər kontingentinin məqsədyönlü formalaşması tə'lim prosesində olduqca mühüm əhəmiyyət kəsb edir. Belə ki, bir sıra xarici ölkələrin, o cümlədən, Rusiyanın kitabxanaçılıq təcrübəsi sübut edir ki, ixtisasartırma sisteminin bütün pillələrində auditoriya yalnız dinləyicilərin funksional ixtisaslaşması, təhsil səviyyəsi və stajı nəzərə alınmaqla formalaşmalıdır.[523] Odur ki, metodik mərkəzlərdə ixtisasartırma məşğələlərinin dinləyici kontingentinin formalaşmasında kitabxana işinin mühüm sahələri, texnoloji prosesləri nəzərə alınmaqla tə’lim prosesi ixtisaslaşdırma prinsiplərinə əsaslanmalıdır. Məsələn, kitabxana fondlarının formalaşması, müasir kataloqlar və kataloqlaşdırma, informasiya xidməti və s.

[523] Бачалдин Б.Н., Инькова Л.М. Менеджмент в научно-методической работе.-М.,1993.-С.157.

Dinləyici kontingentinin ixtisaslaşdırılmış qruplara bölünməsində onların fəaliyyət göstərdiyi kitabxanaların tipi (texniki, tibb, kənd təsərrüfatı və s.), eləcə də xidmət etdikləri oxucu qruplarının xüsusiyyətləri (elmi işçilər, gənclər, uşaqlar) nəzərə alınmalıdır.

Müasir dövrdə kitabxana işinin idarə olunması, kitabxanaçılıq fəaliyyətinin planlaşdırılması və proqramlaşdırılması xüsusi əhəmiyyət kəsb etdiyindən ixtisasartırma sisteminin bütün pillələrində idarəetmə, kitabxana menecmenti məsələləri üzrə müvafiq ixtisaslaşdırılmış qrupların yaradılması olduqca vacibdir.

Kitabxanaçıların ixtisasartırma prosesində metodik mərkəzlərin öhdəsinə düşən çox mühüm vəzifə, tə'lim prosesinə dair tədris planları və proqramların hazırlanmasıdır.

Tədris planlarında kitabxana işçilərinin elmi, elmi-texniki, elmi-təbii, pedaqoji, psixoloji, sosioloji biliklərinin dərinləşməsini tə'min edən problemlərin tədrisinə diqqət yetirilməlidir. Bu problemlərlə əlaqədar mühazirələr kitabxana işçilərinin təfəkkürünün inkişafına, yaradıcı şəxsiyyət kimi formalaşmasına xidmət etməlidir.

Tədris planlarının ixtisas fənləri blokunda dinləyici kontingentinin profilinə uyğun mühazirələr və məşğələlər aparılması, problemin dünya nəzəriyyəsi və təcrübəsi səviyyəsində tə'lim edilməsi ixtisasartırma prosesinin ən vacib şərtidir. Unutmaq olmaz ki, ixtisasartırma məşğələlərində iştirak edən dinləyicilərin əksəriyyəti öz peşəsinə, ixtisas təhsilinə və ya müəyyən iş təcrübəsinə, bir çox hallarda isə hər ikisinə malik olan mütəxəssislərdir. Ona görə də ixtisasartırmanın əsas məqsədi kitabxanaçılara bu və ya digər sahəni, mövzunu öyrətməkdən deyil, onların bu sahədəki biliklərini genişləndirməkdən və dərinləşdirməkdən ibarətdir. Əlbəttə, tədris planları və proqramlarında yeni problemlərə, kitabxanaçıların əvvəlki dövrlərdəki təhsil prosesində və iş təcrübəsində mövcud olmayan müasir nəzəri və təcrübi yeniliklərin tədrisinə də xüsusi yer verilməlidir. Bu baxımdan ixtisasartırmanın bütün pillələrində, xüsusilə kitabxanadaxili və şəbəkədaxili səviyyədə təşkil edilmiş məşğələlərdə «Kitabxana proseslərinin kompüterləşdirilməsi», «Kitabxana xidmətində internet sistemlərindən istifadə edilməsi», «Avtomatlaşdırılmış kitabxana-informasiya sistemləri», «Kitabxanaların marketinq fəaliyyəti», «Kitabxana işinin idarə olunmasının müasir problemləri», «Kitabxana işində strateji planlaşdırma», «Kitabxanaların büdcədənkənar vəsaitlərdən istifadə etməsi yolları», «Kitabxanalarda yeni informasiya texnologiyasının tətbiq edilməsi» və s. digər aktual problemlərin öyrənilməsi diqqət mərkəzində olmalıdır.

Müasir dövrdə kitabxana işçilərinin ixtisasartırma prosesində ən mühüm məsələlərdən biri də kitabxanaçıların oxuculara xidmət işində köhnə vərdiş və stereotiplərdən azad olub demokratik prinsiplərə yiyələnməsidir. Kitabxanaçıların ixtisasartırma təhsili prosesində metodik mərkəzlər tərəfindən nəzəriyyə, metodika və uzunmüddətli təcrübə prosesində formalaşmış zəngin forma və üsullardan, rəngarəng pedaqoji metodlardan geniş istifadə edilməlidir. Mühazirələr, təcrübi məşğələlər, praktikumlar, seminarlar, «dəyirmi stol»lar, disputlar, qabaqcıl təcrübə məktəblərində məşğələlər, kitabxanaçıların iş yerində tə'limatlandırılması, işgüzar oyunlar, məsləhətlər, kitabxanaçı günləri, metodist günləri, referatların yazılması, kitabxanaşünaslıq ədəbiyyatının icmalları, müsabiqələr və s. kimi tə'lim-tədris növlərini buraya aid etmək olar.

İxtisasartırma prosesində istifadə edilən tə'lim metodlarından danışarkən təəssüflə qeyd etməliyik ki, bu istiqamətdə dünya təcrübəsində elə iş metodları mövcuddur ki, onlar hələ də respublikada çox az tətbiq edilir. Belə mühüm metodlardan biri stajorluqdur. Stajorluğun ən mühüm xüsusiyyəti ondan ibarətdir ki, bu ixtisasartırma üsulu ayrı-ayrı kitabxanaçıların və ya kiçik kitabxanaçı qruplarının peşə səviyyəsinin yüksəldilməsində xüsusi nailiyyətlər əldə etmiş kitabxanaların bazasında təşkil edilir və kitabxanaçıların müvafiq zəmində mütərəqqi iş üsullarının həyata keçirilməsində balavasitə iştirakını tə'min edir. Bu baxımdan respublikanın elmi, elmi-

texniki, iri kütləvi kitabxanalarının məs'ul və perspektivli əməkdaşlarının xarici ölkələrin kitabxanalarında stajorluq üçün e'zam edilməsi müasir dövrdə olduqca vacibdir.

Metodik mərkəzlər respublikada kitabxana işçilərinin stajorluğu ilə əlaqədar proqramların tərtibi, stajorların seçilməsi, stajorluq prosesinin nəticələrinin təhlili və tətbiqi məsələləri ilə ciddi məşğul olmalı və müvafiq təşkilatlar qarşısında məsələ qaldırmalıdırlar. Perspektivli kitabxanaçıların xarici ölkələrdə stajorluğunun maliyyələşdirilməsində sponsorlardan istifadə edilməsi ilə əlaqədar təşkilati-metodik işlərdə böyük kitabxanaların rəhbərləri xüsusi fəallıq göstərməlidirlər.

Kitabxana işçilərinin ixtisasartırma prosesində, onlara yüksək peşə vərdişlərinin aşılanmasında dünya təcrübəsində çox geniş tətbiq edilən tə'lim metodlarından biri də işgüzar oyunlardır ki, bu üsul da hələlik respublikada geniş tətbiq edilmir. İşgüzar oyunlar kitabxana işinin ayrı-ayrı problemlərinin həlli ilə əlaqədar kitabxana işçilərini daha optimal variantların seçilməsinə yönəldir, onların fəaliyyətində yaradıcılıq ünsürlərinin inkişafına tə'sir göstərir.

Respublikada kitabxana işçilərinin ixtisasının artırılması ilə əlaqədar metodik mərkəzlər tərəfindən həyata keçirilən tədbirlər mütləq Mədəniyyət Nazirliyinin, mədəniyyət işçilərinin ixtisasının artırılması və yenidən hazırlanması daimi kurslarının fəaliyyəti ilə əlaqələndirilməli və bu əlaqələndirmədə hər iki strukturun öhdəsinə düşən vəzifələr konkret olaraq müəyyənləşdirilməlidir. Zənnimizcə, metodik mərkəzlərlə Mədəniyyət Nazirliyinin ixtisasartırma kursları arasında əlaqələndirmə və vəzifə bölgüsü aşağıdakı kimi aparıla bilər:

| | Kitabxana işi üzrə metodik mərkəzlər | | Mədəniyyət Nazirliyinin kitabxana işçiləri üçün ixtisasartırma kursları |
|---|---|---|---|
| a) | Kitabxana mütəxəssisləri üçün proqramların tərtibi | a) | Kitabxana işinin bütün sahələri üzrə dinləyicilər üçün ümumi və sosial-siyasi fənlərin proqram və tədris planlarının hazırlanması |
| b) | Kitabxana işi problemləri üzrə mühazirələrin oxunması | b) | Seminar məşğələlərinin, təcrübə mübadiləsinin, işgüzar oyunların təşkili |
| v) | Referat və digər ev tapşırıqlarının mövzularının müəyyənləşdirilməsi və yoxlanılması | v) | Kitabxana işçiləri üçün mədəni proqramların (ekskursiya, mədəniyyət və incəsənət obyektlərinə gedişlər və digər kütləvi tədbirlər) hazırlanması və həyata keçirilməsi |
| q) | Peşə problemləri ilə əlaqədar məsləhətlər | q) | Dinləyici qruplarının formalaşması ilə əlaqədar təşkilati işlər |
| ğ) | Yekun məşğələləri və zaçotların qəbulunda iştirak etmək | ğ) | Təhsil prosesinin təşkili və idarə olunmasına ümumi nəzarət, təhsilin yekunlaşdırılması ilə əlaqədar müvafiq sənədlərin hazırlanması |

Əlbəttə, göstərilən əlaqələndirmə sxemi heç də məcburi nümunə kimi qəbul edilə bilməz. Təcrübə prosesində bu əlaqələndirmə üsulları daha da dəqiqləşdirilə və təkmilləşdirilə bilər.

Müasir dövrdə kitabxana işçilərinin ixtisasartırma prosesində yeni texniki vasitələrdən, kompüterlərdən istifadə edilməsi də vacib şərtlərdən biridir. Müasir kitabxanaçı mütləq kompüter texnologiyasına bələd olmalı, kitabxana işinin modernləşdirilməsinə, kompüter texnologiyasından, elektron və telekommunikasiya sistemlərindən səmərəli istifadə etmək vərdişlərinə yiyələnməlidir. Bu da öz növbəsində metodik mərkəz statusuna malik olan kitabxanaların, eləcə də ixtisasartırma kurslarının müvafiq texniki vasitələrlə tə'minatını tələb edir.

Kitabxana işçilərinin peşə səviyyəsinin yüksəlməsi ilə əlaqədar qeyd etdiyimiz mühüm iş üsulları özünün rəngarəngliyinə və çoxşaxəliyinə baxmayaraq heç də ixtisasartırmanın ən əsas üsulu olan şəxsi təhsil üsulunu əvəz edə bilməz. Şəxsi təhsil bütün sahələrdə olduğu kimi kitabxanaçılıq sahəsində də peşə səviyyəsinin inkişafı-

na, hər bir kitabxanaçının müvafiq şəkildə mütəxəssis kimi formalaşmasına olduqca güclü tə'sir göstərir.

Bu baxımdan metodik mərkəzlər tərəfindən kitabxana işçilərinin şəxsi peşə təhsilinin istiqamətləndirilməsi, idarə olunması və daim nəzarətdə saxlanılması olduqca vacibdir. Bu məqsədlə kitabxana işçilərinin, xüsusən yenicə fəaliyyətə başlamış gənc kitabxana kadrlarının şəxsi peşə təhsilinə kömək edən fərdi mövzu və mütaliə proqramlarının tərtibi və hər bir kitabxanada bu işin lazımi səviyyədə idarə olunması metodik mərkəzlərin ixtisasartırma prsesindəki iştirakının çox mühüm istiqamətini təşkil edir.

Respublikada kitabxana işçilərinin fasiləsiz sistemində və xüsusən ixtisasartırma prsesində metodik mərkəzlərin iştirakı ilə bağlı bir mühüm məsələni də qeyd etmək lazımdır ki, son illər müstəqillik qazanmış Azərbaycanın dünya ölkələri ilə əlaqələrinin genişlənməsi əlverişli imkanlar yaratmışdır. Bu baxımdan hazırda kitabxana işçilərinin ixtisasartırma prosesində bir tərəfdən dünya təcrübəsini öyrənmək, digər tərəfdən isə bu prosesə inkişaf etmiş xarici ölkələrin mütəxəssislərini cəlb etmək zərurəti meydana çıxır. Belə ki, son illər Rusiyada kitabxana işçilərinin peşə səviyyəsinin dünya standartlarına uyğunlaşması istiqamətində əldə edilən təcrübə diqqətəlayiqdir. Artıq Rusiyada kitabxana işi sahəsində metodik mərkəz statusuna malik olan kitabxanaların nəzdində kitabxana işçiləri üçün treyninq (təhsil, məşğələ, təcrübi məşğələ) mərkəzləri yaradılır. Məsələn, Rusiya Xarici Ölkələr Ədəbiyyatı Kitabxanasının nəzdində yaradılmış «Rudomino məktəbi» adlı tədris məktəbi Rusiya və MDB ölkələri kitabxana işçiləri üçün seminarlar, treyninqlər, praktikumlar təşkil edir. Belə tədbirlər bir sıra hallarda ABŞ və Avropa ölkələrinin mütəxəssisləri ilə birlikdə hazırlanır.[524]

1998-1999-cu illərdə həmin tədris mərkəzi ABŞ-ın Mortenson mərkəzi ilə birlikdə 2 illik «Kitabxanaların informasiya ehtiyatlarından istifadə üçün internet» proqramı hazırlamış və bu proqram çərçivəsində Rusiyanın 12 regionundan 24 mütəxəssis ABŞ-da «Kitabxana işində elektron texnologiyasının tətbiqi» problemi üzrə tə'lim keçmişdir.[525]

Qeyd edək ki, son illər ərzində MDB ölkələrində onlarca kitabxana işçisi metodik mərkəzlərin tərtib etdiyi proqramlar əsasında ABŞ, Avropa və Rusiya kitabxanalarında tə'limdə olmuşdur.

Ümumiyyətlə, son dövrlərdə dünyada kitabxana işçilərinin ixtisasının artırılması prosesində ölkələrarası inteqrasiya prosesləri getdikcə güclənməkdədir.

Bu inteqrasiya ilk növbədə ABŞ, Avropa ölkələri və Rusiya kitabxana informasiya mütəxəssislərinin köməyi ilə MDB ölkələrində seminarlar, konfranslar və treyninqlərin təşkilində, kitabxana işçilərinin xarici ölkələrə e'zamiyyətlərində, bu ölkələrin, xüsusən ABŞ-ın iri kitabxana informasiya mərkəzlərində stajorluq keçməsində, universitetlərdə əlavə təhsil almasında və s. tədbirlərdə özünü göstərir.

Kitabxana işçilərinin ixtisasının artırılmasında çox böyük əhəmiyyət kəsb edən belə beynəlxalq tədbirlərin son bir ildə Azərbaycanda da təşkil edilməsinin şahidi olmuşuq. 1999-cu ilin oktyabr ayında Azərbaycanda Kitabxana İşinin İnkişafı Assosiasiyasının Açıq Cəmiyyət İnstitutunun (SOROS fondu) qrantı əsasında ABŞ mütəxəssislərinin iştirakı ilə təşkil etdiyi elmi konfransı, yenə 1999-cu ilin noyabr ayında həmin fondun qrantı ilə Xəzər Universiteti kitabxanası tərəfindən təşkil edilmiş Rusiya «Rudomino məktəbi» tədris mərkəzinin 3 günlük treyninqini buna misal göstərmək olar. Bundan başqa, 1998 və 1999-cu illərdə bir qrup Azərbaycan alim və mütəxəssislərinin (X.İsmayılov, R.Kazımov, N.İsmayılov, M.Hacıyeva, Ş.Xuduyeva və b.) Tbilisidə təşkil olunmuş Cənubi Qafqaz regional kitabxanaçılıq konfransında

---

[524] Школа Рудомино. ВТБИЛ стратегия работы 2000.-М., 1999.-7 с.
[525] Yenə orada.

iştirakı və mə'ruzələrlə çıxış etməsi beynəlxalq əlaqələrə nümunə ola bilər.[526]

Bu konfransda müzakirə edilmiş regional kitabxanaçılıq problemləri, o cümlədən, regionda açıq informasiya məkanının formalaşması, kitabxanaçılıq assosiasiyalarının fəaliyyətinin əlaqələndirilməsi, kataloqlaşdırma və biblioqrafiyalaşdırmanın elektron mübadiləsinə dair standartlaşdırılması ilə əlaqədar beynəlxalq ixtisasartırma tədbirlərinin, konfransların, seminarların keçirilməsi və bu tədbirlərdə tanınmış xarici ölkə mütəxəssislərinin iştirakı və məsləhətləri, şübhəsiz ki, Azərbaycanda kitabxana işinin gələcək inkişafının metodik tə'minatında xüsusi əhəmiyyət kəsb edir. Lakin qeyd etmək lazımdır ki, son illər ərzində respublikada kitabxana-informasiya proseslərinin metodik tə'minatında özünü göstərən bu mütərəqqi meyllərin meydana çıxmasında metodik mərkəzlərin iştirakı hələ lazımi səviyyədə deyildir.

Bu baxımdan müasir dövrdə respublikada kitabxana işi üzrə metodik tə'minat sisteminin beynəlxalq əlaqələrinin gücləndirilməsi, metodik mərkəzlər tərəfindən ABŞ, Avropa ölkələri, Rusiya və digər ölkələrin mütəxəssisləri ilə birlikdə dünya informasiya məkanına daxil olmaq məqsədilə müştərək ixtisasartırma tədbirlərinin təşkili ümdə vəzifə kimi meydana çıxır. Bu yaxınlarda Azərbaycandakı ABŞ səfirliyinin nəzdində İnformasiya və Kitabxana İşçilərinin Tə'lim Mərkəzinin yaradılması buna əyani sübutdur. Şübhəsiz ki, belə regional və ölkələrarası tədbirlər respublikada fəaliyyət göstərən kitabxana assosiasiyaları, Açıq Cəmiyyət İnstitutunun Azərbaycan şö'bəsi (SOROS fondu) və digər maraqlı təşkilatların iştirakı və köməyi ilə həyata keçirilməlidir.

Kitabxana işçilərinin fasiləsiz təhsil sistemində metodik mərkəzlərin iştirakı məsələlərinə dair fikirlərimizi yekunlaşdırarkən qeyd etmək lazımdır ki, bu proses müasir dövrdə olduqca geniş, rəngarəng, çoxşaxəli olub, özündə elmi, təcrübi, pedaqoji, psixoloji, sosioloji və s. iş üsullarını, tə'lim-təhsil metodlarını birləşdirən sistemli fəaliyyət kimi meydana çıxır. Odur ki, bu haqda nümunəvi, standart və hamı üçün etalon ola biləcək müddəalar və tövsiyələr irəli sürmək olduqca çətindir. Bu səbəbdən hələlik problemlə bağlı ən vacib, strateji əhəmiyyət kəsb edən məsələlərə toxunmağı lazım bildik.

### *5.5. Metodik fəaliyyətin idarə olunmasının yeniləşdirilməsi*

Cəmiyyətdə kitabxanaçılıq fəaliyyətində kəmiyyət və keyfiyyət dəyişikliklərinin baş verdiyi indiki şəraitdə metodik tə'minat sisteminin yeni vəzifələrə və reallıqlara uyğun şəkildə idarə olunması mühüm bir problem kimi meydana çıxır.

Son illər «idarəolunma» və ya «idarəetmə» anlayışları elmi ədəbiyyatda «menecment» anlayışı ilə tamamlanır və bir sıra hallarda tamamilə «menecment» termini ilə əvəz edilir.

Tanınmış rus mütəxəssisləri N.S.Kartaşov, İ.M.Suslova və A.İ.Paşinin fikrincə[527], əgər idarəetmə özündə əsasən rəhbərlik, inzibati idarəetmə və nəzarət funksiyalarını nəzərdə tutursa, menecment isə idarəetmədə müasir elmi bilikləri, dünya təcrübəsinin demokratik iş üsullarını, əməyin elmi təşkilini nəzərdə tutan, bu sahədə mütərəqqi ideyaların sintezini təşkil edən konsepsiyadır.

Azərbaycan kitabxanaşünaslığında hələ «menecment» anlayışı özünə tam vətəndaşlıq hüququ qazanmadığına görə biz ən'ənəvi idarəetmə anlayışından istifadə edərək, bu anlayışa xas olan mütərəqqi iş üsullarını da daxil edirik. Müasir dövrdə kitabxanaların metodik sisteminin idarə olunması ilk növbədə bu sistemi təşkil edən

---

[526] İsmayılov N. Kitabxana işinin aktual problemləri regional konfransda müzakirə edilir // Kitabxanaşünaslıq və biblioqrafiya.-1999.-№1.-S.115-119.

[527] Карташов Н.С. Магия западных терминов и российские реали// Библиотека.-1994.-№11.-С.14-18; Суслова И.М. Менеджер библиотеки.-М., 1993.-95 с.; Пашин А.И. Управление библиотечным делом Российской Федерации. Современная концепция.-М.,1998.-93 с.

bütün komponentləri düzgün müəyyənləşdirib onların fəaliyyətini vəhdətdə götürməyi tələb edir.

Kitabxanaların metodik tə'minat sisteminə cəmiyyətdə kitabxanaçılıq fəaliyyətini metodik baxımdan idarə edən, tənzimləyən və istiqamətləndirən, bir-biri ilə qarşılıqlı əlaqədə olan, iyerarxiya prinsipi üzrə formalaşmış metodik mərkəzlər kompleksi daxildir.

Kitabxanaların metodik tə'minat sistemi təşkilati baxımdan «açıq sistem» olduğuna görə onun fəaliyyətində metodik mərkəzlərlə yanaşı, kitabxana işi üzrə ictimai təşkilatların, elmi, mədəni, təhsil müəssisələrinin, dövlət təşkilatlarının və digər maraqlı qurumların iştirakı vacibdir. Müasir dövrdə Azərbaycanda kitabxanaların metodik tə'minat sisteminin struktur quruluşunu aşağıdakı qaydada sistemləşdirmək olar;

1.M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanası

Metodik tə'minat sistemində ən yuxarı səviyyə statusuna malik olan bu kitabxana həmin sistemdə aparıcı rol oynayan, metodik mərkəzlərin fəaliyyətini vahid, kompleks plan və proqram əsasında əlaqələndirən, respublikada kitabxana işi üzrə metodik fəaliyyətin ümumi istiqamətlərini müəyyənləşdirən ümummilli və ümumrespublika səviyyəli metodik mərkəzdir.

2.Sahəvi metodik mərkəzlər

Metodik tə'minat sistemində orta səviyyə təşkil edən bu kitabxanalara elm, təhsil, texnika, aqrar kompleks, tibb sahələrinə, eləcə də uşaqlara, gənclərə və Həmkarlar İttifaqı təşkilatlarına xidmət edən sahəvi və ixtisaslaşdırılmış (xüsusi) kitabxanalar üzrə metodik mərkəz funksiyalarını yerinə yetirən respublika əhəmiyyətli kitabxanalar daxildir.

Bu kitabxanaların metodik fəaliyyəti əsasən müvafiq şəbəkə kitabxanalarının metodik tə'minatı ilə məhdudlaşdırılır. Bununla yanaşı, sahəvi metodik mərkəzlərin fəaliyyəti sahələrarası digər kitabxana şəbəkələrinin metodik mərkəzləri ilə əlaqəli şəkildə də həyata keçirilə bilər.

3.Regional metodik mərkəzlər

Metodik tə'minat sistemində aşağı səviyyə hüququna malik bu metodik mərkəzlərə rayon və şəhər MKS-lərinin mərkəzi kitabxanaları və digər mərkəzi kitabxanalar daxildir.

Bu metodik mərkəzlər müvafiq ərazidə fəaliyyət göstərən kitabxana şəbəkəsinə şamil edilir. Lakin onların da həyata keçirdiyi metodik işlər respublika əhəmiyyətli metodik mərkəzlərin fəaliyyəti ilə əlaqələndirilmiş halda aparıla bilər.

4.Respublikada kitabxana işinin metodik tə'minat sisteminə göstərilən metodik mərkəzlərlə yanaşı, son zamanlar meydana çıxmış kitabxana işinə dair ictimai təşkilatların (assosiasiya, cəmiyyət), eləcə də kitabxanaçılıq təhsili müəssisələrinin fəaliyyəti də istisna olunmur.

Müasir dövrdə cəmiyyətdə kitabxana işinin inkişafının müasir səviyyəsini, kitabxana-informasiya tə'minatı sistemində baş verən mürəkkəb prosseləri nəzərə alaraq kitabxanaların metodik tə'minat sisteminin təşkili və idarə olunmasında aşağıdakı prinsiplərin əsas götürülməsi vəzifəsi meydana çıxır:

1. Metodik fəaliyyətin demokratikləşdirilməsi.
2. Metodik fəaliyyətin elmi əsaslarla zənginləşməsi.
3. Metodik fəaliyyətin dinamikliyi.
4. Metodik fəaliyyətin sistemliliyi.
5. Metodik fəaliyyətin əlaqələndirilməsi.
6. Metodik fəaliyyətin cəmiyyətin sosial-iqtisadi və mədəni-mə'nəvi inkişaf xüsusiyyətləri və informasiya tələbatına uyğunlaşdırılması.

Metodik fəaliyyətin demokratikləşdirilməsi prinsipi özündə ümumilikdə əhaliyə kitabxana xidmətinin demokratikləşdirilməsi vəzifələrinə tabe edilmiş mütərəqqi iş üsullarını, bu fəaliyyətin demokratik əsaslarla həyata keçirilməsini nəzərdə tu-

tur. Bu, o deməkdir ki, kitabxanaların metodik tə'minat sistemi məzmun, forma, idarəetmə baxımından, əvvəldə qeyd etdiyimiz kimi, direktiv göstərişlərdən, inzibati rəhbərlik metodlarından uzaq, daha çox məsləhət, tösviyə konsepsiyalarına əsaslanan, bu və ya digər məsələ ilə əlaqədar kitabxana işçilərinə operativ variantlar təqdim edən, onlarda təşəbbüskarlıq meyllərini gücləndirən, kitabxanaçılarda oxucularla işdə, xüsusən ədəbiyyat təbliğində demokratik iş üsullarından istifadə etmək vərdişlərini formalaşdıran fəaliyyətə çevrilməlidir. Bu baxımdan metodik fəaliyyətdə kitabxanaçı bərabərhüquqlu tərəfmüqabil kimi qəbul edilməli, müvafiq məsələ üzrə onun mövqeyi, təcrübəsi, iş şəraiti, peşə və təhsil səviyyəsi, oxucuların rə'yi, ictimai fikir və s. amillər nəzərə alınmalıdır.

Metodik fəaliyyətin təşkili və idarə olunmasının elmiliyi bu fəaliyyətin kitabxanaşünaslıq tədqiqatları ilə əlaqələndirilməsi və onların nəticələrində istifadə edilməsini, digər tərəfdən isə idarə olunma prosesində əməyin təşkili prinsiplərinə əsaslanmasını nəzərdə tutur.

Metodik fəaliyyətin kitabxanaşünaslıq tədqiqatlarının nəticələrinə əsaslanması cəmiyyətdə kitabxana işinin inkişafında meydana çıxmış obyektiv qanunauyğunluqların nəzərə alınması deməkdir. Bununla yanaşı, elmilik prinsipi, fəslin əvvəlində qeyd etdiyimiz kimi, metodik fəaliyyətdə analitik iş üsullarının formalaşmasını, tədqiqatlarda irəli sürülmüş tövsiyələrin təcrübəyə tətbiq edilməsini tə'min edən proqramların hazırlanması və həyata keçirilməsi ilə əlaqədar işlərin təşkili və idarə edilməsi deməkdir. Metodik fəaliyyətdə elmilik prinsipi eyni zamanda bu fəaliyyətin idarə olunmasında və xüsusilə metodist əməyinin normalaşmasında və təşkilində, planlaşdırılmasında, uçotunda, maliyyələşdirilməsində, metodik tədbirlərin hazırlanmasında və keçirilməsində texnoloji baxımdan ən səmərəli iş üsullarından, e'tibarlı nəzəri konsepsiyaya malik və kitabxana təcrübəsində sınaqdan çıxmış metodlardan geniş istifadə edilməsi ilə əlaqədardır.

Metodik fəaliyyətin dinamikliyi dövrün tələblərinə uyğun olaraq daim inkişaf etməsi deməkdir. Başqa sözlə, kitabxanaların metodik tə'minat sistemi təşkil və idarəetmə baxımından həmişə inkişafda olmalı, cəmiyyətdə baş verən mürəkkəb kitabxana informasiya proseslərinə uyğun olaraq yeni kəmiyyət və keyfiyyət göstəriciləri ilə zənginləşərək təşəkkül tapmalıdır. Bu prinsip özünü təsdiq etmişdir və tədqiqatda əks etdirdiyimiz metodik tə'minat sisteminin inkişaf mərhələləri bu fikri sübut edir.

Müasir dövrdə və yaxın gələcəkdə cəmiyyətdə kitabxanaçılıq fəaliyyətinin getdikcə daha çox informasiyalaşdırma proseslərinə uyğunlaşaraq keyfiyyətcə yeniləşməsi, kitabxana xidmətində müasir infomasiya texnologiyasının tətbiqi, şəbəkə texnologiyasının formalaşması və onun dünya informasiya mübadiləsinə daxil olması və s. prosesləri dinamik xarakter aldığından, metodik tə'minat sistemində bütün bu meyllərə adekvat nüfuz edərək dinamik inkişaf edən fəaliyyət sistemində çevrilməlidir.

Metodik fəaliyyətin sistemliliyi prinsipi kitabxanaların metodik tə'minatının mühüm funksiyalarının, forma, metod və üsullarının təşkili və idarə olunmasının əlaqəliliyi və kompleks xarakterli fəaliyyətə çevrilməsi vəzifələrindən irəli gəlir. Bu sistemlilik özünü metodik fəaliyyət prosesində ərazi və sahəvi, ümumi və fərdi, elmi və təcrübi idarəetmə metodlarının mütənasibliyində, metodik tə'minat sisteminin məzmununda isə əhaliyə kitabxana xidmətinin səmərəliliyinə istiqamətləndirilmiş bütün iş üsullarının ahəngdarlığında, bununla yanaşı, mütərəqqi xidmət üsullarının metodik tə'minatına üstünlük verməsində göstərməlidir.

Metodik fəaliyyətin sistemlilik prinsipi eyni zamanda kitabxanaların metodik tə'minatına dair respublika miqyasında kompleks proqramların tərtib edilməsini nəzərdə tutur.

Metodik fəaliyyətin əlaqələndirilməsi prinsipinin mahiyyəti metodik tə'minat sisteminə daxil olan mərkəzlərin fəaliyyətinin şəbəkədaxili və şəbəkələr arası səviyyələrdə əlaqələndirilmiş qaydada həyata keçirilməsindən ibarətdir.

Əlaqələndirmə prinsipi özünü daha çox kitabxana işinə dair sahələrarası mə'lumat bazalarının yaradılmasında, metodik tədbirlərin, o cümlədən, elmi konfrans və seminarların, ixtisasartırma məşğələlərinin təşkilində, metodik vəsaitlərin milli standartlarının hazırlanmasında və tətbiqində göstərə bilər.

Əlaqələndirmə prinsipi özünü eyni zamanda metodik mərkəzlərlə kitabxana assosiasiyalarının birgə fəaliyyətində göstərməlidir. Müxtəlif kitabxana proqramlarının hazırlanması və tətbiqi, kitabxana işinin aktual problemləri ilə əlaqədar treyninq mərkəzlərin yaradılması əhaliyə kitabxana xidmətinin təkmilləşdirilməsinə yönəlmiş disput, «dəyirmi masa», müsabiqə, konfrans və seminarların metodik mərkəzlərlə kitabxana assosiasiyalarının arasında əlaqələndirmə və kooperasiya prinsipləri əsasında təşkil edilməsi, sözsüz ki, metodik fəaliyyətin səmərəliliyinə müsbət tə'sir göstərər. Son vaxtlar respublikada kitabxana işinin metodik tə'minat sistemində ölkələrarası əlaqələndirmə işinin ilk rüşeymlərinin meydana gəlməsinin şahidi oluruq. Buna 1998-1999-cu illərdə Tbilisidə, Krımda, Moskvada keçirilmiş beynəlxalq müşavirələrdə respublika kitabxana ictimaiyyətinin fəal iştirakını, eləcə də Azərbaycanda Kitabxana İşinin İnkişafı Assosiasiyası tərəfindən ABŞ kitabxana mütəxəssislərinin iştirakı ilə təşkil edilmiş beynəlxalq seminarı, Xəzər Universiteti kitabxanasının təşəbbüsü ilə Rusiya Dövlət Xarici Ölkələr Ədəbiyyatı Kitabxanasının «Rudomino məktəbi» tədris mərkəzinin Bakı kitabxana işçiləri üçün təşkil etdiyi 3 günlük seminarı misal göstərmək olar.

Ümumiyyətlə, son illər Müstəqil Dövlətlər Birliyi ölkələrində kitabxana işinin ümumdünya standartları səviyyəsinə qaldırılmasında metodik tə'minat sistemində beynəlxalq əlaqələrin yaradılması, ölkələrarası müştərək metodik tədbirlərin təşkili həlledici rol oynayır. Belə ölkələrarası metodik tədbirlərin təşkili dünya kitabxana informasiya məkanında baş verən inteqrasiya proseslərindən doğan zərurətdir. Bu prinsip Azərbaycanda da kitabxanaların metodik tə'minat sisteminin idarə olunmasında özünə geniş yer tapmışdır.

Azərbaycanda kitabxana işinin metodik tə'minat sisteminin təşkili və idarə olunmasında aparıcı prinsiplərdən biri də ölkənin sosial-iqtisadi və mədəni inkişaf vəzifələrinə tam uyğunlaşdırılmasıdır. Bu prinsipin zəruriliyi respublikada kitabxanaçılıq fəaliyyətinin müasir sosial funksiyalarından irəli gəlir. Belə ki, kitabxana işinin metodik tə'minat sistemi məzmun, təşkilati və idarəetmə baxımından Azərbaycanda kitabxanaçılıq fəaliyyətinin konkret vəzifələrinə, gələcək inkişaf istiqamətlərinə yönəlməli, bu inkişafı metodik baxımdan tə'min etməlidir.

Hazırda bu vəzifələr 1999-cu ildə qəbul edilmiş kitabxana işi haqqında qanundan irəli gələn problemlərin həlli ilə bağlıdır. Bu baxımdan Azərbaycanda XXI əsrin astanasında kitabxana işinin inkişaf konsepsiyası, kitabxana işinə dair milli standartların yaradılması, kitabxana işinin kompüterləşdirilməsi, kitabxanaların dünya telekommunikasiya sistemlərinə daxil olması, kitabxana xidmətində marketinq prinsiplərinin tətbiqi, kitabxanaların qeydiyyatdan keçməsi (pasportlaşdırılması), onların yeni ədəbiyyatla operativ təchizatı mexanizminin yaradılması və s. kimi aktual problemlər metodik tə'minat sisteminin planlarında və perspektiv proqramlarında aparıcı istiqamətlər olmalıdır. Qeyd etmək lazımdır ki, son dövrlərdə dünya təcrübəsində, o cümlədən, Rusiyada kitabxanaların metodik tə'minat sisteminin təşkili və idarə olunmasında marketinq prinsipi getdikcə güclənir. Rus kitabxanaşünası professor İ.İ.Suslovanın qeyd etdiyi kimi, kitabxanaların pullu xidmətlər sistemi çərçivəsində həyata keçirilən metodik fəaliyyətinin marketinq prinsipinə əsaslanması bazar iqtisadiyyatı münasibətlərinə uyğun şəkildə islahatların aparılmasına nəzərəçarpan dərəcədə tə'sir göstərir.[528]

Bir sıra Avropa ölkələrində, ABŞ-da, Rusiyada metodik fəaliyyət özünüma-

---

[528] Суслова И.М. Маркетинговая концепция методической работы // Методическая работа библиотек:перспективные концепции.-М.,1995.-С.24-29.

liyyələşdirmə prinsipi əsasında həyata keçirilir. Yə'ni metodik mərkəzlər müxtəlif kitabxana şəbəkələrinin, ayrı-ayrı iri kitabxanaların sifarişi ilə ödənişli qaydada oxucuların informasiya tələbatlarının öyrənilməsi və tə'min edilməsinə yönəlmiş tədqiqatlar aparır, sorğular keçirir, kitabxanalar üçün müxtəlif iş prosesləri ilə əlaqədar proqramlar hazırlayır, onların tətbiqini tə'min edirlər.

Zənnimizcə, bu prinsipin hazırda və yaxın gələcəkdə Azərbaycan şəraitində tətbiq edilməsi o qədər real deyildir. Ölkədə kitabxana işinin maddi-texniki bazasının həddindən artıq zəif olduğu bir şəraitdə bu prinsip metodik tə'minat sisteminin təşkili və idarə olunmasında perspektivli prinsip kimi bir daha nəzərdən keçirilməlidir. Sözsüz ki, ölkədə kitabxana işinin metodik tə'minat sisteminin təşkili və idarə olunmasında göstərilən mühüm prinsiplərin tətbiqi həlledici dərəcədə sistemin kadr tə'minatından asılıdır. Burada söhbət yeni, müasir ruhlu metodistlər nəslinin hazırlanmasından gedir.

Azərbaycanda kitabxana işinin metodik tə'minatının müasir vəzifələri, inkişaf perspektivləri yeni tipli peşəkar metodistlər ordusunun formalaşmasını tələb edir. Müasir dövrün metodisti geniş elmi dünyagörüşünə, dərin peşə biliklərinə, siyasi mədəniyyətə, pedaqoji və psixoloji vərdişlərə, yüksək təşkilatçılıq qabiliyyətinə malik intellektual şəxsiyyət olmalıdır.

Bu günün metodisti dünya kitabxana-informasiya məkanında baş verən mürəkkəb prosesləri dərindən bilən, müasir texniki vasitələrdən, elektron texnologiyasından səmərəli istifadə etməyi bacaran, xarici dillərdə mütaliə mədəniyyətinə malik novator mütəxəssis olmalıdır. Onun öz peşəsinə dərin marağı, məs'uliyyət hissi, demokratik əhval-ruhiyyəsi, elmi-analitik təfəkkürü və hər bir yeniliyə güclü meyli olmalıdır.

Müasir metodistə verilən peşə tələblərini aşağıdakı qaydada təsnifləşdirmək olar:

O, ali təhsilli olmalı və aşağıdakıları bilməlidir:

-müasir dövrdə kitabxana işinin qarşısında duran vəzifələri;
-kitabxana işinə dair qanunvericiliyi və digər normativ sənədləri;
-kitabxana işinin tarixini və nəzəriyyəsini;
-kitabxana proseslərinin müasir texnologiyasını;
-metodik fəaliyyətin pedaqoji və psixoloji əsaslarını;
-ölkədə və xaricdə kitabxana-informasiya işinin nailiyyətlərini, dünya kitabxanaçılıq nəzəriyyəsi və təcrübəsində baş verən prosesləri;
-iqtisadi fəaliyyətin əsaslarını: marketinq fəaliyyətini, kitabxana menecmentini.

***Bacarmalıdır:***

-metodik fəaliyyətin təşkili və idarə edilməsi qaydalarını;
-əməyin elmi təşkilini;
-sistemli təhlil metodlarını;
-kadrların seçilməsi və yerləşdirilməsi metodlarını;
-kitabxana işində meydana çıxan mübahisəli prob-lemlərin həlli qaydalarını;

***Təsəvvürü olmalıdır:***

-kollektiv fəaliyyətin nəticələrinin qiymətləndirilməsi metodları haqqında;
-iqtisadi birliklərlə əlaqələrin yaradılması və birgə fəaliyyətin təşkili haqqında;
-idarəetmə və insani münasibətlər etikası haqqında.

***Şəxsi keyfiyyətləri:***

-təşkilatçılıq qabiliyyəti;
-yeniliyə maraq, onu qavramaq və tətbiq etmək qabiliyyəti;
-yüksək məs'uliyyət hissi;
-elmi mübahisə mədəniyyəti;
-dinləyiciləri ələ almaq, auditoriya ilə ünsiyyət yaratmaq;
-estetik biliklərə və yüksək zövqə malik olmaq.

Nəticə e'tibarı ilə bu qənaətə gəlmək olar ki, Azərbaycanda kitabxana işinin

metodik tə’minat sisteminin optimallaşdırılması ilə əlaqədar irəli sürdüyümüz fikirlər konseptual xarakter daşıdığına görə hər bir istiqamətin və problemin müstəqil obyekti kimi işlənməsi Azərbaycan kitabxanaşünaslığının gələcək vəzifələrinə aid edilə bilər.

**ИСТОРИЯ РАЗВИТИЯ МЕТОДИЧЕСКОГО ОБЕСПЕЧЕНИЯ БИБЛИОТЕЧНОЙ РАБОТЫ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ (1918-2000 гг.)**

## *РЕЗЮМЕ*


В монографии собран и проанализирован обширный материал об историческом пути становления и развития системы методического обеспечения деятельности библиотек Азербайджана с периода образования первого демократического государства по настоящее время.

Исследование состоит из введения, пяти глав, заключения, списка использованной литературы и источников. Во введении обосновывается актуальность проблемы, характеризуется степень ее изученности, цели, задачи, научная новизна и практическое значение исследования.

Первая глава, озаглавленная «Возникновение и развитие системы методического обеспечения библиотек Азербайджана», охватывает период с 1918-го по 1945 годы и содеръит характеристику деятельности первых методических центров, возникших в республике в 20-30-годы, важнейших направлений методической работы крупных библиотечных систем.

Во второй главе монографии «Формирование системы методического обеспечения библиотек Азербайджана (1946-1975)», дается анализ эффективных форм и методов методического обеспечения библиотек и прежде всего районных и сельских библиотек, рассматривается деятельность новых методических центров, которые обеспечили в республике единой, комплексной системы методической работы.

Третья глава исследования, названная «Методическое обеспечение централизованных библиотечных систем», посвящена обобщению методической работы Государственной библиотеки им.М.Ф.Ахундова, итоги которой обеспечили централизацию массовых библиотек республики в 1975-1980 гг. Здесь же рассмотрены вопросы становления новых методических центров в лице центральных библиотек городских и районных ЦБС, их деятельность по улучшению библиотечного обслуживания городского и сельского населения страны в 1980-2000 гг.

В четвертой главе «Методическое обеспечение отраслевых библиотечных систем», анализируется процесс методического обеспечения отраслевых библиотечных систем, обобщается деятельность методических центров сети научно-технических академических, медицинских, сельскохозяйственных, детских, профсоюзных библиотек, а также библиотек учебных заведений,освещается опыт взаимодействия методических центров различных систем и ведомств .

В пятой главе монографии «Оптимизация системы методического обеспечения деятельности библиотек Азербайджана», излагается концепция оптимизации всей системы методического обеспечения библиотек Азербайджана, вскрываются причины, тормозящие развитие методической работы, обосновывается совокупность принципов и важнейших направлений, реализация которых обеспечить соответствие деятельности методических центров современным требованиям. В числе этих направлений, выдвигаемых автором: создание целевых програм; аналитико-синтетическая деятельность методических центров; развитие информационных функций методической работы; активизация дея-

тельности методических органов в системе непрерывного образования библиотечных работников; совершенствования организационной структуры системы.

# HISTORICAL DEVELOPMENT OF METHODICAL PROVISIONS OF THE LIBRARY WORK IN AZERBAIJAN REPUBLIC
## (1918-2000 years)

*SUMMARY*

In this monograph have been collected and analyzed a great deal of material on historical ways of establishing and developing systems of the methodical provision of the activity of libraries in Azerbaijan Republic from the time of establishing the 1st Democratic state up to now.

The monograph is consisting of an introduction, five chapters, a conclusion, the list of used literature and the sources. In the introduction the actuality is being based and characterized the degree of its study, aim and task, scientific novelty and the practical value of the research.

The 1st chapter going under the name of " The emergence and the development of the system of methodical provision of libraries in Azerbaijan Republic" covers the period of 1918 till 1945s and contains the characteristics of the activity of the 1st methodical centers, appeared in our Republic in 20-30s, major directions of the methodical works of the great librarian systems.

The second chapter of the monograph is called «The formation of the systems of the methodical provisions of libraries in Azerbaijan (1946-1975)", and one can face there the analyses of the effective forms and the methodical provisions of libraries and first of all the district and village libraries, being analyzed the activity of all the new methodical centers, which provide the only, complex systems of the methodical work in the Republic.

The 3rd chapter of the monograph going under the name of "The methodical provision of the centralized librarian systems" has been dedicated to the generalization of the methodical works of state library named after M.F.Akhundov, the results of which could supply centralization of mass libraries of the Republic in 1975-1980 s. Here we consider the questions of formation of new methodical centers in the example of central city and the village libraries of UBC, their activity on the improvement of the library service of city and the rural population of the country in 1980-1990 s.

The fourth chapter, which is called "Methodical provisions of the branch library systems" where the process of methodical provision of the branch librarian systems are being analyzed and the activity of the methodical centers of the technical- academical sets, medical, agricultural, children's, trade union libraries and as well as the libraries of the teaching institutions, were generalized and dealt with the experience of the interaction of methodical centers of the various systems and the departments.

The fifth chapter is called "The optimization of systems of the methodical provisions of activity of the Republican libraries" where we deal with conception of the optimization of all systems of the methodical provisions of libraries of Azerbaijan, reveals out the causes, impeding the development of the methodical works, based the whole complex of principles and the important directions, realization of which will supply corresponding activity of the methodical centers of the contemporary requirements, in numbers of these directions used by the author are creating of purposeful programs; analytico-synthetical activity of the methodical centers; development of informational functions of methodical works; activization of the activity of the me-

thodical bodies in the system of the continuous education of librarian workers; improving the system of the organizational structures.

## *MÜNDƏRİCAT*

*Giriş* ....................................................... 3

### I FƏSİL
***Kitabxanaların metodik tə'minat sisteminin təşəkkülü (1918-1945-ci illər)***

**1.1** Demokratik respublika dövründə kitabxanaların metodik tə'minat sisteminin komponentlərinin meydana gəlməsi (1918-1920-ci illər) 11

**1.2** Kitabxanaçılıq işi üzrə metodik mərkəzlərin yaranması və inkişafı (1920-1940-cı illər) ........................................ 25

**1.3** İkinci Dünya müharibəsi illərində kitabxanaların metodik tə'minatının vəziyyəti (1941-1945-ci illər) ........................ 59

### II FƏSİL
***Kitabxanaların metodik tə'minat sisteminin formalaşması və inkişafı (1946-1975-ci illər)***

**2.1.** Kitabxanaların metodik tə'minat sisteminin formalaşmasının əsas istiqamətləri (1946-1959-cu illər) ................................ 64

**2.2** Kütləvi kitabxanaların metodik tə'minatının inkişafı (1959-1975-ci illər) ........................................ 95

**2.3.** Sahəvi kitabxana şəbəkələrinin metodik tə'minatı (1959-1975-ci illər) ........................................ 112

### III FƏSİL
***Mərkəzləşdirilmiş kitabxana sistemlərinin metodik tə'minatı (1975-1990-cı illər)***

**3.1.** Dövlət kütləvi kitabxanalarının mərkəzləşdirilməsinin metodik tə'minatı ........................................ 213

**3.2.** Dövlət mərkəzləşdirilmiş kitabxana sistemlərinin təşkilati-metodik fəaliyyəti ........................................ 258

### IV FƏSİL
***Sahəvi kitabxana şəbəkələrinin metodik tə'minat sistemi (1975-2000-ci ilər)***

**4.1.** Elmlər Akademiyası kitabxana şəbəkəsinin metodik tə'minatı 288

**4.2.** Təhsil müəssisələri və uşaq kitabxanalarının metodik tə'minat sistemi ........................................ 297

**4.3.** Elmi-texniki, kənd təsərrüfatı və tibb kitabxanalarının metodik tə'minat sistemi ........................................ 316

**4.4.** Həmkarlar İttifaqı kitabxanalarının metodik tə'minatı ........................................ 342

### V FƏSİL
***Kitabxana işinin metodik tə'minat sisteminin yeniləşməsi və təkmilləşdirilməsi istiqamətləri***

**5.1.** Kitabxana işinin metodik tə'minat sistemində məqsədli proqramlaş-

dırma istiqamətinin formalaşması. . . . . . . . . . . . . . . . . . . .............. 350
**5.2.** Kitabxanaların metodik tə’minatının elmi-nəzəri əsaslarının güclən-dirilməsi ........................................................................ 362
**5.3.** Metodik tə’minatın informasiya funksiyalarının inkişaf etdirilməsi 373
**5.4.** Metodik mərkəzlərin kitabxanaçılarının fasiləsiz təhsil sistemində iştirakı. . . . . ................................................................... 380
**5.5.** Metodik fəaliyyətin idarə olunmasının yeniləşdirilməsi .............. 398
**РЕЗЮМЕ** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .............. 409
**SUMMARY**. . . . . . . . . . . . . . . . . . . . . . . ........................... 411

*XƏLİL İSMAYILOV*

**AZƏRBAYGAN RESPUBLİKASINDA**
**KİTABXANA İŞİNİN**
**METODİK TƏ'MİNAT SİSTEMİNİN**
**İNKİŞAF TARİXİ**
(1918-2000-ci illər)

MONOQRAFİYA
Azərbaygan dilində

*ХАЛИЛ ИСМАИЛОВ*

ИСТОРИЯ РАЗВИТИЯ МЕТОДИЧЕСКОГО ОБЕСПЕЧЕНИЯ БИБЛИОТЕЧНОЙ РАБОТЫ В
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ**
**(1918-2000 гг.)**

МОНОГРАФИЯ
*На азербайджанском языке*

*KHALIL ISMAILOV*

**HISTORICAL DEVELOPMENT OF METHODICAL PROVISIONS OF THE LIBRARY WORK IN AZERBAIJAN REPUBLIC**
**(1918-2000 years)**

*MONOGRAPHY*
*In azerbaijan*


*Nəşriyyatın direktoru*: **Balakişi Ağayev**

*Baş redaktoru*: **Məmməd Əlizadə**

*Redaksiya müdiri*: **Ulduzə Ganıyeva**

*Nəşriyyat redaktoru*: **Şəhla Tahirqızı**

*Bədii redaktoru*: **Qafar Atayev**

*Kompüter yığıcısı*: **Aynur Əhmədova**

*Korrektorları:* **Solmaz Sadıqova**
**Xuraman Verdiyeva**

Yığılmağa verilmişdir 07.01.2000.
Çapa imzalanmışdır 28.04.2000.
Formatı 60x84 1/16. Fiziki çap vərəqi 28,5.
Tirajı 1000. Qiyməti müqavilə ilə.

*Bakı Universiteti Nəşriyyatı.*
*Ünvan: 370148. Bakı, Z.Xəlilov küçəsi, 23.*